**BİSMİLLAHİR-RƏHMANİR-RƏHİM**

**تقديم:**

**به ارواح طيّبه چهارده معصوم، بويژه اولين مظلوم عالم بشريت حضرت امير المؤمنين على (عليه السلام)**

**تقدیر و تشکر:**

**حمد و سپاس خدای را که به اینجانب منت نهاد و در راه تحصیل علوم محمد (ص) و آل محمد (ع) مرا هدایت و راهنمایی کرد و در این مسیر توفیق را همراه من کرد که توانستم کسب فیض کنم، سپس بعنوان «مَن لم یشکر المخلوق لم یشکر الخالق»، بر خود لازم می دانم که کسانی که در تدوین این پایان نامه به بنده کمک کرده اند، تشکر نمایم و در این راستا قبل از همه از مسؤلین جامعة المصطفی(ص) العالمیة و مدرسه فقه و معارف اسلامی که برای بالا بردن سطح علمی طلاب سعی دارند، کمال تقدیر و تشکر را دارم. و بعد، از استاد محترم راهنما حجة الاسلام والمسلمین آقای جابر اکبرزاده سپاسگزارم که در تمام مراحل پایان نامه با مهربانی و دلسوزی راهنمایی اینجانب را به عهده داشتند و همچنین از استاد محترم مشاور حجة الاسلام والمسلمین حاج آقای افتخارمحمدی تشکر و قدردانی می نمایم.**

**در پایان از درگاه خداوند متعال رستگاری و نیکبختی همه را خواستارم!**

چکیده:

این پایان نامه ترجمه و تحقیق کتاب "پس از غروب" یوسف غلامی است. محتوای این کتاب تحلیل رخدادهای پس از رحلت پیامر(ص) تا پایان عصر سومین زمامدار است. این کتاب شامل نه فصل است.

فصل اول تحت عنوان "رویدادهای پیش از رحلت پیامر" است. این فصل: دارای چند عنوان است. 1- در آستانه رحلت پیامر (ص) 2- انکار رحلت رسول خدا (ص) 3- راز انکار رحلت.

فصل دوم: به "رویداد سقیفه" می پردازد. نظیر گفتگوهای سقیفه، سخنرانی ابو بکر، واکنش انصار وبه پیامدهای سقیفه می پردازد.

فصل سوم: تحت عنوان "پیامر اکرم و جانشینی" است. این فصل در باره جانشین پیامر و سفارش به پیروی از علی ابن ابو طالب بحث می شود.

فصل چهارم: تحت عنوان "بیعت ناگهانی و نا اندیشیده" یعنی در باره بیعت با ابو بکر بحث می کند.

فصل پنجم: تحت عنوان "یادزدایی از غدیر" نظیر کتمان فضائل علی ابن ابی طالب است.

فصل ششم: در باره "حکمت شکیبایی علی ابن ابی طالب" می باشد.

فصل هفتم تحت عنوان "رویدادها در حکمرانی ابو بکر بن ابی قحافه " است. دراین فصل در باره شناخت شخصیت ابو بکر خانواده  و فرزندانش می پردازد و همچنین رویدادهای در آستانه خلافت و بعد از خلافت نظیر فدک پرداخته است.

فصل هشتم: تحت عنوان "عصر دومین زمامدار(عمر بن خطاب)" است. در این فصل به اخلاق شیوه زندگی خلیفه و خانواده آن و گونه های از سیاست خلیفه پرداخته است.

فصل نهم: تحت عنوان سومین زمامدار "عثمان بن عفان" است. در این فصل هم در باره شخصیت و خانواده عثمان بحث می شود و همچنین فتوحات در دوره زمامداری عثمان بن عفان، نگارش جدید قرآن، علل و عوامل شورش بر ضد عثمان و هوادثی که تا هنگام کشته شدن آن  اتفاق افتاره است می پردازد.

والسلام

# MÜNDƏRİCAT


Ön söz ..... 1
BİRİNCİ FƏSİL ..... 3
*PEYĞƏMBƏRİN (S) VƏFATINDAN ƏVVƏL BAŞ VERMİŞ HADİSƏLƏR ..... 3*
*GİZLİ SİYASƏTLƏRİN BAŞ VERMƏSİ ..... 3*
*QƏDİRDƏN* MƏDİNƏYƏ QƏDƏR ..... 7*
*ÇARƏ AXTARIŞINDA ..... 10*
*USAMƏT IBN ZEYDIN QOŞUNUNUN EZAM OLMASI ..... 10*
*ORDUNUN XÜSUSIYYƏTLƏRI ..... 10*
*ORDUNUN GÖNDƏRİLMƏSİNİN HIKMƏTI ..... 12*
*YAZILANLARDAN YÜZ QAT ARTIQ YAZILMAYANLAR ..... 17*
*VƏSIYYƏTIN MƏZMUNU VƏ YAZILMASININ QARŞISININ ALINMA SƏBƏBLƏRI ..... 21*
*PEYĞƏMBƏR (S) VƏSIYYƏTI YAZMADI ..... 23*
*TARIXIN QARŞISINDA ..... 25*
*PEYĞƏMBƏRIN (S) REHLƏTI ƏRƏFƏSINDƏ ..... 27*
*ALLAHIN RƏSULUNUN (S) VƏFATININ INKARI ..... 29*
*VƏFATI INKAR ETMƏNIN SIRRI ..... 31*
İKİNCİ FƏSİL ..... 34
*SƏQİFƏ HADİSƏSİ ..... 34*
BÖHRANIN BAŞLANMASI ..... 34
*SƏQIFƏ DANIŞIQLARI ..... 36*
*ƏBU BƏKRIN ÇIXIŞINDAN QABAQ BAŞ VERMIŞ BƏHSLƏR ..... 37*
*ƏBU BƏKRIN ÇIXIŞI ..... 38*
*ƏBU BƏKRIN ÇIXIŞNDA OLAN MƏQAMLAR ..... 39*
*ƏNSARIN ƏKSÜL-ƏMƏLI ..... 42*
*ƏNSARA VURULAN SON ZƏRBƏ ..... 42*
*HÖKUMƏT SÜTUNLARININ MÖHKƏMLƏNMƏSI ..... 45*
*MÜXALIFLƏRIN AXTARIŞINDA ..... 49*
*MÜHACIRLƏRIN QALIB GƏLMƏSININ SƏBƏBLƏRI ..... 51*
*ALLAHIN RƏSULUNUN EVINDƏ ..... 53*
*O HADISƏNIN ARDINCA ..... 54*
*SƏQIFƏNIN TÖRƏTDİYİ FƏSADLAR ..... 56*
ÜÇÜNCÜ FƏSİL ..... 58
*ALLAHIN RƏSULU (S) VƏ CANİŞİNLİK ..... 58*
ÜMMƏTİN ARSINDA ƏN BÖYÜK İXTİLAF ..... 58
*ÜMUMI SEÇIM, YAXUD ƏKSƏRIYYƏTIN RƏYI ..... 62*
*RƏHBƏRIN XALQIN NÜMAYƏNDƏLƏRI TƏRƏFINDƏN SEÇILMƏSI ..... 63*
*MÜƏYYƏN BIR KƏSƏ ITAƏT ETMƏYƏ DAİR TÖVSİYƏ ..... 64*
*ALLAHIN RƏSULUNUN CANIŞINI ..... 64*
*ƏLI IBN ƏBI TALIBƏ ITAƏT OLUNMASININ TAPŞIRILMASI ..... 68*
*CANIŞINLİYƏ AID OLAN RƏVAYƏTLƏR ƏTRAFINDA ..... 70*

DÖRDÜNCÜ FƏSİL ..... 73
*ƏVVƏLCƏDƏN TÖKÜLƏN TƏDBİR* ..... *73*
QƏFİL VƏ DÜŞÜNÜLMƏMİŞ BEYƏT ..... 73
*BU SUALLARIN IZAHI* ..... *78*
BEŞİNCİ FƏSİL ..... 81
*QƏDİR HADİSƏSİNİ YADDAŞLARDAN SİLMƏK* ..... *81*
FİKİRLƏRİN FAŞ OLMASI ..... 81
*YADDAŞLARDAN SILMƏK SIYASƏTININ ƏSASLARI* ..... *83*
*ƏLI IBN ƏBI TALIBIN (Ə) FƏZILƏTLƏRINI GIZLƏTMƏK* ..... *84*
*ÜMUMI DÜŞÜNCƏLƏRI AZDIRMAQ* ..... *85*
*HAZIRLIQ İŞLƏRİ* ..... *86*
*PEYĞƏMBƏR (S)-İN ƏMRİNİN LƏĞV OLUNMASI İDDİASI* ..... *87*
*IMAMIN QƏRARININ INTIZARINDA* ..... *90*
*ƏLI IBN ƏBI TALIBƏ (Ə) QARŞI PAXILLIQ VƏ KIN-KÜDURƏT* ..... *90*
*ƏNSARIN MƏQSƏDI* ..... *94*
*PEYĞƏMBƏR (S)-IN ƏNSAR QRUPUNA XƏBƏRDARLIĞI* ..... *98*
*BIRINCI HÖKMDARIN HAKIMIYYƏTININ TƏSBIT EDILMƏSI* ..... *98*
*ƏQIDƏVI-MƏDƏNI AMILLƏR* ..... *99*
*SOSIOLOJI AMIL* ..... *102*
*SIYASI-HƏRBI AMIL* ..... *102*
ALTINCI FƏSİL ..... 103
*İMAM ƏLİ İBN ƏBU TALİB (Ə)-IN SƏBRİNİN HİKMƏTİ* ..... *103*
İMAM ƏLİ (Ə)-IN BEY`ƏTİ ..... 103
*SÜLH YOX, SƏBİR VƏ DÖZÜM!* ..... *105*
1. İXTİLAF VƏ TƏFRİQƏDƏN QORXMAQ ..... 105
*2. HƏSƏD, ƏDAVƏT VƏ KİN-KÜDURƏTDƏN AMANDA QALMAQ* ..... *108*
*3. CAHİLİYYƏT DÜŞÜNCƏLƏRİ* ..... *108*
*4. DÖZÜLMƏZ XÜSUSİYYƏTLƏR* ..... *109*
*5. SƏHABƏLƏRİN AZLIĞI* ..... *111*
YEDDİNCİ FƏSİL ..... 116
*ƏBU BƏKR IBN ƏBI QÜHAFƏNIN HÖKMDARLIĞI DÖVRÜNDƏ BAŞ VERƏN HADISƏLƏR.* ..... *116*
*(11-13-cü hicri qəməri illəri)* ..... *116*
*ƏBU QÜHAFƏNIN OĞLUNUN ŞƏXSIYYƏTI* ..... *116*
*ƏBU BƏKRIN AILƏSI VƏ ÖVLADLARI* ..... *117*
*XILAFƏT ƏRƏFƏSİNDƏ* ..... *118*
*XANIM FATIMEYI-ZƏHRA (Ə.S)-IN EVINƏ HÜCUM* ..... *121*
*HADISƏLƏRIN ŞƏRHI* ..... *122*
*ƏBU TALIBIN OĞLUNDAN BEY`ƏT ALMAQ* ..... *124*
*FATIMƏNIN (Ə.S) EVINƏ HÜCÜM ETMƏYIN SƏBƏBI* ..... *125*
*MÜXALIFLƏRI VƏ YÜRÜŞ EDƏNLƏRI MƏHKUM ETMƏK* ..... *131*
*MÜXALIFƏTIN SƏBƏBLƏRI* ..... *132*
*UĞURSUZ MÜSƏLMANLARIN AQIBƏTI* ..... *134*
*HƏZRƏ-MOVTDA YAŞAYAN MÜXALIFLƏRLƏ DÖYÜŞ* ..... *137*

*YƏMƏN MÜXALIFLƏRI*......138
*FƏDƏK*......138
*FƏDƏKIN SIYASI-COĞRAFI MÖVQEYI*......138
*BU MƏSƏLƏ ILƏ BAĞLI MÜBAHISƏLƏR*......139
*FƏDƏKI SAHIBINDƏN ALMAQDA HƏDƏF*......142
*XALQIN SÜKUTU*......143
*ƏLI IBN ƏBI TALIB (Ə) VƏ FƏDƏK*......144
*FƏDƏKIN AXIR-AQIBƏTI*......145
*PEYĞƏMBƏRIN ƏHLI-BEYTINƏ XUMSUN VERILMƏSININ QADAĞAN EDILMƏSI*......145
*HƏDIS NƏQL ETMƏK VƏ YAZMAĞIN QADAĞAN EDILMƏSI*......146
*VƏSIYYƏT VƏ ŞÜBHƏLI ÖLÜM*......146
*XƏLIFƏNIN BAŞI ÜSTƏ*......152
*TƏƏSSÜFLƏR OLSUN KI...!*......154
*ŞÜBHƏLI XƏSTƏLIK*......155
*AMMA BIR SUAL*......156
SƏKKİZİNCİ FƏSİL......157
*İkinci xəlifə Ömər İbn Xəttabın həyat və şəxsi xüsusiyyətləri.*......157
*Ömər ibn Xəttabın ailəsi*......158
*İLK ADDIMLAR*......159
Xəlifənin siyasətinin növləri.......160
Peyğəmbərdən olan hədislərin yazılmasına və deyilməsinə qadağa.......162
HƏDİS RAVİLƏRİNİN TOPLANMASI......163
*TÖVRAT VƏ İNCİLİN TƏHRİF OLUNMUŞ HEKAYƏLƏRİNİN YAYILMASI*......163
*HƏDİS DÜZƏLTMƏK DÖVRÜ*......164
*MƏQSƏD VƏ SƏBƏBLƏR*......165
*İFŞAEDİCİ HƏDİSLƏR*......166
*MƏNZİLƏT HƏDİSLƏRİ*......167
*Qur`anin Peyğəmbəri-əkrəm (s)-in şərh və təfsirindən ayrilmasi*......168
*PEYĞƏMBƏRİ-ƏKRƏM (S)-İN YENİ QOHUMLARI*......170
*1. Abbas və onun xanədanının Peyğəmbəri-Əkrəm (s)-in ən yaxın qohumu kimi tanınması:*......171
*2. Başqalarının şəxsiyyətini daha da qabartmaq:*......171
*VALİLƏR VƏ SƏRKƏRDƏLƏR*......171
*Müğeyrət ibn Şö`bə*......173
*İşçiləri sorğu-suala tutmaq və onlara təskinlik vermək*......173
*ƏRAZİ GENİŞLİYİNİN BAŞLANĞICI*......174
*Şamın fəth olunması*......174
*İraqın fəth olunması*......175
*İranın fəth olunması*......175
*Beytül-Müqəddəsin fəth olunması*......176
*FƏTHLƏRİN HAŞİYƏSİNDƏ*......177
*Xilafətin aqibəti*......180

*Canişini təyin etmə planı* ........ 180
*Xilafət şurası məsələsinin müxtəlif cəhətləri.* ........ 182
*Bir- biri ilə zidd olan məsələlər.* ........ 186
*Şura üzvlərinin danışıqları.* ........ 189
*Ədalətsiz qərar.* ........ 191
*Hədəfə yetişməyən hakim.* ........ 192
*Vəsiyyətin aqibəti.* ........ 192
DOQQUZUNCU FƏSİL ........ 195
*ÜÇÜNCÜ XƏLIFƏ OSMAN IBN ƏFFAN* ........ 195
*BIR SIRA HADISƏLƏR* ........ 196
*OSMANIN XILAFƏTI ZAMANINDA OLAN FƏTHLƏR* ........ 197
*QUR`ANIN YENIDƏN YAZILIŞI* ........ 197
*ARAŞDIRMA VƏ HÖKM VERMƏ* ........ 198
*AYƏLƏRIN TƏFSIRINI MƏHV ETMƏK* ........ 199
*YƏQINDƏN ÜSTÜN GÜMAN* ........ 200
*OSMANA QARŞI ÜSYANIN AMILLƏRI* ........ 201
*1. XƏLIFƏNIN FƏRDI ICTIMAI ÜSLUBU* ........ 202
Əbdür-Rəhman ibn Ovfun əmlakı ........ 203
*2. QANUNSUZLUQLARIN GENIŞLƏNMƏSI* ........ 204
*3. BİD`ƏTLƏR* ........ 205
*4. SEÇILMIŞ SƏHABƏLƏRLƏ PIS RƏFTARI* ........ 205
*OSMANIN TƏRƏFINDƏN TƏYIN OLUNMUŞ MƏNSƏB SAHIBLƏRI* ........ 207
Vəlid ibn Üqbə ........ 207
Abdullah ibn Səd ibn Əbi Sərəh ........ 208
Həkəm ibn Əbil-As ........ 210
*QIYAMIN BAŞLANMASI* ........ 210
*OSMAN IBN ƏFFANIN ÖLDÜRÜLMƏSI* ........ 213
1. İmam (ə)-ın siyasi baxışı. ........ 213
*HÜCUMÇULARIN QƏZƏBI* ........ 215
*QUSL VƏ DƏFN* ........ 215
2. İmam (ə)-ın rəftarına təsir edən amillər: ........ 216
3. İmam (ə)-ın öz rəftarına haqqında fikri: ........ 218
4. Digərlərin bu haqda olan fikirləri: ........ 220
*TƏLHƏ VƏ ZÜBEYRIN ROLU* ........ 221
*AYİŞƏ VƏ MÜAVİYƏNIİN ROLU* ........ 222

## ÖN SÖZ

Həzrət İsa Məsihin dövründən xeyli müddət kecdi. Dünya xalqlarını dinsizlik və istirab bürümüşdü. Paklığa və saflığa  inanc ədalət və düzgünlük prinsipleri İsa Məsih tərəfindən insanlara aşılansada yaxşılığı pisdən, haqlını haqsızlıqdan və insanlar arasında nizam intizam yaradan uca yaradan ilahi hakimiyyət İsadan sonra tənəzzülə uğradı. Bu müddətdə dinin şamı söndü, hər yerdə dinsizlik və eyş-işrət əhval ruhiyyəsi rəvac tapdı. İnsanlar oğurluqla pul qazanır, cirkinliklə qidalanır və şeytanın rəhbərliyi altında müxtəlif cirkli əməllərə bulaşırdılar. Bütün bunlar belə bir halda baş verirdi ki, insan bezmiş və ümidsizliklə, onun ucmuş evini yenidən bərpa edən şəxsi gözləyirdi. Bu vaxtlar ərəblər pərişan həyat tərzi yaşayırdılar. Tam yəqinliklə deyə bilərəm ki, onlardan bəzisi elə bir şəxsin arzusunda idilər ki, bir gün zühur edərək, onların yorğun və pərişan qəlblərinə hakim olaraq yoxsul həyatlarını abadlaşdırsın və onların daxili dünyasını əqidəsizlik, pərişanlıq və cirkinlikdən təmizləsin.

Həzrət Mühəmməd Əminin(s) şanlı zühuru bütün bu intizarlara son qoydu. O pakizə, eyibsiz və yaranmışların ən secimlisi idi. İslam Peyğəmbəri (s) insanların fəxri bütün dünya əhalisinə xeyr-bərəkət gətirən əzəmətli Peyğəmbərin nəslindən və pakizə ailəyə sahib olan bir şəxsiyyət idi. İnsan  öz həyat tarixində onu təvəllüdündən və Peyğəmbərliyə catmasından daha əsrarəngiz hadisə ilə üzləşməmişdir. O Həzrət öz qövmü ilə yaşadığı müddətdə qaranlıq sevən zülümkarlar bacardıqları qədər ona əziyyət verirdilər. Bütün bu haqsızdıqlar ona görə idi ki, Peyğəmbərin (s) möhkəm imanını zəiflndirsinlər, onun ümidini ümidsizliyə cevirsinlər və onu öz yüsək məqsədindən yayındırsınlar. Lakin Həzrət Mühəmmədin (s) məğlub olmaz şəxsiyyəti və ümid dolu ruhiyyəsi ona uzaq gələcəkləri görmək imkanını yaradırdı.O insanlar arasında yaşıyır və təbliğ edirdi. Bu vaxt cirkinliyə bulaşmayan, insanlığa layiq olan və onun semavi təlimlərini öyrənmək istedadına malik olan insanlar saflıq və insanlıq paltarını geyindilər və əbədiyyətə qovuşdular. Peyğəmbərin (s) yaxşı məsləkdaşlarından saflığda və ilahi elm də daha üstün onlanları isə Peyğəmbərin (s) ülvi ideyalarını qoruyub saxlamaq üçün Peyğəmbərdən sonra uzun müddət yaşadılar. O secilmiş Peyğəmbərlətin öncədən verdiyi xəbərə görə Peyğəmbərdən (s) sonra onun yaxın dindaşları qərib

oldular və dünyapərəst insanların həfslərinin tüğyan etməsi onları Peyğəmbərin yolunu davam etməkdə saxladı. Beləliklə yenidən mənəviyyat süfrəsi insanların qarşısından götürüldü və Ilahi qanunlar və hökmlər ağılsız hakimlərin oyuncağına cevrildi. Bir əsrə yaxın müddət ərzində böyük Peyğəmbərin (s) kəlamlarının yazılması və yayılması qadağan edildi. Peyğəmbərin pak Əhli beytinin fəzilətlərindən söhbət etmək, Qədr hadisəsini yad etmək, Təthir ayəsini, Kəhf hədisini, Mənzilət və Səqələyn hədislərini təfsir etmək cinayət hesab edildi. Bundan sonra yüz illərlə tarix hakimiyyətə mənsub olanlar tərəfindən yazıldı. Həmin tarixcilərin ən tanınmışı İbn Cərir Təbridir. O bitərəf olduğunu bəhanə gətirərək həqiqətləri təhrif etmiş və ya gizlətmişdir.[1] Bu səbəbdən həmin tarix əsərlərinə dərindən inanmaq olmur. Hər halda biz bu kitabda həmin əsərlərin daha inanılası məqamlarından bir necəsinə istinad etmişiq. Bu kitabda irəli sürünən fikirlərdə daha çox əhli sünnənin nəzərlərinə və onların möhtəbər kitablarına əsaslanmışdır.

[1] Əllamə Seyid Mürtəza Əskəri yazır:Təbəri başqa tarixcilərdən daha çox mövhumat nəql etmişdir("Nəqşi Əimmə dər Ehyaye Din",6 ci cild,səh 53).O Seyf bin Ömərdən 701 hədis nəql etmişdir.Halbuki o tətqiqatcılar yanında yalan hədis söyləməklə məşhur idi.("Əl-Qədir",8 ci cild,səh 327) Xətib Bağdadi yazır:Yer üzündə ən yalancı adam Əbu Məşərdir.("Tarixi-Bağdad",13 ci cild,səh 429)Belə ki,Təbəri öz kitabında onun söylədiyi hədislərdən bəhrələnmişdir("Əl-İmamus-Sadiq-vəl Məzahübul Ərbəə",1 ci cild,səh 265)

# BİRİNCİ FƏSİL

## PEYĞƏMBƏRİN (S) VƏFATINDAN ƏVVƏL BAŞ VERMİŞ HADİSƏLƏR

Peyğəmbərin vəfatından əvvəl, eləcə də vəfatından bir az sonra islam tarixində siyasi və eyni zamanda məxfi olan çox mühüm hadisələr baş vermişdir. Allahın Rəsulunun (s) yüksək ağıl və düşüncəsiylə azca tanış olan hər bir kəs O həzrətin Qədir hadisəsiylə vəfatı arasında olan qısa bir müddət ərzində baş verən məsələlərə nə qədər ağıl və diqqətlə dərin nəzər salmasını görə bilər.

Müsəlmanların, Peyğəmbərin (s) vəfatından sonra olan tarixini araşdırıb mütaliə edən hər bir kəsi düşündürən ən mühüm sual, Peyğəmbərin müsəlmanlara Əhli-beytini sevmə və onlara itaət etmələrini təkid etməsinə baxmayaraq, O həzrətin elə vəfat etdiyi gündən başlayaraq tapşırıqlarına qarşı çıxmaları daha çox tövsiyə etdiyi şeyə az da olsa, əhəmiyyət verməmələri məsələsidir.

Görəsən, Allahın Rəsulu (s) belə bir müxalifətçiliyin baş verə biləcəyini və onun qarşısını almaq üçün bir çarə fikirləşməmişdi?!

(Mədinənin ağır günlərində öz vəfatından qabaq) Usamət ibn Zeydi Şam sərhədlərinə tərəf göndərməyin mənası nə idi?

Özündən sonra canişin qoymaq haqqında nə fikirdəydi?

Bu fəsil bu qəbildən olan suallara cavab vermək üçün qələmə alınır.

Həqiqət budur ki, Allahın Rəsulunun (s) vəfatından sonra baş verə biləcək hadisələrə qarşı nəzərini Qədir hadisəsiylə vəfatı arasında olan yetmiş gündə açıq-aydın açıqlanmışdır. Necə ki, müxaliflərin gizli işləri də məhz bu müddət ərzində olmuşdur. Belə ki, bu müddətdə olan hadisələr açıqlanmazsa, gizli olan həqiqətlər aşkar olmaz.

## GİZLİ SİYASƏTLƏRİN BAŞ VERMƏSİ

Şiə və sünnülərin hədis mənbələri göstərir ki, ``İblağ`` ayəsi (“Maidə” surəsi, ayə:67) nazil olana qədər Allahın Rəsulu (s) öz vəsisini rəsmi surətdə təyin etməkdən ehtiyat edirdi. Nəhayət, Cəbrail onu mənfur fikirdə olanların təhlükəsiqarşısında

ümidvar etdi. Bu zaman Peyğəmbər (s) öz ardıcıllarını son asimani xəbərdən agah etdi.

İki mövzu Allahın Rəsulunu (s) vilayət məsələsini təbliğ etməkdən nigaran edirdi. İlk növbədə o bilirdi ki, bu təbliğdə camaatın bir çoxuna qəbul edilməsi ağır olan "heç bir qeyd-şərt olmadan onun təyin etdiyi canişinə itaət etmələrinə" çağırmalı, bu yolda aşkar təbliğlə hər bir bəhanə və şəkkin qarşısı alınmalıydı. İkinci növbədə gizli fəaliyyətlər çox da az olmayan bir qrupun müxalifətçiliyindən xəbər verirdi. Bu dəstə qısa bir zamanda öz gizli fəaliyyəti sayəsində Peyğəmbərin (s) zəhmətlərini netirallaşdırıb və cəmiyyətləri azdıra bilmişdi.

Gözlənilən bu iki təhlükənin olmasına baxmayaraq, Allahın Rəsulu (s) İlahi hökmü çatdırmalıydı. Əks təqdirdə, ayənin aşkar mənasına əsasən, həzrətin risaləti nəticəsiz olacaqdı.

Allahın Rəsulu (s) məşhur "Qədir" xütbəsində belə buyurmuşdur:

Cəbraildən (Allahın salamı ona olsun) məni, Əlinin vilayətməqamını e`lan etməkdə üzürlü saymasını istədim. Çünkü təqvalı insanların az, münafiqlərinsə çox olmasını bilirəm.Yalançı və hiyləgər günahkarlar vardır ki, islamı oyun-oyuncağa çevirmişlər. "Mütəal Allah öz kitabında onların haqqında belə buyurmuşdur: "Dillərində bir şey deyirlər ki, qəlblərində ona inanmırlar; elə bilirlər ki, bu iş sadədir, lakin bu iş Allah yanında böyük günahdır ".Onlar həmişə mənə əziyyət vermiş və işi o yerə çatdırmışlar ki, mənə töhmət vuraraq demişlər: "Peyğəmbər başqalarının sözünə itaət edir, onun özünün heç bir müstəqil iradəsi yoxdur". Mən həmişə Əliylə bir yerdə olmuşam, o, daim mənim diqqət mərkəzimdə olduğuna görə, ona qarşı həsəd aparmış və buna dözə bilməmişlər. Bu zaman Allah ayə nazil etmiş boş danışanlara cavab verərək buyurmuşdur: "O, başdan-başa qulaqdır! (Hər bir kəsin sözünü qəbul edir.) De: O, sizin üçün yaxşı bir qulaqdır." ("Tövbə" surəsi, ayə:61)

İndi əgər münafiqləri bir-bir adları və əlamətləri ilə yaxud barmaqla işarə etməklə yada camaatı onlara tərəf yönəltməklə tanıtdırmaq istəsəm, bu işi görə bilərəm, lakin and olsun Allaha ki, mən onlara qarşı izzətlə rəftaredirəm.

Ey cammaat! Bilin ki, Allah Əlini sizin üçün rəhbər və imam təyin etmişdir. Ona itaət etməyi mühacirə (Məkkədən Mədinəyə hicrət edənlərə), ənsara (Məkkədən hicrət edənlərə pənah vermiş Mədinə əhli), onlardan itaət edib yaxşı yol ardıcıllarına, şəhər və kənd əhalisinə, burda olan və olmayana, ərəb və əcəmə, azad insanlara və qula, kiçik və böyükə, qara və ağdəriliyə vacib etmişdir. Allaha müti olub itaət edən hər bir kəsə verdiyi hökm rəva, dediyi söz eşidilməli və verdiyi əmrə itaət vacibdir. Onunla (Əli (ə) ilə) müxalif olan lənətlənmişdir, ona itaət edənsə Allahın rəhmətinə nail olacaqdır. Onu təsdiq edən mömindir. Allah onu və ona qulaq asıb itaət edən hər bir kəsi bağışlayacaqdır.

Məndən sonra rəhbər və imamınız Əlidir (ə). O, Pərvərdigarınızın əmriylə təyin olunmuşdur. Ondan sonra da imamət qiyamət gününə qədər mənim ailəmdə, Əlinin (ə) övladlarında olacaqdır...

Ey müsəlmanlar! Əliyə qarşı olub haqdan çıxmayın, ondan uzaqlaşmayın, onun rəhbərliyindən boyun qaçırmayın. Hamınızı haqqa tərəf hidayət və haqq əsasında

əməl edən odur. Batili məhv edib ondan saxlayan və Allah yolunda heç nədən qorxmayan odur.

Cammat! Əli Allaha və onun Peyğəmbərinə (s) iman gətirən ilk şəxsdir. O, canını Peyğəmbərin (s) yolunda fəda etmiş, həmişə Allah və Peyğəmbərlə (s) olmuşdur. Ondan savayı heç kim Peyğəmbərə (s) tam təslim olmamışdır. Ey camaat! Bu Əli mənim qardaşım, canişinimdir, elmimi öyrənmişdir və ümmətimin imamıdır. O, Qur`anın təfsirinə agah, insanları Allahın kitabına tərəf aparan və Qur`anın hökmlərinə əməl edəndir. Əli Allahın razılığı əsasında əməl edir, Onun düşmənləriylə döyüşür, bəndələriylə dostluq edir, Allaha qarşı asi olmaqdan çəkindirir. Allahın Rəsulunun (s) xəlifəsi, mö`minlərin əmiri, Allah buyruqlarına hidayət edən rəhbər və nakisin, qasitin və mariqini qətlə yetirəndir. (Adı çəkilən dəstələr həzrət Əlinin xilafəti zamanı müsəlmanlara qarşı üsyan etmiş dəstələrdir. Qeyd etmək lazımdır ki, bu xəbərlər Allahın Rəsulunun (s) özündən sonra baş verəcək hadisələr barədə verdiyi qeybi xəbərlərdəndən sayılır. Müt.)

Əziz və uca Allah sizin dininizi, Əlinin vilayətini[1] e`lan etməklə kamil[2] etmişdir.

Bundan sonra Əlinin (ə) və ondan sonra da qiyamətə qədər canişini olan imamların övladlarıdır onlar həzrət Əlinin (ə) imamətindən boyun qaçıran hər kəs, əməlləri Allah dərgahına təqdim olunduqdan sonra bütün əməlləri məhv olmuş, puça çıxmış kimi olacaqdır. Belə şəxslər əbədi atəşdə qərarlaşacaq, heç vaxt odundan azalmayacaq və heç bir möhlət ona verilməyəcəkdir.

Ey camaat! Bu gün mənim sözümü danıb onunla razılaşmayan lənətlənmişdir. (Bəli) Lənətlənmiş və Allahın qəzəbini qazanmışdır. Agah olun! Bu dəqiqə Cəbrail uca Allahdan mənə, “Əliylə düşmən olub onun vilayətini qəbul etməyənə Allahın lənəti olsun!” xəbərini gətirmişdir.

Camaat! Allahın əmriylə müxalif olmaqdan çəkinin!...Bilin ki, bədbəxt adamdan savayı heç kəs Əliylə düşmən olmaz və iman əhlindən savayı heç kəs də Əlinin dostluğunu canıyla almaz. Müxlis möminlərdən savayı bir kəs Əliyə iman gətirməz.

---

[1] Əhli-sünnə və şiəlik arasında “vəli” ( وَلِى ) kəlməsinin təfsiri haqqında çoxlu nəzərlər vardır. Bu sözün bir çox mə`naları o cümlədən: mehriban, köməkçi, dost, qoruyucu, kiməsə sahib olmaq, tərbiyəçi, ne`mət verən, nemət verilmiş və s. vardır. (“Müntəhəl-irəb fil-lüğəti-ərəb”, səh. 1339.) Əhli-sünnə alimləri vilayəti “Dost və mehriban”, şiyə alimləri isə işlərə “öhdədar” mənasında təfsir etmişdir. Doğrudan da, görəsən, Peyğəmbər həcdən qayıtdığı zaman camaatı saatlarla Ərəbistanın şiddətli istisində, çöl-biyabanda, günün altında “Əli Mənim və sizin dostunuzdur” deməyə saxlamışdı?! Bizim fikrimizcə, ikinci məna üçün ən yaxşı dəlil hədisin öz mənasıdır. Peyğəmbərin bu xütbədə dediyi sözlərin məzmunu vilayət kəlməsindən məqsədin “işlərdə öhdədar olma ” mənasını daşımasını çatdırır.

[2] Əhli-sünnənin bütün tarixçiləri və bir çox təfsir alimləri e`tiraf etmişlər ki, “Maidə” surəsi, ayə: 5. اليوم اكملت لكم دينكم Əli ibn Əbi Talibin vilayətinin elan olunması, ümum müsəlmanların onunla beyəti və Allahın Rəsulundan (s) sonra rəhbər təyin olunmasından sonra nazil olmuşdur. “Tarixu mədinətd-Dəməşq”, 2-ci cild, səh. 75 və 577 və “Şəvahidüt-tənzil”, 1-ci cild, səh. 157. “Mənaqibu Əli ibn Əbi Talib”, səh. 19 və onlarla başqa kitab. Daha artıq məlumat üçün “Qədir həməsəsi”, səh. 125 müraciət etmək olar).

Ey camaat! Məndən sonra yalançı rəhbərlər qüdrəti ələ keçirər və camaatı cəhənnəmə tərəf çağırarlar. Qiyamət günü onların bir köməkçisi olmaz... Uca Allah və mən onlardan bizarıq.

Ey camaat! Məndən sonra gələn qəsbkar rəhbərlər, onların dostları və yoldaşları cəhənnəmin ən aşağı dərəcəsində olacaqlar və ora təkəbbürlü insanlar üçün nə qədər pis yerdir!

Agah olun! Əhli-beytin vilayət məqamını qəsb edənlərə və onlara (qəsbkarlara) yardımçı olanlara Allahın lənəti olsun!

Ey müsəlmanlar! Mən Əlini sizin aranızda müsəlmanların imamı olaraq qoyuram. O və övladları qiyamətə qədər mənim vərəsələrimdir. Çatdırmağa məmur olunduğum Allahın əmrini sizə yetirdim. Burada bizimlə birgə olanlara və olmayanlara, indi dünyaya gələnlər və gələcəkdə dünyaya gələcək hər bir kəsə aydın hüccətdir. Beləliklə, Allahın əmrini hazır olmayanlara çatdırmaq "Qədir" səhnəsində olan hər bir kəsə vacibdir. (Eləcə də) Qiyamətə qədər atalara vacibdir ki, onu övladlarına çatdırsınlar. (sonra dua edib dedi:)

Pərvərdigara! Əlinin dostlarını dost, düşmənlərini düşmən tut! Əlinin (ə) vilayətini inkar və onun haqqını qəsb edənlərə lənət və qəzəb et!

Pərvərdigara! Sən mənə "İmamətin məndən sonra Əliyə (ə) aid olduğu əmrini nazil etdin. Mən də onu camaata çatdırdım. Mən uca Allah tərəfindən siz camaatı Əliylə beyət etməyə çağırdım. Əhdini pozan hər kəs öz zərərinə əməl etmişdir. Mən Allah tərəfindən sizdən Əli üçün beyət almağa mə`muram.

Siz də uca Allahdan Əlinin vilayəti haqqında nazil olan şeyə e`tiraf edin və onu "Əmirul-möminin" (Mö`minlərin əmiri) bilin. Əlidən sonra gələn mənim ailəmdən və Əlinin (ə) övladlarından olan imamların imamətini qəbul edin![1]"

Görəsən Allahın Rəsulu (s) öz ətrafında olanların gizli, eyni zamanda sirlə dolu olan hərəkətlərindən təkcə vəhy yoluyla xəbərdar olurdu, yoxsa müəyyən əlamətlər bir dəstənin onun kimi fikirləşməməsindən onu agah edirdi? Əli ibn Əbi Talibin canişin olma məsələsi barəsində olan sözlərini [2] yaddan çıxartmadıqları halda yoxsa ondan narazıydılar?! O, bundan əvvəl öz ətrafında olanlardan nə görmüşdü ki, indi Əli (ə) haqqında bu qədər təkid və ehtiyatla danışırdı?!

O vaxta qədər o həzrətin müşahidə etdiyi müxalifətçilik üç növ idi:

1) Aşkarda yaxud örtülü şəkildə baş verən müxalifətlər.

2) Gizlində olmuş, lakin sonradan məlum olan müxalifətlər.

---

[1] Bu hədis, hədis və tarix kitablarında islamın əziz Peyğəmbərinin (s) 146 səhabəsindən rəvayət olunmuşdur. Bu şəxslərin, eləcə də "Qədir" hədisini açıqlamış adlarını bilmək üçün "Həmaseyi Qədir", səh. 38 – 86 və "Əl-qədir"1-ci cilddə, müraciət etmək olar.

[2] Şiə və sünnü alimlərin e`tiqadına görə, Əli (ə)-ın məqamı barəsində ilk dəfə (inzar) günü Məkkədə Peyğəmbərin (s) qohumlarını islama dəvəti zamanı danışılmışdı. Şiə və sünnü tarixçiləri Peyğəmbərin (s) belə buyruğunu rəvayət etmişlər:

فايكم يوازرنى على هذا الامر على ان يكون اخى و وصيّى و خليفتى؟ ( "Sizlərdən kim Mənə risalət vəzifəsini yerinə yetirməkdə kömək edər ki, bununla qardaşım, vəsim və canişinim olsun?!" Bununla belə İbn Cərir Təbəri o həzrətin cümləsini belə dəyişdirmişdir: على ان يكون اخى و كذا و كذا ("Cameul bəyan fi təfsiril qur`an", 19-cu cild, səh. 74)(və bununla qardaşım və sair və sair olsun) "Cameül-bəyan fi təfsiril-Qur`an" 19-cu cild, səh. 74.

3) İnsanların daxilində olub aşkar olmayan, lakin rəftarların bildirdiyi müxalifətlər.

Vəhy mələyinin onu xəbərdar edərək

وَ مِمَّنْ حَوْلَكُمْ مِنَ الاعْرَابِ مُنَافِقُونَ وَ مِنْ اهْلِ الْمَدِينَةِ مَرَدُوا عَلَى النِّفَاقِ لا تَعْلَمُهُمْ نَحْنُ نَعْلَمُهُم...[1]

"Sizin ətrafınızdakı (şəhərinizin ətrafında olan ) bədəvi ərəblərdən bir dəstəsi münafiqdirlər. Mədinə əhlindən də nifaqa adət etmiş kəslər vardır. Sən onları tanımırsan, Biz onları tanıyırıq" söylədiyi bu ayə münafiqlərin gizli təşkilatından xəbər verir. Onların iki fikirdə olmalarıbarədə məlimat toplamaq hətta Peyğəmbər (s) üçün belə, asan deyildi. Bu insanlar uzun illər Peyğəmbərin (s) yanında olmuş və zahirdə onunla həmfikir idilər. Bunlar "Zirar" məscidi [2] münafiqləri kimi deyildilər ki, mollanın mərkəzləri yerlə yeksan olsun. Əksinə bunları təkcə İlahi vəhy və Peyğəmbərin göstərişi ilə məlumatlanan çox az adam tanıyırdı.

## QƏDİRDƏN* MƏDİNƏYƏ QƏDƏR

Qədir göstərişiylə müxalif olanlar müxtəlif fikir və hədəfdə olsalar da, öz aralarında birlik yaratmaq, həmfikirləri bir yerə yığmar barəsində ciddi sə`y göstərirdilər. Onlar yaxşı başa düşürdülər ki, Peyğəmbərin (s) özü və onun ətrafında birləşmiş böyük kütlənin olduğu yerdə heç bir silahlı qiyamdan danışmaq söhbət açmaq olmazdı. Belə bir qiyamın nəticəsiz olacağından əlavə, onların gizli üzləri də aşkar olacaqdı.Yeganə çıxış yolu gizli siyasi yol seçməklə öldürücü zərbə vurmaq üçün fürsət gözləmək idi. Bununla yanaşı, məkirli tədbirləri baş tutmadıqda səbir edərək Peyğəmbərin (s) vəfatını gözləməli olacaqdılar. Başqa bir tərəfdən də həzrət özü bu səfər zamanı tezliklə dünyanı tərk edəcəyi haqda xəbər vermişdi. Qeyd olunmuş zaman fürsət gözləyənlərin hədəflərinə yetişmək üçün elə də uzun müddət deyildi.

Bu qısa müddət Peyğəmbər (s)-ı, və camaatı yoxlamaq, ümumi fikrə qiymət vermək üçün ən asan yoldur. Tarixdə qeyd olunanlara əsasən, həmin vaxtlarda Haris ibn Nöman Fəhri adlı bir nəfər Peyğəmbəri (s) uca səslə çağıraraq dedi: Ey Mühəmməd! Bizi Allaha tərəf çağırdın qəbul etdik. Öz Peyğəmbərliyini (s) açıqladın və "La ilahə illəllah və Muhəmmədun Rəsulullah" dedin qəbul etdik. Bizi islama çağırdın, itaət etdik. İndi də əmin oğlunu bizə əmir etdin! Bilmirik bu Allah tərəfindən olan bir hökmdür, yoxsa sənin şəxsi nəzərindir!

---

[1] "Tövbə" surəsi, ayə: 101.

[2] "Zirar" məscidi Mədinənin yaxınlığında münafiqlər tərəfindən tikilmliş bir məscid olmuşdur. Onlar Peyğəmbərdən (s) bu məsciddə namaz qılmasını istəmiş, Peyqəmbərsə (s) İlahi göstəriş əsasında onu yerlə yeksan etmişdi. Onlar Peyğəmbərin (s) bu məsciddə namaz qılmasından sui istifadə edərək sonradan bu yeri özlərinə mərkəz edib islamın əleyhinə fəaliyyət aparmaq istəyirdilər. (Müt).

*Qədir xum vadisi Mədinə, Misr və İraqa yol ayrıldığı yerdir. (Bu yer əslində "Ğədir xum"adlanır və danışıqda "Qədir xum" adıyla məşhurdur. Müt).

Allahın Rəsulu (s) buyurdu: And olsun o, Allaha ki, Ondan başqa mə`bud yoxdur! Bu hökm Onun tərəfindəndir və mənim vəzifəm təkcə onu çatdırmaqdan ibarətdir.

Kişi bu cavabı eşitdikdə başını göyə qaldırıb acıqla dedi: Pərvərdigara! Əgər Mühəmmədin Əli haqqında dedikləri Sənin tərəfindən və Sənin əmrinlədirsə, onda göydən bir daş salıb məni həlak et!

Sözü ağzında tamamlanmamışdı ki, göydən bir daş düşüb onu həlak etdi. Bu zaman "Məaric" surəsinin ilk iki ayəsi nazil oldu. [1]

Bu qorxulu hadisədən sonra müxaliflər başa düşdülər ki, tədbir tökmək lazımdır. Onlar bundan əvvəl də Allahın Rəsuluna (s) sui-qəsd etmək barəsində planlar cızmış, lakin sonda heç bir nəticə ala bilməmişdilər. Onlar Mədinəyə yetişməmişdən əvvəl dağlıq bir yerdə Allahın Rəsulunun (s) dəvəsini hürküdüb dəvəni dağdan aşağı yuvarlatmaqla həzrətin həyatına son qoymaq, gecənin qaranlığında qaçıb sabahı gün bu hadisənin bir təsadüf olmasını bildirməklə planlarını həyata keçirmək istəmişdilər. [2]

Bu plan qeybi yardımla ifşa oldu. Bununla belə, Peyğəmbər (s) münafiqlərin şeytan tipli birləşmələrinin yenidən güclənə biləcəyindən şəkki yox idi. Ona görə də Peyğəmbər (s) tərəfindən bir nəfər car çəkərək dedi: "Allahın Rəsulunun (s) əmrinə əsasən, yol boyu Mədinə şəhərinə çatana qədər heç kəsin iki-iki ya üç-üç bir yerə yığılıb pıçıldaşmaq ixtiyarı yoxdur". Bu əmrdən sonra ehtimalı üzrə fitnə yarada biləcək bütün yığıncaqların qarşısı alındı və Mədinəyə çatana qədər heç kəs hiylə qura bilmədi. Amma bununla belə, bu məsələ işində müvəffəq ola bilməyənləri öz işlərində daha da gizli fəaaliyyət göstərməyə sövq etdi. Onlar, Peyğəmbərin (s) onların fikirlərini bilməsini başa düşmüşdülər. Buna görə də, gizli olaraq bir yerə yığılıb əvvəldən Məkkədə yazdıqları əhdnamənin üstündə təkid edərək hər yolla olursa olsun, Peyğəmbərin (s) göstərişinin qarşısını almağa təkid etdilər.

Əhdnamənin bir hissəsi belədir:

Bu, Allahın Rəsulunun (s) mühacir və ənsardan olan əshabından bir dəstənin razılığa gəldiyi əhdnamədir.

Allahın Rəsulunu (s) Özünə tərəf çağırdı. O həzrət bir kəsi öz yerinə təyin etmədən əbədi həyata qovuşdu və xəlifə təyin etməni camaatın öhdəsinə buraxdı ki, inandıqları şəxsi onun canişini və müsəlmanların "Vəli əmr" məqamına seçsinlər. Allahın Rəsulu xilafətin nübuvvətlə bir ailədə qalaraq, miras kimi bir-birinə ötürülməməməsi, varlıların əlində əlbəəl olmaması, hər xəlifənin qiyamətə qədər öz övladı üçün xilafət iddiası etməməsi və başqalarının da ondan faydalanması üçün heç kəsi təyin etməmişdir.

---

[1] Şiə və sünnülərdən yetişən bu hədisin sənədi haqqında: "Həmasei Qədir", səh. 107 və 156, "Müsnədi-Əhməd", , 4-cü cild, səh. 372, "Şəvahidült-Tənzil" 2-ci cild, səh. 266, "Təfsiri Sələbi", 18-ci cild, səh 278, "Əl-minar", 6-cı cild, səh. 464, və "Əl-mustədrəku ələs- səhiheyn", 2-ci cild, səh. 502 kitablarına müraciət etmək olar.

[2] Bunların adını bilmək istəyən hər kəs adları çəkilən bu kitablara: Əllamə hillinin "Kəşfül yəqin", "İrşadül qulub", səh. 1 , 12 və 135, "Biharül ənvar", 28-ci cild, səh. 86 və 114 kitablara müraciət edə bilərlər.

Hər bir əsr və zamanda müsəlmanlara lazımdır ki, xəlifə dünyadan getdikdən sonra düşüncə sahiblərindən olan əshab bir yerə yığılıb, məşvərət və fikir mübadiləsindən sonra müsəlmanların rəhbərliyini düz olan bir adama tapşırsınlar, onu müsəlmanların mal və canlarına ixtiyar sahibi etsinlər. Belə bir səlahiyyət təkcə düşüncə sahiblərindədir. Onlar "Vəliy əmri" seçməkdə aciz olmazlar.

Deməli, əgər bir nəfər Allahın Rəsulunun kimisə özündən sonra canişin təyin etməsini və o şəxsi adı və nəsəbiylə tanıtdırmasını iddia edərsə, boş söz demiş, Allahın Rəsulunun səhabələrinin nəzərinin əksinə rə`y vermiş və müsəlmanlarla müxalifətə qalxmışdır.

Bir kəs Peyğəmbərin (s) canişinliyi və xilafətinin ondan sonra bir başqasına miras kimi keçməsini iddia edərsə, mənasız söz demişdir. Çün ki, Allahın Rəsulu (s) demişdir: "Biz Peyğəmbərlər (s) irs qoymuruq. Bizdən qalan hər bir şey sədəqədir."

Əgər bir nəfər "Xilafət nübuvvətin davamıdır və buna görə də Peyğəmbərin xilafəti hər kəsə layiq deyil, əksinə, bəlkə müsəlmanların arasından müəyyən bir adamın bu məqama layiq olması üçün xilafət onun haqqıdır" deyə iddia edərsə, yalan danışmışdır. Çünki Peyğəmbər (s) buyurmuşdur: "Mənim səhabələrim asimanın ulduzları kimidir: Hər hansına iqtida etsəniz hidayət taparsınız."

Əgər bir nəfər "Allahın Rəsulu (s) ilə bir nəsəbdən olması və qohumluğuna görə özündən savayı heç kəsin bu məqama layiq olmamasını və hər zamanda bunun əsas götürülməsini" iddia edərsə, yersiz söz demişdir, çünki üstünlük Peyğəmbərlə (s) qohumluqda deyil, təqva ilədir. Necə ki, Allah buyurur: انّ اكرمكم عند الله اتقيكم ( )Eləcə də Allahın Rəsulu buyurmuşdur: "Bütün müsəlmanlar birdir. Müxalif olan bir nəfərə qarşı bir sıradadırlar."

Deməli, Allahın kitabına iman gətirib, Peyğəmbərin (s) sünnəsini qəbul edən şəxsin işində heç bir irad yoxdur və o haqq yoldadır. Bunun əksinə hərəkət edib müsəlmanlardan ayrılanı öldürün! Çünkü ümmətin islahı onun ölümündədir. Mənim ümmətimi parçalayanı və onların arasında ayrılıq salanı hər kəs olursa olsun, öldürün! Belə ki, ümmətimin bir olması rəhmətə, parçalanması isə əzaba səbəb olur. Mənim ümmətim düz olmayan işdə heç bir zaman birləşməz, düşmən qarşısında bir əl kimi olarlar. Müsəlmanlardan yalnız düşmən olanlar ayrılar. Bu zaman onların qanını tökmək mubahdır (rəvadır).

Onlar əhdnaməni o gün Əbu Übeydə Cərraha tapşırdılar. O da öz növbəsində onların tövsiyəsinə əsasən, əhdnaməni Kəbənin bir küncündə basdırdı. Əhdnamə Ömər ibn Xəttabın zamanına qədər orada qaldı və sonra onun göstərişiylə çıxardıldı.[1]

Əhdnaməni yazanlar işlərini bitirdikdən sonra sübh namazını Peyğəmbərlə (s) qıldılar. Həzrət üzünü Əbu Übeydəyə* tutub buyurdu: "Ümmətin əmin adamı olmuş sənin kimilərə yüz afərin!" Sonra bu ayəni oxudu:

---

[1] İbn Əbil-Hədid özünün "Nəhcül-bəlağə" yə yazdığı şərhində Əmr ibn As , Əbu Musa Əş`əri və Əbu Süfyan kimi adamları adlarını sadalamışdır ("Nəhcül-bəlağənin şərhi", 13-cü cild, səh. 314 , 315, və 6-cı cild, səh. 291).

فويل للّذين يكتبون الكتاب بايديهم ثمّ يقولون هذا من عند الله ليشتروا به ثمناً قليلاً فويل لهم ممّا كتبت ايدهم وويل لهم ممّا يكسبون (Buna görə də vay olsun o kəslərin halına ki, azacıq bir qazanc əldə etmək üçün öz əlləri ilə bir yazı yazıb, sonra "bu, Allah tərəfindəndir!" deyirlər. Əlləri ilə yazdıqlarına görə vay olsun onlara və vay olsun onlara (bu təhrifin müqabilində) əldə etdiklərinə! ) ( "Bəqərə"surəsi, ayə:79)

## ÇARƏ AXTARIŞINDA

Qədir hadisəsindən sonra Mədinə, həmişə olduğu kimi deyildi. Məxsus hərəkətlər baş verməkdə idi. Heç bir şey o həzrətin nəzərindən qaçmırdı. Məsləhət bildiyi kimi onların qarşısını almağa çalışırdı. Həzrətin qəbul etdiyi qərarlardan məlum olur ki, bu hərəkətlər çox ciddi şəkildə hazırlanır və genişlənirdi. Elə buna görə də əsaslı və ciddi qərarlar qəbul edib həyata keçirmək lazımdı. Bu qərarların içində üç xüsusiyyət daha önəmli idi:

1) Müxalifləri Mədinədən uzaqlaşdırmaq;

2) Yaş baxımından bir çox səhabədən kiçik olmasına baxmayaraq, Əli ibn Əbi Talibin (ə) imamətini qəbul etmək üçün şərait yaratmaq;

3) Səlahiyyətləri çatmadığı halda özlərini imam görmək üçün fürsət güdənləri etibardan salmaq.

Hər üç hədəfi həyata keçirmək üçün ən yaxşı yol Usamənin ordusunu yarımadanın sərhədlərindən xaricə göndərmək idi. Ordunun xüsusiyyətlərini araşdırdıqda ezamdakının üç hədəfin hər birinin necə də tə`min etmdiyini görmək olar.

## USAMƏT IBN ZEYDIN QOŞUNUNUN EZAM OLMASI

Hicrətin səkkizinci ilində Cəfər ibn Əbi Talib, Zeyd ibn Harisə və Əbdullah ibn Rəvahənin başçılığı altında romalıların ehtimalı hücumunun qarşısını almaq üçün Peyğəmbər (s) tərəfindən ordu yaradılıb o torpağa göndərildi. Bu döyüşdə islam ordusunun hər üç başçısı şəhadətə yetişdilər. Hicrətin doqquzuncu ilndə də romalıların Hicaz ərazisinə hücum etmək fikirləri xəbəri Mədinədə yayıldıqdan sonra, Peyğəmbər otuz min nəfərlik ordu ilə "Təbuka" tərəf hərəkət etdi. Amma bu zaman müharibə baş vermədi və döyüşmədən geri qayıtdılar. İndi isə təhlükə ehtimalı daha böyük və ciddi idi. Bu baxımdan Peyğəmbər (s) ömrünün son günləri: hicrətin on birinci ili, Məhərrəm ayının axırlarında xəstəlik yatağına düşməzdən əvvəl Usamət ibn Zeydin başçılığı altında böyük bir ordunu həmin məntəqəyə göndərmək istəyirdi.

## ORDUNUN XÜSUSIYYƏTLƏRI

Bu ordunun aydın olan bəzi xüsusiyyətləri aşağıdakılardan ibarət idi:

1. Ordu elə bir zamanda hərəkət edirdi ki, Hicaz, məxsusən Mədinə yarımada daxilində olan düşmənlər tərəfindən şiddətlə hədələnirdi. [1]

2.Qoşun başçısı iyirmi yaşlı bir cavan idi.

---

[1] "Əl-kamilu fit-tarix", 2-ci cild, səh. 318 və "Tarixül üməm vəl-muluk" səh. 225.

3. Mədinəyə hicrət etmiş ilk mühacirlər və tanınmış adamlar qoşuna daxil idi.[1]

4. Əli ibn Əbi Talib (ə) Peyğəmbərin (s) əmrinə əsasən bu orduda iştirak etmirdi.

5. Ordunun geri dönməsi iki aya qədər çəkəcəkdi.[2]

6. Peyğəmbər (s) ordunun hərəkət etməsindən boyun qaçıranları lənətləmişdi.[3]

E`zam gününün sabahı Peyğəmbər (s) şiddətli qızdırma keçirdi və yatağa düşdü.[4] Həzrətin xəstələnməsi, bəzi döyüş sursatı və qoşun başçısının yaşının az olması bəhanəsi bir dəstənin boyun qaçırmasına səbəb oldu və ordu tə`xir məcburiyyətində qaldı.(1)[5]

Bir dəstə adam Usamənin qoşun başçılıqına etiraz edib onu pislədikdə, Peyğəmbər əkrəm (s) buyurdu: Siz indi bunu bəyənməyib danladığınız kimi, qabaqlar da atasının başçılıqına etiraz edib onu bəyənməmişdiz. Ancaq bunu bilin ki, and olsun Allaha onun qoşun başçılığına ləyaqəti vardır!"[6] Sonra buyurdu:

لعن الله من تخلّف عن جيش أسامة "Usamənin ordusundan boyun qaçırana Allah lənət etsin!(3)[7]

Bununla belə, döyüşçülər "Curf"* düşərgəsindən kənara çıxmadılar. Ordunun gecikməsinin səbəbi adi-sıravi döyüşçülərin deyil, bir neçə tanınmış səhabənin boyun qaçırmasına görə olması məlum idi. Əks təqdirdə, belə narazılıq bir neçə nəfərin boyun qaçırmasına deyil, ümumi ordunun qiyam etmə sinə səbəb olardı. Tanınmış səhabələrdən olan Əbu Bəkr, Ömər ibn Xəttab əv Əbu Übeydə Cərrah Mədinəyə qayıtdılar. Usamə qoşunun çaş-baş qalmasını və Peyğəmbərin xəstəliyini görüb Mədinəyə gəldi və həzrətə dedi: "Atam-anam sənə qurban! İcazə verirsinizmi Allah Sizə şəfa verənə qədər bir neçə gün ayaq saxlayaq?" Həzrət buyurdu: "(Xeyr) Gecikmədən hərəkət et!" Usamə dedi: "Sizi belə halda qoyub getsəm qəlbim nigaran qalacaqdır! Buyurdu: Salamatlıq və qələbəylə hərəkət et!" Dedi: "İstəmirəm sizin halınızı səfər edənlərdən soruşum!" Buyurdu: "Əmrimi icra et!" Bu zaman Peyğəmbər haldan getdi. Usamə hərəkət etməyə hazırlaşdı. Peyğəmbər (s) özünə gəldikdə Usamə və qoşunun vəziyyəti barəsində soruşdu. Ona, Usamənin hərəkətə hazırlaşması barəsində xəbər verdilər. Bu zaman hey buyururdu: "Ordunu göndərin! Orduda iştirak etməyənə Allahın lənəti olsun!"

---

[1] "Əs-sirətüн-Nəbəviyyə", 2-ci cild, səh. 642 və "Ənnəssu vəl-ictihad", səh. 12.

[2] Əbu Bəkrin xilafəti zamanı Usamənin ordusu Şama кетмиш, qırx, yaxуд yetmiş gündən sonra geri dönmüşdü.

[3] "Şərhi Nəhcül-bəlağə", Ибн Əbil-Hədid, 2-ci cild, səh. 25, "Əl-müraciat", səh. 275, 276. ("Miləl və Nihəl", (Şəhristani) 4-cü müqəddimə, səh. 29.

[4] Qoşunun hərəkəti cəfər ayında baş versə də tədarük Məhərrəm ayında görülmüşdü.

[5] "Tarixül uməm vəl muluk" 3-cü cild, səh. 186, "Şərhи Нəhcül-Бəlağə", Ибн Əbil-Hədid" 1-ci cild, səh. 159-162.

[6] "Əl-bidayətü вəн-nihayə", 5-ci cild, səh. 222, "Tarixül uməmi vəl-muluk", 2-ci cild, səh. 224 "Əl-kamilu fit-tarix" 2-ci cild, səh. 317.

[7] "Şərhi Nəhcül-bəlağə", İbn Əbil-Hədid" 2-ci cild, səh. 20 və 6-cı cild, səh. 52, "Əlmüraciat" səh. 275-276, "Miləl və nihəl Şəhristani" dördüncü müqəddimə səh. 29.

*Mədinənin Şama tərəf 5 km olan məntəqəнин адыдыр.

Bununla belə, Peyğəmbərin yatağının yanında olanlar Onun əmrlərinə çox da fikir vermirdilər.

Bəzən həzrətin sözlərini öz xeyir və hədəflərinə uyğun yozurdular.[1] Belə boyun qaçırmaların bəhanədən də artıq olan daha ciddi bir hədəf daşıması yaxşı məlum idi.

Ordunun hərəkətdən boyun qaçırmasını görən Peyğəmbər şiddətli qızdırmalı olmasına baxmayaraq, yenidən qəzəbli halda məscidə gəldi. Boyun qaçırıb itaətsizlik edənləri danlamaqla yanaşı onları "məl`un" adlandırdı. [2] Peyğəmbər heç vaxt şəkk etmirdi ki, bir dəstə onun ölümünü gözləyur. Bununla belə ordunun hərəkət etməsinə nə qədər təkid edirdisə də, itaətsizlik də bir o qədər şiddətlənirdi. Səbəbi də müxaliflərin bu təkidlərin arxasında məxsus siyasi hədəflərin olmasını bilmələriydi

Usamə Mədinədən çıxdığı zaman ordu artıq hərəkətə gəlmişdi. Corf düşərgəsində Əbu Bəkr, Ömər, mühacirlərin bir çoxu,[3] o cümlədən, ənsardan olan Useyd ibn Huzeyr, Bəşir ibn Sə`d və başqa tanınmış şəxslər orduda idilər. Ummü Əymənin göndərdiyi şəxs Usamənin yanına gəlib dedi: "Mədinəyə qayıdın, çünki, Allah Rəsulu vəfat etmişdir!" Usamə gecikmədən geri döndü və bayrağı Allah Rəsulunun (s) qapısında yerə qoydu.[4]

## ORDUNUN GÖNDƏRİLMƏSİNİN HIKMƏTI

Usamənin ordusunun hərəkəti Hucaz məntəqəsinin, məxsusən Mədinənin tam məxsus bir vəziyyətdə olduğu zamanı baş verirdi. İslamın səsi uzaq-yaxınları bürümüşdü. Belə bir şəarait yenicə qurulmuş islam dövlətinin mərkəzinə hucum etmək üçün onunla müxalif olub düşmənçilçk edənlərə çox əlverişli idi. Ətraflar məntəqələrdə bir neçə nəfər yalandan peyğəmbərlik iddiası edərək öz ətraflarına çoxlu adam yığmışdılar ki, bunların bəzisi Peyğəmbərin göstərişi ilə dağıdılmışdı.[5]

On səkkiz yaşlı Usamə elə zəmanənın ən böyük ordusunu bir vaxtda öhdəsinə götürür ki, ona başçılığ etməyə bacarığı olsada, kifayət ğədər hərbi təcrübəsi yoxdur. Allahın Rəsulu can üstədir. O, dünyadangetdikdə mühacir və ənsarın bir çoxu Mədinədən kənarda, o həzrətin yaxın adamları və ailəsi isə dəfn işlərinə məşğuldur. Müxaliflərüçün zərbə vurmağa qızıl fürsət vardır. Bütün bunlara baxmayaraq

---

[1] "Müsnədи-Əhməd" 1-ci cild, səh. 356, "Ət-təbəqatül-kübra" 2-ci cild, səh. 217-242-245, "Tarixül uməm vəl muluk" səh. 192-193. İbn Əbil-Hədid deyir: Belə ehtimal vermək olar ki, Usamənin düşərgədən geri çağırılması və qoşunun hərəkət etməsinin qarşısı alınması Peyğəmbərin yataгı kənarına yığılan adamların əli ilə müəyyən hədəflərə görə olmuşdur. ( "Nəhcül-Бəlağənin şərhi" 12-ci cild, səh. 82-90).

[2] "Şərhi Nəhcül-bəlağə", Иbn Əbil-Hədid" 2-ci cild, səh. 20 , "Əlmüraciat" səh. 275-276, "Miləl və nihəl", Şəhristani, dördüncü müqəddimə səh. 29. Bir çox tarixçilərin itaətsizlik edənlərin lənətlənməsini rəvayət etdikləri halda "Təbəri "o həzrətin buyruqunu belə yazmışdır: "Mənim Usamənin ordusu haqqında verdiyim göstərişə əməl edin. Peyğəmbərlərinin qəbrini məscidə çevirənlərə Allahın lənəti olsun! ("Tarixul-uməmi vəl-muluk" 2-ci cild, səh. 225). Burda soruşmaq lazımdır ki, Təbərinin həzrətdən rəvayət etdiyi bu iki cümlə arasında nə кими əlaqə vardır?!

[3] "Ənsabul-Əşraf" 1-ci cild, səh. 474.

[4] "Ət-təbəqatul-Kübra" 2-ci cild, birinci hissə səh. 136-137, "Əlməğazi" 3-cü cild, səh. 856, "Şərhi Nəhcül-bəlağə", İbn Əbil-Hədid" 1-ci cild səh. 160 və 6-cı cild, səh. 52.

[5] "Tarixul-uməmi vəl-muluk" 2-ci cild, səh. 224 , "Əl-kamilu fit-tarix" 2-ci icld. səh. 318.

Peyğəmbər (s) ən çətin halda, azacıq belə, tərəddüd etmədən ordunun hərəkət etməsinə təkid edir.

Həzrət Peyğəmbər (s) mühacir və ənsardan olub, heç bir döyüşdə qələbə əldə edə bilməyən adamları orduya göndərir[1] və onların Mədinədə olmasını lazım bilmir. Üstəlik, onların tez bir zamanda Mədinəni tərk etmələrini istəyir. Əvəzində bir çox döyüşlərdə qələbələrin səbəbkarı olan Əli ibn Əbi Talibi (ə) Mədinədə öz yanında saxlayır. Sual yaranır: Usamənin qoşununda yaşlı və təcrübəli döyüşçülər olduğu halda, nə üçün onlar qoşun başçısı təyin olunmadılar? Tarixdə yazılanlara görə ilk mühacirlərdən elə bir kəs yoxdu ki, bu orduda olmasın. Bütün tanınmış şəxslər, o cümlədən Ömər ibn Xəttab, Əbu Bəkr, Əbu Übeydə Cərrah və Sə`d ibn əbi Vəqqas o qoşunda iştirak edirdilər.[2]

Əbu Bəkr xilafətə çatandan sonra Usamə onun orduda iştirak etməməsinin səbəbini soruşurdu.

Usamənin nəzərinə görə, Peyğəmbərin qəbul etdiyi qərara əsasən, Əbu Bəkrin və Ömərin Mədinədə qalmasına heç bir zərurət yox idi. Baxmayaraq ki, Əbu Bəkr Usamədən istəyirdi ki, Ömərin xəlifəyə kömək etmək üçün Mədinədə qalmasına razı olsun.[3]

Əbu Bəkrin bu istəyi onu çatdırır ki, Peyğəmbər (s) vəfatından sonra da səhabələr (bəzi vaxtlar itaətsizlik etsələr də) O həzrətin siyasi və ictimai hökmlərini qüvvədə hesab edirdilər. Elə bu səbəbdən də Osmanın xilafətinə qədər, xəlifələrin hər hansı biri Peyğəmbərin (s) göstərişlərinin əksinə əməl etdikdə camaat tərəfindən pislənirdi. Belə ki, Əbu Bəkr və Ömər öz xilafətləri zamanı bir vaxtlar Reyğəmbərin tərəfindən sürgün olunan Mərvan ibn Həkəmi Mədinəyə buraxmadılar. Lakin Osman onu Mədinədə gətirib özünün müşaviri təyin etdi.

Bu səbəbdən, Qazi Əbdül-Cəbbar Mö`təzilinin tərəfdarlıq edib dediyi: "Əbu Bəkrin, Ömərin Mədinədə qalmasını istəməsinin səbəbi, heç kəsin onu kömək etmədə əvəz edə bilməyəcəyinə görə idi. Onun dinə görə orduda iştirak etməməsi,orduda iştirak etməsindən ehtiyata daha yaxındır" – sözü əsassızdır.

---

[1] Tarixçilər Peyğəmbərin (s) məşhur səhabələrindən olan iki nəfərin adını çəkərək yazırlar: Bu iki nəfər bir çox döyüşlərin həssas vaxtında döyüşü tərk edib qaçmışlar (Halbuki, onlar Usamənin ordusunda vardılar). "Əttəbəqatül Kübra" 3-cü cild, səh. 155, "Əs-sirətüн-nəbəviyyə", 1-ci cild, səh. 431, "Əl-bidayətü vən-nihayət" 4-cü cild, səh. 29, "Kənzül ummal" 10-cu cild, səh. 268-269, "Həyatüs-səhabə" 1-ci cild, səh. 359, "Əl-müstədrəkü ələs-səhiheyn" 3-cü cild, səh. 27.

[2] "Şərhi Nəhcül-bəlağə", İbn Əbil-Hədid 1-ci cild, səh. 159, 2-ci cild, səh. 21, 17-ci cild, səh. 177. "Əlkamilu fittarix" 2-ci cild, səh. 317, "Əttəbəqat" 4-cu cild, səh. 46 və 136, "Təhziby mədinətид-Dəməşq", 2-ci cild, səh. 391 və 3-cu cild, səh. 215, "Kənzül-ummal", 5-ci cild, səh. 312, "Tarixül-xəmis", 2-ci cild, səh. 172, "Tarixи-Yəqubi" 2-cild, səh. 93, "Həyatu Muhəmməd" səh. 467, "Əlisabə ibn Həcər" 8-ci cild səh. 124, "Əl-məğazi" 3-cü cild, səh. 118, "Tarixyl-üməm vəl-muluk" 2-cild, səh. 224.

[3] "Tarixül-uməmi vəl-muluk", 4-cü cild, səh. 1353, "Əl-kamilu fit-tarix" 2-ci cild, səh. 26, " Tarixy mədinətид-Dəməşq" 1-ci cild, səh. 117.

İbn Əbil-Hədid yazır: (Usamənin) Peyğəmbərin əmri ilə müxalifət etməsi qanunsuz və icazə verilməz işdir. Peyğəmbərin işdən çıxardığını vəzifəyə təyin etməyə, yaxud işə təyin etdiyini vəzifədən çıxarmağa onun haqqı yoxdur.[1]

Bu görə də Əbu Bəkr öz xilafət xəbərini Usamə üçün göndərdikdə, Usamə cavabında dedi: "Mən və ordum səni xəlifə etməmişdir. Allahın Rəsulu dünyadan getməmişdən sizi mənə deyil ,məni sizə əmir təyin etmişdir. O, kəsə təəccüb edirəm ki, Allahın Rəsulu məni ona əmir təyin etdiyi halda, o məni vəzifədən götürür və özünün mənə əmir olmasını iddia edir!"[2]

Təəccüb burasındadır ki, Peyğəmbərin həyatı zamanı Usamənin azyaşlı olması mühacirlərin e`tirazına səbəb olur. Bu və Peyğəmbərin xəstə olması bəhanə gətirilərək ordunun hərəkəti on beş gün tə`xirə düşür. Lakin Əbu Bəkr xilafətə çatandan sonra yarım gündən də az bir müddətdə bu bəhanəyə bir cümlə ilə cavab verilir və ordu hərəkət edir.[3]

Bu işin səbəbi bundam başqa ola bilərmi ki, indi müxaliflərin başçılarının hamısı artıq Mədinəyə toplaşmış və qoşunda müxalifətçilik etməyə bir nəfər də olsun tədbirli adam qalmamışdır?! Əbu Bəkrdən sonra eşidilirdi ki:

"Əgər bilsəm ki vəhşi heyvanlar məni parça-parça edəcək, Allahın Rəsulunun (s) əmr verdiyi kimi Usamənin ordusunun məmuriyyətini məndən savayı bir nəfər olmasa da belə, sona çatdıracaqam![4]

Görəsən, Usamənin döyüş yoldaşları üçün Peyğəmbərin sözü və qərarının, Əbu Bəkrin sözü və qərarı qədər dəyəri yox idi?! Necə olur ki, elə bunların özü Peyğəmbərin (s) əmrinə əməl etməkdə günlərlə səhlənkarlıq göstərir, onu qəzəbləndirir, işi o yerə çatdırırlar ki, Həzrət onları lə`nətləyir, lakin bununla belə yenə də hərəkət etməkdə süstlük göstərirlər, indisə azacıq belə, e`tiraz olmadan başqasının əmrinə itaət edərək, Mədinəni tərk edir, heç nə üçün, hətta Peyğəmbərin vəfat etməsinə görə hüzün saxlamağı belə üzr gətirmirlər?!

Əgər onların ilk bəhanəsi, Peyğəmbərin dünyadan getməsidirsə, onda heç olmazsa, onların başçıları həzrətin qüsul və dəfnində iştirak edəydilər?! Halbuki tarixçilər və mühəqqiqlər onların Peyğəmbərin dəfnində iştirak etmələrini qeyd etməmişlər?! Bundan əlavə, necə qəbul etmək olar ki, Peyğəmbərin həyatı zamanı o həzrətin vəfat etməsinə kədərli olmağı üzür gətirərək orduda iştirak etmədən boyun qaçıraraq həzrəti o qədər narahat edirlər ki, həzrət onları lənətləyir?!

---

[1] "Şərhi Nəhcül-bəlağə", İbn Əbil-Hədid" 6-cı cild, səh. 52, "Milə və nihəl Şəhristani" 1-ci cild, səh. 23, "Ənnəsy вəл-ictihad", səh. 19-dan etdiyi rəvayətə görə

[2] "Tarixül-uməmi vəl-muluk" 2-ci cild, səh. 462.

[3] Bir dəstə адам Öməri vasitəчи edərək Əbu Bəkrin yanına göndərib Usamənin yerinə bir başqasını təyin etməsini istədilər. Əbu Bəkr qəzəblənib dedi: "Ey Xəttbın oğlu! Onu Peyğəmbər təyin etmişdir! Sən məndən tələb edirsən ки, ону ишдəн чыхарым? Bu zaman özü düşərgəyə gedir və gecikmədən Usaməni yola salır. ("Əl-kamilu fit-tarix" 2-ci cild, səh. 335, "Ət-təbəqatül-Kübra" 2-ci cild, birinci hissə, səh. 137, "Əl-bidayətü vən-nihayə" 6-cı cild, səh. 305, "Tarixül-üməmi vəl-müluk", , 2-ci cild, səh. 246 və "Tarixi-Yəqubi"," 2-ci cild, səh. 117).

[4] "Tarixül-üməmi vəl-müluk", , 2-cild, səh. 245, "Əl-kamilu fit-tarix" 2-ci cild, səh. 334.

Bəziləri deyirlər: Səhabələr o zaman Peyğəmbərin ayrılığına dözə bilmədikləri üçün, Corfda onun vəziyyətinin məlum olmasını gözləyirdilər. Bu təxir Peyğəmbərə olan şiddətli bağlılıqdan irəli gəlirdi! Vəzifəni yerinə yetirməkdə süstlük göstərmələrində heç bir qərəzli fikirləri yox idi. Onlar təkcə iki nəticədən birini gözləyirdilər: ya Peyğəmbərin şəfa tapması ilə gözləri nurlanacaqdı, ya da Peyğəmbərin dəfnində iştirak etmək şərafəti onlara qismət olacaq və onun yerinə olacaq şəxsin iş başına gəlməyə imkan yaradacaqdılar. Beləkiklə onların hərəkəti, təxirə salmalarında üzrü qəbul edilməli və onlara heç bir irad tutulmamalıdır.[1]

Məhəmməd Hüseyin Heykəl yazır: Onlar Peyğəmbəri elə bir halda qoyub, Mədinədən uzaq olan bir məntəqəyə necə gedə bilərdilər?! Elə yaxşısı Peyğəmbərin vəziyyəti məlum olana qədər gözləmək idi.[2]

Belə üzr düzəltmələr suallara cavab olmazdan qabaq, özü sual doğurur. Bu, Peyğəmbərə olan məhəbbətdən irəli gəlirdimi?! Ordunun hərəkətini tə`xirə salmaqla həzrəti o qədər qəzəbləndirirlər ki, onları lənətləyir?! Məgər Peyğəmbər özünün və onların vəziyyətini dərk etmirdi?! Belədirsə, onda nə üçün hətta yarım gün belə onlara möhlət vermir?! Halbuki onlar bəlkə ordunun hərəkət etməsini yarım gün deyil, iki həftə təxirə saldılar? Bundan əlavə, islamın məsləhətini onlar daha yaxşı bilirdi, yoxsa Peyğəmbər?!

Qazi Əbdul Cabbar Mötəzili yazır: Qoşunda camaata rəhbərlik etməyə ləyaqəti olanlara, ordudan ayrılaraq özlərindən birini rəhbər seçmələri lazımdı? Çünki imamı seçmək, döyüşdə iştirak etməkdən daha əhəmiyyətli bir məsələdir. Beləliklə səlahiyyəti olana (Əbu Bəkr kimisi ) seçılməzdən qabaq ordudan ayrılmaq caizdir. Ondan sonra da ehtiyacı olduğu şəxsi (Ömər kimisini) ordudan ayırmaq ona caizdir.[3]

Bu nəzər düz olarsa, onda Allahın Rəsulunun (s) qoşunu göndərmək barədə olan qəti qərarını (Allaha pənah) boş, əbəs iş və müsəlmanların məsləhətinin əleyhinə olan bir qərar kimi qəbul etməliyik! Əgər camaatın dini rəhbərini seçmək müsəlmanların öhdəsindədirsə və qoşunda belə adamlar vardırsa, bəs nə üçün Allahın Rəsulu (s) onlardan tez bir zamanda Mədinədən uzaqlaşmasını istəyir? Görəsən Peyğəmbər imamı seçməyin, döyüşdə iştirak etməkdən mühüm olmasını bilmirdimi?! Peyğəmbər qoşunun tez bir zamanda hərəkətinə dair əmr verdiyi halda, bu necə caizdir ki, bir nəfər qoşundan ayrılandan sonra başqa birisi üçün də Mədinədə qalmaqa icazə istəyir?! Allahın Rəsulu (s) vacibə qədər onlardan tez bir zamanda Mədinəni tərk etmələrini istədi onlarsa boyun qaçırdılar. Peyğəmbərin əmrindən çıxmaqdan əlavə,Quran onlara əmr verməmişdimi: ما اتاكم الرسول فخذوه و ما نهاكم عنه فانتهوا Rəsulum sizə nə (hökm) verirsə götürünvə sizə nəyi qadağan edirsə ondan əl çəkin.[4]və həmçinin“Nisa” surəsinin 65-ci ayəsini:

---

[1] “Əl-muraciat”, 91 .

[2] “Həyaty Muhəmməd (s)”, səh. 468-470.

[3] “Nəhcul-Бəlağənin şərhi” İbn Əbil-Hədid, 17-ci cild, səh. 176, “ Tarixin ən qara həftəsi” səh. 37-dən nəqləн.

[4] “Həşr”surəsi, ayə: 7.

فلا وربك لا يؤمنون حتى يحكموك فيما شجر بينهم ثم لا يجدوا في انفسهم حرجا مما قضيت و يسلموا تسليما

"Amma belə deyildir (onların imanları yoxdur)! Sənin Rəbbinə and olsun ki, onlar aralarındakı ixtilaflarda səni hakim etməyincə, sonra isə sənin verdiyin hökmə görə özlərində heç bir sıxıntı və narahatlıq duymayıb tamamilə təslim olmayınca iman gətirməzlər"[1] – eşitməmişdilərmi?!

Həqiqətdə əhli-sünnə təhqiqatçılarının orduda olanların bəzisinin itaətsizliyinin səbəbi haqqında açıq nəzərləri olduğu yerdə, belə bəhanələrə yer yoxdur. Bu bəhanələr məsələni həll etməməkdən əlavə, onu daha da mürəkkəbləşdirib, cavabsız saxlayırlar.

İbn Əbil Hədid yazır: Bir zaman ustadım Əbu Cə`fər Nəqibdən Əlinin aydın şəkildə xilafətini bildirən rəvayət haqqında soruşub dedim: İnanmaq olmur ki,Peyğəmbərin səhabələri Onun əmrinə mane olmaqda yekdil fikirdə olsunlar. Bu sanki namaz vaxtı üzü qibləyə durmanın, Ramazan ayında oruc tutmanın və s. qarşısını almaqa bənzəyir.

Ustadım dedi: Onlar xilafət məsələsini namaz və oruc kimi qiymətləndirmirdilər; onu siyası-ictimai bir məsələ sayır və məsləhət bildikləri zaman Peyğəmbərlə müxalifətçilik edirdilər. Bu işdə heç nədən də çəkinmirdilər. Elə bu səbəbdən də Əbu Bəkr və Ömər Usamənin ordusunda olmaqdan boyun qaçırdılar. Onlar Mədinədə qalmağı məsləhət sayırdılar."[2]

Əbu Cə`fər Nəqib onların Mədinədə qalmaqdan ötrü, özləri üçün nə məsləhət görmələri haqqında bir söz demir. Hansı ayəyə əsaslanaraq Peyğəmbərin (s) siyasi və ictimai əmrlərindən boyun qaçırmanı caiz bilirdilər?! Halbuki Quran " ما آتاكم الرّسول فخذوه و ما نهاكم عنه فانته" deməklə ibadi və ictimai işlərin arasında heç bir fərq qoymamışdır.

Görəsən, Allahın Rəsulu (s) orduda iştirak edən ilk mühacirlər qurupunu və ənsarı vacib olmayan bir işi tərk etmələrinə görə lənətləyirdi? Peyğəmbər bir işi yerinə yetirib – yetirməmələrində tam azad olan insanlardan öz şəxsi düşüncələrini kənara qoyub onun fikirlərinə itaət etmələrini umurdumu?! Peyğəmbərin müstəhəb və təkcə yol göstərmə tapşırıqlarını ayırmaq o qədər də çətin deyildi. Belə bir məxsus iş (çoxlu dəlil və subutlar ilə) heç də qeyd nümunələrdən deyil.

İbn Əbil Hədid "Nəhcül bəlağənin" 156-cı xütbəsinin şərhində ustadı Şeyx əbu Yə`qub Mötəzilinin dilindən yazır: Peyğəmbərin xəstəliyi şiddətləndkdə, Usamənin ordusunun Şama tərəf hərəkət etməsinə əmr verib Əbu Bəkr və digər mühacir və ənsar böyüklərinin orada olmasını buyurdu ki, Allah Rəsulu üçün bir iş qarşıya çıxdıqda Əlinin xilafətə çatması daha arxayınlıqla baş versin.[3]

Bu təhqiqatçı alim başqa bir yerdə bu sözə irad tutaraq yazır:

---

[1] "Nisa"surəsi, ayə: 65.
[2] "Nəhcül-bəlağənin şərhi", 12-ci cild, səh. 83 (İbn Əbil-Hədid).
[3] "Nəhcül-bəlağənin şərhi", 9-cu cild, səh. 197 (İbn Əbil-Hədid).

Daha yaxşı belə deməkdir: Peyğəmbər vəfat etdiyi zaman Əbu Bəkr və Ömərın Mədinədə olacaqları təqdirdə əmisi oğlu (Əlini) kənara qoyacaqlarını dəqiq bilmirdi, əksinə sadəcə güman edirdi. Elə buna görə də Mədinədən çıxmalarına göstəriş verdi. Biz də bu işi öldüyümüz zaman öz uşaqlarımızla edirik. Əgər övladlarımızın hər hansı birinin biz öləndən sonra mallarımızı ələ keçirib digərlərinə bir şey verməyicəyindən qorxsaq, onu uzaq bir yerə səfərə göndəririk.[1]

Bütün bunlardan Usamət ibn Zeydin başçılıqı altında ordunun hərəkət etməsinə olunan təkidin və Əli ibn Əbi Talibin (ə) müxaliflərinin vaxtında uzaqlaşdırılmasının O həzrətin imamətə yetişməsinə görə baş verdiyi çox gözəl məlum olur ki, sağlam ağlı olanlar üçün bu proqramın onlarla incəliyi vardı. Onlar Allahın Rəsulunun (s) müsəlmanlara, başçının "şöhrətli və çox yaşlı" olmaq əsasında deyil, ləyaqət əsasında olması qanununu öyrətməklə yanaşı kiçik bir müharibədə yeniyetmə bir cavana itaət etməklə daha böyük olan və nübuvvətlə bərabər tutulan imamətə ləyaqətləri olmamasını da bilirdilər. Bunlardan əlavə, bu göndəriş bir çoxlarının iç üzünü ifşa edirdi. Çünki, camaat qoşunda iştirak etməkdən boyun qaçıranları və nəticədə Peyğəmbərin qarğış etdiklərini aşkara gördülər.

## YAZILANLARDAN YÜZ QAT ARTIQ YAZILMAYANLAR

Qədir hadisəsindən Usamənin ordusunun ezamına qədər olan hadisəıər, həmçinin çox da az olmayan səhabələrin bu işlə müxalifəti göstərirdi ki, bir dəstə adam Peyğəmbərin (s) xəstəliyini nəzərə alaraq, o həzrətin ölümünü və daha sonra hökuməti ələ keçirmək fürsətini gözləyir və hədəflərinə nail olmaq üçün heç bir şeyi əsirgəmirdilər. Buna görə Peyğəmbər öz ətrafında olanları yaxşı tanıdığı üçün tezliklə baş verə biləcək hadisələri nəzərdə alıb həyatının son fürsətində risalət dövrünün ən mühüm xəbərini, gələcək nəsillərə aydın bir şəkildə çatdırmaq istəyirdi.

O həzrət ömrünün son günlərini çox zaman Ayişənin evində xəstəlik yatağında olurdu. O, yatağını qızı Fatimənin (s) evinə köçürməmişdi.

Əbu Hamid Mədaini bu barədə yazır:

Allah Rəsulu (s) əvvəlcə qızı və kürəkəni üçün narahatlıq yaratdı. Çünki belə vaxtlarda insan başqasının evindən, hətta kürəkününin evi olmuş olsa, daha çox öz evində rahat olur.

Cümə axşamı (Peyğəmbər (s)-in vəfatından dörd gün əvvəl) son günlərində insanınların asimanla əlaqələri kəsilən vaxtlarda Allahın Rəsulu (s) yataqda idi, vəsiyyət yazmaq üçün kağız-qələm istədi. Səhabələrdən bir neçəsi ətrafında, qadınlar və qızı Fatimə (s) isə pərdənin arxasında idi.

İkinci xəlifə həmin hadisəni İbn Abbas üçün belə rəvayət edir:

Biz Allahın Rəsulunun yanındaydıq. Bizimlə qadınlar arasında pərdə asılmışdı. O həzrət danışmaqa başlayıb dedi: "Yazı ləvazimatı gətirin. Sizə bir şey yazım ki, onun olmasıyla heç zaman düz yolu itirməyəsiz." Peyğəmbərin qadınları dedilər: "Peyğəmbərin istəyinə əməl edin!" Mən dedim: "Sakit olun! Siz Peyğəmbərlə olan

---

[1] "Nəhcül-bəlağənin şərhi", 1-ci cild, səh. 161 (İbn Əbil-Hədid)

qadınlar, o xəstələndikdə göz yaşı axıdır, şəfa tapdıqda yaxasından tutursunuz!" Bu zaman Allahın Rəsulu buyurdu: "O qadınlar sizdən yaxşıdır."[1]

Məhəmməd ibn İsmail Buxari yazır:

Orada olanlardan biri elə həzrətin hüzurunda dedi: "Ağrı ona üstün gəlmişdir və o, danışığını bilmir!" Başqalarına üzünü tutub dedi: !Quran sizin yanınızdadır və o (Quran) bizə bəsdir!" Bu zaman orada olanların arasına ixtilaf düşdü. Bir-birinə çığırmaqa başladılar. Bəzisi onun, digərləri Allahın Rəsulunun sözünü təsdiq edirdi. Beləliklə, məktubun yazılmasının qarşısı alındı.

İbn Abbas deyir:[2]

Nə qüssədi gün idi cümə axşamı! O gündə Peyğəmbərin xəstəliyi gücləndi.O, olduğu yerdə haqdan kənara çıxmamanız üçün bir şey yazmaqa kağız və qələm istədikdə orada olanlardan biri dedi: "Allah Rəsulu sayıqlayır!" Peyğəmbərə dedilər: "İstədiyini edəkmi?" Peyğəmbər buyurdu: "Bütün bu olanlardan sonramı?!" Beləliklə, Peyğəmbər bir daha onu yazmaq istəmədi.[3]

Həmçinin deyir: Peyğəmbərin hüzurunda dava-dalaş və səs-küy baş qaldırdı. Dsdilər: "Peyğəmbərə nə olub?! Sayıqlayırmı?!" Onlar öz sözlərini təkrar etdilər. Həzrət buyurdu: Mənimlə işiniz olmasın! Mənim öz halım (ağrı və dərdim) sizin məni çağırdığınızdan (nisbət verdiyinizdən) yaxşıdır.

Sonra üç şeyi vəsiyyət etdi:

1) Müşrükləri yarımadadan çıxarın.

2) Nümayəndə heyətlərinə mən bəxşiş etdiyim qədər bəzşiş edin.

Peyğəmbər üçüncü məsələni demədən susdu.[4]

Həmçinin yazır: Peyğəmbərə belə dedikdən sonra, birbiriylə söhbətə başladılar. Allah Rəsulu buyurdu: "Mənim yanımdan çıxın!"[1]

---

[1] "Səhihи-Бuxari", 4-cü cild, səh. 85 və 8-ci cild, səh. 9, "Müsnədи-Əhməd", 1-ci cild səh. 425, "Ət-təbəqatül-kübra" 2-ci cild, səh. 224. Buxari burada xəbəri deyənиn adынын çəkməsə də, (Livanın "Дarul fikir" çapxanasının çapının) 5-ci cild səh. 243-də ad çəkir. Daha artıq məlumat üçün "Səhihi-Buxari" 5-ci icld, səh. 137-224 və 7-ci cild, səh. 9-a müraciət едə билəрсиниз.

[2] Abbdullah ibn Abbas Peyğəmbərin əmisi oğlu вə alimdir. Abbasın kiçik oğlu və Quran təfsirçisi kimi tanınır. Hicrətdən üç il qabaq dünyaya gəlmişdir. Cəməl, Həhrəvan və Siffeyn müharıbələrində Əli (ə) qoşununda иштирак етмиш вə o həzrətин tərəfindən Bəsrənin hakimi olmuşdur. Əli (ə) xilafətinin sonlarına yaxın , beytül-malı mənimsəməsi və dünyaya olan əlaqəsinə görə həzrət tərəfindən хəбəрдарлыгла мəзəммəт олундугда, Bəsrədən Məkkəyə getmişdi. Əbdullah ibn Zübeyrin xilafəti zamanı Məkkədə idi. İbn Zübeyr onu Taifə sürgün etmiş , orada da dünyadan getmişdir. "Əl-isabə" 2-ci cild, səh. 22, "Usdül ğabə" 3-cü cild, səh. 192, "Əl-istiyab" 2-ci cild, səh. 345" Əbdullah o biri iki qardaşından elm, Quran təfsiri, fiqh və hədisdə üstün иди амма, ömrünün sonuna qədər Əli (ə) himayə etmədə o, iki qardaşının mərtəbəsinə çata bilməz.

[3] "Ət-təbəqatul-kübra"2-ci cild, səh. 242.

[4]"Səhihи-Бuxari" 5-ci cild, səh. 137 üçüncü hədis, mərəzunnəbiyy babı.

Qeyri şiədən olan rəvayətlərdə бүтүн рəвajəтлəр Ибн Abbasın tamam rəvayət olunmur. Lakin başqa hədislərlə jaн-jaна qojuqda vəsiyyətin qalan hissəsidə məlum olur. Təbəri, Əhməd ibn Hənbəl və Buxari yazırlar: ليست الثالثة الا الامر الذى اراد النبيّ (ص)ان يكتبه: Üşüncü iş Allahın Rəsulunun yazmaq istədiyi məsələдəн башга бир шej дejилди, (amma başqaları imkan vermədi. ) "Tarixül-üməmi vəl-müluk", , 2-ci cild, səh. 436, "Müsnədи-Əhməd" 1-ci cild, səh. 222, "Səhihи-Бuxari" 4-cü cild, səh. 85, 5-ci cild, səh. 75 və 6-cı cild, səh. 11: Həmçinin "Ən-nəssü vəl-ictihad" 16 və "Əlmüraciat" 86.

Ömər ibn Xəttabın bu sözü deyənin özü olmasını etiraf etməsinə baxmayaraq, rəvayətlərdə bu mövzu ya kitablardan çıxarılır, ya da təhrif olunmaqla yazılır. Təhqiramiz sözü deyənin adı çəkilmir [2] və ya onu yozmağa çalışırlar.

İbn Əbil-Hədid o hadisənin rəvayətlərini qəbul etdikdən sonra yazır:

Əlbəttə (belə bir rəftar Ömər ibn Xəttabdan el ədə gözlənilməz deyildi , çünki) həmişə Ömərin sözlərində tündlük, kobudluqla yanaşı əzabverici və axmaqsayağı əxlaq, təkəbbürlük və özünü böyük bilmə olmuşdur. Onun bu sözünü eşıdən hər bir kəs, doğurdan da Peyğəmbərin sayaqlamasını deməsini başa düşərdi. Lakin Allaha pənah aparırıq ki, o belə bir niyyətlə söz demiş olsun. Bəli, tünd və davakar əxlaqı onu belə bir hərəkət etməyə məcbur etmiş, o da nəfsi ilə bacarmayıb bir söz demişdir. Beləliklə onu müqəssir saymaq lazım deyil. Çünki Allah onu belə yaratmış və o öz ixtiyarında olmamışdır. Özünü dəyişdirə bilməməsi üçün yaxşıydı ki, belə deyəydi: Xəstəlik peyğmbərə üstün gəlmişdir, ya (deyəydi ki,) öz təbii halında danışmır (huşsuzdur). [3]

İbn Əbil-Hədiddən bu iki cümlə ilə qabaqkı cümlənin fərqinin nədən ibarət olmasını soruşmaq lazımdır!

Həqiqət budur ki, Ömər ibn Xəttab öz e`tiqadını demişdir. O, bilirdi ki, belə bir etiqadla Peyğəmbəri sehrbaz və dəli adlandıran müşrüklərlə bir cərgədə olacaqdır! Uzaq bir ehtimaldır ki, belə yaramaz şeyləri Peyğəmbərdən uzaqlaşdıran ayələri eşitməmiş ya oxumamış olsun. O, “Nəcm” və “Haqqə” surələrindəki ayələri mütləq eşitmişdir ki, buyurur:

ما ضَلَّ صاحِبُكُم وَ ما غوَى. وَمَا يَنْطِقُ عَنِ الهَوَى. انْ هُوَ الاَّ وَحْيٌ يُوحَى. عَلَّمَهُ شَدِيدُ القُوَ [4]

Sizin yoldaşınız və dostunuz (Muhəmməd (s) ) nə (əməldə səadət ) yolundan çıxıb və nə də (əqidə-sində haqdan) azıb. O, (Quranın və ilahi tapşırıqların çatdırılmasında) əsla nəfsi istəkləri ilə danışmır.

Dedikləri yalnız, (yuxarı aləmdən) ona ilham olunan vəhydir. Onu ona (Peyğəmbərə) quvvələri möhkəm və güclü olan (əmanətdar Cəbrail) öyrətmişdir.(Nəcm surəsi 2-5-ci ayələr)

---

[1] “Səhihи-Бuxari” 4-cü cild, səh. 85 və 121, 6-cı cild, səh. 11, 7-ci cild, səh. 156. “Nəhcül bəlağənin şərhi İbn Əbil-Hədid” 1-ci cild, səh. 182 və 2-ci cild, səh. 20, “Əttəbəqatul kübra” 2-ci cild, səh. 242. “Əl-izah” Ибn Şazan səh. 186 Beyrut çapı, “Müsnədi-Əhməd”, 1-ci cild, səh. 22 və 90 3-cu cild, səh. 343 , “Tarixy mədunətiд-Дəмəшq” 6-cı cild, səh. 451, “Əs-sirətul-hələbiyyətu” 3-cü cild, səh. 381, “Səhihi-Müslim” 2-ci cild, səh. 11 və 5-ci cild, səh. 75 və 11-ci cild, səh. 89 , “Kənzul ummal” 3-cü cild, səh. 138.

[2] Bu рəвajəт “Səhihи-Бuxari və Səhihи-Mülüm” kitablarında yeddi yerdə qeyd olyнmuşdur. Ömər ibn Xəttabın adı çəkilən üç yerdə cümlə belə deyilir: قَدْ غَلَبَ عَلَيْهِ الوَجَعُ- xəsləlik Peyğəmbərə qələbə etmişdir (qarışıq sözlər danışır) Ömərin adı çəkilməyən digər yerlərdəsə cümlə belədir: هَجَرَ رَسُولُ اللهِ- Allahın Rəsulu sayıqlayır. (“Seyri dər səhiheyn” səh. 367)

Necə yazılmasından asыlı olmayaraq mənbələrdə Ömər ibn Xəttabdan savayı bir kəsin danışması və вəсиjjəтин yazılmasının qarşısının alınmasında iştirak etməsi qeyd olyнmamışdır. Təkcə bunu: “digərləri də Ömərlə həmrəy oldular” – deməklə kifayətlənmişlər ki, onlardan biri də Osman ibn Əffan olmuşdur.

[3] “Nəhcül-bəlağənin şərhi”, 1-ci cild, səh. 61(ubn əbil Hədid).

[4] “Nəcm”surəsi, ayə: 2-5.

اِنَّهُ لَقَوْلُ رَسُولٍ كَرِيمٍ . وَ ماَ هُوَ بِقَوْلِ شَاعِرٍ قَلِيلاً مَا تُؤْمِنُونَ . وَ لا بِقَوْلِ كَاهِنٍ قَلِيلاً مَا تَذَكَّرُون
تَنْزِيلٌ مِنْ رَبِّ العَالَمِينَ .وَ لَوْ تَقَوَّلَ عَلَيْنَا بَعْضَ الاَقَاوِيلِ. لّأَخَذْنَا مِنْهُ بِالْيَمِينِ ثُمَّ لَقَطَعْنَا مِنْهُ الوَتِي[1]

Şübhəsiz, bu (Quran) möhtərəm bir elçinin (Cəbrailin və Peyğəmbərin) sözüdür. Bu, bir şairin sözü deyildir! (Lakin) siz çox az iman gətirirsiniz! Və nə də (ki, cinlərdən söz öyrənən) bir kahinin sözüdür! (amma çox az öyüd nəsihət alırsınız. (Bu kitab)aləmlərin rəbbi tərəfindən nazil edilmişdir. Və əgər o, bəzi sözləri nahaqdan Bizə nisbət versəydi, şübhəsiz onu bütün qüdrətimizlə yaxalayardıq və yaxud sağ əlini əzaba çəkərdik. Sonra da şübhəsiz, onun ürəyinin şah damarını qopararardıq.("Əl-haqqə" surəsi, 40-46-cı ayələr).

Ayələrdən əlavə ağıl bu xüsusiyyəyləri nübuvvət məqamından uzaq bilir. Əks təqdirdə Peyğəmbər də (s) digərləri kimi olacaq və belə bir halda kiçik bir sözünə belə bel bağlamaq mümkün olmayacaqdır.

Bəs, görəsən, onda belə bir nisbəti verməklə o, hansı hədəfi güdmüşdür? O, istəmirdimi ki, Peyğəmbər bir şeyi yazmaqla dünyanın sonuna qədər olacaq insanların düz yoldan çıxmalarının qarşısı alınsın?! Görəsən, dünyanın sonuna qədər olacaq insanların hidayət tapmasından qiymətli bir şey vardır?! Hansı məsləhət bu işdən yuxarıdır?! Əbu Bəkr də Ömərin xilafətini vəsiyyət etdiyi zaman təbii haldan kənara çıxmışdı, lakin heç kəs onun sayıqlamasını demədi! Baxmayaraq ki o, nə Peyğəmbər kimi məqama, nə də şə`nə malik deyildi! O, xilafət məsələsini yazdığı zaman bihuş oldu. Osman Əbu Bəkrin vəsiyyət etməzdən qabaq ölməsindən qorxaraq onun (Əbu Bəkrin) nəzəri olmadan yazını Ömərin canişin təyin olması ilə tamamladı. Əbu Bəkr ayılıb huşa gəldikdən sonra onu imzaladı.[2]

Görəsən, Allah Rəsulunun (s) əmri və istəyi vacibi çatdırmırdı? Necə oldu ki, həzrətin Əhli-beyti o sözdən vacib olmanı başa düşdülər? Bundan başqa caizdirmi Peyğəmbərin vacib olmayan sözləri belə qəbul olunmasın və adi insanların qarşısında xəstə və can halında (hörmətsizlik rəva olmadığı halda) hörmət qoyulmadan səs-küy salınsın və ucadan danışılsın?!

Allahın Rəsulunun (s) o sözdən sonra artıq  yazmaq istəməməsi bu demək deyildi ki, Öz əmrini vacib bilmirdi, əksinə başqa bir səbəb də vardı ki, sonradan deyiləcəkdir.

Həqiqət bunu göstərir ki, orada olanların verilən əmrdən başa düşdükləri, vacibdən başqa bir şey olmamışdır. Digər bir şeyi başa düşsəydilər iş ixtilaf və davaya çəkməzdi. Əməl etmək istəyən əməl edər, etmək istəməyənsə əməl etməzdi. Amma öz hədəflərinə yetişə bilməyən dəstə, vacıb işi qəbul edə bilmədiklərindən, aşikara ondan boyun qaçırdılar. Cammat yersiz danışan xəstənin bəhanəsinin ardınca getmədikləri kimi, tələb olunanın ağıl və sağlam düşüncə ilə deyilməsində şəkk yaratmaqla, əməl edilməsinin zəruriliyini bildirdilər.

Allahın Rəsulunun (s) həyatı boyu, həmçinin ömrünün son günlərində dediyi sözlərin arasında təkcə o cümləydi ki, xəstəliyin şiddətlənməsi və s. görə deyilirdi?

---

[1] "Haqqə" surəsi, ayə:  40-46.
[2] "Əsrarи Səqifə" (Səqifənin sirləri).

Nə üçün Usamənin ordusunun yığılması və hərəkət etməsi barədə təkidlə fərman verəndə heç kəs Peyğəmbərə sayıqlamaq nisbətini vermədi? Təkcə onu tə`xirə saldılar ki, bu da öz hədəflərinə çatmaq üçün bir səbəb idi. Buna görə də son ana qədər hətta vəsiyyət yazılmasını istədikdən dörd gün sonra Usamənin qoşununun hərəkət etməsinə israr edir, böyun qaçıranları lənətləyirdi. Lakin (həzrətə) heç bir nisbət verməyərək təkcə boyun qaçırırlar. Əbu Bəkrlə beyət olunduqdan sonra isə azacıq gecikmədən belə, təkid olunan əmr həyata keçırılir!

Bu töhmətdən sonra Peyğəmbərin şifahi vəsiyyətinə heç kəs müxalif olmur. Sadəcə olaraq onlardan ilk ikisi qəbul edilir, birisə qələmdən düşür. Bundan əlavə, deyilənlərə görə Peyğəmbər (s) ömrünün son anlarında Əbu Bəkrə (camaatla) namaz qılmaq göstərişini verirmiş, lakin bu göstəriş sayıqlamaqla qiymətlənməmişdir![1]

Keçən bəhslərdə Əbu Cəfər Nəqibdən nəql etdikdə, işarə etdik ki, o səhabələrin köməkləşərək Əli ibn Əbi Talibin (ə) xilafətə yetişməsinin qarşısını almalarını qəbul edərək demişdir: Onlar xilafət məsələsini digər dünyəvi məsələlər, məsələn, sərkərdələrin başçılığı, döyüşlərdə tədbirçi, siyasətçi və rəiyyət idarə etmək kimi başa düşür, elə buna görə də məsləhət bildikləri məsələlərdə Peyğəmbərin (s) göstərişləriylə müxalifət edirdilər.[2]

## VƏSIYYƏTIN MƏZMUNU VƏ YAZILMASININ QARŞISININ ALINMA SƏBƏBLƏRI

Ömər ibn Xəttab, İbn Abbasla söhbətində deyir: [3]Allah Rəsulu (s) Əlini çox tərifləyirdi. Əlbəttə bu təriflər heç nəyi sübut etmir və hüccət də deyildir. O, Əlini təriflməklə (həqiqətdə) öz ümmətini yoxlamaq istəyirdi. (Görsün ki, ümmət öz peyğəmbərlərinə nə həddə itaət edir.) O, həzrət xəstə olduğu zaman bu məsələni açıqlamaq istəyirdi ki, mən qarşısını aldım.[4]

Başqa bir rəvayətdə deyilir:

Allahın Rəsulu (s) onu xilafətə namizəd etmək istəyirdi. Mənə fitnə baş verə biləcəyindən qorxaraq mane oldum. Peyğəmbər mənim niyyətimdən agah oldu (öz istəyi haqqında israr etməkdən) və əl çəkdi.[5]

İbn Abbas deyir:

Ömər Şama etdiyi səfərlərindən birində, öz dəvəsində tək idi, o zaman mənə dedi: "İbn Abbas! Əmin oğlundan şikayətçiyəm. Ondan mənimlə getməsini istədim, ancaq o, razılaşmadı. Mən hələ də onu acıqlı və incik görürəm. Görəsən acığı nədən ola bilər?" Dedim: "Sən özün bilirsən." Ömər dedi: "Sənin fikrincə O, hələ də xilafəti əldən verməsinə görə narahatdır?" Dedim: "Bəli belədir. O, fikirləşir ki, Allahın Rəsulu (s) onu xəlifə seçmişdi." Ömər dedi: "Allahın Rəsulu (s) Onu xəlifə seçmişdi, lakin nə etmək olar ki, Allah belə istəməmişdi! Allahın Rəsulu bir şeyi, Allah isə

---

[1] Siyahtərin həfteye tarix"(Tarixin ən qara həftəsi), səh. 231-232.
[2] "Nəhcül-bəlağənin şərhi", 12-ci cild, səh. 83(İbn Əbil-Hədid. )
[3] Bu haqda sonradan "Peyğəmbərin canişini" bəhsimdə danışacağıq.
[4] "Nəhcül-bəlağənin şərhi", 3-cü cild, səh. 97 (Əl-muraciatdan nəqləн, s. 106)
[5] Јенə орада.

başqa bir şeyi istəmişdi. Bu zaman Allahın iradəsi üstün gəlmiş, Rəsulunun istəyi icra olmamışdı. Məgər Allahın Rəsulunun hər istəyi yerinə yetirdi? Əmisi Əbu ləhəbin müsəlman olmasını istədi, lakin olmadı."

Maraqlı və incə məsələ budur ki, Allahın Rəsulunun (s) "qələm-kağız gətirin, sizə bir şey yazım ki, məndən sonra azıb haqq yoldan kənara çıxmayasnıız" – deməsindən nə istəyəcəyini Ömər ibn Xəttab bütün incəlikləri ilə bilirdi. Onun ani əksül əməl göstərməsi bütün hadisələrlə tanış olmasına bir dəlildir. O, həmin anda hər şeyi çox diqqətlə izləyir, zirəkliyini və vaxt tanımasını ən yüksək dərəcədə işə salmışdı.

Həzrətin danışığı elə tənzim olunmuşdu ki, böyük ehtimalla orada olnların bir çoxu nə yazmaq istəməsini başa düşmüşdülər.

1. Yazının şəriət məsələləri və adi ışlər barəsində olmamasında heç bir şəkk yox idi. Belə ki, yazılması istənilən şeyə əsasən ona itaət edən kəs heç zaman haqdan çıxmayacaqdı. Əgər yazılmalı şey məsələlər olsaydı, onunla heç kim müxalifət etməzdi, nəinki təhqiramiz söz deməz, heç azacıq belə! Yazılması istənilən şey hər nə idisə, Ömərin çox qorxduğu bir məsələ haqqında idi. Ona görə də hələ yazılmamış o qədər qəzəblənir ki, İbn Əbil-Hədidin dediyinə görə nəfsinin qarşısını ala bilməyərək o nalaiq sözü deməkdən özünü saxlaya bilmir.

2. O cümlə hər nə olsa da, bir hissəsi həzrətin istəyində yer almışdı. Belə ki, həzrət buyurur: "Əgər bu mətləbi yazsam heç kəs haqdan çıxmayacaqır." Sanki bundan qabaq həzrət ona oxşar cümlə buyurmuş və cümlələrin oxşarlığı səbəb olmuşdu ki,o Peyğəmbərin cavabında "(bir şeyin yazılması lazım deyildir) Quran bizim aramızdadır və Allahın kitabı bizə bəsdir!" demişdi!?

O, haradan bilirdi ki, Peyğəmbər nəyisə Qurana qoşmaq istəyir!?

Həqiqət budur ki, Peyğəmbərin vəsiyyətinin mövzusu tamamilə məlumdu. Həyata keçirmək istədiyi işisə təkcə demək deyil, yazmaq istəyirdi. Çünki o məsələ əvvəllər dəfələrlə açıqlanmışdı. Sözsüz, bütün ümmətin hidayət olunmasına səbəb olan məsələ təkcə o həssas vaxta qalmamışdı. Əks təqdirdə, deyilməsinə müvəffəq olmadıqda ümmət hidayətdən uzaq düşə bilərdi. Odur ki, bir çox hallarda onu xatırlatmışdı. Belə olmadıqda (əgər bu məsələni qabaqlar deməmiş, indi də) yazmaqa müvəffəq olmazsa, qəbul etməliyik ki, ümmətini həmişəlik azqınlıqda qoyaraq onları tərk etmişdir.

Bu araşdırmadan əlavə, tarix bizə göstərir ki, bu acı hadisədən əvvəl və eləcə də sonra haqqında qələm və kağız istədiyi o cümləni özündə ehtiva edən başqa kəlamlarında buyrurmuşdur. O kəlam "Səqəleyin" hədisidir. Səhabələr dəfələrlə O həzrətdən eşitmişlər ki:

«انّی تارك فیكم الثّقلین كتابَ الله وعترتی ما ان تمسّكتم بهما لن تضلّوا ابداً و لنْ یضفترقا حتّی یردا علیّ الحوض»[1]

[1] Hakim Nişapuri onu belə rəvayət etmişdir: لن تضلوا ان اتذبعتموها O, ikicинə itaət etsəниz, heç zaman azmazsıныz. ( "Əl-müstədrəkü ələs-səhiheyn" 2-ci cild, səh. 109.) Şiə və sünnü təhqiqçiləri Peyğəmbərin bu cümləni buyurduğu yerləri saymışlar. Əлавə məlumat üçün "Səhihi-Tirmizi", 5-ci cild, səh. 462, 3786-cı hədis, "Əl-qədir", 1-ci cild. )

**"Mən sizin aranızda iki ağır və qiymətli şey qoyuram: Allahın kitabı və ailəm. Nə qədər ki, onlardan tutmusunuz, heç zaman (haqdan) azmayacaqsınız. "Kövsər" hovzunun yanında mənim yanıma gələnə qədər onlar bir-birindən ayrılmayacaqlar."**

İbn Həcər yazır:

Ömrünün son günlərində yoldaşlarımdan bir dəstəsi Allahın Rəsulunun yatağının ətrafına yığılmışdı. Həzrət onlara xitabən buyurdu:

Camaat vəfatım yaxınlaşmışdır. Tezliklə aranızdan gedəcəyəm. Agah olun! Sizin aranızda Quran və Əhli-beytimi[1] əmanət qoyuram. Hər ikisinə itaət edin. (Bu zaman Əlinin əlindən tutub buyurdu:) "Bu Əli Quranla, Quran da Əli ilədir. Onlar bir-birindən ayrılası deyillər."[2]

## PEYĞƏMBƏR (S) VƏSIYYƏTI YAZMADI

Peyğəmbərin (s) vəsiyyətinin dinləyiciləri iki dəstə idi: Müvafiqlər və müxaliflər. Müxaliflər həyasızcasına vəsiyyətdən ehtiyacsız olmalarını bildirsələr də azğınlıqdan nicat tapmaları və həqiqəti daha yaxşı tanımaları üçün vəsiyyətnamənin yazılmasına daha çox ehtiyacları vardı. (Ehtiyacı olanlar vəsiyyətnamənin yazılmasını istəmədikdən sonra) yazılmasının nə faydası ola bilərdi? Peyğəmbərin (s) hüzurunda ona sayıqlamaq nisbəti verənlər, vəsiyyətnamə yazılan təqdirdə, hər yolla olur-olsun, sözlərini sübuta yetirməyə çalışır və bu yolda nahaq qanlar tökməyə belə hazırdılar! Bəlkə bu yolla vəsiyyəti e`tibardan sala bilsinlər. Belə olduqda nübuvvətin özünə irad tutmağa yolu açılar və hər zamanda ixtilaf və mübahisə üçün bu fikrin ardıcılları meydana gələ bilərdi. Elə buna görə də ən yaxşı iş Peyğəmbərin (s) tutduğu yol – yəni vəsiyyətnaməni yazmamaqdı.

Bəlkə də Peyğəmbərin (s) vəsiyyətnamənin yazılmasını məsciddə ümumxalq kütləsinin qarşısında istəməməsinin əsas səbəbi də bu olmuşdur. Əvvəllərdə, "Qədir" hadisəsindən tutmuş Usamənin ordusunun göndərilməsi vaxtına qədər bu adamların etdiyi hörmətsizlik göstərirdi ki, əgər bu məsələ camaatın qarşısında

---

[1] İbn Əbil-Hədid deyir: Peyğəmbərin itrəti və övladlarıdır. Onun qəbiləsini itrəti adlandırmaғımız düz olmaz. Əbu Bəkrin "Səqifə" günü, "biz Peyğəmbərin itrətiyik" – deməsi (diqqət et! Müt.) bir növ məcazи мəнадыр. Necə ki, Ədnanın övladlarının, "biz Peyğəmbərin əmisi oğlanlarıyıq" deməsi дə məcazи мə`на иди. Çünki onlar Peyğəmbərin əmisi oğlanları deyilдилər. Sadəcə, Qəhtan tayfasının qarşısında fəxr etmək üçün özlərini Peyğəmbərin əmisi oğlanları bilirдилər. Allahın Rəsulu (s) өzü itrətin mənasını "Səqəleyn" hədisində buyurmuşdur. Mənim itrətim, yə`ni Mənim əhli beytim. Öz Əhli-beytini də "Təyhir"ayəsinдə;

انّما يريد الله ليذهب عنكم الرّجس اهل البيت و يطهّركم تطهيراً ("Əhzab"surəsi, ayə: 33) əbanı qızı Fatimə, Həsən, Hüseyn, kürəkəni və əmisi oğlu Əlinin üstünə çəkərək açıqlamış və demişdir: "Allahım bunlar Mənim əhli beytimdir. ("Nəhcül-bəlağənin şərhi", 6-ci cild, səh. 375. ).

Əhli sünnətin bir çox mötəbər kitabları, Əmirəl-möminin Əli, imam Həsən, imam Hüseyn və Fatimejи-Zəhranı (s) Peyğəmbərin Əhli-beyti bilirlər ("Müstədrəki-Hakim", 2-ci cild, səh. 414, 3-cü cild, səh. 147, 4-cü cild, səh. 107. "Dəlalis-sidq", 2-ci cild, səh. 67.

[2] "Əs-səvaiqul-muhriqə", 9-cu bab, ikinci fəsил, səh. 75.

olsaydı belə, onların müxalifəti ilə üzləşəcəkdi. Əlbəttə, bu müxalifət evdəkindən daha şiddətli və ziyan verici olacaqdı.

Peyğəmbərə evdə olan hörmətsizlikdən başa düşmək olur ki, bir dəstə adam hər hansı yolla olursa olsun, vəsiyyətin yazılmasının qarşısını almağı qarşılarına məqsəd qoymuşdular. Onlar Peyğəmbərin öz qərarında ciddi olmasını və vəsiyyətin məzmununun rəhbərliyə yetişə bilmələrinə bir maneə olduğunu başa düşdüklərindən sayıqlamaq nisbətini verməkdən başqa çarə görmədilər. Çünki bu söz qədər vəsiyyətin qarşısını ala biləcək heç bir söz ola bilməzdi. Belə bir nisbətin sübuta yetməsi nübuvvət məqamını nöqsanlı etməklə yanaşı, Peyğəmbəri (s) qızdırmalı halda, sayaqlayan sadə insanlar həddinə endirirdi. Belə olduqda, nübuvvətin bünövrəsi və eləcə də Peyğəmbərin dediyi bütün sözləri etibardan salacaqdı. Camaatın arasında belə bir ehtimal yaranacaqdı ki, Peyğəmbər digər sözlərini də tamamilə özündə olmadığı və düzgün düşünə bilmədiyi vaxtda demişdir! Bəlkə də elə bu dəlillərə görə o həzrətə (s) "istədiyinizi sizə gətirməyəkmi?" dedikdə buyurdu: "Daha nədən sonra?" (Bundan sonramı?).

Müxalifləri öz hədəflərinə yetişmək üşün bu qədər israr etmələrindən məlum olur ki, camaatın iştirakı da onlara mane ola bilməzdi. Odur ki, Allahın Rəsulu (s) öz istəyini evdə bildirdi. Əgər hörmətsizlik baş verəcəkdisə də, ümumcamaatın qarşısında deyil, evdə, kiçik bir mühitdə baş versin, beləliklə, Quran və dinlə müxalifət etmək ruhu başqalarına sirayət etməsin və nəticədə bir çoxu haqq yoldan çıxıb həlak olmasın.

Belə nəzərə çarpır ki, əgər o hörmətsizlik məsciddə baş versəydi daha geniş iğtişaşa səbəb olmaqla yanaşı, qan tökülməsi və qırğına da səbəb olardı. Necə ki rəvayətlərdə bunun baş vermə ehtimalını müşahidə edirik. Ömərin sözündən sonra bir dəstə qadam ələm-kağız gətirməyin, digər bir dəstəsi isə gətirin deməyə başladılar. Məlum olur ki, bu tanınmış səhabə öz istədiyi işdə tək olmamışdır. Təbiidir ki, daha böyük yığıncaqda hər iki dəstə - müvafiq və müxalif qrup bir çoxlarını özlərinə tərəf çağırıb onları müdafiə etmələrini istəyəcək və bu zaman qarşıdurmanın baş verməsi qaçılmaz olacaqdı. Belə bir qarışıqlığın baş verməsi həzrətin hədəfləri ilə düz gəlmirdi. Necə ki, həzrət evdə baş verən söz-söhbətə dözməyib buyurdu: "Məndən uzaq olun! Heç bir reyğəmbərin yanında belə səs küyün qalxması rəva deyildir!" Barəsində ilk əvvəldən ixtilaf baş verən və zərbəsinin nə qədər ağır olması məlum olmayan bir yazı ilə insanlar necə hidayət tapıb o olduğu yerdə haqdan kənar düşməsinlər![1]

Amma həzrətin hədəfi ilə ziddiyyəti olmayan şey vəsiyyətnaməni, şifahi olaraq (yazmadan) məsciddə hamının qarşısında açıqlamaq idi. Həmin səbəbdən Allahın Rəsulu (s) xəstəliyinin şiddətinə baxmayaraq məscidə daxil olub minbərin qarşısında dayandı. Hamının gözü yaşla dolmuşdu. (Həzrət) Buyurdu:

انى تارك فيكم الثّقلين كتاب الله و عترتى[2]

---

[1] "Əsrari-Səqifə", səh. 122.

[2] "Əs-səvaiqul-muhriqə", 2-ci fəsıl, 9-cu bab, səh. 75, "Baharul ənvar" 22-ci cild, səh. 472.

"Sizin aranızda iki ağır və qiymətli şeyi (yadigar) qoyuram: Allahın kitabı və itrətimi (Əhli-beyti)."

## TARIXIN QARŞISINDA

Həmin yığıncaqda bir dəstə adam o cümləni deyənə hücum etdilər. Məxsusən, Peyğəmbərin ətrafında olub quranı bilən insanlar "Quran bizimlədir,Allahın kitabı bizə bəsdir!" – sözünü əsassız olmasını yaxşı başa düşürdülər. Belə ki, Quran özü o nisbəti Peyğəmbərdən uzaq bilirdi:

ما ضلّ صاحبکم و ما غوی ما ینطق عن الهوی ان هو الاّ وحی یوحی[1]

Görəsən, Quranı, indi sayıqlamaq nisbəti verdikləri Peyğəmbərdən başqa bir kəs onlara oxumuşdu?! Quran onun sözünün əql və hikmətdən qaynaqlanan, bəlkə ondan da yuxarı İlahi vəhydən qaynaqlanan bir söz olmasını bildirmişdir. Əgər bu mənbədən əlavə başqa bir yerdən söz desəydi, onda onun hansı sözünə arxalanmaq olardı?!

O nalayiq rəftar Həzrəti o qədər incitdi ki, bir an da onların qalmasını istəmədi. Halbuki, Quran bu-yurmuşdur:

انّ الّذین یؤذو الله و رسوله لعنهم الله فی الدّنیا والاخرة و اعدّ لهم عذاباً مهیناً

**"Şübhəsiz, Allah və Onun Rəsulunu incidənlərə Allah dünyada və axirətdə lənət etmiş və onlar üçün xaredici bir əzab hazırlamışdır."**[2]

İnsanların hidayəti üçün kifayət bildikləri Quran buyurmuşdur:

و من یعص الله و رسوله و یتعدّ حدوده یدخله ناراً

**"Hər kim Allaha və Onun Peyğəmbərinə itaətsizlik etsə və Onun sərhədlərini aşsa (Allah) onu oda daxil edəcəkdir)!"**[3]

فإنّ له نار جهنّم خالدین فیها ابداً...

**"...Şübhəsiz, onun üçün cəhənnəm əzabı vardır.Onlar orada əbədi qalarlar."**[4]

فقد ضلّ ضلالاً مبیناً...

"...Şübhəsiz, açıq-aşkar bir azğınlığa düşmüşdür."[5]

Görəsən, Peyğəmbər (s) Allahın kitabının ondan sonra hidayətləri üçün kifayət olmasını bilmirdi?! Bunu demək daha düzgün olar: Onlar özlərini Quranı bilməkdə Allahın Rəsulundan (s) daha yaxşı və üstün görürdülər!

Həqiqət budur ki, tanınmış səhabə Ömər ibn Xəttab bütün zirəkliyi və siyasətinə baxmayaraq burada və bundan sonra elə bir tədbir tökə bilmədi ki, tarix onu mühakimə etməsin. Usamənin ordusunda iştirak etməkdən boyun qaçırması, Peyğəmbərin qüsl-kəfənində və dəfnində iştirak etməməsi, Əbu Bəkr xilafət kürsüsünə yetişənə qədər Peyğəmbərin dünyadan getməsini inkar etməsi, Əbu

[1] "Nəcm"surəsi, ayə: 2-4.
[2] "Əhzab"surəsi, ayə: 57.
[3] "Nisa"surəsi, ayə: 14.
[4] "Cinn"surəsi, ayə: 23.
[5] "Əhzab"surəsi, ayə: 36.

Bəkrin xilafətə yetişməsi üçün canfəşanlıq göstərməsi, Səqifədə Hubab ibn Munzər və Sə`d ibn Ubadə ilə dalaşması, evdə olanlardan beyət alınması üçün Fatimənin evinə adam göndərməsi, Zübeyrin qılıncını sındırması, Miqdadı döyməsi və bu qəbildən olan digər nümunələr bu tarixi nəzərin sübutuna kifayətdir ki, o nalayiq rəftar imaməti və rəhbərlik məqamını ələ keçirmək üçün atılmış bir addım idi.[1] Məhz bu fəaliyyətlər ilə eyni zamanda Əli ibn əbi Talib (ə) ona buyurdu: "Bu gün rəhbəriyyəti Əbu Bəkr üçün möhkəm et, ta ki, sabah sənin özünə nəsib olsun!"

Məşhur mühəqqiqlərdən biri o rəftarın təhlilində yazır:

Psixoloq "Kağız-qələm gətirin, bir şey yazım ki, əgər ona itaət etsələr heç vaxt azmazlar" – deyib öz sözündə israr edən xəstənin doğrudan da, sayaqlayıb-sayaqlamamasını bilmək istəsə onun üstünə qışqırmaz, əksinə istədiklərini gətirməni tələb edər ki, hər nə istəyir yazsın, beləliklə, yazdığından onun sayaqlayıb-sayıqlamamasını müəyyən edə bilsin. Amma rəhmət Peyğəmbərinin başının üstünə yığılanların, xəstəyə baş çəkmənin qaydalarından azacıq belə xəbərləri yoxdu. Əgər bir kəs israrla uca nübuvvət məqamının sayaqlamasını sübut etmək istəyirdisə, (uca nübuvvət məqamından uzaq) yaxşı olardı ki, həzrətin istədiyini gətirəydi və daha sonra yazısı üstündən sübuta yetirəydi. Belə olduqda yazılı sübut əldə etmiş olardı və heç kəs onu belə ittihamına görə təqsirlı bilməzdi.

Əgər (o təhqiramiz cümləni deyən)... azacıq ehtimal versəydi ki, Peyğəmbər (s) onun, yaxud dostlarından birinin adını yazıb tanıtdırmaq üçün qələm-kağız istəyir, Əbu Bəkrin onun adını vəsiyyət edib yazanda qarşıladığı kimi, Peyğəmbəri (s) çox əzəmətlə yad edib qarşılayardı.

Düzü, görəsən, Peyğəmbər qızdırmasının şiddətli günlərində namaz qılmırdı?! Namaz qıldığı halda vəziyyəti necə idi? Nə dediyini bilirdi?! Qızdırmalı olduğu vaxtda vəhyi alan deyildi ki, istədikləri şey Cəbrailin Allahdan ona vəhy etdiyi şeylərdən olmuş olsun?! Ya görəsən, o anlarda özündən bir şeyi Qurana artırmaq, ya ondan bir şey azaltmaq istəyirdi?! Səhabələr ondan, Qurandan savayı İlahi vəhy olan çox sözlər eşitmişdilər. Bütün bu sözləri (Qüdsi hədisləri) Allah ayələri kimi tanıyır, ona itaət etməni vacib bilirdilər.

Bu sözü: ان الرجل ليهجر حسبنا كتاب الله deyən təkcə Quran və Əhli-beyt arasına deyil, əksinə Quran və Peyğəmbər arasına da ayrılıq saldı. O, sözünün əvvəlində Allahın Rəsulunu "الرجل" "bu kişi" – deyə çağıraraq"رسول الله" Allahın Rəsulu demədi. Bu Allahın Rəsulunun məqamını sadə adamlar həddində aşağı salmaq deməkdi.Yəni o, Allahın Rəsulu olmadığı anlarda Allah kitabının və İlahi əmrin əksinə danışması mümkündür. Belə olduqda onun sözünə fikir vermək lazım deyil və( حسبنا كتاب الله) demək lazımdır. Bu da Quran və Peyğəmbər arasına ayrılıq salmaqdır. Beləliklə, Peyğəmbər və Quran arasına ayrılıq salmaq mümkün olarsa, deməli, Quran və əhli beyt arasına ayrılıq salmaq daha asan olacaq vəعلي مع الحق والحق مع علي (Əli haqla haqsa Əliylədir) e`tibardan düşəcəkdir.

---

[1] Gələcək bəhslərimizdə qeyd olyнan ünvanların hər biri üçün, Əhli-sünnəнin mötəbər mənbələrindən sənədlər gətirəcəyik.

ان الرجل ليهجر، حسبنا كتاب الله Sözlərini şüar etmək dillini bağlayıb, dilsizi boşlamaq deməkdir. Məhz bu siyasətlə "siffeyn" müharibəsində danışan (sakit) Quranı (Əlini) kənara qoyub danışmayan Quranı nizələrə vurdular. Hər zamanda xəlifələr etdikləri zülmə bəraət qazandırmaq istədikdə danışmayan Quranı meydana gətirməklə zülmü danışanlara rəva gördülər.

Bütün dinlərdə Peyğəmbərlərindən sonra kitabını təhrif etsələr də, Quran təhrifdən amanda qalmış kimi tanıtdırılmışdır. Lakin dünyapərəst insanların əli ilə çox incə bir zərifliklə dəyişiklik olmuşdur ki, o da Quranı öz həqiqi təfsir edənindən ayırmaqdan ibarətdir. Quranın təfsirçisi və danışanının öz nəzərini bildirməsinin qarşısı alındıqda, hər kəs o kitabın mətləbini istədiyi kimi təfsir və məna edə bilər. O, adam "Allahın kitabı bizə bəsdir!" – deməklə camaata elə göstərdi ki, camaatın öz hidayətləri üçün Qurandan başqa kitaba ehtiyacları olmadığı halda, Peyğəmbər yeni bir Quran yazmaq istəyir. Deməli həzrət o sözləri sağlam hissilərlə deməmişdir! Beləliklə qələm-kağşz gətirməyə ehtiyac yoxdur!

Kim ona xəbər vermişdi ki, Peyğəmbər (s) başqa bir Quran yazmaq istəyir?! Hansı ayə və hədisə əsasən ümməti Quransız hidayət etmək olar?! Peyğəmbər (s) həyatda olduğu zaman ayələr barəsində hər bir kiçik irad və şübhəni açıqlayırdı. Dünyadan getdiyi zamanda, şəxsi mənfəət güdənlərin ayələri öz xeyirlərinə məna etməsinin qarşısını almaq və (ayələrin açıqlanması və təfsiri üçün) hamının müraciət edə biləcək şəxsi təyin etməsi lazımdı.Quran özü buyurur:

**و ننزّل من القرآن ما هو شفاء و رحمة للمؤمنين و لا يزيد الظّالمين الاّ خساراً**

"Biz, Qurandan möminlər üçün şəfa və rəhmət olan şeyi nazil edirik və o, zalımlara ziyandan başqa bir şey artırmır"[1]

Necə olur ki Allahın ayələri bir dəstə üçün dərman və rəhmət, digər bir dəstə üçünsə ziyan səbəbi olur?! Quranın bu xüsusiyyəti Peyğəmbərin əsrində və eləcə də o həzrətin vəfatından sonra olmuş və olacaqdır. Heç kəs Quranın düzgün təfsir və açıqlama olmadan aləmlərə nicat verəcəyinə zamin durmamışdır.

## PEYĞƏMBƏRIN (S) REHLƏTI ƏRƏFƏSINDƏ

Allahın Rəsulu (s) son həcc səfərində[2], Məkkədə (ərəfədə)[3], Qədir-Xumda [4], xəstəliyindən qabaq Mədinədə [5] və ondan sonra [6] yoldaşları arasında, ümumi çıxışlarında heç bir qaranlıq nöqtə olmadan, tam aydın şəkildə vəfat edəcəyindən xəbər vermişdi.Quran da Allahın Rəsulunun (s) ardıcıllarına bu xəbəri verərək, Peyğəmbərin bu dünyada yemək, geyim, ailə qurmaq, xəstələnmək və qocalıqda digər insanlar kimi olmasını və onlar kimi dünyadan gedəcəyini bildirmişdi.[7]

---

[1] "İsra"/82.
[2] "Əl-kamilu fit-tarix", 2-ci cild, səh. 302, "Tarixül-üməmi vəl-müluk", , 2-ci cild, səh. 205.
[3] "Tarixi-Yəqubi"," 2-ci cild, səh. 109.
[4] Јенə орада.
[5] "Əl-кamilu fit-Tarix" 2-ci cild, səh. 318.
[6] "Nəhcül-bəlağənin şərhi", 3-cü cild, səh. 189-190.
[7] "Fussilət" surəsi, ayə: 6, "Al-İmran"surəsi, ayə: 144.

O həzrət "Həccətul-Vidada" ("Vida" həccində) "Rəmy Cəmaratda" (Həcc mərasimində yerinə yetirilən vacib əməllərdəndir) buyurdu: "Əməllərinizi məndən öyrənin. Mümkündür bu ildən sonra bir daha həccə gəlməyim. [1] Məni bir daha bu yerdə görməyəcəksiz." [2] Qayıtdıqları zaman da hacıların izdihamlı yığıncağında buyurdu: "Mümkündür çağırılam və Haqqın dəvətini qəbul edəm."[3]

Abdullah ibn Məs`ud deyir: Allahın Rəsulu (s) vəfatından bir ay qabaq, dünyadan gedəcəyi haqda bizə xəbər verdi. Mən dedim: "Ey Allahın Rəsulu! Vəfatınız nə zaman olacaqdır?" Buyurdu: "Ayrılıq zamanı yaxınlaşmışdır və qayıdış Allaha tərəfdir."[4]

Başqa bir zaman buyurdu:

Çağırılmağım və Haqqın dəvətini qəbul etməyim yaxınlaşıb. Sizin aranızda iki qiymətli və ağır əmanət qoyub gedirəm: Allahın kitabı və Əhli beytim. Lətif və hər şeyi bilən Rəbbim mənə xəbər verib bildirdi ki, onlar "Kövsər" hovuzunun yanında mənimlə görüşənə qədər bir-birindən ayrılmayacaqdır. Belə isə, onlarla edəcəyiniz rəftar barəsində yaxşı fikirləşin.[5]

Bir gün o həzrətə xəbər verib camaatın onun ölüm xəbərindən qəmli və nigəran olduğlarını bildirdilər. Peyğəmbər (s) Fəzl ibn Abbas və Əli ibn Əbi Talib (ə) söykənmiş halda məscidə gəldi. Allaha həmd-səna etdikdən sonra buyurdu: "Mənə xəbər verib dedilər ki, siz Peyğəmbərinizin ölümündən narahatsınız. Məndən qabaq əbədi olan Peyğəmbər olmuşdurmu?! Bilin ki, mən öz Rəbbimın rəhmətinə qovuşacağam."[6]

Başqa bir fürsətdə "Ənsarın" hüquqlarına riayət etməni camaata tövsiyə edib buyurdu:

"Ey ənsar, ayrılıq zamanı yaxındır. Mən də`vət olunmuş və onu qəbul etmişəm! Bilin, iki şey vardır ki, mənim fikrimcə, onların arasında fərq yoxdur. Əgər onlar müqaisə olunarsa aralarında bir tük qədər belə fasilə qoylmaram. Onlardan birini kənara qoyan, sanki digərini də də kənara qoymuşdur.O iki şey – asimani kitab və risalət Əhli beytidir. Əhli beyt barəsində olan tövsiyəmə diqqət edin. (Həmçinin buyurdu) Sizi bir şeyə hidayət etməyimmi ki, ona sarıldıqdan sonra heç vaxt haqdan çıxmayasınız?!" Dedilər: "Bəli, ey Allahın Rəsulu!" Buyurdu: "Əlidir. Ona hörmət edib uca tutun. Məni dost tutmaqla onu dost tutun, mənim hörmətimə görə onu uca tutub hörmət edin. Dediklərimin hamısını Cəbrail Allah tərəfindən mənə əmr etmişdir."[7]

---

[1] "Əl-bidayətü vən-ніhayə" 5 və 6-cı cild, səh. 323(Beyrut çapı).

[2] "Əl-kamilu fit-tarix" 2-ci cild, səh. 302, "Tarixül- üməmi vəl-muluk" 2-ci cild, səh. 205.

[3] "Əl-qədir", 1-ci cild, səh. 11.

[4] "Sirətül-Mustafa" səh 709, "İbn Əbil-Hədidin nəhcül bəlağəyə olan şərhi" 3-cü cild, səh. 189-190

[5] "Müsnədi-Əhməd", 3-cü cild, səh. 16 və 17.

[6] "Əы-sirətül-Hələbiyyə", 3-cü cild, səh. 348.

[7] "Nəhcül-bəlağənin şərhi", , İbn Əbil-Hədid 9-cu cild, səh. 170, "Hilyətül övliya", 1-ci cild, səh. 63, "Məcməuз-zəvaid", 9-cu cild, səh. 132, "Kifayətuт-talib", səh. 210, "Mətalibus-sual" 1-ci cild, səh. 60" "Səhabələrin ədaləti nəzəriyyəsini araşdırılması"ndan нəглəн, səh. 289.

İbn Həcər yazır: Peyğəmbər vəfatı ilə nəticələnən tamamlanan xəstəliyində buyurdu: "Tezliklə vəfatın yetişəcək. Mən öz sözümü sizə çatdırıb bəhanə və üzr yolunuzu bağladım. Agah olun! Mən Allahımın kitabını və öz Əhli-beytimi sizin aranızda qoyub gedirəm. (Daha sonra Əlinin əlindən tutub yuxarı qaldırıb buyurdu:) Bu Əli ibn Əbutalibdir ki, həmişə Quranla və Quran da Əliy ilədir. Bu işi qiyamət günündə mənimlə görüşənə qədər bir-birindən ayrılmayacaqlar."[1]

Həftənin 1-ci gunu Allahın Rəsulu (s) öz həyatının son günündə məsciddə sübh namazını qılandan sonra buyurdu: "Camaat! fitnələr atəşi alovlanmış, gecənin qaranlığı dalğaları kimi sizə üz gətirmişdir."[2]

Allahın Rəsulu (s) başı Əli ibn Əbi Talibin (ə) ətəyində olan halda dünyadan getdi.[3] O, Allahın Rəsulu (s) ilə danışan sonuncu adam idi.[4] O, hönkürmü ilə ağlayaraq Peyğəmbərin vəfatını ətrafda olanlara xəbər verdi. Bu zaman Əbu Bəkr öz yaşadığı yerə "Sunh-a"[5] getmişdi.Ayişə adam göndərib onu tez bir zamanda şəhərə gəlməsini istədi.[6]

## ALLAHIN RƏSULUNUN (S) VƏFATININ INKARI

Peyğəmbərin (s) vəfatı xəbəri dillərdə gəzməyə başladıqda, Ömər ibn Xəttab[7] fəryad çəkib qışqırdı: "Heç də belə deyildir." Bu, bəzi münafiqlərin sözüdür ki, Peyğəmbərin ölməsini güman edirlər! Camaat, bilin! Allaha and olsun ki, Peyğəmbər ölməmişdir. Musa Pərvərdigarına tərəf getdiyi kimi, o da Pərvərdigarına tərəf getmişdir. O, qırx gün ardıcıllarından uzaq düşdükdən sonra ölüm xəbəri yayılmış və daha sonra yanlarına qayıtmışdı .Allaha and olsun! Allahın Rəsulu qayıdacaq, onun ölməsini güman edənlərin əl-ayağını kəsəcəkdir."[8]

---

[1] "Əc-səvaiqül-muhriqə", 9-cu bab 2-ci fəsl səh. 75.

[2] "Tarixül uməni vəl muluk" 2-ci cild, səh. 231, "Əl-təbəqatül-kubra" 2-ci cild, səh. 254, "Əl-sirətül-hələbiyyə" 3-cü cild, səh. 350 və buyurdu: Mən sizin şirk etmənizdən qorxmuram. Qorxum dünya üstündə bir-birinizlə davaya qalxıb rəqabət aparmağınızdandır." ("Əl-təbəqatül-kubra", 2-ci cild, səh. 205).

[3] "Əт-təbəqətül-kubra", 2-ci cild, səh. 380 və 381.

[4] "Təlxisи-Zəhəbi" 3-cü cild, səh. 139, "Əl-mustədrəkü ələc-səhiheyn", 3-cü cild, səh. 14, "Əl-musənnəf Иbn Əbi Şeybə", 6-cı cild, səh. 348, "Məcməuз-zəvaid", 9-cu cild, səh. 112, "Kənzül-ummal", (ikinci çap), 15-ci cild, səh. 128, həдис: 374.

[5] "Sunh"Haris ibn Xəzrəcin qəbiləsinin qaldığı yer idi. Suneydə və sinhan adlarıyla məşhurdur. ("Лisanul-ərəb", "cunh" maddəsində. Sunh Mədinənin şimalından yarım fərsəx məsafədə yerləşirdi. ("Əl-təbəqatul kübra" 2-ci cild, səh. 265).

[6] Deyilənlərə görə, Əbu Bəkrə Peyğəmbərin dünyadan getməsini çatdıran ilk şəxs Salim ibn Übeydə olmuşdur. (Əbu Huzeyfənin azad etdiyi qulu) ("Əl-bidayətü vəl nihayə" 5-ci cild, səh. 244).

[7] Tarix mənbələrində o qarışıqlıqda Ömərdən savayı onunla həmrəy olanlar arasında Osmanın da adı qeyd olmuşdur. O, qışqıraraq , Peyğəmbərin ölməsini açıqlayan hər kəsin dilini kəsəcəyəm deyirdi. ("Əl-Osmaniyyə" səh. 79 , "Ənsabül əşraf" 1-ci cild, səh. 567).

[8] "Tarixül-üməmi vəl-müluk", 2-ci cild, səh. 232, "Əl-kamilu fit-tarix", 2-ci cild, səh. 323, "Əт-təbəqatul-kübra" 2-ci cild, səh. 226, "Əl-sirətül nəbəviyyə" 4-cü cild, səh. 315, "Müsnədi-Əhməd", 5 və 6-cı cild, səh. 219, "Tarixи Yə`qubi" 2-ci cild, səh. 95, "Əl-bidayətü vəн-nihayə", 5-ci cild, səh. 244.

O, durmadan camaatı qorxudur, vəhşət və şəkk içində saxlayırdı[1].O sözləri təkrar etməkdən ağzı köpüklənmişdi[2]. Deyirdi: "Onun ölməsini deyən hər bir kəsin başını bu qılıncla bədənindən ayıracağam![3] Allah Öz vədini onun əli ilə həyata keçirməyincə, onu Öz yanına aparmaz. Peyğəmbər münafirləri məhv etməyincə ölməyəcəkdir!"[4]

Bu zaman həzrətin ailəsindən heç kəsin islamın əziz Peyğəmbərinin vəfat etməsində şəkki yoxdu. Elə buna görə də Peyğəmbərin əmisi Abbasdan savayı heç kəs ona fikir vermir və onunla danışmırdı. Təkcə bir-iki nəfərdən başqa ki, onun qışqırığını eşidib dedilər: "O nə deyir?" Soruşun görün, Allahın Rəsulu sənə bu barədə bir sözmü deyib ki, bu qədər qarışıq söz danışırsan!" O, cavabında dedi:"Yox!"[5]

Peyqəmbərin (s) vəfat etməsi mövzusu öz ailəsi və camaat üçün o qədər aydın idi ki, kor olan və Peyğəmbərin bədənini görməyən Umm Məktum* da Abbas kimi, Ömərə etiraz edib dedi: Sən özündən nə deyirsən! Məgər Quran buyurur:

و ما محمد الاّ رسول قد خلت من قبله الرّسل اَفإن مات او

قُتل انقلبتم على اعقابكم و من ينقلب على عقبيه فلن يضرّ الله شيئاً و سيجزى الله الشّاكرين[6]

**"Mühəmməd (s) yalnız bir Peyğəmbərdir ki, ondan öncə Peyğəmbərlər gəlib getmişlər. Buna görə də əgər o ölsə və ya öldürülsə, siz öz keçmişinizə qayıdacaqsınız?! Öz keçmişinə qayıdan şəxs Allaha heç bir ziyan vurmaz. Allah tezliklə şükür edənləri mükafatlandıracaqdır."**

Abbas deyir: "Allahın Rəsulunun vəfatında şəkk yoxdur. Gəlin Onu dəfn edək. (Vəfat etməsi yüz faiz olduğu halda) Allah sizə bir, Rəsulunasa iki dəfə ölümü dadızdıracaqdır! O, bundan ucadır ki, iki dəfə dünyadan getsin. Gəlin onu dəfn

---

[1] "Əc-sirətül-hələbiyyə", 3-cü cild, səh. 349.

[2] "Əт-təbəqatül-kübra" 2-ci cild, səh. 276.

[3] "Tarixül-ümәmi vəl-müluk", (altı cildli)3-cü cild, səh. 198, (Hüseyniyyə çapxanası, 1323-чү qəməri или), "Nəhcül-bəlağənin şərhi", (Ибн Əbil-Hədid), 2-ci cild, səh. 40.

[4] "Əт-тəбəqatül-kübra", 2-ci cild, (ikinci hissə)səh. 54, "Kənzul ummal" 4-cü cild, səh. 50, "Tarixи-Зəhəbi", 1-ci cild, səh. 37, "Müsnədi-Əhməd", 2-ci cild, səh. 219.

[5] "Əl-bidayətu vəн-nihayə", 5-ci cild, səh. 243. Təəssüflər olsun ki, bəzi müasır təhqiqçilər bu barədə öz kitablarında elə açıqlamalar aparıblar ki, güya Ömərin bu rəftarı onu Peyğəmbərin ölməsinə inana bilməməsi olmuşdur. (Tarix təhlili Ислам (Ислам tarixinin araşdırılması) "Cəfər Şəhidi" səh. 104-105) Halbuki Ömər özü o günün sabahı öz dediklərində başqa bir şeyi qəsd etdiyini açıqlamışdır .

*Məşhur нəзəр budur ki, o, tamamilə kor olmuşду və "Əbəsə"surəsində olan "Ə`ma" kəlməsi onun haqqındadır. Adı Əmr ibn Qeys Qureşi (Əmr ibn Zaidə), кünyəsi Ибн Umm Məktumдур. Mədinənin azançısı və mühacirlərin ilk təbəqəsindəndir. Anası Umm Məktum, Abdullah ibn Əntəkə ibn Aiz Məxzuminin qızı Atikədir. Umm Məktum on üç dəfə həzrətin canişini ünvanında Mədinədə qalmışdır. Deyilənlərə görə, Qadisiyyə müharibəsində iştirak etmiş və şəhadətə yetişmişdi Bə`zilərinin yazdığına görə isə Qadisiyyə müharibəsindən sonra Mədinədə dünyadan getmişdir ("Əl-istiab" 2-ci cild, səh. 494-495, "Usdul ğabə" 4-cü cild, səh. 127, "Əl-isabə" 2-ci cild, səh. 516 və 4-cü cild, səh. 11).

[6] "Ali-İmran"surəsi, ayə: 144.

edək. Onun ölməməsi əgər düz olarsa Allah üçün torpağı onun üstündən kənar etmək çətin deyildir və..."

Bununla belə, Ömər onların e`tirazlarına azacıq bir əhəmiyyət vermədən öz sözünə israr edirdi. Əbu Bəkr Sunhdan çatana qədər bu iş davam etdi. Gözü Peyğəmbərin mübarək bədəninə düşən kimi başqalarının ondan qabaq oxuduqları həmin ayəni oxudu, Öməri sakitləşməyə çağırdı.O, da sakit olub yerə oturdu[1] və dedi: "Sanki bu ayəni ilk dəfədir ki eşidirəm.[2] Ayə bu Qurandandır?!"[3]

## VƏFATI INKAR ETMƏNIN SIRRI

Əhli-sünnənin tədqiqatçi və tarixçiləri Ömərin e`tirafını əsas tutaraq hədəfinin Əbu Bəkrin Mədinəyə yetişməsinə fürsət yaratmaq olduğunu bildirmişlər.

İbn Əbil-Hədid yazır:

Ömər bu rəftarı ilə Əbu Bəkrin gəlib yetişməsinə fürsət yaratmaq istəyirdi. Çünki sabahı günü Səqifədə Əbu Bəkrin məsciddə çıxışından qabaq keçən gün Peyğəmbərin vəfatını inkar edən sözləri barədə üzr istəyərək dedi: "Allahın Rəsulunun vəfat etməsini gördükdə, rəhbərlik üstündə qalma-qal qalxmasından, ənsar və başqalarının iş başına gələ biləcəyindən, yaxud İslamdan dönəcəklərindən qorxdum."[4]

Ömərin açıqlamaları həqiqətdə Əbu Bəkr gəlib yetişənə qədər din və dövlətdən himayə etməyə görə idi. O, xilafətə görə ənsar və başqaları tərəfindən ehtimali qarşıqlığın qarşısını almaq, eləcə də islamdan dönüb mürtəd olmaq fikrin başında gəzdirənləri qorxutmaq üçün bu mətləbi demiş və bir çox düşünülmüş işlərin qarşısını almışdı. Məsləhətə görə olan belə yalana hər dində icazə verilmişdir![5]

O,cammatı müəyyən qədər həzrətin dünyadan getməsi barədə şəkkə salaraq, Peyğəmbərdən sonrakı vəziyyət barədə düşünməkdən qafil etdi. [6] Ömərin öz məqsədinə çatmaq üçün fikirləşməyə geniş vaxtı olmasa da, çəkdiyi planın bir neçə çəhəti vardı:

1) Bu plan Peyğəmbəri (s) istəyənlər üçün ümüdverici idi. Onlar sözün düz çıxmasını arzu edir, öz rəhbərlərini bu tezliklə əldən vermək istəmirdilər;

2) Bu planın Qurandan şahidi vardı.Mühəmməd xatəm (s) də Musa (ə) kimi Allahın görüşünə tələsmiş və tezliklə qayıdacağına ümüd verirdi;

3) Bu iddiaya əsasən Peyğəmbər diri olduğu üçün, canişin təyin etmək üçün tələsməyə heç bir ehtiyac yoxdu;

---

[1] "Kənzül-ummal" 4-cü cild, səh. 53 hədis 1092.

[2] "Əc-sirətül-Hələbiyyə" 3-cü cild, səh. 354, "Əl-sirətül nəbəviyyə" 4-cü cild, səh. 307, "Əl-bidayətü vəн-nihayə", 5-ci cild, səh. 242.

[3] "Əl-bidayətü vəн-nihayə", 5-ci cild, səh. 243.

[4] "Nəhcül-bəlağənin şərhi", 2-ci cild, səh. 42.

[5] "Nəhcül-bəlağə" 2-ci cild, səh. 43.

[6] "Əsrari-Səqifə", səh. 163.

4) Peyğəmbərin ölməsinə inanan şəxs münafıqdır.[1] Onun canişini ilə beyət etməyə qədəm götürmək nifaq əlaməti və müsəlmanlar arasında ixtilaf salmaqdır;

5) Peyğəmbərin ölümünə inanıb, onun canişini ünvanında bir kəslə beyət edənin əl-ayağı kəsilməlidir;

6) Ömərin Əbu Bəkr gələnə qədər heç kəsin sözünə fikir verməməsi, lakin o gələndən sonra onun bir cümləsi ilə susması ,Əbu Bəkri böyütmək üçün mahiranə atılmış bir addım idi. Bu səhnə qabaqcadan qurulmasa da bu qədər kifayətdi ki, camaata Əbu Bəkrin islam cəmiyyətində və vəziyyəti sakitləşdirməkdə rəhbərlik rolunu xəbərdarlıq etmiş olsun.

Təəccübləndirici, eyni halda təəssüfləndirici haldır ki, bəzi vaxtlar şiəyə aid olmayan kitablarda, baş vermiş rəftarı yozmaq və müdafiə etmək üçüçn yazırlar: "Ömərin bu rəftarı ,onun Peyğəmbərə olan şiddətli məhəbbətindən irəli gəlmişdir.O, Peyğəmbərin vəfatını eşitdikdə vəhşətə düşən kimi olmuşdur!" Halbuki Ömərin özü o günün sabahı məsciddə camaatın qarşısında etdiyi rəftarına görə sözlər deyir ki, bu tərəf tutulma ilə heç də uyğun gəlmir.

Bundan əlavə, soruşmaq lazımdır ki:

1) Əgər o, Peyğəmbərin ölümündən vəhşətə düşmüş və belə bir rəftar etmişdisə, onda nə üçün Əbu Bəkrin Peyğəmbərin ölümünü təsdiqləməsindən sonra onun vəhşəti daha da artmadı?! Əkisinə sakitləşərək yerə oturdu və daha sonra Səqifəyə yollandı!

2) Nəyə görə onun dəhşəti Əbu Bəkrin xəbərindən sonra aradan getdi?! Beləlikə islamı ərb yarımadasında kim möhkəmlədəcəkdi?! Əbu Bəkrin oxuduğu ayələrdən sonra onun əqidəsində dəyişiklik olmamalıdırmı?! Belə ki, ayə Peyğəmbərin də başqa adamlar kimi öləcəyini çatdırır, o isə Peyğəmbərin hələ ölməməsini və ölüm vaxtının çatmamasını deyirdi! Onun fikrincə, hələ də işlər yarımçıq və yerinə yetməmiş vəzifələr qalmışdı[2]

3) Peyğəmbərin vəfatını bildikdən sonra, həzrətin əzadarlığında, qüsul verilməsində və dəfnində iştirak etməyib gecikmədən Səqifəyə getdi?!

4)Nə üçün ondan başqa heç kəs qorxu və dəhşətə düşmədi?! Görəsən, onun qüssəsi Peyğəmbərin əziz qızının kədərindən artıq idi?! Nə üçün nazik qəlbli tanıtdırılan Əbu Bəkr belə bir hala düşmədi?!

5) Etdiyi rəftar Peyğəmbərə qarşı olan məhəbbətdən olsaydı, onda gərək sağlığında "sayaqlayır" nisbətini Ona verməməklə yanaşı digərlərinə də "bu kişinin fikri özündə deyil və nə danışdığını bilmir, odur ki, sözünə qulaq asmayın"deməyəydi.

6) Necə olur ki , Peyğəmbərin vəfat etməməsi şübhəsi təkcə Ömər ibn Xəttab və Osman ibn Əffan üçün qarşıya çıxır?! Onlar hansı ayə və hansı hədisə əsasən belə qənaətə gəldilər ki, Allahın Rəsulu ölməmiş və həzrət Musa kimi miqata getmişdir və tezliklə qayıdacaqdır?

---

[1] Ömər bu sözü *дилинə* gətirdiyi zaman Allahın Rəsulunun (s) vəfatını xəbər verən ilk şəxsin Əlи ibn Əbi Talib (ə) olmasını bilirdi.

[2] "Pişvayi əz nəzəre islam" (Rəhbərlik İslam nəzərində), səh. 84 və 385.

7) Usamənin qoşununun hərəkət etmədə gecikməsi üçün üzr gətirərək "halını müsafirlərdən soruşmaq istəmədim" –dedikdə yaxşı olardı ki, Ömər "bu taqətsizlik nəyə görədir! Allah boynunuza minnət qoymuşdur ki verdiyi vədələr yerinə yetirməyincə Peyğəmbər dünyadan getməyəcəkdir" – deyəydi.[1]

8) Onun kimi bir kişiyə rəvadırmı ki, araşdırmadan və yəqin ələ gətirmədən belə bir səs-küy qaldırsın?

9) Necə olur ki, Əbu Bəkr Ömərə Peyğəmbərin (s) vəfatı haqqında olan səhvini başa salır, lakin bundan böyük olan işi həzrətə verdiyi sayıqlamaq nisbətini heç vaxt onun qulağına vurmur?

İbn Əbil-Hədidin e`tirafına əsasən bütün qışqırıqlar Əbu Bəkr yetişənə qədər vaxtı öldürməyə görə idi və bundan savayı heç bir başqa səbəb yoxdu.[2]

---

[1] "Əl-şafi" səh. 252 İbn Əbil-Hədiddən nəql olaraq. "Şərh nəhcul bəlağə" 2-ci cild, səh. 198.

[2] "Nəhcül-bəlağənin şərhi", 2-ci cild, səh. 42-43.

# İKİNCİ FƏSİL

## SƏQİFƏ HADİSƏSİ

### BÖHRANIN BAŞLANMASI

Peyğəmbərin (s) qəlblər yandıran vəfatı bir dəstəni heyrətləndirdiyi kimi, digər bir dəstəni də Peyğəmbərin qabaqcadan ehtimal verdiyi kimi əl-ayağa saldı. Həzrətin xəstəliyi şiddətlənən gündən, öləcəyini ehtimal verib qüdrəti ələ keçirmək istəyənlər başlarında qorxulu fikirlər daşıyirdılar. Bu xəbər yayıldıqdan sonra Peyğəmbərin (s) dəfni haqqında azca da fikirləşməyib, həzrətin buyruqlarına azacıq e`tina etmədən ümmətin məsləhəti, xeyri ünvanıyla şura qurdular ki bu yolla Allahın son Peyğəmbərinin ümmətini rəhbərsiz yol getməkdən qoruya bilsinlər!! Onların iddiasına görə, həzrət ümmətin hidayəti üçün özündən sonra heç kəsi seçməmişdi, yaxud seçdiyi adam öz yaxınlarının içində sevilmədiyi üçün rəhbərliyin öhdəsindən gələ bilməzdi.[1]

O günlərin danışıqları gizli sirləri ifşa etdi. Qohumluq və qəbilə təəssüblərinə, eləcə də cəhalət düşüncələrini yenidən canlandırdı.. Məlum oldu ki, islam tərbiyəsi bəzi təzə müsəlmanların qəlb və fikirlərinə hələ də təsir etməmiş, sadəcə olaraq cahiliyyət əqidələri onların üzlərinə pərdə kimi çökmüşdür.[2]

Ənsarın tanınmış şəxsiyyətləri Ömərin Allahın Rəsulunun (s.ə) vəfatını inkar edən qışqırıqına fikir verməyərək, Əbu Bəkrin Mədinəyə yetişdiyi vaxta qədər Səqifədə* (Xəzrəc tayfası başçılarının məxsus danışıq yeri) bir yerə yığılaraq Peyğəmbərdən sonra müsəlmanlara başçılıq edəcək rəhbər barəsində danışığa başladılar. Onların fikrincə, hədəf barəsində düşünmək üçün əlverişli bir vaxt idi. Belə ki, Allahın Rəsulunun (s) ailəsi, seçılmiş səhabələri, o cümlədən Salman, Əbu Zərr, Miqdad və...belə bir zamanda müsibətə giriftar olmuş, Peyğəmbərin dəfninə

---

[1] Bu düşüncənin sənəd və sybutlarını gələn bəhslərdə tanıyacağıq.

[2] "Fyruği-vilayət", səh. 161.

*Səqifə üstü bağlı karvansaraya bənzər bir yer olnuşdur. Bu yer xəzrəclilərin yığıncaq keçirdikləri yer idi. Bu tayfanın birinci böyüyü Səadət ibn Kə`b, sonra isə Sə`d ibn Ubadə idi. Bəni Saidə Səqifəsi ады ilə məşhur olubdur. ("Möcəmul-buldan", 3-cü cild, səh. 104). Bəni Saidə Xəzrəcin nəsillərindən biridir.

hazırlıq işləri görürdülər. Belə bir şəraitdə şəhərin ən böyük (Ovs və Xəzrəc) tayfaları Sə`d ibn Ubadə kimi birini müsəlmanların işlərini idarə etməyə seçə bilərsə, artıq rəhbərlik fikrində olan digərləri üçün heç bir yer qalmayacaq, yaxud aşağısı hakimiyyətin bir hissəsi onların payına düşəcəkdi.

Ənsar başçıları və Mədinə əhlinin Əli ibn Əbi Talibin (ə) rəhbərliyi barədə fikirləri və belə tələsik yığıncaq təşkil verməklə hansı məqsədləri güdmələri haqda ayrıca bəhs olacaqdır. O ki qaldı burada deməyə:

1)Ovs və Xəzrəcin bəzi başçıları arasında rəhbərlik sevdasında olub Əli ibn Əbi Talibin (ə) iş başına gəlməsinin qarşısını almaq üçün Səqifə yığıncağına gələnləri nəzərdə almasaq, bir çoxu belə bir fikirdə deyildi. Ən çətin anlarda müşrüklərin qarşısında Peyğəmbəri müdafiə etmiş, evləri, malları və canlarını onun yolunda verib mühacirləri himayət edən Mədinə əhli Peyğəmbərin Əli ibn Əbi Talibə (ə) itaət etmə əmrinə fikir vermədən elə bir yığıncaqda iştirak edənlərdən deyildilər. O anda ənsarın çıxışlarına diqqət etdikdə məlum olur ki, onlar nə mühacirlərin tutuduğu işin, nə də Peyğəmbərin vəsiyyəti qarşısında hərəkət etmək istəmirdilər.

Onların Əli ibn Əbi Talibin (ə) digər səhabələrdən üstün olması barədə heç bir şəkkləri yox idi və ondan başqa heç kimi rəhbərliyə laiq bilmirdilər.[1] Bundan əlavə, bəzi mühacirlərin Qədirdən Mədinəyə qədər nifaqla dolu olan rəftarı, Peyğəmbərin (s.ə) canişini məqamını ələ keçirmək üçün siyasi bir hərəkətdən də xəbər verirdi. Bundan əlavə, Allahın Rəsulundan (s) dəfələrlə eşitmişdilər ki:

ستلقون بعدی اثرة فصبروا حتی تلقون علی الحوض

“Məndən sonra inhisarçılarla qarşılaşacaqsınız...Məndən sonra əzablar görəcəksiniz. (Bu zaman ) qiyamətdə Mənimlə görüşənə qədər səbr edin.”[2] “Yaxın gələcəkdə qaranlıq fitnələr ümmətimə üz gətirəcək və siz ənsar öz hüquqlarınızdan məhrum olacaqsınız.”[3]

Elə buna görə də ənsar heç bir halda mühacirlərin qüdrətə yetişməsinə razı deyildi. Onlar Əlini (ə) mühacirlərdən bilsələr də düşmən və rəqib saymırdılar. Lakin bir baxımdan onun və digərlərinin ənsar üçün heç bir fərqi yox idi. Belə düşünürdülər ki, Peyğəmbərdən sonra ənsardan savayı iş başına gələn hər bir kəsə Əli belə olmuş olsa, onları himayə, yaxud mühacirləri ənsarın hüquqlarına riayət etməyə məcbur etmək çox çətin olacaqdır.

2) Mühacirlərin siyasi hərəkətlərini görən bir çox ənsar, Əli ibn Əbi Talibin (ə) imamət edə bilməsini qeyri-mümkün sayırdı. Belə olduqda Peyğəmbərin (s.ə) ənsar haqqında olan məqsədlərinə qiymət verməyən bir dəstə adam iş başına gələcəkdi. Onlar bu işin həyata keçəcəyinə inanır, digər tərəfdən də öz çox saylı cəmiyyətlərinə arxalanaraq Əhli-beyt və Əli ibn Əbi Talibin (ə) himayəsi ilə qüdrət eşqində olan nüfuzlulara üstün gələ biləcəklərinəsə inanmırdılar. Sonradan da bu işi həyata keçirməyə baş qoşmamalarına səbəbi də bu idi.

---

[1] “Nəhcül-bəlağənin şərhi”, İbn Əbil-Hədid, 13-cü cild, səh. 23, 14-cü cild, səh. 200 və 251.

[2] “Səhihi-Buxari” 2-ci cild, səh. 224-225.

[3] “Shihи-Бuxari” 8-ci cild, səh. 86-dan, “Əl-məğazi” 12-ci cild, səh. 113, “Sünənи-Иbn Macə”, 2-ci cild, səh. 130.

Onlar belə düşünürdülər ki, Əli ibn Əbi Talib iş başına keçmədikdə, mühacirlərin iş başına gəlməsi üşün ənsardan heç bir üstünlüyə malik deyildir. Digər tərəfdən, peyğımbərin (s) ənsar haqqında dediyi təriflər bu fikri təsdiqləyirdi. Həzrət dəfələrlə onların haqqında dua edərək: "İlahi, ənsarı, övladlarını və gələcək nəsillərinə rəhmət et!"[1] Əgər camaat bir yolla, ənsar başqa bir yolla gedərsə, Mən ənsarın getdiyi yolla gedərəm!" (buyurmuşdu.)[2]

Elə buna görə də özlərini xilafətə başqalarından irəli bilir, lakin bu məsələyə diqqət etmirdilər ki, ilk növbədə Peyğəmbərin canişini mövzusu insanların öhdəsinə buraxılmayıb, digər tərəfdən özləri möhtac və islamdan qabaq bir-birləri ilə düşmən olmuş, islamın onların boynunda olan haqqı, onların Peyğəmbərin boynunda olan haqqındandan qat-qat böyükdür və yaxşı olmazdımı ki, bu gün Onun canişini məqamını kəsb etməklə öz müzdlərini islam və Allahın Rəsulundan geri istəmiş olsunlar?!

3) ənsar belə bir qərar qəbul etmək üçün özünü yad bilmirdi. Onlar belə göstərirdilər ki, Peyğəmbərin canişinini məsələsi digər ictimai işlər kimi, tayfanın başçıları arasında olan danışıqla baş tutmalıdır. Dəlilləri də Peyğəmbərin (s) böyük işlərdə Mühacir və ənsarla məşvərət etməsi idi. İndi də tayfa başçıları öz aralarından başçı seçməklə hökumətin taleyini həll edə bilərdilər.

Ovs və Xəzrəc tayfalarının çox qaranlıq və acı keçmişi vardı. Lakin indi müştərək mənfəət, yaxud rəqib qarşısında müştərək müdafiə onları Bəni-Saidə kölgəliyinə yığmışdı, onlar qorxduqları gələcək üçün qərar qəbul etmək istəyirdilər.

Hər halda, onların olduqları mövqelərini və mənfəətlərini qorumaq üçün atdıqları düşünülməmiş addımı, islam tarixində ən böyük fitnənin və müsəlmanlar arasında heç zaman birləşməyən ictimai ayrılığın təməlini qoydu. Buna görə də Allahın Rəsulunun (s) buyuruğunun əksinə atdıqları düşünülməmiş addıma görə xilafətdən həmişəlik məhrum oldular.

## SƏQIFƏ DANIŞIQLARI

Sə`d ibn Ubadə* xəstə və qızdırmalı halda ənsarın (Ovs və Xəzrəcin) arasında əyləşmişdi, oğlu Qeys onun tərəfindən ənsarın fəziləti və Mühacirlərdən olan üstünlüyü haqda çıxış edirdi. Bu yığıncaqın xəbəri məsciddə Ömər ibn Xəttaba yetişdi.[3] Xəbər gətirənlər Ovs qəbiləsindən olan Mə`n ibn Ədi və Uvəynə ibn Saidə

---

[1] "Əl-musnəf", Əbdul-Rəzzaq ibn Həmmam, 11-ci cild, səh. 62.

[2] Јенə орада. сəh. 59.

*Sə`d ibn Duləym ibn Harisə ibn Əbi Xuzəymə Bəni Saidə tayfasından вə Xəzrəч qəbiləsinin başçısıdır. O, cahiliyyət zamanı yazı bilənlərdəndir. O, "Əqəbə əhdi" zamanı Mədinə əhlindən olan yetmiş nəfərlə birlikdə iman gətirmişdir. Bədr müharibəsi istиsna olmaqla bütün müharibələrdə iştirak etmişdir. ("Əт-təbəqatül-kübra", 3-cü cild, səh. 613.) Səxavətli adam olmuşdur. Peyğəmbərin (s) Mədinədə olduğu on il müddətində hər gün O həzrət və ailəsi üçün yemək göndərmişdir. Şeyx Səduqun dediyinə görə, o xilafəti özünə istəməmiş, camaatın fikrini Əli (ə) tərəf yönəltmək istəmişdir. Oğlu Qeys şücaət, səxavət, елəчə дə həzrət Əli (ə) və əziz oğluna olan dostluqda məşhur idi. Müaviyə ilə olan yazışmalarından, imam Həsənə (ə) qarşı olan sədaqət və fədakarlığından, Müaviyəyə olan kinəsimdən bu qənaətə gəlmək olar. ("Həsən kist", (Həsən kimdir) səh. 125).

[3] "Əl-kamilu fit-tarix", 2-ci cild, səh. 328.

idi. Mə`n Öməri ənsarın yığıncağından agah etmək istəyir, o isə əhəmiyyət vermirdi. Mə`n Ömərin qolundan tutub kənara çəkərək sakitcə məsələni ona başa saldı. Ömər çaş-baş olub Əbu Bəkrin ardınca Peyğəmbərin evinə yollandı. O,Əbu Bəkri məsələdən agah etdi. Əbu Bəkr ənsarın yığıncağını eşitməmişdən qabaq evdən çıxmaq belə istəmirdi. Lakin bu xəbəri eşitdikdə heç kəsə xəbər vermədən Ömərlə birlikdə edən çıxdı.[1] Daha yaxşı olardı ki,Əbu Bəkr Ömərə qoşularaq ora gedib bir də Allahın Rəsulunun dəfnindən sonra qayıtmağın əvəzinə Allahın Rəsuluna (s) hörmət olaraq onun evə gəlməsini istəyəydi.

Onlar yolda Əbu Übeydə ibn Cərrahı* gördülər və birlikdə Səqifəyə yollandılar [2] ənsarın öz tərifində söz deməsini görən Ömər onlarla razılaşmayıb xilafətin Mühacirlərin haqqı olmasını bildirdi. Danışıqlar şiddətləndikdə, Əbu Bəkr irəli gəldi. O, yumşaq dillə Mühacirlərin fəzilətindən söz açdı və sözarası Mədinənin iki böyük qəbiləsi (Ovs və Xəzrəcin) arasında olub və uzun müddət davam edən ixtilafa işarə edərək Mühacirlərə rəy verdi. Bu sözdən sonra ənsardan olan bəzi şəxslər hökumətin müştərək olaraq, mühacir və ənsar arasında idarə olunmasına razılıq verdilər. Lakin Ömər və Əbu Bəkr bu fikrilə razılaşmayıb dedilər: "Bu iş müsəlmanların birliyini pozacaqdır. Əmir bizdən, vəzirsə ənsardan olsun və onlarla məsləhətləşmədən heç bir iş görülməsin!"

Başçının Qureyş və mühacirlərdən olması razılaşdırıldıqda kimin təyin olunma məsələsi qarşıya çıxdı.Birbirinə təklif etmələr başladı. Nəhayətdə Ömər və Əbu Ubeydə Cərrah Əbu Bəkrlə rəhbər ünvanında beyət etdilər. Bu zaman müvafiq və müxalif sədaları ucaldı. Bununla belə, müxaliflərin səsi heç yana çatmadı. Ömər və Əbu Ubeydədən sonra mühacirlər və ənsardan olan bəziləri Əbu Bəkrlə beyət etdilər.

Səqifə danışıqlarını üç hissədə xülasə etmək olar:

1) Əbu Bəkrin çıxışından əvvəl baş vermiş bəhslər.
2) Əbu Bəkrin həlledici çıxışı.
3) Son danışıqlar.

## ƏBU BƏKRIN ÇIXIŞINDAN QABAQ BAŞ VERMIŞ BƏHSLƏR

Səqifədə ilk çıxış edən Sə`d ibn Ubadə oldu. O dedi: "Ey ənsar! Sizin keçmişiniz və fəzilətiniz heç bir ərəbdə yoxdur. Mühəmməd (s) öz qohum və qəbiləsini on il müddətində Allaha itaət etməyə çağırdı. Lakin o uzun müddətdə çox az adam ona tərəf gəldi. Onlar bu müddət ərzində ona kömək edə bilməyib dininə izzət verə bilmədilər. Nəhayət, Pərvərdigar bu fəziləti sizə nəsib etdi...

---

[1] "Ənsabul əşraf" 1-ci cild, səh. 581, hədis 1177, "Tarixül-üməmi vəl-müluk", 2-ci cild, səh. 243.

*O, Məkkə və Mədinədə qəbir qazıyan və kəfən satan idi. ("Əl-təbəqatul kübra" 3-cü cild, birinci hissə, səh. 130-131, "Əs-surətun-Nəbəviyyə", 4-cü cild, səh. 313, "Tarixül-üməmi vəl-müluk", 3-cü cild, səh. 204, "Əl-bidayətu və əl-nihayə" 5-ci cild, Səh. 266-268. "İmtaul əsma" səh. 548, "Əl-sirətul hələbiyyə" 3-cü cild, səh. 402, "Ənsabul Əşraf", 1-ci cild, səh. 573, "Əl-qədir", 5-ci cild, səh. 367).

[2] "Əl- иqdul fərid"3-cü cild, səh. 63, "Şərhи Həhcül-bəlağə" 2-ci cild, səh. 230, "Əl-kamilu fitarix" 2-ci cild, səh. 328-329.

O və onun tərəfdarlarından olan düşmənləri siz dəf edərək dinə izzət verdiniz. Düşmənləri ilə döyüşüb onlara çətinlik yaratdınız. Axırda ərəblər istər-istəməz Allahın qarşısında boyun əyməli və zəlil halda, Onun rəhbərliyini qəbul etməli oldu. Beləliklə, ərəblər sizin qılınclarınızın sayəsində islama yaxınlaşdı. Allahın Rəsulunu Öz yanına çağırdığı zaman o həzrət sizdən razı idi. Siz onun gözünün nuru idiniz. Belə isə, bu işdən geri çəkilməyin, çünki rəhbərlik təkcə sizə məxsusdur.

Ənsar hamı bir ağızdan: "Bu, düzgün qərardır. Bütün möminlərin istədiyi və razı olduğu adam olduğun üçün bu işi sənə həvalə edirik."[1]

Sə`din çıxışı əsnasında üç köhnə dost Səqifəyə yetişdilər. Ömər, Sə`din şəxsiyyətini kiçildəcək təhqirlə dedi:من هذا؟ (Bu kimdir?)

Təkcə Ömər deyil, Mədinənin bütün kişi və qadınları Sə`d ibn Ubadəni tanıyırdı. Ancaq bu sual onu, tanınmayan bir şəxsiyyət və e`tibarsız bir adam kimi göstərirdi. ənsardan biri onu tanıtdırmaqla yanaşı o üç nəfəri muhacir adlandırmadan dedi: Biz Peyğəmbərin (s) yoldaşları, onun yolunda candan keçənlərik.

Siz qureyşsə, Peyğəmbərin o yolaşlarısız ki, yavaş-yavaş bizim diyarımıza gəlmisiniz, sanki indi də haqqımızı qəsb etmək istəyirsiz.

İbn Kəsir yazır: O yığıncaqda Ömər və Əbu Bəkr hər hansı biri tərəfindən baş verə biləcək qarışıqlığın qarşısını almaq üçün bir-birinin rəftarını nəzarət altında saxlamışdılar.[2]

O, zamanın hökmü təkcə yumşaq rəftar və siyasətdən ibarət idi.

Ömər deyir: Mən özümü çıxış etməyə hazır etmişdim və sözü ələ almaq istəyirdim ki, Əbu Bəkr dedi: Sakit dur, indi heç nə demə! Daha sonra özü sözə başladı və mənim demək istədiyimdən daha yaxşısını o dedi.[3]

## ƏBU BƏKRIN ÇIXIŞI

Hər hansı bir mühəqqiq Əbu Bəkrin həyatı zamanı şəxsiyyətini, zirəkliyini, siyasətini və qızıl fürsətdən istfadə etmək bacarığını araşdırmaq istərsə, onun Səqifədə olan çıxışınıdan nümunə olaraq istifadə edə bilər.

Onun bu çıxışı qabaqcadan hazırlanmamış olarsa, onda gərək bu onun ən böyük məharətindən hesab edilsin. Ərəbin dörd siyasətçisi və başabilənlərindən biri sayılan Muğəyrət ibn Şöbə, Əbubək və Əbu Ubeydə Cərrah haqqında belə deyir: Bu iki nəfər Qureyşin zirək və ağıllı adamlarındandır.[4] Onun məharəti çox qısa bir zamanda işlətdiyi tapdığı kəlmələrdə idi. O, hardan başlayıb harada qurtarmağını yaxşı bilirdi. Onun təkcə cümlələri deyil, hər bir kəlməsi də ölçülüb-biçilmişdi. Səqifədə olan çıxışının mühüm hissəsi bundan ibarət idi:

Allah Peyğəmbərini bizim aramızdan seçdi... Ərəblərə öz dinini (bütpərəstliyi) tərk etmək çətin idi. Allah islamın ilk mühacirlərinə Ona iman gətirib köməkçi

---

[1] "Əl-kamilu fit-tarix", 2-ci cild, səh. 328, "Tarixül-ümәmi vəl-müluk", 2-ci cild, səh. 243.
[2] "Tarixül-ümәmi vəl-müluk", 2-ci cild, səh. 235, "Əl-bidayətu və Əl-nihayə" 5-ci cild, səh. 246.
[3] "Tarixül-ümәmi vəl-müluk", 2-ci cild, səh. 242, "Əl-kamilu fit-tarix", 2-ci cild, səh. 327.
[4] "Təhzibül-kamal", 9-cu cild, səh. 364.

olmaları ərəblərin əzab-əziyyətini uzaqlaşdırmaq iftixarını verdi. Ərəb onu yalançı adlandırdı, lakin ilk mühacirlər onunla birlikdə dözümlülük göstərib, az saylarına baxmayaraq düşmənin çoxluğu qarşısında qorxuya yol vermədilər. Beləliklə, onlar Allaha birinci iman gətirib yer üzündə ilk ibadət edənlər, Peyğəmbərin dostları və qohumlarıdırlar. Onlar xilafətə daha layiqdirlər. Bu məsələdə zalımlardan başqa heç kəs onlarla mübahisə edə bilməz.

Ey ənsar camaatı! Heç kəs sizin dində olan fəzilətnizi və islamda olan keçmişinizi inkar etmir.Allah sizi Öz Peyğəmbərinin köməkçiləri qərar verib, onu sizin diyarınıza hicrət etməyə çağırdı. Beləliklə, ilk mühacirlərdən savayı heç kəs sizin rütbənizə çata bilməz. Belə olduqda başçılıq bizə, vəzir olmaqsa sizə düşür. Məşvərət zamanı sizin mühacirlərdən heç bir fərqiniz yoxdur. Sizlə məşvərət olmadan heç bir iş görülməyəcəkdir.[1]

Ərəblər Qureyşdən olan bu qrupdan savayı heç kəsi xilafətə layiq bilmir. Onlar (ilk mühacirlər) nəsil və doğulduğları yer (Məkkə) baxımından ən şərafətli insanlardır.[2] Sizlərdən bir dəstəniz yaxşı bilir ki, Peyğəmbər buyurmuşdur: Başçılar Qureyşdəndir. Beləliklə, Allahın qardaşlarınız mühacirlərə lütf etdiyi şey haqqında onlarla rəqabət etməyin![3]

Siz Allahın kitabında qardaşlarımız, dinində şəriklərimizsiz. Çətinliklərdə və zərərdə bizimlə olmusunuz. And olsun Allaha, elə bir yaxşılıq mərtəbəsinə çatmadıq ki, siz bizimlə olmayasınız. Siz bizim üçün ən hörmətli, Allahın qəzasına razı olan ən layiqli adamlar olub Onun əmrinə təslim olanlarsınız. Sizinlə mühacir qardaşlarınız arasında irəli gələn mənsəb məsələsində mühacirlər daha layiqlidirlər. İndi onlara həsəd aparmayın. Siz özünüzün ehtiyacınız olduğu zaman onları özünüzdən üstün bilmisiniz, and olsun Allaha, həmişə onları özünüzdən üstün bilməlisizniz! Siz bu işə daha layiqlisiz. Bu işdə ixtilaf sala biləcək adam sizlərsiniz və mümkün deyil ki, sizlərdən bir nəfər Allahın qarşıya çıxardığı bir işdə öz mühacir qardaşına paxıllıq, həsəd etmiş olsun. Mən sizi Əbu Ubeydə, yaxud Ömərlə beyət etməyə dəvət edirəm və bu iki nəfərin xilafətinə razıyam. Bu iki nəfər bu məqama layiqdirlər.[4]

## ƏBU BƏKRIN ÇIXIŞNDA OLAN MƏQAMLAR

1) O, ən yumşaq yolla ənsarın cuşa gəlmiş hisslərini ram edərək özü ilə həmrəy etdi və ənsarda elə təsəvvür yaratdı ki, sanki çıxış edən mühacirlərin deyil, onların nümayəndəsidir.

2) Məharətlə bəhsə daxil olması onu bitərəf hakim kimi göstərirdi. Sanki çıxışından yeganə hədəfi aranı sakitləşdirməkdən savayı başqa heç bir şey deyildi. O, özünün ənsarla müqayisədə daha böyük olmasını və sanki iki dəstə arasında ədalətlə hökm edəcəyini göstərdi.[5]

---

[1] "Əl-kamilu fit-tarix", 2-ci cild, səh. 329, "Tarixül-üməmi vəl-müluk", 3-cü cild, səh. 220.

[2] "Tarixül-üməmi vəl-müluk", 2-ci cild, səh. 243.

[3] "Ənsabul əşraf" 1-ci cild, səh. 582.

[4] "Əl-imamətü və əl-siyasətu" 1-ci cild, səh. 6, "Tarixül-üməmi vəl-müluk", 36-cü cild, səh. 218, "Səhihi-Buxari" 5-ci cild, səh. 8.

[5] "Əsrari-Səqifə", səh. 192.

3) Çəkdikləri zəhmətləri ən yaxşı sözlərlə tərifləyərək, onlara başa saldı ki, malik olduqları fəzilətləri onlara heç bir siyasi və ictimai üstünlük vermir.

Ənsar özünü Peyğəmbərin ilk yardımçısı bilsə də, Əbu Bəkr onların köməyini inkar etmədən onları başa saldı ki, Peyğəmbərin ilk yardımçısı ənsar deyil, mühacirlər olmuşdur. Belə ki, onlar Mədinə əhlindən neçə il qabaq Peyğəmbərə (s) iman gətirərək şirk məmləkətində onun yardımçısı olmuş və müxtəlif işkəncələrə dözmüşdülər.[1]

Bunu əsas tutaraq onlara demişdiفليس بعد المهاجرين الاولين عندنا بمنزلتكم : "İlk mühacirlərdən savayı heç kəs sizin rütbənizə çata bilməz." Bu sözlə onları yerdə qalan mühacirlərlə bərabər tutdu və bununla subt etdi ki, ilk mühacirlər olduğu yerdə qalan heç bir dəstənin xilafətə ləyaqəti yoxdur.

4)İlk mühacirlərin rütbəsi yuxarı olduğuna görə rəhbərlik onların, Peyğəmbər və onun ilk ardıcıllarına yardım göstərdiklərinə görəsə vəzirlik ənsarın olmalıdır.Vəzirlik və məşvərətdə digər mühacirlərlə eyni rütbədə olacaqlar.[2]

5)Əbu Bəkrin ənsarı tərifləməsi, onların islam və Peyğəmbərə etdiyi köməklərini dərk etməsinə etirafı, ənsarı, mühacirlər iş başına gəldikləri zaman heç bir haqlarının tapdalanmayacağına və vəzirliyin onlara veriləcəyinə arxayın etdi. Bu azmış kimi, heç bir iş onların razılığı olmadan həyata keçməyəcəkdi.

Baxmayaraq ki, tarix Əbu Bəkr tərəfindən verilmiş bu və`dənin xalis olmamasını göstərmiş, təkcə ənsarı aram etmək üçün təsirli olmasını bildirmişdir.

6) Əbu Bəkr öz tərifləri ilə ənsarın razılıq hislərini təhrik etmiş, ağıllarını özü ilə həmfikir edincəyə qədər ram edə bilmişdi. Əbu Bəkr onlara dede: Biz yaxşılıqlarda yetişdiyimiz hər bir mərhələ və məqamada bizlə şərik və bir rütbədəsiz. Siz bizim üçün ən hörmətli, Allahın qəzasına razı olan ən layiqli adamlar olub Onun əmrinə təslim olanlarsınız.

Özündə təşəkkür xarakteri daşayan bu cümlələr sərin su kimi onların qəlbində təsir qoydu və onları təslim olaraq razılaşmağa məcbur etdi. Rəqibin onların haqqında etiraf etdiyi bu qədər tərifdən sonra bu üstünlüyü əldən vermək istəmədilər.

7) Əbu Bəkr söz arası ənsarın xüsüsiyyətləri arasında onların güzəştə getmək ruhiyyəsinə işarə edərək dedi: "Siz özünüzün ehtiyacınız olduğu zaman onları ( muhacirləri) özünüzdən üstün bilmisiniz. İndi isə xilafətə yetişmək naminə özünüzü onlardan üstün etmək istəyirsiz?! Belə olduqda başqaları "ənsar paxıllıq, həsəd üzündən özlərini daha ləyaqətli insanlara rəhbər etdilər" deyəcəklər."

---

[1] Bu yolla Əbu Bəkrin dəstələrə böldüyü insanlar belədir: 1)Peyğəmbər (s) və ilk iman gətirmiş mühacirlər. 2)Məkkədə iman gətirib, Peyğəmbərin hicrətindən sonra tədricən Mədinəyə hicrət edənlər. 3)Mədinədə yaşayıb iman gətirənlər.

[2] Əbu Bəkr öz sözündə mühacirlərin adı və onların fəziləti ənsardan qabaq qeyd olmuş bu ayəyəni əsasgötürürdü:

و السابقون الاولون من المهاجرين والانصاروالذين اتبعوهم باحسان رضي الله عنهم و رضوا عنه و اعدّ لهم جنّات تجرى تحتها الانهار خالدين فيها ابداً ذالك الفوز العظيم (توبة 100) ("Tовbə" surəsi, ayə: 100).

8) Əbu Bəkr çıxışının sonunda onları qorxudaraq camaatın arasında ixtilaf və dava baş verərsə müqəssir olacaqlarını açıqladı. Çünkü hal-hazırda mühacirlərin fəzilətini inkar etməklə ixtilaf toxumunu səpirsiniz.

9) Ömər ibn Xəttab və Əbu Ubeydənin Əbu Bəkr tərəfindən təklif olunması onu, özünün xilafətə yetişmək istəməsə ittihamından saxladı. Digər bir tərəfdən hər ikisinin səlahiyyətli olmasını təzmin etməsi orada olanlara tez bir zamanda birinin digərindən üstün olmasını ayırd etmək fürsəti vermədi. Əbu Bəkrin bu zirəkliyini görən Ömər, vəziyyətin özü üçün o qədər də məsləhətə uyğun olmamasını görüb işi Əbu Bəkrin özünə qaytardı[1].

Əbu Übeydə yaxşı başa düşürdü ki, Əbu Bəkr və Ömər ibn Xəttab olduğu yerdə, heç kəs onun tərəfini saxlamayacaqdır. Odur ki, özü rəqibsiz iş başına gələ bilməyəcəyini görüb Ömərdən tərafdarlıq etməyə üstünlük verdi. O, belə etməklə Əbu Bəkr və Ömərin hökumətlərində yaxşı bir vəzifə ələ keçirə bilərdi. Elə sonradan da iş elə düşündüyü kimi oldu.[2]

10) Sonda ənsar sükuta vadar edən məsələ Allahın Rəsulunun (s) ənsardan canişin qoymaması iddiası oldu.

الائمة من قريش Məndən sonra rəhbərlərin hamısı qureyşdəndir.[3] Beləliklə ənsarın xilafətə gəlmək üçün atacağı hər hansı bir addım Allahın Rəsulunun əmri ilə müxalifət kimi qiymətlənəcəkdi.

Əbu Bəkrin sözləri camaatı bərk təsir altına aldığından, bir kəs etiraz etməyə cürət etmirdi. O, qısa cümlələrlə bütün sözləri demiş, ənsar üçün heç bir çıxış yolu qoymamışdı. Deməli, ənsarın mühacirlərin dövlətini qəbul etməkdən savayı heç bir çarəsi qalmamışdı. Əks təqdirdə həsəd və qüdrət eşqində olma kimi adlarla müttəhəm olunacaq və heç kəs də onlara himayə etməyəcəkdi.

Belə nəzərə gəlir ki, Əbu Bəkr ənsarın vəziyyətinin, hücumdan qabaq olan müdafiə kimi olmasını, qabaqcadan düşünmüşdü. Onlar uca məqamlı mühacirlərin olduğu yerdə hakimiyyətə gələ biləcəklərinə o qədər də ümüdvar deyildilər. Elə bu baxımdan da Səqifə yığıncağına çox inamla yanaşmır, lakin az da olsa, öz

---

[1] Ömər Əbu Bəkrin bu zirəkliyindən təəssüf hissi keçirməsini heç vaxt gizlətmirdi. Əvvəlki sözləşmələrinə əsasən Ömər ilk çıxış etməli və xilafətə namizəd olmalıydı. Halbuki Əbu Bəkr ona “Sən heç nə danışma, mən özüm başlayacağam (və yolu sənin üçün rahatlayacaq bundan sonra sözü ələ alacaqsan” demişdi. (“Əs-surətun-Nəbəviyyə”, (tərcüməsi ) 2-ci cild, səh. 431) Sözünün davamında “xilafət ilk olaraq mühacirlərin haqqıdır” deməsilə öz mövqesini möhkəmlətmiş, Ömərin mövqesinisə süstləşdirmişdi.

[2] Əbu Bəkr və Ömərin hökuməti zamanı (hicrətin on səkkizinci ilinə qədər) rəhbərlik və qəzavət işlərindən sonra ən mühüm vəzifə olan dövlətin iqtisadi və maliyyə işlərinə başçılıq etmişdi.

[3] Bu hədisin mötəbər olması tezliklə araşdırılacaqdır.

*O, iki nəfər əmi oğlu olmuşdur. Bəşir (Nöman ibn Bəşirin atası) ikinci əqəbə beyətinin iştirakçılarından olmuş və bir çox döyüşlərdə iştirak ettmiş, hicrətin yeddinci ilində iki “səriyyənin” başçısı olmuşdur. (“Əl-istiyab” 1-ci cild, səh. 155, “Ət-təbəqatul-kubra”, 3-cü cild, səh. 531) Həbbab ibn Munzər Bədr müharibəsində iştirak etmiş və Xəzrəcin bayraqdarı olmuş, Peyğəmbərin (s) zamanında baş vermiş müharibələrdə iştirak etmiş вə Ömərin xilafəti zamanı dünyadan getmişdir. (“Ət-təbəqatul-kubra”, 3-cü cild, səh. 576, “Usdul ğabə” 1-ci cild, səh. 364 , “Əl-istiyab” 1-ci cild, səh. 353, “Əl-isabə” 1-ci cild, səh. 302).

qüdrətlərini rəqibə göstərmək istəyir, qüdrət onların əlində olduqda müəyyən qədər hüquqlarını qorumaq istəyirdilər. Digər tərəfdən, bu yığıncaqla ümumun nəzərində ənsarın hökumətinin qəbul olunmasına qiymət verilirdi.

## ƏNSARIN ƏKSÜL-ƏMƏLI

Əbu Bəkr düşündüyü kimi hədəfə yaxınlaşmışdı. Onun çıxışı Sə`d ibn Ubadə və bir neçə nəfərdən savayı hamını geri çəkilməyə məcbur etmişdi. Bu azmış kimi, Bəşir ibn Sə`d xəzrəcinin sülh meyilli çıxışı və Həbbab ibn Munzərin şüarları* gözlənilənin əksinə olaraq cəmiyyəti mühacirlərin hədəfinə daha da yaxın etdi. Bəşir üzünü orada olanlara tutub dedi:

Ey ənsar! And olsun Allaha! Əgər müşrüklərlə mübarizədə fəzilət sahibi olmuşuqsa və dində qabaqcıllarındanıqsa bu yolda Allahın razılığı, Peyğəmbərə itaət və özümüz üçün çalışmaqdan savayı məqsədimiz olmamışdır. Beləliklə bu əmələ görə camaatın qarşısında fəxr etmək və dünyəvi fayda güdmək yaxşı deyildir. Mühəmməd Qureyşdən idi və yaxınları xilafətə daha layiqlidirlər. Allaha and olsun, heç vaxt Allahın məni bu işə görə onlarla bəhs etməmi görməsini istəmirəm. Siz də Allahdan qorxub bu işdə onlarla müxalif olmayın.

Əvvəldən mühacirlərin Mədinədən çıxarılması fikrində olub ənsarı mübarizəyə çağıran Həbbab ibn Munzər sözünü belə tamamladı: "Mühacirlər bizim təklifimizlə razılaşmadıqda yeganə çıxış yolu bur nəfərin bizdən və bir nəfərində onlardan təyin olunaraq rəhbərliyi öhdəsinə götürməlidir və biz təkcə buna razı olacağıq."[1]

Hakimiyyətdə şərik olmaq fikirləri həqiqətdə mühacir və ənsarın fəaliyyətinin hüdudlarını müəyyən etmək deməkdi ki, mühacirlər buna razılıq vermirdilər. Elə buna görə də Ömər qəzəbli bir halda ona belə cavab verdi:

هَيْهَاتَ!لا يَجْتَمِعُ اِثْنَانِ فِي قَرْنٍ "Heç zaman iki hökumət eyni vaxtda ola bilməz!..." And olsun Allaha! Peyğəmbər sizdən olmadığı halda ərəb hökumətin sizin öhdənizə qoyulmasına razı olmaz. Lakin eyni halda Peyğəmbərin qəbiləsindən olan bir kəsə hökuməti tapşırmağa da heç bir maneə görməz! Biz onun dostları və qohumları olduğumuz halda kim bizimlə Mühəmmədin xilafəti barəsində mübahisə edə bilər?!"[2]

Bundan sonra Həbbabla Ömər arasında olan danışıq dava-dalaşa qalxdı. İşin bu yerə qalxmasına əsas səbəb heç bir əsası olmayan qəbilə təəssübü idi ki, az qala hər iki tərəfi qılınca əl atmaqa məcbur edəcəkdi.[3]

## ƏNSARA VURULAN SON ZƏRBƏ

Ömər ibn Xəttabla Həbbab ibn Munzərin arasında baş verən qarşıdurma dava-dalaşla nəticələnsə də, bu səhnəni idarə edənlər üçün bir neçə faydası vardı. Onların öz məqsədlərinə yetişməsi üçün əlverişli fürsət yaranmışdı. Baş vermiş ixtilaf qarşı

---

[1] "Əl-kamilu fit-tarix", 2-ci cild, səh. 223, "Tarixül-ümǝmi vəl-mülük", 2-ci cild, səh. 243.

[2] "Əl-kamilu fit-tarix", 2-ci cild, səh. 329, "Tarixül-ümǝmi vəl-müluk", 2-ci cild, səh. 243.

[3] "Əl-kamilu fit-tarix", 2-ci cild, səh. 330.

** Mədinədə ənsar birliyini təşkil edən iki əsas qəbilə (Müt).

tərəfə ruhi zərbə vurmaqla yanaşı, düşüncələrində də qarışıqlıq əmələ gətirmişdi. Onlar son sübutlarını əsəb və ruhi zəifliklə açıqlamışdılar ki, belə halda deyilən hər bir dəlil nəticə verməməklə yanaşı qarşı tərəfin fikirlərini qəbul etməyə fürsət yaratmışdı.

Digər baxımdan, baş vermiş qarşıdurma zamanı ixtilaf edən tərəflər arada vasitə olaraq ixtilafı həll edə biləcək bitərəf adamın intizarını çəkirlər. Həqiqət burasındadır ki, Əbu Bəkr bunladrın hamısını bilirdi.

Onun bir müddət susmasının səbəbi də münasib fürsəti gözləmək və axırda son zərbəni endirmək idi. Beləliklə bir neçə hücum həyata keçırməklə qarşı tərəfi təslim olmağa məcbur etdi. Elə bu fikirlə fürsəti əldən vermədən ənsar adı altında birləşmiş cəmiyyətin yadına köhnə ixtilaflarını salıb dedi:

Sözümə yaxşı diqqət edin! Xəzrəc qüdrətə gələrsə Ovs** rahat olmayacaqdır. Çünkü onların da bu işə ləyaqətləri vardır. Yox əgər Ovs iş başına gələrsə onda Xəzrəc bununla barışmayacaqdır. Bu iki qəbilə arasında uzun illərdən bəri müharibələr olmuş və heç zaman sağalmayan yaralar meydana gəlmişdir.

:فان نعق منكم ناعق فقد جلس بين لحيته اسد يضغمه المهاجرى و يجرحه الانصار " Sizlərdən (hakimiyyətə çatmaq üçün) iddia edən hər kəs özünü şirin iki çənəsi altına atmışdır. Həm mühacir həm də ənsar onu dişləri altına alıb parçalayar."[1]

Bu söz deyilənə qədər ənsar az-çox Sə`d ibn Ubadə Xəzrəcini rəhbərliyə qəbul etmişdi. Lakin Əbu Bəkrin "Ənsarın hər iki qəbiləsinin rəhbərliyə ləyaqəti vardır,onlardan birinin xilafətə yetişməsi digəri üçün xətərlidir" deməsi bir daha onları qarşı-qarşıya qoydu və üzdə olan birliklərini parçaladı. Belə bir halda ovsluların qorxusu daha çoxaldi. Belə ki, mühacirləri qabaqlayaraq öz rəqibləri olan Xəzrəc qəbiləsinin başçısınıa rəy verməyə hazırlaşırdılar. Elə buna görə də Əbu Bəkrlə beyət etməkdə xəzrəcliləri qabaqlayıb açıq-aşkar onların iş başına gəlmələrindən qorxmalarını bildirdilər.[2] ənsar arasında yaranan bu çaxnaşmadan sonra növbəti bir zərbənin vurulmasının vaxtı çatmışdı. Bu zaman mühacirlərin üçüncü adamı Əbu Übeydə Cərrah Əbu Bəkr və Ömərin çıxışlarının ardınca sözü ələ aldı və ürəyi yanıqlıqla ənsara xitab edib dedi:

Ənsar! Siz Peyğəmbərə (s) kömək edən ilk dəstə olmuşsunuz. İndi də dində dəyişikliyin etmənin başlayanı olmayın![3]

O da kamanında olan oxu hədəfə yaxşı vurdu. ənsara başa saldı ki, mühacirlərin xilafəti mövzusunda heç bir şübhə yoxdur. Onların rəhbərliyi ilə hər növ müxalifət dində bidətdən savayı bir şey deyildir.

Artıq mühacirlərdən olan bir kəslə beyət etmək vaxtı çatmışdı. Ancaq o kimdir?! Əlidirmi?! Səqifə siyasətçiləri belə göstərdilər ki, guya o, bu məsuliyyəti qəbul etməkdən imtina etmişdir.[4]

---

[1] "Əl-bəyanu vəт-təbyin", 3-cü cild, səh. 181.

[2] "Tarixül-ümәmi vəl-müluk", 2-ci cild, səh. 246.

[3] "Əl-kamilu fit-tarix", 2-ci cild, səh. 330.

[4] Çamaatın hansı səbəblərə görə Əli ibn Əbi Talibə (ə) üz tutmadan qalmalaqı haqda ayrıca bəhs olunacaqdır.

Bu zaman Əbu Bəkr iki qədim dostlarından biri ilə beyət etmək üçün irəli düşdü,[1] amma heç kəs nə ondan, nə də özündən o böyük seçimin səlahiyyətinin heç vaxt və kim tərəfindən Əbu Bəkrə verilməsini soruşmadı. Görəsən, mühacirlərin arasında Ömər ibn Xəttab və Əbu Übeydə Cərrahdan savayı insanlara rəhbərlik etməyə digər bir səlahiyyətli şəxs yoxdumu?! Məkkədə uzun illər qəbir qazan olmuş[2] Əbu Übeydə Cərrah rəhbərlik qaydalarını kimin yanında öyrənmişdi ki, indi Əbu Bəkr ona beyət etmə təklifini irəli sürürdü?!

Ömər və Əbu Übeydəyə olunan təklifdən sonra o, iki nəfər eyni zamanda Əbu Bəkrə üz tutub dedilər:

Allaha and olsun ki, yox! Sən bütün mühacirlərdən üstünsən, mağarada[3] Peyğəmbərlə bir yerdə olmuş və Allahın Rəsulu (s) səni öz yerinə namaz qılmaqa təyin etmişdir,[4] halbuki, namaz ilahi hökümlərin ən üstünüdür. Belə isə, səndən qabağa keçməyə kimdə ləyaqət ola bilər?! Əlini uzat, səninlə beyət edək.[5]

(Ömər dedi:) Heç kəs səni, Allahın Rəsulunun sənə verdiyi məqamdan kənara qoymayacaqdır![6]

Ömər ibn Xəttab, Əli ibn Əbi Talib və Abbas kimi şəxsiyyətlərin fəziləti və Əbu Bəkrin zirəkliyi yanında onun üçün heç bir yerin olmamasını yaxşı bilirdi. Buna görə də daha zirək olan Əbu Bəkri qabağa saldı, o tez, yaxud gec etdiyi bu xidmətin əvəzini görəcəyinə inanırdı.

Bəziləri yazır: Bu zaman Bəşir ibn Sə`d Əbu Bəkrlə beyət etmək üçün hamıdan tez ona tərəf atıldı. [7]

İşi belə görəndə, artıq Həbbab ibn Munzər üçün Sə`d ibn Ubadədən tərəfdarlıq etməyə heç bir fürsət qalmır və iş mühacirlərin xeyrinə tamamlanırdı. Bəşir uzun illər əmisi oğlu Sə`dlə rəqabət aparmış və ona həsəd edirdi. [8] Necə ki, beyətdən sonra

---

[1] "Əl-kamilu fit-tarix", 2-ci cild, səh. 330.

[2] Bu barədə ətraflı məlumat üçün "Əl-Гədir" kitabının" 5-ci cild, səh. 367-nə müraciət etmək olar.

[3] Əbdül Fəttah Əbdül Məqsud yazır: Ömərin ibn Əbi Quhafəni (Əbu Bəkri) belə bir uca məqama lajiq görməsinin səbəbini onun Peyğəmbərlə маґарада bir yerdə olmasına görə olduğuna inanmıram. Onu, ətrafını nizə və гылынҹлар aldığı bir zaman Allahın Rəsulunun (s) yerində (həyatını təhlükəyə ataraq) uzanmış cavandan daha laiqli bilirdi?! Əli, qəbrin ona hər şeydən yaxın , nicat tapmaqsa hər şeydən uzaq olan bir yataqda yatmışdı. ("Əl-imamu Əli ibn Əbi Talib")

[4] Əgər doğurdan da camaat namazına imam olmaq, xəlifələr və onlara etiqad bağlamış insanlar arasında belə etibarlı olsaydı, bu zaman əhli sünnətin fiqhində özünə məxsus yerə sahib olmalıydı. Halbuki əhli sünnət məzhəbinə əsasən imam camaatın ədalətli olması şərt deyildir və hər bir fasiq etdiyi günah kəbirə günahı belə olmuş olca, müsəlmanlara imam camaat ola bilər. ("Şərh əqaid nəsəfi" səh. 110, "Kitabul fiqh əla əl-məzahibul -ərbəə", Əbdülrəhman Cəriri 1-ci cild, səh. 409-414) Xəlifələrin zamanında da əgər hamısını deməsək camaat namazına imamət edənlərin bir çoxu adil deyildilər.

[5] "Əl-kamilu fit-tarix", 2-ci cild, səh. 330.

[6] "Əl-иqdul-fərid", 4-cü cild, səh. 258.

[7] "Tarixül-üməmi vəl-müluk", 2-ci cild, səh. 243. İbn Əsir yazır: O, hətta Ömər və Əbu Ybeydədən də qabaq Əbu Bəkrlə beyət etdi. ("Əl-kamilu fit-tarix", 2-ci cild, səh. 243.

[8] "Şərhi Nəhcül-bəlağə", İbn Əbil-Hədid, 6-cı cild, səh. 9

Həbbab ona dedi: "Sən əmin oğlu ilə apardığın rəqabətə görə belə etdin."[1] Bəşir isə təkcə Allahın bu dəstə üçün ayırdığı haqqa qarşı çıxıb onlarla müxalifət etməməkdən ötrü belə etdiyinə and içdi.[2]

Bəşir doğrudan da, həqiqətimi deyirdi?! Görəsən, həqiqətən də Allah rəhbərliyi mühacirlərin öhdəsinə qoymuşdu? Görəsən bu üç nəfərdən savayı başqa layiqli bir kəs yox idi?! O üç nəfərin (Əbu Bəkr, Ömər və Əbu Übeydə) yaratdığı səhnə və həmkarlığı o qədər dəqiq və təsirli idi ki, İbn Əbil Hədid demişkən: Ömərin dünyadan getdiy zaman "Əgər vəsiyyət etmədən dünyadan getsəm Allahın Rəsulu (s) kimi rəftar etmişəm" – dediyi söz olmasaydı inanmaq olmazdı ki, Peyğəmbər xilafəti onlara tapşırmamışdır[3]

Yığıncaqda məclisin gedişi və deyilən sözlərin məharətlə qurulmasından, ənsar tamamilə mühasirəyə düşmüşdü. Üç dostun hər biri məclisin müxtəlif yerlərindən bir-birinin sözünü almaqla digərlərinin fikirlərini bir yerə yığmalarına imkan vermir və onları təşvişə salırdılar. ənsar bir neçə hakimin arasında qalmış məhkuma bənzəyirdi: sanki hakimlərdən biri məhkumdan sual etməklə onu təşvişə salır, digər hakimsə yeni zərbə endirirdi və o da nəhayətdə naçar qalaraq hakimlərin istədiyi hər bir şeyi e`tiraf edirdi.

Bəşirin hərəkəti Ovs qəbiləsinin arasında qarışıqlıq yaratdı. Onlar Xəzrəclilər arasında mühacirləri hakimiyyətə gətirmək üçün hiylə hazırlanması və tezliklə hökumətdə onlarla şərik olacaqları qənaətinə gəldilər. Belə olduqda ən yaxşı siyasi hərəkət gecikmədən yeni hökuməti Əbu Bəkrin başçılığı altında tanıyıb beyət etməklə xəzrəclilərdən geri qalmamaq idi. Bu səbəbdən (Ovs qəbiləsinin başçısı) Usəyd ibn Huzəyr uca səslə qışqıraraq dedi:

"Ey Ovslular! Qalxın və Əbu Bəkrlə beyət edin! Əgər Xəzrəc bir dəfə hökumətə gələrsə sizə qarşı olan üstünlüyünü həmişə qoruyacaq və sizə heç vaxt ondan pay çatmayacaqdır."

Bu çağırışdan sonra ovslular Əbu Bəkrlə beyət etdilər[4] və xəzrəclilərinsə bir çoxu acıqlı halda səhnəni tərk etdilər.

## HÖKUMƏT SÜTUNLARININ MÖHKƏMLƏNMƏSI

Səqifə yığıncağı sonda mühacirlərin qələbəsi ilə başa çatdı. Buna baxmayaraq, qalib gəlmiş dəstənin olduğu mövqeyi möhkəmlətməyin hələ çox zamana ehtiyacı vardı. Buna görə də o hadisəni meydana gətirən mahir idarəedicilər bu mövqeyi möhkəmlətmək üçün bəzi vasitələrə əl atmalı oldular. Beləliklə üç hədəf nəzərə alındı:

1. Digərlərini hər yolla olursa-olsun, Əbu Bəkrin xilafətini qəbul etməyə məcbur etmək;

2. Xarici qüvvələrdən yardım almaq;

---

[1] "Tarixül-üməmi vəl-müluk", 2-ci cild, səh. 243.
[2] "Tarixül-üməmi vəl-müluk", 2-ci cild, səh. 243.
[3] "Nəhcül-bəlağənin şərhi", İbn Əbil-Hədid 12-ci cild, səh. 86
[4] "Şərhi Həhcül-bəlagə", İbn Əbil-Hədid, 2-ci cild, səh. 39.

3. Rəsmi beyət mərasimi keçirmək;

Ömər ibn Xəttab ilk hədəfi elə Səqifədən həyata keçirməyə başladı. Bir dəstə adam onun göstərişi əsasında Hubab ibn Munzəri ayaqları altına salıb ağzını torpaq ilə doldurub [1] burnunu sındırdılar[2]. Bir müddət sonra bir dəstə adam Miqdadı döydü,[3] o vaxt az qala Sə`d ibn Übadə ona dəyən yumruq və təpiklər altında can verəcəkdi[4].

O gün hər kəs səsini çıxarırdısa ağzını torpaqla doldururdular.[5] O anlarda daha çox eşidilən cümlə bunlar idi: "Filankəsi öldürün[6], onları həlak edin, boynunu vuracağıq..."[7]

O gün Ömər, Əbubəkirlə beyət edən hər kəsi, işin onun xeyrinə bitmiş olduğu təsəvvürünü yaratmağa görə bir tərəfə yollayırdı. Sonra Əbu Bəkr və onun rəsmi tərəfdarları ilə şəhərin küçələrinə çıxaraq qarşılarına çıxan hər kəsi ixtiyar, yaxud məcburi yolla Əbu Bəkrin yanına gətirir, əlini onun əlinə sürtüb daha sonra azad edirdilər.[8] Bu zaman Həbbah ibn Munzər əlinə qılınc alaraq onları törətdikləri bu işdən saxlamaq istədi, lakin Ömər ibn Xəttab özünə məxsus zirəkliklə onun qarşısını aldı. Ömər ona qarşı qılınc çəkmədən təkcə onun qılıncını yerə atdırdı. Köynəyin ətəyini yelləməklə camaatı dağıtdı [9] və Həbbab və orada olanlara başa saldı ki, artıq qılınclıq bir iş yoxdur, camaat öz qərarını qəbul etmişdir.

İkinci hədəfə gəldikdə isə, (xarici qüvvələrdən kömək aımaq) daha çox "Əsləm" qəbiləsinin Mədinəyə daxil olmasından faydalanmaq planı idi. Bunlar "Təbuk" müharibəsində istər mali istərsə də canlı qüvvə baxımından Peyğəmbərə kömək göstərməkdən imtina etmişdilər. Münafiq və müharibədən boyun qaçı ranları pisləyən "Təhrim" surədsi onların rüsvay olunması üçün nazil olmuşdu.[10]

Şeyx Mufid yazır:

Ömər ibn Xəttab "əsləm"ilərə xəbər göndərib yanına gəlmələrini istədi. Onlara xitab edərək dedi: "Allahın Rəsulunun xəlifəsi ilə beyət qarşısında nə qədər istəsəniz sizə azuqə verəcəyəm. Siz camaatı beyət etməyə çağırın və imtina edənin alnına və

---

[1] "Tarixül-üməmi vəl-müluk", 3-cü cild, səh. 210, "Nəhcül bəlağə" İbn Əbil-Hədid, 6-cı cild, səh. 40

[2] "Nəhcül-bəlağənin şərhi", 1-ci cild, səh. 174. İbn Əbil-Hədid.

[3] "Nəhcül-bəlağənin şərhi", 1-ci cild, səh. 174. İbn Əbil-Hədid.

[4] "Nəhcül-bəlağənin şərhi", 1-ci cild, səh. 174. İbn Əbil-Hədid, və 6-cı cild, səh. 49, "Tarixül-üməmi vəl-müluk", 3-cü cild, səh. 210, "Tarixül-xəmis", 2-ci cild, səh. 187 və188, "Müsnədi-Əhməd", 1-ci cild, səh. 56, "Əs-sirətül-Hələbiyyə", 3-cü cild, səh. 396.

[5] "Nəhcül-bəlağənin şərhi", 6-cı cild, səh. 40, İbn Əbil-Hədid, "Əl-qədir", 7-ci cild, səh. 75-76.

[6] "Müsnədi-Əhməd", 1-ci cild, səh. 56, "Tarixül-üməmi vəl-müluk", 3-cü cild, səh. 210, "Əl-imamətü və əl-siyasətu" 1-ci cild, səh. 10, "Ənsabül-Əşraf" 1-ci cild, səh. 528, "Əl-иqdül fərid" 2-ci cild, səh. 253, "Nəhcül-bəlağənin şərhi", 1-ci cild, səh. 174, İbn Əbil-Hədid, "Əl-qədir", 7-ci cild, səh. 67.

[7] "Əl-imamətu vəs-siyasət", 1-ci cild, səh. 13, "Əl-иqdul fərid" 2-ci cild, səh. 253, "Əl-qədir", 7-ci cild, səh. 76-78.

[8] "Nəhcül-bəlağənin şərhi", İbn Əbil-Hədid 1-ci cild, səh. 219, "Əl-imamu Əli ibn Əbi Talib" 1-ci cild, səh. 238-239.

[9] "Tarixül-üməmi vəl-müluk", 2-ci cild, səh. 24.

[10] "Əs-sirətun-Nəbəviyyə", 4-cü cild, "Təbuk" müharibəsi hadisəsi.

başına vururn. O səhra əhli kəmərlərini möhkəmlədərək əllərinə çomaq alıb camaatın canına düşdülər və onları güclə beyətə doğru dartmağa başladılar.[1]

Bu sözdən və eləcə də Ömərin onların Mədinəyə daxil olmasından sevinməsindən, onların say baxımından çox, rəftar baxımındansa acıqlı olmalarını başa düşmək olur Ömər bu haqda deyir: Əsləmilər Mədinəyə daxil olduğu zaman qələbəyə arxayın oldum.[2] Onlar mühacirlərə bağlıydılar. Sayları o qədər çox idi ki, küçələr onlara darlıq edirdi. Əsləmilər özləri Əbu Bəkrlə beyət edib [3] başqalarını da bu işə məcbur edirdi lər[4] O qarışıqlıqda fayda verəcək heç bir müxalif hərəkətə yer yox idi. Azca müxalifət şiddətli cavabla qarşılanırdı.

Heç bir tarixçi Səqifə hadisəsini yaradanların o gün baş vermiş hadisədən sonra Allahın Rəsulunun (s) evinə qayıtması və o həzrətin mübarək bədəninin dəfnə hazırlanması və torpaqa tapşırılmasında iştirak etməyə gəlmələrini qeyd etməmiçdir. O, gün əvvəldən axıracan səs yığmaq, ümumun nəzərini cəlb etmək və müxalifləri qorxutmaqla keçdi. Bununla belə, o beyət kafi deyildi. Sabahı gün ilk fürsətdə beyəti möhkəmlətmək,yenidən olunacaq beyətlərlə hökumət qurmaq lazım idi. Belə olduqda qiyam və boyun qaçırma təhlükəsi tamamilə aradan getməli, Sə`d ibn Ubadə və Həbbab ibn Munzər kimi şəxslər xilafət fikrində olmamalıydı. Buna görə də ikinci gün "Xəttabın oğlu dünən Peyğəmbərin ölməməsi barədə dediyi sözlər barədə aydınlıq vermək istəyir" – səsi məsciddən ucaldı.

Əzəmətli bir yığıncaq təşkil olundu. Əbu Bəkr mənbərə qalxdı. O, sözə başlamazdan öncə Ömər dedi:

Mən dünən öz düşüncəm əsasında söz demişəm. Dediyim sözü nə Allahın kitabında görməmiş, nə də Allahın Rəsulundan eşitməmişəm. Elə bilirdim ki, Allahın Rəsulu bizim aramızdan dünyadan gedən sonuncu şəxs olacaqdır. O indi Allah kitabını sizin aranızda qoymuşdur ki, camaatı onun vasitəsi ilə hidayət edirdi.

Allah sizin işlərinizi Əbu Bəkrin vasitəsi ilə qaydaya salmışdır. O, sizlərin ən yaxşısıdır. Həmişə Allahın Rəsulunun həmdəmi və hicrət zamanı mağarada onunla bir yerdə olmuşdur. Siz də qalxıb onunla beyət edin.

Bu zaman orada olanlar qalxaraq rəsmi şəkildə onunla beyət etdilər.[5] Daha sonra Əbu Bəkr üzünü camaata tutub dedi:

Camaat! Sizə rəhbərliyi boynuma götürsəm də sizdən üstün deyiləm.[6]

انَّ لِى شَيْطَاناً يَعْتَرِينِى فَاذَا رَأَيْتُمُونِى غَضِبْتُ فَاجْتَنِبُونِى

Mənim üçün bir Şeytan var ki, durmadan məni vəsvəsə edir. Məni qəzəbli gördüyünüz (ya yanıma gəldiyiniz) zaman məndən uzaq olun[7].

---

[1] "Səqifə"Peyğəmbərdən sonra baş vermiş hadisə səh. 28-29, "Cəməl müharibəsindən" nəqlən.

[2] "Tarixül-üməmi vəl-müluk", (tərcüməsi)4-cü cild, səh. 1348.

[3] "Tarixül-üməmi vəl-müluk", 3-cü cild, səh. 205.

[4] "Nəhcül-bəlağənin şərhi", 1-ci cild, səh. 219-221,bn Əbil-Hədid.

[5] "Nəhcül-bəlağənin şərhi", 6-cı cild. səh. 20, İbn Əbil-Hədid "Tarixül-üməmi vəl-müluk", 2-ci cild, səh. 237, "Əl-bidayətu vən-nihayə", 5-ci cild, səh. 248, "Əs-sirətun-Nəbəviyyə", 2-ci cild, səh. 433, "Əl-təbəqatül kübra", 3-cü cild, səh. 182, "Əl-kamilu fi-tarix", 2-ci cild, səh. 22.

[6] "Əc-sirətul-hələbiyyə", 3-cü cild, səh. 359.

[7] "Əl-kamilu fi-tarix" 2-ci cild, səh. 231, "Əl-imamətu vəs-siyasət", 1-ci cild, səh. 16.

Təəccüb bundadır ki, o məclisdə bir nəfər də olsun, Əbu Bəkrdən soruşmur ki, nə üçün bu sözü bur gün qabaq demirdin?! Bəlkə də e`tiraz edən olmuşdu, lakin xəbəri bizə çatmamışdır. Dünən bir dəstə onunla beyət etmədikdə onlara demişdi: “Sizi mənimlə beyət etməkdən saxlayan nədir?!؟أَلَسْتُ اَحَقّكُم بهذ الامر؟ اَلست اول من اسلم Mən sizin hamınızdan layiqli deyiləm? Sizin hamınızdan əvvəl iman gətirməmişəm?!”[1]

İbn Əbil-Hədid yazır: Əbu Bəkrin dediyi “Mən sizdən üstün deyiləm..”sözü düz sözdür. O, inkarolunmaz bir şeyi iqrar etmişdir. Çünki Əli ibn Əbi Talib onların hamısından üstün idi[2]; amma o gün camaat (Əli kimi) fəzilətdə, cihadda, elimdə, siyasətdə və şərafətdə bərabəri olmyan, lakin təqvalı və adil olan bir kəsə üz tutdular (Beləliklə Əbu Bəkrə irad tutulmamalıdır. Çünki onu camaat seçmişdi). Əshaba da yaxşı nəzərlə baxmalı, tutduqları işi yaxşı yerə yozmaq lazımdır. Onlar həqiqətdə İslamın məsləhətinə uyğun olaraq ixtilaf və qarışıqlıq yaranmasının qarşısını almaqdan ötrü fəzilətdə, şərafətdə və ləyaqətdə daha üstün olandan üz çevirib fəziləti və şərafəti az olan bir kəsə üz tutmuşdurlar[3]

Hələbi Şafei yazır:

Əbu Bəkr belə düşünürdü ki, üstünlüyü olmayan şəxs özündən üstün və yaxşı olan bir kəsə rəhbərlik edə bilər. Əhli sünnətin fikrincə düz olan nəzər elə budur. Belə ki, mümkündür bəzi vaxtlar üstün olmayan kəs dinin məsləhəti olan bir işdə özündən yaxşı olan bir nəfərdən daha bacarıqlı və itaət edənlərin işlərində intizam yaratmaqda daha səriştəli olsun. Elə buna görə də o, Ömər və Əbu Übeydəni qabağa salaraq camaatın istədikləri halda onlarla beyət etmələrinə fürsət yaratdı.[4]

İbn Əbil Hədid və Hələbi Şafeinin sözləri qarşısında bir neçə sual vermək yerinə düşərdi:

1. Bu söz Allahın Rəsulunun (s) buyurduğu: “Hər vaxt ümmətə, aralarında ondan yaxşı və layiqlisi olduğu halda, digəri rəhbərliyi öhdəsinə götürərsə, o ümmət günbəgün geriləyəcəkdir.”[5]

2. İbn Əbil-Hədidin, Əli ibn Əbi Talibin cihadda, elmdə, siyasətdə və şərafətdə tayı-bərabəri olmayıb və olmayacağına etiraf etməsini nəzərdə alsaq, başqasının dövlət idarəçiliyində Əlidən hansı üstünlüyü vardı ki, Hələbi Şafeinin dediyi kimi, o xüsusiyyətə görə özündən daha fəzilətlidən qabağa düşmüşdü?!

Hələbi Şafeinin kəlamında olan müğalitəni (sofismika) görmək çətin deyildir. Belə ki, heç kəs bəzi vaxtlar tabe olanın məxsus bir işdə öz rəhbərindən üstün olmasını inkar etmir. Məsələn xərratın şagirdi ox atmada öz ustasından mahir ola bilər. Amma burada ümumi fərz irəli sürərək heç kəs demir ki, üstünlüyü olmayan bir kəs üstünlüyü olandan daha bacarıqla iş görür. Əksinə, hər bir müqayisədə soruşmaq lazımdır? Hansı cəhətdən üstündür?!

---

[1] “Nəhcül-bəlağənin şərhi”, 17-ci cild, səh. 158 , İbn Əbil-Hədid.

[2] “Nəhcül-bəlağənin şərhi”, 17-ci cild, səh. 158, İbn Əbil-Hədid.

[3] “Nəhcül-bəlağənin şərhi”, 1-ci cild, səh. 157 İbn Əbil-Hədid.

[4] “Əs-sirətul-Hələbiyyə” 3-cü cild, səh. 386 və “Ənsabul-əşraf” 5-ci cild, səh. 419.

[5] “Hilyətül-əbrar” 2-ci cild, səh. 77, “Bəharul ənvar” 10-cu cild, səh. 143. İmam Əili(ə)buyurmuşdur: Mən bu sözü dəfələrlə Allahın Rəsulundan eşitmişəm. (“İmamşenasi” (imamtanıma)8-ci cild, səh. 114 Səlim ibn Qeysin kitabından nəqlən səh. 148).

3. Rəhbərlik bir işdə məharətli olmağa ehtiyacı olan qazanc növü deyildir ki, o məharətə əsasən digərindən üstün olasan. Bütün fəzilətlər bir adamda görsənməyincə, təkcə bir üstünlüyə malik olan şəxsi heç də rəhbər hesab etmirlər. İndi Əli ibn Əbi Talib heç də nöqsanlı hal sayılmayan yaşca kiçik olmanı istisna etməklə hansı cəhətdə Əbu Bəkrdən aşağı idi?! Bundan əlavə, Əbu Bəkr öz hislərinə hakim olmayan bir rəhbər olmasını e`tiraf edərək şeytanın bəzən ona qalib gələrək haqq yoldan onu uzaqlaşdırmasını bildirir. Görəsən, öz hislərini nəzarət altına almaq rəhbərliyin lazımı şərtlərindən deyildirmi?! Özünə rəhbərlik edə bilməyən kəs, görəsən ümmətə rəhbərliyin öhdəsindən necə gələ bilər?! Bütün bunlardan əlavə, Əbu Bəkrin rəhbərlik işində Əli (ə) dan üstünlüyü kimin tərəfindən və hansı meydanda sübuta yetirilmişdi?!

İbn Əbil-Hədid bu iradı qəbul etməklə, Əbu Bəkrin dediyi: "Mənim şeytanım var..." cümləsini onun zəifliyi kimi xatırlamışdır.[1]

Əbu Bəkr bu sözü o zaman camaatın qarşısında e`tiraf edirdi ki, artıq ikinci beyət də tamam olmuş və müəyyən qədər hökumətinin binası möhkəmlənmişdi. Qeyd olunan tərzdə alınmış rəsmi beyətdən sonra güc və qüdrət göstərmənin vaxtı idi. Bundan sonra artıq müxaliflər qorxudulmalıydı. Elə fikirləşməməliydilər ki, xəlifənin həmişəlik yumşaq xasiyyəti hökumətə daim tutulacaq iradlara səbəb olmalıdır. Heç vaxt! Camaat agah olub bilməlidir ki, şeytan xəlifənin xoş xasiyyətini ondan uzaq edib onu qəzəbləndirərək zülmə məcbur edə bilər. Belə olan halda ondan uzaq olaraq onu öz ixtiyarına buraxmalıdırlar ki, məsləhət bildiyi hər işi etsin.

## MÜXALIFLƏRIN AXTARIŞINDA

İslamın ilk əsrlərində tarixçilərin bir çoxu əməvi və abbasi hökümətlərinə bağlı olmuşlar. Bu səbəbdən tarix kitablarında Səqifə hadisəsi belə göstərilmişdir ki, sanki camaatdan bir neçə nəfəri çıxmaqla qalanları Əbu Bəkrin hakimiyyətinə razı, Əlinin başçılığınasa müxalif olmuşlar. Halbuki əldə olan dəlillər heç də bu nəzəri təsdiqləmirlər. Bəzi dəlillər bunlardır:

1.Bir neçə ay müddətində Əli ibn Əbi Talib (ə), bəni Haşim ailəsinin bütün üzvləri və tanınmış səhabələrin (Əbu Zərr Ğəffari, Salman Farsi, Əmmar Yasir, Miqdad, Ədullah ibn Məs`ud, Zübeyr, Əbu Əyyub Ənsari, Qeys ibn Sə`d, Osman ibn Huneyf, Xuzeymət ibn Sabit, Səhl ibn Huneyf, Huzeyfət ibn Yəman, Zeyd ibn Əraəm və Bureydət Əsləmi) beyət etməməsi;[2]

2. İbn Əbil Hədid və başqalarının dediyi kimi, camaatın ixtiyarlı, yaxud zor gücünə beyət etməsi;[3]

3.Mürtədlər qiyamı ilə məşhur olan Əbu Bəkrə qarşı müxalifət.

Sə`d Əbu Bəkr və Ömərlə beyət etməyib, heç zaman yığıncaqlarda iştirak etmədi. O, həmişə adam yığıb hökumətin əleyhinə qiyam etmək fikirində idi. Heç

---

[1] "Nəhcül-bəlağənin şərhi", 17-ci cild, səh. 158-162, İbn Əbil-Hədid.
[2] "Əli ibn Əbi Talibin siyasi möqrsi" səh. 60-78.
[3] "Nəhcül-bəlağənin şərhi", 1-ci cild, səh. 219-221, İbn Əbil-Hədid.

vaxt onların məhkəmələrinin çıxardığı hökümlərə e`tina etmədi. Bu iş Əbu Bəkr dünyadan gedənə qədər davam etdi...

Bir vaxt Ömərə üz tutub dedi: "And olsun Allaha, ən çox acığım gəldiyi şey səninlə bir şəhərdə yaşamaqdır!" Ömər cavabında dedi: "Hər kəs bir nəfərlə qonşu olmaq istəmədikdə başqa yerə köçür." Sə`d cavabında dedi: "İnanıram ki,sən və sənin əshabından daha çox sevdiyim adamların qonşuluğuna gedəcəyəm." Çox keçmədi ki, Şama tərəf hərəkət etdi.[1]

Ömər həmişə onu ya beyətə məcbur etmək, ya da öldürmək fikrindəydi. Sə`d Səqifədə Əbu Bəkrə rəy vermədikdə Ömər onun başı üstünə gəlib dedi: "İstəyirəm səni ayağımın altına alıb biləklərini sındırım." Bir nəfər Ömərin saqqalını tutub dedi: And olsun Allaha, əgər onun başından bir tük belə az olsa sənin ağzında bir dənə də olsun diş qalmayacaqdır!" Əbu Bəkr onların dava-dalaşını görüb irəli gələrək Ömərə dedi: "Sakit ol! İndi yumşaq olma vaxtıdır!"[2]

Amma Ömər Sə`ddən bu sadəliklə əl çəkən adam deyildi. Təkcə Sə`d idi ki, camaat arasında olan nisbi sakitliyi pozur, müharibə yaratmaq üçün öz müxalif hərəkətinə təkid edirdi. O, xilafət iddiası edir, hökumətin gələcəyi üçün ciddi təhlükə hesab olunurdu. Bir neçə gün sonra onun ardınca adam göndərib Əbu Bəkrlə beyət etməsini ondan istədikdə dedi:

"Yox! Allaha and olsun, sizinlə beyət edən deyiləm! Sonuncu oxuma qədər sizə tərəf atacaq, nizəmi qanınızla boyuyacağam. Əllərim qılınc tutana qədər sizi özümdən uzaqlaşdıracaq, ailəm və ardıcıllarımla sizinlə döyüşəcəyəm. Bütün insanlar və cinlər belə sizinlə bir olsa, Allahımla görüşənə qədər sizinlə beyət etməyəcəyəm!"[3]

Bu söz Ömər və Əbu Bəkrin qulağına çatdıqda, Ömər Əbu Bəkrdən nə yolla olursa-olsun, ondan beyət almasını istədi. Lakin Bəşir ibn Sə`d Öməri bu işə israr etməsindən qorxudub çəkindirərək dedi: "Sə`d beyət etməyəcəyində israrlıdır. O, öləcək, ancaq beyət etməyəcək. O, ölməzdən qabaqsa ailəsi uşaqları və qəbiləsindən bir dəstəsi öləcəkdir. Onu öz başına buraxın, çünki onun tutduğu iş sizə heç bir zərər verməyəcəkdir.[4]

Nəhayət, Ömərin onun üçün yaratdığı çətinliklər dözülməz həddə yetişdi. O, Əbu Bəkrin ölümündən sonra Mədinədən çıxdı. O, Ömər ibn Xəttabdan əsla qorxmurdu. Lakin onun tərəfindən asudəlikdə də deyildi. Şəhərdə qalıb öz rəislərinə vəfadar olmayan qəbilənin içində yaşamaq da onun üçün şirin deyildi. Şama köçməsindən o qədər də keçməmişdi ki, ölüm xəbəri Mədinəyə çatdı. Bir neçə gün bu səda camaat arasında yayıldı:

قد قتلنا سيد الخزرج سعد بن عبادة رميناه بسهمين لم يخطأ فؤاده

"Biz xəzrəcin böyüyü Sə`d ibn Ubadəni öldütrdük. Qəlbini heç biri yan keçmyən iki oxla nişan aldıq"

---

1 "Nəhcül-bəlağənin şərhi", 6-cı cild, səh. 10, İbn Əbil-Hədid.
2 "Tarixül-ümәmi vəl-müluk", 2-ci cild, səh. 244.
3 "Əl-kamilu fi-tarix" 2-ci cild, səh. 231.
4 "Tarixül-ümәmi vəl-müluk", 2-ci cild, səh. 244.

Sonra belə bir söz yayıldı ki, cinlər Sə`di öldürmüşdür və bu da onların şe`ridir. Bir gecə səs gələn tərəfə getdikdə Sə`din şişmiş cəsədini quyudan tapdılar.

Həqiqətdə isə Sə`di Mədinədən göndərilmiş məmurlar öldürmüşdü. Ömər bir neçə nəfəri Şama göndərərək dedi: "Sə`ddən beyət etməsini istəyin. Boyun qaçırdıqda öldürün." Məmurlar Şamın "Hərran"məntəqəsində Sə`d beyətdən boyun qaçırdıqdan sonra öldürdülər.[1] Başqa bir rəvayətə görə onun qatili Xalid ibn Vəlid olmuşdur.[2]

## MÜHACIRLƏRIN QALIB GƏLMƏSININ SƏBƏBLƏRI

Mühacirlərin Səqifədə qalib gəlməsinin bəzi əsas səbəbləri bunlardır:

1. Ovs və Xəzrəc qəbilələri arasında əsaslı ixtilaf olması. Səqifə yığıncağında təkcə qorxu mühacirlərin rəhbərliyə gəlməsi məsələsi idi. Bu amil iki tayfa arasında zahiri birlik yaratmışdı. Buna qədər isə nə o gün, nə də ondan qabaq bir-birləri ilə heç bir birlikləri olmamışdı. Elə o gündə də Sə`d ibn Ubadənin rəhbərliyini irəli sürən təkcə xəzrəclilər olmuşdu.

Təbəri və İbn Əsir yazırlar: Bu iki qəbilənin bir-biri kənarında yaşadıqları zamanda da, onlardan biri müəyyən bir iş görmək istədikdə, o biri tayfa onunla rəqabət apararaq eyni işi görüb deyirdi: Heç vaxt bu işdə bizdən üstün olmayacaqsız!"[3]

Sonuncu dəfə aralarında müharibə hicrətdən altı il qabaq baş vermişdi. Deyilənlərə görə, xəzrəclilər məkkəlilərdən kömək almaq üçün ora gəlmiş, elə həmin səfərdə Allahın Rəsulu ilə tanış olaraq hidayət tapmışdılar. Aralarında olan ixtilaf bu iki dəstəni nə qədər rəqabətə və zəifliyə çəkmişdisə, bir o qədər də qarşı tərəfi gücləndirmiş və ixtilafdan lazımınca faydalanmaq fürsəti yaratmışdı. Bu qarışıqlıqda hər dəstə qüdrəti öz əlinə almaq haqqında fikirləşir, Əli ibn Əbi Talib (ə) kimi şəxsiyyətlər haqqında söz deməyə heç kəsin haqqı yox idi. Belə bir yerdə hər hansı tərəf Əlidən söz açsaydı həqiqətdə öz qalib gəlmə fürsətini əldən verməklə qarşı tərəfə fürsətdən daha səmərəli istifadə etmək imkanı yaratmış olacaqdı.

2. Əbu Bəkrin Peyğəmbərin hədisindən istifadə etməsi. O, Peyğəmbərin buyurduğu:الائمة من قريش [4]

"Ümmətin başçıları Qureyşdəndır."

3. Ənsar qarşısında siyasi üstünlük. Mühacirlər, məxsusən onların islamda qabaqcıl olanları ənsarla müqayisədə on il düşmənə qarşı mübarizə və siyasi keçmişə malik idi. Bundan əlavə, onların Məkkədə işləri daha çox ticarət səfəri olduğundan ictimai və siyasi məlumatları daha çox idi. Əksinə olaraq, daha çox əkinçiliklə məşğul olan ənsarın siyasi təcrübəsi, heç bir əsası olmayan müharibələr olmuşdu. Bu

---

[1] "Əl-иqdul fərid" 4-cü cild, səh. 260 Onun ölümü hicrətin 15-ci ilində Ömərin xilafətə yetişməsindən iki il yarım keçəndən sonra baş vermişdir. ("Əl-istiyab" cəh. 2).

[2] "Əl-imamu Əli ibn Əbi Talib" səhş273, "Nəhcül-bəlağənin şərhi", 17-ci cild, səh. 223, İbn Əbil-Hədid.

[3] "Tarixül-üməmi vəl-müluk", 3-cü cild, səh7 , "Şərhi Nəhcül-bəlağə", İbn Əbil-Hədid, 17-ci cild, səh. 223.

[4] Bu haqda "Peyğəmbər (s) və оnун canişini" bəhsində danışacağıq.

da öz növbəsində düşmənçik və cəhaləti dərinləşdirməkdən savayı heç bir şey onlara verməmişdi. Onların səhv düşüncələrindən biri bu idi ki, Əli ibn Əbi Talibin (ə) hakim olması ilə başqa bir nəfərin rəhbərliyi arasında heç bir fərq görmürdülər. Münafiqdən savayı hər kəs olursa-olsun, isalamın qorunması və genişlənməsi üçün çalışacaqdır. Onların ilk siyasi təcrübəsi olduğundan, insanlar arasında azca əqidə və ya səliqə ixtilafının hökuməti tamamilə başqa bir tərəfə apara biləcəyini bilmirdilər.

4. İctimai və dini üstünlük. Ərəblər arasında üstün cəhəti kimi, Peyğəmbərlə qohumluq amilinə istinad etmə ənsarı sakit etsə də, həqiqətdə avam aldatma üçün bir seçim idi. Çünki Peyğəmbərlə daha yaxın ünsiyyətdə və daha yaxın qohum olanlar xilafətdən məhrum oldular. Necə ki Əli ibn Əbi Talib bu haqda Səqifə yaradıcılarına xatırladaraq onları danlamışdı.

5. Əbu Bəkrin üstünlükləri. Əbu Bəkrin Səqifədə digər xilafət iddiası edənlərdən daha çox etimad qazanaraq bir dəstənin onunla beyəti qəbul etməsinə üstünlük verən cəhətlər, onun islamı ilk qəbul edənlərdən olması, Peyğəmbərin xanımının (Ayişənin) atası olması, mağarada Peyğəmbərlə yanaşı olması,[1] qocalığı, ticarətdə olan təcrübəsi, öz hədəflərinə çatmaq üçün camaatı yaxşı tanıması və səbirli olması idi. Bütün bunlardan əlavə, Məkkədə Qüreyş qəbilələri Bəni-Məxzum, Bəni-Üməyyə və Bəni-Haşimi cana yığmış qüdrət və siyasi çarpışmalarda iştirakı olmayıb bitərəf kimi tanınan Bəni Təmim qəbiləsindən sayılırdı.

Digər bir iddia Peyğəmbərin göstərişi ilə namaz qılması məsələsi idi. Bu işə ilk dəfə işarə edən şəxs Ömər, rəvayət edən isə möminlər anası Ayişədir. Ömərin etiqadına əsasən, Peyğəmbərin Əbu Bəkrə, məsciddə namaz qılmasına göstəriş verməsi həqiqətdə onun rəhbərliyini təsdiqləməsi deməkdir. Halbuki əsl məsələnin baş verməsi şübhəli olmasından əlavə, Ayişənin bu haqda etdiyi bu rəvayətlər onlarla yerdə bir-biriylə ziddiyyət təşkil edir.[2]

Əbu Bəkrin digər xüsusiyyətləri – fürsətdən istifadə etmə bacarığını, hazır olanların diqqətini cəlb etmə məharətini, yerində təsirli sözlərdən yararlana bilməsini qeyd etmək olar. O, atəşin sözlərdən istifadə edib ənsarın ixtiyarını əlindən alaraq onları öz dediklərini təsdiq etməyə məcbur etdi.

6. Ömər ibn Xəttabın mühüm rolu. İbn Əbil-Hədidin dediyinə görə, Ömər və onun sə`yləri olmasaydı, Əbu Bəkr xilafətə çata bilməzdi. Hadisələrin gedişi Əbu Bəkrin xilafətə yetişməsi Ömərin ondan daha........

7.İmam Əli ibn Əbi Talibin orada olmaması. Allahın Rəsulunun (s) dəfn mərasimini keçirmək və o həzrətin qəm qüssəsi onu şurada iştirak etməkdən saxladı. Amma bunu da inkar etmək olmaz ki, Səqifədə olanların bir çoxu Əli ibn Əbi Talibin xilafətə meyli olmamasını və onu tərk etdiyini düşünmüşdü.

---

[1] Şiə rəvayətlərinə görə və eləcə də bəzi sünnü mühəqqiqlərinin fikrincə Əbu Bəkr əvvəlcədən Peyğəmbərlə (s) olmamış və yolda O həzrətə qoşulmuşdu ("Əl-Durrul mənsur", Siyuti 4-cü cild, səh. 196).

[2] Bu ziddiyyətlər haqqında "Əl-təbəqatul kübra" 2-ci cild, səh. 223, "Əl-kamilu fit-tarix" 2-ci cild, səh. 322.

# ALLAHIN RƏSULUNUN EVINDƏ

Allahın Rəsulu (s) hicrətin on birinci ilində rəbiul-əvvəl ayının 12-si, yaxud səfər ayının 28-ci günü bazar ertəsi günorta namazından əvvəl dünyadan getdi.[1] Elə həmin gün Səqifə toplantısı təşkil etməklə Əbubəkirlə beyət olundu və çərşənbə axşamı günü yenidən məsciddə ümumi beyət keçirildi. Bundan sonra camaat dəstə-dəstə pak cəsədə namaz qıldılar və çərşənbə axşamı qürub vaxtı pak bədəni torpağa tapşırdılar.[2]

Peyğəmbərin (s) söhbət edib danışdığı axırıncı adam Əli ibn Əbi Talib (ə) olmuş və Allahın Rəsulu (s) ona bədəninə qüsul verib kəfənə tutmasını vəsiyyət etmişdi: "Ya Əli! Sən mənim qardaşım və vəzirimsən. Borclarımı qaytarıb, verdiyim və`dələrə əməl edərsən. Sən mənim boynumda olan hər bir işin öhdəsindən gələ bilərsən."

Əli ibn Əbi Talib, Fəzl* və Abbasın** köməyi ilə Peyğəmbərə qüsul verdi.[3] O iki nəfər və Şəqranın köməyi ilə onu kəfənə tutdu.[4] Dəfndə də qohumlardan savayı bir kəs iştirak etmədi. [5] Şübhəsiz, Əbu Bəkr, Ömər (Salman, Əbuzər və Əhli beytə vəfalı olan bir neçə nəfəri istisna etməklə) və başqa səhabələrdən heç biri Həzrətin qüsul-kəfən işində iştirak etməmiş, hətta dəfnində belə olmamışdılar.[6] Ayişənin dediyi kimi: "Biz bel və külüng səslərini eşitdiyimiz zaman Allahın Rəsulunun (s) dəfn olunmasından xəbərdar olduq."[7]

Yazılanlara görə, Peyğəmbərin əmisi Abbas o həzrətin mübarək bədəninin kənarında qəm-qüssə içində olduğu zaman Peyğəmbərin (s) əmisi oğlu olan Əli ibn Əbi Talibdən (ə) onunla beyət etməsinə icazə verməsini istəyib dedi:

اُمدد يَدَكَ اُبايعُكَ فَيَقُولُ النَّاسُ:عَمُّ رَسُول اللهِ(ص)تَابَعَ ابنَ عَمِّ الرَّسُول(ص)فَلا يَخْتَلِفُ عَلَيْكَ اثنان

"Əlini ver, səninlə beyət edim. Qoy camaat desin ki, Peyğəmbərin əmisi Peyğəmbərin əmisi oğlu ilə beyət etmişdir. (Belə olduqda) iki nəfər belə ixtilaf edib səninlə müxalif olmayacaqdır."[8]

İmam onun cavabında buyurdu: اَوَ يَطْمَعُ فِيهَا طَامِعٌ غَيْرِى "Məgər məndən savayı kimsə xilafətə yetişmək haqqında düşünür?" Abbas dedi:سَتَعلَمُ "Tezliklə görəcəksən!"[1]

---

[1] Bir çox mənbələr və Əhli sünnət mənbələrinin çoxu Rəbiul əvvəlin 12- sini daha doğru bilirlər. ("Murucuz-zəhəb" 2-ci cild, səh. 278, "Əl-kafi" 1-ci cild, səh. 43).

[2] "Əl-kamilu fit-tarix", 2-ci cild, səh. 23, "Əl-təbəqatul kübra" 3-cü cild, səh. 186, "Murucuz-zəhəb" 1-ci cild, səh. 657, "Əc-sirətul hələbiyyə" 3-cü cild, səh. 359. Əllamə Əmini "Əl-rədir" kitabında yazır: Allahın Rəsulunun (s) pak bədənini vəfatından üç gün keçdikdən sonra gecə yarısı torpağa tapşırdılar. "Əl-qədir", 7-ci cild, səh. 75.

*Allahın Rəsulunun əmisi oğludur. Anası Lübabədir. Abbasın böyük övladıdır. Hüneyn müharibəsində iştirak edib öz sədaqətini sübut edənlərdəndir. Əbu Bəkrin ya Ömərin xilafəti zamanı dınyadan getmişdir. ("Əl-istiyab" 3-cü cild, səhş202, "Usdul ğabə" 4-cü cild, səh. 184).

**Fəzlin qardaşı Əmirə-lmöminin Əli ibn Əbi Talibin Məkkədə valisi olmuşdur. Allahın Rəsuluna (s) oxşayırmış. Muaviyənin zamanında Səmərqənddə şəhid olmuşdur. ("Əl-istiyab" 2-ci cild, səh. 262, "Usdul ğabə" 4-cü cild, səh. 197, "Əl-isabə" 3-cü cild, səh. 218).

[3] " ƏI-bidayətu və Əl-nihayə" 5-ci cild, səh. 262.

[4] "Əl-təbəqatul kübra" 2-ci cild, səh. 281-287.

[5] "Əl-təbəqatul kübra" 2-ci cild, səh. 281-287.

[6] "Tarixül-üməmi vəl-müluk", 2-ci cild, səh. 239, "Mənaqib ibn Şəhr aşub" 1-ci cild, səh. 239.

[7] "Tarixül-üməmi vəl-müluk", 2-ci cild, səh. 239, "Əl-təbəqatul kübra" 2-ci cild, səh. 304-305.

[8] "Əl-imamətu vəs-siyasət", 1-ci cild, səh. 4.

Allahın Rəsulunun (s) əmisinin xeyirxah məqsəd güdməsinə baxmayaraq, məsələnin dərinliyindən Əli (ə) qədər agah deyildi. O, müxaliflərin qüdrətə yetişmək qərarında nə qədər ciddi olmalarını və hətta Əli (ə) Peyğəmbərin (s) dəfnini boşlayıb ora getdikdə belə bundan savayı heç bir nəticə ala bilməyəcəyini təsəvvür belə edə bilmirdi. Əlinin (ə) Peyğəmbərin (s) mübarək bədəninə hörmətsizlik qiymətinə Səqifəyə tələsməsi nə üçün ola bilərdi?! Camaata "Qədir" hadisəsini xatırladaraq öz haqqını müdafiə edəcəkdimi?! Camaata deyəcəkdi ki, Peyğəmbər (s) onu canişin qoymuşdur?! Məgər camaat bunu unutmuşdu ki, Əli (ə) onların yadına salaydı?! Allahın Rəsulunun (s) canişin müəyyən etdikdən sonra, canişinin camaatın yanına gedib onlardan, ona itaət edərək onunla beyət etmələrini istəməməli deyildi, əksinə camaatın vəzifəsi bu idi ki onun yanına tələsərək onunla beyət etsinlər. Əli ilbn Əbi Talibin (ə) fikrinə görə camaat bu haqda kifayət qədər məlumatlı idi və Allahın Rəsulunun (s) mübarək bədənini yerdə qoyub onlara bu barədə yol göstərməyə heç bir ehtiyac görmürdü. Canişinin təyin edilməsi məlum olmayan bir iş deyildi ki, ümmət Peyğəmbərin dəfnini boşlayaraq onu təyin etməklə məşğul olsun.

O gün Əli ibn Əbi Talibin nəzərində (ə) Allahın Rəsulunun (s) dəfnindən vacib bir iş yoxdu. Əgər o da digərləri kimi elə bir gündə islamın taleyinin həll olunmasını bəhanə gətirərək nəzərləri özünə cəlb etmək üçün fəaliyyət etsəydi, başqalarından baş verdiyi Allahın Rəsuluna (s) qarşı hörmətsizlik daha da şiddətlənər, o vaxtdakı və gələcək zamanlardakı digər insanlar üçün Peyğəmbərlik və ismət məqamını cilvələndirmiş olardı.

Bir təhqiqatçının dediyi kimi, əgər o gün Allahın Rəsulunun (s) haqqında dünyadan getməzdən əvvəl hörmətsizlik olunaraq "danışığını bilmir" sözünün ardınca mübarək bədəni də dəfn olunmayaraq yerdə qalsaydı, yeni bir hörmətsizlik də əlavə olunar və nəticədə Allahın ağır qəzəbinə tuş gələrdilər. O gün Əli ibn Əbi Talibin(ə) tutduğu iş "Xəndək" müharibəsində Əmr ibn Əbdəvudə vurduğu zərbə qədər əhəmiyyətli idi.

Allahın Rəsulunun (s) dəfn mərasimini keçirməyin qiyməti "Xəndək" günündə vurulan zərbə ilə bərabər olmasa da heç də ondan az deyildi.[2]

## O HADISƏNIN ARDINCA

Səqifənin özünəməxsus xüsusiyyət və xəbərdarlıqları olduğudan hər biri haqqında ətraflı danışmaq üçün ayrıca kitab yazılmalıdır. Bununla belə, xülasə şəkildə qeyd etmək istəsək onun xüsusiyyətlərini aşağıdakı kimi sadalamaq olar:

1. Səqifə idarə edicilərinin rəftarı öz daxilində belə bir iddia gizlətmişdi ki, Allahın Rəsulunun (s) vəfatından sonra görülməli ən mühüm iş Həzrətin (s) diqqətindən kənara qalmış bir iş – çanişin təyin etmək məsələsidir.

2. Orada iştirak edənlərin Əlinin (ə) digər səhabələrdən üstün olmasında heç bir şəkkləri yoxdu.

---

[1] "Nəhcül-bəlağənin şərhi", 1-ci cild, səh. 160, İbn Əbil-Hədid.

[2] Səqifədə itmiş məzlum, 2-ci cild, səh. 143.

3.Bütün işlər görüldükdən sonra o hadisənin özbaşına baş verməsi (qabaqcadan heç bir tədarük olmadan) iddia olundu.

4. Peyğəmbərin (s) ailəsi və seçilmiş səhabələri, o cümlədən Salman orada iştirak etməmiş, olunan söhbətlərdə Həzrətin ailəsi, məxsusən Əli (ə) ilə heç bir məşvərət olunmamışdı.[1]

5. Səqifənin ümmətin arasında ixtilafın qarşısını almaq üçün yaradılmasının iddia etmələrinin əksinə olaraq heç bir hadisə islam ümməti arasında bu qədər ayrılıq salmamışdır.

6. Bu iş isə tam "İmamətin xilafətdən ayrı olması" əsasında qurulmuşdu.

Ömər ibn Xəttab aşkar halda ibn Abbasa deyir: "O qərarı qəbul etməkdən məqsəd nübuvvəti xilafətdən (ümmətə rəhbərlik məqamını) ayırmaq idi."[2]

7. "Müsəlmanların Peyğəmbərdən (s) sonra rəhbərliyi Allah və Peyğəmbərin təyin etməsiylə deyil, xalqın seçimiylə olmalıdır" –məsələsinə təkid etmələri.

8.Şuranın nüfuz dairəsi imamət və Peyğəmbərin (s) canişinini təyin etməni də öz ehtivasına alırdı. Bu fikir əsas götürüldükdə müsəlmanlar qoymaq və ya götürmək istədikləri hər bir hökmə görə şura çağıra və orada alınan hər bir nəticəni icra edə bilərdi.

İslamda şura mövzusu iki ayə əsasında [3] وامرهم شورى بينهم وشاورهم فى الامر[4] açıqlanmışdır. Səqifə iştirakçılarının təsəvvürünün əksinə olaraq, وما كان لمؤمن ولا مؤمنة اذا قضى الله و رسوله امراً ان يكون لهم الخيرة من امرهم [5] (Heç bir mömin kişiyə və mömin qadına yaraşmaz və şər`ən caiz və əqlən rəva deyildir ki, Allah və Onun Rəsulu (s) onların barəsində) bir fərman verdikdə, onların öz işlərində ixtiyar sahibi olsunlar). ayəsinə istinad edərək, şuradan dinin üsul və əhkamında deyil, dini işlərin icrasında istifadə olunur. Şəxsi rəydə olmaq bir növ itaətsizlik və cəza gətirəndir.

Bütün bunlardan əlavə məşvərətdə olan şəxslərdə əqli baxımdan bəzi xüsusiyyətlərin olması zəruridir. Lakin Səqifədə heç birinə diqqət olunmamışdı.

9. Hətta Məkkənin fəthi və müşriklərə qalib gəldikdən sonra Allahın Rəsulu (s) ilə olan beyətlərin heş biri zor gücünə olmamışdı. Səqifə ilk yığıncaq idi ki dava və hay-küylə başlayır, güc və qan tökmə yolu ilə camaatdan beyət alınırdı.[6] Sonralar

---

[1] Həqiqətə gəldikdə, Əbu Bəkr beş nəfərin – Bəşir ibn Sə`d, Useyd ibn Huzeyr , Ömər ibn Xəttab, Əbu Ybeydə və xəlifənin özünün verdiyi səslə xilafətə yetişmişdi. Yerdə qalan camaat olsalarda olmaları olmamalarına bərabərdi. ("Pişivai əz nəzər islam" səh. 402).

[2] "Əl-kamilu fit-tarix", 3-cü cild, səh. 105. Unutmaq олмаз ki, bu hədəf əvvəllərr münafiqlərin tərtib verdiyi əhdnamədə qeyd olyнmuşdu. Belə bir sözün Ömər ibn Xəttab tərəfindən deyilməsi çox təəccüblüdür. Çünki o və Əbu Bəkr Səqifədə ənsara: "Xilafətin siz ənsara verilməsi necə mümkün ola bilər, haлбyki, nübyvvət sizlərdən qeyrisində olmuşdur! Yə`ni xilafət, nübyvvət olan cəmiyyətdə olmalıdır.

[3] "Şura" surəsi, ayə: 38.

[4] "Al-İmran" surəsi, ayə: 159.

[5] "Əhzab" surəsi, ayə: 36.

[6] O məclisdə Θmər ibn Xəttab xəlifəliyə namиzəd olub Əbu Bəkrlə rəqabət aparan Səd ibn Ubadəni ayağı altına alıb o qədər döğmüşdü ki, orada olanlar onun ölməsini təsəvvür etmişdilər. "Tarixül-ümәmi vəl-müluk", 3-cü cild, səh. 200.

İmam Əli (ə) və ardıcıllarından Əbu Bəkr üçün təzyiq altında və ixtiyarsız olaraq beyət aldılar.[1]

## SƏQIFƏNIN TÖRƏTDİYİ FƏSADLAR

Səqifə hadisəsinin digər səbəblər əsasında baş verməsinə baxmayaraq, bəzi başqa işlərin meydana gəlməsinə səbəb oldu. O işlərin bəzisinə işarə edirik:

1.Baş vermiş hadisə ilahi mənsəb olub Peyğəmbərin (s) canişini kimi tanınan "İmamət" məqamını, dünyəvi məqam olan "Xilafət" məqamına dəyişdi. Bu dəyişikliyə əsasən, artıq xəlifədə imama lazım olan xüsusiyyətlərə ehtiyacı olmur, hər kəs – yaxşı və ya pis rəhbərliyə seçilmək ixtiyarı tapır və itaət olunur. Bəni Üməyyə və Bəni-Abbas xəlifələrini buna misal göstərmək olar. Elə bu səbəbdən içdiyi şərabdan məst olur, camaata imam olaraq namaza dayanır, onlarla qondarma hədis yaradaraq camaatın içində yayırdılar.

Allahın Rəsulu (s) buyurmuşdur: "Məndən sonra mənim rəftarım əsasında əmək etməyən rəhbərlər meydana gələcəkdir. Onların bəzisinin zahiri insan olsa da, ürəkləri şeytan ürəyi kimidir."

Huzeyfə sual edib dedi: "Ey Allahın Rəsulu (s)! Əgər elə bir zamanı görsəm hansı rəftar əsasında əməl edim?"

Buyurdu: "Arxandan vurub malını əlindən alsa da belə, əmrini eşidib ona itaət et!"[2] Onlar öz işlərinin, siz də öz işinizin məsuliyyətini daşıyırsınız.[3] Hakiminizin günah etdiyini gördükdə, əməlindən şad olmayın. Buna baxmayaraq ona itaət etmədən əl götürməyin."[4]

2.İmamət məqamı xilafət məqamı ilə bir səviyyədə olunduqda, imam bütün mənəvi ucalığıyla adi insan səviyyəsində qərar tapdı. Beləliklə, ona qarşı çıxmaq, müharibə aparmaq günah sayilmadı. Bəzi vaxtlar camaat onu bəyənmədikdə onun vəzifədən kənarlaşdırmanı vəzifə bildilər.

Allahın Rəsulundan (s) Əli ibn Əbi Talib (ə) haqında buyurduğu: حربك حربى و...من آذى عليّاً فقد آذانى [5] (Ey Əli! Səninlə müharibə etmək mənimlə müharibə etməkdir...və Əliyə əziyyət edən mənə əziyyət etmişdir) cümlələrini eşidən insanlar Səqifədən sonra Cəməl, Nəhrəvan və Siffeyn müharibələrində Əli (ə)qarşı qoşun çəkdi və onun minlərlə səhabələrini şəhadətə yetirdilər.

3. Ümmət arasında Səqifədən başlamış ilk ən böyük parçalanma, tədricən dində böyük azğınlıq meydana gətirdi. Hökmlərin fəlsəfi və cüzi açıqlamaları, eləcə də Quranın bəyan və təfsiri xəlifə və hökumətə xidmət edən şəxslərin öhdəsinə buraxıldı. Beləliklə hər kəs nəyi istədisə, dindən çıxartdı və ya dinə əlavə etdi.Əhli sünnət mənbələrində xəlifələr dövründə yaşamış insanlardan (Əli (ə) xilafətə yetişənə qədər) Peyğəmbərin (s) sünnətinin və dinin əsərlərinin tamamilə

---

[1] "Əl-imamətu vəs-siyasət", 1-ci cild, səh. 11.
[2] "Səhihi-Müslim" 6-cı cild, səh. 20-22, Sünəni-Beyhəqi", 8-ci cild, səh. 157.
[3] "Səhihi-Müslim" 6-cı cild, səh. 19-20, "Sünəni-Çeyhəqi" 8-ci cild, səh. 158.
[4] "Səhihi-Müslim" 6-cı cild, səh. 24, Sünəni-Beyhəqi", 8-ci cild, səh. 158.
[5] "Əl-isabə" ünvanı altında çap olmuş "Əl-istiyab" 3-cü cild, səh. 37.

dəyişdirilməsi və az qala dindən heç bir iz qalmayacağı haqqında onlarla hədis vardır.[1]

Əhli sünnət hədislərində Allahın Rəsulundan belə bir xəbər nəql olunmuşdur ki: "Qiyamət günü əshabımı sola tərəf (cəhənnəmə) aparacaqlar. Onların hara aparılması haqqında soruşduqda deyəcəklər: Cəhənnəmə! (Bu zaman) Deyəcəyəm: "Pərvərdigara bunlar Mənim əshabımdır!" Cavab veriləcək: "(Məgər) Bilmirsən sənin vəfatından sonra dində necə bidətlər meydana gətirdilər!.." Bu zaman onlardan bir neçə nəfərdən savayı heç kəsin nicat tapmayacağını görəcəyəm."[2]

4. İnsanların dini rəhbəri ilahi səlahiyyət əsasında qəbul olunmadığına görə, qüdrəti əlinə alan hər kəs iğtişaş törətmək və müharibə yolu ilə xilafətə çatırdı. Elə bu inhirafa görə bəni Uməyyə və bəni Abbas əsrlər boyu müsəlmanlara hakimiyyət etmişdirlər.

5. O yığıncaqda rəhbərlik meyarı elm, təqva, idarəçilik və ləyaqət deyil, qəbilə şərafəti olduğuna görə, rəhbəri müəyyən etmək üçün olan bütün qaydalar bir-birinə dəydi. Biri qəbilə şərafətli, digəri ondan əlavə təqvalı, fəqih ləyaqətli olan iki nəfərdən birinci rəhbərliyə seçildi. Bu iş tədricən Allahın Rəsulunun (s) uzun illər boyu insanlar arasından yox edib çıxarması üçün mübarizə apardığı qəbilə üstünlüyünə yenidən şəxsiyyət verərək həyat bağışladı. Bu qəbilə imtiyaz və üstünlüyü qəbilələr arasında rəqabət toxumu səpdi və onları hökümətə yetişmək üçün fürsət güdməyə sövq etdi.

O gün Səqifə aparıcılarının bəhanəsi qarışıqlığın qarşısını almaq idi. Daha sonralar isə qüdrətə yetişəcək hər bir dəstə heç bir dini xüsusiyyətə malik olmadan istədiyi bəhanə ilə xilafətə yetişə bilər və tədricən onu padşahlıq vərasətinə çevirərdi. (Necə ki, bu iş baş verdi.) Əlbəttə, belə başlanğıcın sonda məhz belə olması təbii qəbul olunmalıdır. (Rəhbərlik qureyşdən Əməvi qəbiləsinə keçdi, Əməvi rəhbərliyi irsi padşahlığa və irsi padşahlıq isə daimi hakimiyyətə çevrildi. Camaatın onların işinə müdaxilə etmə haqqı əllərindən alındı. İş sonda o yerə çatmışdı ki, söhbət artıq rəhbərin necə olmasından deyil, rəhbəri necə razı salmaqdan gedirdi).

Əməvi və Abbasilər bir əsrdən artıq müsəlmanlara ən qəddar və acınacaqlı şəkildə hakimiyyət edib islami torpaqlara sahib durdular. Xilafəti ələ almaqda sübutları, Səqifədə mühacirlərin ənsarın əleyhinə qaldırdığı dəlillər idi. Yəni Peyğəmbərlə qohumluq və qureyşdən olmaq.

6.Əməvi və Mərvanilərin etdiyi 132 illik hakimiyyəti Səqifənin məhsulu kimi adlandırmaq lazımdır.

İkinci və üçüncü xəlifələr tərəfindən Müaviyənin Şama hakim təyin olması ilə dindən uzaqlaşma özünün ən zirvə həddinə yetişdi. Onun hökmranlıq etdiyi hər yerdə nübüvvət əsərləri məhv olundu. (Tanınmış şərqşünas) lamins demişdir:

---

[1] "Sünəni-Termizi" 4-cü cild, səh. 632, "Səhihi-Buxari", 1-ci cild, səh. 141 və 166, "Müsnədi-Əhməd", 6-cı cild, səh. 443, "Əl-qədir", 8ci cild, səh. 166, və. . .

[2] "Səhihи-Бuxarı" 7-ci cild, səh. 209, "Səhihi-Müslim" 4-cü cild, səh. 1792 "Hövz" babı, 2294 və 2297-ci hədislər.

"Biz xristianlar Müaviyənin qızıldan heykəlini düzəldib Şamda qoymalıyıq. Əgər Muaviyə islamı öz düz yolundan əyməsəydi, bu gün bütün avropa islama tabe olub onu qəbul edərdi."

# ÜÇÜNCÜ FƏSİL

## ALLAHIN RƏSULU (S) VƏ CANİŞİNLİK

### ÜMMƏTİN ARSINDA ƏN BÖYÜK İXTİLAF

Əhli-sünnə Allahın Rəsulunun (s) öz canişini haqqında olan nəzərində bir-birinə zidd olan sözlərinin çoxluğu, təhqiq əhli olan hər kəsi təəccübə gətirir. İnkar olunmayan yeganə şey Allahın Rəsulunun (s) Səqifə yaradanlara şura barəsində heç bir tövsiyənin olmamasıdır. Əgər Əbu Bəkr haqda kiçik bir tövsiyə belə olsaydı, mütləq Səqifədə sübut kimi ona arxalanardılar. [1]Halbuki nə Əbu Bəkr və nə də onun tərəfdarlarından olan başqa bir nəfər Allahın Rəsulunun (s) onun canişin olması barəsində tövsiyə etməsinə azacıq da olsa işarə etməmişdir. Bundan əlavə, Əbu Bəkrin öz e`tirafına görə o, heç də Allahın Rəsulunun (s) hamıdan bilikli və hamıdan fəzilətli səhabəsi deyildi. Həmçinin hamı Allahın Rəsulunun (s) Əlinin (ə) fəziləti və məqamı haqqında çoxlu sözlər deməsi fikrində yekdildirlər. Bununla belə bu

[1]"Nəhcül-bəlağənin şərhi", İbn Əbil-Hədid 6-cı cild, səh. 12-13.

sözlərin ümmətin Əli (ə)-a itaət etmələrinin vacib olması üçün deyil, məhz onun haqqını tanımalarına yönəlmiş bir sözlər olmalarını iddia edirlər.

Bəzi vaxtlar Ayişədən belə rəvayət edirlər: Peyğəmbərin xəstəliyi şiddətləndikdə (qardaşım) Əbdür-Rəhmana dedi: "Qələm-kağız gətirin ki, Əbu Bəkr haqqında tapşırıq vermək istəyirəm ki, məndən sonra heç kim onun barəsində ixtilaf etməsin...yaxud heç bir tamahkar onun məqamını arzu etməsin."[1]

Əgər (həqiqət) belə olsaydı, Ömər ibn Xəttab kağız-qələm gətirilməsinin qarşısını almaz, Əbu Bəkr isə Səqifədə onu dəlil gətirərdi. Halbuki bir vaxt Əbu Bəkr Əbdür-Rəhman ibn Ovfa xitab edərək demişdi: "Kaş ki, Peyğəmbərdən xilafətə kimin layiq olmasını soruşaydım və onunla davalaşmayaydıq."[2]

Bundan əlavə, sünnü mühəqqiqləri Ayişənin bu rəvayətini səhih olmayan bir rəvayət sayırlar.[3]

Həzrət Mühəmmədin (s) özündən sonra canişini haqqında heç nə bildirməməsi nəzəri, Allahın Rəsuluna(s) "danışığını bilmir" – nisbəti verilməsindən az bir şey deyildir. Peyğəmbər haqqında belə əqidədə olan insan onu öz zəmanəsində olan sadə ərəbdən də kiçik saymışdır. Necə ola bilər ki, İlahi risalətin təbliğində çəkdiyi bütün zəhmətlər, işkəncələr, Allah hökmünü çatdırmaqda heç bir süstlük göstərməmiş İslamın uca Peyğəmbəri (s) hər bir məsələdən böyük olan canişini məsələsi haqqında heç nə demədən onu camaatın öhdəsinə buraxsın və onlar da öz növbələrində bir-birinə hədiyyə etsin və digəri onu qənimət sayaraq qəbilə adamları arasında bölüşdürsün?!!"

Görəsən, dəyəri çox uca olan işi bu hala gətirən atılmış bu mənfi addım əks təsir qoyan amil deyil ki baş verdikdən sonra biri "Bu bir səhv idi ki, baş verdi və Allah bizə rəhm edib etdiyimiz səhvdən amanda saxladı. Ehtiyatlı olub daha belə səhvə yol verməyin" cümləsini desin!!

Yazırlar: Əbu Bəkr ölüm halında olan zaman huşunu itirdi. Bu zaman Osman onun Ömərin rəhbərliyi haqda olan vəsiyyətini sona çatdırdı. Huşa gəldikdən sonra Osmanın vəsiyyəti tamamlamasını eşitdikdə ona dedi: "Yaxşı yazmısan. Ümməti özbaşına qoyub getməmdənmi qorxdun?! Allah sənə xeyir əvəzi versin!"[4]

Abdullah ibn Ömər canişinin təyin olunması zərurətini hiss etdikdə atasına dedi: Camaat deyir: Necə olur ki, sən canişin təyin etmirsən, halbuki, əgər sənin dəvə otaranın ya çobanın olsa və sürüləri özbaşına buraxarsa sən onlara işlərində səhlənkarlıq etmələrini və işi zay etmələrini deyəcəksən! Həqiqətdə isə camaata rəhbərliyi dəvə və qoyuna başçılıqdan daha mühümdür. Ölümündən sonra Allahın görüşünə elə bir halda gedəcəksən ki, bəndələri arasında özünə canişin qoymamısan. Bu təqsirinə görə Allah qarşısında nə üzrün olacaqdır?[5]

---

[1] "Əl-bidayətu vən-nihayə",5-ci cild, səh. 228, "Səhihi-Müslim" 4-cü cild, səh. 1857.

[2] "Nəhcül-bəlağənin şərhi", İbn Əbil-Hədid 2-ci cild, səh. 47, "Murucuzzəhəb"1-ci cild, səh. 658, "Tarixi-Yəqubi"," 2-ci cild, səh. 18.

[3]"Nəhcül-bəlağənin şərhi", İbn Əbil-Hədid 6-cı cild, səh. 12-13.

[4]"Tarixul-ümәmi vəl-muluk" 4-cü cild, səh. 2138.

[5] "Əl-təbəqatul kübra" 1-ci cild, səh. 33, "Murucuzzəhəb" 2-ci cild, səh. 338.

Həmçinin Ayişə Ömər ibn Xəttaba xəbər göndərərək deyir: "Mühəmməd ümmətini başçısız qoyma! Onlar üçün özündən sonra canişin təyin et. Onları yüyənsiz dəvə kimi öz başına buraxma. Mən qarışıqlıq düşməsindən qorxuram!"[1]

Bunlardan da təəccüblüsü Müaviyənin Yəzidi özünə canişin seçdiyi zaman həmin əqli dəlili əsas gətirməsidir. O deyir: "Mən qorxuram ki, xəlifə seçmədən dünyadan gedim və Mühəmməd ümmətini çobansız sürü kimi sahibsiz qoyumuş olum."[2]

Atasının sözü ilə arvadını boşamaqdan belə [3] aciz olan Abdullah ibn Ömər, ümmətin rəhbərinin canişin təyin etmədən onları özbaşına buraxmamalı olmasını başa düşür , amma Allahın sonuncu seçilmiş Peyğəmbəri həzrət Mühəmməd (s) belə bir işin varlığından agah olmur! (Nübüvvət məqamından uzaq!) Görəsən, bir kəs Allahın Rəsuluna (s) canişin təyin etməsi haqda işarə belə etmədi? Yoxsa Ayişənin ikinci xəlifəyə dediyi kimi, camaatı çaş-baş qalmamalarına görə heç olmazsa, seçilmə yolunu belə onlar üçün açıqlamasını istəmədi?! Nəyə görə hər bir kiçik və böyük məsələni Həzrətdən soruşan camaat bu məsələni soruşmadı?! Halbuki bu iş aydın açıqlama tələb edən bir məsələdir! Nəyə görə əziz Peyğəmbər (s) bu məsələ qarşısında susdu?![4]Yox, əgər doğurdan da canişin müəyyən etməmişdisə, onda nəyə görə xəlifələr onun etdiyi rəftar əsasında rəftar etmədilər?!

Əgər Allahın Rəsulu (s) vəhy gətirən yox, əksinə zəmanəsinin böyük bir siyasətçisi kimi tanınsa belə, yenə də belə bir işin onun fikrindən yayınması və ona işarə etməməsi təsəvvür olunası deyildir. Şəhristani "Əlmiləlu vən-nihəlu kitabının 1-ci cildi, 16-cı səhifədə yazır:

"İslam ümməti arasında ən böyük ixtilaf imamət mövzusundadır. Belə ki, islamın bütün həyatı boyu imamət məsələsi üstündə qılınc çəkilib, qan tökülməsi qədər heç bir mövzu haqqında qan tökülməmişdir."

Rəvadırmı ki, həccin ən kiçik məsələlərindən olan ağcaqanad və ya bu qəbildən olan həşəratların ehram halında öldürülməsi haqqında onlarla haşiyəsi olan hökm, Qurandan xüsusi ayə ola lakin camaatın rəhbərliyi məsələsi küçə-bazar adamlarına tapşırıla?! Başlarının qırxılması, dırnaqlarının tutulması, təharət, bəzi yemək və dərmanların xasiyyəti və bu qəbildən olan yüzlərlə məsələlər haqqında sual edənlərdən heç kim bu məsələ haqqında bir şey soruşmadı?! Bütün bunlar Peyğəmbərin (s) onların arasında 23 il yaşadığı və bir gün dünyadan gedəcəyinin hamının bildiyi halda baş verirdi!

Görəsən, Quran Allahın Rəsulunu (s) vəsiyyət etməyə əmr etmirmi və Peyğəmbər (s) öz ümmətinə, müsəlmanın ən mühüm vəzifələrindən birini – həmişə vəsiyyətinin öz yanında olmasını tövsiyə etmirmi?![5] Bütün bunlardan sonra, həzrət

---

[1] "Tarixul-ümami vəl-muluk", 6-cı cild, səhş17, "Əl-imamətu vəs-siyasət", 1-ci cild, səh. 151.

[2] "Əl-imamətu vəs-siyasət", 1-ci cild, səh. 22, "Əl-kamilu fitarrix"2-ci cild, səh. 512, "Tarixul ümәmi və əl-muluk"5-ci cild, səh. 304.

[3] "Tarixul ümәmi və əl-muluk"3-cü cild, səh. 192.

[4] "Əsraru Səqifə" səh. 56 və 68.

[5] "Səhihi-Buxari"4-cü cild, vəsiyyət kitabı, "Səhihi-Müslim"5-ci cild, vəsiyyət kitabı, "Müsnədi-Əhməd", 2-ci cild , səh. 2 , 4, 57 və 80.

özü dünyadan vəsiyyət etmədən gedir! Quran Allahın Rəsulu (s) və onun ardıcıllarından hətta kiçik işlərdə, bir dirhəm belə olsa, vəsiyyət etməni tövsiyə etmişdir.[1]

İzzuddin Əbu Hamid Mötəzili deyir:

Bir gün ustadım Əbu Cə`fər Yəhya ibn Muhəmməddən (o, insaflı və ağıllı bir adam idi) soruşdum: Əlinin öz xilafəti haqqında buyurduğu "Bir dəstə ona həsəd və paxıllıq etdi, başqa bir dəstə isə göz yumdu!" – sözündən məqsədi Səqifənin qurulmasıdır, yoxsa Ömərin qurduğu şura günü?

O dedi: Məqsədi Səqifə günüdür.

Dedim: Səhabələrin Allahın Rəsulunun (s) əmrindən çıxmalarına inana bilmirəm!

O dedi: Mən də Allahın Rəsulunun Mədinəni canişin təyin etmədən tərk etmədiyi halda imamət məsələsində səhlənkarlıq göstərərək ümməti öz başına buraxmasına heç vaxt inanmıram. Öz həyatında Mədinədən o qədər də uzaq olmadığı bir halda, şəhəri başçısız qoymurdu, ölüm ayağında özündən sonra baş verə biləcək heç bir hadisənin düzəlməsinin mümkün olmayacağını bildiyi halda canişin təyin etmirdi? Müsəlmanların fikrincə, Allahın Rəsulunun (s) ağlı və düşüncəsi kamil olmuşdur. Müsəlman olmayanlar da onu hikmətli və uzaqgörən, güclü düşüncəyə malik olub ümmət yaradan din əsası qoyan bir adam kimi tanımışlar. Ərəblərin təbiətinə tamammilə agah olub, onların intiqamçılıq ruhiyyəsini bilən belə ağıl və kamal sahibi olan insan öləcəyini bildiyi halda, öz övladından artıq istədiyi iki nəvəsi olan qızı və əmisi oğlu olan kürəkənini müharibələrdə ondan və Əlidən zərbə görmüş adamların arasında öz başına qoyub gedə bilərmi?!_Onun xilafəti haqqında göstəriş verməməsi mümkündürmü?! Peyğəmbər ailəsi və övladlarını digər rəiyyət kimi tərk edib gedərsə, onların təhlükə altına düşəcəyini bilmirdimi?! Üstəlik belə olduqda özü onların qanını yerə tökmüş və ölmünə səbəb olmuşdur! Çünki Peyğəmbərin Əhli-beytinin ondan sonra pənah aparacaqları bir yer yoxdu və onlar vəhşilərin şikarına çevriləcəkdi və kinəli olanlar öz kinələrini onlardan çıxaracaqdı.

Görəsən, Peyğəmbərin özü ayıqlıq verdiyi ənsar qədər də bu məsələdən agah deyildi?! Ənsar deyirdilər:

"Biz vaxtilə (kafir) ata və övladlarını öldürdüyümüz adamların sizdən sonra hökumətə gələcəyindən qorxuruq."[2]

Ömər ibn Xəttab, İbn Abbasla olan söhbətində deyir: "Qureyş, inək öz qəssabına baxdığı kimi sizə baxır!"[3] Peyğəmbərin bir gün dünyadan gedəcəyini və belə bir təhlükənin olduğunu bildikləri halda heç kəsin zehninə gəlmədimi ki, Peyğəmbərdən (s) sonra gələcək rəhbərin kimliyi barədə soruşsun?

İbn Əbil Hədid yazır: Ömər ibn Xəttab Allahın Rəsulunun dünyadan getdiyini bildikdə, rəhbərlik üstündə qarışıqlıq düşməsindən, dəyişiklikdən, ənsar və

---

[1] "Bəqərə"surəsi, ayə: 180.
[2] "Nəhcül-bəlağənin şərhi", 2-ci cild, səh. 53.
[3] "Nəhcül-bəlağənin şərhi", 1-ci cild, səh. 190.

digərlərinin rəhbərliyi ələ keçirərək dindən dönmələrindən qorxuya düşmüşdü. [1] Deməli, daha yaxşı olardı ki, Peyğəmbərin özü bu ürək yanmadan qafil olmayaydı.

Əgər həzrət Mühəmməd (s) özündən sonra rəhbər seçməni ümmətin öhdəsinə qoymuşdusa, deməli ixtilafın baş verməyəcəyini bilirdi (hətta ixtilaf baş verə biləcəyinə ehtimal belə vermiş olsaydı, bu işə yol verməzdi) Beləliklə, həddindən artıq tələsmək, hətta Peyğəmbərin mübarək bədənini dəfn etmədən Səqifə qurmaq necə izah olunmalıdır?

Allahın Rəsulunun (s) canişini barəsində üç əsaslı nəzər vardır:

1. O həzrət camaatı özbaşına buraxmışdır ki, ümumi seçim, yaxud əksəriyyətin rəyinə əsasən əməl etsinlər;

2. Onları qövm başçılarının öhdəsinə buraxmışdı;

3. Müəyyən bir şəxsə itaət etməni tövsiyə etmişdir;

## ÜMUMI SEÇIM, YAXUD ƏKSƏRIYYƏTIN RƏYI

Hələ çoxdan bu fikirdə olanlar Peyğəmbərin (s)"لا تجتمع امّتی علی الخطا " (Ümmətim səhv işdə bir nəzərə gəlməzlər) sözünü özləri üçün dəlil gətirmişlər. Bu rəvayətin sənədinin düz olub-olmamasını araşdırmazdan öncə bu cümlənin mənası bu deyildir ki, heç bir müsəlman icması səhvə yol verə bilməz. Rəvayətin sənədinin düz olması təqdirində mənası "Ümmətim heç zaman səhv yolda bir yerə yığışmaz!" – deməkdir.

Rəhbərin təyin olunmasında yekdil nəzərə gəlmək mümkün olmayan bir işdir. Əhli sünnət ardıcılları da xəlifələrin xilafətə yekdil nəzərlə yetişməsini iddia etmirlər. Bundan da yuxarı sözü qazı İzuddin İci yazır:

"Rəhbərin seçilməsi və onunla beyət olunmada heç də icmaya ehtiyac yoxdur. Bir-iki nəfər qəbilə başçısının beyəti kafidir...Necə ki, Peyğəmbərin səhabələri Ömərin Əbu Bəkrlə və Əbdür-Rəhmanın Osmanla bağladığı beyətə kifayət edərək, onların xilafətini qəbul etmiş və Mədinə camaatının icmasını və bir nəzərə gəlməsini şərt bilməmişlər. Beləliklə (Mədinə əhlinin icmasını belə şərt bilmədikləri halda) ümmətin icmasının bir şərt olmasına nə lüzum vardır?!"[2]

Belə olduqda Peyğəmbər, öz ümmətinə mümkün olmayan bir iş tapşırmışdırmı? Yoxsa bilərəkdən öz ardıcıllarının bir-birinin axırına çıxaraq zəifləmələrinə və dinin süstləşməsinə görə daimi çəkişmələrə atmışdı? (Nübüvvət məqamından uzaq!)

Əksəriyyətin nəzəri siyasi, ictimai və hərbi işlərdə müəyyən qədər qəbul olunsa da, e`tiqadi və əhkam məsələlərində azacıq belə,`tibara malik deyildir. Bu gün prezident və millət vəkillərinin əksəriyyəti səs toplamaqla seçilirlərsə, bunun səbəbi onlarla müxtəlif nəzəriyyə və səliqəyə malik olan camaatın yekdil nəzərini yığmağın mümkün olmamasına görədir.

"Əksəriyyətin nəzəri" əksəriyyət səhv etmir demək deyildir. Bəzi vaxtlar cəmiyyətin öz aralarında ən səhv olan fikri qəbul etməsini müşahidə etmək olar. Bəli

---

[1] Şiənin e`tiqadına görə, Peyğəmbərin (s) canişinлик mövzusu İlahi bir işdir və Allahın təyin etməsi və Peyğəmbərin açıqlaması ilə həyata keçir.

[2] "Əl-məvaqif", 3-cü cild, səh. 267, "Əл-irşad Чувejни", səh. 424, "Seyri dər Əı-rədir" səh. 112.

əksəriyyət, düzgün səsi ələ gətirmək yox təkcə ixtilaf və çəkişmələrin aradan aparılmasına görədir.[1]

## RƏHBƏRIN XALQIN NÜMAYƏNDƏLƏRI TƏRƏFINDƏN SEÇILMƏSI

Əhli-sünnənin e`tiqadına görə islamın böyük Peyğəmbərinin (s) Əli ibn Əbi Talibə (ə) olan bütün məhəbbətinə, həmçinin onun məqamını "Qədir" günündə açıqlamasına baxmayaraq, imamın seçilməsini azad seçim əsasında ümmətin nümayəndələrinin ixtiyarına qoymuşdur. Camaat da çarəsiz olaraq nümayəndələrin seçdiyini qəbul etməlidir.

**Bu nəzər barədə mülahizələr:**

1. İmamın təyin olunması camaatın ixtiyarında olmamasından əlavə, belə bir seçim, qabaqda qeyd olunmuş seçim kimi heç də xalqı ixtilafdan qoruya bilmir. Səqifə hadisəsini yaradanlar təcili iclas qurmalarının düz addım olmasına səbəb kimi, ümmətin arasında baş verə biləcək ixtilafın qarşısını almaq olmasını qeyd edirlər. Halbuki (təcrübənin göstərdiyi kimi) "Ümmətin nümayəndələri rəhbəri seçməlidir" olan seçim daha artıq ixtilaf meydana gətirir. Səbəbi də ümmətin nümayəndələrinin bəzi vaxtlar ümmətin özündən daha artıq səliqə və nəzər ixtilafına malik olmalarıdır. Onların düşüncə, meyl və bəzi vaxtlar dərin təəssübləri daha şiddətli olur.

2. Bundan əlavə (ümmət tərəfindən rəhbəri seçmək üçün) nümayəndələr hansı yolla təyin olunurlar?! Görəsən Səqifədə belə bir şura yaranmışdımı? Orada iştirak edənlər kimlər tərəfindən nümayəndə seçilmişdi? Abbas, Əli ibn Əbi Talib (ə), Abdullah ibn Abbas, Qəsəm ibn Abbas, Fəzl ibn Abbas, Əbu Əyyub ənsari, Salman Farsi, Əbuzər Qifari, Miqdad, Zubeyr, Əmmar Yasir, Abdullah ibn Məs`ud, Burra ibn Azib, Xalid ibn Səid, Bureydə Əsləmi, eləcə də Bədr və Ühüd müharibələri iştirakçıları orada iştirak etmişdirmi?

3. Əgər ümumun qəbul etməsi meyarı əksər nümayəndələrin nəzəridirsə və belə bir əksəriyyət təşkil tapmışdısa, onda nə üçün Əli ibn Əbi Talib, Abbas (Peyğəmbərin əmisi) və seçilmiş səhabələr, eləcə də Sə`d ibn Ubadə ölənə qədər fərz olunan əksəriyyətin rəyinə razı olmadı?! Bundan əlavə, nə üçün müxaliflərdən zor gücünə beyət aldılar və Sə`d kimi adam öldürüldü, Peyğəmbərin əziz qızının evi yandırıldı?![2]

4. Əgər xəlifənin etibarı və qəbul olunması camaatın seçdiyi nümayəndələrin rəyi əsasındadırsa, onda ikinci və üçüncüi xəlifənin seçilməsi hara və necə yozulmalıdır? Çarə təkcə Əbu Bəkrin belə bir seçimi (nümayəndələrin və şuranın rəyini) qəbul etməməsini qəbul etməkdədir. Çünki belə olan təqdirdə, (yəni belə bir seçimi qəbul etdikdə) o özü belə seçimin əksinə olaraq təkcə öz rəyi əsasında rəhbər təyin etməzdi.

---

[1] "Əsraru Səqifə", səh. 48 – 49

[2] "Əl-imamətu vəc-siyasət" 1-ci cild, səh. 13.

O deyir: "Kaş ki, Peyğəmbərdən "xilafət kimin olacaqdır" – deyə soruşaydım ki, camaat onun haqqında ixtilaf etməsinlər." Deməli, Allahın Rəsulu (s) bu iki yoldan (əksəriyyətin rəyi və qəbilə başçılarının) heç biri haqqında nəzər verməmişdir.

Yuxarıda qeyd olunan iki fərz əsas tutulduqda, ilk üç xəlifədən heç biri ümumi camaatın nəzəri əsasında seçilməmiş , xalq öz rəhbərininin seçimi, siyasi və dini həyatlarında heç bir rola malik olmamışdılar.

## MÜƏYYƏN BIR KƏSƏ ITAƏT ETMƏYƏ DAİR TÖVSİYƏ

Yuxarıda qeyd olunan iki ehtimal qəbul olunmadıqda, e`tiraf etməliyik ki, Allahın Rəsulu (s) camaatı üçüncü ehtimala – müəyyən şəxsə itaət etməyə əmr vermişdir. Amma o, kimdir?

Şübhə yoxdur ki, həzrət Mühəmməd ibn Abdullah (s) digər insanlar kimi ömrünün son anlarında ailəsinə vəsiyyət etmişdir. Bu vəsiyyətin bəzisi mal və dünyaya aid olan işlər haqqında, əksər hissəsi isə dini və e`tiqadi işlər barəsində olmuşdur. Hər bir ictimai şəxsiyyətin fəaliyyətdə olduğu hər bir maddi və mənəvi məsələlər haqqında vəsiyyəti vardır. Ticarətlə məşğul olan hər kəs malının, alim və rəhbərlər öz əsərlərinin fikrindədir.

Bu məsələ Allahın Rəsulunun (s) haqqında da rəva olan bir məsələdir. O həzrətin həm əmlakına,[1] həm də mənəvi məsələlərə aid vəsiyyəti olmuşdur. Təkcə bu fərlə ki, həzrətin maddi məsələlərdə etdiyi vəsiyyət haqqında heç bir ixtilaf olmadığı halda mənəvi məsələlərdə etdiyi vəsiyyət başdan başa ixtilaflıdır. Səhabələr ikinci qisimdən olan vəsiyyətdən fərqli olaraq, birinci qisimdən olan vəsiyyət barəsində heç bir əks mövqe tutmamışlar.

İbn Cərir öz kitabında Allahın Rəsulunun (s) nökərlər, yük, minik və süd verən dəvələr, qılınclar və qalxan barəsində olan vəsiyyətinə ayrıca yer vermişdir.[2]

Dini və etiqadi məsələlər haqqında vəsiyyətin olmasını heç kəs inkar etməmişdir. Keçən bəhslərdə də işarə olundu ki, İbn Əbil-Hədid, Əbu Cəfər Nəqiblə olan söhbətində Allahın Rəsulunun (s) müəyyən bir nəfəri canişin təyin etməsinə və camaatı ona itaət etməyə çağırmasına işarə edərək on açıqlama vermişdi.

Amma səhabələrin belə mövzularda ona itaət etməyin özlərinə hüccət saymamış və itaət etməmişdilər.[3]

## ALLAHIN RƏSULUNUN CANIŞINI

Əhli sünnət təhqiqçilərinin qondarma saydığı, Ümmül-möminin Ayişədən nəql olunan bir neçə rəvayətdən başqa heç kəs Peyğəmbərin Əbu Bəkrin canişinliyi barəsində bir söz deməsini iddia etməmişdir.

---

[1] "Tarixul-üməmi vəl-muluk", 2-ci cild, səh. 216-220.
[2] "Tarixul-üməmi vəl-muluk", 2-ci cild, səh. 216-220
[3] "Nəhcül-bəlağənin şərhi", 12-ci cild, səh. 83.

Digər tərəfdən, əhli-sünnə kitablarında bəzən Ayişənin iddiasının əksinə olaraq həqiqətin tamamilə başqa olması, bəzən də: "Allahın Rəsulu heç kəsi təyin etməmişdir"[1] – kimi dəlillər zikr olunmuşdur.

Bu qəbildən olan saxta hədisləri düzəldənlər, Əbu Bəkrlə müxalif olanlar arasında yüksək şəxsiyyətlərin oluğunu, eləcə də onunla olunan beyət üçün icma yaradılmasının mümkün olmadığını gördükdə, belə hədislərin düzəldilməsinə əl atmışdırlar.[2]

Amma Allahın Rəsulunun (s) Əbu Bəkrin canişin olması barəsində heç zaman göstəriş verməməsinin dəlilləri bunlardır:

1. Ədül-Həmid Mədaini yazır:

Əgər Allahın Rəsulu (s) Əbu Bəkrin canişin olması barəsində göstəriş vermiş olsaydı, onun özü Səqifə danışıqlarında buna işarə etmiş olardı. Halbuki o özü bu barədə kiçik olsa belə, iddia etməmişdir.[3] Orada deyilən təkcə Əbu Bəkrin Peyğəmbərlə bir yerdə - mağarada olması və ya Peyğəmbərin "Rəhbərlər Qureyşdən olmalıdır" və "Əbu Bəkr qureyşdəndir" haqqında olan sözlərdir.

Ömər, Əbu Bəkr və Əbu Ubeydənin daha çox təkid etdikləri "Mühacirlər Peyğəmbərin dostları və qohumlarıdır və rəhbərliyə başqalarından daha laiqdirlər" – cümləsi idi[4].

2.Əbu Bəkr danışıqlarının birində aydın surətdə deyir:

**وددت انی سآلت رسول الله عن هذا الامر فیمن هو فلا ینا زعه احد و وددت انی کنت سآلته هل للانصارفی هذا حق**

"Kaş ki, Allahın Rəsulundan xilafətin kimin öhdəsinə olacağından sual etmiş olaydım ki, heç kəs onun sahibi ilə bəhsə qalxmayaydı! Həmçinin kaş, ənsarın bu işdə haqqının olub olmamasından soruşaydım!"

Allahın Rəsulundan (s) Əbu Bəkrin haqqında göstəriş olsaydı, onun özü eşitməzdimi?! Onun Allahın Rəsulundan (s) eşitməsini iddia etdiyi təkcə "Rəhbərlər qureyşdəndir" cümləsidir. Təəccüblüdür ki, heç kəs Əbu Bəkrdən Peyğəmbərin Qureyşin hansı tayfasının nəzərdə tutmasını soruşmamışdır.

Halbuki Qureyşin 25 tayfası vardır[5] və bunlardan Bəni-Haşim hamıdan üstündür.[6] Yaxud bundan savayı Allahın Rəsulu (s) başqa bir şey buyurmamışdırmı? Bundan əlavə, necə olur ki, Allahın Rəsulu (s) bu sözü dedikdə özündə olur, lakin əhəmiyyəti daha artıq olan vəsiyyətə gəldikdə isə, sayaqlama halında olur?!

Buna oxşar yüzlərlə hədis, Əbu Bəkrin Allahın Rəsulunun (s) buyuruğunun əsas hissəsini açıqlamamasını göstərir. O rəvayətlərin seçimi belədir:

الأئمة بعدی اثنی عشر کلها من قریش...

---

[1] "Əт-təbəqatul-kübra", 2-ci cild, səh. 260.

[2] "Əsrarus-səqifə", səh. 73-74.

[3] "Nəhcül-bəlağənin şərhi", 6-cı cild, səh. 12-13.

[4] "Əl-kamilu fiт-tarix", 2-ci cild, səh. 329-330.

[5] "Murucuz-zəhəb", 2-ci cild, səh. 291.

[6] "Əc-sirətul-hələbiyyə", 1-ci cild, səh. 3-4, "Nəhcül-bəlağənin şərhi", İbn Əbil-Hədid 2-ci cild, səh. 156-185.

"Məndən sonra on iki imam olacaqdır ki, onların hamısı qureyşdəndir" Səqifədə təkcə əvvəldən bir: "əl-əimmə" və axırdan isə iki: "min Qureyş!" kəlmə deyilir və imamların on iki nəfər olması isə açıqlanmır.[1]

"Səhihi-Buxari", "Səhihi-Müslüm", "Sünəni-Tirmizi" və "Musnədi-Əhməd" kitablarında bu məzmundan olan onlarla rəvayət qeyd edilmişdir. O rəvayətlərin bir çoxunda Qureyşdən olan imamların sayı on iki nəfər və onların olacaqları vaxtv qədər dinində bərqərar olacağı açıqlanmışdır.[2]

Çox gözəl aydındır ki, ardıcıl imam silsiləsinin nə say baxımından, nə onlar üçün deyilmiş xüsusiyyətlər baxımından şiədən savayı heç bir məzhəblə uyğunluğu yoxdur. Hədislərin açıqlamasından, qeyd olunan on iki nəfərin öz əsrlərinin ən yaxşı və üstün adamları olmaları məlum olur.

Əgər Allahın Rəsulunun (s) sözünün mə`nası "Camaata rəhbərlik etməyə Qureyşdən savayı heç kəsin ləyaqəti yoxdur" olsa, onda nə üçün xəlifə ölüm qabağı "Kaş ki, Peyğəmbərdən, ənsarın xilafətdən haqqı olub-olmamasını soruşmuş olaydım!" belə bir söz deyirdi? Məgər ənsar Qureyşdəndirmi?

Həmçinin ikinci xəlifə ölüm qabağı deyirdi:لو كان سالم حيّاً ما تخالجنى فيه الشكوك "Əgər Salim (Əbu Huzeyfənin azad olmuş qulu) sağ olsaydı xilafətin onun haqqı olmasında şək etməzdim!"[3] Doğrudan da görəsən, Salim Qureyşdən idi?! Heç zaman![4]

Ömərin seçilməsində də heç də Əbubəkr, Allahın Rəsulunun (s) onun haqqında bir söz deməsini iddia etmir, təkcə bu sözü deyirdi: "Allah cavab verərək ən yaxşı adamı xalq üçün rəhbər seçdiyimi deyəcəyəm."[5]

3. İkinci xəlifə dünyadan getdiyi zaman canişin təyin etdikdə deyir:

ان استخلف من هو خير منى و ان اترك فقد ترك من هو خير منى

"Əgər bir nəfəri öz yerimə seçsəm (səhv etməmişəm, çünki) məndən qabaq olan və məndən yaxşısı ( Əbu Bəkr) öz yerinə seçmişdir. Əgər bir kəsi öz yerimə seçməsəm (yenə səhv etməmişəm, çünki) məndən yaxşı olan ( Allahın Rəsulu (s)) bir kəsi canişin təyin etməmişdir."[6]

4. Əbu Bəkr Səqifədə Allahın Rəsulu (s) tərəfindən nə özü, nə də başqa bir nəfər üçün heç bir məqam iddia etmədən deyir:قد رضيت لكم احد هذين الرجلين "Mən sizin üçün rəhbər olmağa bu iki kişidən (Ömər və Əbu Ubeydə) birinə razıyam." Görəsən, o özünün yüz faizlik haqqını digərlərinə təklif edirdi? Yoxsa onların haqqında Allahın Rəsulundan bir şey eşitmişdi? Yəqin ki, Əbu Bəkr camaata:بايعوا ايهما شئتم "Bunlardan hansı ilə istəyirsinizsə, beyət edin!" - deyir və ardınca Ömər üzünü Əbu Ubeydəyə tutaraq:

---

[1] "Muntəxəbul əsər fil-imamis-sani əşər"

[2] "Müsnədi-Əhməd", 5-ci cild 86-108, "Sünənи Əbi Davud" 4-cü cild, səh. 106 -107, "Səhihi-Müslim" 6-cı cild, səh. 2-4, "Səhihi-Buxari", 9-cu cild, səh. 81, "Səhihi-Tirmizi", 2-ci cild, səh. 45.

[3] "Nəhcül-bəlağənin şərhi", İbn Əbil-Hədid 9-cu cild, səh. 170.

[4] "Tarixul ümәmi və əl-muluk"2-ci cild, səh. 580.

[5] "Əl-imamətu vəs-siyasət", 1-ci cild, səh. 19.

[6] "Nəhcül-bəlağənin şərhi", İbn Əbil-Hədid 1-ci cild, səh. 185.

ابسط يدك فلابايعك فانك امين هذه الامة[1] “Əlini uzat, sәninlә beyәt edim! (Allahın Rәsulu buyurmuşdur:) Sәn bu ümmәtin әminisәn.”

Bu cümlәni demәklә Ömәr, Əbu Übeydәnin xilafәtә layiq olmasını vә Allahın Rәsulunun (s) heç dә Əbu Bәkrә itaәt edilmәsinin lazımınca demәmәsini bәyan edir. Baxmayaraq ki, bir neçә andan sonra hәr ikisi Əbu Bәkrә: “Biz sәn olan yerdә başqasına rәva bilmәrik!” – deyirlәr!

5. Əbu Bәkr rәhbәrliyinin ilk günü mәsciddә deyir:

**ايها الناس انى لم هجعل لهذا المكان هن اكون خيركم....**

“Ey camaat! İndi ki, mәn bu yerdә (Allahın Rәsulunun canişinliyi mәqamında) oturmuşam, bu o demәk deyil ki, sizdәn üstünәm... Mәn dә sizin kimiyәm.” Yaxud belә deyir: اقيلونى،اقيلونى فلست بخيركم “Mәni boşlayın, boşlayın, mәn sizlәrin әn yaxşısı deyilәm!”

6. Deyirlәr ki, Əbu Bәkr bir neçә gün Allahın Rәsulunun (s) göstәrişi әsasında mәsciddә camaat namazının imamәtini boynuna götürmüşdür. Bu barәdә bir neçә mәsәlәyә işarә etmәk lazımdır:

a) Əhli sünnәdәn olan sәnәdlәrә görә, Əbu Bәkr Üsamәnin ordusunun üzvlәrindәn olmuş, digәr tәrәfdәn dә Allahın Rәsulu Usamәnin ordusundan boyun qaçıranları lәnәtlәmişdir. Belә olduqda Əbu Bәkrin Allahın Rәsulu tәrәfindәn bir neçә dәfә camaat namazı qılmasına tәyin edilmәsi necә mümkün ola bilәr?!

b) Amma o qәdәr ki, şiә vә sünnü mәnbәlәrindә müәyyәn qәdәr qәbul olunmuşdur, Əbu Bәkrin bazar ertәsi günü (Allahın Rәsulunun (s) vәfat etdiyi gün) qeyd olunan qaydada sübh namaz qılmışdır: Allahın Rәsulu (s) xәstәliyinin şiddәtindәn namaza getmәyә taqәti olmadığına görә buyurdu: “Deyin, biri namazı qılsın!”

Orada olan Ayişә atasını çağırıb mәscidә yolladı. O, namaza başladı. Bu xәbәr Allahın Rәsuluna (s) çatdıqda Əli (ә) vә İbn Abbasa söykәndiyi halda mәscidә daxil olaraq özünü mehraba çatdırdı. Hәzrәt, Əbu Bәkri geri çәkib әylәşdi vә camaatla namaz qıldı. Hәzrәt oturduğu yerdә namaz qıldığından camaat onun sәsini eşitmir, rüku vә sәcdәlәrini görmürdü. Bu sәbәbdәn namazın hansı yerdә olmasını ayaq üstә olan Əbu Bәkrin vasitәsilә bilirdilәr.[2]

v) Ayişәdәn rәvayәt olunmuş vә istinad olunan rәvayәt başdan-başa paradoks vә ziddiyyәtlә doludur.[3]

İzzuddin Əbu Hamid Mәdaini ustadı Əbu Əyyub Mötәzilidәn rәvayәt edir ki: Ayişә Peyğәmbәrin (s) namaz qılmağa taqәti olmadığını gördükdә, tez atası Əbu Bәkrin ardınca adam göndәrәrәk onu mәscidә yolladı. Bundan xәbәr tutan Allahın

---

[1] “Əl-tәbәqatul kübra”2-ci cild, sәh. 181.

[2] “Əsrarus-sәqifә” sәh. 76-81, “Əl-tәbәqatul kübra”3-cü cild, sәh. 179, “Əl-siqat”2-ci cild, sәh. 130-131, “Tarixnameye tәbәri” 1-ci cild, sәh. 336.

[3] Bu babdan olan rәvayәtlәrin зиддиjјәти ilә tanış olmaq üçün “Sәqife-ye sәxifә” kitabının 159-cu sәhифәјә müraciәt etmәk olar. İbn Əbil-Hәdid Əbu Bәkrin namazı barәdә olan rәvayәtlәri qeyd etdikdәn sonra deyir: Bu hәdislәrdә olan зиддиjјәтләрин olması шiәnin nәzәrini (јәни Əbu Bәkrin namaz qılması Ayişәnin göstәrişiylә olmuşdur) tәsdiqlәyir. “Nәhcül-bәlağәnin şәrhi”, İbn Əbil-Hәdid 13-cü cild, sәh. 33).

Rəsulu (s) hər bir çətinliyə qatlaşaraq özünü mehraba çatdırdı. Əbu Bəkri geri çəkib özü namaz qılmağa başladı. Sonralar bəziləri bu namazı hüccət sayaraq onu Əbu Bəkrin rəhbərliyə ləyaqətli olması kimi qiymətləndirdilər. Lakin Peyğəmbərin məscidə gəlməsindən məqsəd Əbu Bəkri uzaqlaşdırmaq olması haqda heç nə demədilər.[1]

## ƏLI IBN ƏBI TALIBƏ ITAƏT OLUNMASININ TAPŞIRILMASI

Keçən bəhsləri əsas tutaraq Allahın Rəsulu (s) Əbu Bəkr və Ömər deyil, başqa bir nəfərin canişin olmasını tövsiyə etmişdir. Sözsüz, o bir nəfər hamıdan bilikli, təqvalı, fəzilətli, islamda xidməti daha çox olmuş olmalıdır. Əhli-sünnət təhqiqçi alimləri Əli ibn Əbi Talibi (ə) fəzilət baxımından bütün səhabələrdən üstün tuturlar. Bununla belə müsəlmanların hakiminin həmişə hamıdan fəzilətli olmasını da lazım bilmirlər.

İbn Əbil-Hədid bu haqda yazır:

Camaat fəzilətdə, cihadda, elmdə, alicənablıqda böyüklükdə və şərafərdə tayı-bərabəri olmayan bir kəsdən üz döndərərək, (şərafəti və üstünlüyü olmayıb lakin) təqvalı və adil olan bir kəslə beyət etdilər... Səhabələr islamın məsləhətini nəzərə almaqla yanaşı, təkcə xilafəti deyil, üstəlik nübüvvəti də hədələyən fitnənin qorxusundan, daha fəzilətli, şərafətli və layiqli insandan üz çevirib, fəzilətli və şərafətli insana endilər.[2]

Əhli-sünnə alimləri yazırlar: Bir gün Əli ibn Əbi Talib məsciddə Ömər ibn Xəttabın yanında əyləşmişdi. Bir dəstə camaat da orada idi. Həzrət qalxıb oradan getdikdən sonra bir nəfər ardınca onu "özünü tərifləyən" və "böyük bilən" kimi xislətdə müttəhəm etdikdə Ömər dedi: "Onun özünü tərifləməyə və böyük tutmağa haqqı vardır! And olsun Allaha, əgər onun qılıncı olmasaydı islam ayaq üstə dura bilməzdi. O, qəzavət işlərində islam ümmətinin ən biliklisidir. Onun çox şərafətli keçmişi vardır." O kişi dedi: "Əgər düz deyirsənsə bəs nə üçün xilafəti onun əlindən aldınız?" Dedi: "Cavanlığına və Əbdül-Müttəlib övladlarına olan məhəbbətinə görə xilafətin ona yetişməsini istəmədik."[3]

Bunlardan əlavə bir çox rəvayətlərdə yazmışlar: "Allahın Rəsulu (s) Əli (ə) öz canişini təyin etmişdir."

1. İzzuddin Əbuhamid Mötəzili yazır:

İbn Abbas deyir: Ömərin xilafətinin ilk günlərində onun yanına getdim. Mənə dedi: "Hələ də əmin oğlu xilafətə göz dikibdir?" Dedim: "Bəli. Güman edir ki, Allahın Rəsulu onun xəlifə olması haqqında söz demişdir!" Dedim: "Bəli..! Ömər dedi: Əlbəttə, bəzi vaxtlar Allahın Rəsulunun ağzından hüccət olmayıb üzrü aradan

---

[1] "Nəhcül-bəlağənin şərhi", 9-cu cild, səh. 198-199.

[2] "Nəhcül-bəlağənin şərhi", 1-ci cild səh. 157. Əli ibn Əbi Talibin (ə) müxaliflərindən olan Ayişə deyirdi: Allahın Rəsulu üçün Əlidən əziz bir kəs yoxdu ("Əl-istiab"1-ci cild, səh. 278) Ömər ibn Əbdüləziz atasından rəvayət edərək deyir: Bu avam camaat bizim Əli (ə) haqqında bildiyimizdən xəbərdar olsaydı, iki nəfər belə bizə itaət etməzdi. ("Rəbiul əbrar" 1-ci cild, səh. 499.

[3] "Həhcül-bəlağənin şərhi", 1-ci cild, səh. 82.

qaldırmayan bəzi sözlər eşidilirdi. Bəzi vaxtlar onun haqqında həddindən artıq sözlər deyir və bununla ümməti onun xilafətiylə imtahan etmək istəyirdi. Allahın Rəsulu xəstəliyi vaxtı onun adını çəkmək (canişin olmasını açıqlamaq) istəyirdi, lakin mən ümmət üçün qorxduğumdan və islamın hifz olunması üçün onun qarşısını aldım. Allahın Rəsulu mənim onun zehnindən keçəndən xəbərdar olduğumu bildi və öz hədəfindən qayıtdı. Allah da istədiyi və müqərrər etdiyi işdən başqa bir şeyi icra etmədi.[1] O, başqa bir yerdə yazır:

İbn Abbas deyir: Ömərin Şam səfəri zamanı mən də onunla idim. Bir gün yol arası dəvə üstündə mənə dedi: "Ey Abbasın oğlu, əmin oğlundan (Əlidən) gileyliyəm ...O durmadan mənimlə düşmənçilik edir və mənə qarşı qəzəblidir. Bunun səbəbi nədir?" Dedim: "Siz özünüz daha yaxşı bilirsiniz." Dedi: "Düşünürəm ki, hələ də xilafətin əlindən çıxmasına narahatdır". Dedim: "Səbəbi budur. O, bu əqidədədir ki, Allahın Rəsulu xilafəti təkcə ona layiq bilirdi. Ömər dedi: "Allahın istəmədiyi yerdə Peyğəmbərin istəyinin nəticəsi nə ola bilər?! Allahın Rəsulu bir şeyi istəyirdi, Allah isə başqa bir şeyi. Bəs Allahın Rəsulunun istəyi baş tutmadı. Məgər Allahın Rəsulunun istədiyi hər şeyi Allah da istəməlidir?! Əmisinin (Əbu ləhəbin) müsəlman olması onun həmişəlik arzusu olsa da, Allah bunu istəmədi və o da müsəlman olmadı."[2]

3.Onlarca yerdə,[3] həmçinin ikinci xəlifənin ölümündən və (hicrətin 23-cü ilində) altı nəfərlik şuranın yaranmasından sonra Əli ibn Əbi Talib (ə) camaatın arasında özünün imamət və canişinlik məqamını xatırlaya-raq onlardan e`tiraf etmələrini istəmiş, onlar da həzrətin sözünü qəbul etməklə Əhli-beytin (ə) haqqında etdikləri təqsirə görə xəcalət çəkdiklərini bildirmişdilər. İkinci xəlifənin ölümündən sonra məsciddə camaata buyurdu: Sizi and verirəm Allaha, mənə cavab verin: aranızda məndən savayı elə bir kəs varmı ki, Allahın Rəsulu (s) onun haqqında "Mən hər kəsin mövlasıyamsa Əli də onun mövlasıdır" – cümləsini demiş olsun?" Orada olanlar dedilər: "Xeyr." Əli ibn Əbi Talib (ə) buyurdu: "Sizin aranızda məndən savayı elə bir kəs varmı ki, Allahın Rəsulu (s) qardaşlıq əhdi bağladığı zaman onunla qardaşlıq əhdi bağlamış olsun?" Hamı bir ağızdan dedi: "Xeyr." Yenə əlavə edərək buyurdu: "Sizin aranızda məndən savayı elə bir kəs varmı ki, Allahın Rəsulu (s) onunda haqqında:انت منى بمنزلة هارون من موسى "Sənin Mənə olan münasibətin, Harunun Musaya olan münasibəti kimidir" demiş olsun?! Dedilər: "Xeyr." Daha sonra Əli (ə) özünün başqalarından üstünlüyünü bildirən daha dörd fəzilətini açıqlayaraq orada olanları şahid tutdu və onlar bir nəfər kimi təsdiq etdilər.[4]

4. Cəməl müharibəsindən qabaq Ayişə, Ümmul-Möminin Umm Sələməni özü ilə Əliyə (ə) qarşı müharibəyə çəkmək istədikdə Umm Sələmə onun təklifini qəbul etməyib dedi: "Ey Ayişə! Yadındadırmı, səninlə birlikdə Allahın Rəsuluy (s) ilə

---

[1] "Nəhcül-bəlağənin şərhi", 3-cü cild, səh. 97 və 12-ci cild, səh. 21.

[2] "Nəhcül-bəlağənin şərhi", 3-cü cild, səh. 114.

[3] Qeyd olyнan məsələyə görə бax: "Xətib Xarəzminin "Əl-mənaqib" kitabının 217-ci, "Fəraidul səmteyn"58-ci bab, "Səvaiqul muhriqə" səh. 78"Nəhcül-bəlağənin şərhi", 2-ci cild, səh. 61, "Əl-istiyab" 3-cü cild, səh. 35, "Əl-isabə" 4-cü cild, səh. 80 və 408 və 44, "Həmase-i ğədir" səh. 167-168.

[4] "Nəhcül-bəlağənin şərhi", İbn Əbil-Hədid 5-ci cild, səh. 167, "Ğayətul-məram", səh. 564.

səfərdəydik və Əli Peyğəmbərin ayaqqabılarını düzəldir və paltarlarını yuyurdu...? Bu zaman atan (Əbu Bəkr) və Ömər Peyğəmbərin yanına getdi. Onda biz pərdə arxasındaydıq. O iki nəfər Allahın Rəsuluy (s) ilə söhbətə başlayıb soruşdular: "Bizimlə nə qədər bir yerdə olacağınızı bilmirik. Sizdən sonra ümmətə rəhbərlik edəcək adamın kimliyini bilmək və ona pənah aparmaq istərdik." Allahın Rəsulu (s) buyurdu: "...Mən hər kəsi öz canişinim təyin edib sizə tanıtdırsam belə, Bəni-İsrailin Harunun ətrsfından dağıldığı kimi, siz də onun ətrafından dağılacaqsınız. Bu zaman onlar susub heç nə demədilər və oradan uzaqlaşdılar. Sonra biz Allahın Rəsulunun (s) yanına gəldik. Sən Allahın Rəsulundan (s) az utandığın üçün həmin sualı təkrar edib soruşdun." Allahın Rəsulu (s) buyurdu: "(Mənim canişinim) Ayaqqabı düzəltməyə məşğul olandır." Biz baxdıqda Əli ibn Əbi Talibdən savayı bir kəsi görmədik. Sən dedin: "Əlidən savayı bir kəsi görmürəm?" Buyurdu: "Bəli, mənim canişinim də elə odur." Bu zaman Ayişə Umm Sələmənin sözünü təsdiqləyib dedi: Əlbəttə bu xatirə yadımdadır."[1]

## CANIŞINLİYƏ AID OLAN RƏVAYƏTLƏR ƏTRAFINDA

Əhli-sünnədən Allahın Rəsulunun (s) vəsiyyəti haqda bizə yetişən rəvayətləri araşdırdıqda, onların mənbəsinin Ayişə olduğunu görürük. Sünnü məzhəbində olan təhqiqçilər aydın yazırlar: Ayişənin Əli ibn Əbi Taliblə olan düşmənçiliyinin səbəbi ona və Fatimei-Zəhraya qarşı həsədinə görə idi. [2] Həsədin onda qoyduğu təsirin şiddətindən, Allahın Rəsulunun (s) Əlinin dizi üstündə can verməsini və ona olan son vəsiyyətini inkar etdi. Halbuki əhli-sünnətin bir çox hədis mənbəsi yazır: "Allahın Rəsulu (s) Əli ibn Əbi Talibin dizi üstündə can vermişdir."[3] Ayişə deyir: "Allahın Rəsulu mənim dizimin üstündə can vermişdir və necə olmuşdur ki, Əliyə vəsiyyət etmiş, mənsə xəbər tutmamışam?!"[4]

O həzrət, Ayişənin haqqında buyurur:

واَمّا فلانة فادركها رأس النساء وضغن غلا فى صدرها كمرجل القين

"O qadın qəlbində (mənə qarşı) dəmirçi qazanı kimi qaynayan (həsəd və) kinəyə düçar olmuşdur."[5]

Əbdülhəmid Mədaini deyir: Ustadım Əbu Yəqubun yanında "Kəlam elmi"-ni oxuduğum zaman həzrətin bu cümlələrini onun üçün oxudum. O, bu haqda çox uzun bir cavab verdi ki, xülasəsi bundan ibarətdir:

Ayişənin ilk düşmənçiliyi Fatimə (ə.s) ilə başlamışdı. Allahın Rəsulu Xədicənin vəfatından sonra Ayişə ilə evlənmişdi, Fatimə də (s) Xədicənin qızı idi. Qızın anası dünyadan getdikdə və atası yeni qadınla evləndikdə qız və yeni qadın arasında küdurətin yaranması təbii bir hal və qaçılmaz bir işdir .Qadın atanın qızına olan məhəbbətinə paxıllıq edir və qız da....

[1] "Nəhcül-bəlağənin şərhi", İbn Əbil-Hədid, 6-cı cild, səh. 218.
[2] "Nəhcül-bəlağənin şərhi", İbn Əbil-Hədid 6-cı cild, səh. 218.
[3] "Kənzul ummal" 4-cü cild, səh. 55, "Əl-təbəqatul kübra" 2-ci cild, səh. 262.
[4] "Əт-təbəqatul-kübra" 2-ci cild, səh. 260
[5] "Nəhcül-bəlağə", xütbə. 156.

Allahın Rəsulu öz qızını camaatın təsəvvür edə biləcəyindən çox uca, hər bir kişinin qızına göstərəcəyi hörmətdən artıq hörmət edirdi. O həzrət, ümumi və xüsusi yığıncaqlarda, bəlkə dəfələrlə, ayrı-ayrı vaxtlarda demişdi: "Fatimə bütün dünya qadınlarının xanımıdır. O, İmranın qızı Məryəmlə bərarərdir..Onun Əliylə əqdi mələklərin hüzurunda oxunmuşdur." Dəfələrlə buyurmuşdur: "Ona əziyyət edən mənə əziyyət etmişdir. O, mənim bədənimin bir hissəsidir..."

Bu kimi məsələlər Ayişənin Fatiməyə olan həsəd və düşmənçiliyini daha da artırırdı. Fatimə Əli ilə ailə qurduqdan sonra Ayişənin düşmənçiliyi Əliyə də sirayət etdi və Əbu Bəkri də öz təsiri altına aldı....Gün-gündən Peyğəmbərin Əlidən etdiyi tariflər artır və o, Peyğəmbərə daha da yaxın olurdu. Bu məsələ də Əbu Bəkrin həsədini daha da artırırdı. Belə bir hal Ayişənin əmisi oğlu Təlhədə də yaranmışdı. Çox vaxt bir ye rə yığılır və bu barədə söhbət edərək çarə haqqında düşünürdülər.

(Həmçinin camaatın tərəfindən Ayişənin qulaqına çatdırırdılar ki, Əli Allahın Rəsuluna səni boşamasını təklif etmişdir.) Camaat bu qəbildən olan bir çox sözləri Əli və Fatimə adından Aişəyə çatdırırdı.

Belə söz gəzdirmələr və töhmətlər Ayişənin həsəd və kinəsini daha da dərinləşdirirdi.

Allahın Fatiməyə oğlan və qız övladı verməsi vaxtı yetişdi. Allahın Rəsulu onun övladlarını öz övladları bilir və öz övladları kimi çağırırdı Amma Ayişənin övladı olmurdu. Digər tərəfdən günüsü olduğunun (Xədi-cənin) qızı uşaq dünyaya gətirmişdi, əri də Allahın Rəsulu tərəfindən çox sevilir, hörmətə layiq görülürdü. Belə bir vəziyyətdə Ayişə Əli və onun övladlarının yaşamasını istər, yoxsa onların tezliklə məhv olmasını arzu edərdi?!

Məsələni daha da həssas edən işlərdən biri də, Allahın Rəsulunun (s) məscidin camaatın evlərinə açılan qapılarını, o cümlədən, Əbu Bəkrin qapısını bağlaması, lakin Əlinin məscidə açılan qapısının açıq qalmasına əmr verməsi idi.[1]

Bir vaxt da Allahın Rəsulu (s) Əbu Bəkri məmur edərək "Bəraət" surəsini Məkkədə müşriklərə oxumağı tapşırdı. Amma hələ Məkkəyə yetişməmiş onu geri çağırıb bu surəni oxumağı Əliyə tapşırdı. Bu iki hadisə də Ayişəyə çox ağır gəldi.

Başqa bir məsələ Allahın "Qibti" olan Mariyədən Öz Rəsuluna övlad verməsidir. Bu hadisə Əlini həd-dindən artıq şad etmişdi. (Halbuki, Aişə həddindən artıq narahat olmuşdu.) Bundan sonra (Mariyənin) oğlu İbrahim vəfat etdi. Ayişə özünü zahirdə qəmli göstərsə də (onlara qarşı olan) rişxəndini gizli saxlamışdı...

Allahın Rəsulu (s) xəstələndiyi zaman yatağını Ayişənin evindən (qızı Fatimənin evinə) aparmadı, səbəbi də övladı və kürəkəni üçün narahatlıq yaratmamaq istəyi idi.

(Peyğəmbərin qabaqcadan tədarükü və tövsiyələrindən) Əlinin Peyğəmbərdən sonra xilafətin ona yetişəcəyində şəkki yoxdu. ...Peyğəmbərin xəstəliyi şiddətləndiyi

---

[1] Bu haqda aşağıda qeyd olyнan mənbələrə müraciət etmək olar: "Müsnədi-Əhməd", 5-ci cild, səh. 495, "Fəthul bari" 7-ci cild, səh. 18, "Məcməul zəvaid" 9-cu cild, səh. 114, "Əl-bidayətu vən-nihayə", 7-ci cild, səh. 379, "Xəsaisu əmiril mömininin(ə)"səh. 13, "Əs-səvaiqul-muhriqə", səh. 144, "Kənzul ummal" 11-ci cild, səh. 618.

zaman Usamənin ordusuna hərəkət əmrini verdikdə, Əbu Bəkr kimi mühacir və ənsarın böyüklərindən qoşuna qoşulmalarını istədi. Belə olduqda Əli heç bir maneə olmadan xilafətə yetişəcəkdi. Lakin Peyğəmbərin bu fikrindən və sonradan baş verəcək hadisələrdən xəbərdar olan Ayişə atasının ardınca adam göndərərək Mədinədən çıxmasına imkan vermədi.

Məhz Həzrətin xəstəliyinin şiddətləndiyi zaman Ayişə atasının ardınca adam göndərərək məsciddə Peyğəmbərin yerinə namaz qılmasını istədi. Bundan xəbər tutan Peyğəmbər Fəzl ibn Abbas və Əlinin qoluna girmiş halda özünü məscidə çatdırıb namaza başladı. Peyğəmbər (s) həmin günün səhəri dünyasını dəyişdi. Bu zaman digərləri Əbu Bəkrin qıldığı namazı hüccət sayaraq dedilər: "Allahın Rəsulunun (s) irəli saydığı adamdan kim qabaqa düşə bilər!" Onlar Allahın Rəsulunun (s) o zaman məscidə gəlməsini namaza verdiyi əhəmiyyətə görə olduğunu deyərək, həzrətin Əbu Bəkrin Peyğəmbərin qıldığı namazın qarşısını almağa gəlməsini gizlətdilər.

Bütün bunlar xilafətin Əlidən qəsb edilməsinə səbəb oldu. İşin belə tamamlanmasının əsl səbəbi Ayişə olmuşdur.

(İbn Əbil Hədid deyir:) "Mən Şeyx Əbu Yəquba dedim: Sən Əbu Bəkrin namaz qılmasının Peyğəmbərin əmri ilə deyil, Ayişənin istəyi ilə olmasına inanırsan?" Ustadım dedi: "Bunu mən deyil, Əli deyir. Mənim vəzifəm və seçimim onun seçimindən fərq edir. Hər halda o, orada olmuş, mən isə olmamışam."

Fatimənin vəfatından sonra bütün qadınlar başsağlığı vermək üçün bəni Haşimin yanına getdiyi zaman, Ayişə özünü xəstəliyə vurub başsağlığı da vermədi.[1]

[1] "Nəhcül-bəlağənin şərhi", 9-cu cild, səh. 192-199 (Bütün bunlarla yanaşı bəzi yazıçılar Ayişənin Peyğəmbərin ən sevimli xanımı olmasını yazırlar).

# DÖRDÜNCÜ FƏSİL

## ƏVVƏLCƏDƏN TÖKÜLƏN TƏDBİR

### QƏFİL VƏ DÜŞÜNÜLMƏMİŞ BEYƏT

Səqifə hadisələrindən vaxt ötdükcə qalib gəlmiş dəstənin rəqibi məğlub edib qüdrətə yetişmək üçün uzun müddətdən bəri tədbir tökməsi məlum olurdu. Buna ən yaxşı dəlil (şiə və qeyrilərinin qəbul etdiyi) Allahın Rəsulunun (s) Əli ibn Əbi Talibin imamətinə dəfələrlə təkid etməsidir ki, bunu nəzərdə aldıqda işin birdən-birə digər bir tərəfə yönəlməsi mümkün olmaması və müəyyən bir dəstənin bu barədə müddətlərlə əsaslı surətdə işləməsi məlum olur. Görəsən camaatdan heç kim Qədir hadisəsini xatırlamırdı?! Əlbəttə, yadlarında idi və uzun müddət xatirələrindən də silinməmişdi. O hadisədən on iki il sonra ikinci xəlifə dünyadan getdiyi zaman (hicrətin 23-cü ilində) Əli ibn Əbi Talib (ə) şurada olanlara, eləcə də camaata dəlil gətirərək özü haqqında qırx fəzilət sadalamışdı ki, onlardan biri də Qədir hadisəsi, digəri isə "Təthir" ayəsi olmuşdu. Onlardan dediklərini təsdiq edib şəhadət vermələrini istədikdə bir neçə nəfər müxalifi istisna etməklə hamı onun sözünü təsdiqləmişdi.[1]

Bütün bunlar Peyğəmbərlərin sonuncusu Mühəmməd (s) dünyadan getdiyi zaman o dəstənin yadında deyildimi?! Yoxsa onların bəzisi, üstünlüyü olmayan adamın ən fəzilətli olandan üstün tutularaq seçilməsini maneəsiz bir iş kimi qiymətləndirirdilər? Necə qəbul etmək olar ki, bir neçə saatdan az bir vaxtda, Allahın Rəsulu (s) ailəsinin iştirakı olmadan bir neçə nəfər qabaqcadan heç bir danışıqsız, camaatı Əli ibn Əbi Taliblə beyət etmədən uzaqlaşdıraraq başqa birisi ilə beyət etməyə aparır, daha sonra tamah və qorxu yoluyla beyət etdirirlər?!

Əli ibn Əbi Taliblə (ə) tədbirli müxalifət zümzüməsi şiddətləndiyi bir vaxtda Məkkədə Ömər ibn Xəttaba xəbər verib dedilər: "Bəzisi deyir[2] ki, əgər Əbu Bəkrlə beyət etmə doğrudan da qabaqcadan planlaşdırılmış halda olmuşdursa, onda biz də Ömərdən sonra başqası ilə (Əli) beyət edəcəyik."

---

[1] "Əl-qədir", 1-ci cild, səh. 159. Əllamə Əmini bu bəhsin təsdiqlənməsi haqqında Əhli təsənnündən iyirmidəн artıq sənəd qeyd etmişdir.

[2] "Ənsabul-əşraf", 1-ci cild, səh. 581. İbn Əbil-Hədid иsə onun Əmmar olmasını demişdir. "Nəhcül-bəlağənin şərhi", 2-ci cild, səh. 15.

Bu sözdən sonra xəlifə camaatı Mədinə məscidində bir yerə yığaraq minbərə çıxıb dedi: "Eşitdiyimə görə, bəziləri Əbu Bəkrlə olan beyətin qəflətən, düşünülməmiş olmasını əsas tutaraq Ömər ibn Xəttabdan sonra başqası ilə beyət edəcəklərini deyirlər! Əlbəttə, o beyət gözlənilmədən qabaqcadan düşünülməmiş baş vermişdi. Lakin Allah ümməti, onun zərərindən və qarışıqlığından saxladı. Bilin və agah olun! Bu gün sizin aranız da Əbu Bəkr kimi hamının onunla beyət edəcəyi başqa birisi yoxdur. Deməli, müsəlmanlarla məşvərət olmadan hər kəslə beyət olunarsa, o beyətin heç bir rəsmiyyəti olmayacaqdır: həm beyət edən, həm də beyət olunan öldürülməlidir![1]

İbn Əbil Hədid yazır: Şiənin nəzərinə əsasən Əbu Bəkrlə olan beyət qəfilədən və düşünülməmiş olmamışdır. Ərəb şairi Məhəmməd ibn Hani Məğribi yazır:

و لكن امراً كان أبرم بينهم وان قال قوم فلتةً غير مبرم

"Bir dəstə adam xilafətin qabaqcadan hazırlıq görülməmiş və qəfil bir iş olmasını desə də, onların arasında qabaqcadan möhkəmlənmiş bir iş idi"[2]

Həqiqət budur ki, şahid və dəlil-sübutun çoxluğundan deyilən nəzərin təsdiqində hətta ayrıca bir kitab da yazmaq olar. Biz isə bu haqda bir neçə nöqtəyə işarə etməklə kifayətlənirik.

1. Xatırlanan ilk mövzu Allahın Rəsulunun (s) Qədir-Xumda xütbəsi zamanı Əli ibn Əbi Talibin (ə) müxaliflərinə etdiyi xəbərdarlıqdır. Həzrət işarə edərək onların sayının az olmaması və bir an belə durmadan məkr və hiylə qurmaları haqqında fikirləşmələri və gələcək üçün plan cızmalarını bildirir.

Şəkk yoxdur ki, elə bu adamlar hər vaxt Allahın Rəsulu (s) ümumi və xüsusi yığıncaqlarda Əli ibn Əbi Talibin (ə) fəzilətlərindən və onun övladlarının imamətindən söz açmaq istədikdə səs-küy salır təkbir deməklə qarışıqlıq yaradırdılar. Hər zaman Allahın Rəsulu (s)الائمة بعدى اثنى عشر "Məndən sonra imamlar on iki nəfər olacaqlar" – demək istədikdə məclisin sakitliyi səsküylə əvəz olur, hətta qarışıqlıq elə bir yerə çatırdı ki, həzrət sözünün ardını deyə bilmirdi.[3]

2. Əli ibn Əbi Talibin (ə) müxalifləri arasında uzun illər bir-biri ilə dostluq etmiş və qohumluq əlaqəsi olan bur neçə tanınmış şəxsi görmək mümkündür. Təəccüblü burasıdır ki, bunların hamısı Əbu Bəkrin dəvəti ilə islamı qəbul etmiş adamlardır. Bunlar: Osman, Təlhə, Zübeyr, Sə`d ibn Əbi Vəqqas, Əbdür-Rəhman ibn Ovf və Əbu

---

[1] "Ənsabul-əşraf" 5-ci cild, səh. 590, "Müsnədi-Əhməd", 1-ci cild, səh. 55, "Əт-təmhid", səh. 196, "Kənzul ümmal" 3-cü cild, səh. 2346, "Əl-musənnəf", İbn Əbi Шeybə, 5-ci cild, səh. 465, "Səhihи-Бuxari", 8-ci cild, səh. 26 və 210 , "Sire-ye nəbəvi" 4-cü cild, səh. 226, "Əн-nihayə", 3-cü cild, səh. 466, "Tarixul-üməмi vəl-muluk", 3-cü cild, səh. 205.

"Əl-kamilu fit-tarix", 2-ci cild, səh. 327, "Tacul ərus" 1-ci cild, səh. 568, "Lisanul-ərəb", 2-ci cild, səh. 371, "Tarixul xuləfa" səh. 67, "Nəhcül-bəlağənin şərhi", 2-ci cild, səh. 50, "Əc-sə-vaiqul-myhriqə", səh. 21, "Əт-təbəqatul-kübra", 3-cü cild, səh. 344.

İbn Əbil-Hədid yazır: Чamaatın Əbubəkrлə beyət etməsinin düşünülmədən olmasını deyən ilk kəsdir. ("Nəhcul-bəlağənin şərhi", 2-ci cild, səh. 50 və 6-cı cild, səh. 47.

[2] "Nəhcul-bəlağənin şərhi", 2-ci cild, səh. 37.

[3] "Səhihи-Бuxari", 9-cu cild, "Əl-fиtən", "Əl-istixlaf" babı və "Əl-əhkam", "Səhihи-Müslüm", 6-cı cild, "Əl-imarə".

Übeydə Cərrahdır. İkinci xəlifənin xilafəti zamanı dünyadan getmiş Əbu Übeydəni çıxmaqla, yerdə qalan beş nəfər Ömər ibn Xəttabın vəsiyyətinə əsasən xəlifə seçmək üçün təyin olunmuş altı nəfərdən beşini təmsil edirdilər. Bu yolla onlardan biri mütləq xəlifə seçilməli idi.

Əbu Bəkr, Ömər və Əbu Übeydənin Səqifədəki rolu həlledici oldu. Əbu Bəkr qalib gəldikdən sonra Ömər ibn Xəttab Məhkəmə işlərinin, Əbu Übeydə isə islam hökuməti xəzinəsinin rəisi təyin olundu.[1]

İbn Əbil Hədid yazır: Əli ibn Əbi Talibi (ə) Əbu Bəkrlə beyət etməsi üçün güc işlədərək məscidə gətirdikdə o beyət etmədi. Əbu Übeydə ona dedi: "Ey Əbül-Həsən! Bu gün sən cavan,[2] bunlar isə Qureyşin qocalarıdır. Onlarda olan təcrübə səndə yoxdur. ...İndi sən onlara itaət et. ....Əgər onlardan sonra sağ olarsansa layiqincə bu məqama yetişəcəksən."[3]

Ömər ibn Xəttab, İbn Abbasla olan söhbətlərində özündən asılı olmayaraq bir neçə dəfə əlbir olmalarına işarə etmişdir. O, deyir: "Camaatın Əlinin imamətini qəbul etməmələrinin səbəbi, qureyşin nübüvvətlə xilafətin (dini və siyasi rəhbərliyin) Peyğəmbər ailəsində bir yerə yığılmasını istəməməsi idi. Bu səbəbdən də özləri özləri üçün rəhbər təyin etdilər və bu hədəfə yetişməkdə qalib gəldilər."[4]

Dini və siyasi məqamın Peyğəmbər (s) ailəsində bir yerə yığılmasını istəməyən kimlər idi?! Görəsən, bu istəməmək və Peyğəmbər ailəsini (ə) imamətdən uzaqlaşdırmaq "Allahın Rəsulunun (s) vəfat etdiyi yarım gün ərzində" birdən-birə meydana çıxmışdı?!

Aşağıdakı bəzi incəliklərə diqqət etdikdə onların uzun illərdən bəri əlbir olması aşkar olur:

a) Bu üç nəfərin bir yaşda olması və hələ Məkkədən köhnə dost olmaları ərəblər arasında məşhurdur.

b) Hədis mənbələrinin açıqlamalarına görə Əbu Bəkr həmişə, məxsusən ömrünün son günlərində əfsus edərək deyirdi: "Kaş ki, Səqifədə xilafəti Ömərə, yaxud Əbu Übeydəyə verər, özüm isə vəzir olardım!"[5] İkinci xəlifə də dünyadan getdiyi zaman deyir: "Əgər Əbu Übeydə sağ olsaydı heç kəslə məşvərət etmədən xilafəti ona tapşırar və deyərdim: Allahın və Peyğəmbərin yanında əmanətdar olan bir kəsi öz yerimə qoymuşam."[6]

v) Müslümün "Səhih" əsərində oxuyuruq: "Ayişədən soruşdular: "Əgər Allahın Rəsulu (s) öz yerinə canişin qoymaq istəsəydi kimi seçərdi?" Ayişə dedi: "Əbu Bəkri." Dedilər: "Ondan sonra kimi?" Dedi: "Öməri." Dedilər: "Ondan sonra

---

[1] "Əl-kamilu fit-tarix" 2-ci cild, səh. 161, "Ət-tənbihu vəl-əşraf" səh. 254.

[2] O zaman həzrətin 33 yaşı vardı.

[3] "Nəhcul-bəlağənin şərhi" 6-cı cild, səh. 12.

[4] "Nəhcül-bəlağənin şərhi", 1-ci cild, səh. 189 və 2-ci cild, səh. 18, "Əl-kamilu fit-tarix", 3-cü cild, səh. 31, "Tarixul-üməmi vəl-muluk", 3-cü cild, səh. 220 və 5-ci cild, səh. 31.

[5] "Əl-imamətu vəs-siyasət", 1-ci cild, səh. 18, "Nəhcül-bəlağənin şərhi", İbn Əbil-Hədid 2-ci cild, səh. 47, "Murucuzzəhəb" 2-ci cild, səh. 308.

[6] "Ət-təbəqatul-kübra" 3-cü cild, səh. 413.

kimi?" Dedi: "Əbu Übeydə Cərrahı." Bu üç nəfərdən savayı başqa bir kəsin adını çəkmədi.[1]

q) Keçən bəhslərdə Əbu Bəkrin vəsiyyət etdiyi vaxt canişininin adını çəkmək istədikdə huşunu itirməsi və Osmanın öz ehtimalı əsasında Ömərin adını yazmasına işarə edib dedik ki, Əbu Bəkr huşa gəldikdə onun işini təsdiqləyib imzalamışdı. [2]

Görəsən Osman, Əbu Bəkrin məhz Ömər ibn Xəttabı özünə canişin qoymaq istəməsini haradan bilirdi? Əbu Bəkr özü bu barədə Osmandan soruşduqda demişdi: "Bilirdim ki, xilafəti ondan əsirgəməyəcək və ondan savayı heç kəsi təyin etməyəcəksən."[3]

Bütün bunları, həmçinin ikinci xəlifənin də ölümündən əvvəl "Əgər Əbu Übeydə sağ olsaydı heç kəslə məşvərət etmədən xilafəti ona tapşırardım" deməsi və daha sonra qəti şəkildə Osmanı rəhbərliyə yetişdirəcək şura qurmasına diqqət etdikdə, bu bir neçə nəfərin uzun illərdən bəri bu haqda həmfikir olmalarında heç bir şübhə yeri qomur.

İkinci xəlifənin vəfatına qədər bu bir neçə yaxın dostdan Əbu Übeydədən savayı Salim ibn Ubeyd də dünyadan getmişdi. Əgər o sağ olmuş olsaydı xilafət Osmana da çatmayacaqdı. Necə ki, Ömər özü bunu aydın şəkildə açıqlamışdı.

3.Xanım Fatimeyi-Zəhranın (ə) "Fədək" xütbəsinin bəzi cümlələrində bir dəstənin müsəlmanlara rəhbərlik məqamını ələ keçirmələri üçün əlbir olmalarına işarə olmuşdur.

**و الرسول لما يقبر ابتداراً زعمتم خوف الفتنة الا فى الفتنة سقطوا و ان جهنّم لمحيطة بالكافرين. فلما اختار الله لنبيّه دار انبيائه مأوى اصفيائه ظهرت فيكم حسكة النفاق...واطلع الشيطان رأسه من مغرزها تفابكم فالقاكم لدعوتهم مستجيبين وللغرة فيه ملاحظين**

"Allahın Rəsulu (s) hələ dəfn olunmamış siz fitnə yarana biləcəyini bəhanə edərək hədəfinizin ardınca tələsdiniz. (Bu Quranın buyruğudur ki,) Onlar özləri fitnədə qərq olmuşlar və həqiqətən də cəhənnəm kafirləri əhatə etmişdir. Allah öz Rəsulunu Peyğəmbərlərin uca məqamına tərəf apardı. Sizin içinizdə (kök atmış)

---

[1] "Səhihi-Müslim" 4-cü cild, səh. 57 "Fəzailul səhabə"babı.

[2] "Tarixül-üməmi vəl-müluk", 1-ci cild, səh. 2138.

[3] "Nəhcül-bəlağənin şərhi", 1-ci cild, səh. 165, 2-ci cild, səh. 5, "Əl-kamilu fit-tarix", 2-ci cild, səh. 80, "Tarixul-ümәмi vəl-muluk", 3-cü cild, səh. 429.

*Siddiq və faruq ləqəbləri o cümlə ləqəblərdəndir ki, ilk dəfə Allahın Rəsulu (s) həzrət Əlini onunla adlandırmışdır. "Məcməuz-zəvaid", 9-cu cild, səh. 102, "Kifayətuт-talib", səh. 79. Hədisin mətni belədir:

ان هذا اول من يصافحني يوم القيامة وهو صدّق الاكبر و هذا فاروق هذه الامة يفرق الحق و الباطل و هذا يعسوب الدين

"Həqiqətən də Əli mənə iman gətirən ilk kəsdir, qiyamət günü мənimlə müsaфihə (гол-бојун олуб көрүшәчәк) edəcək ilk adamdır. O, bu ümmətin haqqı batildən ayıran Siddiq Əkbəri və faruqudur. O, dinin rəhbəridir."

Sonralar digərləri bu ləqəbləri özəlləşdirib özlərinə aid etdilər. Halbuki, əhli sünnət kitablarında Əli (ə) dan rəvayət olyнmuşdur ki, həzrət buyurur: انا الصديق الاكبر لا يقولها بعدى الا كذّاب مفتر Siddiq əkbər mənəm. Məndən savayı heç kəs yalançı və iftiraçıдан башга bu iddianı edə bilməz. "Tarixül-üməmi vəl-müluk", 2-ci cild, səh. 212, "Sünən ibn Macə" 1-ci cild, səh. 57-58, "Xəsaisu Əmirilmөminin", səh. 3, "Əl-müstədrəku ələc-səhiheyn", 3-cü cild, səh. 112.

düşmənçilik və nifaq aşkar oldu. Şeytan gizləndiyi yerdən başını çıxarıb sizi özünə tərəf çağırdı və hamınızı müti gördü. Azca müqavimət göstərmədən onun hiylələrinə itaət etdiniz."

Digər bir yerdə buyurur:

تتربّصون بنا الدوائر و تتوكّضون الاخبار

Bizim başımıza gələcək xoşagəlməz ağır hadisə intizarında olaraq xəbər gözləyirdiniz."

4.Əbu Bəkrin oğlu Məhəmməd, Müaviyəyə məktub yazaraq onu Əli (ə)-la beyət etməməsinə görə bərk danladığı zaman, Müaviyə onun cavabında məktub yazaraq, getdiyi yolu özündən qabaq olmuş o iki nəfərin yolu olduğunu aydın surətdə söyləmişdi.

Müaviyə yazır:

"Mən və atan (Əbu Bəkr) Əbutalib oğlunun fəzilətini bilir, onun haqqını özümüzə lazım sayırdıq. Sənin atan və "Faruq"* Ömər Əlinin haqqını qəsb edən ilk adamlar olmuş və onunla müxalifətçilik etmişdilər. Bu iki nəfər əvvəlcədən cızdıqları plana görə əlbir olub daha sonra Əlini özləri ilə beyət etməyə çağırdılar. Əli qəbul etmədikdə onun haqqında nahaq və qorxulu qərarlar qəbul etdilər. Axır ki, Əli onlarla beyət edib onlara təslim oldu. Amma bu iki nəfər dünyadan gedənə qədər heç vaxt onu öz işlərində şərik etməyib, gizli olan işlərindən onu xəbərdar etmədilər. Bu gün bizim gördüyümüz işlər düzdürsə, atan onların banisi biz isə şərikləriyik. Əgər atan bu işi tutmasaydı biz heç vaxt Əbutalibin oğlu ilə müxalifət etməz, xilafəti ona verərdik. Lakin atan bizdən qabaq onun haqqında belə bir siyasət yürütmüş, biz də onun kimi rəftar etmişik. İndi ya atandan eyib tut, ya da bizi danlamaqdan əl çək. Tövbə edən hər kəsə Allahın salamı olsun![1]

5. Əbu Bəkrlə Ömərin Səqifəyə getməsində əhəmiyyət daşıyan bir neçə məsələ vardır:

a) Səqifə yığıncağını Ömərə çatdıran o iki nəfər kimdi və niyə bu qədər adamın içindən məhz ona xəbər verdilər?

b) Məsələdən agah olan Ömər nə üçün onu təkcə Əbu Bəkrə çatdırdı?[2]

v) Nə üçün Bərra ibn Azib Qqureyşin tanınmış adamlarını axtardığı zaman Əbu Bəkr və Öməri Peyğəmbərin (s) evində görmür və xəyanət məqsədində olmalarını düşünür? [3]

q) Nə üçün o iki nəfər, ənsarın Səqifəyə yığılması məsələsini Əli (ə)-a, yaxud Abbasa demir və təkcə yol arası Əbu Übeydə Cərrahı özlərinə qoşurlar?

d) .Səqifə danışıqları bitdikdən sonra Ömər ibn Xəttab gecikmədən hamını Əbu Bəkrlə beyətə çağırır və daha sonralar o məsələ haqqında deyir: "And olsun Allaha! Biz o zaman Əbu Bəkrlə beyət etmək yaxşı və təsirə malik olucu başqa bir yol görmədik. Qorxurduq ki, o camaatdan ayrılıb beyət məsələsini birdəfəlik həll

---

[1] "Murucuz-zəhəb" 3-cü cild, səh. 21-22, "Nəhcül-bəlağənin şərhi", İbn Əbil-Hədid, 1-ci cild, səh. 284, 2-ci cild, səh. 65, 3-cü cild, səh. 188, "Ənsabul əşraf" 2-ci cild, səh. 31 , 393 – 397.

[2] "Əl-kamilu fit-tarix", 2-ci cild, səh. 329.

[3] "Nəhcül-bəlağənin şərhi", İbn Əbil-Hədid, 1-ci cild, səh. 219.

etməsək onlar başqası ilə beyət edəcək və biz də çarəsiz olaraq ya qəbul etmədiyimizə itaət etməli, ya da onlarla döyüşməli olacaqdıq. Bu zaman fitnə qalxacaq, fəsad zahir olaraq qalib gələcəkdi."[1]

O "biz"lərə deyəndə kimi demək istəyirdi? Məgər bu ana qədər onunla başqası arasında xilafət məsələsinə görə həmrəylik və danışıq olmuşdumu?!

## BU SUALLARIN IZAHI

Tarixi sənədlərə görə ənsarın yığıncağını Ömərə xəbər verən o iki nəfər Muin ibn Ədi və Uveym Saidə olmuşdur. Ömər və onun ətrafında olanlardan qabaq mühacirlərdən heç kəs Səqifədə yox idi. Uveym Ovs tayfasından, Muin isə mühacirlərlə əhd bağlayanlardan idi. Hər ikisinin Ömər və Əbu Bəkrlə səmimi əlaqəsi vardı. Bu iki nəfərin mühacirlər yetişməzdən qabaq ənsarla olan söz savaşı onların ənsarın birliyini dağıtmağı qarşılarına məqsəd qoymaları fikrini möhkəmlədir. ənsar tərəfindən qovulduqdan sonra Ömər və Əbu Bəkri tapmaq ümidi ilə məscidə və peyğəmbərin evinə üz tutub onları köməyə çağırdılar.[2]

İbn Əbil Hədid yazır: Bu iki nəfərin Allahın Rəsulunun (s) zamanında Əbu Bəkrə dərin məhəbbətləri vardı. Mədinədə bu dostluq Sə`d ibn Ubadəyə qarşı olan düşmənçiliklə birləşdi. Hər ikisi Ömər və Əbu Bəkrin Sə`d ibn Ubadəni məğlub etməsində mühüm rol oynadı. Həmçinin tarixçilər bu iki nəfərin adını beyət almaq üçün Əlinin (ə) evinə hucum edənlərin sırasında qeyd etmişlər.

İbn Əsir yazır: Allahın Rəsulu (s) Muin ibn Ədi ilə Ömərin qardaşı (Zeyd ibn Xəttab) arasında qardaşlıq əqdi bağlamışdı.[3] Hər ikisi Əbu Bəkrin xilafəti zamanı Yəmamə mürtədləri ilə olan döyüşdə həlak olmuşdu. [4] Ömər ibn Xəttab həmişə özünü Uveym ibn Saidəyə borclu bilirdi. Hətta onun qəbri üstündə bu cümləleri işlədərək demişdi: "Yer üzündə heç kəs iddia edib bu qəbrin sahibindən yaxşı bir nəfərin olmasını deyə bilməz!"[5]

Bu iki nəfərin mühacirlərə xəbər çatdırması ənsara o qədər pis təsir etmişdi ki, Səqifə gününün sabahı yenidən bir yerə yığılaraq onları ədəbləndirmək qərarına gəldilər. Lakin hər hansı səbəbdənsə onların bu yığıncağı çox sakit bir halda sona çatdı.[6]

---

[1] "Əl-kamilu fit-tarix", 2-ci cild, səh. 16, "Səqifə", səh. 70.

[2] "Əl-əxbarul-müvəffəqiyyat", səh. 578-591.

[3] Tarixin инкаролунмаз məsələlərindən sayılan işlərdən biri də будур ки, Allahın Rəsulunun (s) insanların əxlaqlarını, qədim dostluqlarını və fərdi meyillərini nəzərdə alaraq aralarında qardaşlıq əlaqəsini bağlardı. "Sünənи-Тırmizi", 12-ci cild, səh. 299, "Sünən ibn Macə" səh. 12, "Əl-mustədrəku əla səhiheyn" 3-cü cild, səh. 111, "Tarixul üməni vəl muluk" 2-ci cild, səh. 56, "Xəsaisu Əmiril-möminin (ə)", 3-cü cild, səh. 18, "Kənzul ümmal" 6-cı cild, səh. 394, "Əl-durrul Mənsur" 4-cü cild, səh. 114, Həzrət Ömər və Əbu Bəkr, Əbu Übeydə və Salim ibn Əbid, Təl hə və Zübeyr arasında qardaşlıq əqdi bağlamışdı. (Aralarında qardaşlıq əqdi bağlanmış insanlar haqqında mütaliə etdikdə bir çox məsələlərin həqiqəti məlum olur).

[4] "Usdul-ğabə", 4-cü cild, səh. 462.

[5] "Usdul-ğabə", 4-cü cild, səh. 16 və 158, "Əl-isabə", 3-cü cild, səh. 45, "Əl-istiyab", 3-cü cild, səh. 170, "Əbdullah ibn Səba" səh. 346.

[6] "Əl-əxbarul-muvəffəqiyyat", səh. 578- 591

Keçən bəhslərdən belə nəticə almaq olar ki, hələ Allahın Rəsulu (s) vəfat etməzdən qabaq bu dəstə arasında canişinlik haqqında söhbətlər baş vermiş və hamısı bir-birinin fikrindən xəbərdar olmuşdu. Eləcə də, məhz həmin söhbətlərin əsasında Ömər Səqifədə öz xilafəti üçün planlar hazırlamışdı. Lakin Əbu Bəkrin zirəkliyi nəticəsində bu planlar qısa bir müddət üçün təxirə düşməli olmuşdu.

Bu barədə Muğeyrət ibn Şöbənin ona dediyi sözə diqqət etmək olar. Muğeyrə Ömərə deyir: "Əbu Bəkr xilafəti sənin öhdənə qoyduğu zaman nə üçün onu qəbul etmədin?! İndi ona irad tutur təəssüflə xatırlayırsan!"

Ömər cavabında dedi: Mən səni ərəbin ağıllı adamlarından sayırdım. Sanki o gün sən orada olmayıb Əbu Bəkrin məni necə aldatmasını görmədin. Əlbəttə, mən də onu aldatdım."[1] (Əvvəlcədən qərara alınmışdı ki, xəlifə olum, lakin o zirəklik göstərib əlimdən çıxartdı).

6. Əbu Bəkr və Ömərin qızlarının (Ayişə və Həfsə) o hadisələrdə olan mühüm rolu danılmaz bir faktdır. Əhli sünnət tarixçiləri İbn Abbasdan rəvayət edib yazırlar: Allahın Rəsulu (s) ömrünün son günlərini yaşayırdı. Bir gün bəzi tapşırıqlarını açıqlamaq üçün Əli ibn Əbi Talibi yanına çağırdı. Ayişə dedi: "Nə olardı ki, Əbu Bəkri çağıraydın!" Həfsə dedi: "Daha yaxşısı Öməri çağıraydın!" O iki nəfərin etdiyi israr nəticəsində Əbu Bəkr və Ömər Allahın Rəsulunun (s) yanına gəldilər. Peyğəmbər (s) onlara buyurdu: "Əgər sizinlə işim olsaydı, ardınızca adam yollardım. Durun çıxın!"[2] Vəziyyəti belə görən Ayişə dedi: And olsun Allaha Əlidən savayı heç kəsi çağırmır. Onu çağırın gəlsin."

Nəhayət, Əli Peyğəmbərin hüzuruna gəldi və onlar uzun müddət astadan söhbət etdilər.[3]

Sonralar da bu neçə nəfər zahirdə bir-birinin əleyhinə heç bir iş görməmiş, həmişə bir-birinə arxa olmuşdular. [4] Əbu Bəkrin xilafətinin möhkəmlənməsi üçün Ömər həddindən artıq canfəşanlıq göstərmişdi. Belə ki, İbn Əbil Hədid bu barədə yazır: "Əgər onun zəhmətləri olmasaydı, Əbu Bəkr xilafətə çatmazdı."[5]

Ömər Əbu Musa Əşərinin cavabında deyir: "And olsun Allaha, əgər qardaşım Zeyd ibn Xəttaba itaət edib dediklərinə əməl etsəydim, Əbu Bəkr heç vaxt xilafətin şirinliyini dadmazdı. O, xilafəti öz caynağına keçirdikdən sonra çarəsiz qalaraq bir müddət səbr edib yenidən xilafətin özümə qayıtmasını gözlədim."[6]

İmam Əli (ə) Ömərin onu Əbu Bəkrlə beyətnə məcbur etmək istədiyi zaman ona deyir:

احلب يا عمر حلبا لك شطره اشدد له اليوم ازره ليرده عليك غدا

---

[1] "Nəhcül-bəlağənin şərhi", İbn Əbil-Hədid, 2-ci cild, səh. 33
[2] "Tarixul-üməмi vəl-muluk" 2-ci cild, səh. 439.
[3] "Təzkirətu xəvassil-ummət" səh. 26.
[4] (Səqifə haдисәләри baş verib Əbu Bəkrin yeri möhkəmlənə qədər).
[5] "Nəhcül-bəlağənin şərhi", 1-ci cild, səh. 174.
[6] "Nəhcül-bəlağənin şərhi", 2-ci cild, səh. 32.

"Ey Ömər, (xilafət dəvəsini) yaxşı sağ, çünki mənfəəti sənə yetişəcəkdir. Bu gün işi onun üçün möhkəm et ki sabah özünə qayıdacaqdır."[1]

[1] "Nəhcül-bəlağənin şərhi", 6-cı cild, səh. 11, "Əl-imamətu vəc-siyasət", 1-ci cild, səh. 12.

# BEŞİNCİ FƏSİL

## QƏDİR HADİSƏSİNİ YADDAŞLARDAN SİLMƏK

### FİKİRLƏRİN FAŞ OLMASI

Qədir-Xum hadisəsindən təqribən iki ay sonra Allahın Rəsulu (s) vəfat etdi. Qədirdə yüz min müsəlman Allahın Rəsulunun (s) uca səslə çox aydın və heç bir qaranlığı, anlaşılmazlığı olmayan cümlələrlə Əli ibn Əbi Talibin (ə) onlara imam və rəhbər ünvanı ilə öz canişini təyin etməsini müşahidə etdilər. Tarixdə o böyük cəmiyyət arasından bir nəfərin belə, o seçimə azacıq e`tirazı qeydə alınmayıbdır[1]. Əli ibn Əbi Talibə (ə) ilk təbrik Ömər ibn Xəttab və Əbu Bəkr ibn Əbi Quhafə tərəfindən olmuşdur.[2]

Allahın Rəsulunun (s) vəfatından sonra hələ həzrətin mübarək bədəni dəfn olunmamış camaat Əli (ə)-ın haqqını tapdalamaqda bir-biri ilə elə yarışa girmişdilər ki, sanki o vaxta qədər onun uca məqamı haqqında heç nə eşitməmiş və Peyğəmbər (s) o sözləri onun kiçiltmək barəsində söyləmişdir.

Görəsən, Peyğəmbərin (s) Əlinin (ə) məqamını tanıtdırmaq üçün çalışmalarına şəkk etmək olarmı?! Allahın Rəsulu (s) vəfatından qabaq "Tezliklə fitnələr gecə zülmətinin dalğaları kimi (ümmətimə) gələcəkdir" – deməmişdimi?! Deməli, həzrət baş verəcək bütün hadisələrdən xəbərdardı. Buna görə də ümməti mümkün olan qədər xəbərdar etməyə çalışırdı. Məhz bu təkidlərin nəticəsində Mədinənin qorxuya düşmüş münafiqlərini hər şeydən artıq düşünməyə və çarə axtarmağa məcbur etmişdi.

Bu fəslidə araşdırılan və cavab verilməsinə səy göstərilən sual o zamanın siyasətçilərinin Qədir-Xum hadisəsini yaddaşlardan silməyə ciddi cəhdlər

---

[1] Yazılanlara görə həzrətin cümlələri tamam olduqda təkcə Myaviyə, Myğeyrət ibn Şöbə və Əbu Musa Əşəri (Abdullah Qeys) paxıllıq və daxillərində olan nifaqa görə cəmiyyətdən kənara çəkilib öz aralarında pıçıldamaya başladılar. ("Şəvahiduт-tənzil", 2-ci cild, səh. 295-297, "Qiyamət" surəsinin təfsiri, 31 və 33-cü ayələr. "Ricalи-səhiheyn"dən нəглəн.

[2] "Əl-musənnəfu fil-əhadis vəl-asar", Hafiz Əbu Bəkr ibn Şeybə, 1-ci cild, səh. 151, "Müsnədi-Əhməd", 4-cü cild, səh. 281, "Cameul bəyan fi təfsiril Quran", 3-cü cild, səh. 428.

məsələsidir. Hansı səbəblərə görə Peyğəmbərin (s) dostları, səhabələri, ənsar və Mədinə əhli Əhli-beytə kömək etməkdən çəkinmiş və Allahın Rəsulunun (s) ailəsinə göstərilən zülmə razı olaraq, mühacirlərin qarşısında quyruq bulayaraq on illərlə ondan sonra bəni Haşimin kifayət qədər himayə etməmişdilər?

Düzgün cavab almaqdan ötrü bir neçə nöqtəyə diqqət etmək lazımdır:

1. O zamənənin tarixi haqqında bizə yetişənlərin bir çoxu qeyri-şiə mənbələrindən olan əməvi və abbasi tarixçilərinin yazılarıdır. Bu səbəbdən də mövcud xəbərləri səhih və düzgün adlandırmaq olmaz. On əsrlərlə qabaq baş vermiş və bir çox xırdalıqları bizdən gizli qalan hadisələri araşdırmaq və haqqında hökm çıxarmaq çətin, bəzi vaxtlarsa mümkün olmayan bir işə çevrilir.

Bunlardan əlavə o zamanənin irticaçı şəraiti bir çox hadisələri gizli saxlamış və ya başqa cür qələmə vermişdir. Allahın Rəsulunun (s) əxlaqi və şəriət hökmləri haqqında olan hədislərinin yazılması yüz il müddətində qadağan olursa, sözsüz, siyasi və ictimai hədislərin sonrakı nəsillərə yetişməsi çox çətin olacaqdır. Bu təsəvvürlə Səqifə əshabının öz əməlini necə yozması, camaatın susması və necə bir bəhanə gətirməsini bilmək bizim üçün o qədər də asan deyildir.

Böyük bir alimin dediyi kimi "Allahın Rəsulunun (s) iyirmi üç illik tarixi, vəfatından sonrakı üç günün tarixindən daha aydındır."

2. Camaatın susmasının səbəbini, eləcə də mühacir və ənsarın etdikləri hərəkətdən nə məqsəd güdmələrini təhlil etmək üçün bir neçə mövzunu bir-birindən ayırmaq lazımdır:

a) O zamənənin siyasətçiləri hansı yolla Qədir-Xum hadisəsini camaata unutdurmuş və bu hadisə qarşısında onları məsuliyyətsiz, etinasız etmişdilər?

b) Nəyə görə ənsar o yığıncağı (səqifə) düzəltmişdi?

v) Mühacirlərin öz rəftarına görə hansı dəlilləri vardı? Onlar vəziyyəti ələ alandan sonra öz siyasi mövqelərini möhkəmlətmək üçün hansı vasitələrə əl atdılar?

q) Görəsən Mədinə əhalisinin hamısı susmuş və etinasızlıq göstərmişdi? Bu rəftarın səbəbi nə idi?

d) Peyğəmbərin (s) ailəsi və dostları nə etmişdilər?

3. Mədinə əhli Allahın Rəsulundan (s) sonra baş vermiş hadisələr qarşısında bir neçə dəstəyə bölünmüşdü:

a) Onlardan bir dəstəsi – Miqdad, Salman və Əbuzər kimi şəxsiyyətlər son nəfəsə qədər Əhli beyti (ə) himayə etdilər və imam müxalifləri ilə beyət etməyənə qədər beyət etmədilər. Ondan sonra da həmişə hökumətin nəzəri altında olub ağır işkəncələrlə susmağa məcbur edildilər.

Bunlardan savayı başqa himayətçilərin olmasına baxmayaraq, onları Əli ibn Əbi Talibin (ə) siyasi hamilərindən saymaq olar. Bu insanların himayəsi cahillik və qohumu himayə etmə kimi fikirlərlə qarışmırdı. Belə ki, Əli (ə) Peyğəmbər (s) kimi Qureyşdən və Bəni-Haşimdən olduğuna görə, qəbilə təəssübünə əsasən onun (s) canişini olmalıdır.Bəlkə də belə demək daha düzgün olar ki, Əlinin (ə) himayə etməklə onun hökuməti sayəsində özlərinin siyasi və qəbilə mövqelərini qorumaq istəyirdilər. Necə ki, sonralar İmamın hakimiyyətinin əvvəllərində bunu göstərdilər. Onlar ümumi camaatın himayəsində olan Əli ibn Əbi Talibi (ə) hakimiyyətə

gətirməklə onun hökuməti sayəsində özlərinə pay almaq və daha sonra tədricən bütün hakimiyyəti öz qəbilələrinin əlinə keçirmək istəyirdilər.

Bu insanların siyasi fəaliyyətlərini araşdırdıqda onları istədikləri qüdrətə və siyasi hədəflərinə çata bilmədikdə Əli (ə) tək qoyaraq onun qarşısında yeni müxalifət yaratmalarını görürük. Elə Cəməl müharibəsi bu məqsədlə baş vermişdi. Siffeyn müharibəsində də bir dəstə adam Əli (ə)-a Şama qalib gəlməsinə görə kömək göstərərək intiqam almaq və Kufənin Şama hakimiyyət etməsini istəmələrinə görə idi.

v) Onlardan sayca heç də az olmayan digər bir dəstə Allahın Rəsulunun (s) dünyadan getməsində saniyələri sayır, hər hansı yolla olursa-olsun, Əli ibn Əbi Talibin (ə) qüdrətə yetişməsinə mane olmaq istəyirdilər. Bu insanlar uzun müddətdən bəri özlərini hakimiyyət etməyə hazırlamışdılar.

q) Digər bir dəstəsə adi müsəlmanlar idi, siyasi və ictimai işlərə o qədər də qarışmırdılar. Onların fikrincə, islam iman gətirmək, günahlardan uzaq olmaq və vacibatı yerinə yetirməkdən savayı bir şey deyildir. Onların bir çoxu bugün bizim bildiyimiz qədər yüksək imamət məqamı və ona itaətin vacib olması barədə heç şey bilmirdilər. Bəzi vaxtlar agahlığı olmayan bu müsəlmanlar nifaq əhlinə (münafiqlərə) itaət edərək hətta Allahın Rəsulunun (s) əmrlərinə də əhəmiyyət vermirdilər. Onlar şəri hökm olmayan göstərişlərə itaət etməməyin maneəsi olmasını düşünürdülər.[1]

Hakimiyyətə yetişmiş insanlara itaət etmələrinə, yaxud ruzigarın fərqinə varmayan bu insanların Allahın Rəsulunun (s) Əhli beyti ilə (ə) əsla düşmənçiliyi yoxdur. Əgər başqa bir nəfər hakimiyyətə gəlsəydi belə, onlar yenə də həmin işi görəcəkdilər.

Əbdülhəmid Mədaini ustadının bu haqda olan sözlərini belə yazır:

Hər yerdə camaatın əksəriyyətini təşkil edən kütlənin çox vaxt şəxsi fikri olmur. Külək hansı tərəfə əsirsə, o tərəfə də əyilirlər. Bunlar təqlid edənlərdir. Onların nə sualı olur, nə fikri, nə də ki, bəhs edirlər. Həmişə hakimə tabe olub onun qüdrətinə itaət edirlər. Hətta əgər vacib namazı gündəlik proqramdan çıxarsalar belə, onlar onu tərk etməyə hazırdırlar. Məhz buna görə də Allahın Rəsulunun (s) Əli ibn Əbitalib (ə) haqqında olan çox aydın göstərişləri tapdalandı, üstü örtülü qaldı. Əbu Bəkrlə olan beyət qüvvətləndi. Bəni Haşimin Peyğəmbərin (s) dəfni ilə məşğul olması onların fəaliyyəti və Allahın Rəsulunun (s) əmrləri ilə müxalifət etmək üçün fürsət yaratdı.[2]

Belə avam insanlar əsrində əgər bir dəstə adam bir neçə saat ərzində hakimiyyətə gəlib vəziyyəti ələ ala bilirsə,onları aram etmək və özü ilə həmfikr etmək elə də çətin olmayacaqdır.

## YADDAŞLARDAN SILMƏK SIYASƏTININ ƏSASLARI

Yuxarıda qeyd olunan nöqtələri açıqlamaqla yanaşı Allahın Rəsulunun (s) vəfatından sonra Mədinənin ictimai vəziyyəti, camaatın həqiqət yolunu tapmaqda

---

[1] "Əl-muraciat", 84-cü muraciət.

[2] "Nəhcül-bəlağənin şərhi", İbn Əbil-Hədid, 12-ci cild, səh. 86.

məsuliyyətsizliyi, həmçinin Əhli beyt (ə) müxaliflərinin hakimiyyətə çatmalarına işarə edəcəyik.

## ƏLI IBN ƏBI TALIBIN (Ə) FƏZILƏTLƏRINI GIZLƏTMƏK

Şiə və sünnü kitablarında olan rəvayətlərə əsasən, Allahın Rəsulu (s) bir çox yerlərdə əmisi oğlu Əli ibn Əbi Talibin (ə) fəzilətlərini açıqlamış, camaata onun haqqında çoxlu sözlər demişdi. Amma bilmək lazımdır ki, bu gün bizim əlimizdə olan çoxlu və nəzmə salınmış bu rətəvayətlər heç də o zaman hamı üçün belə olmamışdır. Məxsusən, Mədinə və onun ətrafında yaşayan insanların bir çoxu savadsız və yazı yazmaqdan məhrum idilər. Əllərində olan yazılıların da əksəriyyəti Quran ayələrindən ibarət idi.

Digər bir tərəfdən də özlərini Allahın Rəsulunun (s) qohumlarından sayan həzrətin bəzi ardıcılları qəlblərində Əli ibn Əbi Talibə (ə) olan kinə əsasən onun fəzilət və üstünlüklərini gizlətmək üçün əllərindən gələni edir, dəfələrlə onun haqqında şayiələr yayırdılar. (Qeyri-şiə rəvayətlərində bu şayiələrin sayı az deyildir) Bir vaxt şayiə yayaraq Allahın Rəsulunun (s) əziz qızı Fatimənin (ə) istəyinin əksinə olaraq Əbucəhlin qızını almaq istəməsinə görə Allahın Rəsulunu (s) əziyyət edənləri lənətləyən "Əhzab" surəsinin 57-ci ayəsinin Əli ibn Əbi Talibin (ə) haqqında nazil olmasını deyir [1] (Başqa bir vaxt söz yayaraq) Allahın Rəsulunun (s) Əli ibn Əbi Talibə (ə) olan nifrətinin şiddətindən kənarında olmasın deyə "Təbuk" müharibəsində özü ilə aparmamasını söyləyirdilər.

Bu baxımdan Allahın Rəsulu (s) hər zaman kürəkəninin fəzilətlərindən söz açıb həqiqəti açıqlamaq istədikdə, müxaliflər müxtəlif yollarla bu işin qarşısını almağa çalışır, yayılmasına mane olurdular. "Səhihi-Buxari" və "Səhihi-Müslüm" kitablarında onlarla yerdə oxuyuruq: "Allahın Rəsulunun (s) sözü bu yerə çatdıqda bir dəstə ya qışqırır, ya da təkbir deyərək həzrətin sözünü tamamlamasına imkan vermirdilər."[2]

O cümlədən Cabir ibn Sumrədən olan rəvayətdə deyilir: Həzrət Peyğəmbərdən eşitdim ki, buyururdu: "Məndən sonra on iki əmir və xəlifə gələcəkdir." O, həzrət daha sonra bir cümlə buyurdu ki, (bir dəstənin səs-küyündən) düz eşitmədim. (Allahın Rəsuluna (s) daha yaxın durmuş) Atam dedi: Eşitmədiyin cümlə bu idi: On iki nəfərin hamısı Qureyşdəndir."[3]

Adətən, bu rəvayətə oxşar bir çox hədislərdə hədisin bir hissəsi pozulmuşdur. Təkcə başqa rəvayətlərin kənarına qoymaqla hədisin tam və həqiqi mənasını əldə etmək mümkündür.

Beləliklə, Allahın Rəsulunun (s) Əlinin (ə) fəzilətləri və onun özündən sonra olacaq məqamını bəyan etmək üçün çəkdiyi zəhmətləri inkar etmək mümkün

---

[1] "Nəhcül-bəlağənin şərhi", İbn Əbil-Hədid, 12-ci cild, səh. 51- 88

[2] "Səhihi-Müslim", 3-cü cild, səh. 452-453, "Yənabiul-məvəddət", səh. 445.

[3] "Səhihи-Buxarи", 9-cu cild, səh. 81, "Səhihi-Müslim", 6-cı cild, səh. 23, "Yənabiul-məvəddət", səh. 445.

*Allahın Rəsulunun son həcci ziyarəti baş vermiş mühüm hadisələrə görə bu adla məşhurdur (müt).

deyildir. Lakin bir çox yerlərdə hakimiyyət arzusunda olanların məkr, hiylə və qabaqcadan qurduqları tələlər nəticəsində bu xəbərlərin yayılmasının qarşısı alınırdı. Bu fitnələr o qədər təsirli idi ki, "Həccətul-Vida"da «يا ايّهاالرّسول» ayəsi nazil olduğu zaman Allahın Rəsulu (s) əvvəlcə onu çatdırmaqda azca gecikdi. Səbəbi, hakimiyyət eşqində olanların ümumiyyətin qəbul etməsinə mane ola biləcəklərindən_və həzrətin əleyhinə hiylə qura biləcəyindən ehtiyat etməsinə görə idi. Buna görə də Allahın "Allah Səni camaatın şərrindən qoruyacaqdır" – təsəlli verəcək xəbəri yetişməyincə, Əli ibn Əbi Talibin (ə) imamət və rəhbərliyini aşkar şəkildə bəyan etmədi.

## KÜTLƏNİN RƏYİNİ AZDIRMAQ

"Qədir-Xum" iştirakçılarının sayı təqribən 120 min nəfər idi və onların içərisində Mədinəyə qayıdanların sayı isə çox az qeyd olunmuşdur. Çünki Mədinəyə çatmazdan öncə bə`ziləri Şama, bə`ziləri Yəmənə və Ərəbistan yarımadasının cənub bölgəsinə doğru yola düşdülər. Peyğəmbəri-Əkrəm (s)-lə Mədinədən Məkkəyə gedənlərdən on min nəfərlik bir qrup da ətraf məntəqələrdən idilər[1] ki, o həzrətə Mədinədə qoşulmuşdular.

Burada da onların bə`ziləri qadın, bə`ziləri isə yaşlılar idi ki, ictimai səhnələrdə heç bir rol ifa etmirdilər. (4-5 min nəfərdən ibarət olan bu qrupun) çox hissəsini qullar və fəqirlər təşkil edirdi ki, müxtəlif məntəqələrdən gəlib Peyğəmbərə qoşulmuşdu, onların Mədinədə əsla qohum-əqrəbaları yox idi. Buna "Süffə" əhlini misal göstərmək olar. Deməli, bu arada sayı təqribən iki mindən çox olmayan bir dəstə qalırdı ki, onlar da adətən, rəislər və qəbilə başçıları idi. Bunlardan əlavə, Peyğəmbər (s)-in göstərişi ilə Mədinənin kənarında Üsamənin ordusu (Curf ordugahında olanlar) şəhərdə olmadıqları üçün heç bir qərar çıxara bilmirdilər.[2]

Bə`ziləri də xilafət və hakimiyyətin Peyğəmbəri-Əkrəm (s)-dən sonra Əli ibn Əbi Talibə (ə) çatmayacağına sə`y etməklə bağlı əhd-peyman bağlayanlar idi. Deməli, mə`lum olur ki, onlar imkan daxilində müsəlmanlar arasında əks-təbliğat aparmaq, iğtişaş yaratmaq və bə`zilərini aldatmaqla "Qədir-Xum" hadisəsinin şahidlərini özlərinə cəlb etməyə, yaxud da heç olmazsa, bitərəf mövqedə olmağa vadar etmək istəyirdi. Necə ki, Peyğəmbəri-Əkrəm (s)-in vəfatından sonra belə də oldu və "Qədir-Xum" hadisəsinə şahid olanların çoxu ya xəlifənin tərəfdarları oldular, ya da bitərəf mövqedə qaldılar.

Həmçinin, Əhli-beyt tərəfdarlarının "Səqifə"də təşkil olunmuş yığıncaqdan xəbərsiz qalmaları da digər amillərə əlavə olunur. Onlar Əbu Bəkrlə bey`ətdən o zaman xəbər tutdular ki, artıq müxalif qüvvələrin işi möhkəmlənmişdi.

---

[1] "Füruği-əbədiyyət", 2-ci cild, səh. 481. Bə`zi tarixçilər isə Islam Peyğəmbəri ilə birlikdə Məkkəyə sarı yola düşənlərin sayını ondan çox qeyd etmişlər. ("Əl-qədir", 1-ci cild. )

[22] "Həmrah ba rastruyan", səh. 146-147 (azacıq fərqlə).

## HAZIRLIQ İŞLƏRİ

Islam Peyğəmbərinin (ə) Mədinədə əbədiyyətə qovuşduğu gününü müsəlmanların ən qəmli günü kimi yad etmək lazımdır. İllərlə belə bir fürsətin intizarını çəkən əyləşən bir neçə nəfəri müstəsna etməklə qalanları matəm içərisində olub, özləri və Islamın gələcəyi üçün nigaran idilər. O vaxt hətta bə`ziləri Peyğəmbərlik iddiası edib, Mədinəyə hücum etmək üçün fürsət gözləyirdi. Ərəbistanın qeyri-müsəlman qəbilələri və yaxud qonşu ölkələrdən bə`ziləri isə həmin fürsət pusqusunda duranlar ilə eyni məqsədi güdür, eyni fikirdə idilər.

Bu zaman adi camaatın fikirləşdiyi ən ağıllı iş ehtimal verilən iğtişaşın yaranması müqabilində sükut etmək və evlərində əyləşib heç bir cinahla əlbir olmamaq, eləcə də hər hansı bir qrup və kəsin qələbəliyinə yəqin etməyincə, başqası ilə müxalifətə qalxmamaq idi. Onlar keçmişdə ərəblər arasında baş verən daxili müharibələri hələ unutmamışdılar ki, bə`zən kiçik bir örüş və qoruq üzərində bir-birləri ilə illərlə belə müharibə aparırdılar.

Bu ərəfədə Mədinə əhalisi sərgərdan qalmışdı. Onların çoxu Peyğəmbəri-Əkrəm (s)-in vəfatına inana bilmir, hətta o həzrətin vəfat etməyini inkar edirdilər. Bu mövqe fürsət axtaranların öz böyük siyasi məqsədlərinə çatması üçün əlverişli bir fürsət idi, xüsusilə, onlar öncədən belə bir fikri həyata keçirmək istəyirdilər.

Onlardan başqa, müsəlmanlardan heç biri inana bilmirdi ki, bə`ziləri Peyğəmbər (s)-in pak cəsədini qüslsüz-kəfənsiz qoyub, hakimiyyətə çatmaları üçün bey`ət almaq və səs toplamaq ardınca olsunlar. Hətta onlar belə məqsədlər üzrə çalışan hər bir kəsin rüsvayçılıq, xəcalət və uğursuzluqdan başqa bir şey qazanmayacağını düşünürdülər. Bundan əlavə, o dövrün xalqı elə də uzaqgörən deyildi ki, gizli hərəkatları arayıb, onların qarşısını almaq üçün müəyyən bir qərar qəbul etsinlər.

Əhli-beyt (ə)-ın məqam və mənzilətini tanıyanlar da bə`zilərinin onları xar edib, məqam və vəzifələrini qəsb edəcəyini ağıllarına belə gətirmirdilər.[1]

Yə`qubi yazır: “Əbu Bəkrlə bey`ət qalmaqalı qızışdıqda, Bərra ibn Azib heyrət və təəccüblə haşimilərin yanına gedib “Əbu Bəkrlə bey`ət olundu!” – dedikdə, onlar cavab verib dedilər “Müsəlmanlar bizsiz bu işi tutmazlar. Biz, Mühəmmədə (s) daha yaxınıq!” Abbas isə əlavə edərək dedi: “Kə`bənin Allahına and olsun ki, bu işi gördülər!”[2]

Ibn Əbil-Hədid yazır: “Səqifə” günündə Əlinin qohumlarından biri onun şə`nində bir şe`r oxudu ki, onun tərcüməsi belədir: “Heç vaxt fikirləşmirdim ki, ümmətin rəhbərliyini haşimilərdən və imam Əbül-Həsəndən alsınlar...!”[3]

---

[1] Əbu Qühafə (Əbu Bəkrin atası) öz oğlu Əbu Bəkrin xəlifə olmasına inana bilmirди, o, Əbu Bəkrin ona yazdığı məktubun cavabında isə belə yazmışdı: “Sənin yazdığın məktubunu axmaqcasına hesab etdim. Bə`zən deyirsən ki, Allahın xəlifəsiyəm! Bə`zən deyirsən ki, Onun Peyğəmbərinin xəlifəsiyəm! Bə`zən də deyirsən ki, xalq məni xəlifə seçmişdir! Belə işlərdən əl чək və haqqı sahibinə qaytar! (“Səqifeye səxifə”, Ibn Həcərin “Əs-səvaiqul-muhriqə” kitabından nəqlən. )

[2] “Tarixi Yə`qubi”, 2-ci cild, səh. 123-124.

[3] “Şərhi Nəhcül-bəlağə”, 6-cı cild, səh. 21.

Imam Əli ibn Əbi Talib (ə) isə özü buyurmuşdur: "Allaha and olsun! Mən heç vaxt fikirləşməzdim ki, ərəblər xilafəti Peyğəmbərin (s) Əhli-beytindən alsın və yaxud məni ondan çəkindirsinlər!"[1]

## PEYĞƏMBƏR (S)-İN ƏMRİNİN LƏĞV OLUNMASI İDDİASI

Peyğəmbər (s)-in vəfatından sonra baş verən hadisələrin çoxu şiə müxalifləri tərəfindən qələmə alındığı, eləcə də tarixçilərin əksəriyyəti xəlifələrlə əlaqədə olduğu və onların əmrləri ilə oturub-durduğu üçün dəqiq bilmək olmur ki, Peyğəmbər (s)-in vəfatından sonra xilafəti qəsb edənlər öz rəftarlarını necə izah etdilər və camaata nə dedilər?! Görəsən, doğrudanmı camaat "Qədir-Xum"da imam Əli (ə)-la bey`əti yaddan çıxarmışdılar?! Onlar özlərinə deyə bilmirdilər ki, o bey`əti nə üçün pozdular?! Axı ərəblər öz əhd və bey`ətlərini hər şeydən üstün tuturdular?! Görəsən, "Səqifə"də iştirak edənlərin bə`zisi "Qədir-Xum"da Əli ibn Əbi Taliblə (ə) bey`ət edən ilk kəslərdən deyildimi?! Belə isə, necə oldu ki, onlar camaat qarşısında öz əməl və rəftarlarını qanunauyğun qələmə verdikdə, camaat da onun Peyğəmbər (s)-in tövsiyəsi ilə zidd olduğuna irad tutmadılar?! Ənsar qrupu nə fikirləşir və gördükləri işin müqabilində bəhanələri nə idi?!

Şübhəsiz, "Qədir" günündən Peyğəmbər (s)-in vəfat etdiyi vaxta qədər bə`ziləri Əli ibn Əbi Talib (ə)-ın xilafətə çatmaması üçün gecə-gündüz yorulmadan zəmin hazırlamağa çalışmış, bu haqda başqa-başqa qruplarla gizli danışıqlar aparmışdılar. Bununla belə, Peyğəmbəri-Əkrəm (s) vəfat etdikdə, camaatdan bə`zisi, hətta Əbu Bəkrlə bey`ət edənlər də güman etmirdilər ki, onunla bey`ət etməyin mə`nası Əli (ə)-ın xilafət məqamını qəsb etmək deməkdir. Bəlkə də onlara elə başa salmışdılar ki, "Qədir-Xum" hadisəsindəki əhd-peymana sadiq qalmaq vacib deyil, yaxud bu gün Əbu Bəkrlə bey`ət etməklə "Qədir-Xum" əhd-peymanı pozulmur. Belə ki, seçilmiş xəlifənin işi həqiqətdə yalnız Islam qanununu icra etməkdir. Buna əsasən, camaatın mə`nəvi rəhbəri və siyasi işləri öhdəsinə alan kəs başqasıdır.

Lakin Peyğəmbər (s)-in vəfatından sonra həqiqətdə "Qədir-Xum" peymanını pozmaqda bəhanə o həzrətin buyruğunun ləğv olunmasını iddia etmək idi. Yə`ni Əbu Bəkr və Ömərin iddiasına görə, Peyğəmbər (s) ömrünün son anlarında kürəkəni Əli ibn Əbi Talib (ə)-ın xilafətini ləğv etmiş və hökumət işlərini ümmətdən olan başqa birisinə tapşırmışdır.

Əban ibn Əyyaş imam Baqir (ə)-ın belə buyurduğunu nəql etmişdir:

"Biz Əhli-beyt Qüreyş tayfasının zülmündən və bizim əleyhimizə qarşı əlbir olmaqlarından nələr görməmişik! Həmçinin dostlarımız və şiələrimiz də nələr görməmişlər! Peyğəmbər (s) dünyadan gedərkən bizim haqqımızda nələr buyurmamışdı? O, bizə itaət etməyi əmr, bizi sevməyi vacib etmiş və camaata xəbər vermişdi ki, biz onların özünə özlərindən də artıq ixtiyar sahibiyik. Hətta bu sözü eşidənlərə qayibdə olanlara çatdıracaqlarını buyurmuşdu.

Lakin onlar əlbir olub, Əlinin (ə) əleyhinə qalxdılar. O həzrət onların müqabilində Peyğəmbər (s)-in onun haqqında buyurduqları və camaatın da

[1] "Nəhcül-bəlağə", Məhəmməd Əbdüh, 62-ci məktub. (Misir xalqına məktub. )

eşitdiklərini dəlil gətirsə də, onlar dedilər: "(Ya Əli!) Düz deyirsən. Peyğəmbər belə buyurmuşdu, lakin sonradan onu ləğv edərək buyurdu: "Biz bir Əhli-beytik ki, Allah-taala bizi əziz tutmuş, dünyanı bizə əta etməyi istəməmişdir (və onu bizə pisləmişdir). Allah-taala həm nübüvvəti, həm də xilafəti bizim üçün cəm etməmişdir.

Dörd nəfər bu sözün doğruluğuna şəhadət verdilər... Həfsənin atası, Əbu Übeydə, Məaz ibn Cəbəl və Əbi Hüzeyfənin Salim qulu! Onlar həqiqəti yozdular, məsələni onlara həqiqət kimi cilvələndirdilər, onları geri oturtdular, xilafəti Allahın qərar verdiyi yerdən çıxartdılar..."[1]

Məhz bu güman üzündən sonradan Peyğəmbər (s)-in kürəkəni və qızı ənsardan kömək istədikdə, onlar dedilər: "Ey Peyğəmbərin qızı! Artıq iş-işdən keçmiş, biz o kişi ilə bey`ət etmişik! Əgər sənin əmin oğlu (Əli) onunla bey`ət etməzdən qabaq bizdən bey`ət istəsəydi, ondan başqası ilə bey`ət etməzdik." Əli isə onların cavabında buyurdu: "Peyğəmbər (s)-in cənazəsini evində qüslsüz, kəfənsiz, namazsız və dəfnsiz qoyub, evdən çıxmalı və camaatla birgə hökumət işləri ilə məşğul olmalı idimmi?!"[2]

Sanki onlar Əli ibn Əbi Talib (ə)-ın mə`nəvi məqamına e`tiqad bəslədikləri halda, başqasına səs vermiş və artıq öz səslərini geri götürə bilməmişdilər!

Həqiqət budur ki, bu gün əsrlər keçdikdən sonra hələ də mə`lum deyil ki, Qədir-Xumda iştirak edənlər "Səqifə" günü nə fikirləşirdilər?! Bəlkə də bə`zilərini bu yozumla, bə`zilərini başqa yozumla, bə`zilərini hədələməklə, bəzilərini isə rüşvət ilə razı salmışdılar. Lakin Mədinə əhalisinin Səqifədən sonra düşüncəsiz işləri göstərir ki, onları aldatmaq Səqifə yığıncağını təşkil edənlər üçün çox da çətin bir iş olmamışdır. Hər halda, onlara belə başa salmışdılar ki, bu işlər (Əbu Bəkrlə bey`ət və s.) Peyğəmbər (s)-in göstərişinə əsasən yerinə yetirilir.

Izzuddin Əbu Hamid Mö`təzili yazır: "Mən qəbul edə bilmirdim ki, yaşlı səhabələr Əli (ə)-ın xilafəti haqda Peyğəmbər (s)-in göstərişi ilə müxalifət etsinlər. Buna görə də ustadım Əbu Cə`fər Nəqib ləqəbi ilə tanınan Yəhya ibn Əbi Zübeydin yanına gedib, Əlinin fəzilətləri haqda danışdım və tə`kid etdim ki, gördüyünüz kimi, bu məsələ ilə bağlı hədislər Əlinin xilafətini açıq-aydın sübut edir. Belə isə, Peyğəmbər (s)-in səhabələri hansı bəhanə ilə o həzrətin Əli barəsindəki göstərişini inkar etdilər?

Əbu Cə`fər (bir neçə məsələyə işarə etdi və o cümlədən) dedi: "Sadəlövh camaat böyük səhabələrin qəti qərar və səslə Əlini xilafətdən kənarlaşdığını gördükdə, elə güman etdilər ki, onların bu işi mütləq Peyğəmbər (s) tərəfindən xüsusi göstərişə əsaslanır, onlar isə bundan xəbərsizdir və Həzrət gizli şəkildə göstəriş verərək, Əlinin xilafəti ilə bağlı keçmiş tövsiyələrini qüvvədən salmışdır. Xüsusilə, Əbu Bəkrin nəql etdiyi rəvayətlə, elə təsəvvür etdilər ki, onlar öz rəhbərlərini seçməkdə tam azaddırlar. Belə ki, Əbu Bəkr, Peyğəmbər (s)-in belə buyurduğunu demişdir: "Əl-əimmətu min Qüreyş!" (Imamlar Qüreyş tayfasındandırlar.) Bununla, camaat elə güman etdi ki, xalqın rəhbərliyini öhdəsinə

---

[1] "Əsrari Ali-Mühəmməd", səh. 276-277; "Səqifeyi-səxifə", səh. 114-116.

[2] Bax: "Şərhi Nəhcül-bəlağə", Ibn Əbil-Hədid, xütbə: 66.

götürən kəsin – kim olursa, olsun – Qüreyş tayfasından olması kifayətdir. Camaat öz-özünə belə deyirdi: "Onlar Peyğəmbərin hədəf və məqsədlərini bizdən yaxşı bildikləri üçün o həzrətin Əlinin xilafəti haqda xüsusi göstərişinə qarşı çıxmağın müqabilində müqavimət göstərmədilər." Bu məsələnin tə`kidinə səbəb olan Peyğəmbər (ə)-dən nəql olunan bu hədis idi: "Müsəlmanların yaxşı güman etdikləri hər bir şeyi Allah da rəva bilir!" Həmçinin öz-özünə dedilər ki, Peyğəmbər yenə buyurmuşdur: "Allahdan ümmətimi azğınlıqda bir yerə toplaşmamasını istədikdə, O, bu istəyi məndən qəbul etdi!" Bəli, bu məsələlər səbəb oldu ki, camaat Əbu Bəkrin bey`ətinə çağıranlara qarşı xoşbin olsun!"[1]

O, söhbətinin davamında deyir:

"Onlar Peyğəmbərin (Əli haqda) göstərişini inkar etmədi, əksinə yozdular. Dəlil və bəhanələri də bu idi ki, camaata belə dedilər: "Biz bu gün Peyğəmbərin olmadığı bir dövrdə yaşayırıq, səhnədə hazır olanlar da elə məsələrdən xəbərdardırlar ki, həmin səhnədən uzaq olanlar onu bilmirlər. Bə`zən səhnədə hazır olmayan şəxsin göstərişi – mövcud vəziyyətdən xəbərdar və səhnədə hazır olmadığı üçün – müəyyən bir məsləhət üzündən icra olunmur. Həmin məsləhət isə onların iddiasına görə, ənsar qrupunun fitnəsi idi ki, əgər onun qarşısı alınmasaydı, onlar hökuməti ələ keçirəcək, bu zaman ərəb qəbilələri arasında böyük ixtilaf düşəcək və yersiz qanlar axıdılacaqdı. (Çünki ənsar qrupu mühacirlərin Mədinədən çıxmasına çalışırdılar ki, mühacirlərin ənsarla keçmiş ədavət və kin-küdurətləri müharibəyə səbəb olmasın.)"

Həmçinin deyirdilər: "(Bizim Peyğəmbər (s)-in buyruğu ilə müxalifətimizin səbəbi budur ki,) əgər biz Əlini xəlifə seçsəydik, camaat Islamdan keçmiş cahiliyyətə qaydıb mürtəd olacaqdılar. Məgər ümmətin mürtədliyinə səbəb olan Peyğəmbər əmrinin icra edilməsi üçün mühüm bir əsası – dinin qorunub-saxlanılmasını itirməyimiz rəvadırmı?! Belə isə, yaxşı olar ki, Peyğəmbərin göstərişi ilə müxalif olsa belə, daha böyük məsləhətə əməl edək." (Beləliklə, bə`ziləri (Ömər) üçün belə yozumlarla Peyğəmbərin göstərişini kənara qoymaq elə də çətin deyildi!) O, hətta Peyğəmbərin öz yanında göstərişlərinə qarşı çıxmağa adət etmişdi. Necə ki, "Hüdeybiyyə" sülhündə və o həzrətin Abdullah ibn Übeyyin cənazəsinə namaz qılması ilə müxalifət etmişdi. Hər şeydən mühüm isə onun Peyğəmbərin ömrünün son anlarında vəsiyyətini yazmaq üçün kağız-qələm istəməsi qarşısında müxalifətidir... Bu müxalifətlər yolu kələcək işlər üçün asanlaşdırırdı. Görəsən, artıq Peyğəmbərin söz və rəftarı üçün imtiyaz və fəzilət qalmışdımı (ki, gələcək müxalifətlər camaatın müqaviməti ilə üzləşsin)?! Peyğəmbərin hüzurunda onun göstərişinə itaət etməyən kəs işi o yerə çatdırır ki, artıq bə`ziləri ondan tərəfdarlıq edərək "kağız-qələmə ehtiyac yoxdur!" – deyir və bununla da e`tiraz səslərini susdurur. Görəsən, belə cür`ətli bir şəxs öz nəzərində tutduğu məsləhətə əməl edərək Peyğəmbərin göstərişini bir kənara qoyub, Əbu Bəkrlə bey`ət edə bilməzmi?! Camaat Peyğəmbərin Əlinin haqqında buyurduğu hədisini Ömərə xatırladıqda, o deyirdi: "Peyğəmbər ömrünün son anlarında Əbu Bəkri camaat namazı qılmaq üçün məscidə

[1] Yenə orada, 12-ci cild, səh. 86.

göndərməsi Əlinin hakimiyyəti ilə bağlı keçmişdə dediyi sözünü qüvvədən salıb ləğv etməsinə bir dəlildir."[1]

Burada yüksək əhəmiyyət daşıyan və camaatın onun haqda fikirləşməsi layiq olan məsələ aşağıdakı sualdır:

"Mö`təbər mənbələrə əsasən, Əli ibn Əbi Talibin (ə) canişinlik və rəhbərliyi məsələsi təqribən iyirmi il öncə (Məkkədə "inzar" günü) Peyğəmbərin öz qəbiləsinin ə`yan-əşraflarını Islama də`vət etdiyi vaxtda açıqlandığını fərz etsək də, bu, gələcəkdə də zamanın keçməsi ilə dəfələrlə yenidən təkrarlanmış və nəhayət, Qədir-Xumda rəsmiləşmişdir. Belə isə, necə ola bilər ki, bu qədər tədbirlər və iyirmi il üzərində sərmayə qoyulan bir məsələ Peyğəmbərin vəfatı zamanı o həzrət tərəfindən bir saatdan az bir vaxtda qüvvədən düşüb ləğv olunsun?! Belə bir siyasətin Peyğəmbərə (s) nisbət verilməsi ən pis hörmətsizlik və töhmət sayılmırmı?!

## IMAMIN QƏRARININ INTIZARINDA

Qüdrətli cinahın əlbir olması və mühacirlərin nüfuzu ilə xilafət məqamı qəsb edilib, Əbu Bəkrin dərhal xilafətə çatmasından sonra Əhli-beyt (ə)-ın tərəfdar və dostlarının çoxu Əli ibn Əbi Talib (ə)-ın qərarına göz dikdilər. Lakin o həzrəti təzyiq altında və səbir etməyə mə`mur olunduğunu gördükdə, hər bir nəticə əldə etməkdən naümid olub, sükut etdilər və məsələni ciddi şəkildə davam etmədilər. Bu mövqe hökuməti Əhli-beytin məqamına hörmətsiz etməyə daha da cür`ətləndirdi, yavaş-yavaş iş elə bir yerə gəlib çatdı ki, Əli ibn Əbi Talibin (ə) haqqından danışmaq günah sayılırdı. Məhz buna görə də Bəşir ibn Sə`d Ənsari o həzrətin dəlil və sübutlarını eşitdikdə, dedi: "Ya Əbəl-Həsən! Əgər camaat bu sözləri bundan qabaq eşitsəydilər, heç kim sənin barəndə ixtilaf etməz və hamı səninlə bey`ət edərdi. Lakin sən evdə oturduğun üçün camaat elə güman etdi ki, sənin xilafətə ehtiyacın yoxdur!"

Digər tərəfdən isə haşimilər və Əli ibn Əbi Talibin (ə) tərəfdarları elə bilirdilər ki, qeyri-haşimilər tərəfindən xilafət məqamının qəsb ediləcəyi təqdirdə, haşimilər öz haqqını ala biləcəklər.[2] Buna görə də hökuməti ələ keçirmək istəyənlərin sə`y və çalışmalarından çox da nigaran deyildilər.

## ƏLI IBN ƏBI TALIBƏ (Ə) QARŞI PAXILLIQ VƏ KIN-KÜDURƏT

Camaatın Əmirəlmö`minin əli ibn Əbi Talib (ə)-ın haqqının tapdalanması müqabilində sükut etməsinin ən mühüm dəlillərindən biri ərəb qəbilələrinin, xüsusilə Qüreyş tayfası və bə`zi mühacirlərin o həzrətə qarşı paxıllıq, həsəd və kin-küdurət bəsləmələri idi. Ərəb qəbilələrin adəti bu idi ki, əgər onların qəbiləsindən bir

---

[1] Yenə orada, səh. 87.

[2] "Tarixul-üməm vəl-müluk", 2-ci cild, səh. 235; "Əl-kamilu fit-tarix", 2-ci cild, səh. 327; "Tarixi Yə`qubi", 2-ci cild, səh. 114, Nəcəfin "Məktəbətul-heydəriyyə" çapı; "Əl-imamətu vəs-siyasət", səh. 10-11 ("Siyahtərin həfteyi tarix" kitabından nəqlən).

kəs öldürülsəydi, onların özü və onlarla əhd-peyman bağlayanlar qatil qəbilədən intiqam almalıydılar, hərçənd, bu cahil adət-ən`ənə Islamdan sonra mahiyyətini əldən versə də, əsər-əlaməti hələ də qalırdı. Neçə illər sonra Peyğəmbər (s)-in tə`lim-tərbiyəsi və ümumi düşüncələrin nisbi genişlənməsi nəticəsində belə intiqamlara zəmin qalmırdı. Lakin ürəklərdə ədavət və kin-küdurət soyulmamışdı. Çünki qəbilələrin çoxu Peyğəmbərlə müharibə etmiş, onlardan bə`ziləri Əlinin (ə), yaxud haşimilərin vasitəsilə öldürülmüşdülər.

Digər tərəfdən də qədim dövrlərdən Məkkə qibələləri, xüsusilə Qüreyş tayfası Haşimin nəvələrinə və onların mə`nəvi kamal xüsusiyyətlərinə qarşı həsəd aparır, onların yüksək ictimai mövqe qazandıqları üçün nigaranlıq hissi keçirir, onlardan bu məqam və mənzilətin aradan getməsi üçün günləri sayırdılar. Nəhayət, onların qəbilə təəssübləri şö`lələnib, ədavət, həsəd və paxıllıqlarını göstərdilər və bununla da onlar öz arzularına çatdılar.

Bilazəri yazır: "Ənsar qrupundan olan Hübbab ibn Münzər "Səqifə" günü demişdi: "Biz müharibələrdə mühacirlərin ata-babalarını öldürdüyümüz üçün onlar bizdən qisas alacaqlar." Ənsar, mühacirlərin ata-babalarının öldürdükləri üçün onlardan qorxu keçirdikləri halda, Peyğəmbərin kürəkəni Əli ibn əbi Talib isə Qüreyş tayfasının ən sərt rəftarlarının intizarını çəkməli idi. Çünki "Bədr" müharibəsində Qüreyşdən ölənlərin yarısı onun vasitəsilə qətlə yetirilmişdilər."

Izzuddin Əbu Hamid Mö`təzili yazır:

"Bir gün Allahın Peyğəmbəri əli ilə Əlinin çiyninə vurub ağladı və buyurdu: "Bir tayfanın ürəklərində qalan kin-küdurətlərə ağlayıram. Onlar mən ölənə qədər səndən bunu gizlədəcəklər!"[1]

Ibn Cərir Təbəri yazır: "Bir gün Ömər ibn Xəttab, Ibn Abbasa belə dedi: "Bilirsənmi ki, sənin atan Peyğəmbərin əmisi, özün isə onun əmisi oğlu ola-ola, nə üçün Qüreyş tayfası sizdən tərəfdarlıq etmədi?... Çünki Qüreyş tayfası həm nübüvvət, həm də xilafətin hər ikisinin sizin xanədanınızın ixtiyarında olmasını və bununla da qürur və şadlıq hissi keçirməyinizi istəmirdilər."[2]

Bunu deyən kəs camaatın Əli ibn Əbi Talibə (ə) qarşı pislik etməsini çox yaxşı bilirdi. Elə buna görə də üzünü Ibn Abbasa tutub deyir: "Əmin oğlu Əli xilafətə daha layiq olsa da, Qüreyş tayfası ona tabe olmayacaq. Əgər o, camaata xəlifə olsa, onları haqq-ədalətə doğru yönəldəcək, lakin bu zaman (camaatın gizli narazılıqları səbəb olacaq ki,) onunla bey`əti pozub, müharibə edəcəklər."[3]

---

[1] "Şərhi Nəhcül-bəlağə", 4-cü cild, səh. 107. Ibn Əsakir yazır: "Həzrət бu cümləni bəyan etdikdən sonra Əli soruşdu: "Ey Allahın Rəsulu! O zaman mənim vəzifəm nədir?" Peyğəmbər buyurdu: "Səbir et. " Əli dedi: "Əgər səbir edə bilməsəm, nə olacaq?" Həzrət buyurdu: "Zəhmət və əzab-əziyyətə düşəcəksən. " ("Tarixu mədinəti Dəməşq", imam Əlinin (ə) tərcümeyi-halı, 2-ci cild, səh. 325; "Kənzül-ümmal", 13-cü cild, səh. 176. )

[2] "Əl-kamilu fit-tarix", 3-cü cild, səh. 105; "Tarixul-ümən vəl-müluk" (tərcümə), 5-ci cild, səh. 2061; "Şərhi Nəhcül-bəlağə", Ibn Əbil-Hədid, 12-ci cild, səh. 53.

[3] "Şərhi Nəhcül-bəlağə", 2-ci cild, səh. 137. Aydın göründüyü kimi, bu söz siyasi rəftarı yozmaqdan çox bəhanədir. Şübhəsiz, əgər qəbilə başçıları dünyəvi məqsədlərdən uzaq olsaydılar, camaat səbəbsiz yerə Əli ibn Əbi Talibdən (ə) kənarlaşmazdılar.

Həqiqətdə, ərəb qəbilələri Peyğəmbəri-Əkrəm (s)-in də rəftarına çox çətinliklə dözüb tab gətirdilər. Bə`zi qəbilə başçıları açıq şəkildə e`tiraf edərək deyirdilər: "(Ya Mühəmməd!) Qüdrət sənin əlində olduğu üçün sənə iman gətirəcəyik; bu şərtlə ki, özündən sonra bizdən bir nəfəri xəlifə seçəsən!"[1]

Məkkənin fəthindən sonra zahirdə Islamı qəbul edən müşriklər zəifləyib gücsüz və qüdrətsiz olduqlarından Peyəğəmbər (s)-lə müharibədən əl çəkdilər. Bir tərəfdən o həzrətin şövkət və əzəməti, məqam və mənziləti onları təslimə vadar etdi. Digər tərəfdən isə həsəd, paxıllıq, ədavət və kin-küdurət onların içini yandırırdı. Həqiqətdə onlar Peyğəmbər (s)-ə qarşı olan ədavət və kin-küdurətlərini Əli ibn Əbi Talibə (ə) hesablaşdılar.

Peyğəmbəri-Əkrəm (s) elə bir hökumət qurmuşdu ki, onlar onu əldə etməyi arzu edirdilər. Buna görə də təbii olaraq bu məqsədin həyata keçməsini onun üçün hazırladılar. O həzrət vəfat etdikdən sonra qızıl fürsəti əldən vermədən tez bir vaxtda, hətta Peyğəmbər (s)-in cəsədinə qüsl vermədən xilafəti ələ keçirməli idilər, hərçənd, o həzrətin qızı Fatimənin (ə.s) evinə hücumla tamamlansa belə!

Əli ibn Əbi Talib (ə) bunu təsdiq edərək buyurmuşdur:

"...Ərəblər Mühəmməd (s)-in işini bəyənmir və Allahın ona əta etdiklərinə qarşı həsəd edirdilər... Onlar elə o həzrətin dövründən çalışdılar ki, o həzrətin vəfatından sonra işi Əhli-beytin ixtiyarından alsınlar. Əgər Qüreyş onun adını özləri üçün hakimiyyət vəsiləsi qərar verməsəydi və özlərinin tərəqqi nərdivanı bilməsəydilər, hətta o həzrətin vəfatından bir gün sonra belə, Allaha pərəstiş etməz, küfr və mürtədliyə qayıdardılar."[2]

Onlar imam Əlinin (ə) qardaşı Əqilə belə bir məzmunda məktub yazırlar: "Qoy, Qüreyş gücləri çatacaq qədər azğınlıq və (ümmət arasında) ixtilaf yaratmaqda irəliləsinlər. Bu gün camaat qardaşınla müharibə etməyə əlbir olduqları kimi, keçmişdə də Peyğəmbər (s)-ə qarşı müharibədə əlbir olmuşdular."

Ibn Abbas əməvilər sülaləsinin Əli ibn Əbi Talibi (ə) söyməyin səbəbi haqda yazır: "Əməvilər sülaləsi həqiqətdə Əliyə nalayiq və yaramaz sözlər deməklə Peyğəmbəri-Əkrəm (s)-ə qarşı nalayiq sözlə deyirdilər. Çünki Peyğəmbər (s) buyurmuşdu ki, Əliyə nalayiq söz deyən kəs, həqiqətdə mənə nalayiq söz demişdir."[3] Lakin Peyğəmbərdən sonra hakimiyyəti ələ keçirdikdən sonra o həzrətin yerinə Əliyə (ə) nalayiq və yaramaz sözlər deməyə başladılar.

Peyğəmbər (s) bütün Qüreyşin və Məkkə müşriklərinin hiylə və tədbirlərinə mə`ruz qalmadı. Mədinədə o həzrətin əleyhinə dəfələrlə qoşun yürüdülsə də, Bəni-Haşim tayfası həmişə Qüreyş qəbiləsinə qələbə çalırdı. Düşmənlər onun Peyğəmbərliyi ilə qarşılaşa bilmədiklərini başa düşdükdə, məcbur olub risalət və Peyğəmbərliyini qəbul etdilər, haşimilərə qarşı ədavət, həsəd və kin-küdurətlərini

---

[1] "Tarixul-üməm vəl-müluk", 2-ci cild, səh. 84; "Əs-sirətul-hələbiyyə", 2-ci cild, səh. 3; "Əs-sirətun-nəbəviyyə", 2-ci cild, səh. 66.

[2] "Şərhi Nəhcül-bəlağə", Ibn Əbil-Hədid, 2-ci cild, səh. 298.

[3] "Müsnədi-Əhməd", , 7-ci cild, səh. 455; "Əs-səvaiqul-muhriqə", səh. 123; "Əl-müstədrəkü ələs-səhiheyn", 3-cü cild, səh. 130; "Məcməüz-zəvaid", 9-cu cild, səh. 130; "Kənzül-ümmal", 11-ci cild, səh. 602.

söndürdülər. Lakin o həzrət vəfat etdikdən sonra o həzrətin Peyğəmbərlik şövkətini göstərən xilafət məqamının haşimilərin ixtiyarında olmasına heç bir vəchlə razılıq vermədilər.[1]

Əbdül-Həmid Mədayni Mö`təzili, Əbu Cə`fər Nəqibin sözlərini qeyd etdikdən sonra bir neçə incə nöqtəyə işarə edirərək, Əli (ə)-ın müxaliflərinin çirkin məqsədlərini ifşa edir. O yazır:

"Bir qrup, ərəblərdən bə`zilərinin Əliyə qarşı həsədini, bə`zilərinin ondan intiqam və qisas alma hissini, bə`zilərinin onun cavanlığını bəhanə etdiklərini, bə`zilərinin Əlinin onlardan üstün olduğunu istəməsini, bə`zilərinin həm Peyğəmbərlik, həm də xilafət məqamının bir tayfaya məxsus olduğunu qəbul edə bilmədiklərini, bə`zilərinin onun dini işlərdə ciddi iltizamlı olduğundan qorxduğunu, bə`zilərinin isə xilafətin bir tayfaya məxsus olmayıb, ərəb qəbilələri arasında dövr etməsi və onun hamıya qismət olduğunu düşünməsini nəzərə alaraq, onların Əliyə itaət etməycəklərini güman edirdilər. Bə`ziləri də onunla düşmənliyinə görə hökumət və xilafətinə razılıq vermədilər. Bu düşmənlik onun Peyğəmbərlə qohum olması üzündən idi. Bu qruplar içərisində əvvəldən Peyğəmbərliyə e`tiqad bəsləməyən münafiqlər bir-birləri ilə əlbir olub xilafəti Əlidən almaq və onu başqasına vermək istəyirdilər. Onların tanınmış şəxsiyyətləri dedilər: "Biz fitnə-fəsadın baş verəcəyindən qorxub, xilafəti ondan aldıq və bilirdik ki, ərəblər ona itaət etməyəcək."[2]

O, başqa bir yerdə isə belə yazır:

"Camaatın Peyğəmbər (s)-in Əli (ə)-ın xilafət və rəhbərliyi haqda açıq-aşkar buyruğunu inkar edənlərin müqabilində sükut etmələrinin səbəbi onların həmin vaxtlarda müxtəlif fikirlərdə olması idi. Onların bə`zisi Əlinin düşmən və rəqibləri kimi tanınırdı ki, Əlinin xilafətdən kənarlaşmasına sevinir və bunu özləri üçün gözaydınlığı bilirdi."[3]

Təcrübə göstərdiyi kimi, zaman ötüb-keçdikcə həsəd, ədavət və kin-küdurət şö`lələri sönür və bir nəsildən sonra daxili çəkişmələr unudulur. Lakin maraqlıdır ki, bu qanun Əli ibn Əbi Talib haqda icra olunmadı; zaman keçsə də, həsəd, paxıllıq, kin-küdurət və ədavət şö`lələri əsla sönmədi."[4]

Ibn Abbas, Osmanın dediyi "Əgər xilafət sizin haqqınız idisə, bunu sizdən mənimsəyən elə öz qövmünüz idi!" – sözünə cavab verərək deyir: "Allaha and olsun ki, o qövmün xilafəti bizdən mənimsəməsinin səbəbi həsəd və kin-küdurətləri idi və sən bunu yaxşı bilirsən!"[5]

---

[1] "Bərrəsiye nəzəriyyeye ədaləte səhabə", səh. 281-282.

[2] "Şərhi Nəhcül-bəlağə", 12-ci cild, səh. 86. ("Siyahtərin həfteye tarix", kitabından nəqlən, azacıq fərqlə. )

[3] Yenə orada.

[4] Yenə orada, 6-cı cild, səh. 23-45.

[5] "Əxbarul-müvəffəqiyyat", səh. 605-606.

Əli ibn Əbi Talib (ə) Xüzeymət ibn Sabitə buyurmuşdu: "..Görürsənmi ki, Allah-taalanın elmdən mənə əta etdiklərinə qarşı necə paxıllıq edirlər?!"[1] Məhz bu məsələlər üzündən Əli (ə) dəfələrlə Peyğəmbər (s)-in yanında şikayət edirdi.[2]

"Səqifə" yığıncağında və ondan neçə illər sonra imam Əli ibn Əbi Talibin (ə) xilafətdən kənarlaşdırılması üçün yaşının az olması ən mühüm bəhanə kimi yad edilirdi. Həqiqət isə budur ki, bunun əsas səbəbi onların qəlblərindəki həsəd, kin-küdurət idi və yaşlı bir şəxsin rəhbər olmasını əsas götürmək bəhanədən başqa bir şey deyildi.

Təbərsi yazır: "Əbu Bəkr atası Əbu Qühafəyə məktub yazıb, xəlifə olmasını və Mədinəyə gəlməsini bildirdikdə, Əbu Qühafə məktubu gətirən qasidə dedi: "Necə oldu ki, Əlidən üz döndərdiniz?" O dedi: "Onun yaşı azdır, Əbu Bəkr isə ondan yaşlıdır, həm də ki, Qüreyşin böyüklərinin və başqa qəbilə başçılarının çoxunu qətlə yetirmişdir." Əbu Qühafə dedi: "Əgər xilafətdə yaş əsas götürülürsə, onda mən buna oğlumdan daha layiqəm! Sözsüz, Əliyə zülm etdilər. Halbuki Allahın Peyğəmbəri onunla bey`ət etmiş və bizdən də bey`ət almışdı!"[3]

Onların arasındakı söhbətin ən mühüm nöqtəsi budur ki, qasidin Əbu Qühafənin cavabında Əlinin yaşının az olduğunu dəlil gətirsə də, dərhal sonra ərəblərin o həzrətə qarşı ədavət və kin-küdurətlərini açıqlayır.

Həqiqətdə görəsən, həmin günlərdə kimlər bu bəhanə və dəlilin nə qədər puç və məntiqsiz olduğunu düşünürdülər? Buna diqqət yetirirdilərmi ki, Peyğəmbəri-Əkrəm (s) dəfələrlə Əliyə (ə) elə azyaşlı vaxtında xüsusi işləri tapşırırdı?! O həzrətin digər yaşlı və məşhur səhabələr ola-ola Əlini (ə) Yəmən xalqına qazı göndərməsi, müharibələrdə sərkərdə tə`yin etməsi, "Bəraət" surəsini çatdırması, "Xeybər" qalasını fəth etməyə göndərməsini və s. yozmaqmı olar?!

## ƏNSARIN MƏQSƏDI

Ənsar qrupunun rəftarı və Əhli-beyti (ə) himayə etməməsinin səbəbi ilə bağlı bir neçə məsələyə diqqət yetirmək zəruridir:

1. Bu gün ("Səqifə" yığıncağından on dörd əsr keçdikdən sonra) bizə gəlib çatan tarixi sənədlərdə Peyğəmbər (s)-in yerinə canişin tə`yin etmək üçün yığıncaq təşkil edən ilk qrupun "mühacir"lər deyir, "ənsar" olduğu göstərilir. Halbuki həmin hadisənin əsl mənbəsi ikinci xəlifənin sözləridir. Onun özü mühacirlərdən olduğu üçün ənsar haqda dedikləri də qəbul edilmir. Bundan əlavə, bir sıra şahidlər göstərir ki, ənsar qrupunun Peyğəmbər (s)-in canişinliyi ilə bağlı ciddi danışıqları mühacirlərin məclisə daxil olduqları zaman başlandı.

Rəvayətlərdən belə başa düşülür ki, Sə`d ibn Übadənin evi "Səqifə"nin yaxılığında olmuşdur. Çünki "Səqifə" yığıncağından sonra bir neçə nəfər onu çiyninə götürüb, yavaşca evinə apardılar. Ənsarın mövqe və ruhiyyəsi ilə daha uyğun gələn

---

[1] "Şəvahidut-tənzil", 1-ci cild, səh. 144.

[2] Yenə orada, səh. 145, "Müsnədi-Əhməd", kitabından nəqlən.

[3] "Əl-ehticac", səh. 252.

məsələ budur ki, ehtimala görə, həmin gün ənsardan bir neçə nəfər Sə`din görüşünə getmiş, elə orada da kimsə Peyğəmbər (s)-in vəfatını ona xəbər vermiş və Sə`d də onun görüşünə gələnlərə Mədinənin mövcud vəziyyəti və Islamın gələcəyi haqda müzakirə aparmağı məsləhət görmüşdür. Belə bir siyasi mövqedə hər bir ictimai şəxsin bir neçə nəfərlə keçmiş və gələcək hadisələrlə bağlı söhbət etməsi təbiidir.

Heç bir tarixçi ikinci xəlifənin vasitəsilə nəql olunmuş hadisəni səbəbsiz və dəlilsiz yerə ənsarı xilafəti ələ keçirmək üçün sadə bir yığıncağı təşkil etməklə ittihamlandırmamışdır. Lakin bu hadisə ənsarın müxalifləri və "Səqifə" iştirakçılarının vasitəsilə bəyan olduğu, xəlifələrin təbliğat vəsilələri ilə yayıldığı, eləcə də müxalif və ziddiyyətli rəvayətlərə diqqət yetirilmədiyi üçün gələcək nəsil onu ənsar qrupunun, xüsusilə Sə`d ibn Übadənin xilafət və hökuməti ələ keçirməkdə nəfsi istəkləri üzündən yaranan bir hadisə kimi qələmə vermişlər.[1] Inkar etmək olmaz ki, ənsar dəstəsinin adi görüşünü siyasi görüş kimi göstərən ən mühüm amil o üç nəfər mühacirin ənsar dəstəsinə qoşulması idi. Onlar cəmiyyəti istədikləri səmtə doğru yönəldib, istədikləri qədər bəhrələndilər. Sonra elə bir iş gördülər ki, sanki xilafəti ələ keçirmək uğrunda çalışan ilk qrup ənsar olmuş, mühacirlər isə ənsarın fitnə-fəsad törədəcəklərindən qorxub "Səqifə" yığıncağının təşkil olunmasına razılıq vermişlər.[2]

Hər halda, mühacirlərə kömək etməyə razılıq verən ənsarın sülməramlı rəftarından başa düşülür ki, onlar ilk yığıncaqda xilafəti ələ keçirmək qərarında olmamışlar. Bə`zi tədqiqatçıların yazdığına görə, ənsar Peyğəmbər (s)-in təşkil etdiyi siyasi qurumun dağılmamasını ehtimal verib, özlərinin bir yerə toplaşması ilə qüdrəti ələ almaq istəyir və elə güman edirdilər ki, mühacirlərin Mədinədə qalmamalarına dair qənaətbəxş dəlilləri olmayacaq, bununla da Məkkəyə qayıdacaq və Mədinədə də qalmaq istəyənlər ehtimal üzrə ənsarın hakimiyyətini qəbul edəcəklər.[3]

2. Bu təhlillərdən əlavə, öncə işarə etdiyimiz kimi, daha çox "Səqifə" yığıncağının "Ovs" qəbələsinə mənsub olan iştirakçılarından bir neçə nəfərin yığıncaqda iştirak etməkdə məqsədləri Əli ibn Əbi Talibin (ə) hakimiyyətə çatmasının qarşısını almaq idi. Onlardan "Ovs" qəbiləsinin sərkərdəsi Üseyd ibn Həziri misal göstərmək olar. O, ənsar dəstəsindən olsa da, sonrakı mövqeyi ilə göstərdi ki, məqam və vəzifə düşkünü və Peyğəmbərin Əhli-beytinin düşməni olan mühacirlərin gizli köməkçi və dostlarından, xəlifəyə ilk bey`ət edənlərdən, Əli ibn Əbi Talib (ə) və digər haşimilərdən bey`ət almaq üçün Fatimeyi-Zəhra (ə.s)-ın evinə hücum çəkənlərdən olmuşdur.

Ikitərəfli casus rolunu oynayan bu bir neçə nəfəri müstəsna etməklə əqidələri süst olan, xilafət və rəhbərliyə çatmaq istəyən digər şəxslər də həsəd, yaxud rəqabət

---

[1] Sə`d ibn Übadə və Peyğəmbəri-Əkrəm (s)-in onun haqda nəzəri ilə tanış olmaq istəyənlər bu kitablara müraciət etsinlər: "Ət-təbəqatul-kubra", 3-cü cild, 2-ci bölüm, səh. 143, Bril çapı; "Usdul-ğabə" 2-ci cild, səh. 284.

[2] "Bərrəsiye nəzəriyyeye ədaləti səhabə" kitabından iqtibas edilmişdir (səh. 297-298).

[3] "Canişiniye həzrət Mühəmməd (s)", səh. 51.

üzündən Əli (ə)-ın rəhbərliyinə razı deyildilər. Bə`ziləri isə sonradan qeyd edəcəyimiz dəlillər üzündən o həzrətlə müxalif idilər.

Onlardan başqa, qalan şəxslər Peyğəmbərin (s) imam Əli (ə) haqda buyruqlarını tapdalamaq məqsədilə deyil, yalnız mühacirlərin qüdrətə çatmasının qarşısını almaq üçün "Səqifə" yığıncağında iştirak etdilər. Onların içərisində də bə`ziləri Əli (ə)-a e`tiqad və məhəbbət bəsləməklə yanaşı, o həzrətin hakimiyyətə çatmasını həqiqətdə mühacirlərin gələcək hökuməti üçün ilk arddım hesab edirdilər. Ənsarın siyasi təfəkkür və təcrübəsi olmasa da, heç olmazsa, bu qədər düşünə bilirdilər ki, qüdrətlilər Əhli-beytdən olan şəxsin hökumətinin davam etməsinə imkan verməyəcəklər. Tez, ya gec Əhli-beytin istəyi ilə qurulan ədalətli hökumət dağılacaq və hakimiyyəti elə kəslər ələ alacaq ki, nə dinə, nə də ənsar qrupuna dəyər-qiymət verməyəcəklər.

Bə`zi mühacirlərin Qədir-Xumdan Mədinəyə qədər gizili hərəkətləri, Üsamənin ordusunda iştirak etməkdən boyun qaçırmaq və s. rəftarları ənsarın diqqətindən yayınmırdı. Onlar qabaqcadan bilirdilər ki, hökumət Peyğəmbərin (s) kürəkəni Əli ibn Əbi Talibə (s) çatmayacaqdır.

Peyğəmbəri-Əkrəm (s)-in vəsiyyətinin yazılmasının qarşısının alınmasından sonra cəmiyyətin çoxu artıq başa düşdü ki, Əli ibn Əbi Talibin (ə) rəhbərliyi ilə müxalifət məsələsi doğrudan da ciddidir. Çünki onlar düşünürdülər ki, Peyğəmbər (s)-in yaşadığı dövrdə hörmətsizliklə Əli (ə)-la düşmənliyə israr edənlər, sözsüz, o həzrətdən sonra daha asanlıqla onunla ədavət, düşmənlik və müxalifətə qalxa biləcəklər. Onların Peyğəmbər (s)-in evindəki rəftarı hamını təəccübləndirmişdi. O vaxta qədər məqsədləri və kimin himayə edəcəkləri bəlli olmayanlar tanındı və mə`lum oldu ki, bə`ziləri Əhli-beytlə müxalifətə qalxmaq üçün bir-birləri ilə əlbir olmuşlar.

3. Mühacir və ənsarın "Səqifə"dəki müzakirələrindən açıq-aydın başa düşülür ki, ənsar qrupu mühacirlərdə yaxşı və mülayim davranırmışlar. Məhz bu səbəbdən də rəhbərdən söz düşdükdə, xilafəti mühacirlərin iştirakı ilə öz öhdələrinə götürməyə razılıq verdilər. Onlar xilafət və rəhbərliyi müsəlmanlara hakim kəsilmək və zor tətbiq etmək kimi izah etmir, məqsədləri mühacirlərin hökmranlığı ilə onlara dəyəcək zərəri dəf etmək idi.

4. Ənsarın mühacirlərdən qoxusunun bir neçə səbəbi vardı ki, onlardan biri Peyğəmbəri-Əkrəm (s)-in xəbərdarlığına əsaslanırdı. Belə ki, Peyğəmbər (s)-in müşriklərlə apardığı səkkiz il davam edən müharibələrin nəticəsində Qüreyş tayfası Mədinə əhalisi tərəfindən ağır zərbələrə mə`ruz qalmışdı. Ondan qabaq isə ənsarın Peyğəmbər (s) və Islamı müdafiə etmək məqsədilə qəbul etdikləri "İkinci Əqəbə" adlı əhd-peymanı məkkəlilərin mədinəlilərə qarşı kin-küdurətinə səbəb olmuşdu. Çünki müsəlmanların Mədinəyə hicrəti və nəticədə Mədinənin Islam hökumətinin mərkəzinə çevrilməsi həmin əhd-peymandan sonra baş verdi. Ənsar Peyğəmbər (s)-i qəbul etməklə yanaşı elə bir kəsi də himayə edirdilər ki, o, ərəblərə ağır zərbələr endirmiş, rahatlıq və aramlığı onlardan almışdı. Hətta ona qarşı o qədər qəzəbli idilər ki, onu öldürmək üçün dişlərini belə qıcıtmışdalır!

Həm mühacir, həm də qeyri-mühacir məkkəlilər ənsara qarşı ədavət və kin-küdurət şö`lələrini söndürmək üçün münasib fürsət gözləsələr də, Peyğəmbər (s)-in həyatında buna zəmin yaranmadı. Buna görə də "Ovs" və "Xəzrəc" qəbiləsindən ənsar həmişə Peyğəmbər (s)-in həyatda olmadığı və məkkəlilərin onlardan intiqam almalarından qorxur, Sə`d ibn Übadənin Məkkənin fəthi günü "Bu gün intiqam günüdür!" – deyə fəryad etdiklərini hələ unutmamışdılar. Ənsar yaxşı bilirdi ki, tez, ya gec Məkkənin qəbilə başçıları onlardan qisas alacaq. Bu qorxu Hübbab ibn Münzəri "Səqifə"də mühacirlərə belə deməyə məcbur etdi: "Mən bundan qorxuram ki, əgər bu iş (hökumət) sizin əlinizlə möhkəmlənsə, keçmiş ədavət və kin-küdurətlər üzündən bizimlə müharibəyə qalxacaqsınız."[1]

O, Səqifədən çıxanda yoldaşlarına belə deyirmiş: "Bir gün dediklərimin şahidi olacaqsınız. Allaha and olsun! Elə bil, o günü görürəm ki, sizin övladlarınız onların evlərinin qapısına sarı əl uzadır, onlar isə sizə bir içim suyu mənimsəyirlər!" Bu zaman Əbu Bəkr ona belə deyir: "Doğrudan da bizdən bu qədər qorxursunuz?" Hübbab deyir: "Səndən əsla qorxmuruq, səndən sonra hakimiyyətə gələndən kəsdən isə qorxuruq!"[2]

Ibn Qüteybə yazır: "Həmin məclisdə Hübbab, Əbu Bəkrə dedi: "Səndən sonra (xilafətə) elə bir kəs gələcək ki, bizə zülmü dadızdıracaq!"[3]

Ibn Əbil-Hədid yazır: "Gələcək hadisələr Hübbabın uzaqgörənliyini isbat etdi. Əməvi sülaləsi hakimiyyətə gəldikdə, Mədinəyə hücum çəkərək ("Hirrə" hadisəsi) elə cinayətlər törətdilər ki, qələm onları yazmağa xəcalət çəkir!"[4]

Ənsar qrupu xilafətin tez bir zamanda əsl mehvərindən çıxıb, onlara nəinki üstünlük verməyən, üstəlik onları daha da işkəncəyə mə`ruz qoyan bir sıra şəxslərin əlinə keçdiyini bildikdən sonra sakit qalmağı məsləhət bilmədilər, tezliklə "xilafəti öhdəsinə alan müxaliflərini xilafətdən kənarlaşdırmaq"la əlaqədar məclis təşkil etsələr də, bu, rəqiblərinə daha çox kömək edirdi.

Bütün bunlardan əlavə, onların keçmişdəki təsəllibəxş rəftarları həyəcanlı vicdanını sakitləşdirirdi. Belə ki, onlar keçmişdə Islamın genişlənib hər tərəfə yayılmasında böyük rol ifa etdikləri üçün xilafət məqamını zəhmətləri müqabilində bir mükafat kimi bilir, buna görə də özlərini günahkar hesab etmirdilər.

---

[1] "Ənsabul-əşraf", 1-ci cild, səh. 528, hədis: 1177. Ənsardan birinin belə dediyi də nəql olunmuşdur: "Biz ondan qorxuruq ki, sizdən sonra elə kəslər haikimyyətə gəlsinlər ki, biz onların övlad və qardaşlarını öldürmüşük!" ("Ət-təbəqatul-kubra", 3-cü cild, 1-ci bölmə, səh. 129, "Liden" çapı. )

[2] "Siyahtərin həfteyi tarix", səh. 386. Doğrusu, görəsən, Hübbab, Əbu Bəkrdən sonra Ömərin xilafətə çatıb, onları чəмиjjəтин ən aşağı təbəqəsində qərar verdiyini bilirdimi?

Tarixçilər belə yazırlar: "Ikinci xəlifə "Bədr" müharibəsində ənsar qrupundan iştirak edənlərə dörd min dirhəm, Əbu Süfyan kimi Məkkənin fəthindən sonra Islamı zahirdə qəbul edən nifaq və şirk başçılarına beş min dirhəm maaş ayırmışdı!" (Tarixi Yə`qubi", 2-ci cild, səh. 153; "Şərhi Nəhcül-bəlağə", Ibn Əbil-Hədid, 8-ci cild, səh. 109-111. )

[3] "Əl-imamətu vəs-siyasət", 1-ci cild, səh. 10.

[4] "Şərhi Nəhcül-bəlağə", Ibn Əbil-Hədid, 2-ci cild, səh. 53. Ömər və Osmanın xilafəti dövründə də ənsara heç bir vəzifə verilmədi.

Bizim əqidəmizə görə, bu bəhanə vicdan əzabını aradan qaldırmaq üçün elə də əsassız deyildir. Lakin həqiqət budur ki, əgər onlar (xəlifə seçməkdə) tələsməyib, hamılıqla Peyğəmbər (s)-in göstərişinə əməl etsəydilər, heç bir hadisə baş verməyəcək, ümumi səadət, əmin-amanlıq və təhlükəsizlik tə`min ediləcəkdi.[1]

Əllamə Müzəffər bu məsələ haqda yazır:

"Bu amillər bə`zən adi ruhiyyəli insanları öz meyllərini icra etmək üçün qane edir... və şəfqəti hislərin tə`sirindən onlara ilham olunan istəklərinin düzgün olduğuna inanararaq, bu istək və meyllərin hidayəti uğrunda saçan ən aydın haqq nurunun və bu yolda nəfsani ilhamlarının fəsad və yanlış olduğunu bildirən dəlilin görünməməsinə səbəb olur."[2]

## PEYĞƏMBƏR (S)-IN ƏNSAR QRUPUNA XƏBƏRDARLIĞI

Qeyd edilənlərdən əlavə, Peyğəmbər (s)-in ənsar qrupunun gələcəyi ilə bağlı buyruğu və uzaqgörənliyi onların mühacirdən qorxmalarının ən mühüm amillərindən sayılır. Lakin o həzrətin buyruğunda məqsəd bu deyildi ki, onlar Səqifədə məclis təşkil etsinlər. Peyğəmbər (s)-in onlar barəsindəki buyruğu belədir:

"Tezliklə məndən sonra kənara qoyulacaqsınız və başqaları sizdən irəli keçəcəklər (sizi müharibə qənimətləri, hökumət və vəzifədən məhrum edəcəklər). (Bu zaman) qiyamət günü "Kövsər" hovuzunun kənarında mənə qovuşana qədər səbirli olun![3] Başqaları irəliləyəcək, ənsar isə tənəzzül edəcək, hətta duz kimi yeyiləcəklər. Hər kəs onların işlərini öhdəsinə götürsə, yaxşılarını qəbul etsin, pislərini isə bağışlasın!"[4]

## BIRINCI HÖKMDARIN HAKIMIYYƏTININ TƏSBIT EDILMƏSI

Həqiqətdə camaatın "Səqifə"də məclis təşkil olunduğu ilk günlərdəki sükutu ilə sonrakı zamanlar arasında fərq azdır. Ilk günlərdə deyilən amillərdən əlavə, camaatı qorxu və vəhşətə salan amili unutmaq olmaz. Peyğəmbər (s) öz həyatında bə`zilərinin hörmətsizlik və nalayiq rəftarlarının qarşısını ala bilmədiyi vaxtdan qılınc ilə o həzrətin ölümünün inkar edildiyi, sonra isə Bəni-Əsləm tayfasının hücumu nəticəsində xəlifə ilə bey`ətin qəti olduğu vaxta qədər camaat qorxu və qılınc kölgəsindən başqa bir şey görmədilər. Hökumət müxalifləri açıq-aşkar məhkum, dövrün ən şərəfli şəxsinin məqam və mənziləti təhqir edilirdi. Bu zaman adi camaatdan hər kim canını azacıq belə istəsəydi, ən ağıllı iş sakit qalmaq idi.

Qabaqda qeyd edilənlərə əsasən, Peyğəmbər (s)-dən sonra baş verən hadisələr əksərən tarix kitablarında təhrif edilib dəyişdirilmiş, ya da bə`zi mətləblər qələmə

[1] Bu nöqtə həzrət Fatimənin (ə. s) buyruğunda açıq-aydın görünür. ("Bəlağatun-nisa", səh. 23. )
[2] "Əsrari Səqifə", səh. 141.
[3] "Səhihi Buxari", 2-ci cild, səh. 207.
[4] "Ət-təbəqatul-kubra", 2-ci cild, səh. 374-376.

alınmamış və məzhəbi əqidələr, baxışlar və siyasi hakimiyyət tarixçiləri hadisələri yanlış yazmağa vadar etmişdir. Onlar o dövrün ümumi düşüncələrini təhlil edərək yazırlar: "Xalqın əməl və rəftarı göstərir ki, Əli ibn Əbi Talib (ə) ümumxalq kütləsinin düşüncəsində möhkəm yer tutmadığından başqalarına məhəbbət bəsləyərək onları Əliyə üstünlük vermişlər."

Bütün tarixi təhlillərdən əlavə, bu nəzərin rəddi ilə əlaqədar bir nöqtəni qeyd etməklə kifayətlənirik ki, birinci xəlifə ilə müxaliflər arasındakı müharibədə Əli ibn Əbi Talib (ə)-ın razılığı cəlb olunmadığı vaxta qədər heç kim hökuməti himayə edərək müxaliflərlə döyüşə başlamadı.[1] Bilazəri yazır: "Camaat dəstə-dəstə müxalif qüvvələrlə mübarizə etmək üçün yola düşdüyü vaxtda Əli (çarəsizlikdən) Əbu Bəkrlə bey`ət etdi."[2]

Elə ilk günlərdə hökumətlə üz-üzə duran Malik ibn Nüveyrə kimi şəxslər qətlə yetirildi və Fücaə kimilər Mədinə məscidində diri-diri yandırıldı. Bu hadisə o qədər rüsvayçı və dəhşətli idi ki, hətta Əbu Bəkr ömrünün son anlarında belə deyirdi: "Kaş, Fücaəni yandırmayaydım!"[3] "Bədr" müharibəsinin unudulmaz qəhrəmanı Hübbab ibn Münzəri öldürüb, cəsədini gizlincə dəfn etdilər.[4]

Bütün bu hadisələr birinci xəlifənin hakimiyyətə gəldiyi ilk günlərdə baş vermişdir. Sonrakı vaxtlarda isə bir neçə amil hökumətlə müxalifəti daha da şiddətləndirdi ki, bə`ziləri bundan siyasi-hərbi, bə`ziləri də əqidəvi-mədəni, yaxud sosioloji bəhrələr apardı.

## ƏQIDƏVI-MƏDƏNI AMILLƏR

**a) Risalət xanədanının səbri və sükutu**: Zaman ötüb-keçdikcə ümumcamaata, şiələrə və azadlıqsevərlərə aydın oldu ki, Əli ibn Əbi Talib (ə) inqilab etmək istəmir və Peyğəmbər (s)-in göstərişi ilə səbir etməyə üstünlük verir. Digər tərəfdən, qəbilə başçıları isə təhdid olunur və ya dünya malı ilə ələ alınırlar. Bunlar hökumətin əsasını daha da möhkəmləndirir, hakim dairənin və rəislərin istədikləri kimi rəftar etmələrinə icazə verir, müxalifəti çətinləşdirirdi.

**b) Saxta hədislər düzəltmək:** Peyğəmbəri-Əkrəm (s)-in kəlamları müəyyən qədər gələcək həqiqətləri aydınlaşdırsa da, hakim dairənin siyasəti bir sıra saxta hədislər qondarmaqla camaatı özlərinə yaxınlaşdırdı. Hal-hazırda əhli-sünnənin

---

[1] Hərçənd, Əli ibn Əbi Talib (ə)-ın Əbu Bəkrlə bey`əti müxaliflərin əleyhinə ordu göndərilərək onları susdurmaqda heç bir tə`siri olmadı. Унутmaq olmaz ki, Əbu Bəkrin hökumətinin müxalif qüvvələrlə döyüşündə məqsədi Həzrət təsdiqləmirdi. (Bu məsələ haqda Əbu Bəkrin hökuməti ilə bağlı bölümdə söz açacağıq. )

[2] "Ənsabul-əşraf", 1-ci cild, səh. 587.

[3] "Tarixul-ümən vəl-müluk", 2-ci cild, səh. 619; "Mizanul-e`tidal", 2-ci cild, səh. 215. O, mürtəd və müxalif qüvvələrin yürüşü vaxtı Əbu Bəkrdən at və silah alıb, onlarla mübarizəyə getmək istədi. Lakin atı və silahı aldıqdan sonra bu işdən üz döndərdi. Əbu Bəkrin göstərişi ilə onu tutub, diri-diri yandırdılar. ("Tarixul-ümən vəl-müluk", 3-cü cild, səh. 234; "Əl-bidayətu vən-nihayə", 6-cı cild, səh. 319. )

[4] "Şərhi Nəhcül-bəlağə", 2-ci cild, səh. 826; "Nihayətul-ərb", 4-cü cild, səh. 35; "Qamusur-rical", 4-cü cild, səh. 328.

müxtəlif hədis kitablarında Peyğəmbər (s)-dən nəql olunana yüzlərlə rəvayətdə camaata tövsiyə edilir ki, həmişə hakimlərə zülmkar olsalar da belə, tabe olsunlar.

Ərəfcədən nəql olunan məşhur bir hədisdə Peyğəmbər (s)-in belə buyurduğu göstərilir: "Tezliklə mənim vəfatımdan sonra bir sıra hadisələr... baş verəcək ki, onda hər kəs cəmiyyətin və müsəlman ümmətinin istəyini bir-birləri ilə müvafiq və bir olduqları halda ixtilaf və təfriqəyə çəkəcək. Hər kim olursa olsun, onu qılıncla vurun (öldürün)."[1]

Bu rəvayət ona bənzər rəvayətlə birgə başa salmaq istəyir ki, müsəlmanlar hətta batil yolda belə, vəhdət və birlik təşkil etdikləri halda, bir nəfər onları doğru yola yönəltməyə çalışsa, ona tabe olmayın, əksinə onu öldürün.

**v) İqtisadi mövqeyi qoruyub-saxlamaq**: Hakim dairəyə təhdid, yaxud dünya malı ilə aldanıb tabe olan səhabələr adətən, keçmişdə Ərəbistan yarımadasının uzun illər bir qurtum saf su içmək və bir qarın dolusu yemək arzunusunu çəkən bədəvi (çöl) ərəbləri idi. Onlar ikinci xəlifənin hökmü ilə ətraf nahiyələrin məhsuldar toraqları, bağları, abad şəhərlərinin hakimi, gözəl qadın və kənizlərinin sahibi olurdular.[2] Amma əgər Əli ibn Əbi Talibi (ə) himayə etsəydilər, bu iş mümkün olmayacaqdı. Məhz bu əsas üzrə hər vaxt bir kəs imam Əlini (ə) himayə etmək məqsədilə hökumətlə ciddi müxalifətə qalxırdısa, həm deyilən imkanlardan məhrum olunur, həm də adı beytül-mal alanlar səhifəsindən silinir və maaşı kəsilirdi. Yavaş-yavaş camaat başa düşürdü ki, risalət xanədanını himayə edərək xəlifə ilə müxalifətə qalxmaq nəinki heç bir nəticə vermir, üstəlik onların adi yaşayışı da dağılır. Belə isə ən yaxşı iş sükut və səbir etmək, hətta hökumətlə birgə olmaqdır.

Cövhəri yazır: "Əbu Bəkr hökumətini möhkəmləşdirdikcə, ənsar və mühacir qadınlarına pul verirdi. Bəni-Ədiyy ibn Nəccar tayfasından bir qadının payını Zeyd ibn Sabitə verdi ki, ona çatdırsın. Zeyd onun payını verdikdə, qadın "Bu nədir?" – deyə soruşduqda, Zeyd dedi: "Xəlifənin qadınlar arasında böldüyü paydır." Qadın dedi: "Dinimi rüşvətlə əlimdən almaq istəyirsiniz?!" Allaha and olsun! Ondan bir şey qəbul etməyəcəyəm." Bununla da xəlifənin göndərdiyi payı geri qaytardı.[3]

**q) Xəlifənin həyat tərzi:** Peyğəmbəri-Əkrəm (s)-lə bir vaxtda yaşayan camaat həm özlərinin, həm də rəhbərinin sadə yaşayışına adət etdiklərindən, bu xisləti hakimiyyət və rəhbərliyin ən mühüm me\`yarı kimi bilirdilər. Tərki-dünyalıq, zahidlik və qənaətə üstünlük verib, yemək-içmək və geyiminə e\`tina etməyən kəs rəhbərliyin digər şərtlərinə malik olmasaydı belə, hökumət və rəhbərliyə layiq görülürdü. Əli ibn Əbi Talib (ə) bu xislətin ən yüksək dərəcəsinə malik olsa da, öncə qeyd edilən amillərə görə, ümumxalq razılığını qazana bilmədi, başqaları isə onun az bir hissəsinə malik olduğu halda, hökuməti ələ keçirtdilər.

Ilk iki xəlifə (Əbu Bəkr və Ömər) camaatın istədiyi həmin xislətlərə malik idilər. Əhli-sünnə tədqiqatçılarından biri bu məsələ ilə bağlı yazır:

---

[1] "Səhihi Müslüm", 2-ci cild, səh. 121; "Sünəni Əbi Davud", 2-ci cild, səh. 283.

[2] "Nəqşi əimmə dər ehyaye din", 9-cu cild, səh. 75-76.

[3] "Şərhi Nəhcül-bəlağə", Ibn Əbil-Hədid, 2-ci cild, səh. 133; "Ət-təbəqatul-kubra", 2-ci cild, 2-ci bölüm, səh. 129.

"Dünya onlara (Əbu Bəkr və Ömərə) üz gətirdikdə, mal-dövləti camaat arasında böldülər, özləri isə ondan bir şey götürmədilər. Bu isə camaatın qəlbini onlara sarı yönəldib, bədgümanlarını xoşbinliyə çevirdi. Burada onlara qarşı şəkk-şübhədə olanlar öz-özünə dedilər: "Əgər onlar nəfsani istəkləri uğrunda çalışırdılarsa, Peyğəmbər (s)-in göstərişlərinə əks çıxmaz və hökumətə çatan kimi özləri üçün mal-dövlət, sərvət yığmaqla məşğul olardılar. Necə ola bilər ki, onlar həm Peyğəmbər (s)-in göstərişini, həm də dünya ləzzətini tərk etsinlər?"

Bu iş səbəb oldu ki, kimsə onların işlərinə şəkk-şübhə etməsin. Əksər adamlar onların hökumətini qanuni, düzgün hesab etdi, əməl və rəftarlarını təsdiqlədi. Burada xalq mühüm bir məsələni, yə`ni hökmranlıq ləzzətini unutmuşdular və bundan qafil idilər ki, böyük məqsəd və himmətə çatmaq istəyən yemək, içmək, sərvət və cinsi ləzzətlərdən keçirlər.

Camaatın ilk iki xəlifəni sevməsinin, bunun müqabilində isə üçüncü xəlifəyə qarşı çıxıb onu öldürməsinin səbəbi bu idi ki, Osman onların əksinə olaraq dünya və mal-dövlət düşkünü idi, özü, əhli-əyalı və qohum-əqrəbasını camaatdan üstün tuturdu. Əgər o da əvvəlki xəlifələr kimi rəftar edib, əhli-əyalını mal-dövlət yığmaqdan çəkindirsəydi və onu camaata paylasaydı, hətta qibləni Kə`bədən Beytül-Müqəddəsə tərəf döndərsəydi belə, kimsə ona irad tutmayacaq, əgər gündəlik beş namazdan birini azaltsaydı, yenə kimsə ona e`tiraz etməyəcəkdi.[1]

Bundan əlavə, camaat elə bir rəhbər istəyirdi ki, qohum-əqrəbasını, yaxınlarını onlara hakim etməsin, onlara təzyiq göstərib zor tətbiq etməsin, din və dünya işlərinidə onlara tələbkar olmasın, yaxşı və rifah içərisində yaşamalarının qarşısını almasın.

Camaat Əlinin elm, təqva və fəzilətinin nə həddə olduğunu bilməsələr də, bunu yaxşı bilirdilər ki, o, ərəb və əcəm arasında heç bir fərq qoymur, kiçik bir günahdan keçmir, kimsənin təhdidindən qorxmur, ilahi məziyyət və me`yarlardan başqa bir şeyə diqqət yetirmir. Məhz bu səbəbdən də onun hakimiyyət və rəhbərliyini qəbul etmək camaata ağır gəlirdi. Necə ki, həyat yoldaşı Fatimeyi-Zəhra (ə.s) bu haqda buyurmuşdur: "Camaatın Əli ibn Əbi Talibin (ə) öz haqqından məhrum edib, xilafətdən kənarlaşdırmasının səbəbi Həzrətin haqq yolunda işləri şiddət və möhkəm tutmasından və Allah yolunda qılıncının qüdrətindən qorxmaları idi."[2]

O vaxta qədər müsəlmanların elə də siyasi-ictimai təcrübəsi yox idi ki, rəhbərlərinin necə olduğunu – təcrübəsiz, təqvasız və dini əhkamları bilməyən bir rəhbərin dini və dindarları nə qədər əyri yola yönəldəcəyini, gələcək nəslin azğınlığını artıracağını və dinin yolunu əyriliyə sövq edəcəyini dərk etsinlər.

---

[1] "Şərhi Nəhcül-bəlağə", 12-ci cild, səh. 82-90, "Siyahtərin həfteyi tarix" kitatbından nəqlən, səh. 141-143 (azacıq fərqə).

[2] "Şərhi Nəhcül-bəlağə", 4-cü cild, səh. 78.

## SOSIOLOJI AMIL

a) Ictimai hadisələrdə kütlənin siyasi mövqeyi elə dəyişilir ki, biri bütün məziyyətlərə malik olduğu halda məhv olur, digəri isə heç bir ləyaqəti olmadan onun yerini tutaraq ucalır. Bu zaman bə`zən insanın dostları da ətrafından dağılır və onu himayə etmirlər.

Peyğəmbəri-Əkrəm (s)-in vəfatından sonra müxtəlif amillər üzündən camaatın çoxu siyasi duruma tabe olaraq o həzrətin Əhli-beytindən üz döndərdilər. Bu vəziyyət Əli ibn Əbi Talib (ə)-ın xilafəti dövrünə qədər davam etdi.

b) Birinci xəlifənin hakimiyyət və rəhbərliyi təsbit edildikdən, qəbilə rəislərinin təsdiqindən sonra müsəlmanların hökumətlə müxalifətə qalxmaq üçün yeni nəzər vermələrinə yer qalmadı. Onlar öncə müsəlmanların başına nələr gəldiyindən xəbərdar deyildi, digər tərəfdən isə bilirdilər ki, Mədinə əhalisinin Peyğəmbəri-Əkrəm (s)-lə birgə yaşadıqları üçün şübhəsiz, vəhy vasitəsilə hər gün və hər saat nazil olan yeni hökmlərdən agah olurdular. Bundan əlavə, paytaxt və mərkəzdən uzaq olan bir qəbilə rəisi üçün kimin xilafətə gələcəyi heç də maraqlı deyildi. Onu maraqlandıran əsas məsələ öz tayfasının başçılığını öhdəsində saxlaması və kiminsə onunla müxalifət etməməsi idi.

## SIYASI-HƏRBI AMIL

Birinci xəlifənin hakimiyyətinin təsbit edilməsinə zəmin yaradan millərdən biri də Mədinədə qəbilələrin onun hökumətinin əleyhinə üsyan və müxalifətləri idi. Bu müxalifətlər hər hansı məqsədi güdürdüsə də, bir baxımdan Mədinədə mərkəzi hökumətə pis nəticə bağışlamırdı. Belə ki, birinci xəlifənin onlarla mübarizəsi bilərəkdən və ya qəflət üzündən düşmənlərin sakitliyi və daxili iğtişaşla nəticələndi və o, vəhdət və birlik bəhanəsi ilə müştərək düşmənlə müharibə etmək üçün əqidəvi ixtilafları yaddan çıxartdı. Bu isə hətta risalət xanədanını hakim dairə ilə razılaşmağa vadar etdi.[1]

[1] "Mürtədlərin yürüşü" haqda gələcək bəhslərdə söz açacağıq.

# ALTINCI FƏSİL

## İMAM ƏLİ İBN ƏBU TALİB (Ə)-IN SƏBRİNİN HİKMƏTİ

### İMAM ƏLİ (Ə)-IN BEY`ƏTİ

Əbu Bəkrin hökumətinin təsbit edilməsi ilə müxaliflərdən zorla bey`ət alınmağa başlandı. Lakin Peyğəmbəri-Əkrəm (s)-in kürəkəni və əmisi oğlu Əli ibn Əbi Talib (ə) öz həyat yoldaşı Fatimeyi-Zəhra (ə.s)-ın həyatda olduğu vaxta qədər xəlifə ilə bey`ət etmədi. Həm şiə, həm də əhli-sünnə tədqiqatçılarının əqidəsinə əsasən, imam Əli (ə)-ın (Fatimeyi-Zəhra (ə.s)-ın şəhadətindən sonra) xəlifə ilə bey`əti onun öz razılığı ilə olmamışdır. Peyğəmbəri-Əkrəm (s)-in qızı Fatimeyi-Zəhra (ə.s)-in şəhadətindən sonra hökumət mə`murları imam Əli (ə)-dan, xəlifəyə bey`ət etməsini tələb etdikdə, o, bir qrup hami və tərəfdarlarının qarşısında çıxış edib, öz xüsusiyyətlərini və Peyğəmbər (s)-lə qohumluğunu bəyan etdi.. Həyat yoldaşının dəfnindən bir gün sonra xəlifə Əbu Bəkr ibn Əbi Qühafə ilə bey`ət etdi.[1] Bundan qabaq isə o həzrətin özü və Bəni-Haşim şiələrinin heç biri Əbu Bəkrlə bey`ət etməmişdilər.[2]

Beləliklə, 35-ci hicri ilinə qədər (təqribən, 25 il) Əli ibn Əbi Talib (ə) siyasi-ictimai fəaliyyətlərdən rəsmi olaraq kənarlaşdı. Lakin aşağıda qeyd edilən bir sıra dəlillərə görə, o həzrət bu müddət ərzində hökumət əleyhinə qanlı qiyam və inqilab fikrindən uzaq idi hətta başqalarının qiyamına belə, mane olurdu.

İndi isə bir neçə sual yaranır:

1. Görəsən Əbu Bəkrin hökumətinin ilk günlərində Peyğəmbər (s)-in kürəkəni Əli ibn Əbi Talib (ə)-ın son dərəcə hörmətsizlik və sərtliklə məscidə aparılıb, bey`ətə məcbur edilməsi həqiqətdirmi?

2. Görəsən, Əli ibn Əbi Talib (ə) "səqifə"də yığıncağın təşkil olunduğu gün, ondan bir həftə sonra, eləcə də sonrakı günlərdə "Qədir-Xum" hadisəsini və Peyğəmbər (s)-in yanındakı məqam və mənzilətini camaatın yadına salmadımı?[3]

---

[1] "Səhиhи-Бухари", 2-си силд, сəh. 186; "Əс-сəваигул-муhригə", сəh. 9.

[2] Əлбəттə, сонра геуд едəсəуик ки, Шеух Мüфидин уаздығына əсасəн, имам Əли (ə) уашадығы вахтда Əбу Бəкрлə əсла беу`əт етмəмишдир. Бу мəсəлə илə бағлы китабларда уазалынлар геури-шиə мəнбəлəриндəн əхз едилмишдир.

[3] "Шəhи Нəhсüл-бəлағə", Ибн Əбил-Һəдид, 11-си силд, сəh. 111-112.

Bir çox şiə və sünnü tədqiqatçıları Əli ibn Əbi Talib (ə)-dan sərtlik və hörmətsizliklə bey`ət alınmasını qeyd etsələr də, bə`zi yazıçılarımız isə çox təəssüflə, belə yazmışlar:

"Bə`zi sadəlövh adamlar çalışmışlar ki, Əli (ə)-ın məzlumluğunu göstərmək üçün umumi məsələlərə əl atsınlar; yə`ni o həzrəti zorla çəkib aparmaq, əmmaməsini boğazına bağlayıb küçələrdə gəzdirmək!... İmam Əli (ə)-ın məzlumluğunu bu şəkildə göstərmək ağılasığmaz bir iş olmaqdan əlavə, həm də o həzrətin həqiqi şəxsiyyətini kiçiltmək deməkdir. Mə`murların o həzrəti bu şəkildə, yə`ni zorla məscidə aparıb, onunla sərt davranmaları qeyri-mümkündür.

Bu cür sənəd düzəldənlər bu qədər də düşünə bilməyiblər ki, Peyğəmbər (s)-dən sonra yeni qurulmuş hökumətin hər şeydən öncə səbata, müxaliflərin və xam kütlənsiin cəzbolunmasını ehtiyac duyulduğu həssas çağlarında, eləcə də o qədər çətinliklərlə yanaşı, sözsüz, siyasi, hərbi və təhlükəsizlik baxımından onların bu güclü qüdrətə söykənmələri və belə sərtliyə əl atmaları asan olmadığı və qeyri-mümkün bir iş olduğu kimi, bu, heç bir vəchlə məsləhət üzündən də deyildi.[1] Bəlkə də demək olar ki, Əli (ə) Fatimeyi-Zəhra (ə.s)-ın evində öz tərəfdarları müqabilində məs`uliyyət hissi keçirir, başqalarının həyatını xilas etmək, dost və səhabələrinə dəyə biləcək zərərin qarşısını almaq məqsədilə mə`murlara qoşulub, xəlifənin yanına getmişdir."[2]

Bu təhlilə əsasən, belə nəzərə çarpır ki, hökumət mə`murları sanki Əli (ə)-ı məscidə gözəl rəftarla aparmış, sonra isə şirini və meyvə ilə o həzrəti qarşılamışlar! Əgər Əli ibn Əbi Talib (ə)-ın xəlifəyə bey`ətini belə izah etsək, onda hökumət məmurlarının həzrət Fatimeyi-Zəhra (ə.s)-ın evinə hücum çəkməsini, onun bətnindəki körpənin şəhadətini kökündən inkar etməliyik. Halbuki, gələcək bəhslərdə əhli-sünnə mənbələrinə istinad edərək, İslam tarixində bunun inkar edilməz bir məsələ olduğunu qeyd edəcəyik.

Biz isə Əli ibn Əbi Talib (ə)-dan bey`ətin alınması hadisəsinin daha da kəskin olduğunu, əmmamənin boğazına bağlanılıb küçələrdə gəzdirilməsini demirik, lakin həm şiə, həm də sünnülərin mö`təbər mənbələrinə əsasən, o həzrətdən zorla və sərtliklə bey`ət alınmışdır.[3] Tarixdə ən insafsız şəxs kimi göstərilən Müaviyə ibn Əbi

---

[1] Һәзрәт Фатимеуи-Зәһра (ә. с)-ын евинә һүсум чәкмәуин сәбәбләри илә бағлы мәсәләдә геуд едәсәуик ки, Әли (ә)-ын мүхалифләри һәмин ҝүнләрдә һөкумәтин сәбаты вә горунуб-сахланылмасыны диггәт мәркәзиндә сахладыгларына бахмауараг, мүһарибә вә ихтилафлар васитәсилә Ислам гурилушунун арадан ҝетмәсиндән дә әсла горху һисси кечирмирдиләр.

[2] "Тәһлили бәр мәвазеи сиуасиуе Әли ибн Әби Талиб (ә)", Әсҝәр Гаидан, сәһ. 86.

[3] "Шәрһи Нәһсүл-бәлағә", Ибн Әбил-Һәдид, 2-си силд, сәһ. 604 "Әнсабул-әшраф", 1-си силд, сәһ. 587; "Әл-ихтисас", сәһ. 11; "Хисал", 12-си бөлүм, сәһ. 462; "Әш-шафи", 3-сү силд, сәһ. 244; "Әл-мәсләку фи үсулид-дин", сәһ. 260; "Кәшфүл-мүрад", Әлламә Һилли, сәһ. 377, 5-си мәгсәд, 6-сы мәсәлә; "Елмүл-уәгин", 2-си силд, сәһ. 687, 14-сү бөлүм, 20-си фәсил, 3-сү мәгсәд; "Әл-мүрасиат", сәһ. 84; "Исбатул-вәсиууә", сәһ. 122; "Тәфсири Әууаши", 2-си силд, сәһ. 67 вә 307.

Тарихчиләр һадисәнин белә баш вердиуинин геури-мүмкүн олдуғуну геуд етмәси вә она інанаплары садәләвһ адландырмалары узаг нәзәрә ҝәлир.

Süfyanın imam Əli ibn Əbi Talib (ə)-a məktubunda isə belə yazılır: "Xilafət mə`murları səni cilovlanmış tüğyançı dəvə kimi, çəkə-çəkə bey`ətə apardılar."[1]

## SÜLH YOX, SƏBİR VƏ DÖZÜM!

Bə`zi tarixçilər imam Əli ibn Əbi Talib (ə)-ın 25 il səbir edib dözdüyü vaxtda baş verən hadisələri izah edərək demişlər ki, o həzrət bu müddət ərzindədə xəlifələrlə sülh bağlamış və onlarla həmişə həmkarlıq etmişdir. Bu izah siyasətçilərin səliqəsinə görə, imam Əli (ə)-ın rəftar və davranışını ən gözəl şəkildə təhlil etsə də, onu şiə rəvayətləri təsdiqləmir. Əks halda o həzrətin qiyam və inqilabı nəticəsində İslam və müsəlmanlara bərpa olunmaz xəsarət, zərbə dəyər, ümmət arasında ixtilaf və təfriqə düşər, nəhayət, o həzrət hətta günün yarısı qədər belə, onların hökumətinə dözə bilməzdi. Buna əsasən, Əli ibn Əbi Talib (ə)-ı dövrün hökmdarlarının rəftarı müqabilində səbir və dözümə vadar edən şey məhz, inqilabı şəraitin mövcud olmaması idi. Bunun isə əsas amilləri aşağıdakılardan ibarətdir:

1. Müsəlmanlar arasında ixtilaf və təfriqənin yaranmasından qorxmaq;
2. Qüreyş tayfasının İmama qarşı həsəd, ədavət və kin-küdurət bəsləməsi;
3. Xalqın cahillik təfəkkürləri;
4. Xalq tərəfindən İmamın hökumətinə dözümsüzlük hissi;
5. Səhabələrin azlığı.

### 1. İXTİLAF VƏ TƏFRİQƏDƏN QORXMAQ

Əvvəldə qeyd etdiyimiz kimi, Əbu Bəkrin hökumətinin təsbit edilməsinin amillərindən biri də Mədinənin ətraf nahiyələrində onun hökumətin əleyhinə baş verən geniş miqyaslı müxalifətlər idi. Bu müxalifət və yürüşlər daxildəki qüvvələri fikir birliyinə məcbur edir və mərkəzi dövlətin qüdrətini gücləndirirdi.

Peyğəmbəri-Əkrəm (s)-in vəfatından sonra İslam cəmiyyəti və risalət xanədanı qəribə böhranlarla üzləşdi. Xilafət və hökmranlığı ələ almaq üçün müsəlmanlar arasında daxili müharibə odunun hər an şö`lələnməsi, İslam cəmiyyətinin dağılması, yenicə müsəlman olmuş ərəb qəbilələrinin cahiliyyət və bütpərəstlik dövrünə qayıtması ehtimalı verilirdi.

Peyğəmbəri-Əkrəm (s)-in vəfat xəbəri hər yerə yayıldıqda, yeni müsəlman olmuş ərəb qəbilələrinin bir dəstəsi keçmiş dinlərinə qayıdıb, mürtəd olur və küfr bayrağını qaldırdılar. Digər tərəfdən də mühacir və ənsar qrupları söz birliyini və vəhdətini itirdilər. Nəcd və Yəmamə şəhərlərində, eləcə də Mədinənin ətrafında Müseyləmə kimi bir neçə nəfər də peyğəmbərlik iddiası etdilər. Müseyləmə ətrafına qırx min döyüşçü topladı ki, Mədinəyə hücum etməklə oranı yerlə yeksan etsin.

[1] "Шəрһи-Нəһсүл-бəлағə", Ибн Əбил-Һəдид, 15-си силд, сəh. 186; "Игдул-Фəрид", 4-сү силд, сəh. 335; "Сүбһүл-ə`ша", 1-си силд, сəh. 228 (Имамын Мүавиуəуə савабы, 28-си мəктуб).

Ибн Əбил-Һəдид уазыр: "Əлини елə бир һалда мəссидə апардылар ки, ɡетмəк истəмирди. Лакин Халид ибн Вəлид вə онун уанындакылар ону чəкə-чəкə, белинə уумруг вура-вура мəссидə апардылар. (Шəрһи Нəһсүл-бəлағə", 2-си силд, сəh. 56-57. )

Əgər onun ordusu Mədinəyə çatsaydı, hamıdan qabaq Peyğəmbər (s)-in xanədanını qətlə yetirəcək və beləlilkə, peyğəmbərlik və nübuvvət əlamətlərini məhv edəcəkdi.

Bəni-Teym tayfasından da Səccac adlı bir qadın peyğəmbərlik iddiası etməklə bir neçə nəfəri ətrafına yığdı. Nö`man ibn Münzər kimi bir neçəsi dindən çıxaraq Bəhreyndə başına tac qoyub padşahlıq iddiası, Ləqit ibn Malik (Zut-Tac) isə Omanda qiyam etdi.

İslam əqidəsinin hələ qəlblərə nüfuz etmədiyi, kor-koranə təqlidlərin, avam adət-ən`ənələrin hələ beyinlərdən çıxmadığı bir vaxtda, hər bir daxili çaxnaşma, ixtilaf və təfriqə müsəlmanların dağılmasına, bir çoxlarının şirk və bütpərəstliyə dönməsinə səbəb ola bilərdi. Daxili müharibə, yaxud hər bir kiçik qanlı hərəkat Mədinənin daxili və xaricində partlayış yaradardı. Bu dövrlərdə nadan ərəb qəbilələri intiqam almaqda və kin-küdurətdə dillər əzbəri olmuşdular. Ərəblərin cahiliyyət tarixində kiçik hadisələrin ardınca həmişə böyük hadisələrin baş verildiyinin səbəbi onların heç vaxt qisas və intiqamçılıq fikrindən dönməmələri olmuşdur.[1]

Belə bir böhranlı vəziyyətdə, bir gün Osman ibn Əffan Peyğəmbər (s)-in əmisi oğlu Əli ibn Əbi Talib (ə)-ın yanına gedib dedi: "Görürsənmi vəziyyət necədir?! Əgər (xəlifəyə) bey`ət etməsən, İslam ciddi təhlükə ilə üzləşəcək!" Bundan sonra o həzrət İslamı qoruyub-saxlamaq üçün bey`ətə razılaşdı, bununla da Əbu Bəkr Mədinədən ətraf nahiyələrə ordu göndərdi.[2]

Əli ibn Əbi Talib (ə) bu məsələ ilə əlaqədar buyurmuşdur:

**"Allaha and olsun! Fikrimdən belə keçmirdi ki, ərəblər Allahın Rəsulundan sonra xilafəti onun Əhli-beytindən başqa birinə həvalə edərək, onu məndən əsirgəyəcəklər. Camaatın bey`ət etmək üçün filankəsə tərəf tələsmələrindən başqa bir şey məni, narahat etmədi. Buna görə də əl saxladım, nəticədə camaatın bir dəstəsinin dindən dönərək mürtəd olduqlarını və İslamdan qayıdaraq Mühəmməd (s)-in dinini məhv etmək istədiklərini gördüm. Qorxdum ki, İslam və müsəlmanların köməyinə tələsməsəm, onda nöqsan və dağıntı görərəm ki, onun müsibət və kədəri mənə nəticəsi ilğım kimi yoxa çıxan və ya bulud kimi səpələnən, bir neçə günlük müvəqqəti mal olan hakimlik və vilayəti əldən çıxarmaqdan daha ağır olar. Buna görə də həmin hadisə və dağıdıcı hərəkətlərin arasında ayağa qalxıb müsəlmanlara yardım etdim ki, batil, əyrilik və təxribatların qarşısı alınsın, sakitlik İslamın ağuşuna qayıtsın!"**[3]

Beləliklə, Əli ibn Əbi Talib (ə) öz haqqını almaq, İslamın əsasını qoruyub-saxlamaqla bağlı iki yolayrıcında qərar tutaraq öz mövqeyini unutdu, Peyğəmbər (s)-in gətirdiyi dini qoruyub-saxlamaq üçün sükut etdi.[4]

Əbu Süfyan, həzrət Əli ibn Əbi Talib (ə)-ı qiyama çağırdıqda, Həzrət ona buyurdu: "Allaha and olsun ki, sən fitnə-fəsad törətməkdən başqa bir məqsəd

---

[1] "Фүруği-вилауәт", səh. 153 вə 162.

[2] Әлбәттә, сонра геуд едәсәуик ки, имам Әли (ə)-ын Әбу Бәкрә беу`әт етмәси шиә нөгтеуи-нәзәриндән гәти bir məsələ деуилдир.

[3] "Нəhсüл-бəлağə", 62-си мәктуб.

[4] "Фүруği-вилауәт", səh. 165.

güdmürsən! Təkcə bu gün fitnə-fəsad odu yandırmaq istəyində deyilsən, dəfələrlə müsəlmanların arasında şər qaldırmaq fikrində olmusan. Mənim sənin köməyinə ehtiyacım yoxdur!"

Beləliklə, imam Əli (ə) cihad və müharibə meydanlarında öz qanı, qılıncı və himməti ilə möhkəmləndirdiyi, öz övladından daha əziz bildiyi İslam dininin aradan getməməsi üçün öz haqqından keçdi. Az müddət öncə Peyğəmbəri-Əkrəm (s) ölüm yatağında olarkən, Əliyə (ə) itaət etməyi ümməti vəsiyyət etmək istədikdə, buna imkan verilmədi. O həzrət vəsi və canişinini müdafiə etmək və ümmətin azğınlığının qarşısını almaq məqsədilə ən ağır hörmətsizliklərə dözdü. Bu gün isə Əli ibn Əbi Talib (ə) ağrı-acılara dözməklə Peyğəmbər (s)-in 23 illik zəhmətinin məhsulunu qoruyub-saxlamalı idi.

Əli ibn Əbi Talib (ə) İslamın kökünə zərər və təhlükələrin dəyməməsi, ifratyönlü, şüur, düşüncəyə yad hərəkatların İslam cəmiyyətinin birliyini dağıtmaması üçün çalışırdı. Məhz bu səbəbdən də o həzrəti himayə etmək məqsədilə ifrat fikirlərlə çıxış edən bə`zi səhabələri bundan çəkindirir və İslam birliyinin dağılmamasını onlara xatırladırdı. Bu baxımdan imam Əli (ə)-ın vücudunu xəlifələr hökuməti üçün bir qənimət hesab etmək olar.

İmam hamıdan yaxşı bilirdi ki, fitnələr dəryasında dözmək, bu fitnələrdə qurucu və yaradıcı amilləri ölçüb-biçməklə irəliləmək lazımdır, sonra isə müəyyən mövqedən çıxış etməyi ağıllı və məsləhət üzrə görür, bunu nəticəsiz və tələsik hərəkətə üstünlük verirdi. Məgər özünün haqq olduğunu bilən şəxs necə olursa olsun, haqqını almaq üçün mütləq qiyammı etməlidir? Əsla! Belə isə, şəkk-şübhə etmədən deməliyik ki, Əli ibn Əbi Talib (ə)-ın belə bir mövqedə durmasına səbəb olan yeganə amil camaatın onu himayə etməməsi olmuşdur.

Müsəlmanların zahiri bağlılıqları Peyğəmbəri-Əkrəm (s)-in qiymətli və ağır mirası idi və Əli ibn Əbi Talib (ə) müstəqil cinah yaratmaqla həmin bağlılığı süstləşdirib, daha mühüm məsləhəti unutmağı və nəticədə fitnə-fəsadın törənəcəyini rəva bilmirdi. O həzrəti hökumət müqabilində başqa cinahın yaranmasına də`vət və təşviq edənlər düşüncəli və uzaqgörən adamlar deyildilər. Hərçənd, İbn Abbas kimi bə`ziləri də xeyirxahlıq məqsədi güdürdülər. Şübhəsiz, o zaman Əlidən (ə) tərəfdarlıq səsi geniş ixtilaf yaradar təfriqəni şö`ləndirər, pusquda duran xarici düşmənlərin xeyrinə olaraq mərkəzi hökumətin qüdrətini süstləşdirərdi.

Bu incə məsələyə daha artıq diqqət yetirmək lazımdır ki, həqiqətdə, müsəlmanların birliyini dağıdan Əlinin (ə) haqqını tələb etməsi deyil, əksinə onun müxaliflərinin xilafəti ələ keçirməkdə ciddi cəhdləri, simiclikləri idi ki, bu da, haqqı tələb etmək üçün mümkün olan yolları bağlayır, ümmətin arasında işini ixtilaf yaradır. Bu incəlik isə bir çox yazıçı və tarixçilərin nəzərindən qaçmışdır, onlar hətta öz kitablarında yazmışlar ki, Əli ibn Əbi Talib (ə) həmişə xəlifələrin hökuməti ilə mübarizə aparmaq fikrində olmuşdur. Lakin xəlifələr ona xatırladırdılar ki, İslamı qoruyub-saxlamaq üçün belə qərardan dönsün.

## 2. HƏSƏD, ƏDAVƏT VƏ KİN-KÜDURƏTDƏN AMANDA QALMAQ

Bu amil Əlinin (ə) tək-tənha qalmasında o qədər tə`sirli idi ki, əhli-sünnə alimlərindən biri bu məsələ ilə bağlı belə yazır:

"Mən ustadımdan soruşdum: "Əlinin tərcümeyi-halına çox təəccüb edirəm: bu müddət ərzində Peyğəmbəri-Əkrəm (s)-in vəfatından sonra, Qüreyşin ona bu qədər ədavət və kin-küdurətbəsləməsi ilə belə necə sağ qaldı?"

Ustadım dedi: "Əgər o, özünü o qədər kiçiltməsəydi və sükut etməsəydi, şübhəsiz, öldürülərdi. Bu isə onu yadlardan çıxarıb, ibadət, namaz və Qur`an oxumağa məşğul etdi, öz ilkin məramından ayrıldı, qılıncını unutdu və rahib kimi dağlarda dolandı. O, dövrün hakim dairəsinə qarşı çıxmadığı, onların müqabilində sükut etdiyi üçün onu azad buraxdılar. Əgər belə etməsəydi, onu qətlə yetirərdilər. Necə ki, Xalid ibn Vəlidin vasitəsilə onu öldürmək istəyirdilər."[1]

Bu əhli-sünnə tədqiqatçısı başqa bir yerdə isə belə yazır:

"Əli ibn Əbi Talib xilafət kürsüsündə əyləşdiyi gün İslam Peyğəmbərinin (s) vəfatından iyirmi beş il keçirdi. Bu müddət ərzində ədavət və kin-küdurətlərin yaddaşlardan silindiyi təsəvvür olunurdu. Lakin bu təsəvvürün əksinə olaraq Əlinin müxaliflərinin ruhiyyəsi dəyişilməmişdi, ona qarşı Peyğəmbərin həyatı və ondan sonrakı dövründən qalan ədavət və kin-küdurətlər azalmamışdı. Hətta İslam meydanında qanlı hadisələri, Əlinin "Bədr", "Ühüd" və sair müharibələrdəki qəhrəmanlıqlarını müşahidə etməyən Qüreyş cavanları və yeniyetmələri belə, öz ata-babaları ürəklərində qarşı qatı kin və kimi ona ədavət bəsləyirdilər"[2]

## 3. CAHİLİYYƏT DÜŞÜNCƏLƏRİ

Əli ibn Əbi Talib (ə) İslamı əbədi və dünyamiqyaslı bir din bilirdi və ərəblərin onu irqi bir ayin və ərəb hökumətinin vəsiləsi hesab edəcəyindən həmişə nigaran idi. Bəlkə də fikirləşirdi ki, şəraitin mövcud olmadığını və müxaliflərin əks-təbliğatlarını nəzərə almaqla oğlu olmayan İslam Peyğəmbərinin canişinliyi ilə onun qiyamı tədriclə ata-babalarının dinini tərk və İslamı qəbul etmək istəyən qövmün gözündə "irsi səltənət" və "irqi hökumət" kimi tə`bir edərək, İslamın dünya miqyasında yayılmasına mane olacaqdır.

Məhz bu düşüncəyə görə, Peyğəmbər (s) "Qədir-Xum"da risaləti tamlamaqla bağlı ayə nazil olduqdan sonra, ilk öncə əmisi oğlu Əlinin (ə) canişinlik məsələsini e`lan etdi. O həzrət bilirdi ki, bə`ziləri həsəd və paxıllıq, bə`ziləri nadanlıq, bə`ziləri isə rəyasət və məqam arzusu ilə bu məsələni asanlıqla qəbul etməyəcəklər. Bu təhlükə o yerə gəlib çatmışdı ki, əgər Peybəməbəri-Əkrəm (s) Allah tərəfindən

---

[1] "Шəрhи Нəhсüл-бəлаğə", Ибн Əбил-Һəдид, 13-сü силд, сəh. 301 вə 302. Деуилəнлəрə gөрə, бу тəдбир Əбу Бəкр тəрəфиндəн төкүлмүшдү. ("Əл-əнсаб", 3-сü силд, сəh. 95; "Тəhзибут-тəhзиб", 5-си силд, сəh. 110. )

[2] "Шəрhи Нəhсüл-бəлаğə", 6-сы силд, сəh. 23-45. "Пишвауи əз нəзəри Ислам" китабындан нəглəн, сəh. 334 вə 335.

himayə olunmasaydı, "Qədir" hadisəsindən sonra bə`ziləri ona sui qəsd edəcək, ona və İslam ümmətinə çətinliklər törədiləcəkdi.

Bu təsəvvür Həzrətin vəfatından sonra özünü göstərdi. İkinci xəlifə, İbn Abbasla danışıqlarında məhz bu məsələyə toxunaraq dedi: "Camaat Allahın Rəsulunun vəfatından sonra xilafəti siz Əhli-beytdən kənarlaşdırdı. Çünki onlar nübüvvətlə xilafət məqamını yalnız bir xanədana nəsib olduğunu istəmirdilər."

Bu amildən doğan digər çətin və əzabverici məsələ Əlini (ə) vəzifəpərəstliklə ittihamlandırmaq idi. Hərçənd, hökumət başındakılar çox gözəl bilirdilər ki, Əli ibn Əbi Talib (ə) fikirləşmədən və xilafət məqamını bu sadəliklə əldə etmək ardınca düşməyəcək. Dəfələrlə onu tə`nə ilə incidərək, xilafətə həris olduğunu deyirdilər![1] Elə "səqifə" yığıncağı günlərində də Əbu Übeydə Cərrah o həzrətə "Ey Əbu Talibin oğlu! Sən xilafətə nə qədər hərissən!" – dedikdə, Həzrət cavabında buyurmuşdu: "Allaha and olsun ki, siz daha hərissiniz, halbuki bu mövqedən uzaqsınız. Mən isə ona daha layiq və yaxınam. Mən öz haqqımı tələb edirəm, lakin siz (mənimlə onun) mənimlə onun arasında maneçilik yaradırsınız. Nə vaxt onu almaq istəyirəmsə, mənə mane olursunuz!"[2]

Bu dövr ötüb-keçdikdən sonra o həzrət özünü siyasi böhranlardan kənarlaşdırsa da, Müaviyə tərəfindən xəlifələrə qarşı həsəd, ədavət və düşmənçiliklərə məruz qaısada, habelə xəlifə Osmanın öldürülməsinə mane olsa da, bu işdə əlbir olması ilə ittihamlandı.

## 4. DÖZÜLMƏZ XÜSUSİYYƏTLƏR

Təbiidir ki, hələ də canlarında nadanlıq qanı qalan və camatı çürümüş nadanlıq təfəkkürləri ilə qruplaşdıran Əlinin (ə) müasirləri üçün o həzrət kimi fərdi hökuməti qəbul etmək asan deyil, başqasını hökumətə seçməyi – bütün xüsusiyyətələrə malik olsa da belə – sevmirdilər. O həzrətin həyat yoldaşı Fatimeyi-Zəhra (ə.s) bu məsələ barədə buyurmuşdur:

"Əbul-Həsənin (Əli (ə)) nə eybi vardı?! Nə üçün ona irad tutdular?! Allaha and olsun! Onun iradı (müşriklərin bədəninə endirdiyi) iti qılıncı, (düşmənlərə qarşı) yenilməz zərbələri və Allah yolunda şiddətli qəzəbi idi."[3]

İmam Əli (ə) heç bir kəsə və heç bir şeyə görə haqqı unutmadı. Camaat onun ədalətindən və zülmkarlara qarşı qəzəbindən o qədər qorxurdular ki, Peyğəmbəri-Əkrəm (s)-ə qarşı belə deyildilər. Şübhəsiz, Əli (ə) bütün bu dərsləri Peyğəmbər (s)-dən öyrənmişdi. Lakin Peyğəmbər (s)-lə müasir olan camaatın əksəriyyətinin təsəvvürü bu idi ki, o həzrət dinini yaymaq və müxalifləri cəlb etmək üçün qisas almaq, və sərtliklə müqayisədə mülayimliyə daha çox üstünlük verirdi.

---

[1] "Шәрһи Нәhсүл-бәлаğә", Феузүл-Ислам, хүтбә: 171; Доктор Мәһәммәд Тисани Сәмави "Әз аgаһан бепорсид" китабынын 181-192-си сәһифәләриндә бу иттиһамы тутарлы дәлилләрлә саваблaндырмышдыр.

[2] "Нәhсүл-бәлаğә", хүтбә: 167.

[3] "Әл-әгдул-фәрид", 4-сү силд, сәh. 235-236.

Bundan əlavə, Rəsuli-Əkrəm (s) özü qanun verirdi və əgər bir hökmü ləğv etsəydi, yaxud qərar çıxarsaydı və ya bir şeyi əmr, yaxud onu qadağan etsəydi, bütünlükdə Allah tərəfindən tam ixtiyara malik idi. Halbuki onun vəsi və canişinini vilayəti çərçivəsində özünü Peyğəmbər (s) kimi qanunverən yox, əksinə o həzrətin qanunlarının icraçısı bilirdi.

Bu məsələləri nəzərdə saxlamaqla məlum olur ki, Əli ibn Əbi Talib (ə)-ın hakimiyyətinə mövcud şərait olmaması o həzrəti səbir və dözümə vadar edirdi. Onun müasirlərinin keçmiş hadisələr və zülmlərlə bağlı acı xatirələri olsa da, incəliklərdə belə diqqətli olan ədalətli bir fərdin hökumət başında əyləşməsinə elə də rəğbət göstərmirdilər. Tarix göstərdi ki, onlar Əli (ə)-ın ədalətini qəbul etmək üçün, gərək çox illər zülmün tə`mini dadaydılar. Həzrət 25- ildən sonra xilafətə çatdıqda, elə bu dəstədən olan bir neçə nəfərin hiylələri, vəzifə və məqam düşkünlüyu və dünyapərəstliyi Əli ibn Əbi Talib (ə)-ın hakimiyyətinin bərqərar edilməsi ilə bağlı Peyğəmbər (s)-in arzusunun gerçəkləşməsini çoxlu problemlərlə üzləşdirdi.

Birinci və ikinci xəlifənin hakimiyyət dövrü qurtardıqdan sonra da müəyyən səbəblər üzündən Əli ibn Əbi Talib (ə)-ın xilafəti üçün şərait hələ də mövcud deyildi. O həzrətin bu zaman 46 yaşı vardı. Bu dəfə isə artıq onun cavanlığının bəhanə gətirilməsinə yer qalmamışdı. Ona qarşı irqi təəssüb və qəbilələr ədavəti müəyyən qədər azalmış, şəxsiyyəti daha yaxşı tanınmışdı.[1] Əlidən (s) himayə və tərəfdarlıq ehtimalı keçmişlə müqayisədə güclü idi. Bununla belə, ikinci xəlifənin xilafəti şuraya tapşırmaqla əlaqədar siyasəti o həzrətin qalma-qalsız qəti, hakimiyyəti üçün bütün yolları bağladı: Osman ümumxalqın azacıq belə, müqaviməti olmadan xilafət kürsüsündə əyləşdi!

Bunun səbəbi camaatı şuranın hökmünü qəbul etməyə məcbur edən ikinci xəlifənin öz yerinə canişin tə`yin etməkdəki üslubundan əlavə, Əli (ə) ilə Osmanın ruhiyyələrinin müqayisəsi idi. Osman yaşının çoxluğundan (68 yaş) əlavə, İlahi hökümlərdə laqeydlik, iradəsində süst və zəif, rahatlıq və qohumpərəstlik, tərəfdarlarına qarşı səxavətlilik kimi xüsusiyyətlərlə tanınırdı. O zaman müsəlmanlar ikinci xəlifənin sərtlik və ciddi qanunçuluğundan artıq təngə gəlmiş, yeni açılmış iqlimlərin sərvətindən və bol təravətli ne`mətlərindən bəhrələnmək arzusunda idilər. Əgər bir tərəfdən Əli ibn Əbi Talibin (ə) bə`zi tərəfdarları ona hücum edirdilərsə, digər tərəfdən Bəni-Üməyyə tayfası xilafət libasını özlərindən olan bir nəfərə geyindirmək üçün çalışırdılar. Həmin şəxs isə xilafət şurasının üzvü və Əlinin (ə) rəqibi Osmandan başqası deyildi.

Əgər müsəlmanların üçüncü xəlifəsi də həyatını təbii ölümlə dəyişsəydi və Mədinənin siyasi durumu adi vəziyyətdə olsaydı, dövrün hakim dairəsində nüfuzu olan mal-dövlət, vəzifə və məqam düşkünləri hələ də Əli ibn Əbi Talib (ə)-ın hakimiyyətinə razılıq verməzdilər. Əgər başqa bir şura təşkil olunsaydı belə, yenə həzrətin xilafətinin əleyhinə əlbir olacaqdılar. Bəlkə də iş şuraya çəkilməyəcək, Bəni-Üməyyənin nüfuzlu şəxsiyyətləri Osmanı öz bəyəndikləri şəxsi seçməyə məcbur

---

[1] Ибни Әбил-Һәдидидин әгидәсинә ҝөрә, имам Әли (ә)-а гаршы әдавәт вә кин-күдурәт – узун мүддәтин өтүб-кечмәсинә бахамауараг – уенә дә сөнмәмiшди.

edəcəkdilər. Necə ki, birinci xəlifə, Ömər ibn Xəttabı öz yerinə tə`yin etdi və xilafəti şuraya tapşırmadı.

Osmandan sonrakı zamanlara gəldikdə isə, əgər xalq hərəkatı və insani qüvvələr olmasaydı, (Əli (ə)-ın özünü xilafətə əsla namizəd etmədiyinə diqqət yetirməklə yanaşı) Təlhə, Zübeyr, Əmr ibn As və Müaviyə kimilər Əli (ə)-ın ədalətindən, habelə Osmanın vaxtında müsəlmanların beytül-malından özlərinə götürdükləri mal-dövlət və əmlakın geri qaytaracağından qorxduqları üçün o həzrətin xilafətə çatmasına mane olacaqdılar.

Bunlardan əlavə, hökumət işçiləri arasında böyük nüfuza malik olan imam Əli (ə)-ın ağır düşməni və Əbu Bəkrin qızı Ayişə ölməyə o həzrətin dövründə yaşamağa üstünlük verirdi. Bu vəziyyətlə Əli ibn Əbi Talibin (ə) xilafət və hakimiyyəti üçün heç bir zəmin yox idi.[1]

## 5. SƏHABƏLƏRİN AZLIĞI

Əbdül-Həmid Mədaini yazır: Əgər doğrudan da, Əli, Peyğəmbəri-Əkrəm (s)-in həqiqi canişini olduğuna inanırdısa, dərhal öz haqqını müxaliflərdən alar, heç olmazsa, camaatı oyadar, agah edər və onlara deyərdi: "Ey camaat! Hələ Peyğəmbər (s)-in vəsiyyətindən çox keçməyib, o, sizə mənə itaət etməyi göstəriş verib, özündən sonra məni sizə xəlifə seçib, bu vəsiyyətin əksini göstərən bir söz də deməyib. Belə isə nə üçün məni tərk edirsiniz?!"

Əgər bir imamiyyə şiəsi "Əli qətlə yetirilməkdən qorxmasaydı, Peyğəmbərin vəsiyyətinə əsaslanardı!" – deyərsə, biz belə cavab verərik: "Bəs, nə üçün bey`ətdən imtina etdikdə, qətlə yetirilməkdən qorxmadı?! Halbuki, onu zorla bey`ət etməyə çəkib apardılar! O, bə`zən Peyğəmbəri-Əkrəm (s)-in, bə`zən əmisi Həmzənin, bə`zən qardaşı Cə`fərin qəbrinə sığınır, bə`zən də ənsar qruplarından kömək diləyirdi!"[2]

Bu alim bir neçə nöqtəyə diqqət yetirməmişdir. O cümlədən:

**a)** Əli ibn Əbi Talib (ə)-ın öz haqqı ilə bağlı heç bir söz deməməsi tarixi həqiqətin tam əksini göstərir.[3]

**b)** Əgər hiylə, təxribat və zəhərli tədbirlərin ardınca bir fərdin hakimiyyəti üçün ictimai şərait hazırlanmayıbsa, camaata öyüd-nəsihətin nə faydası vardır?!

**v)** Əli (ə)-ı sükut və səbrə vadar edən ölümdən qorxmaq deyildi; əksinə o, İslama heç bir nəticə bağışlamayan ölümdən qorxurdu.

Həqiqətdə, bə`zi yaşlı və təcrübəli səhabələrin Peyğəmbər (s)-in canişinliyini öhdələrinə götürməsi üçün sərtlikləri ilə yanaşı sə`y edib və çalışmaları Peyğəmbər Əhli-beytinin hökumətdən kənarlaşdırılmasına dair möhkəm qərarın şahididir. Peyğəmbər (s)-in kürəkəni Əli ibn Əbi Talib (ə) bu həqiqətdən çox gözəl agah idi. Bəlkə də bu məsələ onu öz haqqını ciddi şəkildə müdafiə etməkdən saxlayırdı. Hətta öz evinin yandırılmasına belə səbir edib dözdü, çünki müxaliflərinin vəzifə və

---

[1] "Мәрди намүтәнаһи" китабынын 73-75-си сәһифәләриндән игтибас едилмишдир.

[2] "Нәһсүл-бәлағә", 11-си силд, сәһ. 111-112.

[3] Сонракы сәһифәләрдә бу мәсәләуә тохунасағыг.

məqam düşkünlüyünü yaxından görürdü. Əgər haqqını azacıq belə, müdafiə etsəydi, onların daha sərt, daha təhlükəli rəftarları ilə üzləşəcəkdi.

Peyğəmbər (s)-in vəfatı zamanı müxaliflər o həzrəti siyasi vəsiyyət yazmağa imkan vermədilər, hətta az qalırdı ki, o həzrətin risalətinədə irad tutsunlar. Buna əsasən, hər zaman Əli ibn Əbi Talib (ə) öz haqqını tələb etsəydi, sözsüz, dağıdıcı, viranedici müharibə baş verərdi ki, nəticədə nə Əli (ə)-ın, nə də müxaliflərin ordusundan bir kəs qalardı. Bu vaxt isə, artıq Peyğəmbərin hökuməti müşriklərin və mürtədlərin əlinə keçəcəkdi. Halbuki, Əli (ə) hökuməti ələ keçirməyə rəğbət bəsləmirdi. Əlbəttə, onun sayəsində haqq-ədalətin bərpa edilməsi və zülmün qarşısının alınması fikrindən yayınmasa da, o zaman bu məqsədin gerçəkləşməsi uğrunda bir çoxları iddia edirdilər. Belə bir mövqedə Əli (ə) silahlı qiyam və güc tətbiq etməklə haqqını tələb etsəydi, aşağıdakı nəticələr baş verə bilərdi:

1. O, bu meydanda onun imamət və rəhbərliyinə canla-başla inanan, onu himayə edən əziz dost və səhabələrini əldən verəcəkdi.[1] Əlbəttə, onların şəhadəti ilə haqq öz yerini tapsa da, onların əsas məqsəd uğrundakı fədakarlıqları elə də təəssüflü olmazdı. Lakin gələcək bəhslərdə qeyd edəcəyik ki, onların qətlə yetirilməsi ilə haqq sahibinə qayıtmırdı.

2. Onlar qətlə yetirildikdən sonra Əli (ə)-ın xilafətə çatmasına razı olmayan bir çox səhabələr öldürüləcək, nəticədə müsəlmanların mərkəzdəki qüdrəti zəifləyəcəkdi. Bu qrup səhabələr rəhbərlik məsələsi ilə bağlı Əli (ə)-ın müqabilində mövqe seçsələr də, başqa işlərdə o həzrətlə heç bir ixtilaf etmir, şirk, bütpərəstlik, məsihi və yəhudilik qarşısında böyük qüdrət sayılırdılar. Bu zaman müsəlmanların zəifliyi nəticəsində İslamın qayda-qanunlarının hələ də kamil şəkildə nüfuz etmədiyi uzaq məntəqələrdəki qəbilələr mürtəd olub və İslam müxaliflərinə qoşulacaqdılar. Çox ehtimal verilirdi ki, müxaliflərin qüdrəti və mərkəzdə həqiqi rəhbərin olmamağı nəticəsində tövhid çırağı həmişəlik sönsün.[2]

Bu məsələlər səbəb olurdu ki, Əli ibn Əbi Talib (ə) hər dəfə söhbətə şərait yarandıqda, yalnız özünün zülmə məruz qalmasını izhar etməklə kifayətlənsin, inqilab edəcəyinə qarşı hakim dairələri ondan artıq qorxu və həyəcan içərisində qərar verməsin. O, yaxşı bilirdi ki, bey`ət etməməsi inqilab və hərəkatla nəticələnmədiyi təqdirdə, hakim dairələr tərəfindən onu və tərəfdarlarını ciddi təhlükə təhdid etməyəcəkdir.

Əli ibn Əbi Talib (ə) üç mərhələdən ibarət olan hərəkatdan (1-inqilab; 2-inqilab və yürüşə səbəb olan söhbət və çıxışlar; 3- ümumxalqın təfəkkürünü oyadaraq haqqı açıqlamaq və haqqının tapdalanmasını bildirmək) yalnız üçüncü mərhələni məsləhət gördü. Çünki ilk iki mərhələ üçün şərait mövcud olmadığından əlavə, məsləhət də onu nəticəsiz göstərirdi.

İzzuddin Əbu Hamid Mö`təzili bu məsələ haqda yazır:

---

[1] Һəзрəт Əли (ə) "Нəhсүл-бəлағə"дə буна ачыг-аудын тохунмушдур. ("Нəhсүл-бəлағə", Феузүл-Ислам, хүтбə: 26. )

[2] "Фүруği-вилаүəт", сəh. 165-166-дан игтибас едилмишдир.

"Əli (ə) öz ürəyində xilafətlə bağlı bir sıra əzabverici və dərdli məsələlər saxlayırdı ki, Ömərin qüdrəti və sərtliyi üzündən onu (Əbu Bəkr və Ömərin xilafəti dövründə) xalqa çatdıra bilmirdi. Ömərin ölümü, şuranın təşkil edilməsi, eləcə də Əbdür-Rəhman ibn Ovfun Əlidən üz döndərib, Osmana səs verməsindən sonra həmin dərdli məsələləri açıb bəyan etdi."[1]

Görəsən, Əbdür-Rəhman Mədainin dediyi kimi, Əli (ə) ikinci mərhələ və üsluba (yürüşə səbəb olan söhbətlərə) əl ataraq hökumət rəhbərliyi ilə danışığa başlamalıydımı?! Görəsən, bu zaman Əli (ə) dövrün hakim dairələrinin əleyhinə yürüşə səbəb olacaq söhbətlər etdikdə, onlar sakit qalacaqdımı?! Bu vaxt Əli (ə) hansı hədəfinə çatacaqdı?!

Əli ibn Əbi Talib (ə) bilirdi ki, ilk iki üslub İslamın aradan getməsindən başqa bir nəticə verməyəcəkdir. Qabaqcadan Allahın Rəsulu (ə) ona buyurmuşdu ki, məndən sonra ümmət sənə xəyanət edəcək. Əgər səhabələrin olsa, qiyam et, əks təqdirdə sükut et!...

O həzrət bir gün öz səhabələrindən istədi ki, sabah sübh tezdən hamılıqla, başları qırxılmış halda, onun yanına gəlsinlər. Ertəsi gün yalnız bir neçə nəfər gəlmişdi.[2] Buradan mə`lum olur ki, Həzrətin tərəfdarları içərisində hamı şəhadət həddinə qədər onu himayə etmir.

Bunlardan əlavə, görəsən, o dövrün camaatı Peyğəmbəri-Əkrəm (s)-in öz əmisi oğlu Əli (ə) haqda bütün buyruqlarını tam unutmuşdularmı ki, həzrət Əli (ə) mütləq öz haqqını bəyan edərək camaatı bir-bir oyatsın?! Onların Əli ibn Əbi Talib (ə)-dan kənarlaşması o həzrətin yüksək mə`nəvi məqam və dərəcəsinə tam mə`lumatsızlıqları ucbatından deyildi ki, Həzrət söhbət etmək və öz haqqının tapdalanmağını açıqlamaqla onları ayıltsın və onlar da o həzrətdən tərəfdarlıq edərək qiyama əl atsınlar. Onun vəzifəsi Peyğəmbəri-Əkrəm (s)-in be`sətinin ilk günlərindəki vəzifəsi kimi deyildi ki, çarəsizlikdən be`sətə şərait hazırlamaq və İslamı yaymaq məqsədilə özü üçün dost və hami axtarıb tapsın. Peyğəmbər (s)-dən sonra Əli ibn Əbi Talib (ə)-ı özünə rəhbər bilmək istəyənlər onu yaxşı tanıyır və başqasına tabe olanlar da, sözsüz, o həzrətin öyüd-nəsihəti nəticəsində birdən onu himayə etməyə qalxmayacaq və müxalifət düşüncələrini azaltmayacaqdılar.

Şübhəsiz, əgər o həzrət camaatı hər şeydən əvvəl, onu müdafiə etməyə çağırırdı, lakin müxalifləri onun və Əhli-beytin haqqını tapdalamaqda çox çalışırdılar. Çünki camaatın onun zülmə məruz qalması üçün etdiyi fəryadlara müsbət cavab vermədiklərinə diqqət yetirməklə yanaşı, dövrün hakim dairəsi o həzrətin xalq tərəfindən himayə olunmadığını yaxşı bilirdi. Əgər o həzrət bə`zən öz haqqından və xalqın əyri yolda olduğundan söz açırdısa, səbəbi bu idi ki, höccət onlara tamamlansın, hakim dairələr, bəlkə də bütün camaat bilsinlər ki, onun sükutu, səbir və dözümünün səbəbi ölümdən qorxmaq, eləcə də hökumətin qanunauyğun

---

[1] "Шәрһи Нәһсүл-бәлағә", 9-су силд, сәһ. 25.

[2] Бах: "Тарихи-кәбир", Бухари, 1-си силд, 2-си бөлүм, сәһ. 174; "Тарихи Бағдад", 11-си силд, сәһ. 216; "Шәрһи Нәһсүл-бәлағә", Ибн Әбил-Һәдид, 3-сү силд, сәһ. 66; "Мизанул-е`тидал", 1-си силд, сәһ. 172; "Әл-мүстәдрәку әләс-сәһиһеун", 3-сү силд, сәһ. 140; "Еhгагул-һәгг", 7-си силд, сәһ. 325.

olduğunu təsdiqləmək deyildir. Məhz bu səbəbdən də həyat yoldaşı və iki oğlu ilə birlikdə ənsar qrupunun evlərinə gedir, onları yaramaz işlərinə görə danlayır və Rəsuli-Əkrəm (s)-in Əhli-beytini himayə etməyə də`vət edirdi.[1] Bu, onların yatmış ruhunu oyatmasa da, ən azı Əlinin (ə) müxaliflərilə İslam Peyğəmbərinin (s) Əhli-beytinə rəva görülən zülmə şərik olmamalarına və bunu tərk etmlərinə səbəb olurdu.

Bir dəfə bir nəfər Fatimeyi-Zəhra (ə.s)-dan "Əlinin imaməti üçün İslam Peyğəmbərinin söhbətlərindən bir dəlilin varmı?" – deyə soruşduqda, xanım buyurdu: "Təəccüb edirəm! Yoxsa əzəmətli "Qədir-Xum" hadisəsini unudubsunuz?! İslam Peyğəmbərinin (s) belə buyurduğunu eşitdim: "Sizin içərinizdə özümə canişin tə`yin etdiyim Əli ən yaxşı insandır. Əli məndən sonra imam və xəlifədir. İki oğlum Həsən və Hüseyn, (eləcə də) Hüseynin övladlarından doqquz nəfər pak və yaxşı imam, rəhbərlərdir. Əgər onlara itaət etsəniz, sizi hidayət edər, əgər onlara qarşı çıxsanız, sizin aranızda ixtilaf və təfriqə qiyamət gününə qədər davam edəcəkdir."

Həmin şəxs soruşdu: "Bəs, nə üçün Əli sükut edib, öz haqqını tələb etmədi?"

Xanım cavab verib buyurdu: "Atam Rəsuli-Əkrəm (s) belə buyurmuşdu: "İmamın məsəli Kə`bə kimidir. (Belə ki,) Kə`bə camaatın ətrafına yox, camaat onun ətrafına dolanmalı, təvaf etməlidir."[2]

Əli ibn Əbi Talibin (ə) siyasətinin çətinliyi bu idi ki, bir tərəfdən müharibə odunu qızışdıran müxaliflərlə üzləşərək müsəlmanların birliyinin dağılmaması uğrunda çalışmalı, digər tərəfdən isə sükutu, səbir edib dözməsi ilə hakim dairənin təsdiqinə səbəb olmamalı, Peyğəmbər (s) canişininin rəy sorğusu, ümumxalqın vasitəsilə tə`yin edilməsinin bid`ət olduğunu hamıya çatdırmalı idi. Əgər bu gün dövrün hakim dairələri və onların üsullarına e`tiraz edilməsə, gələcək nəsil də elə güman edəcək ki, Rəsuli-Əkrəm (s)-dən sonra hakimlərin icra etdikləri hər bir şey səliqələri nəzərə almaqla o həzrətin məqsədlərinin icrası deməkdir, nəticədə onların hökmü Peyğəmbər (s)-in sünnəsi kimi möhtərəmdir və bütün insanlar onun əsasında əməl etməlidirlər."

Əlinin (ə) xəliflərin dövründəki sönük fəryadları gələcək nəsilə öz tə`sirini bağışladı: onlar başa düşdülər ki, keçmiş xilafət zülm, ədalətsizlik üzərində qurulmuş və xəlifələrin səliqə adlandırdıqları ixtilaf həqiqətdə Peyğəmbər (s) sünnəsini dəyişdirmək, ona əks çıxmaq deməkdir. İmam Əli (ə) "Şiqşiqiyyə" xütbəsində əvvəlki xəlifələrin xilafətini aydın şəkildə qəsbi adlandırmış və bir yerdə buyurmuşdur:

**"...Dinin başçıları olan imamlar Haşimdən yaranmış qüreyşlərdir. İmamlıq və xəlifəlik onlardan qeyrisinə layiq deyil, onlardan başqa xəlifələrin vilayət (rəhbərlik) məqamına səlahiyyətləri yoxdur!"**[3]

O həzrət dəfələrlə buyurdu:

---

[1] "Ə`ламун-ниса", 4-cü силд, сəh. 114.

[2] "Еhгагул-həгг", 21-си силд, сəh. 26-27; "Нəhсүл-həyат", сəh. 38, hədис: 16; "Биhарул-əнвар", 36-сы силд, сəh. 353, "Һəмасеуи-гəдир" китабындан нəглəн, сəh. 157-158.

[3] "Нəhсүл-бəлаğə", хүтбə: 144.

**"İlahi! Qüreyş və onlara kömək edənlərə qarşı Səndən kömək istəyirəm! Çünki onlar mənim qohumluq əlaqələrimi kəsdilər, mənim məqam və dərəcəmin böyüklüyünü kiçik saydılar və mənə məxsus xilafət məsələsində mənimlə düşmənçilik etmək üçün əlbir oldular."**[1]

Həmçinin "Cəməl" müharibəsindən öncə belə buyurmuşdur:

**"Allaha and olsun! Mən Peyğəmbər vəfat edəndən bu günə qədər həmişə öz haqqımdan məhrum edilmiş, işimdə tək-tənha qalmışam!"**[2]

---

[1] "Шәрһи Нәhcүл-бәлағә", Феузүл-Ислам, хүтбә: 171.
[2] Үенә орада, хүтбә: 6.

# YEDDİNCİ FƏSİL

## ƏBU BƏKR IBN ƏBI QÜHAFƏNIN HÖKMDARLIĞI DÖVRÜNDƏ BAŞ VERƏN HADISƏLƏR.

### (11-13-cü hicri qəməri illəri)

Əbu Bəkrin hakimiyyəti 11-ci hicri qəməri ilinin Rəbiül-əvvəl ayından başlayaraq 13-cü ilin Cəmadiyus-sani ayına qədər (iki il, üç ay, 22 gün) davam etdi. Bu müddət ərzində baş verən ən mühüm hadisələr aşağıdakılardan ibarətdir:

**1. Peyğəmbəri-Əkrəm (s)-in vəfat etdiyi birinci həftədə Əli ibn Əbi Talib (ə)-dan bey`ət almaq üçün mə`murları xanım Fatimeyi-Zəhra (ə.s)-ın evinə göndərmək;**

**2. Fədəki Fatimeyi-Zəhra (ə.s)-dan almaq;**

**3. Üsamə ibn Zeydin ordusunu Şam sərhədlərinə göndərmək;**

**4. Qiyamçılar, müxaliflər və mürtədlərlə müharibə;**

**5. Ərəbistan yarımadasının sərhədlərindən xaricə ordu göndərmək;**

**6. Rəsuli-Əkrəm (s)-in hədislərinin bəyanı və yazılmasının qadağan edilməsi.**

Bu fəsildə bu hadisələrin hər birini əhli-sünnə mənbələrinə əsaslanmaqla araşdıracağıq.

## ƏBU QÜHAFƏNIN OĞLUNUN ŞƏXSIYYƏTI

Adı Abdullah ibn Osman,[1] künyəsi isə Əbu Bəkrdir.[2] Atası Əbu Qühafə adı ilə tanınmış, anası Ümmül-Xeyr[3] olmuşdur. Həm atası, həm də anası Bəni-Teym tayfasından idi. Hər ikisinin <u>Mürrədə adlı beşinci babası Peyğəmbəri-Əkrəmlə birgə olmuş</u>[4]və cahiliyyət dövründə onu "Əbdül-Kə`bə" – deyə çağırırmışlar.[1] Əbu Bəkr

---

[1] Osman ibn Amir ibn Əmr ibn Kə`b ibn Sə`d ibn Teym ibn Mürrət.

[2] Bəkr cavan dəvə mə`nasını daşıyır.

[3] Ümmül-Xeyr Səlma binti Səxr ibn Əmr ibn Kə`b ibn Sə`d.

[4] "Əttəbəqatul-kubra", 3-cü cild, səh. 169; "Əl-məarif", Ibn Qüteybə, səh. 167-168.

"Amul-fil" ilindən iki il bir neçə ay sonra (təqribən, miladi tarixi ilə 573-cü ildə) Məkkədə anadan olmuş və 38 yaşında ikən Islam dinini qəbul etmiş, uzun müddət ticarətlə məşğul olmuş və bu işdə böyük təcrübələr qazanmışdı.

Siyrə və tarix yazanlar Əbu Bəkrin uca boylu, arıq, buğdayı rəngli və azsaqqallı olduğunu qeyd etmişlər. Onun rəftarı göstərir ki, Ömər ibn Xəttabın əksinə olaraq tündxasiyyətli və tələskən, öz məqsədlərinə çatmaqda isə çox səbirli, mülayim və məharətli adam olmuşdur.

O, Islamdan qabaq kölə olmadığı üçün Islam dinini qəbul etdikdən sonra müşriklərin işkəncəsinə mə`ruz qalmamışdır. Rəsuli-Əkrəm (s)-in be`sətindən öncə bə`zi alimlərdən eşitmişdi ki, həmin məntəqədə tezliklə bir Peyğəmbər zühur edib, ərəblərin adı və şövkətini ucaldacaq, şirkin kökünü kəsəcək və dünyasəviyyəli bir hökumət quracaq[2] və həmçinin nəsəbşünaslıqda başqalarından seçiləcəkdir.[3]

## ƏBU BƏKRIN AILƏSI VƏ ÖVLADLARI

**a) Zövcələri:** Əbu Bəkrin bir neçə zövcəsi və hər birindən də bir neçə övladı var idi. Amma onun dörd zövcəsinin adı belədir: Qətələ (Qətilə), Ümmü Rumman, Əsma binti Ümeys və Ümmü Həbibə.

Qətilə, Əbdül-Üzza ibn Əbd ibn Əs`əd ibn Muzərin qızıdır. Əbu Bəkr Islamı qəbul etməzdən qabaq onunla evlənmiş, ondan Abdullah və Əsma (Zatun-Nitaqeyn) adlı iki övladı dünyaya gəlmişdi. Eləcə də cahiliyyət dövründə əvvəllər Abdullah ibn Haris ibn Səncərənin zövcəsi olan Ümmü Rummanla evlənmişdi. Əbu Bəkrin ondan Tüfeyl adlı bir oğlu vardı. Abdullah ibn Haris Islamdan öncə Əbu Bəkrlə dostluq əhdi bağlamışdı. O, vəfat etdikdən sonra Əbu Bəkr, Ümmü Rummanla evləndi və ondan Əbdürrəhman və Ayişə dünyaya gəldi.[4]

Əbu Bəkr Islamı qəbul etdikdən sonra Əsma binti Ümeyslə evləndi. Əsma "Xəs`əm" qəbiləsindən, (Peyğəmbərin həyat yoldaşı) Meymunənin analığının bacısı idi və əvvəlcə Cə`fər ibn Əbi Talibin (ə) zövcəsi olmuşdur. Cə`fər şəhadətə çatdıqdan sonra imam Əli (ə) qardaşı övladlarını (Abbdullah, Ovn və Məhəmmədi) öz öhdəsinə götürüb, Əsma ilə evlənmək istədi. Lakin bu zaman həzrət Fatimeyi-Zəhra (ə.s) sağ olduğu üçün ona hörmət əlaməti olaraq bu işə tələsmədi.[5] Əbu Bəkr isə bu ərəfədə Əsmanın elçiliyinə getdi. Əsma müəyyən səbəblər üzündən onun istəyinə müsbət cavab verdi. Onların evlənmə tarixini (Hüneyn müharibəsi zamanı) 8-ci hicri ilində qeyd etmişlər.[6] Bu evlənmənin səbəbi – onların arasındakı fikri və əxlaqi fərqlərə

[1] "Əl-məarif", səh. 167.

[2] "Usdul-ğabə", 3-cü cild, səh. 207-208. Ibn Əsir bu məsələ ilə bağlı yazır: "Yəməndə Əzdi adlı bir kişidən onun da və`d edilmiş Peyğəmbərin yaxınları və səhabələrindən olduğunu eşitmişdi. "

[3] "Əs-sirətun-nəbəviyyə", 1-ci cild, səh. 12.

[4] "Nihayətul-ərb", 4-cü cild, səh. 116. Ümmü Rumman 4-cü, yaxud 5-ci hicri ilində dünyadan getdi.

[5] "Mənaqibi Əli ibn Əbi Talib (ə)", Ibn Məğazili, səh. 365; "Əl-mö`cəmul-kəbir", 24-cü cild, səh. 152.

[6] "Əl-isabə", 7-ci cild, səh. 490.

diqqət yetirməklə yanaşı – tarixdə açıqlanmamışdır. Əsma hicrətin 10-cu ilində Əbu Bəkrdən Məhəmməd adlı övlad sahibi oldu. O, zahirdə Əbu Bəkrin zövcəsi olsa da, vaxtının çox hissəsini Əli ibn Əbi Talibin (ə) evində və Fatimeyi-Zəhraya (ə.s) xidmətdə keçirirdi.[1]

Əbu Bəkrlə Əsmanın birgə həyatı beş ildən çox çəkmədi. Əbu Bəkr hicrətin 13-cü ilində vəfat etdi. Bu zaman oğlu Məmmədin üç yaşı var idi və Əlinin (ə) evində böyüyüb boya-başa çatmışdı. Əsma bundan sonra Əli ibn Əbi Taliblə (ə) evləndi və onlardan (Yəhya və Ovn adlı) iki övlad dünyaya gəldi.[2]

Əbu Bəkrin vəsiyyətinə görə, Əsma ona qüsl etdi. "Ət-təbəqatul-kubra" kitabının müəllifi yazır: "Xəlifə, Əsmaya and vermişdi ki, iftar etdikdən sonra ona qüsl etsin. Əbu Bəkr vəfat edən kimi, Əsma ona qüsl edib, elə həmin gecə də dəfn etdilər.[3]

Əbu Bəkrin digər zövcəsi Xaricət ibn Zeyd Əbu Züheyr Ənsarinin qızı Ümmü Həbibədir. O, Əbu Bəkrin ölümündən sonra Ümmü Külsüm adlı bir qız uşağı dünyaya gətirdi[4] və o qız böyüdükdən sonra Təlhə ibn Übeydullah ilə evləndi.[5]

**b) Əbu Bəkrin övladları:** Abdullah, Əsma, Əbdür-Rəhman, Ayişə, Məhəmməd və Ümmü Külsüm.

Abdullah tez bir zamanda müsəlman oldu, Məkkənin fəthində, "Hüneyn" və "Taif" müharibələrində iştirak etdi. "Taif" müharibəsində ona bir ox dəydi, nəticədə yarası çirklədi və nəhayət, 13-cü hicri ilinin Şəvval ayında dünyadan getdi.[6]

Əsma (Zübeyrin həyat yoldaşı) 73-cü hicri qəməri ilində oğlu Abdullah öldürüldükdən sonra yüz yaşında ikən vəfat etdi.[7]

Əbdür-Rəhman (Ayişənin qardaşı) Əbu Bəkrin böyük oğludur, uzun illər müşrik olmuşdur. O, "Bədr" və "Ühüd" müharibələrində müşriklərin qoşunundan,[8] "Cəməl" müharibəsində də Ayişənin tərəfindən idi.

## XILAFƏT ƏRƏFƏSİNDƏ

Əbu Bəkrin hakimiyyəti dövründə baş verən qəribə hadisələrdən biri məsciddə ilk çıxışıdır. Belə ki, məsciddə camaatın qarşısında açıq-aşkar demişdi: "Həmişə bir şeytan mənimlə birgədir ki, məni doğru yolu seçməkdən çəkindirir və əyri yola sövq edir."[9] Çox çətin qəbul etmək olar ki, Əbu Bəkr bu sözləri düşünməmiş desin. O, elə bir şəxs deyildi ki, asanlıqla belə bir xətaya uğrasın. Gələcək günlər onun Qur`an

---

[1] "Əsma binti Ümeys pasdari vilayət", səh. 64-65.
[2] "Ət-təbəqatul-kubra", 3-cü cild, səh. 20.
[3] Yenə orada, 8-ci cild, səh. 283-284.
[4] "Nihayətul-ərb", 4-cü cild, səh. 117.
[5] Buna əsasən, həm Təlhə, həm də Zübeyr Əbu Bəkrin kürəkəni olmuşlar.
[6] Yenə orada, səh. 119.
[7] Yenə orada, səh. 122.
[8] Yenə orada, səh. 120.
[9] "Ət-təbəqatul-kubra", 3-cü cild, 1-ci bölüm, səh. 129; "Tarixul-ümən vəl-müluk", 2-ci cild, səh. 440; "Əl-imamətu vəs-siyasət", səh. 6; "Məcməuz-zəvaid", 5-ci cild, səh. 183.

ayələrinin mə`na və təfsiri ilə tanış olmadığını göstərsə də,[1] heç olmazsa, Qur`ani-Kərimin aşağıdakı ayələrindən xəbərdar idi:

**"Həqiqətən, sənə (Şeytana) uyan azğınlar müstəsna olmaqla, sən bəndələrimə hakim ola bilməzsən!"**[2]

**"Həqiqətən, iman gətirib yalnız öz Rəbbinə təvəkkül edənlərə Şeytan hakim deyildir!"**[3]

Nəzərə belə çarpır ki, Əbu Bəkrin aşağıdakı ayəyə diqqəti onu yuxarıdakı ayələrə diqqət yetirməkdən saxlamışdır. Belə ki, bir ayədə buyurulur: **"Biz hər bir Peyğəmbər üçün insan və cin şeytanlarından düşmənlər yaratdıq!"**[4] Buna əsasən, o, bu sözlərlə özünü Allahın Rəsulu ilə eyni səviyyədə olduğunu demək istəyirdi; bu fərqlə ki, Peyğəmbəri səhv və xətalardan, düşmənlərin şərindən saxlayan bir mələk olduğu halda, o isə bu ne`mətdən məhrumdur.[5] Bununla, camaatın xəlifədən təvəqqeləri azalacaq və onu Peyğəmbərlə (s) müqayisə etməyəcəklər. Bu məsələnin qəbul edilməsi ilə xəlifə gələcəkdə sərtliklə gördüyü bir sıra işlərinə görə danlanmayacaq. Xəlifə, Rəsuli-Əkrəm (s)-in dövründəki nümayəndələrindən biri kimi, bə`zən mümkündür, xətaya uğrasın. Necə ki, Xalid ibn Vəlid (Peyğəmbər (s)-in qəbilələrdən birini Islama də`vət etmək üçün göndərdiyi şəxs) Bəni-Cəzimə əhalisi ilə rəftarda xətaya yol verdi. Onun vəzifəsi Islamı onalara çatdırmaq idi. O, Bəni-Cəzimə əhalisini Islama də`vət etdikdə, onlar ondan bir gün möhlət istədilər. Lakin Xalid onlara möhlət vermədən, dərhal onların bir neçəsini qətlə yetirdi, bir neçəsini də əsir tutub Mədinəyə gətirdi. Peyğəmbəri-Əkrəm (s) onun nalayiq rəftarından xəbər tutduqda, neçə dəfə dedi: "Ilahi! Mən Xalidin rəftarından bezarlıq edir və Sənə sığınıram!" Bundan sonra Əli (ə)-ı onlara sarı göndərdi ki, qətlə yetirilmiş şəxslərin diyəsini qohumlarına ödəsin.[6] Bu hadisədə Peyğəmbəri-Əkrəm (s) Xalid ibn Vəlidə nə bir hədd vurdu, nə də möhkəm danladı!

Əbu Bəkrdən nəql olunan başqa bir cümlə isə budur: "Ey camaat! Mən Allaha və Onun Rəsuluna itaət etdiyim vaxta qədər, mənə itaət edin. Hər zaman Allahın və Peyğəmbərinin əmrinə qarşı çıxdımsa, sizin mənə itaət etməyiniz vacib deyildir!"[7]

Bu sözlər sadə və adi bəyan olunsa da, çox dəqiq və incədir. Camaat bu cümlələri eşitməklə, ondan qabaq dinin və Rəsuli-Əkrəm (s)-in sünnəsinin qorunub-saxlanılmasına dair nigarançılıqları aradan qaldırıldı, onlar müəyyən qədər

---

[1] Bu məsələ haqda bir neçə kitab yazılmışdır. O cümlədən: "Əgər Əli (ə) olmasaydı. . . ", Əbdürrəhman Baqirzadə,

[2] "Hicr" surəsi, ayə: 42.

[3] "Nəhl" surəsi, ayə: 99.

[4] "Ən`am" surəsi, ayə: 112.

[5] "Kənzül-ümmal" kitabında Əbu Bəkrin söhbəti belə nəql olunur: "Siz elə güman edirsiniz ki, mən Peyğəmbəri-Əkrəm (s)-in sünnəsinə tam əməl edə bilərəm? Mənim buna gücüm çatmır. Peyğəmbəri-Əkrəm (s) ilahi vəhyin köməyi ilə ismət mərtəbəsində durur, həmişə onunla birgə bir mələk vardı. Amma mənimlə həmişə bir şeytan gəzir ki, mənə hakimdir. . . " (3-cü cild, səh. 136. )

[6] Bax: "Kənzül-ümmal", 6-cı cild, səh. 420; "Usdul-ğabə", 2-ci cild, səh. 102; "Tarixul-ümən vəl-müluk", 2-ci cild, səh. 341; "Ət-təbəqatul-kubra", 2-ci cild, 1-ci bölüm, səh. 106; "Fəthül-bari", 9-cu cild, səh. 119; "Məsnədi Əhməd", 2-ci cild, səh. 150.

[7] "Nihayətul-ərb", 4-cü cild, səh. 40.

rahatlaşdılar. Çünki həmin ümumi toplantı və Əbu Bəkrin açıqlamaları xəlifənin ümumxalq qarşısındakı andı, əhd-peymanı kimi sayılırdı. Xəlifə müsəlmanların hüzurunda and içir ki, Peyğəmbərin sünnəsinin əksinə çıxmasın, əks təqdirdə, müsəlmanlar ona tabe olmayıb, sünnəyə əməl etsinlər. Belə olduqda, Əli (ə), yaxud Əbu Bəkr, yaxud da başqa birisinin hakimiyyətdə olub-olmaması arasında heç bir fərq yoxdur!

Əbu Bəkrin çıxışı o qədər məntiqli və doğru cilvələndi ki, kimsə onun başqa yönlərinə diqqət yetirmirdi. Bu zaman cəmiyyətin üç məsələ barəsində düşünmələri yerinə düşərdi:

1. Əgər yeni hökumətin me`yarı Peyğəmbər (s)-in sünnəsinə əməl etməkdirsə, onda o həzrətin canişinin seçilməsi ilə bağlı nəzəri nədən ibarət idi?

2. Əgər Peyğəmbər (s)-in canişinliyə tə`yin etdiyi şəxs də sair camaat kimi asanlıqla sünnəyə əks çıxacaqsa, onunla başqaları arasındakı fərq nədir? Hansı səbəblər üzündən canişin başqalarından üstün olmalıdır?

3. Kim və yaxud hansı bir dəstə xəlifəyə isbat edəcək ki, o, müəyyən yerlərdə Peyğəmbər (s)-in sünnəsinə əks çıxmışdır?! Əgər o, ümmətin ən təqvalı və elmli fərdi sayılırsa, şübhəsiz, sünnə ilə müxalifət etməz və bununla da başqalarının e`tirazına səbəb olmaz. Yox əgər belə bir xüsusiyyətə malik deyilsə, onda nə üçün özündən təqvalı və elmli şəxsə təslim və tabe olmamalıdır?

Həmçinin əgər o, Peyğəmbər (s)-in sünnəsini bilmək və ona itaət etmək üçün lazımi elm və təqvaya malik deyilsə, onu sünnəyə tabe olmağa məcbur etmək olarmı?! Bəli, bu məsələləri bütünlükdə bir yozumla həll etmək mümkün idi, o da bu idi ki, hökumətin idarəsində nə ismət şərtdir, nə də ədalət!

Bu zaman xəlifənin nəzərində siyasi hərəkatda ən mühüm məsələ müxalifləri susdurmaq və onlardan bey`ət almaqla hökuməti təsbit etmək, möhkəmləndirmək idi. Müxaliflər içərisində hakim dairənin qorxduğu şəxs yalnız Əli ibn Əbi Talib (ə) idi. Əgər o, təslim olsaydı, başqa müxaliflərdən qorxu aradan qaldırılacaqdı. Buna sülh yolu ilə nail olmaq qeyri-mümkün olduğundan, ən asan üsul zor və sərtliyə əl atmaq idi. O zaman sərtlikdən istifadə etməyin Peyğəmbərdən sonra yeni təşkil olunmuş hökumətin xeyrinə olmadığını güman edənlər[1] bundan qafildilər ki, bəs, hakim dairə kimdən qorxmalıdır ki, nəticədə Peyğəmbər (s)-in Əhli-beytinə qarşı hörmətsizlik və sərt rəftarlara əl atmasınlar?! Zaman ötüb-keçdikcə və hadisələr baş verdikcə, mə`lum oldu ki, onlar bundan əsla qorxmurmuşlar. Həmin dövrdə Mədinənin hakim vəziyyətinə diqqət yetirməklə yanaşı, onları belə rəftarlardan yayındıra biləcək vahid bir qüdrət yox idi ki, hakim dairə ondan qorxub, sərt rəftardan çəkinsin.

Eləcə də tarixi mənbələr arasında hakim dairənin sərt rəftarlarını göstərən bir mənbə olmadıqda, yalnız bir məsələ açıq-aydın o günün zülm, haqsızlıq və sərt

---

[1] Şiə alimlərindən biri yazır: "Peyğəmbərdən sonra yenicə təşkil olunmuş hökumət o qədər çətinliklər və giriftarçılıqlarla yanaşı, belə bir həssas bir vaxtda hər şeydən öncə sabitliyə, müxaliflər və ümumxalqın nəzərini cəzb etməyə ehtiyac duyulurdu. Şübhəsiz, siyasi, hərbi və təhlükəsizlik baxımından onların belə sərtliyə əl atması nəinki asan deyil, üstəlik qeyri-mümkün bir iş idi. ("Təhlili bər məvazeye siyasiye Əli ibn Əbi Talib (ə)", Əsğər Qaidan, səh. 86. )

rəftarlarını faş edir. O da budur: "Doğrusu, görəsən, hansı səbəblər üzündən həzrət Əli (ə) Rəsuli-Əkrəm (s)-in onun canişinliyi ilə bağlı o qədər tə`kidlərilə belə, öz haqqını almaq üçün 25 il evdə oturub qiyam etmədi?! Əgər ictimai-siyasi mühit haqqı sahibinə qaytarmaq üçün şərait yaradırdısa, bəs, nə üçün o həzrət sükut etdi?!

## XANIM FATIMEYI-ZƏHRA (Ə.S)-IN EVINƏ HÜCUM

Bu bəhsi bəyan etməkdə məqsəd, şiələrin əqidələrini isbat etmək deyil, Əbu Bəkrin hakimiyyəti dövründə baş verən hadisələri araşdırmaqdır. Buna əsasən, bizim istifadə etdiyimiz mənbələrin çoxunu əhli-sünnə kitabları təşkil edir.

Hadisələri bəyan etməzdən öncə bir neçə məsələni qeyd etməyi lazım görürük:

**a)** Qeyri-şiə kitablarında xanım Fatimeyi-Zəhranın (ə.s) evinə hücum etmək təfərrüatı ilə nəql olunmasa da, hadisənin mahiyyəti, evə hücum edənlərin məqsədi və onların adları açıq-aydın göstərilmişdir.[1]

**b)** Şiə və sünnülərin hədis mənbələrində aydın şəkildə göstərilir ki, Rəsuli-Əkrəm (s)-ın qızı həzrət Fatimeyi-Zəhra (ə.s) təbii əcəllə dünyadan getməmiş və qəbri öz vəsiyyətinə görə, gizli saxlanılmış və bu günə qədər də qəbri mə`lum deyildir.

**v)** Bu hadisə Peyğəmbər (s)-in vəfatından bir həftə sonra baş vermiş və bu göstəriş dövrün xəlifəsi tərəfindən verilmiş, icraçısı isə Ömər ibn Xəttab olmuşdur.[2]

**q)** Əhli-sünnə baxımından mö`təbər olan bir çox rəvayətlər[3] Əbu Bəkrin ölüm ayağında acı bir həqiqəti e`tiraf etdiyini təsdiqləyir. Belə ki, Əbu Bəkr demişdir: "Kaş, Rəsuli-Əkrəm (s)-in qızı Fatimənin evini təftiş etməyəydim və mə`murları onun evinə girməyə dair göstəriş verməyəydim, hərçənd, onu mənimlə müharibə etmək üçün bağlamış olsaydı belə!"[4]

---

[1] Bu hadisə faciəli və dəhşətli , onun şahidləri isə evə hücum edənlər olduğundan, qeyri-şiə tarixində onun təfərrüatı nəql olunmamışdır. Bundan əlavə, neçə əsr də xəlifələrin zərərinə tamamlanan tarixi hadisə və rəvayətlərin yazılması qadağan və onları nəql edən isə ölümə məhkum edilmişdi. Ibn Cərir Təbəri və Ibn Əsir kimi tarixçilər Osmanın dövründən neçə əsr keçdikdən sonra Osman tərəfindən Əbuzərin sürgün edilməsini təhriflə və naqis şəkildə nəql edirlərsə, şübhəsiz, xanım Fatimənin (ə. s) evinin mühasirəyə alınmasını təfərrüatı ilə birgə qeyd etməyəcəklər.

Ibn Əsir yazır: "Əbuzərin Mədinədən sürgün və onunla necə rəftar edilməsi haqda elə rəvayətlər vardır ki, onların nəql olunması yaxşı deyildir. Əgər o rəftarlar həqiqət olsa da belə, Osmanı üzürlü hesab etmək lazımdır. Çünki rəhbər öz rəiyyətini ədəbləndirmək hüququna malikdir. Hər halda, xəlifənin şəxsiyyətini qoruyub-saxlamaq üçün, ona irad tutmaq və tə`nə vurmaq yox, imkan daxilində üzr gətirmək lazımdır. ("Əl-kamilu fit-tarix", 3-cü cild, səh. 113, hicrətin 30-cu illərinin hadisələri; həmçinin bax: "Tarixul-ümәm vəl-müluk", Təbəri, 5-ci cild, səh. 2858, Hollandiya çapı.

[2] Tarixçilər yazırlar: "Əbu Bəkr, Ömərə göstəriş verdi ki, Əli və Fatimənin evinə yığışanları nə olursa-olsun, hətta zorla belə, tutub məscidə gətirsinlər. ("Ənsabul-əşraf", 1-ci cild, səh. 587; "Əl-iqdul-fərid", 4-cü cild, səh. 247; "Tarixi Əbil-Fida", 1-ci cild, səh. 165, "Əli və zimamdaran" kitabından nəqlən, səh. 70. )

[3] Sonradan bu mənbələrin adlarını qeyd edəcəyik.

[4] "Tarixi Yə`qubi", 2-ci cild, səh. 115. Bu cümlə başqa ibarələrlə də nəql olunmuşdur.

**d)** Həzrət Fatimənin (ə.s) evinə od vurulmaqla bağlı hadisənin təfərrüatı bir çox mənbələrdə nəql olunmasa da, hücum edənlərin sərkərdəsinin evdəkiləri atəşlə hədələməsi haqda fikir birliyi vardır.

**s)** Əli ibn Əbi Talib (ə)-dan bey`ət almağa tələsməyin – həzrət Fatimənin (ə.s) evinə hücum çəkməklə yanaşı olsa da belə, – müəyyən səbəbləri var idi ki, bu məsələ burada xüsusi şəkildə araşdırılmalıdır.[1]

## HADISƏLƏRIN ŞƏRHI

Əbu Bəkr hakimiyyətə gəlib, Mədinə əhalisi ixtiyar, yaxud icbar və təhdid üzündən bey`ət etdikdən sonra Ömər ibn Xəttab ona dedi: "Əli ibn Əbi Talibdən haçan bey`ət alacaqsan?" Bu zaman Zübeyr, Salman, Miqdad, haşimilərdən olan başqaları və digər səhabələr Fatimeyi-Zəhra (ə.s)-ın evində Əli (ə)-ın yanında saatlar belə qalırdılar. Əbu Bəkr, Öməri onlara doğru göndərib dedi: "Onları bey`ətə də`vət et, əgər imtina etsələr, hamısını öldür!"

Əvvəlcə Qunfuz[2] və ondan başqa bir neçə nəfər iki dəfə Fatimənin (ə) evinə gedib, nəticəsiz qayıtdılar. Bundan sonra Ömər əlinə od tutduğu halda, bir neçə nəfərlə birlikdə onun evinə üz tutdular.[3] O, qapının arxasında durub "Çölə çıxın və hamılıqla Peyğəmbərin xəlifəsi ilə bey`ət edin, yoxsa Allaha and olsun ki, evi içindəkilərlə birgə yandıracağam!" – deyərək qışqırdı.[4]

Fatimeyi-Zəhra (ə.s) onun səsini eşitcək, qəmgin səslə fəryad edərək dedi: "Ey atacan, ey Allahın Rəsulu! Bax, gör, səndən sonra Xəttab və Əbu Qühafənin oğulları bizə necə zülm edirlər!"[5]

O həzrət evin içindən Öməri səsləyərək buyurdu: "Ey Ömər! Bizdən nə istəyirsən? Bizim evimizi yandırmağa gəlibsənmi?"

---

[1] Bunu gələcək bəhslərdə araşdıracağıq.

[2] O, Əbu Bəkrin və Ömər ibn Xəttabın əmisi oğlunun vasitəsilə azad olunmuş qul idi.

[3] "Ənsabul-əşraf", 1-ci cild, səh. 404; "Tarixul-ümәm vəl-müluk", 3-cü cild, səh. 198; "Miləl və nihəl", Şəhristani, səh. 83; "Əl-imamətu vəs-siyasət", 1-ci cild, səh. 13; "Iqdul-fərid", 2-ci cild, səh. 250; "Tarixi Əbil-Fida", 1-ci cild, səh. 156; "Ə`lamun-nisa", 3-cü cild, səh. 1207; "Imam Əli ibn Əbi Talib", 4-cü cild, səh. 373; "Şərhi Nəhcül-bəlağə", Ibn Əbil-Hədid, 1-ci cild, səh. 130 və 134, 2-ci cild, səh. 19, 3-cü cild, səh. 197; "Kənzül-ümmal", 3-cü cild, səh. 140.

Bə`zi mənbələrdə yazılır: "O, əvvəlcə evdəkiləri çölə çağırdı, onlar çölə çıxmadıqda, evi yandırmaqla hədələdi.

[4] "Iqdul-fərid", 4-cü cild, səh. 88; "Ər-riyazun-nüzrə", 1-ci cild, səh. 167; "Şərhi Nəhcül-bəlağə", Ibn Əbil-Hədid, 2-ci cild, səh. 56, 6-cı cild, səh. 48; "Ə`lamun-nisa", 3-cü cild, səh. 12; "Tarixi Əbil-Fida", 1-ci cild, səh. 151; "Tarixul-ümәm vəl-müluk", 2-cü cild, səh. 444; "Imam Əli ibn Əbi Talib", 4-cü cild, səh. 326; "Isbatul-vəsiyyət", səh. 122; "Mürucuz-zəhəb", 1-ci cild, səh. 146; "Tarixi Yə`qubi", 1-ci cild, səh. 527; "Tarixi Xüləfa", 1-ci cild, səh. 12.

Bə`zi mənbələrdə belə gəlmişdir ki, Ömər dedi: "Evə əhli ilə birgə od vuraram!"

[5] "Əl-imamətu vəs-siyasət", səh. 12; "Iqdul-fərid", 4-cü cild, səh. 259-260; "Şərhi Nəhcül-bəlağə", Ibn Əbil-Hədid, 1-ci cild, səh. 134, 2-ci cild, səh. 19; "Tarixul-ümәm vəl-müluk", 2-cü cild, səh. 202; "Ənsabul-əşraf", 1-ci cild, səh. 586, təhqiq: Hüseyn Razi, səh. 261, "Bərrəsiye nəzəriyyeye ədaləti səhabə" kitabından nəqlən, səh. 144; eləcə də bax: "Ə`lamun-nisa", 4-cü cild, səh. 114 (Misir).

Ömər dedi: "Bəli, ya Əbu Bəkrə bey`ət etməlisiniz, ya da sizi yandırmaq üçün özümlə od gətirmişəm! Ey Peyğəmbərin qızı! Allaha and olsun, mənim nəzərimdə atandan sevimli bir şəxs yox idi, bu gün isə ən sevimli şəxs sizsiniz. Allaha and olsun ki, bununla belə, yenə də bu adamlar sizin evinizə yığışsalar, əmr edəcəyəm ki, evi onlarla birgə yandırsınlar.[1] Bəli, bu bey`ət atanın gətirdiyi ən mühüm məsələdir..."[2]

Həzrət Fatimənin (ə.s) evinə hücum etmək məsələsi o qədər dərdli olub ki, Ibn Əbil-Hədid yazır: "Şiələr və bə`zi hədis əhli Fatimənin (ə.s) evinin qapısının yandırılması ilə bağlı hadisəni nəql etsələr də, ona inanmaq qeyri-mümkündür."[3] Bununla belə Məs`udi belə yazır: "Əlinin evinə hücum çəkdilər, evinin qapısını yandırıb, onu zorla evindən çıxartdılar. Qadınların sərvərini qapı ilə divar arasında qoydular və nəhayət, (bətnindəki) Möhsini siqt oldu."[4]

Bir çox şiə və sünnü alimləri yazmışlar: "Xanım Fatimeyi-Zəhranın (ə.s) Həsən və Hüseyndən başqa, Möhsin adlı bir oğlu da var idi."[5]

"Ən-nəqz" kitabının müəllifi yazır: "Xəttab oğlu Ömər qapını Fatimənin bətninə çırpması nəticəsində Rəsuli-Əkrəm (s) tərəfindən Möhsin adlandırılan bətnindəki uşağının siqt olunması" – şiə və sünnülərin kitablarında qeyd olunan doğru xəbər və rəvayətdir. Amma bu da Mühəmməd Müstəfanın (s) kəlamıdır ki, belə buyurmuşdur: "Innəməl-ə`malu bin-niyyat!" (Həqiqətən, əməllər niyyətlərə bağlıdır!) Yə`ni əgər Ömərin məqsədi Fatimənin bətnindəki körpənin siqt olunması yox, yalnız Əlinin evdən çıxıb, Əbu Bəkrin xəlifəliyinə bey`ət etməkdirsə, bunun heç bir maneəsi yoxdur. Çünki mümkündür ki, Ömər, Fatimənin qapı arxasında olduğunu bilməsin. Belə olan təqdirdə, ona "səhvən olan qətl" deyilir. Əgər bunu bilə-bilə etmiş olsa da, bilməliyik ki, o, mə`sum deyildir."[6]

Qeyd etmək lazıdır ki, Əbu Bəkrin ömrünün son anlarında bə`zi hadisələrdən peşmançılıq hissi keçirməsi yalnız Fatimə (ə.s)-ın evinin təftiş və yandırılması ilə bağlı hadisə deyil. O demişdir: "Kaş, Fatimənin evinə hücum çəkməyib, onun

---

[1] "Kənzül-ümmal", 5-ci cild, səh. 651, hədis: 14138, "Bər xaneyi həzrət Fatimə (ə. s) ce qozəşt?" kitabından nəqlən, səh. 27.

[2] "Ənsabul-əşraf", 1-ci cild, səh. 586, Misir çapı, "Bər xaneyi həzrət Fatimə (ə. s) ce qozəşt?" kitabından nəqlən, səh. 20.

[3] "Şərhi Nəhcül-bəlağə", 2-ci cild, səh. 21. O yazır: "Ustadım Əbu Cə`fər Nəqib deyirdi: "Əgər Peyğəmbəri-Əkrəm (s) sağ qalsaydı, Fatiməni qorxudan və bununla övladının siqt olmasına səbəb olan kəsin qanını halal bilərdi. " (Yenə orada, 14-cü cild, səh. 193. )

[4] "Isbatul-vəsiyyət", səh. 122.

[5] "Tarixul-üməm vəl-müluk" (tərcümə), 5-ci cild, səh. 153; "Əl-müstədrəkü ələs-səhiheyn", 3-cü cild, səh. 165; "Müsnədi-Əhməd", , 1-ci cild, səh. 98; "Sünəni Beyhəqi", 6-cı cild, səh. 166, 7-ci cild, səh. 63; "Kənzül-ümmal", 12-ci cild, səh 117, 13-cü cild, səh. 66; "Kifayətut-talib", səh. 352; "Əs-səvaiqul-muhriqə", səh. 115; "Nurul-əbsar", səh. 114; "Əl-kamilu fit-tarix", 3-cü cild. , səh. 397; "Əl-xisal", səh. 634; "Cəmhərətul-ənsabil-ərəb", səh. 16; "Tarixi Yə`qubi", 2-ci cild, səh. 213; "Mənaqibi Ibn Şəhr Aşub", 3-cü cild, səh. 133; "Ənsabul-əşraf", 2-ci cild, səh. 189; "Usdul-ğabə", 4-cü cild, səh. 308; "Tarixul-xəmis", 1-ci cild, səh. 418, "Bər xaneyi həzrət Fatimə (ə. s) ce qozəşt?" kitabından nəqlən, səh. 61; "Irşadi Müfid", 1-ci cild, səh. 355; "Kəşfül-ğümmə", 1-ci cild, səh. 589; "Əl-miləlu vən-nihəl", 1-ci cild, səh. 77, "Zendegiye Fatimeyi-Zəhra (ə. s)" kitabından nəqlən, Cə`fər Şəhidi, səh. 243.

[6] "Ən-nəqz", səh. 317.

hörmətini saxlayaydım, yad kişiləri onun evinə göndərməyəydim, hərçənd, onu mənimlə müharibə etmək üçün bağlamış olsaydı belə![1]

## ƏBU TALIBIN OĞLUNDAN BEY`ƏT ALMAQ

Xəlifənin mə`murları qapını açan kimi, onlarla evdəkilər arasında çəkişmə yarandı. Əli ibn Əbi Talib (ə) də onlara hücum etdi. Lakin özünü hücumdan saxladı və yadına Peyğəmbəri-Əkrəm (s) düşdü ki, ona səbir etməyi tövsiyə etmişdi. Müxaliflər onun səbir edib əl saxladığını gördükdə, ona tərəf yürüdülər, boğazından möhkəm yapışıb, köynəyini boynunun arxasına yığdıqları halda, çəkə-çəkə evdən çıxartdılar[2] və dərhal məscidə apardılar. O həzrət ətrafındakılara buyurdu: "Nə üçün ixtilaf yaratmaq əzmində olmayan, üstəlik müəyyən səbəblər (Qur`anı yığmaq, yaxud Peyğəmbər (s)-i dəfn etmək) üzündən bey`ətə gecikən şəxsi vurursunuz?!" Hər kəs o həzrətlə rastlaşırdısa, ona deyirdi ki, get, bey`ət et![3]

Onlar Əlini zorla Əbu Bəkrin yanına apardılar. Ömər dedi: "Bey`ət etməyincə, səni buraxmayacağıq!"[4] Əli onların cavabında dedi: "Əgər bey`ət etməsəm, nə baş verəcəkdir?" Ona dedilər: "Bu zaman tək olan Allaha and olsun ki, boynunu vuracağıq!" O dedi: "Əgər bu işi görsəniz, onda Allahın bəndəsi və Peyğəmbəri-Əkrəm (s)-in qardaşını öldürmüş olarsınız!" Ömər dedi: "Bəli, Allahın bəndəsisən, lakin Peyğəmbərin qardaşı deyilsən!"[5] Əbu Bəkr isə sakit qalıb tamaşa edirdi. Ömər, Əbu Bəkrə dedi: "Onun haqda bir göstəriş vermək istəmirsənmi?" Əbu Bəkr dedi: "Fatimə onunla birgə olduğu vaxta qədər, onu bir şeyə məcbur etməməliyik!"[6]

Xəlifənin bu sözü acı kinayə və Əli (ə)-ı bir növ qətl ilə hədələmək idi. Çünki o, Ömərin istəyini Fatimə (ə.s)-ın sağ olduğu vaxta qədər məsləhət bilmirdi. Amma

---

[1] "Tarixul-ümər vəl-müluk", 2-ci cild, səh. 353, 4-cü cild (tərcümə), səh. 2140, Liden Holənd çapı; "Əl-əmval", səh. 193; "Şərhi Nəhcül-bəlağə", Ibn Əbil-Hədid, 6-cı cild, səh. 51; "Əl-imamətu vəs-siyasət", 1-ci cild, səh. 18, Misir çapı; "Tarixi Yə`qubi", 2-ci cild, səh. 137; "Əl-iqdul-fərid", 4-cü cild, səh. 268; "Mürucuz-zəhəb", 2-ci cild, səh. 301; "Əl-muğni", Qazı Əbdül-Cəbbar Mö`təzili, 2-ci cild, səh. 340; "Mizanul-e`tidal", 3-cü cild, səh. 109; "Tarixul-Islam", Zəhəbi, 3-cü cild, səh. 118; "Lisanul-mizan", 4-cü cild, səh. 189; "Heydərabad" çapı; "Kənzül-ümmal", 5-ci cild, səh. 632, hədis: 14113, "Bər xaneyi Fatimə (ə. s) ce qozəşt?" kitabından nəqlən, səh. 66-70.

[2] "Əl-iqdul-fərid", 2-ci cild, səh. 298; "Sübhül-ə`şa", 1-ci cild, səh. 228. Bu hadisə ilə bağlı mənbələr olduqca çoxdur.

[3] "Şərhi Nəhcül-bəlağə", Ibn Əbil-Hədid, 6-cı cild, səh. 45.

[4] Yenə orada, səh. 11; "Əl-imamətu vəs-siyasət", 1-ci cild, səh. 11.

[5] Əgər onun məqsədi Peyğəmbərin (s) Əli (ə) ilə qardaşlıq peymanını kökündən inkar etməkdirsə, əhli-sünnə mənbələrində mövcud olan həqiqətin əksini iddia etmək deməkdir. Çünki sünnü hədislərin çoxu Peyğəmbər (s)-in Əli (ə) ilə qardaşlıq peymanı bağladığını nəql etmişdir. ("Əl-müstədrək, 3-cü cild, səh. 15-16; "Tarixi Ibn Əsakir", Imam Əli (ə)-ın tərcümeyi-halı, 1-ci cild, səh. 117; "Yənabiul-məvəddət", 1-ci cild, səh. 55; "Təzkirətul-xəvass", səh. 200, "Əli və zimamdaran" kitabından nəqlən, səh. 32. ) Bəlkə də Ömərin məqsədi bu olsun ki, Əli (ə)-ın Əbu Bəkrin canişinliyi ilə müxalifət etməsi o həzrətlə Peyğəmbər (s) arasında bağlanmış peyman öz e`tibarını itirmişdir!

[6] "Əl-imamətu vəs-siyasət", 1-ci cild, səh. 13. Nüveyri yazır: "Əli camaatın Əbu Bəkrlə bey`ət etdiyini eşitdikdə, əynində yalnız uzun bir köynək olduğu və rida geyinmədiyi halda, tələsik gəlib bey`ət etdi və ridasının evdən gətirilməsini istədi. ("Nihayətul-ərb", 4-cü cild, səh. 37. )

ondan sonra...! Doğrusu, görəsən, xəlifə Peyğəmbəri-Əkrəm (s)-in qızının tez bir zamanda vəfat edəcəyindən xəbərdar idimi?!

Bununla belə, Əli (ə) azad edilmədi, bə`ziləri onun bağlanmış əlini qabağa uzadıb, Əbu Bəkrin əlinə sürtdülər.[1]

Əhli-sünnə tarixində aşağıda adı çəkilənlər Fatimeyi-Zəhra (ə.s)-ın evinə hücum edənlər cərgəsində qeyd edilmişdir:

Əbu Həfs Ömər ibn Xəttab, Xalid ibn Vəlid, Əbdür-Rəhman ibn Ovf, Sabit ibn Şəmas, Ziyad ibn Lübeyd, Məhəmməd ibn Məsləmə, Səlmət ibn Vəqəş, Səlmət ibn Əsləm, Üseyd ibn Xüzeyr, Zeyd ibn Sabit, Əbu Übeydə Cərrah, Salim ibn Übeyd, Üveym ibn Saidə, Mə`n ibn Ədiyy, Bəşir ibn Üveym və Qunfuz Cəz`an.

Bu hadisədən sonra Peyğəmbər (s)-in qızı Fatimə (ə.s) sağ olduğu vaxta qədər, camaat Əli (ə)-a qulaq asırdılar, lakin Fatimə (ə.s) əbədiyyətə qovuşduqdan sonra camaat ondan üz çevirdikdə, o da məcbur olub Əbu Bəkrə bey`ət etdi. (Əlbəttə, bu əhli-sünnənin nəzəridir.)[2]

## FATIMƏNIN (Ə.S) EVINƏ HÜCÜM ETMƏYIN SƏBƏBI

Səqifə hadisəsindən və Əli ibn Əbi Talib (ə)-ın bey`ətindən təqribən beş yüz min gün (14 əsr) keçir və tarixin yazdığı milyonlarla səhifə bu suala hələ də qanedici cavab verə bilməyib: “Əli (ə) və Peyğəmbər (s)-in Əhli-beytinin günahı nə idi ki, onların evinə od vuruldu?!”[3] Əbu Bəkrin Peyğəmbəri-Əkrəm (s)-dən sonra seçilmiş bir şəxs olduğunu fərz etsək də, görəsən, onunla bey`ət etməməyin cəzası yandırılmaq idimi?! Görəsən, Allahın Rəsulu müxalif olan kişi, qadın və uşaqları yandırırdımı?! O həzrətin dövründə yəhudilər də öz əqidələrini qoruyub-saxlamaqla İslam mühitində təhlükəsiz yaşamaq, kimsənin onlara azacıq belə zərər, yaxud hörmətsizlik etməməsi üçün cizyə verirdilər. Görəsən, o həzrətdən sonra qızı, kürəkəni və nəvələri necə...?!

Onların Əli ibn Əbi Talib (ə)-dan bey`ət almağa tələsməsinin səbəbi nə idi? Görəsən, bunun səbəbi yalnız öz hakimiyyətlərinin tez bir zamanda təsbit edilməsini istəmələri idimi? Görəsən, rəqabət, həsəd, paxıllıq, ədavət və düşmənçilik onları bu rəftardan saxladımı? Görəsən, onlar əvvəlcə Fatimədən elçilik etdikləri və nəticədə Peyğəmbər (s) onlara mənfi cavab verdiyi üçün[4] beləcə intiqam almaq istəyirdilər?

---

[1] “Isbatul-vəsiyyət”, səh. 110. Şeyx Müfid yazır: “Şiə tədqiqatçılarının əqidəsi və doğru nəzər budur ki, Əmirəlmö`minin Əli (ə) hətta həyat yoldaşı Fatimeyi-Zəhra (ə. s)-ın şəhadətindən sonra Əbu Bəkrlə əsla bey`ət etmədi. (“Əl-füsulul-muxtar”, 27-ci fəsil. )

[2] “Ər-riyazun-nüzrət”, 1-ci cild, səh. 167; “Şərhi Nəhcül-bəlağə”, Ibn Əbil-Hədid, 2-ci cild, səh. 132 və 6-cı cild, səh. 2; “Tarixul-xəmis”, 1-ci cild, səh. 178.

[3] “Zendeqaniye həzrət Fatimə (ə. s), Cə`fər Şəhidi, səh. 110.

[4] Əhli-sünnə mənbələrində yazılır: “Peyğəmbər (s) Əbu Bəkr və Ömərin Fatimədən elçiliklərinə rədd cavab verərək buyurmuşdur: “Bu məsələ haqda Rəbbimin əmrini gözləyirəm!” (“Tarixi Bağdad”, 1-ci cild, səh. 363; “Ət-təbəqatul-kubra”, 2-ci cild, səh. 240; “Usdul-ğabə”, 1-ci cild, səh. 38; “Mənaqibi Əli ibn Əbi Talib”, Ibn Məğazili, səh. 346; “Kifayətut-talib”, səh. 302, “Bərrəsiye nəzəriyyeye ədaləti səhabə” kitabından nəqlən, səh. 234.

Qeyd edilən bütün amillər tarixi mənbələrdə görünür. Lakin bu amillər təhlil və araşdırmaların bir tərəfidir, burada əsaslı səbəbləri araşdırmaq lazımdır.

Heç kim iddia edə bilməz ki, onlar Peyğəmbəri-Əkrəm (s)-in qızı Fatimə (ə.s) haqda buyurduqlarını eşitməmiş, yaxud unutmuşdular. Axı, Peyğəmbər (s) belə buyurmuşdu:

"Hər kəs Fatiməni incitsə, məni incitmişdir, məni incidən kəs isə Allahı incitmişdir."[1]

Allah-taala buyurmuşdur: **"Həqiqətən, Allahı və Rəsulunu incidən şəxsləri Allah-taala lə`nətləmişdir. Onlar üçün xaredici əzab hazırlanmışdır!"**[2]

Görəsən, onlar Peyğəmbəri-Əkrəm (s)-in bu kəlamını yaddan çıxarmışdılarmı?!

**"Ey camaat! Hər kəs Əliyə əziyyət versə, mənə əziyyət vermişdir... Belələri qiyamət günü ya yəhudi, ya da məsihi dinində məhşərə çıxacaqlar!"**[3]

Bu hadisə o zaman dəqiq və həqiqətə yaxın olar ki, onların rəftarı ictimai-siyasi şəxsiyyətlərini nəzərə almadan araşdırılsın və tədqiqatçı hadisəni Islam məzhəblərinin ixtilafı ilə tanışlığı olmayan kəs kimi təhqiq etsin.

Burada aşağıdakı məsələləri araşdırmaq daha yerinə düşərdi:

a) Tarixin danılmaz məsələlərindən biri də budur ki, Peyğəmbəri-Əkrəm (s)-in vəfat zamanı yalnız bir qızı var idi və onu həddən artıq sevirdi, onun Əli ibn Əbi Talib (ə)-la ailə qurması da Allahın əmri ilə olmuşdur. Əli ibn Əbi Talib (ə) də o həzrətin yanında ən sevimli bir şəx idi.[4]

b) Tarixi şahidlər göstərir ki, Peyğəmbəri-Əkrəm (s)-in göstərişlərinə qarşı çıxmaq o həzrətin vəfatından sonra birdən-birə olmamış, əksinə bu iş tədrici olaraq – həftələr, bəlkə də illər öncə başlanmışdır. Ilk müxalifət sonrakı dağıdıcı müxalifətlər üçün şəraiti hazırladı. Camaat da sanki belə hallara adət etdilər. Bə`zən müşahidə edirdilər ki, Rəsuli-Əkrəm (s) səbir və təmkinlə onların hamısına dözür, müxalifət edənləri müsəlmanların içərisindən qovmur, islah, yaxud digər hikmətlər ümidi ilə onları özünə yaxınlaşdırırdı.

Həmçinin mə`lum olduğu kimi, müxalifətə cür`ətlənmək o zaman şiddətləndi ki, onlar Rəsuli-Əkrəm (s)-in tezliklə əbədiyyətə qovuşacağını bildilər. Necə ki, yeni tərəfdarların aşkara çıxması onların həyəcanını daha da artırırdı. Yavaş-yavaş niyyət və məqsədlərini faş edən hər növ müxalifət bir çoxlarını müştərək hədəflər üzərində qururdu. Onların gizli məqsədləri isə özlərinə tərəfdar tapdıqda, ictimai-siyasi təşəkkül kimi görünürdü. Hər bir yeni fəryad yeni-yeni qrupları ətrafına toplayırdı

---

[1] "Səhihi Buxari", 5-ci cild, səh. 274; "Səhihi Müslüm", 4-cü cild, səh. 261; "Əl-müstədrəkü ələs-səhiheyn", 3-cü cild, səh. 154; "Zəxairul-uqba", səh. 39; "Əs-səvaiqul-muhriqə", səh. 105; "Müsnədi-Əhməd", , 4-cü cild, səh. 328; "Əl-camius-səhih", Termizi, 2-ci cild, səh. 219.

[2] "Əhzab" surəsi, ayə: 57.

[3] "Müsnədi-Əhməd", , 3-cü cild, səh. 483; "Əl-müstədrəkü ələs-səhiheyn", 3-cü cild, səh . 122; "Kənzül-ümmal", 6-cı cild, səh. 152; "Əl-isabə" kitabının haşaiyəsində çap olunan"Əl-istiyab" kitabı, səh. 37; "Əs-səvaiqul-muhriqə", səh. 123; "Nurul-əbsar", səh. 89; "Tarixul-xüləfa", səh. 226.

[4] "Tarixi Yə`qubi", 1-ci cild, səh. 401; "Usdul-ğabə", 1-ci cild, səh. 206; "Əs-səvaiqul-muhriqə", səh. 171; "Məqtəlül-Hüseyn", Xarəzmi, 1-ci cild, səh. 60.

ki, uyğun və möhkəm qruplar şəklində düşərək, asanlıqla dağılıb aradan getməsinlər.

v) Bə`zən cəmiyyətin siyasi vəziyyəti və camaatın ictimai mövqeyi elə böhranlı olurdu ki, hər kəs azacıq belə, haqq-ədalətdən tərəfdarlıq etsəydi, köklü ixtilaflar daha genişlənərək, nə haqq, nə də batil tərəflərdən bir kəs qalmayacaq, insanların əqidələri tamamilə itəcəkdir. Burada öz məqsədinə nail ola bilənlər yalnız xarici düşmənlər olacaqdır.

Peyğəmbəri-Əkrəm (s)-in vəfatından sonra Mədinənin vəziyyəti eynilə belə idi. Əli (ə)-a çətinlik yaradanlar zahirdə bu işdən ikitərəfli məqsəd güdürdülər. Mədinəyə hakim kəsilən siyasi durum elə idi ki, Əli (ə) onların müqabilində hər bir üsuldan istifadə etsəydi də, qələbə çalmayacaqdı. Əgər qiyam etsəydi, buna şərait olmadığından, özünün və həqiqi islamçıların həlak olmasından əlavə, Islam və müsəlmanların xeyrinə qurtarmayan dərin ixtilaf və dəhşətli qırğın baş verəcək, bununla da müsəlmanların düşmənləri vəziyyətə hakim kəsiləcəkdi. Əgər təslim olsaydı da, müxalif qrup asanlıqla hökumətə çatacaqdı.

Beləliklə, Fatimə (ə.s) və Əli (ə)-ın evinə hücum edənlərin nəzərində o həzrətin hansı mövqe seçməsi çox da əhəmiyyət daşımırdı. Baxmayaraq ki, dəqiq bilirdilər ki, o həzrət sakitcə və öz ixtiyarı ilə bey`ət etməyəcək. Onlar belə böhranlı vəziyyətdə imam Əli (ə) barədə agahlıqlarını nəzərə almaqla, o həzrətin müxalifətindən sevindikləri qədər, onun təslim olmasından da xoşhal deyildilər. Çünki onun təslim olması ilə yenindən qiyam etmə ehtimalı aradan getmirdi. Lakin müxalifət etdikdə, qətlə yetiriləcək və həmişəlik olaraq onun ehtimal veriləcək hərəkatından rahat olacaqdılar. Əgər öldürülməsə də, böhran nəticəsində müsəlmanların mövqeyi cahiliyyət vəziyyəti kimi olacaqdı. Bu isə dünyəvi məqam düşkünləri üçün Islamın qorunub-saxlanmasından yaxşı idi.

Buna əsasən, Əli (ə)-ın evinə hücum tədbiri çox dəqiq şəkildə icra edildi və onların o həzrətlə rəftarı gözlənilməz deyil, tədbirlə baş verdi. Əgər Əli (ə) bey`əti tərk etməkdə müqavimət göstərsəydi, müxaliflərin çox da zərərinə olmayacaqdı. Çünki bu zaman müxaliflərin əlində Mədinəyə hakim olan vəziyyəti daha da qarışdırmaq üçün münasib bəhanələri var idi. Bu vəziyyət isə Əli (ə)-ı hədəfinə yaxınlaşdırmır, müsəlmanların cahiliyyət dövrünə qayıtmaları üçün zəmin yaradırdı.

q) Peyğəmbəri-Əkrəm (s)-ə qarşı (vəsiyyəti yazmağa kağız-qələm istədiyi zaman) aşkar hörmətsizlikdən sonra Əli ibn Əbi Talib (ə)-la mübarizə elə də çətin deyildi. O həzrətə itaətin vacibliyindən dəm vuranların əsası Peyğəmbəri-Əkrəm (s)-in Allah tərəfindən əmr olunduğu vəsiyyəti idi. Bu isə Əli (ə)-ı xilafətdən kənarlaşdırmaq üçün ən yaxşı yol Peyğəmbəri-Əkrəm (s)-in şəxsiyyətinə toxunmaq idi və bu, o həzrət vəsiyyət üçün kağız-qələm istədikdə, icra olundu. Beləliklə, Peyğəmbər (s) vəfat etdikdən sonra Əli (ə)-ın müxalifət, yaxud hətta müharibə etmə mövqeyində deyildi. Çünki onun bütün qüdrət və nüfuzu Peyğəmbər (s) tərəfindən idi. Peyğəmbər (s)-in şəxsiyyəti də az müddət öncə vəsiyyət zamanı adi adamlarla müqayisədə dəyərdən salındı. Çünki adi adamlar – hətta iki dirhəm sədəqəni belə,

vəsiyyət edərkən onlarına sözlərinə qulaq asılır və itaət edilirdi. Amma görəsən, Peyğəmbəri-Əkrəm (s) vəsiyyət etmək istədikdə, necə oldu?!

Bəli, o dövrün siyasətçiləri Peyğəmbəri-Əkrəm (s)-in Əli (ə) və Fatimeyi-Zəhra (ə.s) barəsindəki buyruqlarını unutmamış, bu sözləri başqa müsəlmanlardan da çox eşitmişdilər. Çünki onlar Peyğəmbər (s)-dən uzaq və ayrı düşməməyə, müəyyən səbəblər üzündən həmişə o həzrətlə birgə olmağa çalışırdılar. Bəlkə də onlar mə`murları Əli (ə) və Fatimeyi-Zəhra (ə.s)-ın evinə göndərməklə, Peyğəmbər (s)-in göstərişlərinə itaət etməyin artıq vaxtının başa çatdığını bildirmək istəyirdilər. Çünki bu zaman Əhli-beytə itaət etmək ən əhəmiyyətli məsələ idi ki, Peyğəmbəri-Əkrəm (s) həmişə, xüsusilə ömrünün son vaxtlarında müsəlmanları ona əmr edirdi. Buna əsasən, bu hədəfin siyasi hərəkətlərə mə`ruz qalması ilə, digər hədəflərin aradan qaldırılması da asanlaşırdı. Bunun üçün bir həftəni belə itirmək olmazdı. Peyğəmbər (s)-ə hörmətsizlik xatirəsi müsəlmanların zehnində qaldığı və müxaliflərin qüdrətindən qorxu hissi ürəklərdən getmədiyi vaxtda, bu iş görülməli, ardıcıl zərbələr endirilməli idi. Fatimənin (ə.s) evinə icazəsiz girmək, evinin qapısını yandırmaq, Əlini (ə) evdən zorla çıxarıb məscidə aparmaq və onu qılıncla təhdid etmək, Fədəki almaq, Əhli-beytə xumsu verməyin qarşısını almaq və s. bütünlükdə az bir müddət ərzində yerinə yetirilməli idi. Belə də oldu.

Bu məsələlər zəncir halqaları kimi bir-birinə birləşmişdi. Peyğəmbəri-Əkrəm (s)-in (vəsiyyətlə bağlı) istəyinə qarşı çıxıldığı gün Əli (ə)-ın müxalifləri üçün o istəyi həyata keçib-keçməməsi elə də əhəmiyyət kəsb etmirdi, üstəlik Peyğəmbəri-Əkrəm (s)-in şəxsiyyətini təhqir edilməsi ilə nəticələnən hörmətsizliyin həmin istəyin yerinə yetib-yetməməsindən əhəmiyyətli idi. Çünki bu hərəkətlə Əli (ə)-ı xilafətdən asanlıqla uzaqlaşdırmaq olardı. Həqiqətdə də Peyğəmbər (s)-ə qarşı rəva görülən hörmətsizliklə Əli (ə)-ın xilafətinə zərbə endirildi. Peyğəmbər (s)-ə vurulan hörmətsizlik zərbəsi həqiqətdə Əliyə (ə) zərbə idi ki, ona səbir edib dözən Peyğəmbər (s) oldu.

d) Peyğəmbər (s)-ın vəfatından dərhal sonra qurulmuş yeni hökumət başçıları üçün razılıqları Allahın razılığı, qəzəbləri Allahın qəzəbi sayılan şəxsiyyətlərin vücudu çətinlik yaradırdı. Hakimiyyətinin ilk günündə açıq-aydın "Həmişə mənimlə, məni xəta və azğınlığa sövq edən bir şeytan gəzir!" – deyən xəlifə öz xilafəti dövründə Peyğəmbəri-Əkrəm (s)-in "O (Əli) həmişə haqq ilə, haqq da onunladır,[1] onu düşmən tutan kəs münafiqdir...!"[2] – deyə buyurduğu Əli kimi rəqibə necə dözəcəkdi?

Əgər onun şəxsiyyəti kiçildilməsəydi, ümümi düşüncələrin təzyiqi nəticəsində, ya hökumət ona tapşırılmalı idi, ya da həmişə xalq hökumətin rəftarı müqabilində hər bir məsələdə onun nəzərini me`yar qərar verərək hakim dairənin rahatlığını

[1] "Əl-müstədrəku ələs-səhiheyn", 3-cü cild, səh. 124, hədis: 61; "Əl-bidayətu vən-nihayə", 7-ci cild, səh. 321, "Əlinin (ə) fəzilətləri" bölümü; "Məcməüz-zəvaid", 9-cu cild, səh. 135; "Sünəni Termizi", 13-cü cild, səh. 166, "Əlinin fəzilətləri" bölümü.

[2] "Ət-təbəqatul-kubra", 1-ci cild, səh. 17; "Müsnədi-Əhməd", , 1-ci cild, səh. 84 və 95; "Səhihi Termizi", 13-cü cild, səh. 177; "Xəsaisi Əmiril-mu`minin", səh. 27; "Şərhi Nəhcül-bəlağə", Ibn Əbil-Hədid, 1-ci cild, səh. 373; "Ehqaqul-həqq", 7-c cild, səh. 159-208; "Biharul-ənvar", 27-ci cild, səh. 145.

alacaqdı. Əgər onlar bu məsələdə azacıq belə gecikməməliydilər. Bunun müvəffəqiyyətlə yerinə yetməsi ilə ictimai-siyasi məqsədə çatmaq asanlaşırdı. Bu zaman Əbuzərin sürgün edilməsi, Əmmar Yasirin işkəncələr görməsi, Abdullah ibn Məs`udun qabırğalarının sındırılması, Qur`anların yandırılmasının, Peyğəmbər (s)-in hədislərinin yazılmasının, hətta bəyan edilməsinin qadağan edilməsi və s. çox asan idi.

c) Həmin ictimai əzəmət, şövkət və nüfuzun aradan getməsi bəhanəsiz qeyri-mümkün olduğundan, mütləq ağır ittihamlara əl atmılmalı idi. Səqifədə və ondan az müddət sonra Peyğəmbər (s)-in ömrünün son anlarında Əli ibn Əbi Talib (ə)-ın canişinliyi haqda buyuruqlarının həqiqətdə ləğv olunduğu qələmə verildi. Beləliklə, hökumətin rəhbərliyi xalqın, yaxud elm və siyasət əhlinin seçiminə həvalə edildi. Bu zaman Əli (ə) xalq tərəfindən seçilən xəlifə ilə müxalifət edərsə, zorla bey`ətə vadar olunmalı, müxalifətdən çəkindirilməli, onun bey`ət etməməsi isə müsəlmanların vəhdət və birliyinin itməsi deməkdi. Buna əsasən, imkan daxilində belə bir kəsi xalq seçiminə vadar etmək lazım idi. O zaman keçmiş müxaliflər (Peyğəmbəri vəsiyyət etməyə qoymayanlar) rahatlıqla belə deyirdilər: "Bu gün artıq aramızda Peyğəmbər yoxdur ki, Əlinin xilafəti ilə bağlı vəsiyyətin icra olunmadığını və bu məqamın başqalara nəsib olduğunu görsün!"[1]

Bu yozumla Peyğəmbər (s)-in Əhli-beyti, xüsusilə Əli (ə) lazımi şəraitin mövcud olmadığını nəzərə alaraq, inqilab və yeni təşkil olunmuş hökuməti məhv etmək qərarına gəldiyi üçün (hakim dairələr tərəfindən) onların ismət məqamı və uca şəxsiyyəti Peyğəmbəri-Əkrəm (s)-in yaşadığı dövrə aid edildi. Sanki Peyğəmbəri-Əkrəm (s)-in həzrət Əli (ə)-ın şə`ni və məqamı haqda buyurduqları bütün hədislər müsəlmanların məsləhətinin əksinə rəftar etmədiyi təqdirdə, mö`təbər sayılacaqdı. O, müsəlmanların hərəkətinin əleyhinə qədəm götürmək istəyərsə, mütləq onunla ciddi davranmaq lazımdır, hərçənd, evini, yaxud özü və əhli-əyalanı yandırmaqla olsa da belə!

Qazı Əbdül-Cəbbar Mö`təzili bu yozumu müdafiə edərək yazır:

"Evin yandırılması doğru olduğu təqdirdə, yenə Ömərə heç bir irad tutula bilməz. Çünki o, bey`ətdən imtina edən və müsəlmanlar arasında ixtilaf yaradan hər kəsi təhdid edə bilərdi."[2]

Qazının bu yozumu həqiqətdə Ömər ibn Xəttabın xanım Fatimeyi-Zəhra (ə.s)-a dediyi cümlədən doğur. Ömər demişdir: "Sənin atanın gətirdiklərini qoruyub-saxlamaq bu evi yandırmaqdan daha əhəmiyyətlidir. Ümmətin inandıqları və yerinə yetirdiklərinə əməl etməsəniz, evi yandıracağam..."[3]

Ibn Əbil-Hədid yazır:

---

[1] "Şərhi Nəhcül-bəlağə", Ibn Əbil-Hədid, 12-ci cild, səh. 86-87.

[2] Yenə orada, 16-cı cild, səh. 272.

[3] "Əl-iqdul-fərid", 5-ci cild, səh. 12; "Əl-müxtəsəru fi əxbaril-bəşər", 1-ci cild, səh. 156, "Bər xaneyi həzrət Fatimə (ə. s) çe qozəşt" kitabından nəqlən, səh. 22 və 25.

"Nə yaxşı olardı ki, o iki nəfər (Əbu Bəkr və Ömər) Fatimənin evinin hörmətini saxlayardılar. Lakin (nə etmək olar,) onlar ixtilaf və təfriqənin yaranmasından qorxub, məsləhət gördüklərinə əməl etdilər."[1]

ç) Peyğəmbər (s)-in canişinlərinin ismət məqamının kiçildilməsi başqa bir tədbirin icrasına da ehtiyac duyurdu. Bu isə səhabələrin rə`y və ictihad haqqına malik olduqları nəzəriyyə idi. Bir tərəfdən Əlinin (ə) və Peyğəmbər (s)-in xanədanının məqam və mənziləti adi həddə enməli, digər tərəfdən də digər səhabələrin məqamı ucalmalı idi. Buna əsasən, aydın olur ki, Peyğəmbər (s)-in rə`y və nəzəri müqabilində duran həmin səliqələr səhabələrin də qanunvericilik və şəriəti təfsir etməkdə rə`y və ictihad haqqına malik olduqlarını təsbit etməkdən başqa bir məqsəd güdmür. Bu nəzəriyyəyə əsasən, müsəlmanların xəlifəsi öz müxaliflərini istədiyi kimi təslim etmə hüququna malikdir, istər həmin müxalif şəxs Sə`d ibn Übadə olsun, istərsə də Əli ibn Əbi Talib (ə).

Fatimənin (ə.s) evinə hücum edənlər heç vaxt demirdilər ki, biz qüdrəti ələ aldığımız üçün müxaliflərimizi əzmək istəyirik! Onların sözü bu idi: "Peyğəmbər (s)-in rə`y və nəzəri başqa, onun canişini olan xəlifənin nəzəri isə gördüklərinizdir! O həzrətin öz rə`y və nəzəri olduğu kimi, xəlifənin də başqa ictihad və səliqəsi vardır! Məgər indiki xəlifə Allahın hansısa bir hökmünü dəyişibmi?! Ictimai-siyasi məsləhətləri ayırd etmək bizim aramızdan gedən Peyğəmbərin öhdəsində deyil, əksinə xalqın öz öhdəsindədir. O həzrətin işi halal-haramları bəyan etmək idi və ictimai işləri xalqa tapşırmışdı.[2]

Birinci xəlifə müsəlmanların hüzurunda Peyğəmbər (s)-in sünnəsinə əməl etmək üçün and içdi. Lakin bu andın mə`nası özünün xüsusi nəzər və ictihada malik olmadığı demək deyildi. Necə ki, sonralar öz nəzərinə əsaslanmaqla elə işlər gördü ki, sözsüz, Peyğəmbər (s) sağ olsaydı, onları görməzdi.[3]

Ondan sonra ikinci xəlifə açıq-aşkar dedi: "Mən, Peyğəmbərin dövründə halal olan iki şeyi haram edir və onları yerinə yetirənləri cazalandıracağam: Onların biri "təməttö həcci", digəri isə "müvəqqəti evlənmək"dir."[4]

Üçüncü xəlifə isə siyasi-dini işlərdə iki şərtə eyni şəkildə əməl etməyi əhd etdi:

1. Peyğəmbəri-Əkrəm (s)-in sünnəsi;

2. Özündən əvvəlki iki xəlifənin üslubu.

Beləliklə, bir neçə ildən sonra xəlifələrin rə`y, nəzər və ictihadı Peyğəmbər (s)-in nəzəri ilə eyni oldu . Bu isə xəlifələrin siyasəti idi.[5]

---

[1] "Şərhi Nəhcül-bəlağə", 6-cı cild, səh. 50.

[2] Yenə orada, 12-ci cild, səh. 83.

[3] O cümlədən, Fatimənin (ə. s) evinə hücum etmək, Əlini (ə) zorla bey`ətə çağırmaq, Əhli-beytdən Fədəki almaq və gələcək bəhslərdə işarə edəcəyimiz digər işlər.

[4] "Sünəni Beyhəqi", 5-ci cild, səh. 20 və 7-ci cild, səh. 206; "Şərhi məanil-asar", səh. 374-375; "Kənzül-ümmal", 8-ci cild, səh. 2934 "Müsnədi Təyalisi", 7-ci cild, səh. 277; "Əl-isabə", 3-cü cild, səh. 114.

[5] Bu nəzəriyyədən qaynaqlanan başqa bir nəzəriyyə isə "səhabənin ədaləti" məsələsidir və bu nəzəriyyəyə əsasən, bütün səhabələr behişt əhlidir və heç bir vəchlə cəhənnəmə getməyəcəklər. ("Əl-isabə", 1-ci cild, səh. 9-10, "Bərrəsiye nəzəriyyeye ədaləti-səhabə", səh. 19. ) Bu nəzəriyyəyə əsasən, Əli ibn Əbi Talib (ə)-ı qətlə yetirən Ibn Mülcəm nəinki günah etməmişдир, üstəlik o, bu işə görə mükafat

## MÜXALIFLƏRI VƏ YÜRÜŞ EDƏNLƏRI MƏHKUM ETMƏK

Peyğəmbəri-Əkrəm (s) "həccətül-vida"dan (vida həccindən) qayıtdıqdan sonra bir neçə nəfər – Müseyləmə Yəmamədə və Əsvəd ibn Kə`b Ənsi Yəməndə Peyğəmbərlik iddiası etdilər. Lakin Yəmənin sərkərdəsinin tədbiri ilə Əsvəd ibn Kə`b, Peyğəmbəri-Əkrəm (s)-in vəfatından bir gün qabaq öldürüldü.[1]

Bəni-Hənifə tayfasından Müseyləmə 10-cu hicri ilində Mədinəyə gəlib, Islamı qəbul etdi. Lakin vətəninə qayıtdıqdan sonra, yenə Peyğəmbərlik iddiası edib, yavaş-yavaş özünə tərəfdar topladı.

Bəni-Təğlib tayfasından (Musil şəhərinin ətraf nahiyələrində) Haris ibn Süveydin qızı Səccah da Peyğəmbərlik iddiası etdi. O, əslində Bəni-Yərbu tayfasından (Bəni-Təmim tayfasının bir qoludur), ana tərəfindən isə "Bəni-Təğlib" tayfası ilə qohum idi. Bir müddət keçdikdən sonra işində uğur qazana bilmədiyi üçün müsəlman oldu və Müaviyənin dövrünə qədər ömür sürdü.[2]

Bəni-Əsəd tayfasından isə Tüleyhə[3] adlı bir şəxs Nəcddə Peyğəmbərlik iddiası ilə qiyam etdi və Teyy qəbiləsi kimi (onların rəisi Ədiyy ibn Hatəmi müstəsna etməklə) bə`zi qəbilələr Bəni-Əsəd tayfası ilə əhd-peyman bağlayaraq ona qoşuldular.

Əbu Bəkr xilafətə çatdıqda, camaat Mədinənin ətraf nahiyələrindən müxalifət məqsədilə bə`zilərinin Peyğəmbərlik iddia etdiyini az-çox eşitmişdilər. Lakin bu dövrdən sonra baş verən müxalifətlər özünə başqa forma alsa da, onların mahiyyəti adi camaata çox da aydın deyil, hər qiyam və yürüşlərin təfərrüatından yalnız onların tərəfdarları və hakim dairə xəbərdar idi. Ondan sonra isə ətraf məntəqələrdən eşidilən müxalifət səsləri Müseyləmə, Səccah və Tüleyhənin yürüşlərinə təfsir edilir, bənzədilir və Mədinə müsəlmanlardan bir qrupu xəlifənin əmri ilə onları məhkum etmək üçün həmin yerlərə göndərilirdi. Üsamənin ordusu (Əbu Bəkrin xilafətindən təqribən iki ay sonra) Şamdan qayıdandan sonra onlarla ciddi şəkildə müharibə başlandı və bir ildən çox davam etdi.

Bir neçə məsələ müsəlman qüvvələrinin hökumət müxaliflərini məhkum etmələrini asanlaşdırırdı ki, onlar aşağıdakılardan ibarətdir:

---

дa alacaqdır. Ibn Həzm "Əl-muhəlla" kitabında yazır: "Həsən ibn Əli (Əlinin qisasını almaq məqsədilə) Ibn Mülcəmi öldürmək hüququna malik deyildir. Çünki Ibn Mülcəm öz ictihadına əməl edərək Əlini öldürmüşdür. Əgər o, ictihadında səhv etmiş olsa, Allahın yanında bir əcr və savabı, əks təqdirdə isə iki savabı vardır. ("Əl-muhəlla", 10-cu cild, səh. 484; "Əl-fəsl", 4-cü cild, səh. 161, "Seyri dər Əl-qədir" kitabından nəqlən, səh. 62. )

[1] Əsvəd ibn Kə`bin adı Əbhələ ibn Kə`b ibn Ovf Ənsi, ləqəbi isə Zul-Himar idi. O, bir ulağı elə tə`limləndirmişdi ki, ona "Allaha səcdə et!" – dedikdə, səcdəyə gedirdi. Peyğəmbərlik idiası etdikdən üç ay sonra qətlə yetirildi. ("Nihayətul-ərb", 4-cü cild, səh. 53-54. )

[2] "Tarixi Islam", Əli Əkbər Fəyyaz, səh. 137-138.

[3] Tüleyhə ibn Xuveylid ibn Nufəl Əsədi ərəb qəbilələrinin rəisi idi. . Onun əsl adı Təlhə olsa da, təhqir məqsədilə adını kiçildərək Tüleyhə deyilirdi.

1. Mədinə əhalisinin ətraf nahiyələrdə yaşayan qəbilələrin müxalifət və yürüşlərinin məqsədindən dəqiq agah olmadıqları üçün Peyğəmbərlik iddiasını edənlərin müxalifətləri onların bu müxalifət və yürüşlərini təhlil edirdi.

2. Müxalifət edənlərlə döyüş Peyğəmbəri-Əkrəm (s)-in ömrünün axırıncı ilində baş vermişdi və bu iş Əbu Bəkri o həzrətin yolunun davamçısı göstərirdi.

3. Mədinədə Peyğəmbəri-Əkrəm (s)-in vəfat etməsi ilə baş verən böhran camaatı ətraf qəbilələrin hücumundan qorxutduğundan, onlar tez bir zamanda düşmənlərin həmrə`yliyindən öncə hökumət və şəhərin mövqeyini qoruyub-saxlamaq üçün müxaliflərin əleyhinə qalxmağa tədbir gördülər.

4. Bə`zi qəbilə başçıları tezliklə Mədinəyə hücum etməklə bağlı xəbər göndərib məqsədlərini bildirməklə camaatı döyüşə rəğbətləndirirdi.

5. Mədinəyə hakim kəsilən böhranlı vəziyyətə diqqət yetirməklə yanaşı hökumət müxaliflərinə qarşı döyüşdə iştirak etməmək bir növ münafiqlik və xarici müxaliflərlə həmkarlıq hesab edilirdi.

## MÜXALIFƏTIN SƏBƏBLƏRI

Əbu Bəkrin hökuməti bütün müxalif qüvvələrini "mürtəd" adlandırıb, bu ittihamla onlarla döyüşə çalışsa da, onların hamısını mürtəd adlandırmaq olmazdı. Bu ittiham canlı qüvvələri hökumət müxaliflərinə qarşı qaldırmaq üçün ən yaxşı vasitə idi. Bu hadisələri təfərrüatı ilə araşdırdıqda, mə`lum olur ki, müxaliflərin böyük bir qrupu həqiqətdə mürtəd olmadıqları kimi, onlara qarşı hörmətsizlik etmək və döyüş qalxmaq da düzgün deyildi, hərçənd, xəlifənin əmrinə əsasən, hər kim təslim olmasa, ya öldürülməli, ya yandırılmalı, eləcə də əhli-əyalı əsir olunmalıdır.[1]

Bu mövzu ilə əlaqədar çoxlu kitab yazıldığı üçün, biz burada onu qısa izah etməklə kifayətlənirik:

Irtidad böhranı və xalq qiyamına zəmin yaradan amillərin ən mühümü Peyğəmbəri-Əkrəm (s)-in vəfat xəbərinin yayılması ilə Əbu Bəkrin hökumətə çatmasının eyni zamanda baş verməsi idi. Çünki Ərəbistan yarımadasının ətraf qəbilələrinin Peyğəmbəri-Əkrəm (s)-in nümayəndələri sayılan qəbilə başçıları ilə birlikdə o həzrətdən sonra Əli ibn Əbi Talib (ə)-ın canişin olmasından müəyyən qədər mə`lumatları olduğu üçün Əbu Bəkrin xilafət kürsüsündə əyləşməsindən təəccübdə idilər. Canişinlik məsələsi ilə bağlı səhabələr arasındakı ixtilafın tezliklə hər tərəfə yayılması imanı zəif olan qəbilələri şəkk və tərəddüdə düçar etdi. Onlar belə düşünürdülər ki, Peyğmbər (s)-in səmimi və seçilmiş səhabələri hökumət barəsində eyni fikrdə olmadığı və o həzrətin mirasına sahib olmaqda bir-birləri ilə ixtilaf etdiyi halda, başqalarından nə gözləmək olardı?!

Həmişə onlara xəbər çatırdı ki, Peyğəmbər (s)-in ardıcılları hökumət üzərində bir-birlərinin əleyhinə çıxmışlar. Digər tərəfdən isə o həzrətin Əhli-beyti və Sə`d Xəzrəcinin dəstəsi yeni xəlifə ilə bey`ət etməmişlər. Bu xəbərlər onların əqidələrini müəyyən qədər süstləşdirmişdi.

---

[1] "Tarixul-ümən vəl-müluk", 3-cü cild, səh. 226-227.

Müxaliflər müxtəlif məqsəd və fikirdə olduqları üçün Əbu Bəkr onların əleyhinə qərar çıxarmaqda çətinliklə üzləşərək, onların hamısını bir ittihamla məhkum edə bilmirdi. Onun müxalifləri məhkum etməkdə gördüyü ən mühüm iş onların eyni fikirdə olmalarını qələmə vermək idi. O, bununla bütün bu qrupları Peyğəmbər (s)-in hökumətinə qarşı çıxan və yenidən cahiliyyət əqidələrini dirçəldən tüğyançı mürtədlər kimi tanıtdırmağa çalışırdı. Bu o zaman idi ki, bə`zi qəbilələr Mədinəyə hücum etmək üçün hazırlaşırdılar. Buna əsasən, o, camaatı yığmaqla onların əleyhinə qanlı müharibə başladı, bu müharibədə minlərlə adam öldürüldü. Xəlifə ərəb tayfalarına xitab edərək dindən çıxan hər kəsin tövbə etmədiyi təqdirdə qətlə yetirilməsi, yandırılması və əhli-əyalınının əsir edilməsi ilə bağlı sərəncam verdi.

Bu hökmün Islam baxımından heç bir əsası yox idi və yalnız xəlifənin şəxsi ictihadından doğurdu. Islam dini xüsusilə mürtədlərə qarşı son dərəcədə ehtiyatı gözləmiş və heç vaxt onları əqidələrində şübhəyə düçar olduqlarını ehtimal verən kimi cəzalandırmır və irtidada məhkum etmir.

Şiə və əhli-sünnə mənbələrində belə yazılır: "Xəlifənin müharibə etdiyi müxalif qüvvələrinin əksəriyyəti tövhid və nübüvvətə inanır və namaz qılırdılar." Ibn Kəsirin dediyi kimi, Ibn Macəni müstəsna etməklə, bütün hədis alimləri belə yazmışlar: "Ömər, Əbu Bəkrə e`tiraz edərək dedi: "Nə üçün Peyğəmbərin sünnəsinə qarşı çıxıb, Allahın birliyinə və Peyğəmbərin risalətinə şəhadət verənlərlə döyüşürsən?"[1] Əbu Bəkr cavab verib dedi: "...Allaha and olsun! Namazla zəkat arasında fərq qoyan (yə`ni namaz qılan, lakin zəkat verməyən) kəslə həmişə döyüşmək lazımdır. Əgər bir illik zəkatlarını mənə verməsələr, onlarla müharibə edəcəyəm!"[2]

Təlihəyə qoşulan Əsəd, Qətfan və Teyy qəbilələri Əbu Bəkrin yanına bir neçə nəfəri nümayəndə yollayıb, "Biz namaz qılırıq, lakin sənə zəkat vermək istəmirik!" – deyə xəbər göndərdikdə, xəlifə demişdi: "Əgər zəkat verməkdə dəvənin ayağının ipi qədər belə səhlənkarlıq etsələr, onlarla döyüşəcəyəm!"[3] Onlar Mədinənin ətrafında yaşayan qəbilələrinin yanına qayıdıb dedilər ki, Mədinə hökuməti buna razılıq vermir. Buna görə də Mədinəyə hücum etmək üçün ən yaxşı vaxt indidir. Çünki müsəlmanların çoxu Üsamənin ordusundadır və onun ordusu da Şam sərhədlərinə doğru hərəkət etməyə hazırlaşırlar.[4]

Xəlifə vəziyyətin böhranlı olduğunu gördükdə, Əli ibn Əbi Talib (ə)-ın himayəsini cəlb etməklə Mədinənin mühüm çıxış yollarını Təlhə, Zübeyr və Abdullah ibn Məs`uda tapşırdı,[5] əhalini məscidə çağırıb onlara dedi: "Ətraf

---

[1] "Əl-bidayətu vən-nihayə", 6-cı cild, səh. 311.

[2] "Əl-imamətu vəs-siyasət", 1-ci cild, səh. 35. Səhabələrin çoxu onun belə şəxslərlə müharibə etməsi ilə razılaşmamış, yalnız hakim olduğu üçün ona tabe olmuşlar. ("Camiu bəyanil-elm", 2-ci cild, səh. 104 və 125. )

[3] "Əl-bidayətu vən-nihayə", 6-cı cild, səh. 311.

[4] Əbu Bəkr, Peyğəmbərin (s) vəfat etdiyi gün öz carçısına göstəriş verib dedi ki, Üsamənin ordusundan heç kəs Mədinədə qalmasın və mütləq Corf ordusuna qoşulsun.

[5] Əlbəttə, şiə və əhli-sünnənin imam Əli (ə)-ın həmkarlığı barəsində əqidələri bir deyildir.

nahiyələrdə yaşayanların hamısı kafir olmuşlar. Ola bilsin, gecə, yaxud gündüz bizə hücum etsinlər. İndi onlar sizin yaxınlığınızdadırlar, buna görə də özünüzü hazırlayın!"

Onlar üç gündən sonra gecə ikən Mədinəyə hücm edib, şəhərin keçid yollarında pusquda duranlarla üzləşdilər. Müsəlmanlar onların Mədinəyə girməsinə mane oldular və onları tə`qib etdilər, nəhayət bə`ziləri öldürüldü, bə`ziləri gizləndi, bə`ziləri qaçıb canını qurtardılar və Mədinə müsəlmanları qələbə çaldılar.[1] Beləliklə, xəlifə iki aydan az bir müddətdə Mədinənin yaxınlığında yaşayan müxaliflərin bə`zilərini qətlə yetirdi, bə`zilərini isə özünə təslim etdi. Bu vəziyyət onun üçün müxalifləri məhkum etmək üçün ən yaxşı fürsət idi.

## UĞURSUZ MÜSƏLMANLARIN AQIBƏTI

Zəkatı Əbu Bəkrin hökumətinə verməkdən boyun qaçıran bütün tayfalar bir məqsədi güdmürdülər. Bu baxımdan onları bir neçə qrupa bölmək olar:

1. Bir qrup qeyri-müsəlmanlar idi ki, zəkatı cizyə hesab edərək, onun yalnız Peyğəmbərə verildiyini, ondan sonra isə bu işdən azad olduqlarını deyirdilər.[2]

2. Bir qrup adi müsəlmanlar Peyğəmbərin (s) vəfatını bəhanə edərək zəkat verməkdən imtina edib, onun vacibliyini dandılar. Onlar namaz qılsalar da, paxıllıq və sərvət sevgisi onları bu işdən saxlayırdı.[3]

3. Bə`zi imanlı müsəlmanlar Əbu Bəkrin hökumətinin qanunsuz olduğu üzündən onun mə`murlarına zəkar vermir və inanırdılar ki, belə bir vaxtda zəkatı özlərindən olan fəqir və möhtaclar arasında bölmək lazımdır.[4]

Üçüncü qrupun nümayəndələri Mədinəyə gəlib Əbu Bəkrlə bu məsələ barəsində söhbət etdikdə, Əbu Bəkr demişdir: "Allaha and olsun, namaz qılmamaqla zəkat verməmək arasında heç bir fərq görmürəm, onların arasında fərq qoyanlarla müharibə edəcəyəm![5] Allaha and olsun, əgər Peyğəmbərə zəkat verdikləri kimi mənə zəkat verməsələr, onlarla döyüşəcəyəm!"[6]

Belə nəzərə çarpır ki, Əbu Bəkrin bu qruplara qarşı eyni mövqedən çıxış etməsi təbliğat yönünə malik idi. Çünki camaatı namaz qılan, lakin zəkat verməyən müsəlmanlara qarşı yürütmək çox çətin və qəbuledilməz bir məsələ idi.

Xəlifənin əqidəsinə görə, onlarla mürtəd kimi rəftar etmək, döyüşmək, qadın və uşaqlarını əsir tutmaq lazımdır. Bu nəzər o qədər əsassız və ifrat dərəcədə idi ki, hətta Ömər ibn Xəttab onunla müxalifət etdi və sonralar Əbu Bəkrin əsir etdiyi

---

[1] "Tarixul-ümən vəl-müluk", 2-ci cild, səh. 245; "Əl-kamilu fit-tarix", 2-ci cild, səh. 343.
[2] "Tarixi siyasiye Islam", 1-ci cild, səh. 216.
[3] "Tarixul-ərəb vəl-Islam", 1-ci cild, səh. 216.
[4] "Tarixul-ümən vəl-müluk", 3-cü cild, səh. 241-244.
[5] "Əl-bidayətu vən-nihayə", 6-cı cild, səh. 311.
[6] "Səhihi Müslüm", 1-ci cild, "iman" kitabı, səh. 35, "əl-əmru bi-qitalin-nasi hətta yəqulunə. . . " bölümü.

adamları buraxdı.[1] Əbu Bəkr onlara qarşı siyasətində onların mövcud əqidələrinə əsla diqqət yetirmədi. O, bundan narazı və qəzəbli idi ki, nə üçün bu qəbilələr onunla Peyğəmbərin (s) hökuməti arasında fərq qoyurlar?

Ətraf qəbilələri məhkum etdikdən sonra müxaliflərin mövqeyi xəlifəyə bəlli oduqda, o, dərhal müxtəlif məntəqələrə on bir qoşun göndərib göstəriş verdi ki, hər qəbilənin müsəlman şəxsləri yol əsnasında bu qoşunlara qoşulsunlar. Burada on bir bayraq ucaldı ki, onların bə`ziləri aşağıdakılardan ibarətdir:

1. Tüleyhə və Malik ibn Nüveyrənin əleyhinə yollanan Xalid ibn Vəlidin qoşunu;

2. Yəmaməyə[2] Müseyləmənin əleyhinə yollanan Əkrəmə ibn Əbi Cəhlin qoşunu;

3. Əsəvd Ənsinin qoşunundan sağ qalanlarla döyüşməyə yollanan Mühacir ibn Əbi Üməyyənin qoşunu;

4. Qəzaə, Vədiə və Haris qəbilələrinə doğru yollanan Əmr ibn Asın qoşunu;

5. Dəba[3] əhalisinə doğru yollanan Hüzeyfə ibn Mühəssinin qoşunu;

6. Əkrəmənin qoşununu tə`qib edən Şərhəbil ibn Həsənənin qoşunu.

Xəlifə belə bir sərəncam verdi: "Mən bu qoşunları mə`mur etmişəm ki, dindən çıxan hər bir kəsi qılıncdan keçirsin, yandırsın və əhli-əyalını əsir tutsunlar. Əgər tövbə edib, Islamın əlamətini – azanı, sonra isə zəkatı – aşkar etsələr, bu hökmə şamil olmurlar."[4]

Bu göstərişlə onun sərkərdələri yola düşdülər. Xalid ibn Vəlid, Tüleyhə ilə döyüşməyə mə`mur olundu və Teyy qəbiləsinin köməyi ilə onlarla müharibə etdi. Müharibənin əvvəlində məğlub olsalar da, axırda Tüleyhənin qoşununa ağır zərbələr endirdilər və bununla da o yalançı Peyğəmbər arvadı ilə birgə Şama qaçdı.[5]

Elə həmin günlərdə Əyas ibn Abdullah (Fücaə) Əbu Bəkrin tərəfindən mürtədlərlə döyüşə yollandı, nəhayət, Nəcddə bir quldurla rastlaşdı, onu tutub xəlifənin yanına gətirdilər. Xəlifə də onun "Bəqi" qəbiristanlığında diri-diri yandırılmasını əmr etdi.

Xalid, Tüleyhənin Şama qaçmasından sonra və Müseyləmə ilə müharibəyə başlamazdan qabaq Bəttahda (Bəni-Yərbu qəbiləsinin mərkəzi) qoşununu bölərək ətraf qəbilələrə doğru yolladı. Onların bir qrupu Malik ibn Nüveyrəni[6] Bəni-Yərbu

---

[1] Bidayətul-müctehid", 1-ci cild, səh. 250; "Tarixi Yə`qubi", 2-ci cild, səh. 139; "Əl-fütuh", 1-ci cild, səh. 18-19.

[2] Omanla Həzrəmovt arasında geniş və böyük bir əyalətdir və onun ən böyük şəhərinin adı Həcərdir. ("Dairətul-məarif, Fərid Vəcdi, 10-cu cild, səh. 954. )

[3] Omanda məşhur bir qəsəbənin adıdır. ("Mö`cəmül-büldan", 4-cü cild, səh. 30. )

[4] "Tarixul-üməm vəl-müluk", 3-cu cild, səh. 226-227.

[5] Tüleyhə hicrətin 9-cu cilində Islamı qəbul etsə də, 10-cu ildə mürtəd oldu. Şama qaçdıqdan sonra Əbu Bəkrin vəfat etdiyi vaxta qədər Kəlb qəbiləsi ilə yaşadı, nəhayət, Ömərin xilafəti dövründə Mədinəyə gəlib, onunla bey`ət etdi və Qadisiyyə müharibəsində və Iranın fəthində iştirak etdi. ("Əl-kamilu fit-tarix", 2-ci cild, səh. 45. )

[6] Bu hadisə, eləcə də sünnü tədqiqatçılarının Xalid ibn Vəlidin Malik ibn Nüveyrə və onun qəbiləsinə etdiyi zülm barəsində bax: "Tarixi Dəməşq", 7-ci cild, səh. 37; "Tarixul-xəmis", 2-ci cild, səh. 233; "Əl-isabə", 1-ci cild, səh. 414 və 3-cü cild, səh. 357; "Səhihi Müslüm", 2-ci cild, səh. 37; "Tarixi

qəbiləsindən bir dəstə ilə birlikdə əsir tutdular. Bəni-Yərbu qəbiləsi, Xalidin qoşunu ilə rastlaşdıqda, əvvəlcə azan deyib, hamılıqla namaz qıldılar.[1] Lakin əsir edildikdən sonra Xalidin əmri ilə öldürüldü.

Tarixdə göstərilir ki, Bəni-Yərbu qəbiləsinin öldürülməsində əsas məqsəd Xalid ibn Vəlidin qəbilənin rəisi Malik ibn Nüveyrənin arvadı ilə evlənmək istəyi olmuşdur. Malik gözəllikdə tayı-bərabəri olmayan arvadı ilə Xalidin yanına getdi. Xalid onu görcək Malik ibn Nüveyrəyə dedi: "Allaha and olsun, səni öldürməyincə, arvadına nail ola bilməyəcəyəm." [2] Bundan sonra Xalidin göstərişi ilə Malikin boynunu vurdular, daha sonra o qəbilənin kəsilmiş başlarını od vurub yandırdılar.[3]

Xalidin bu qəbiləni öldürməkdə başqa bir məqsədi də onun və Əbu Bəkrin onlarl qədim ixtilaf və kin-küdurətləri idi.[4]

Tarixçilər yazırlar: "Peyğəmbərin (s) vəfatından sonra Malik ibn Nüveyrə zəkat vermək və Mədinənin vəziyyətini öyrənmək üçün o şəhərə gəldi. Intizarın əksinə olduğu kimi, Əbu Bəkri xilafət kürsüsündə gördükdə, tə`nə ilə ona dedi: "Əli ibn Əbi Talib haradadır ki, sən minbərdə əyləşmisən?!"

Həqiqət budur ki, Malik ibn Nüveyrə öz qəbiləsinin ən qeyrətli və şücaətli şəxsi idi. Mədinənin bir neçə fərsəngliyində böyük bir ordu yerləşdirmişdi ki, bu da Əbu Bəkrin hökuməti üçün ciddi təhlükə sayılırdı. Onun qətlə yetirilməsi ilə Əbu Bəkrin böyük düşmənlərindən biri sıradan çıxır və bununla da digər müxaliflərin gözünü qorxudurdu. O zaman Mədinədə Xəzrəc tayfasının rəisi (Sə`d ibn Übadə), Qüreyşin başçısı (Əbu Süfyan) və Bəni-Haşim tayfasının sevimlisi (Əli ibn Əbi Talib (ə)) Əbu Bəkrlə müxalif idilər. Əgər Malikin ölümünün səbəbi yalnız Xalidin onun arvadını ələ keçirmək idisə, o, Maliki məxfi öldürməklə arzusuna çata bilər, özünü və hökuməti müxaliflərin danlağı və e`tirazı ilə üzləşdirməzdi.

Malik ibn Nüveyrənin qətl xəbəri hər yerə yayıldıqdan sonra səhabələr Xalidə e`tiraz etməyə başladılar. Ömər ibn Xəttab da e`tiraz edənlər sırasında idi, hərçənd, onunla Xalid arasında heç vaxt səfa-səmimiyyət olmamışdır. Ömərin bu e`tirazının ciddi olduğunu dəqiq bilmək olmur. Adi olaraq siyasi hadisələrdə hökumətə qarşı ümumi e`tirazlar artdıqda, hakim dairənin tənqidləri müəyyən qədər həmin e`tirazların qarşısını alır. Bu nəzəriyyəni təsdiqləyən budur ki, vəziyyət sakitləşdikdən sonra Əbu Bəkr xalqın, eləcə də Ömərin e`tirazlarına azacıq belə

---

Əbul-Fida", 1-ci cild, səh. 157; "Sünəni Ibn Macə", 2-ci cild, səh. 453; "Əl-kamilu fit-tarix", 4-cü cild, səh. 149; "Xəsaisu Əmirilmu`minin (ə)", səh. 27.

[1] "Əl-kamilu fit-tarix", 2-ci cild, səh. 3694 "Tarixul-Islam", 1-ci cild, səh. 353.

[2] "Tarixi Yə`qubi", 2-ci cild, səh. 110; "Əl-isabə", 3-cü cild, səh. 337; "Tarixul-Islam", 1-ci cild, səh. 353.

[3] "Əl-qədir", 7-ci cild, səh. 158-180.

[4] Malik ibn Nüveyrə Peyğəmbəri-Əkrəm (s) tərəfindən sədəqə yığmağa mə`mur olunmuşdu. O, Peyğəmbər (s) vəfat etdikdən sonra o həzrətin canişinini görmək üçün Mədinəyə gəldi. Əli ibn Əbi Talib (ə)-ın yerinə Əbu Bəkr ibn Əbi Qühafəni gördükdə, buna e`tiraz edərək Mədinədən çıxdı və ondan sonra sədəqə və zəkatları onun üçün göndərмədi. Əbu Bəkr də Xalid ibn Vəlidin başçılığı ilə onun qaldığı yerə qoşun göndərdi. Xalid hiylə işlədərək, onun amanda olduğunu bildirərək, qəbiləsini öldürdü, arvadını ələ keçirtdi, Malikin başını odda yandırdı, qəbilə qadınlarını əsir tutdu və qənimətlərlə Mədinəyə qayıtdı. ("Abdllah ibn Səba", 1-ci cild, səh. 199-207. )

diqqət yetirmir və Xalidi əsla cəzalandırmadan deyirdi: "Xalidin qılıncı Allahın siyirilmiş qılınclarından biridir və Allahın siyirdiyi qılıncı qınına qoymaq olmaz."[1]

Xəlifənin bu siyasəti Xalid ibn Vəlidi daha da məğrur etdi. Xəlifənin bu mövqeyindən sonra o, Yəmamənin müxaliflərinə qarşı döyüş zamanı Mücamə ibn Zürarənin qızı ilə nikah bağlayaraq, təntənəli toy mərasimi keçirtdi. Xəlifə keçmişdə onu müdafiə etdiyi üçün qoşun daxilindən kimsə ona e`tiraz edə bilmirdi. Lakin bir vaxt gəlib çatdı ki, Əbu Bəkr ona "Müsəlmanlardan iki yüz nəfər öldürüldüyü halda, sən orada toy mərasimi keçirirsən?!" – deyə e`tiraz etdikdə, o xəlifəyə bildirdi ki, sənin mənə e`tiraz etməyinə səbəb Ömərin hərəkətidir.[2] Elə bil, Xalid xatircəm idi ki, əgər xəlifə tərəfdarları tərəfindən tənqid atəşinə tutulsa da, yenə xəlifə onu gördüyü işlərinə görə məzəmmət etməyəcəkdir.

Təbəri yazır: "Əbu Bəkr öz nümayəndə və əsgərlərindən əsla intiqam almır, sanki siyasətində mə`mur və əsgərlərini cəzalandırmaq əzmində deyildi."

## HƏZRƏ-MOVTDA YAŞAYAN MÜXALIFLƏRLƏ DÖYÜŞ

Həzrə-Movtda Kində, Bəni-Zuhəl, Bəni-Təmim və s. adlı qəbilələr Peyğəmbəri-Əkrəm (s)-in Əhli-beytini və haşimiləri himayə edərək, Əbu Bəkrin xilafətini rəsmiyyətə tanımır, xəlifənin mə`murlarına zəkat verməkdən imtina edirdilər. Onlar (zəkatı yığmağa mə`mur olunan) Ziyad ibn Lübeydin yığdığı zəkatı geri istəyib dedilər: "Biz həyatda olduğu vaxtda Peyğəmbəri-Əkrəm (s)-ə itaət edirdik. Əgər hal-hazırda onun Əhli-beytindən kimsə dini-siyasi işləri öhdəsinə götürən varsa, yenə ona itaət edəcəyik. Əbu Bəkrin isə bizim üzərimizdə bir əhd-peymanı olmadığı üçün ona itaət etmək bizə vacib deyildir!"[3]

Onlardan başqa birisi belə dedi: "Sən bizi elə bir kəsə itaət etməyə də`vət edirsən ki, nə o bizimlə, nə də biz onunla bir əhd-peyman bağlamışıq!" Ziyad dedi: "Sən düz deyirsən, lakin biz onu seçmişik." Bir nəfər dərhal dedi: "Peyğəmbərin Əhli-beytindən üz döndərdinizmi?! Axı bu (xilafət) onların haqqı idi?" Ziyad belə cavab verdi: "Mühacir və ənsar qrupları nə etdiklərini səndən yaxşı bilirlər!" O isə dedi: "Xeyr, siz Əhli-beytə qarşı yalnız həsəd etdiyinizdən, onlara itaətdən boyun qaçırdınız."!

Bu zaman Ərəfcə ibn Abdullah Zühəli dedi: "Allaha and olsun ki, o düz danışır. Bu kişini (Ziyad ibn Lübeydi) qovun, çünki onun dostu (Əbu Bəkr) xilafətə layiq deyildir."

Onlar hamılıqla deyirdilər: "Biz Allaha iman gətirmişin, Mühəmmədin Onun Peyğəmbəri olduğuna şəhadət verir və namaz qılır, əmlakımızı isə Əbu Bəkrə vermirik!"[4]

---

[1] "Əl-bidayətu vən-nihayə", 6-cı cild, səh. 322; "Camiul-bəyan fi təfsiril-Qur`an", 4-cü cild, səh. 1406-1411.

[2] "Əl-fütuh", 1-ci cild, səh. 43.

[3] "Əl-fütuh", 1-ci cild, səh. 57, "Tarixi Islam", kitabından nəqlən, Rəsuli Məhəllati, səh. 241.

[4] Yenə orada, səh. 58.

## YƏMƏN MÜXALIFLƏRI

Yəməndə camaatın Əbu Bəkrin əleyhinə qiyam etməsini səbəbi onun mə`murlarının zəkat yığdıqda göstərdikləri yaramaz rəftar idi. Belə ki, bir dəfə mə`murlardan biri bir cavandan bir dəvə balasını alıb deyirdi: "Hökmən bunu zəkat verməlisən." Cavan "Mən bu dəvə balasını çox istəyirəm, ona görə də əgər mümkünsə, onun yerinə başqa bir dəvəni götür!" – desə də, o, qəbul etmədi, hətta qəbilə başçısı buna vasitəçilik etsə də, heç bir tə`siri olmadı. Qəbilənin başçısı mə`murun bu hərəkəti və bəhanəsini gördükdə, dərhal həmin dəvəni zəkat hesabı içərisində olan dəvələrdən ayırıb, sahibinə verdi. Bu xəbər Əbu Bəkrə çatdıqda, oraya bir qoşun göndərdi. Bu düşüncəsiz hərəkət adi danışığı böyük bir döyüşə çevirdi. Bu zaman Həzrə-Movt qəbiləsinin qiyam xəbəri Yəmən əhalisini daha çox müqavimət göstərməyə vadar etdi.

Xəlifənin ordusu onların şəhərini (Dəbanı) mühasirəyə alıb, güzəranı çətinləşdirdikdə, camat çarəsizlikdən Əbu Bəkrin şəhərdən qovub çıxartdıqları valiyə dedilər: "Biz sülh etmək və boynumuzda qalan zəkatı vermək istəyirik." O vəziyyəti belə görüb dedi: "Biz bunu qəbul edə bilmərik, lakin bizim haqq olduğumuzu, özünüzün isə əyri və batil yolda, bizdən ölənlərin behiştdə, sizdən ölənlərin isə cəhənnəmdə olduğunu iqrar və bizim hökm etdiyimiz hər bir məsələni qəbul etdiyiniz təqdirdə, qəbul edərik." Onlar çarəsizlikdən buna razılıq verdilər. Bu zaman onların silahı yerə qoyub, şəhərdən çıxmaları əmr olundu. Belə də oldu. Əbu Bəkrin ordusu şəhərə girdi. Lakin gözlənilmədən onlar şəhərin böyüklərinin bir-bir boynunu vurub, qadın və uşaqlarını əsir tutdular və mal-dövlətlərini qarət edərək Mədinəyə, Əbu Bəkrin yanına qayıtdılar.[1]

Əbu Bəkrin ordusu Yəmən əhalisini məhkum etdikdən sonra Kində qəbiləsinə hücum edərək, onların ə`yan-əşrafları və böyüklərinin başlarını kəsdilər, qalanlarını isə əsir tutub Mədinəyə gətirdilər.[2]

## FƏDƏK

Biz burada Fədək hadisəsinin təfərrüatı haqda söz açmaq istəmirik. Bu barədə bir çox kitablar yazılmış və dəyərli tədqiqatlar aparılmışdır. Biz isə yalnız onu qısa araşdırmaqla, təhqiq və qəzavəti oxucuların özünə həvalə edəcəyik.

## FƏDƏKIN SIYASI-COĞRAFI MÖVQEYI

Peyğəmbəri-Əkrəm (s)-in Məkkədən qayıtmasından təqribən bir ay yarım keçdikdən və "Hüdeybiyyə" sülhündən sonra (6-cı hicri qəməri ilinin axırlarında) o həzrət "Xeybər"i fəth etmək məqsədilə yola düşdü. Fədək məntəqəsi "Xeybər"in

---

[1] Bax: "Abdullah ibn Səba", 1-ci cild, səh. 185-237 və 2-ci cild, səh. 51-77.

[2] Yenə orada.

yaxınlığında, Mədinənin 140 kilometrliyində yerləşir və "Xeybər" qalalarından sonra Hicaz yəhudilərinin mərkəzi sayılırdı.

"Xeybər" qalaları və əmlakı alındıqdan sonra yəhudilər "Vəti" və "Sülam" adlı iki qalaya sığındılar, Peyğəmbəri-Əkrəm (s)-in ordusu hər iki qalanı mühasirəyə aldılar. Yəhudilər bir nicat yolu tapa bilməyib, tezliklə məhv olacaqlarını gördükdə, o həzrətdən oranı tərk etmək üçün icazə istədilər. Peyğəmbər onlara icazə verdi. Onlar qaladan çölə çıxdıqdan sonra o həzrətə təklif etdilər ki, əmlaklarının və əkin yerlərinin məhsulunun yarısını özünə götürsün, bunun müqabilində məntəqəni tərk etməsinlər və hər zaman onları çıxarmaq istədikdə, əmlaklarını geri qaytarsın.[1]

Peyğəmbəri-Əkrəm (s) bu təklifi qəbul etdi. Fədək əhalisi də bu müqavilədən agah olduqda, o həzrətdən xahiş etdiklər ki, onlarla da belə bir müqavilə bağlamağa razılıq versin. Beləliklə, Xeybər müsəlmanların ümumi əmlakından, Fədək isə Peyğəmbərə məxsus oldu. Çünki Fədəklə bağlı əsla döyüş olmadı.[2] Qur`an ayələrinə əsasən, müharibəsiz təslim olan camaatın məntəqəsi müsəlman olduqları təqdirdə, özlərinə aid olur, yox əgər müsəlman olmayıb, sülh müqaviləsi bağlasalar, yaşadıqları məntəqənin ya hamısı, ya da bir hissəsi Peyğəmbərin (s) şəxsi əmlakına keçirdi.

## BU MƏSƏLƏ ILƏ BAĞLI MÜBAHISƏLƏR

Peyğəmbəri-Əkrəm (s) vəfat etdikdən bir həftə sonra xəlifə, Fatimeyi-Zəhra (ə.s)-ın işçilərini Fədəkdən çıxartdı. Oranın bağlarını və əkin sahələrini Islam dövlətinə məxsus əmlakdan hesab etdi. Xəlifə, Peyğəmbər (s)-in Fədəki Fatiməyə (ə.s) bağışladığını iqrar etsə də, bu bəxşişin o həzrətdən sonra qüvvədən düşdüyünü, mö`təbər olmadığını, müsəlmanların ümumi əmlakından sayıldığını və Islam dövlətinin ixtiyarına keçdiyini iddia etdi.

Bu məsələ haqda xəlifə ilə Fatimeyi-Zəhra (ə.s) arasında dəfələrlə camaat qarşısında mübahisə olunsa da, tarixdə həmin söhbətlərin təfərrüatı qeydə alınmamışdır.[3] Əbu Bəkrin Səqifə yığıncağındakı söhbətindən sonra onun Fədəklə bağlı mübahisəsi və söhbəti daha həssas göstərilmişdir. Buna görə də Əbu Bəkri siyasi mübahisələrin ustalarından hesab etmək lazımdır. Çünki o, mübahisədə çox zirək və hövsələli olmuşdur. Onun söhbətinin bir qismini mütaliə etdikdə, bunun doğruluğu daha da aydınlaşır. O, camaatın qarşısında Peyğəmbəri-Əkrəm (s)-in qızı Fatimeyi-Zəhra (ə.s)-a belə demişdir:

---

[1] Bə`zi tarixçilər belə yazmışlar: "Onlar əkin sahələrini Peyğəmbərə verib, Şama köçdülər. Əlbəttə, ola bilsin ki, onların bə`zisi belə etsinlər.

[2] "Tarixul-ümən vəl-müluk", 2-ci cild, səh. 138.

[3] Tarixdə onların arasındakı mübahisənin Peyğəmbərin (s) vəfatından on gün sonra baş verdiyi göstərilir. ("Şərhi Nəhcül-bəlağə", Ibn Əbil-Hədid, 16-cı cild, səh. 263. ) Həzrət Fatimə (ə. s) dəfələrlə Əbu Bəkrin yanına müxtəlif şahidlər apardı ki, caj və şəhadət baxımından qabaqkı dəfələrlə fərqlənirdi. Lakin xəlifə şahidləri qəbul etmir və o həzrətdən başqa şahidlər istəyirdi. Digər tərəfdən də bu məsələdə heç kim o həzrətin sözlərini inkar etmir və Fədəkə qarşı o həzrətin əksini iddia edən də yox idi.

"Ey Peyğəmbərin qızı! Sənin atan mö`minlərə qarşı çox mərhəmətli və mehriban idi. Amma kafirlərə qarşı mehriban deyildi. Onlara dərdli əzabın olacağını xəbər verirdi. Onun nəsəbini araşdırsaq, digər qadınların deyil, yalnız sənin atan olduğunu, dostları arasında isə tənha əmisi oğlu Əlini görəcəyik. Peyğəmbər onu bütün dostlarından üstün tutdu. Əli elə bir şəxsiyyət idi ki, Peyğəmbərə hər bir ağır işdə kömək edirdi. Yalnız səadətə qovuşmuş insanlar sizi sevir və tək Allahdan uzaq olan bədbəxt insanlar isə sizinlə düşmənlik edirlər. Siz, Peyğəmbərin pak ailəsi və onun bəyəndiyi şəxslərsiniz. Xeyirli işlərdə bizə yol göstərən və bizi behiştə sövq edən sizsiniz. Mənim nə haqqım var ki, sənin əmin oğlunu xilafətdən kənarlaşdırım! Amma Fədəkə və atanın sənə bağışladıqlarına gəldikdə, əgər onlar sənin haqqındırsa və mən bunu səndən almışamsa, onda zülmkaram. Irs və mirasa gəldikdə isə, bildiyin kimi, atan buyurmuşdur ki, biz Peyğəmbərlər (özümüzdən sonra) irs qoymuruq və bizdən qalanlar sədəqədir.

Ey Peyğəmbərin qızı! Allaha and olsun ki, Onun heç bir məxluqunu sənin atandan çox istəmirəm! Atan vəfat etdiyi gün istəyirdim ki, göylər yerə tökülsün. Allaha and olsun, çox istəyirəm ki, Ayişə kimsəsiz qalsın, amma sən yoxsul qalmayasan. Mümkün ola bilərmi ki, mən hamının haqqını verdiyim halda, sənə qarşı zülm və haqsızlıq edim?! Sən Peyğəmbərin qızısan! Bu əmlak Peyğəmbərin deyil və bütün müsəlmanlara aiddir. Atan onu Allah yolunda vermiş və onunla camaatın ehtiyacını aradan qaldırmışdır. Onun vəfatından sonra, mən də onun kimi rəftar edəcəyəm."

Əbu Bəkrlə xanım Fatimənin (ə.s) arasında söz uzanır, o, mahir danışıb, özünü xeyirxah göstərsə də, o həzrət daha da tutarlı cavab və dəlillər gətirərək, xəlifənin sözlərinin puç və əsassız olduğunu göstərirdi. Xəlifə yeni bir söz demək istəyəndə, xanım buyurdu: "Allaha and olsun ki, heç vaxt səninlə danışmayacaq və sənə qarğış edəcəyəm!"[1]

Xanım Fatimənin (ə.s) son sözü, eləcə də Əli ibn Əbi Talib (ə)-dan tərəfdarlıq etməsi xəlifəni daha da qəzəbləndirdi, camaat arasında qalmaqal yarandı. Bu zaman qaşqabaqlı halda qışqıraraq dedi: "Ey camaat! Nə üçün hər deyilənə qulaq asırsınız? Bu arzular Peyğəmbərin vaxtında harada idi? Kim bu haqda bir söz eşidibsə, yaxud bir şey görübsə, desin və şəhadət versin. Lakin bu hadisə quyruğu özünə şahid olan tülküyə bənzəyir ki, fitnə-fəsad törətmək və çarəsizlərdən kömək istəyir. Uşaqları və qadınları köməyə çağırırlar. Onlar cahiliyyət dövrünün qadınlarına bənzəyirlər ki, çirkin işi hər şeydən üstün tuturlar!!!

Bu zaman Fatimeyi-Zəhra (ə.s) evə qayıtdı.

Əbdül-Həmid Mədaini yazır: "Mən bu sözləri ustadım Nəqib Əbu Yəhya Bəsriyə oxuyub dedim: "Əbu Bəkrin bu sözləri nəyə kinayədir?" Ustadım dedi: "Onun sözlərində kinayə yoxdur, əksinə hamısı aydındır!" Dedim: "Əgər aydın olsaydı, bunu səndən soruşmazdım." Ustadım gülüb dedi: "Onun məqsədi Əli idi." Soruşdum: "Yə`ni bu sözlərin hamısı Əliyə aiddirmi?" Dedi: "Bəli, ey oğul, hakimiyyət belədir!" Soruşdum: "Bəs, ənsardan olanlar nə dedilər?" Dedi: "Onlar

---

[1] "Şərhi Nəhcül-bəlağə", 16-cı cild, səh. 214.

Əlidən tərəfdarlıq etdilər, lakin o, onları fitnənin baş verəcəyindən qorxudub çəkindirdi."[1]

Əbu Bəkrin istinad yeri iddia etdiyi və guya Peyğəmbərdən eşitdiyi bu hədis idi: "Biz Peyğəmbərlər heç bir irs qoymuruq və bizdən qalanlar sədəqədir."

Ibn Əbil-Hədid yazır: "Böyük hədis alimlərinin e`tiraf etdiyi kimi, bu hədisi Əbu Bəkrdən başqa heç kim nəql etməmişdir."[2]

Qeyd etmək lazımdır ki, heç bir tarixçi yazmamışdır ki, Fatimeyi-Zəhra (ə.s) Fədək bağına sahib olduğu müddət ərzində ondan götürülən məhsulu özü üçün xərcləsin.[3] Peyğəmbəri-Əkrəm (s)-in Əhli-beyti Fədəkin gəlirini fəqirlər arasında bölürdü. Bu məsələ heç bir şəkk-şübhə yoxdur.[4] Buna əsasən, həzrət Fatimənin (ə) Fədəki tələb və buna israr etməsinin başqa bir dəlili var idi.[5]

Izzuddin Əbu Hamid Mö`təzili yazır:

"Bir gün ustadım Əli ibn Faruqidən soruşdum: "Fatimeyi-Zəhra Fədəklə bağlı hadisədə düz danışırdımı?" Dedi: "Bəli!" Dedim: "Bəs, nə üçün Əbu Bəkr Fədəki ona vermədi?" O, təbəssüm edib dedi: "Əgər həmin vaxt Fədəki sadəcə iddiası ilə ona versəydi, ondan sonra xilafəti əri üçün iddia etdikdə, Əbu Bəkr bəhanə gətirə bilməyəcəkdi. Çünki ondan qabaq şahidsiz onun dediklərinin doğru olduğunu hökm etmişdi." Ustadım bu cümləni zarafata desə də, onun bu sözü həqiqət idi."[6]

Bu sünnü alimi başqa bir yerdə belə yazır:

"(Peyğəmbər (s)-in qızı ilə Əbu Bəkr və Ömərin arasında baş verən ixtilaf və mübahisələr Fatimənin ömrünün sonuna qədər onlara qarşı qəzəbli olduğuna səbəb oldu.) Fatimə onların hər ikisindən qəzəbli halda dünyadan getdi və vəsiyyət etdi ki, onlar ona namaz qılmasınlar. Bu, bizim böyüklərimizin yanında çox da əhəmiyyətli məsələ deyildir. Əlbəttə, onlar Peyğəmbərin Əhli-beytinin hörmətini gərək saxlayaydılar, lakin nə etmək olar, müsəlmanlar arasında ixtilaf və təfriqənin yaranmasından qorxub, məsləhət üzrə hərəkət etdilər."[7]

Bu acı hadisədən bir neçə gün sonra Əbu Bəkr və Ömər xanım Fatiməni (ə.s) görmək üçün o həzrətdən xahiş etdikdə, xanım qəbul etmədi. Onlar imam Əlinin (ə) yanına gəlib dedilər ki, Peyğəmbərin qızını görmək istəyirik. Xanım isə onlardan üz döndərib buyurdu: "Əgər Peyğəmbərdən bir hədis nəql etsəm, ona əməl edəcəksinizmi?"

Dedilər: "Bəli."

---

[1] Şərhi Nəhcül-bəlağə", 16-cı cild, səh. 214-215, "Zendegiye Fatimeyi-Zəhra (ə. s) kitabından nəqlən, Cə`fər Şəhidi, səh. 137-139.

[2] Yenə orada, 1-cı cild, səh. 245.

[3] Fədəkin il ərzində 24-70 min misqal qızıl məhsul verdiyi yazılmışdır. ("Kəşfül-məhəccə", səh. 94.

[4] "Macəraye Fədək", səh. 7.

[5] Bu haqda xüsusi təhqiqata ehtiyac olduğundan, oxucular uyğun kitablara müraciət edə bilərlər.

[6] "Şərhi Nəhcül-bəlağə", 16-cı cild, səh. 284.

[7] Yenə orada, 6-cı cild, səh. 50.

Buyurdu: "Sizi Allaha and verirəm, Allahın Rəsulununun belə buyurduğunu eşitmisinizmi: "Fatimənin razığılı mənim razılığım, qəzəbi isə mənim qəzəbimdir. Hər kəs qızım Fatiməni sevsə, həqiqətən, məni sevmiş, hər kəs onu razı salsa, məni razı etmiş və hər kəs onu qəzəbləndirsə, məni qəzəbləndirmişdir."

Dedilər: "Bəli, bu hədisi Allahın Rəsulundan eşitmişik!"

Buyurdu: "Allahı və mələkləri şahid tuturam ki, sizin hər ikiniz məni qəzəbləndirmiş və razı etməmişdir. Əgər Peyğəmbəri görsəm, sizin hər ikinizdən şikayət edəcəyəm... Hər namaz vaxtı sizə qarğış edirəm."[1]

Buxari "Səhih" kitabında yazır:

"Fatimənin Əbu Bəkr və Ömərdən narahat və qəzəbli olması vəfat etdiyi vaxta qədər davam etdi... Bu məsələ doğrudur və çoxlu səhih rəvayət onu təsdiqləyir."[2]

## FƏDƏKI SAHIBINDƏN ALMAQDA HƏDƏF

Bu məsələ ilə bağlı təvəqqe etmək olmaz ki, tarixi xəbərlər Fədəki sahibindən almağın məqsədini aydın şəkildə açıqlasın. Fədəkin çoxlu məhsul və gəlirinə, eləcə də xəlifənin onu sahibindən almaqda tələsməsinə diqqət yetirdikdə, mə`lum olur ki, Əbu Bəkrin hökuməti yenicə fəaliyyətə başlayarkən, şübhəsiz, böyük gəlirə ehtiyac duyurdu. Qəbilələrin mürtəd olma xəbəri və Mədinəyə hücum ehtimalı xəlifənin ordusunu və onun məxaricini sahmana salmaq fikrində olmasına səbəb oldu. Burada Fədək bağı ən yaxşı və ən böyük gəlir mənbəyi hesab edilirdi.[3] Elə bu günlərdə həzrət Fatimə (ə.s) Əbu Bəkrin yanına müxtəlif şahidlər apardıqda və Əbu Bəkr Fatimənin Fədəkə sahib olması ilə bağlı bir sənəd yazdıqda, Ömər həmin sənədi cırıb[4] Əbu Bəkrə dedi: "Ərəblər dörd tərəfdən sənə hücum etdiyi halda, Fədəki Fatiməyə qaytarsan, müsəlmanların məxaricini haradan tə`min edəcəksən?!"[5] Fədəkin müsadirə edilməsi ilə haşimilər və Əli ibn Əbi Talib (ə) ən böyük iqtisadi imkanlarını itirdilər. Hökumət arxayın oldu ki, bundan sonra artıq Əli ibn Əbi Talib (ə)-ın Əbu Bəkrin hökumətinin əleyhinə ordu yığması təqribən qeyri-mümkündür.

Digər tərəfdən də onun Fədəki almağa tələsməsi Əlidən (ə) bey`ət almaq və xanım Fatimənin (ə.s) evinə hücum etmək məqsədlərini güdürdü.

Mö`təbər sünnü mənbələrinə əsasən, Fatimeyi-Zəhra (ə.s) şübhəsiz, "Təthir" ayəsinin xarici nümunəsi olub, hər günah və xətadan uzaqdır, onun şahidliyi mə`sum olmayan digər şəxslərdən üstündür. Allahın Rəsulu bir hadisədə Hüzeyfə

---

[1] "Əl-imamətu vəs-siyasət", səh. 14.

[2] "Səhihi Buxari", 4-cü cild, səh. 210. Ibn Əbil-Hədid yazır: "Fatimeyi-Zəhra vəsiyyət etdi ki, Əbu Bəkr ona namaz qılmasın. Məhz bu səbəbdən də Əli ibn Əbi Talib o həzrəti gecə ikən dəfn etdi. " ("Şərhi Nəhcül-bəlağə", 16-cı cild, səh. 214. )

[3] Bəlkə də elə bu səbəb üzündən Ömər xilafətə çatıb, hökumətin təsbit etdikdən və Mədinəyə saysız-hesabsız ne`mətlərin gəldiyini gördükdən sonra Əli (ə)-a belə bir təklif etdi: "Əgər istəsən, Fədəki Əhli-beytin ixtiyarına keçirsin. "

[4] "Əs-sirətul-Hələbiyyə", 3-cü cild, səh. 391; "Əl-qədir", 7-ci cild, səh. 194; "Ə`lamun-nisa", 4-cü cild, səh. 124.

[5] Yenə orada.

ibn Yəmaninin şəhadətini iki ədalətli şəxsin şəhadəti kimi hesab etdi. Halbuki Hüzeyfə nə mə`sum, nə də mə`sum övladı idi. Bundan əlavə, Islamdan neçə illər öncə müşriklərdən idi.

Fədəki almaq hadisəsi Peyğəmbərin Əhli-beytinin (ə) iqtisadi vəziyyəti pisləşdiyi və silah alma imkanları olmadığından əlavə, Rəsuli-Əkrəmin (s) xanədanından qalan ən hörmətli şəxsin, yə`ni Fatimənin (ə.s) mə`nəvi və ictimai məqamı o günün adi bir insanın məqamı kimi, üstəlik ondan da aşağı olacaq və bununla da onun şəhadəti adi bir müsəlmanın, ədalətli bir qadının şəhadətindən də dəyərsiz qələmə veriləcək, hətta onun şəhadəti ilə yanaşı başqalarınını şəhədəti də öz dəyərəni itirəcəkdir. Buna əsasən, ondan sonra – Fatimənin (ə.s) maddi məsələlər üzrə iddası qəbul edilmədiyi təqdirdə – hakimiyyət, nəzər vermək və Əli ibn Əbi Talibin (ə) haqqını müdafiə etmək kimi siyasi məsələlərdə heç bir e`tirabı olmayacaqdır. Belə də oldu.

## XALQIN SÜKUTU

Mədinə əhalisinin həzrət Fatimənin (ə.s) sözlərini eşitdikdən sonra o həzərti himayə etməməsi həqiqət və doğru deyil. Izzuddin Əbu Hamid Mö`təzilinin yazdığı kimi, Fədəklə bağlı məclisdə az qalırdı ki, inqilab yaransın. Amma imam Əlinin (ə) işarəsi ilə ənsar qrupu sükut etdi. Çünki Əli (ə) bu məsələnin müsəlmanlar arasında təfriqə ilə nəticələnməsini istəmirdi.[1]

Camaatın xəlifəyə e`tiraz etmədiyini fərz etdiyimiz təqdirdə, heç bir tarixçi də yazmamışdır ki, camaat Peyğəmbərin qızına – onun iddiasının əsassız olduğunu bəhanə edərək – e`tiraz etsinlər. Buna əsasən, camaatın e`tiraz etməməsi xəlifənin sözlərini qəbul etmək demək deyildir. Həmçinin camaat o günlər böyük bir faciənin baş verdiyi üçün sükut etmişdilər. Onlardan bundan artıq bir şeyi gözləmək olmaz, xüsusilə, Peyğəmbərin Əhli-beyti (ə) və onların azlıqda olan tərəfdarlarının müqavimət göstərməyə qüdrətləri yox idi. O hökumət və qüdrət sahibləri müqabilində sükut etmək razılıq nişanəsi deyildi.

Cahiz camaatın sükutunun səbəbi barədə yazır:

"Onlar Fatimə ilə mübahisə zamanı (zahirdə) Qur`anı və Peyğəmbəri-Əkrəm (s)-in göstərişlərini inkar etmirdilər. Əlbəttə, "miras"la bağlı hökmü iqrar etdikdən sonra Peyğəmbərdən bir hədisin eşitdiklərini iddia etdilər ki, əməldə və camaatın nəzərində qeyri-mümkün deyildir.

Başqa tə`sirli amil isə Əbu Bəkr və Ömərin beytül-mal və ümumi əmlakdan elə də istifadə etməmələri idi. Buna görə də camaat elə güman edirdilər ki, əgər xəlifə kiminsə mal-dövlətini almağa israr edirsə, onun məqsədi öz şəxsi əmlakını artırmaq deyildir. Digər tərəfdən də camaat istəyir ki, hakimləri öz mal-dövlətinin çoxalmasında güzəranı onlara çətinləşdirməsin, əgər onlardan vergi tələb edirsə, ondan şəxsi istifadə etməsin. Bunu nəzərə alaraq, camaat Osmanın əleyhinə qalxdılar, halbuki əvvəlki iki xəlifə, Osmanın yaramaz işləri ilə müqayisədə iki qat

[1] "Şərhi Nəhcül-bəlağə", 16-cı cild, səh. 215.

çirkin işlərə əl atsaydılar da, (özlərinə mal-dövlət yığmaq fikrində olmadıqları üçün) camaat onlara qarşı heç bir əksül-əməl göstərmirdilər."[1]

## ƏLI IBN ƏBI TALIB (Ə) VƏ FƏDƏK

Imam Əli (ə) Fədəkin o qədər mənfəət və gəliri ilə belə, öz xilafəti dövründə onu öz övladlarının ixtiyarına keçirmədi. Bu siyasət o həzrətin dünya malına qarşı e`tinasızlığından doğsa da, onun başqa bir səbəbi də var idi. O da budur ki, o həzrət hakim vəziyyətin sabit davam etməsi üçün təqiyyə edirdi. O həzrətin öz xilafəti dövründə bir çox siyasi tərəfdarları var idi ki, onlar o həzrətə itaət etdikləri halda, iki ilkin xəlifənin səlahiyyətli olduğuna da e`tiqad bəsləyirdilər. Bu isə o həzrəti keçmiş xəlifələrin rəftarını məzəmmət və onların üslublarının əksinə əməl etməkdə çətinliklərlə üzləşdirirdi.

"Peyğəmbər (s)-in sünnəsi ilə xəlifələrin rə`y və nəzərinin bir səviyyədə olması" o həzrətin vəfatından on üç il keçsə də, (Osmanın xilafətinin əvvəllərinə qədər) ümumxalqın qəbul etdiyi şübhəsiz məsələlərdən və hakimiyyətin şərtlərindən sayılırdı. Əbdür-Rəhman ibn Ovf hakimiyyət şərtini Allahın kitabı, Peyğəmbərin sünnəsi və iki ilkin xəlifənin üslubuna əməl etmək üçün razılıq verən və əhd-peyman bağlayan şəxsə tapşırdıqda,[2] camaat ona e`tiraz etmədi!

Bu on iki ildən sonra, on üç il davam edən Osmanın hakimiyyət dövrü də ona əlavə olundu. Imam Əli (ə) əvvəlki xəlifələrin başqa çöhrəyə düşən iyirmi beş illik siyasətini dəyişməyə çalışmalı idi. Bu dəyişiklikdə o həzrətin bayrağı altında elə kəslər var idi ki, əvvəlki xəlifəyə, yə`ni Əbu Bəkr və Ömərin sirə və rəftarına əməl etmədiyi üçün Osmana irad tuturdular.

Izzuddin Əbu Hamid Mö`təzili bu məsələ ilə bağlı daha geniş mövqedən çıxış edərək yazır:

"Camaatın Ömər ibn Xəttabın adət-ən`ənəsinə adət etməsi səhabələrin Əli ibn Əbi Taliblə müxalifət etməsinin əsas səbəbi idi. Bu e`tirazlar bə`zən həddi aşır, Əlinin qəzəbinə səbəb olur və nəticədə deyirdi: "Peyğəmbərin sünnəsinə itaət etmək layiqdir, yoxsa Ömərin sünnəsinə?![3] ...(Bid`ətlər o qədər çoxalmışdı ki,) əgər hökmü olduğu kimi bəyan edib təhrifləri aradan qaldırsaydım, sözsüz, (müsəlmanlar) mənim ətrafımdan dağılacaqdı. Allaha and olsun, camaata Ramazan ayında yalnız vacibi namaz qılmaqlarını dedim və e`lan etdim ki, müstəhəb namazları camaatla qılmaq bid`ətdir. Qoşunun bə`zisi mənimlə birgə döyüşərkən, fəryad edərək deyirdilər: "Ey Islam əhli! Ömərin sünnəsi dəyişilmişdir! Əli bizi Ramazan ayında

---

[1] Yenə orada, səh. 266-267, "Əş-şafi" kitabından nəqlən, səh. 233-234.

[2] Bu şərtin qoyulmasının səbəbi o xəlifələrin üslub və rəftarının Allahın kitabı və Peyğəmbərin sünnəsi ilə uyğun olduğu deyildi. Çünki bu zaman Əli (ə) onu inkar etmirdi. Əksinə onun səbəbi bu idi ki, xəlifələrin rəftar və üslubu – Peyğəmbərin (s) sünnəsinin əksinə olsa da, – keçmişlə müqayisədə daha da mö`təbər və me`yarlaşsın.

[3] "Dəaimul-islam", 1-ci cild, səh. 384; "Nəhcüs-səadət", 1-ci cild, səh. 229.

müstəhəb namazlardan çəkindirir!" Doğrudan da, qorxdum ki, qoşun arasında ixtilaf yaransın."[1]

Ibn Əbil-Hədidin yazdığı kimi, bu məsələlər Əlini Fədəki tələb etməkdən çəkindirirdi. Çünki o istəmirdi ki, camaat desin: "Əli, Əbu Bəkr və Ömərin əksinə rəftar edir."[2]

## FƏDƏKIN AXIR-AQIBƏTI

Fədək bağı imam Həsən (ə)-ın ömrünün axırına qədər Peyğəmbər Əhli-beytinin ixtiyarında deyildi.[3] Müaviyə ibn Əbi Süfyan o həzrətin şəhadətindən sonra onun üçdə birini öz oğlu Yezidə verdi. Mərvanın xilafəti dövründə bağın hamısı öz ixtiyarında və ondan sonra da digər mərvanilərin əlində idi. Ömər ibn Əbdül-Əzizin xilafəti dövründə Fədək Fatimənin (ə.s) nəvələrinə qaytarıldı. Ondan sonra Yezid ibn Atikə onu onlardan alıb, Mərvanın nəvələrinə verdi. Əməvilər dövləti dağıldıqdan sonra isə abbasilərin birinci xəlifəsi Əbul-Abbas Səffah Fədəki Abdullah ibn Həsən ibn Həsənə verdi. Lakin Mənsur hakimiyyətə çatdıqda, onu geri aldı. Mənsurun oğlu Mehdi isə xilafəti dövründə Fədəki Fatimənin (ə.s) nəvələrinə verdi. Amma oğlu Musa və qardaşı Harun onu yenidən qəsb etdilər. Onlardan sonra Mə`mun onu Fatimənin (ə.s) nəvələrinə qaytardı, nəhayət, Mütəvəkkil xilafətə çatdıqda, yenə Fədəki onlardan aldı.[4]

## PEYĞƏMBƏRIN ƏHLI-BEYTINƏ XUMSUN VERILMƏSININ QADAĞAN EDILMƏSI

"Ənfal" surəsinin 41-ci ayəsində buyurulur:

**"...Bilin ki, ələ keçirdiyiniz hər hansı qənimətin beşdə biri Allahın, Peyğəmbərin, onun qohum-əqrəbasının, yetimlərin, yoxsulların və yolda qalan müsafirlərindir."**

Bu ayəyə əsasən, müsəlmanların vəzifəsi yığdıqları qənimətin beşdə birini Allah yolunda, Peyğəmbərə, onun qohumlarına, kimsəsizlərə və pulu qurtarıb yolda qalanlara xərcləməkdir.[5] Rəsuli-Əkrəm (s) vəfat etdikdən sonra xəlifələr xumsu

---

[1] "Rövzeyi-kafi", səh. 58-63; "Tarixul-xüləfa", səh. 1364. Ömər o namazla bağlı məzəmmət edilib, Peyğəmbərin belə bir namaza göstəriş vermədiyi üçün camaatın e`tirazı ilə üzləşdikdə, dedi: "Əlbəttə, onun bid`ət olduğunu bilirəm, amma yaxşı bir bid`ətdir!"

[2] "Şərhi Nəhcül-bəlağə", 16-cı cild, səh. 231.

[3] Ikinci xəlifənin dövründə Fədək Əhli-beytə qaytarıldı, lakin imam Əli (ə) müəyyən səbəblər üzündən onu qəbul etmədi. ("Tacul-ərus", 7-ci cild, səh. 166. ) Əlbəttə, bu nəzərin nə həddə doğru olmasın şəkk vardır.

[4] "Şərhi Nəhcül-bəlağə", Ibn Əbil-Hədid, 16-cı cild, səh. 216-217; "Əl-kamilu fit-tarix", 2-ci cild, səh. 225.

[5] Bu günləri bu altı qismin ilk üçüncü qismi "seyid malı", qalan üçüncü qismi isə "imam malı" adlanır.

yalnız axırıncı üç dəstəyə (yetim, yoxsul və yolda qalan müsafirlərə) aid edərək, haşimiləri xumsdan məhrum etdilər.[1]

## HƏDIS NƏQL ETMƏK VƏ YAZMAĞIN QADAĞAN EDILMƏSI

Həzrət Peyğəmbər (s) ömrünün son anlarında vəsiyyət etmək üçün kağız-qələm istədiyi vaxtda Ömərin "Innər-rəculə ləyəhcur, həsbuna kitabullah!" (Bu kişi sayaqlayır, bizə Allahın kitabı kifayətdir!" – deməsi bir siyasəti açıqlayırdı ki, bu, Əbu Bəkrin hakimiyyəti dövründə özünü göstərdi. O siyasət Peyğəmbər (s)-in hədislərinin nəql edilməsinin və yazılmasının qarşısını almaq idi.[2] Əbu Bəkrin xilafəti dövründən hələ çox keçməmişdi ki, o, camaatın qarşısında e`lan edərək dedi: "Siz Peyğəmbərdən bə`zi hədislər nəql edirsiniz ki, aranızda ixtilafa səbəb olur və sizdən sonra gələn nəslin ixtilafı daha da artır. Belə isə Peyğəmbərdən hədis nəql etməyin! Hər kəs sizdən bir məsələ soruşsa, deyin: "Qur`an bizim aramızdadır." Qur`anın halalını halal, haramını isə haram bilin!"[3]

Bundan sonra hətta xəlifə özü Peyğəmbəri-Əkrəm (s)-dən eşidib yazdığı beş yüz hədisi bir yerə töküb yandırdı və dedi: "Artıq arxayınlaşdım!"

## VƏSIYYƏT VƏ ŞÜBHƏLI ÖLÜM

Əbu Bəkr ibn Əbi Qühafə xəstəliyindən on beş gün, xilafətindən isə iki il üç ay iyirmi dörd gün keçdikdən sonra 31-ci hicri ilinin Cəmadiyüs-sani ayının 21, yaxud 22-də, bazar ertəsinin gecəsi məğrib namazından sonra 63 yaşında ikən dünyadan getdi. Elə həmin gecə Əmr ibn As ona namaz qıldı,[4] qızı Ayişənin sə`yi nəticəsində Peyğəmbər (s)-in evində – və Ayişənin yaşadığı otaqda –dəfn olundu.[5] Deyilənlərə görə, o, Ömərin canişin olmasını vəsiyyət etmiş və bu vəsiyyəti Osman yazmışdı.

---

[1] "Təfsiri Kəşşaf", xums ayəsinin təfsiri; bax: "Müsnədi-Əhməd", , 1-ci cild, səh. 248, 294, 302 və 308; "Sünəni Beyhəqi", 6-cı cild, səh. 334; ""Məaniyül-asar", 2-ci cild, səh. 136 və 179; "Kənzül-ümmal", 2-ci cild, səh. 136 və 305; "Səhihi Müslüm", "cihad" kitabı, səh. 105.

[2] Həqiqətdə bu məsələdə Osmanın siyasəti də özündən qabaqkı xəliflərin siyasətini davam etdirmək idi. Buna görə də xilafətə çatmazdan qabaq camaatın qarşısında Əbdür-Rəhmanın əvvəlki iki xəlifənin rəftarına əməl etməsi ilə bağlı təklif etdiyi şərti qəbul etdi.

[3] "Təzkirətul-huffaz", 1-ci cild, səh. 2-3.

[4] "Tarixul-üməm vəl-müluk", 2-ci cild, səh. 622; "Əl-kamilu fit-tarix", 2-ci cild, səh. 418-419; "Ət-təbəqatul-kubra", 3-cü cild, səh. 207-208; "Tarixi Əbil-Fəda", 1-ci cild, səh. 222; "Iğtiyalul-xəlifə Əbi Bəkr. . . ", səh. 70.

[5] Əllamə Əmini yazır: "Həmin ev Peyğəmbərin (s) шəxcи mülkü idi. Əgər o ev Həzrətin irsi idisə, onda Fatimənin övladlarına və Peyğəmbərin zövcələrinə çatırdı. O həzrətin zövcələri də doqquz nəfər və hər birinin payı isə səkkizdə bir qədər idi. Əgər bir nəfərin əmlakının səkkizdə biri doqquz arvada bölünsə, hər arvadın payı yetmiş ikidə bir olacaqdır. Buna əsasən, Ayişəyə çatan pay bir, yaxud iki qarışdan çox olmur. Bundan əlavə, Əbu Bəkrin əqidəsinə görə, Rəsuli-Əkrəm (s) özündən sonra heç bir irs qoymadığından, onun əmlakını müəyyən bir şəxs istifadə edə bilməz. (Belə olduqda, Əbu Bəkri Peyğəmbərin evində necə dəfn etdilər?!) ("Əl-qədir", 7-ci cild, səh. 249. )

Bir neçə sual Əbu Bəkrin vəsiyyəti və ölümünün şübhəli olduğunu göstərir:

1. Əbu Bəkrin ölümünə səbəb olan xəstəlik nə idi? O, ömründə heç bir xəstəliyə tutulmamış, yaşı altmışdan çox olduğu halda, tam sağlam idi, ata-babaları isə çox ömür sürmələri ilə məşhur olmuşdur.

2. Nə üçün xəlifənin vəsiyyəti yalnız Osmanın vasitəsilə nəql olunmuşdur? Dəlil varmı ki, xəlifənin özündən sonra canişin tə`yin etməsində kiminsə tərəfindən hədələnməməsini sübut etsin?

3. Hansı səbəblər üzündən onu dəfn etməyə tələsdilər? Hətta bə`ziləri camaatı onun cəsədəni görməyə, ona namaz qılmağa və təntənəli surətdə dəfn mərasimi keçirməyə imkan vermədilər.

4. Nə üçün Əbu Bəkrin dəfnindən sonra yəhudilərin vasitəsilə zəhərlənib öldürüldüyü şayiə olaraq yayıldı?

Bu sualların cavabını araşdırdıqda, bir çox şübhəli məsələlər aydınlaşır. Burada bir neçə məsələni qeyd etməyi zəruri görürük:

a) Siyasət aləminin çətin bir məsələ olduğu heç kimə gizli deyil. Islam tarixində siyasi hiylələr və yaxud zəhərlə öldürülən, eləcə də ən yaxın ailə üzvlərinin vasitəsilə ən ağır işkəncələrə mə`ruz qalaraq həlak olan siyasətçi və dövlət başçılarının sayı olduqca çox[1] və təbii ölümlə dünyadan gedən hakimlərin sayı isə çox azdır.

b) Dövlətlərin bir-birləri ilə həmkarlığı ilə yaranan, yaxud siyasi-ictimai dəyişikləri Qur`an siyasi şəxsiyyətlərin əlaqəsi istər qələbədən əvvəl, istərsə də sonra həmişə bir səviyyədə olmamış, bə`zən də fəaliyyətlərin ilkin mərhələsində bir-birini siyasi-ictimai hərəkatlarda müdafiə edən iki nəfər müəyyən müddətdən sonra yeni məqsəd, yaxud mövqe uğrunda bir-birinin qanlı düşməninə çevrilirlər. Burada onlar öz ədavət və kin-küdurətlərini aşkar etməsələr də, daxildə rəqibə siyasi zərbə endirmək üçün fürsət axtarırlar.

Bir neçə dəlil və şahid göstərir ki, Əbu Bəkrlə Ömər ibn Xəttabın arasındakı əlaqə Əbu Bəkrin xilafətə çatmasından sonra keçmiş şəffaflığını itirmiş, bə`zən bir-birlərinin əleyhinə mövqe tutmuşdular. Onların aralarındakı ədavət və kin-küdurəti bəyan etməzdən öncə, qeyd etmək lazımdır ki, onlar müxtəlif yerlərdə müştərək və eyni məqsədə nail olmaq üçün birləşmiş, bir-birini müdafiə etmişlər. Onların hər ikisi siyasətçi, zirək və ehtiyatlı olmuş, bir-birinin rəftar və davranışını nəzərdən qaçırmamış, imkanları daxilində aralarındakı ixtilafı müxaliflərindən gizlətmişlər ki, kimsə onlara irad tutmasınlar. Bu əxlaqi və əqidəvi birlik (bir nəzərə görə) Peyğəmbəri-Əkrəm (s)-in onların arasında qardaşlıq peymanı bağlamasına səbəb olmuşdu.[2] Belə nəzərə çarpır ki, Əbu Bəkrin xilafətə və digər məqsədlərinə çatmaqda Ömərdən bəhrələndiyi qədər, Ömər, Əbu Bəkrdən o qədər bəhrələnməmişdir. Əbu Bəkr "Səqifə"də Əlidən (ə), sonrakı mərhələdə isə mürtəd və müxaliflərdən bey`ət almaq istəyərkən, eləcə də digər işlərdə Ömərdən çox istifadə etmişdir. Deyirlər ki,

---

[1] Əllamə Əmini "Şühədaul-fəzilət", kitabında düşmənlərin və yaxud rəqiblərin hiyləsi ilə şəhadətə çatan alimlərin tərcümeyi-halını qələmə almışdır.

[2] "Xəsaisu Əmirilmu`minin", səh. 19; "Yənabiul-məvəddət", 1-ci cild, səh. 55; "Əl-qədir", 3-cü cild, səh. 112. Qardaşlıq peymanları haqda bax: "Xatəmi peyambəran", Məhəmməd Əbu Zöhrə, 2-ci cild, səh. 259.

əgər Ömərin zəhmətləri olmasaydı, Əbu Bəkr hakimiyyətə çatmazdı.[1] Amma Ömərin Əbu Bəkrdən bəhrələnməsi canişinliyi ona həvalə etməsidir ki, bu da xəlifənin ona qarşı lütf və mərhəməti sayəsində deyil, əksinə öz keçmiş həmkarlığı nəticəsində ələ gətirmişdir.

Bə`zi yerlərdə də Əbu Bəkr Ömərin siyasət və nəzəri ilə ciddi şəkildə müxalifət etmişdir. O cümlədən:

–Ömərin "Səqifə"də hamıdan əvvəl söhbət etməsinin qarşısını almaq;

–Sə`d ibn Übadənin "Səqifə"də öldürülməsi ilə müxalifət etmək;

–Əli ibn Əbi Talibin (ə) həzrət Fatimənin (ə.s) vəfatından qabaq ölüdürülməsinə mane olmaq;

–Peyğəmbəri-Əkrəm (s)-in vəfatından sonra Üsamənin ordusunu Şam sərhədlərinə göndərmək;

–Xalid ibn Vəlidi sərkərdəlikdən azad etmək və cəzalandırmaq;

–Şəhər və məntəqələrə nümayəndə göndərmək.

v) Ömər, Əbu Bəkrin xilafətə çatmasından sonra aralarındakı sədaqət, dostluq və şəffaflığın aradan getməsinə özü də işarə etmişdir. Belə ki, Əbu Hamid Mədayini bu barədə yazır:

"Bir gün Ömər, Müğeyrəyə dedi: "Bu kişi (Əbu Bəkr) "Səqifə"də mənə zülm etdi, xilafəti mənə tarşırdığı halda günahkar idi."

Müğeyrə dedi: "Həmin gün onun (səndən qabağa keçdiyi üçün) sənə zülm etməsi bəllidir, lakin indi ki, xilafəti sənə tapşırıb, necə onu günahkar adlandırırsan?"

Ömər dedi: "Səbəbi budur ki, o, xilafəti mənə həvalə etdiyi vaxt artıq ondan naümid olmuşdu və dünyadan gedəcəyini bilirdi. Mənim isə həmin günlərdə əzaba dözməkdən və intizar çəkməkdən başqa bir çarəm yox idi..."

Müğeyrə dedi: "Nə üçün "Səqifə" günü Əbu Bəkr xilafəti sənə tapşırdıqda, ondan boyun qaçırdın ki, indi keçmiş hadisələrə təəssüflənirsən?!"

Ömər dedi: "Məgər sən həmin günü orada deyildinmi?! Gördün ki, o, məni necə aldatdı? Əlbəttə, mən də onu aldatdım. Əbu Bəkr camaatın ona üz tutduğunu müşahidə etdikdə, yəqin etdi ki, yalnız onu seçəcəklər. Sonra mənim daxilimdən agah olmaq və xilafətə nə qədər tamahkar olduğumu bilmək üçün məni sınaqdan keçirmək yolunu tapdı. O, əvvəlcə xilafəti mənə təklif etdi, lakin biz hər ikimiz yaxşı bilirdik ki, əgər onu mən qəbul etsəm, camaat ona razılıq verməyəcəklər... Mən həmin gün onu qəbul etmədim, çünki Əbu Bəkrin təklifi ilə belə, camaatın mənim xəlifəliyimə səs verməyəcəyini bilirdim. Əbu Bəkr isə mənə qarşı paxıllıq etdiyi və kin-küdurət bəslədiyi üçün o məqamı özünə götürdü."[2]

O, əlavə edərək yazır:

"Əş`əs ibn Qeyslə Ömər ibn Xəttab arasında Əbu Bəkr haqda yaranan mübahisə Əbu Bəkrin qulağına çatdıqda, o, Öməri yanına çağırdı. Ömər onun yanına

---

[1] "Şərhi Nəhcül-bəlağə", Ibn Əbil-Hədid, 1-ci cild, səh. 174 və 2-ci cild, səh. 45 və 56; "Tarixul-üməm vəl-müluk", 3-cü cild, səh. 219

[2] "Şərhi Nəhcül-bəlağə", 2-ci cild, səh. 31 və 33. Белə нəзəрə çarpır ki, Ömərin Əbu Bəkrin qərar və işlərinə aşkar şəkildə dəxalət etməsinin səbəbinin biri bu ola bilər ki, Ömərin əqidəsinə görə, Əbu Bəkr qabaqcadan öz aralarındaкы разылашмаjа qarşı çıxaraq, xilafəti özünə götürmüşdü.

getməkdən imtina edib, ona belə bir məktub yazdı: "Ey Əbu Bəkr! Səni Allaha and verirəm ki, daha qurtar (bu məsələni davam etməkdən əl çək), yoxsa camaatın qarşısında səninlə öz aramdakı sirləri açaram və hamı onlardan xəbərdar olar. Əgər istəyirsənsə, əlaqələrimizi keçmişdəki kimi möhkəmləndirək!" Bu zaman Əbu Bəkr ona belə bir xəbər göndərdi: "Dostluğumuzu davam etdirməyi məsləhət bilirəm. Tez bir zamanda xilafət sənə çatacaqdır."

Ömər deyir: "Mən elə güman etdim ki, Əbu Bəkr xilafəti hətta bir həftədən də tez mənə tapşıracaq, lakin o, özünü unutqanlığa vurdu. Allaha and olsun, bu barədə mənimlə ölənə qədər bir söz belə, danışmadı. O, nə qədər ki, sağ idi, dişinə bir şey tutan şəxs kimi xilafətdən bərk-bərk yapışmışdı."[1]

Əbu Bəkrin hakimiyyəti (Bəni-Teym qəbiləsi tərəfindən) günü-gündən möhkəmləndikcə, Ömər ibn Xəttabın (Ədiyy qəbiləsi tərəfindən) hakimiyyətə gəlməsi üçün şərait daha da çətinləşirdi.

Qeyd etməliyik ki, Əbu Bəkr hakimiyyətinin birinci ilində Öməri hacıların rəisi seçdi. Lakin ikinci ildə onu bu məqamdan azad edib, onun yerinə Üttab ibn Üseydi tə`yin etdi. Əvvəlki illərdə isə Əli ibn Əbi Talib (ə) Peyğəmbəri-Əkrəm (s) tərəfindən hacıların rəisi seçilmişdi və həmin vaxtlar bu məqam bir növ canişinlik nişanəsi hesab edilirdi.

q) Əbu Bəkrin xilafəti rəsmiləşdikdən sonra onunla Ömərin tərəfdarları arasında ixtilaf baş qaldırdı. Şübhəsiz, hər iki tərəfin tərəfdarları onların arasındakı ixtilafdan və onun səbəbindən agah deyildirlər. Ömərin cinahı o zaman hərəkətə başladı ki, artıq iş-işdən keçmiş, Əbu Bəkr xilafətə çatmışdı. Ondan qabaq isə ictimai hadisələr hər ikisinin xeyrinə baş verirdi, lakin Əbu Bəkrin xilafətindən sonra Ömərin siyasəti ilə Əbu Bəkrin müxalif cinahı sür`ətlə gücləndi və çox çəkmədi ki, Əbu Bəkr dünyadan getdi.

Əbu Bəkrin siyasətinə, onun müsəlmanlarla əlaqəsinə nəzər yetirdikdə, Əbu Übeyd Cərrah, Xalid ibn Vəlid, Üttab ibn Üseyd Əməvi, Təlhə ibn Übeydullah, Şərhəbil ibn Həsənə, Müsənna ibn Harisə Şeybani, Məaz ibn Cəbəl, Ənəs ibn Malik, Ayişə və Əkrəmə ibn Əbi Cəhl[2] kimi şəxsləri onun tərəfində görürük.

"Səqifə"də Əbu Bəkr tərəfindən Ömərə vurulan ağır zərbə səbəb oldu ki, o, daha çox ehtiyatla hərəkət etsin, öz cinahına zirək və ağıllı adamları cəzb edib, müxtəlif məntəqələrə nümayəndə göndərməklə siyasətini genişləndirsin. Onun yaşlı siyasətçi tərəfdarları bunlar idi: Osman ibn Əffan, Müğeyrə ibn Şö`bə, Əmr ibn As, Əbu Musa Əş`əri, Əbu Süfyan, Yezid ibn Əbi Süfyan, Müaviyə, Ütbə ibn Əbi Süfyan, Vəlid ibn Əqəbə ibn Əbi Müit, Əbdür-Rəhman ibn Ovf və Abdullah ibn Əbi Rəbiə (Ömərin Yəməndə valisi).

---

[1] "Şərhi Nəhcül-bəlağə", 2-ci cild, səh. 32-34; "Əş-şafi", səh. 243-244; "Iğtiyalul-xəlifə Əbu Bəkr. . . ", səh. 30-33. Bu danışıqlardan belə bir nəticə almaq olar: "Ömərin Əbu Bəkrə qarşı işlətdiyi hiylə onu hakimiyyətini davam etdirməkdən məhrum etməkdir ki, bu rəvayətdə onun təfərrüatına işarə edilməmişdir.

[2] O da atası Əbu Cəhl kimi Islam Peyğəmbərinin гатЫ düşmənlərindən idi. Amma Məkkənin fəthindən sonra Islamı qəbul və bir neçə müharibədə də şirkət etdi. Hicrətin 13-ci ilində 62 yaşında ikən "Yərmuk" və "Mərəcus-sufər" müharibəsində qətlə yetirildi. ("Əl-ə`lam", Zərkəli. )

Hər iki tərəfin tərəfdarları yalnız müştərək məqsədlərdə bir-birlərinə kömək edir və eyni fikrə gəlirdilər. Hər vaxt onların arasında saziş və uyğunluq görünürdüsə, müştərək məqsəd üzrə çalışdıqları başa düşülürdü.

Bu təhlili həqiqətə daha da yaxınlaşdıran işlər aşağıdakılardır:

1. Birinci qrupdan (Əbu Bəkrin tərəfindən) bə`ziləri onun vəfat etdiyi gün şübhəli şəkildə öldürüldü, sağ qalanlar isə Ömər ibn Xəttab xilafət kürsüsündə əyləşdikdən sonra vəzifələrindən azad edildi, hətta bə`ziləri vəzifədən azad edilərkən, şübhəli şəkildə öldülər. Əbu Bəkr isə öz xilafəti dövründə Ömərin siyasi partiyasından heç kimi bir işə seçmir və onlara inanmırdı. O, ömrünün son günlərində deyirdi: "Kaş, dostum Xalid ibn Vəlidi Şama göndərdiyim kimi, Öməri də Mədinədə öz yanımda saxlamazdım və uzaq bir məntəqəyə (Iraqa) göndərəydim."[1]

2. Ömərin xilafəti dövründə Əbu Bəkrin "Bəni-Teym" qəbiləsi, qohum-əqrəbası və valilərindən heç kimi mühüm bir vəzifəyə seçmədi.

3. Əbu Bəkrin cinahında Bəni-Ümməyyə tayfasından az,[2] Ömərin tərəfində isə çox adam görünürdü. Buna əsasən, əməvilər Əbu Bəkrin təbii olaraq həyat sürməsinə imkan verməzdilər. Çünki o zaman Əbu Bəkr də digər ailə üzvləri və qohum-əqrəbası kimi uzun ömür sürəcək,[3] nəhayət, hökuməti özündən sonra Bəni-Teym tayfasından birinə tapşıracaq və əməvilərin hakimiyyətə gəlmələri üçün yaranan fürsət itəcəkdir.

Şübhəsiz, Əbu Übeydə Cərrah (Əbu Bəkrin səmimi dostu və Ömərin siyasi həmkarı), Təlhə, Xalid ibn Vəlid və Üttab ibn Üseyd Əməvinin varlığı ilə Ömər, yaxud Osman kimilərə yer qalmırdı. Həqiqətdə Ömər Bəni-Üməyyə tayfasının qələbə çalması üçün bir növ körpü rolunu ifa edir və Osman ola-ola Öməri elə də istəmirdilər.

Hər zaman Əbu Übeydə, yaxud Xalid ibn Vəlid xilafəti ələ keçirmək fikrinə düşsəydilər, (güclü ehtimala görə,) Ömər və Osmanı (onların xilafətə çatmasında rol oynasaydılar belə) müəyyən bəhanələrlə Mədinədən kənarlaşdıracaq və yaxud gizlincə öldürəcəkdilər. Sözsüz, onlar Ömərin Bəni-Üməyyə tayfasının hakimiyyətə gəlməsinin səbəbkarı olduğunu bilsələr də, onun sağ qalıb yaşamasına razılıq verməyəcəkdilər. Çünki onlar haşimiləri xilafətdən kənarlaşdırmaqda müvəffəqiyyət qazansalar da, bir-birlərindən qorxurdular.

---

[1] Başqa bir rəvayətdə isə belə deyilir: "Kaş, Əbu Übeydəni qərb ölkələrinə göndərdiyim kimi, Öməri də şərq ölkələrinin birinə göndərəydim!" ("Əl-imamətu vəs-siyasət", 1-ci cild, səh. 18. )

[2] Əbu Bəkrin hökumətində əməvilərdən yalnız üç nəfərin rolu var idi: Osman, Yezid ibn Əbi Süfyan (Müaviyənin qardaşı) və Üttab ibn Üseyd Əməvi. Osman Əbu Bəkrlə Bəni-Ümməyyə tayfasının arasında sülh bərqərar etməkdə nümayəndə idi, bundan və məktubları yazmaqdan başqa heç bir siyasi-ictimai vəzifəsi yox idi. Yezid ibn Əbi Süfyan, Ömərin israrı və Əbu Süfyanın himayəsi ilə Şam ordusunun sərkərdəsi tə`yin edilmişdi. Üttab ibn Üseyd Əməvi isə Əbu Bəkrin Məkkədə işçiləri tə`yin etmə üzrə nümayəndə seçilmişdi, yaşı az, amma Əbu Bəkrin möhkəm tərəfdarı idi.

[3] Əbu Bəkrin ata-babaları və qohum-əqrəbası uzun ömürlükdə məşhur idilər. Onun atası Əbu Qühafə hicrətin 14-cü ilinin Mühərrəm ayında (Əbu Bəkrin vəfatından sonra) 97 yaşında ikən Məkkədə, anası isə Əbu Qühafədən az müddət öncə vəfat etdilər. ("Usdul-ğabə", 3-cü cild, səh. 581; "Əl-istiyab", 3-cü cild, səh. 1036; "Əl-kamilu fit-tarix", 2-ci cild, səh. 617. )

Ömər ömrünün axırlarında Əbu Übeydə və yaxud Salim ibn Übeydin sağ qalmasını, nəticədə xilafəti ona tapşırmasını arzu edirdi. Lakin ehtimal üzrə, o, bu sözləri səmimi qəlbdən demir, sadəcə o, belə danışmaqla bir ittihamı dəf etmək istəyirdi. O da Əbu Übeydə və Əbu Bəkrin digər tərəfdarlarının qətlə yetirilməsində Ömərin ittihamlandırılması idi, yoxsa Ömər "Səqifə" günü Əbu Übeydənin həmkarlığı ilə Əbu Bəkrin onu xilafətdən necə uzaqlaşdırdığını unutmamışdı? O zaman Əbu Bəkr belə demişdi: "Ey camaat! Mən sizi bu iki nəfərdən – Əbu Übeydə və Ömərdən – birinə bey`ət etməyə də`vət edirəm!" Ömər üzünü Əbu Übeydə tutub dedi: "Gəl, səninlə bey`ət edim." Ömər, Əbu Übeydənin "Xeyr, sən ola-ola, mən bu işi öhdəmə götürmərəm!" – deyə cavab verəcəyini fikirləşirdi. Çünki əvvəlcə aralarındakı qərara görə, "Səqifə" günü Ömər xəlifə seçilməli idi. Lakin gözlənilmədən Əbu Übeydə ona belə cavab verdi: "Allaha and olsun, mən sənin barəndə hes vaxt pis fikirdə olmamışam! Amma Əbu Bəkr kimi yaşlı bir şəxsiyyət qala-qala, nə üçün xilafəti mənə təklif edirsən?" Bu zaman hamı gözünü Əbu Bəkrə zillədi. Ömər artıq ona tələ qurulduğunu bildi![1]

Əbu Bəkrin hakimiyyətə gəlməsi ilə əməvilər fürsəti əldən verdilər. Sözsüz, bu zaman Ömərin varlığı ilə Osmana yer qalmırdı. Burada əvvəlcə Əbu Bəkri aradan götürmək, sonra Öməri xilafətə seçmək, daha sonra isə Ömərin vasitəsilə Osmanın hakimiyyətə gəlməsini gözləmək lazım idi. Əgər Ömər əməvilərin qüdrətə gələcəyi üçün çalışmasaydı, onu asanlıqla aradan götürə biləcəkdilər.

Belə nəzərə gəlir ki, Ömər əməvilərin siyasətində oyuncaq rolunu daşıyırdı, hərçənd, onları qüdrət və hakimiyyətə gətirən də o idi. Lakin həqiqətdə günü-gündən ucalan, iqtidarlaşan Ömər deyil, əməvilər idi. Əgər onlar Əbu Bəkrin həlakəti ilə dərhal Osmanı xilafət kürsüsündə əyləşdirə bilsəydilər, Ömərin on illik hakimiyyətinə taqət gətirməyəcəkdilər.

Əməvilər bilirdilər ki, Ömər və Əbu Übeydənin Əbu Bəkrlə həmkarlığı davam etdiyi təqdirdə, xilafətin əməvilərdən (Osman kimi) bir şəxsə çatıb-çatmaması əsla mə`lum olmayacaq. Əgər onlar təbii ömür sürsələr, hamıdan yaşlı olan Osmana növbə çatmayacaqdır.

4. Əbu Bəkrin ölümü ilə onun xanədanı və qohum-əqrəbası ilə Ömərin əlaqələri qırıldı.[2] Bunun səbəbi isə xəlifənin şübhəli və namə`lum şəkildə dünyadan getməsi idi. Şübhəsiz, onun səbəblərindən biri də məhz bu idi, xüsusilə, Əbu Bəkrin ölümündən sonra Ömərdən elə rəftarlar göründü ki, bu ittiham ehtimalı Əbu Bəkrin qohum-əqrəbasının zehinində gücləndi. Ömər xəlifənin elə həmin gecə dəfn edildiyini tə`kid etdi. Ertəsi gün isə o, Ayişə və qohum-əqrəbası tərəfindən qurulan matəm mərasimini dağıtdı və xəlifəyə matəm mərasiminin qurulmasını qadağan etdi.[3] Ömər qadınların matəm məclisində ağlamalarının qarşısını alsa da, heç kim

---

[1] Əbu Übeydə vəfat etdiyi ildə Əbu Bəkrin tərəfdarlarından bir neçə nəfər namə`lum tərzdə dünyadan gedərək, şaiyə yayıldı ki, onlar "taun" xəstəliyi nəticəsində Əmvas şəhərində vəfat etdilər. Bilal da həmin ildə vəfat etdi.

[2] "Əl-məarif", Ibn Qüteybə, səh. 550.

[3] "Tarixul-üməm vəl-müluk", 4-cü cild, 13-cü ilin hadisələri; "Əl-kamilu fit-tarix", 2-ci cild, səh. 204; "Kənzül-ümmal", 18-ci cild, səh. 118; "Iğtiyalul-xəlifə Əbu Bəkr. . . ", səh. 71.

ona qulaq asmadı, ona görə də Ayişədən başqa hamını danladı, nəhayət, Əbu Bəkrin bacısı Ümmü Fərvəni vurduqdan sonra qadınlar dağıldılar.[1]

Bu hadisədən qabaq Əbu Bəkrin hakimiyyətindən narazı olan Zeyd ibn Xəttab (Ömərin böyük qardaşı) xəlifə tərəfindən Peyğəmbərlik iddiası edən yalınçı Müseyləmə ilə döyüşə yollandı.[2] Digər tərəfdən isə Ömər, Əbu Bəkrin oğlu Əbdür-Rəhmana qarşı ədavət bəsləyirdi. Çünki Əbdür-Rəhman Ömərin hakimiyyətə gələcəyi ilə müxalif idi və Qüreyşin də onun hakimiyyəti ilə müxalif olduğuna inanırdı.[3]

Əbu Bəkrin qohum-əqrəbası ilə əməvilərin və Ömərin tərəfdarları arasındakı ixtilaf neçə illər davam etdi. Həqiqətdə əməvilərin nümayəndəsi Osman, Əbu Bəkrin xanədanı və tərəfdarları tərəfindən qətlə yetirildi. Onun qətlinə hökm verən Ayişə, hökmü icra edənlər isə Təlhə və Əbu Bəkrin oğlu Məhəmməd və Əbdür-Rəhman idi. Bu ixtilaf üzündən Osman xilafətinin son günlərində Abdullah ibn Əbi Sərəhə yazdığı məktubunda bildirdi ki, bu məktub sənə çatan kimi Əbu Bəkrin oğlu Məhəmmədi və tərəfdarlarını öldürsün![4]

Müaviyənin hiyləsi ilə Misirdə (38-ci hicri qəməri ilində) qətlə yetirilən Əbu Bəkrin oğlu Məhəmməddən başqa,[5] Əbdür-Rəhman, Ayişə və Əbu Bəkrin digər iki oğlu yenə Müaviyənin hiyləsi ilə 58-ci hicri qəməri ilində qətlə yetirildilər.

Müaviyə 58-ci hicri qəməri ilində Mədinədə oğlu Yezidi vəliəhd etmək üçün tədbir gördükdə, Ayişə və Əbdür-Rəhman onunla müxalifət etdilər. Müaviyə onları müxalifətdən çəkindirmək məqsədilə, onlara yüz min dirhəm pul rüşvət təklif etsə də, qəbul etmədilər.[6] Nəhayət, bu bacı və qardaşı elə həmin ildə öldürdü.[7]

## XƏLIFƏNIN BAŞI ÜSTƏ

Əbu Bəkrin xəstəliyi müddətində baş verən qəribə hadisələrdən biri də camaatla əlaqəsini kəsməkdir. Həqiqətdə onun beş günlük xəstəliyi vaxtda kimlərlə əlaqə saxladığı mə`lum deyil! Tarixçilər bu barədə belə yazırlar: "O, bu iki həftədə xilafət haqda (Ömərin tərəfdarlarından olan) yalnız iki nəfərlə – biri Osman ibn Əffan, digəri isə Əbdür-Rəhman ibn Ovfla söhbət etmişdir. Ömərin canişinlik xəbəri eşidildikdə isə, Əbbdür-Rəhman ibn Əbu Bəkr, eləcə də Təlhə ibn Abdullah xəlifəyə e`tiraz etdilər ki, nə üçün bu kobudxasiyyətli və qəzəbli şəxsi – Öməri camaata hakim tə`yin etmisən?!

---

[1] "Kənzül-ümmal", 15-ci cild, səh. 731; "Əl-isabə", 3-cü cild, səh. 406; "Şərhi Nəhcül-bəlağə", Ibn Əbil-Hədid, səh. 181.

[2] "Usdul-ğabə", Zeydin tərcümeyi-halı.

[3] "Əs-siqat", 2-ci cild, səh. 192; "Iğtiyalul-xəlifə Əbu Bəkr. . . ", səh. 75.

[4] "Əl-kamilu fit-tarix", 3-cü cild, səh. 168-169.

[5] "Əl-bidayətu vən-nihayə", 8-ci cild, səh. 416; "Daru ehyait-turasil-ərəbi", Beyrut çapı.

[6] "Əl-kamilu fit-tarix", 3-cü cild, səh. 199; "Əl-bidayətu vən-nihayə", 8-ci cild, səh. 96; "Daru ehyait-turasil-ərəbi", Beyrut çapı; "Əl-əğani", 16-cı cild, səh. 90-91; "Iğtiyalul-xəlifə Əbu Bəkr. . . ", səh. 111.

[7] "Əbdür-Rəhman Məkkə ilə Mədinə arasında namə`lum şəkildə, Ayişə isə Dəməşqdə Müaviyənin hiyləsi nəticəsində qətlə yetirildilər. Əbdür-Rəhmanın cəsədini Məkkəyə aparıb, elə orada dəfn etdilər. ("Nihayətul-ərb", 4-cü cild, səh. 121. )

Onların arasında baş verən söhbətlər içrə təəccüb doğuran məsələlərdən biri Əbu Bəkrin Ömər barəsində açıqladığı cavabıdır. Belə ki, Təlhə, Əbu Bəkrə e`tiraz edərək deyir: "Sən Ömər ibn Xəttabı xəlifə etdin, halbuki gördün ki, onunla birlikdə olduğun müddətdə, camaatla necə rəftar edirdi?! Hakimiyyətə çatandan sonra isə rəftarı daha da pis olacaqdır! Bil və agah ol ki, Rəbbinlə görüşəcəksən və O, səni rəiyyət haqda sorğu-suala tutacaqdır."

Bu zaman Əbu Bəkr qaş-qabaqlı halda, Təlhəyə deyir: "Məni Allahdan qorxudursanmı? Rəbbimlə görüşdüyüm zaman O, məndən bu barədə sorğu-sual etsə, belə cavab verəcəyəm: "Sənin ən yaxşı bəndəni onlara canişin seçdim!"

Əbu Bəkrin bu ifadəsi iki yöndən araşdırılmalıdır: Birincisi budur ki, Əbu Bəkr o sözü deyərkən, bə`zən e`tiraf etdiyi Əli ibn Əbi Talibin (ə) ləyaqət və fəzilətini yaddan çıxararaq, Öməri ondan üstün bilmiş və nəticədə onu xəlifə tə`yin etmişdir. Ikincisi isə budur ki, onun dediyi bu söz – doğru olduğu təqdirdə, cavabdan əlavə, Öməri tə`rifləmək deməkdir. Əlbəttə, diqqət yetirmək lazımdır ki, bu rəvayəti nəql edən Ömər ibn Xəttabın tərəfindən olmayan Təlhədir. Belə isə, onun səhih olduğu halda, belə görünür ki, xəlifə Əbu Bəkr tərəfindən Ömərin xilafətə seçilməsini təsdiq edən şəxs yalnız Osman deyil, Təlhə də xəlifənin Ömərə qarşı lütf və mərhəmətini açıqlamışdır! Buna əsasən, Osmanın vəsiyyəti yazmaqda hiylə etməsi ehtimalı azalır.

Tarixi mənbələrdə Təlhənin xəlifə Əbu Bəkrlə söhbəti nə vaxt yayılması dəqiq göstərilməsə də, güclü ehtimala görə, onun birinci hissəsi (yə`ni Təlhənin xəlifəyə e`tirazı) həqiqət və doğrudur. Burada yalnız söhbətin ikinci hissəsində (xəlifənin cavabında) şübhə qalır. Çünki Təlhə, Ömərin xilafəti ilə müxalif olmasına diqqət yetirməklə yanaşı, öz zərərinə tamamlanan bu sözləri açıqlamasının səbəbi bəlli deyildir. Əbu Bəkrin Ömər barəsində dediklərinin doğru olduğu təqdirdə, ağllı iş bu idi ki, Təlhə xəlifənin tə`rifini camaat arasında yaymasın, halbuki onu nəql edən və camaata yayan Təlhə olmuşdur!!!

Başqa bir sual: "Nə üçün Əbu Bəkr mühacir və ənsar qrupları içərisində özündən sonrakı xəlifə və canişin barəsində yalnız Osman və Əbdür-Rəhmanla söhbət etmişdir? Onun onlarla məsləhətəşməkdə məqsədi nə idi?

Bu məsələ doğru olduğu təqdirdə, iki nöqtənin araşdırılması daha əhəmiyyətli görünür:

1. Guya Əbdür-Rəhman və Osmanın xəlifə ilə Ömərin arasındakı ixtilafdan xəbərdar imişlər. Çünki onların hər ikisi Ömərdən tərəfdarlıq edərək Əbu Bəkrə deyirlər: "O, sənin fikrləşdiyindən qat-qat yaxşıdır!"

2. Osman xəlifə ilə söhbətini belə bəyan edir: "Əbu Bəkr mənə dedi: "Əgər Öməri canişin seçmək fikrindən dönsəm, səni seçməkdə əsla şəkk etmərəm!"

Doğrusu, görəsən, Əbu Bəkr, Osmana belə söz deyibmi?! Görəsən, Osman bu cümləni deməklə özünün xilafətə çatması üçün zəmin hazırlayırdımı?

Bir sıra mənbələrə əsasən, Əbu Bəkr ömrünün son anlarında Osman ibn Əffanı yanına çağırıb dedi: "Dediklərimi yaz: "Bağışlayan və mehriban Allahın adı ilə! Bu, Əbu Bəkr ibn Əbi Qühafənin müsəlmanlar üzərində əhdidir..." Əbu Bəkr bu zaman huşdan getdi və Osman özündən belə yazdı: "Mən, Ömər ibn Xəttabı sizə xəlifə seçirəm və məqsədim məhz xeyirdir." Əbu Bəkr huşa gəldikdən sonra Osmana dedi:

"Oxu, görüm nə yazıbsan!" Osman yazdığını oxuduqda, Əbu Bəkr təkbir deyərək əlavə etdi: "Elə bil, qorxdun ki, mən öləm və müsəlmanların arasında ixtilaf yaransın?" Osman dedi: "Bəli!" Əbu Bəkr dedi: "Allaha sənə Islam və müsəlmanlar tərəfindən savab versin!"[1]

Əbu Bəkr məktubu Şədid adlı azad etdiyi qulamına verdi ki, Ömərin canişinliyini camaata çatdırsın. Şədid məktubu oxumaq istəyərkən, Ömər camaata deyirdi: "Ay camaat! Qulaq asın, Peyğəmbərin xəlifəsinin əmrinə itaət edin, o, sizə yaxşılıq etməkdə səhlənkarlığa yol verməmişdir." Bu zaman bir nəfər Ömərdən soruşdu: "Ey Həfsin atası! Məktubda nə yazılıbdır?" Ömər dedi: "Bilmirəm, lakin mən eşidib itaət edəcək birinci şəxs olacağam!" Həmin şəxs dedi: "Amma, Allaha and olsun ki, mən onu bilirəm! Keçmişdə sən onu hakimiyyətə çatdırdın, indi isə onun növbəsidir ki, hakimiyyəti sənə tapşırsın."[2]

Əlbəttə, bunu unutmaq olmaz ki, nə üçün Əbu Bəkr can verən halda, yalnız Osman onun başı üstə olmuşdur?[3] Görəsən bunun səbəbi onun katib olduğu idimi? Görəsən, onun katib olmasını Əbu Bəkr özü istəmişdi, yoxsa Ömər?!

Ümumiyyətlə, Osman, Ömər ibn Xəttabın Peyğəmbərin (s) vəsiyyətində iştirak edən dostu, tərəfdarı idi. Dostunun Peyğəmbərə qarşı hörmətsizliyini və yaramaz sözünü təsdiqləyən,[4] eləcə də Peyğəmbərin (s) dəfnində iştirak etməyən o idi.[5] Maraqlıdır ki, (Ömərin xilafətə çatması Əbu Bəkrin vəsiyyəti və razılığı ilə olduğunu göstərən) məşhur nəzərin əksinə olaraq, heç bir tarixi xəbərlərdə Ömər ibn Xəttabın "Əbu Bəkr öz razılığı ilə xilafəti mənə həvalə etdi!" – deməsi qeydə alınmamış, əksinə o belə demişdir: "O, ölən vaxta qədər canişinlik barəsində mənimlə bir söz belə danışmadı!"[6]

## TƏƏSSÜFLƏR OLSUN KI...!

Əbu Bəkr ömrünün son anlarında doqquz şeyə təəssüflənirdi ki, kaş, yerinə yetirdiyim üç şeyi yerinə yetirməyəydim; yerinə yetirmədiyim üç şeyi yerinə yetirəydim və Peyğəmbərdən soruşmadığım üç şeyi o həzrətdən soruşaydım:

1. Kaş, xilafət məs`uliyyətini qəbul etməyib, onu Ömər ibn Xəttaba tapşıraydım, özüm isə onun vəziri olaydım![7]

---

[1] "Nihayətul-ərb", 4-cü cild, səh. 128-129.

[2] "Əl-imamətu vəs-siyasət", 1-ci cild, səh. 25.

[3] "Əl-kamilu fit-tarix", 2-ci cild, səh. 425.

[4] "Səhihi Buxari", 4-cü cild, səh. 490, "cəvazul-vəfd" bölümü, hədis: 1229, Beyrutun "Darul-qələm" çapı; "Səhihi Müslüm", 11-ci cild, səh. 89.

[5] "Tarixul-üməm vəl-müluk", 2-ci cild, səh. 442; "Ət-təbəqatul-kubra", 2-ci cild, səh. 267; "Əs-sirətun-nəbəviyyə", 4-cü cild, səh. 305.

[6] Əgər Əbu Bəkr tərəfindən Ömərin canişinlik xəbəri qəti olarsa, onda Əbu Bəkri xilafətin irsi olmasının səbəbkarı bilməliyik. ("Əndişeye siyasi dər Islami müasir", Məhəmməd Rəşidrza, səh. 150. )

[7] Guya xəlifə həmişə bundan qorxurmuş ki, Səqifədə Ömərdən irəli keçdiyi üçün canını əldən versin. Belə ki, əgər o zaman xilafəti Ömərə həvalə etsəydi, bu tezliklə zəhərlənməzdi. Buna görə də arzu edirdi ki, kaş, o günü xilafəti ona tapşıraydım!

2. Kaş, Peyğəmbərin qızı Fatimənin evini zorla açmayaydım və yad adamları onun evinə hücum etmək üçün göndərməyəydim, hərçənd, onu mənimlə müharibə etmək məqsədilə bağlamış olsaydı belə![1]

3. Kaş, Əyas ibn Abdullahı (Fücaə Səlmanı) yandırmayaydım!

4. Kaş, Əbu Übeydəni qərb, Öməri isə şərq ölkələrinə göndərəydim və bununla hər iki əlimi Allah yolunda uzadaydım!

5. Kaş, Əş`əs ibn Qeysi əsir tutub mənim yanıma gətirəndə, onun boynunu vurmayaydım. Çünki güman edirəm ki, o, şər işləri özü törətmir və dostu tərəfindən himayə olunurdu![2]

6. Kaş, Xalidi (müxalifləri mübarizə etmək üçün) Bəzaxəyə göndərməyəydim, yoxud da özüm onunla birgə gedəydim!

7. Kaş, Peyğmbərdən soruşaydım ki, xilafəti kimin haqqıdır və nəticədə onunla ixtilaf etməyəydim!

8. Kaş, Peyğəmbərdən soruşaydım ki, ənsar qrupunun xilafətdə haqqı var, ya yox?!

9. Kaş, Peyğəmbərdən irs məsələsi haqda soruşaydım![3]

## ŞÜBHƏLI XƏSTƏLIK

Əbu Bəkrin xəstəliyinin necəliyi barədə belə yazılır: "O, soyuq bir gündə qusl etdi, nəticədə xəstələndi və iki həftədən sonra dünyadan getdi. Amma güclü ehtimala görə, zəhərlənmə nəticəsində vəfat etmişdir.

Əbu Bəkr qabaqcadan uzaqgörənliyi nəticəsində Iran padşahının həkimi və zəhəri ayırd etməkdə mahir, təcrübəli olan Haris ibn Kəldəni Mədinədə öz yanında saxladı. Bir gün onların hər ikisi üçün zəhərli yemək göndərmişdilər. Onlar bilmədən yeməyə başladıqda, Haris yeməyin zəhərli olduğunu bilib, əlini yeməkdən çəkdi və Əbu Bəkrə dedi: "Hər ikimiz zəhərli yemək yedik, bir ildən sonra öləcəyik!"

Beləliklə, bir ildən sonra onların hər ikisi bir gündə vəfat etdilər.[4] Elə həmin gün Məkkədə xəlifənin valisi Üttab ibn Üseyd[5] də namə`lum şəkildə öldü.[1]

---

[1] Əbu Bəkr bu cümləni o vaxta qədər dilinə alıb deməmişdi. Белə нəzərə çarpır ki, xəlifənin bu işə təəssüfləndiyi zaman görürdü ki, o dəhşətli əməlin nəticəsində möhkəmlənən hökumət əlindən çıxıb başqasına qismət olur. Əgər Əbu Bəkr hakimiyyət dövrünün bu qədər tez ötüb keçdiyini bilsəydi, bəlkə də özünü başqalarının qələbəsi uğrunda elə hərəkətə yol verməzdi.

[2] Əş`əs ibn Qeys Ömərin tərəfdarı və Əbu Bəkrin hökumətinin müxalifi idi.

[33] "Əl-imamətu vəs-siyasət", 1-ci cild, səh. 18; "Mürucuz-zəhəb", 1-ci cild, səh. 414; "Əl-iqdul-fərid", 4-cü cild, səh. 93; "Əl-qədir", 7-ci cild, səh. 17.

[4] "Tarixul-ümən vəl-müluk" (tərcümə), 4-cü cild, səh. 1562; "Əl-iqdul-fərid", 6-cı cild, səh. 205; "Əl-kamilu fit-tarix", 2-ci cild, səh. 164; "Mürucuz-zəhəb", 1-ci cild, səh. 567 və 2-ci cild, səh. 301; "Həbibus-seyr", 1-ci cild, səh. 462; "Ət-təbəqatul-kubra", 3-cü cild, səh. 198.

[5] O, Məkkə fəth edildiyi gün Islamı qəbul etdi və Peyğəmbəri-Əkrəm (s) onu Məkkənin valisi seçdi. Əbu Bəkr də onun hökmünü imzaladı. Bu zaman onun iyirmidən çox yaşı var idi. ("Əl-isabə", 2-ci cild, səh. 451; "Ət-təbəqatul-kubra", 5-ci cild, səh. 446; "Əl-məarif", səh. 283; "Usdul-ğabə", 3-cü cild, səh. 359; "Əs-sirətun-nəbəviyyə", 4-cü cild, səh. 936; "Tarixi Yə`qubi", 2-ci cild, səh. 1224; "Tarixul-ümən vəl-müluk" (tərcümə), 2-ci cild, səh. 365 və 532. ) O, Peyğəmbərin vəfatından sonra

## AMMA BIR SUAL

Müasir dövrdə dünyanın hər bir nöqtəsində bir şəxs öldürüldükdə, onun qatilini tapmaq üçün iki yoldan istifadə edirlər:

1. Öldürülən şəxslə aşkar, yaxud gizli ədavət və düşmənçiliyi olan şəxsi axtarıb tapmaq;

2. Öldürülən şəxsin ölümdən mənfəət görən bir şəxsi axtarıb tapmaq.

Biz bu məsələ haqda bəhs etmədən, hər iki sualın cavabını oxuculara tapşırırıq.

---

məkkəlilərin mürtəd olduğundan qorxub Məkkədən çıxdı. Lakin Süheyl ibn Ömərin vasitəçiliyi ilə Məkkəyə qayıtdı. ("Əs-sirətun-nəbəviyyə", 4-cü cild, səh. 1079. ) Onun oğlu Əbdür-Rəhman "Cəməl" müharibəsində Həzrət Əli (ə)-ın əleyhinə Ayişənin qoşununda sağ cinahın piyadalarının sərkərdəsi idi.

[1] "Əl-iqdul-fərid", 6-cı cild, səh. 292; "Tarixul-üməm vəl-müluk", 2-ci cild, səh. 611; "Əl-məarif", səh. 283; "Əl-bidayətu vən-nihayə", 10-cu cild, səh. 137.

## SƏKKİZİNCİ FƏSİL

### İkinci xəlifə Ömər İbn Xəttabın həyat və şəxsi xüsusiyyətləri.

Əbu Həfs Ömər ibni Xəttab bin Nufeyl bin Əbdül-Üzza bin Riyah bin Abdullah bin Birət bin Zərah bin Udəy bin Kəb bin Lüvəy bin Ğalib Qurəşi Üdvidir.

Onun nəsəbi Kəb ibn Lüveydə Peyğəmbərlə bir-birinə çatır. Anası Haşim ibn Muğəyrət bin Abdullah bin Ömər bin Məxzuminin qızı Həntəmədir.

O Amulfil ilindən on üç il sonra dünyaya gəlib.Rəsulullahın vəfatı zamanı əlli yaşı var idi və əlli iki yaşında xilafətə çatdı. O on il altı ay xilafət etdi.[1] Ölən zaman altımış iki yaşı var idi (26 Zil Hiccə, Hicrinin 23 çi ili). O uca boylu, qara üzlü, six saqqallı, qırmızı gözlü, icəri batmış yanaqlı,qalın bıqlı bir şəxs olub.[2] O uzun müddət qoyun otarmaqla məşğul olub[3] və heyvan alveri ilə məşğul olurdu.[4] İbni Hişam yazır: O,müsəlman olmamışdan qabaq müsəlmanlarla amansızcasına rəftar edən zümrələrdən idi.[5] İzzətdin əbu Hamid Mədaini yazır: O, heybətli, tələbkar və heç kimdən qorxmurdu. Hətta şərafətli insanlarla əsir nəsəbsiz insanlar arasında fərq qoymurdu. O müxtəlif məsələlərdə fətva və hökm verir, sonrada onu rədd edib onun əksinə fətva verirdi.[6] Bir gün Ömər bir qadına xəbər göndərdi ki, məhkəməyə gəlsin. Qadın məhkəməyə getdikdə Ömərin qorxusundan uşağını saldı. Əshabdan bəziləri dedilər: Çünki sənin məqsədin o qadını tərbiyələndirməkdir, ona görə uşağın düşməsi üçün sənə diyə* vacib deyil. Əli ibni əbi Talib (ə) ki, məclisdə iştirak edirdi buyurdu: Əgər bu adamlar öz rəylərinə müvafiq olaraq ictihad etsələr səhv edirlər və əgər sənin rəhbərliyinə görə belə rəy verirlərsə sənə xəyanət edirlər. Sən

---

[1] .Düvəlül- islam,səh 19

[2] . "Nəhayətül - ərb",4 çü cild,səh 128

[3] . Bir gün bir qadın Ömərə dedi:Yatdan şıxarma ki, sən qoyun oturan olmusan ("Əl- İsabə", 8 çi cild, səh 69. "Əl- İstiab",2 çi cild,səh 723)

[4] ."Tacül- Ərus",4çi cild,səh 281;"Ənnihayətu fi qəribil hədis", 1çi cild,səh 88;"Əl- Qədr",7 çi cild,səh 135

[5] ."Əssirətün-Nəbəbiyyə",1 çi cild,səh 215

[6]."Şərhü Nəhcül- Bəlağə",1 çi cild,səh 173

*. Qan bahası:Öldürülmüş adam və ya heyvan əvəzinə, öldürənin və ya onun unun qohumlarının verməli olduğu mal və ya pul.(Azərbaycan dilinin izahlı lüğəti,2 çi cild,səh 96,Ə.Ə Orucov) ( müt)

gərək bu uşağın diyəsini ödəyəsən. Çünki sən bu qadını qorxudmusan və səndən qorxduğuna görə uşağı düşmüşdür.[1]

İbni Müteybə yazır: Əbu Bəkr, Öməri öz yerinə canişin qoymaq qərarına gələn zaman səhabələrdən bir dəstəsi (Səd ibn Əbi Vəqqas, Zübeyr, Təlhə) Əbu Bəkrin yanına getdilər və dedilər: Sən Allaha nə cavab verəcəksən, belə kobud və sərt adamı bizə rəhbər etdi.! O, sənə tabe olan zaman biz onun öhdəsindən gələ bilmirdik əgər özü rəhbər olsa onda ne olar? 2 İbni Səd, Ət-Təbaqat kitabında yazır: O, Bədr, Ühüd, Xəndəq və Peyğəmbərin zamanında bütün müharibələrdə iştirak etmişdir və bəzilərində sərkərdə olmuşdur.[3] Ühüd müharibəsində müsəlmanlar qacan zaman o da qacmışdır.[4] Onun islamı neçə qəbul etməsini bilmək çox maraqlıdır. Tarixçilər yazırlar: Müsəlmanlar Həbəşəyə mühacirət edən zaman Ömər Peyğəmbəri öldürmək qərarına gəldi. Yolda Nəim ibn Abdullaya rast gəldi. Nəim dedi: Hara gedirsən? Ömər dedi: Gedirəm Mühəmmədi öldürəm. Nəim dedi: Əgər düz deyirsənsə Mühəmmədə iman gətirən bacının qabağını al. Ömər təşvişlə bacısının evinə getdi. Orada Xəbab ibn Ərs kağız üzündən Ömərin bacısı və bacısının əri üçün Taha surəsini oxuyurdu. Ömər evə daxil olan zaman Quran səsi qulağına dəydi. Elə bu zaman Xəbab gizləndi. Ömər bacısının əri olan Səhid ibn Zeydin yaxasını tutdu. Ömərin bacısı onu müdafiə edən zaman Ömər ona bir sillə vurdu. Onlar işin cıxılmaz vəziyyətdə qaldığını görüb qəhrəmancasına dedilər: Bəli biz müsəlman olmuşuq. Ömər yazını bacısından aldı. Ayələri oxuduqdan sora dedi: Nə gözəl kəlamlardır! Sonra Peyğəmbərin yanına gedib ona iman gətirdi.[5] Bu hadisə besətin altıncı ili (Ömərin iyirmi altı yaşı olan zaman) baş vermişdir. Şiə məzhəbindən olmayan bir yazıçı Ömər ibni Xəttabın qəzəbli rəftarlarını pisixolagiya nöqteyi nəzərindən təhlil edərək yazır: Ömərin atası Xəttab öz oğlunun işlərində balaca səhlənkarlıq görən kimi onu incidirdi. Ömər uşaqlığ zamanından bu cür cətinlik və məşəqqətlərnən üzbəüz olduğuna görə kobud xasiyyət ilə formalaşmışdır və başqaları ilə də sərt davranırdı.[6]

## Ömər ibn Xəttabın ailəsi

Ömər ibn Xəttabın səkkiz arvadı var idi. O, müsəlman olmamışdan qabaq üç dəfə evlənmişdir. Onun arvadları bunlardır:

1.Zeynəb Məzun ibn Həbib ibn Bəhəb ibn Hüzafe ibn Cəmin qızı.

2.Müləykə Cəzul Xəzainin qızı.

3.Qurəybə Əbu Üməyyə Məxsuminin qızı.

4.Ümmü Həkim Harisas bin Haşim Məxzuminin qızı.

5.Cəmilə Asim bin Sabit bin Əbül Əfləh Osinin qızı.

6.Ləhiyyə Yəmən əhli.

7.Fukeyhə, kənizi.

---

[1] "Tarixi Ömər ibn Xəttab",səh 125;"Əl – Qədir",6 çı cild,səh 119;"Şərhü Nəhcül- Bəlağə",İbn Əbil Hədid, 1 çi cild,səh 174 ; "Əl –İrşad",səh 109

[2]."Əl- İmamə Vəs Siyasə",1 çi cild,səh.82

[3] ."Ət- Təbəqatül Kübra",3 çü cild,səh.272

[4] ."Əl- Məğazi" ,1çi cild,səh 202; "Əl – Kamilu fit Tarix", 1 çi cild, səh.175.

[5] ."Əssirətün- Nəbə Biyyə",1 çi cild,səh 216; Ət- Təbəqatül Kübra,3çü cild,səh.267

[6] ."Zindiqaniyi siyasi və məzhəbiyi Ömər ibn Xəttab" Aleksandr Mazas.

8.Atikə Zeyd bin Mufeyrin[1] qızı.

O bu arvadlardan bəzilərnə təlaq vermişdir. Ömərin bu arvadlardan on övladı olmuşdur. Abdulla Əbdulrəhman və Həfsə Zeynəbin uşaqlarıdır. Übeydullah Muleykənin oğlu, Fatimə Ummu Həkimin qızı, Asim Cəmilənin oğlu, Əbdülrəhman Övsət ya Əsğər Lühəyyənin oğlu və Zeynəb Fükeyyənin qızıdı. Əbdülrəhman Əkbərin ömrünün əvvəlləri Rəsuli Əkrəmin zamanına təsadüf edir. Əbdülrəhman övsəti şərab içdiyinə görə Əmir ibn As onu Misirdə şallaqlayıb Mədinəyə göndərdi. Ömərdə onun pis əməlinə görə qəzəblənib onu ikinşi dəfə şallaqladı. O, bir müddət xəstə oldu və bir aydan sora öldü. Ubeydulla da Peyğəmbərin zamanında dünyaya gəldi və şərab icdiyinə görə ona da hədd* vurdular. O, atası Ömər vurulduğdan sonra Əbu Lölöün kicik yaşında olan qızını, Hərməzanı və Cüfeynə adında olan xac pərəsti Əbu Lölölü bu qətlə sövq etdiklərinə görə öldürdü.[2]

## İLK ADDIMLAR

Ömər ibn Xəttabın xilafətinin başlanğıcında ilk addımları birinci xəlifə tərəfindən təyin olunan valiləri və sərkərdələri kənarlaşdırmaq oldu. O, şəxslər Xalid ibn Vəlid, Ənəs ibn Malik, Şərhəbil bin Həsənə, Müsənna bin Harisə və başqaları idi.

Xalid bin Vəlidin kənarlaşdırılması: Xalid bin Vəlidin Əbu Bəkrin xilafəti dövründə axırıncı vəzifəsi Şam ordusunun sərkərdəliyi idi. O, çox inadkar bir şəxs idi və xəlifənin himayəsi ilə ürəyi nə istəsə idi onuda edirdi. O, nə Əbu Bəkrdən, nədə Ömərdən qorxurdu. Buna baxmayaraq o həmişə Əbu Bəkrə tərəfdarlıq edirdi və Ömərlə rəqabət aparırdı. Ömər xilafətinin əvvəl günündə onu sərkərdəlikdən kənarlaşdırıb və onun yerinə müvəqqəti olaraq Əbu Ubeydə Cərrahı təyin etdi.[3] Xalid öz vəzifəsindən kənarlaşdırıldıqdan sonra Əbu Bəkrin ölüm xəbərni eşitdi.[4] O, həmişə hərbi yürüşlərdə iştirak edirdi. Nəhayət Hicrinin 21 çi ilində naməlum şəkildə öldü. Xalidin kənarlaşdırılmağı üçün neçə dəlil saymaq olar. O, dəlillərdən ən nəzərə çarpılan odur ki, Xalid ibn Vəlidin Əbu Bəkrin hakimiyyətinin möhkəmlənməsində və Ömərin hakimiyyətinin sabitləşməsində əvəz olunmaz xidməti olmuşdur. Amma biz məsələyə səthi yanaşsaq belə təsəvvür yaranırki, Ömər ibn Xəttab onu gərək tələsik surətdə vəzəfəsindən kənarlaşdırmayardı. Ancaq güman olunur onun vəzifəsindən kənarlaşdırılmasının ən mühüm səbəbi Ömərin onun gələcəkdə olan siyasi və nizami nüfuzundan qorxması idi. Çünki o nizami və siyasi işlərdə özünü daha ləyaqətli görürdü. Əldə olunmuş qələbələri öz müvəffəq siyasətinin nəticəsi bilirdi. Buna görədə özünü nizami və siyasi cəhətdən daha üstün və layiqli bilirdi. Ona görədə təvəqqösü var idi ki, o qələbələrin sayəsində böyük vəzifələrə yetişsin. Halbuki Ömərin etiqadına görə hökümətin təyin etdiyi adamlar gərək mərkəzi hökümətin güclənməsinə və sabitliyinə xidmət etsinlər və hec bir siyasi və nizami nüfuz tapmaqa çalışmasınlar. Xəlifə özü deyir: Mən o iki nəfəri

---

[1] .Bəziləri yazırlar:Ömər Əli bin Əbi Talibin qızı Ümmü Külsümlə də evlənmişdir.("Nəhayətül-Ərb",4 çü cild,səh 333.)Amma şiə rəvayətləri bu izdivacı qəbul etməmişdir.Bu barədə " Rahbord Əhli Sünnət be məsələyi imamət",səh 46-39 kitabına müraciət edin.

*.Edilən günah və xəta müqabilində dinin təyin etdiyi cəza və tənbeh.(müt)

[2] ."Nəhayətül- Ərb", 4 çü cild,səh 334.Bu tədqiqatçı və İbn Əbdürəbbi yazırlar:Əbu Lölö özünü öldürdü.("Əl – İqdül-Fərid",4 çü cild ,səh 258.)Halbuki bu xəbər şiənin nəzərində etibarsızdır.

[3] .Qeyd etmək lazımdır ki, bir müddətdən sonra Əbu Ubeydəni də kənarlaşdırdı.O bir müddətdən sonra şübhəli şəkildə öldü.

[4] Ət-Təbaqatül Kübra,7çi cild,səh 297,"Tarixe- Yaqubi",2 ci cild,səh 95.

(Xalid və Müsənna ibn Haris) öz xəta və günahlarına görə kənarlaşdırmadım, bəlkə ona görə kənarlaşdırdım ki, camaat onlara qarşı həddən çox təzim edirdi və qorxdum ki, onlara daha çox meyl etsinlər və layiqli şəxsdən üz döndərsinlər.[1] Xaliddən sonra Əbu Ubeydə bir müddət sərkərdə oldu və bir müddətdən sonrada Şamın varisi oldu. Ancaq Əbu Ubeydə Valilikdən kənarlaşdırıldıqdan sonra (Hicrinin 18 çi ili) şübhəli şəkildə öldü. Xəlifə əvvəl Müaz ibn Cəbəli və o öləndən sonra Yezid ibn Əbu Süfyanı (Müaviyyənin qardaşı) onun yerinə Şama vali təyin etdi. Yezid qısa bir zamanda taun xəsdəliyindən öldü və Müaviyyə ibn Əbu Süfyan Ömər tərəfindən Şama vali təyin oldu.

Şərhəbil bin Həsənə: Əbu Bəkrin İraqda olan ikinçi sərkərdəsi. O, İraqı fəth edənlərdən və Həbəşəyə hicrət edən şəxslərdən idi.İordaniya torpağıda onun əli ilə fəth olmuşdur. Ömər onu məzhəbdən kənarlaşdırdı. Sonra onu və Bilalı Şamda öldürdülər və şaiə yayıldı ki, onlar vəba xəstəliyindən ölmüşdürlər.[2]

Ənəs bin Malik: O Əbu Bəkrin Bəhreyinə təyin etmış varisi idi. Ömər onun yerinə əvvəl Müğeyrət bin Şöbəni və sonra Əbu Hüreyrə Düveysini təyin etdi.[3]

Müsənna bin Harisə: O, Əbu Bəkrin İraqda üçünçü sərkərdəsi idi. Ömər onu kənarlaşdırıb yerinə Əbu Übeydə Səqəfini (Muxtarın atası) sərkərdə təyin etdi.[4] Müsənna müharibədə yaralanandan sonra şübhəli şəkildə öldü.

## Xəlifənin siyasətinin növləri.

Ömər ibn Xəttabın siyasi üslubunda bir neçə məsələ qabarıq surətdə nəzərə carpılır.

1.Ərəbi, Əcəmlərdən üstün tutmaq

2.Beytulmalın bölünməsində islamı qəbul edən öncül insanları nəzərə almaq.

3.Peyğəmbərdən (s) olan hədislərin yazılı və deyilməsinin qabağını alması.

4.Dövlət və ictimai mənsəbləri Bəni Haşim və onun tərəfdarlarına tapşırmamaq.

Ərəbi Əcəmdən üstün tutmaq.

Ömər ibn Xəttabın Ərəbi Əcəmdən üstün tutmaq siyasətindən neçə nümunə saymaq olar:

a)Qeyri Ərəbdən olan kişi ərəbdən qız almasın və Qüreyşdən olan ərəb qeyri Qüreyşdən qız almasın.[5] Qeyri Ərəbin şəhadətini qəbul etməsinlər. Onlar pişnəmaz olmasınlar. Onların Ərəblərin işində nəzər vermə hüquqları yoxdur.[6]

b) Ərəb vilayətində dünyaya gələn uşaq müstəsna olmaqla anası Ərəb olmayan uşaq atadan irs apara bilməz.[7]

v) Maliyyət ünvanında alınan cizyə [*] Ərəb xacpərəslərdən alınmasın və başqa müsəlmanlar kimi onlardan zəkat alınsın.[8]

---

[1] "Əl- Kamilu- fit Tarix",2çi cild,səh 294;"Mürucüz- Zəhəb", 1ci cild,səh 670.

[2] "Müxtəsərü- Tarixe Dəməşq",10 çi cild,səh 290; "Üstülğabə",2çi cild,səh 513.

[3] " Müxtəsərü- Tarixe Dəməşq",5çi cild,səh 73;"Tarixül İslam",Əhdü Xüləfaü Əl-Raşidin,səh 121.

[4] "Üsdül -ğabə",5çi cild,səh 60 və 6 cı cild,səh 205;"Əl – İsabə", üçünçe cild,səh 261.

[5] "Məalimül- Mədrəsətəyn",2 çi cild,səh 352-356.

[6] "Mürucüz-Zəhəb",1 çi cild,səh 677(tərcümə)

[7] "Əl – Müvəttə"2 çi cild,səh 60

[*] Müsəlman ölkələrdə yaşayan qeyri müsəlmanların(Əhli kitab)adam başına verdikləri vergi(müt).

[8] "Məalimül- Mədrəsətəyn",2 çi cild,səh 352-356

ğ) Salman və Bilal kimi Rəsulullahın (s.ə.v.v) zamnından mədinədə sakit olnalar müstəsna olmaqla qeyri Ərəb ədinə şəhərində yaşamasın.[1]

Beytulmalın bölmə üslubu.

Rəsulullahla ( s.ə.v.v) Əbu Bəkrin zamanında beytulmal müsəlmanlar arasında bərabərliklə bölünürdü. Bu hər şəxsin gündəlik gəlirindən başqa aylıq hüququ idi. Ömərin zamanında Mühacirləri Ənsardan üstün tutmaq və başqa səbəblərə görə insanların hüququ müəyyən edilmiş ölçü ilə üstünlük qazanırdı:

1. İslamı tez qəbul edən (öncül)
2. Cihadda iştirak edənlər
3. Peyğəmbər ilə bir yerdə çox olan şəxslər.

Bunlardan əlavə Ərəb Əcəmdən və Peyğəmbərin (s) xanımları başqalarından və Aişə Rəsulullahın (s) başqa xanımlarından üstün idilər. Ömər Peyğəmbərin (s) qohumlarından hər birinə (Bəni Haşimdən başqa) 5000 misqal gümüş və Abbasa 7000 və onlar ki, Bədr müharibəsində iştirak ediblər 4000 misqal gümüş verirdi. Peyğəmbərin hər bir xanımına 10000 və Aişəyə 12000 və Məkkənin fəthindən qabaqki, mühacirlərə 3000 və fəthdən sonraki, müsəlmanlara 1000 misqalı gümüş verirdi[2]. Həqiqətən müsəlmanların bəzisinin üstünlüyünün olmasında şübhə yoxdu. Amma bu üstünlüklərin beytulmaldan daha çox bəhrələnmələrinə əsas verməsi müzakirə mövzusudur. Necə ola bilər ki, bir müsəlman başqa müsəlmana nisbət islamı gec qəbul etdiyinə görə ona beytulmaldan az hüquq verilsin. Cihad edənləri təşviqə görə və onların yaşayışlarını təmin etməyə görə qənimətdən hədiyyə etmək məqbul bir işdir. Amma Allahın rizasına görə görülən bir iş üçün çox müzd almağın məfhumu nədir? Nəyə görə Ərəb olan şəxsin hüququ Əcəm olan şəxsdən çox olmalıdır? Belə olan halda qeyri Ərəb vilayətlərində nə etmək lazımdır? Orada Əcəmə çox hüquq versinlər? Ya elə mərkəzi hökümət Ərəb olduğuna görə, Əcəm vilayətlərində də Ərəbi Əcəmə üstün tutsunlar? Xəlifənin bu suallara cavabı yox idi. Heç kimin xəlifədən bu barədə sual etməyə cürəti yox idi, o ki, qalmışdı etiraz etməyə. Xəlifə ömrünün axır ilində başa düşmüşdi ki, bu qanun Rəsulullahın (s) sünnəsinə və birinci xəlifənin üslubuna ziddir bu da bir növ ayrı seçkinlikdir. Buna görə vədə verdi gələn ildən beytulmal bərabərliklə hamının arasında bölünsün. Amma ölüm ona möhlət vermədi və o düz olmayan üslub elecədə qaldı.[3] Əli (ə) öz xilafətinin ikinçi günündə beytulmalın bölmə üslubunu dəyişdirdi və elam etdi: Bu işlərin mükafatını vermək (Allah yolunda cihad islamı tez qəbul etmək...)mal ilə mümkün deyil. Allah mücahidlərin və islamı tez qəbul edənlərin mükafatını verəcək[4]. Bu beytul mal əgər mənim özümün olsaydı onu camaat arasında bərabərliklə bölərdi, halbuki bu (beytulmal) Allahındır. Təlhə və Zübeyr bu layihəyə etiraz edən birinçi şəxslərdən idi. Onlar İmamdan ikinçi xəlifənin üslubuna qayıtmaqı istədilər. İmam onların cavabında buyurdu... Quranda bu ayrı seckinliyə aid ayə tapmadım[5].

---

[1] Ömər ibn Xəttabın zamanında Hurməzan və Əbu Lölö bu qanundan muaf idilər.Hurməzan keçmişdə Şüştərin hakimi idi və Ömərin İranı fəth edən zaman onun məsləhətinə ehtiyacı var idi.Əbu Lölö də neçə dənə peşəni bildiyinə görə Mədinənin əhalisinin ehtiyaclarını ödəyirdi ( "Mürucuz- Zəhəb" 2 çi cild,səh 322;"Tarixül –Xüləfa"səh 133).

[2] "Əl –Əhkamül- Sültaniyyə",səh200; "Şərhü Nəhcül- Bəlağə", İnb Əbil Hədid,12 çi cild səh 214;Kənzül- Ümmal,5 çi cild,səh 593.

[3] "Tarixi- Yəqubi",2 çi cild,səh 154; "Tarixi- fəxri",səh 114.

[4] "Şərhü Nəhcül- Bəlağə",İbn Əbil Hədid,7 çi cild,səh 37.

[5] Yenə orada 205 çi xütbə,səh 41

# Peyğəmbərdən olan hədislərin yazılmasına və deyilməsinə qadağa.

Rəsulullahın (s) hədislərini yazıb və deyilməsinə siyasi qadağa Əbu Bəkrin dövründən başlamışdır. Bu siyasət ikinçi xəlifənin dövründə şiddətlə davam edirdi və bütün məntəqələrdə icra olunurdu. Bu işdə itaətsizlik edənlər cəzalandırılırdı.[1] Tarix mənbələrinə əsasən Rəsulullahın (s) Hədisinin yazmağına qoyulan siyasi qadağa o həzrətin həyatında da bəzi səhabələr tərəfindən təbliğ olunurdu. Əmir ibn Asın oğlu Addulla deyir: Mən Peyğəmbərin vaxtında o həzrətin dediklərini yazırdım. Qureyş (bəzi səhabələr) məni bu işdən cəkindirib deyirdilər: Nəyə görə Peyğəməbər hər ne deyir yazırsan! O da bir insan kimi qəzəbli və ya şad olanda bir söz deyir (ola bilsin şad olan halda birini tərifləsin və qəzəbli olan halda birini pisləsin) Mən də bir müddət hədis yazmağı tərk etdim və mövzunu Rəsulullaha (s) dedim. Peyğəmbər buyurdu: Mənim dediklərimi yaz and olsun o kəsə ki,canım onun əlindədir. Mən haqq sözdən başqa bir söz demirəm[2]. Bu hadisə bu həqiqəti catdırır ki, o aparılan siyasət çox illər qabaqdan söyləyəcəklərimiz bəzi dəlillərə görə bir qrup adamın diqqət mərkəzində idi və onun ən zirvə həddi Peyğəmbərin vəsiyyətnaməsinin yazılmasının qabağını almaqda müşahidə olundu. O, ihanətli cümləki ( ان الرجل ... حسبنا كتاب الله ) Peyğəmbərə rəva görüldü aşkar surətdə Peyğəmbərdən olan hədislərin qabağını almasında birinci və ən mühüm addım idi. Bu siyasətin icrasında tədricən (Əməvilərin xilafətinin sonuna qədər[3]) neçə addımlar atıldı.

1.İslam məntəqələrinə sərəncam göndərmək.

2.Hədis rəvayət edən səhabələrin Mədinədən çıxmasının qarşısı alınması.

3.Ayələrin təfsirlərini Quran kənarında yazılmasının qarşısını almaq.

4.Tövrat və İncilin təhrif olunmuş xürafi hekayələrinin yayılması.

5.Peyğəmbərin haqqında hədis yazmağı qadağan etməsi barəsində hədislər düzəldilməsi.

6.Xlifələrin məqam və mənziləti haqqında hədis düzəldilməsi.

7.Əli (ə) və onun ailəsinin məzəmmət olunması barsində hədis düzəldilməsi.

---

[1] Yenə orada,12 çi cild,səh 93;Əl- "Hidayətu Vən-Nihayə",8 çi cild,səh 106-107;"Kənzül-Ümmal",5 ci cild,səh 239;"Sünənül-Darəmi",1 çi cild ,əsh 85;"Sünənü-İbn Macə", 1 cil cild,səh 16;" "Əl-Müstədrəkü Ələs-Səhiyhəyni"1 çi cild,səh 102;"Təzkirətül- Hüffaz",1 ci cild,səh 6-7;"Məcməüz-Zəvaid",1 çi cild,səh 149;"Əl –Qədir",6 çı cild,səh 294-197

[2] "Sünənül-Darəmi",1 çi cild,səh 125;"Sünənü-Əbi Davud",2çi cild,səh 126;"Müsnədu-Əhməd",2 çi cild,səh 167-207-216; "Əl-Müstədrəkü Ələs-Səhiyhəyni",1 ci cild,səh 105-106.

[3] İmam Əli(ə) mın və Ömər ibnƏbdüləzizin xilafət zamanı istisna olmaqla.Hərcənd Ömər ibn Əbdüləzizin zamanında bəzi məhdudiyətlər var idi.

# HƏDİS RAVİLƏRİNİN TOPLANMASI

İkinci xəlifənin dövründə onun göstərişi ilə hədis ravilərindən bir neçə nəfər Mədinəyə çağırılıb, orada da qalmalı oldular. Onlar Mədinədən kənara çıxmaq və hədis söyləmək hüquqlarına malik deyildilər. Xəlifə onları belə sorğu-suala tuturdu: “Sizin şəhərlərdə yaydığınız hədislər nədir?” Onlar cavabında deyirdilər: “Bizi hədis söyləməkdən qadağan edirsənmi?” Xəlifə deyirdi: “Xeyr, lakin sizdən istəyirəm ki, sağ olduğum vaxta qədər mənim yanımdan (Mədinədən) getməyəsiniz. Biz yaxşı bilirik ki, sizin hansı hədislərini qəbul edək və hansılarını qəbul etməyək!” Beləliklə, onlar ömürlərinin sonuna qədər Mədinədə qaldılar.[1] Onlar Əbuzər, Abdullah ibn Məs`ud, Abdullah ibn Hüzeyfə, Əbu Dərda və Əqəbə ibn Amir idilər.[2]

Bu hörmətli şəxslər şübhəsiz, qeyri-səhih hədislər nəql etmirdilər. Belə isə, hansı səbəb üzündən hədis nəql etməkdən məhrum olunurdular? Onların hədislərini kimlər qəbul etmirdilər?![3]

Qərzə ibn Kə`b deyir: “Bir zaman xəlifə məni və səhabələrdən bir neçə nəfəri Kufəyə göndərdi və Mədinənin ətraf məntəqələrinə qədər bizi yola salmaq üçün bizimlə birgə hərəkət etdi. Sonra dedi: “Bilirsiniz ki, sizi yola salmaqda məqsədim nədir?” Dedik: “Bizə ehtiram üçün!” Dedi: “Əlbəttə, doğrudur, lakin başqa məqsədim vardır. Siz elə bir şəhərə gedirsiniz ki, oranın əhalisi məscid və təşkilatlarının fəzasını Qur`an oxumaqla ətirləmişlər. Sə`y edin ki, onları hədis söyləməklə yollarından çəkindirməyin, hədislə məşğul etməyin. Qur`anı hədisdən ayırın, heç bir hədisi onunla qatmayın. İmkan daxilində, Peyğəmbər (s)-dən az hədis nəql edin. Bilin ki, mən bu məqsədin gerçəkləşməsində sizə kömək edəcəyəm!”

Qərzə Kufəyə gəldikdə, camaat Peyğəmbəri-Əkrəm (s)-in buyurduğu hədisləri eşitmək məqsədilə onun ətrafına toplaşdılar. O isə deyirdi: “Xəlifə bizi Peyğəmbər (s)-in hədislərini deməkdən qadağan etmişdir!”[4]

## TÖVRAT VƏ İNCİLİN TƏHRİF OLUNMUŞ HEKAYƏLƏRİNİN YAYILMASI

Beləcə, bir əsrə yaxın Peyğəmbəri-Əkrəm (s)-in buyuruq və hədislərinin yazılıb nəşr edilməsi qadağan olundu. Əsrin birinci rübündə hətta hədisi söyləmək belə, günah sayılırdı. Beləliklə, hədislər yalnız insanların sinələrində qalır və dünyasını dəyişən hər bir kəs bildikləri hədisləri özü ilə birlikdə qəbirə aparırdı. İslam dininə tabe olan görkəmli hədis raviləri Peyğəmbəri-Əkrəm (s)-in hədis və buyuruqlarını deməkdən məhrum və nəhy olunduqda, məsihi rahibi Təmim Dari və yəhudi Kə`bul-Əhbar[5] kimilərə özlərinin təhrif olunmuş əqidə və hekayələrini, hədis və əhvalatlarını nəql etməyə icazə verildi. Təmim Dari Ömərin hökmranlığı dövründə xəlifənin təklifi ilə cümə namazının xütbələrindən öncə minbərə çıxıb, camaata söhbət edirdi. Osmanın dövründə

---

[1] “Kənzül-ümmal”, 5-ci cild, səh. 239.

[2] Bax: Yenə orada, 1-ci cild, səh. 292; “Əl-müstədrəkü ələs-səhiheyn”, 1-ci cild, səh. 110; “Sünəni İbn Macə”, 1-ci cild, səh. 27; “Təzkirətul-huffaz”, 1-ci cild, səh. 7.

[3] Bu sualın cavabını sonradan qeyd edəcəyik.

[4] “Əl-müstədrəkü ələs-səhihəyn”, 1-ci cild, səh. 202; “Ət-təbəqatul-kubra”, 6-cı cild, səh. 2; “Sünəni Darəmi”, 1-ci cild, səh. 85.

[5] Onların hər ikisi zahirdə müsəlman olmuşdular.

onlar həftədə iki gün çıxış edirdilər.[1] Onlar Peyğəmbəri-Əkrəm (s)-dən bir hədis belə eşitmədikləri üçün əməvilərin məzəmməti ilə bağlı bəyan olunan hədislərdən xəbərdar deyildilər. Əgər bu barədə bir şey eşitsəydilər də, onu demir və onun yerinə Qur`anın təfsiri ilə bağlı Tövrat və İncilin təhrif olunmuş əqidə və hekayələrini nəql edirdilər.

Bu minvalla, bir neçə müddətdən sonra müsəlmanlar arasında bir çox batil əqidələr yayıldı. Qur`an ayələrinin düzgün təfsiri təhrif olundu, yaxud gizli qalaraq, sonradan müsəlmanlar Peyğəmbəri-Əkrəm (s)-in hədislərinin yazılmasının əhəmiyyətini düşündükdə və qadağalar götürüldükdə, kitablarda İsrail oğullarının bir çox batil əqidə və düşüncələri, Peyğəmbəri-Əkrəm (s)-in hədis və sünnəsi ilə qarışdı, bə`zən onların ayırd edilməsi mümkün olmurdu. Bunlar müsəlmanlar arasında dərin inhiraf və azğınlıqlara səbəb oldu.

## HƏDİS DÜZƏLTMƏK DÖVRÜ

Hədis demək və yazmağın qadağan olunması ilə yanaşı, bə`ziləri hədis nəql etməkdə azad idilər. Əbu Hüreyrə hədis düzəltmək və qondarmaqda seçilmiş şəxslərdən biri idi. O, Ömər ibn Xəttab tərəfindən Bəhreynin valisi olduğu zaman hədis deməyə icazəsi var idi. Mövcud əsərlərdə Əbu Hüreyrədən nəql olunan hədislərin bir qismi o dövrdə dediklərinin məhsulu, bir qismi ondan sonra bə`zilərinin düzəltdikləridir ki, hədisin sənəd silsiləsini ona nisbət vermişlər.[2]

O dövrdən qalan hədislər arasında aşağıdakı hədis gözə dəyir:

Əbu Hüreyrə deyir ki, Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur: "Cəbrail mənim yanıma gəlib, əlimi qaldırdı və ümmətimin daxil olduğu behişt qapısını mənə göstərdi. Əbu Bəkr dedi: "Çox istərdim ki, sənin xidmətində olum və behiştə baxım!" Peyğəmbəri-Əkrəm (s) buyurdu: "Ey Əbu Bəkr! Sən ümmətim içərisində behiştə girən birinci şəxssən!"[3]

Yenə deyir ki, Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur: "Dünya səmasında səksən min mələk Əbu Bəkr və Ömərin dostları üçün bağışlanmaq diləyir, ikinci səmada səksən min mələk onların düşmənlərini lə`nətləyirlər."[4]

Aişə Peyğəmbəri-Əkrəm (s)-dən belə nəql etmişdir: "Bu ümmətdən əməl dəftəri sağ əlinə veriləcək birinci şəxs Əbu Bəkrdir. Əbu Bəkrdən başqa bütün insanlar sorğu-suala tutulacaqlar!"[5]

Əbu Səid Xuri deyir ki, Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur: "Mənim səma əhlindən Cəbrail və Mikail adlı iki vəzirim, yer əhlindən Əbu Bəkr və Ömər adlı iki vəzirim vardır."[6]

Bə`zən bu hədisləri nəql edənin Əli ibn Əbi Talib, yaxud o həzrətin şiələrindən birinin olduğunu deyirlər. O cümlədən, Nüveyrə yazır: "Əli ibn Əbi Talib deyir ki, Peyğəmbəri-Əkrəm (s) Əbu Bəkrə belə buyurdu: "Ey Əbu Bəkr! Allah-taala Adəmin yarandığı vaxtdan qiyamətə qədər mənə iman gətirən hər bir kəsin savabını mənə, sənə isə mənim peyğəmbərliyə çatdığım gündən qiyamətə qədər mənə iman gətirənlərin savabını verəcəkdir." (Sonra Nüveyrə əlavə edərək yazır ki, görəsən, bu savabların Əbu Bəkrə verilməsində səbəb nədir?)

---

[1] "Nəqşi əimmə dər ehyai-din", 6-cı cild, səh. 82-99.

[2] Əbu Hüreyrə haqda bax: "Əbu Hüreyrə və əhadisi saxtegi", Şərəfuddin Amuli, Nəcəfəli Mirzainin tərcüməsi, "Ülumi-hədis" jurnalı, 3-cü il.

[3] "Nihayətul-ərb", 4-cü cild, səh. 19.

[4] Yenə orada, səh. 23.

[5] Yenə orada.

[6] Yenə orada, səh. 20.

Əmmar Yasirdən Peyğəmbəri-Əkrəm (s)-in belə buyurduğu nəql olunur: "Elə indicə Peyğəmbəri-Əkrəm (s) mənim yanıma gəlmişdi. Ona dedim: "Ömər ibn Xəttabın səmadakı bə`zi fəzilətlərini mənə söylə!" O dedi: "Əgər doqquz yüz əlli il həyat sürən Nuhun yaşı qədər Ömərin fzilətlərini bəyan etsəm də, qurtarmaz və Ömər, Əbu Bəkrin həsənələrindən biridir!"[1]

İbn Abbasdan Peyğəmbəri-Əkrəm (s)-in belə buyurduğu nəql olunmuşdur: "Qiyamət günü bir nəfər ərşin altından "Mühəmmədin səhabələrini gətirin!" – deyə səsləyər. Əbu Bəkr, Ömər və Osmanı gətirərlər. Əbu Bəkrə deyilər: "Behiştin qapısında dayan və ilahi mərhəmətə təvəssül etməklə istədiyin kəsi behiştə icazə ver və ilahi elmlə istədiyini ora girməkdən saxla!"[2]

Doğrudan da qəribədir ki, Müaviyənin dövründə hədis demək və yazmağın qadağan olunma siyasətini yozmaq üçün yüzlərlə saxta hədis düzəldilir ki, guya Peyğəmbəri-Əkrəm (s) buyurmuşdur: "Məndən bir şey yazmayın və hər kəs məndən Qur`andan başqa bir şey yazarsa, onu aradan aparın!"[3] Digər tərəfdən isə elə həmin vaxtda xəlifələrin tə`rifi ilə bağlı minlərlə hədis nəql olunub yayılır və kimsə onun yazılıb yayılması və nəql olunmasının qarşısını almır.

## MƏQSƏD VƏ SƏBƏBLƏR

O dövrün siyasətçiləri üçün Peyğəmbəri-Əkrəm (s)-in buyuruqlarının deyilib-yazılması nə kimi problemlər yaradırdı? Hansı növ hədislərin yayılması ümumiyyətlə hədis deyib-yazmağın qadağan olunmasına səbəb oldu? Necə ola bilər ki, bə`ziləri, yaxud bə`zi hədislər həmin siyasətin icrasından azad olundular?

Hədis demək və düzəltməkdə azad buraxılan kəslərin adlarını mütaliə etdikdə, eləcə də qadağan olunmuş hədisləri tanıdıqda, bu siyasətin hədəf və səbəbini asanlıqla başa düşmər olur.

Hədisləri böldükdə, xəlifələrin dövründə onların bə`zilərinin mövzuları xüsusi mövqe və həssasiyyətə malik olub və xəlifələrin üslubu ilə rəftar etmək istəyən hər bir hökmranın bu növ hədislərin yayılmasının qarşısını almaqdan başqa bir çarəsi olmayıbdır. Belə hədislərin yayılmasının qadağan olunması, ümumiyyətlə bütün hədislərin yayılmasının qarşısı alınmadan camaatın həssasiyyətini daha da artırır və hakim dairələrin problemlərini iki qat artırırdı.

Bir çox tarixi şahid və dəlillərə diqqət yetirməklə, xəlifələrin siyasəti ilə uyğun yayılması qadağan olunmuş hədislər bu qəbil hədislər olmuşlar:

1. İslam düşmənləri və münafiqlərin mahiyyətini ifşa edən hədislər. Buna əməvilərin məzəmməti ilə bağlı hədisləri misal göstərmək olar.

2. Əli (ə), Peyğəmbəri-Əkrəm (s)-in Əhli-beyti və bə`zi seçilmiş səhabələrin fəzilətlərini bəyan edən hədislər.

3. Siyasi məsələlər, Peyğəmbəri-Əkrəm (s)-in canişinliyi, hökumətin düzgün idarə üsulları və rəhbərlərin xüsusiyyətlərini açıqlayan hədislər.

4. Ayələrin təfsir və şərhi ilə bağlı buyurulan hədislər.

5. Peyğəmbəri-Əkrəm (s)-in sünnəsini və ictimai hökmləri bəyan edən hədislər.

---

[1] Yenə orada, səh. 21.

[2] Yenə orada, səh. 24.

[3] "Səhihi-Müslüm", 4-cü cild, səh. 97; "Sünəni Əbi Davud", 1-ci cild, səh. 119, "Müsnədi Əhməd", 3-cü cild, səh. 12, 39, 56.

# İFŞAEDİCİ HƏDİSLƏR

Peyğəmbər (s)-in hədislərini nəql edib, yaymaq qadağan olunsa da, o həzrətin əməvilər sülaləsi, bə`zi münafiqlər və İslam düşmənlərini məzəmmət və lə`nət etməsi ilə bağlı hədisləri şiə və sünnü kitablarında mövcuddur.

Əhməd ibn Hənbəl "Müsnəd" kitabında Peyğəmbəri-Əkrəm (s)-in belə buyurduğunu nəql edir: "İlahi! Bu iki nəfəri (Müaviyə və Əmr ibn As) fitnəyə at və onları atəşdə məhv et!"[1] Həmçinin buyurmuşdur: "Bu iki nəfər xeyir və səlah üçün heç vaxt əlbir olmayacaq[2], yalnız hiylə məqsədilə bir-bir yerə cəm olacaqlar."[3]

Təbəri, İbn Əbil-Hədid və İbn Cövzi yazırlar: "Müaviyə elə kəslərdəndir ki, Peyğəmbəri-Əkrəm (s) onu, atasını və oğlunu lə`nətləmişdir."[4] Həm şiə, həm də sünnü mənbələrində Peyğəmbəri-Əkrəm (s)-in belə buyurduğu nəql olunmuşdur: "Müaviyəni mənim minbərimdə gördüyünüz zaman onu öldürün!"[5]

Bu rəvayətlər camaat arasında elə bir halda yayılırdı ki, Müaviyə ikinci xəlifənin dövründə mərkəzi hökumətin daxilində yerləşən ən mühüm ölkələrin birində fəaliyyət göstərir və işçi qüvvələr onun vasitəsilə tə`yin olunurdu. Buna görə də xəlifənin işçilərinin çoxu Bəni-Üməyyə tayfasından ibarət idi. Müaviyə və onun sülaləsi on illər belə Əli ibn Əbi Talib (ə)-ı – Peyğəmbəri-Əkrəm (s)-in kürəkəni və əmisi oğlunu minbərlərdə lə`nətləyir və ona nalayiq sözlər deyirdilər. O, bu işi görmək üçün öz vali və işçilərinə rəsmi göstəriş verdi. Əbdül-Həmid Mədayininin dediyi kimi, Əbu Hüreyrə, Müğeyrə ibn Şö`bə və Əmr As imam Əli (ə)-ın əleyhinə saxta hədis düzəltmək üçün Müaviyənin muzdurları idilər.[6]

Digər tərəfdən isə Ömər ibn Xəttabın əqidəsinə görə, hökumət mənsəblərini öhdəyə götürmək üçün siyasi bilik kifayət edir və pərhizkarlığa ehtiyac yoxdur. Buna əsasən, xəlifə əməvilərin məzəmməti ilə bağlı o qədər hədislərin varlığı ilə yanaşı, onların siyasətçi şəxslərindən necə istifadə edə bilməsin, ictimai və siyasi məqamları elə kəslərə tapşırsın ki, hər an onun əleyhinə müxalifət bayraqlarını qaldıra bilərdilər?!

Bundan əlavə, heç bir şəkk-şübhə yoxdur ki, onlar bu rəvayətləri müsəlman ictiması və qəbilələri arasında ixtilafın yaranmasının amili bilir və heç vaxt onlara əməl etməyə iltizamlı deyildilər. Beləliklə, heç kimin əməl etmədiyi hədislərin deyilib-yazılmasında heç bri fayda görmürdülər. Onların gümanınca, nə yaxşı olar ki, belə rəvayətlərin yazılışı qadağan olunsun ki, müsəlmanlar arasında ixtilaf və təfriqənin qarşısını alınsın, eləcə də bə`zilərindən hökumət

---

[1] "Müsnədi-Əhməd", 4-cü cild, səh. 421, "Siffeyn" hadisəsi, səh. 246.

[2] "Əl-iqdul-fərid", 4-cü cild, səh. 345.

[3] "Kənzül-ümmal", 6-cı cild, səh. 88; "Məcməüz-zəvaid", 7-ci cild, səh. 248.

[4] "Tarixul-üməm vəl-müluk", 11-ci cild, səh. 357; "Şərhü Nəhcül-bəlağə", 2-ci cild, səh. 103; "Təzkirətul-xəvass", səh. 115; bax: "Mizanul-e`tidal", 3-cü cild, səh. 311; "Məcməüz-zəvaid", 8-ci cild, səh. 212.

Əməviləri məzəmməti ilə əlaqədar bax: "Əl-müstədrəkü ələs-səhiheyn", 4-cü cild, səh. 479 və 480; "Kənzül-ümmal", 1-ci cild, səh. 252, 6-cı cild, səh. 39, 68; "Məcməüz-zəvaid", 10-cu cild, səh. 71; "Hilyətül-övliya", 6-cı cild, səh. 293.

[5] "Təhzibut-təhzib", 2-ci cild, səh. 428; "Tarixi Bağdad", 12-ci cild, səh. 181; "Tarixul-üməm vəl-müluk", (tərcüməsi), 11-ci cild, səh. 357; "Şərhü Nəhcül-bəlağə", İbn Əbil-Hədid, 1-ci cild, səh. 348.

[6] "Şərhi Nəhcül-bəlağə", 4-cü cild, səh. 63.

məqamlarında istifadə edilsin. Bütün bunlardan əlavə, belə rəvayətlərin varlığı ilə hökumət müxalifəlirin əllərinə bəhanə verilməsin.

Şübhəsiz ki, əgər müsəlmanlar Bəni-Üməyyə tayfasının məzəmmət və lə`nəti ilə bağlı Peyğəmbəri-Əkrəm (s)-in hədislərinə əməl etmək istəsəydilər, xəlifələr bir an belə, onları müxtəlif məntəqələrdə valiliyə tə`yin edə bilməzdilər. Halbuki Müaviyə Osmanın hökumətinin sonuna kimi təqribən 22 il Şam vilayətinin valisi idi. Ondan sonra da 25 il elə orada qalmalı oldu. Əli ibn Əbi Talib (ə)-ın xilafətinin başlanğıcında o həzrət tərəfindən vəzifədən azad olunduqda, imama qarşı qalxaraq, müharibəyə əl atdı.

## MƏNZİLƏT HƏDİSLƏRİ

Əli ibn Əbi Talib (ə)-ın, onun övladları, Peyğəmbəri-Əkrəm (s)-in Əhli-beytinin digər üzvləri və seçilmiş səhabələrinin fəziləti ilə əlaqədar Peyğəmbəri-Əkrəm (s)-in buyuruqları qeyd edilənlərdən olduqca çoxdur. İndi isə həm şiə, həm də sünnü kitablarında mövcud olan çoxlu hədislərin bir neçəsinə diqqət yetirək:

"Əlini sevmək iman, onunla düşmənçilik etmək isə nifaq nişanəsidir."[1]

"Əli məndən, mən isə Əlidənəm."[2]

"Əliyə məhəbbət bəsləmədən məni sevən kəs yalan danışır."[3]

"Əli haqq ilə, haqq da Əli ilədir!"[4]

Aydındır ki, Əli ibn Əbi Talibin müxalif rəhbərliyi ilə müsəlmanlar arasında belə rəvayətlərin yayılması elə çətin deyildi. Əgər bu hədislər hər tərəfə yayılsaydı, xəlifə camaatın "nə üçün Əli (ə) xanənişin olmuşdur?" – deyə e`tirazlarına nə cavab verəcəkdi? Məhz bu səbəbdən də başqa bir yol yox idi ki, belə rəvayətlərin yayılması və yazılmasının qarşısı alınsın. Bəlkə də elə bu məqsədi nəzərə alaraq, əməvilər sülaləsinin xəlifəlik dövrünün bir qismində nəinki Əli (ə)-dan tərəfdarlıq etmək günah sayılır, həm də heç bir müsəlman övladına Əli adını qoya bilmirdi.

Görkəmli əhli-sünnə tədqiqatçılarından biri yazır:

"Bəni-Üməyyənin xəlifəlik dövründə Əli ibn Əbi Talibin fəzilətlərini aşkar etmək qəti qadağan idi. Hətta əgər bir kəs Əlidən din hökmləri ilə bağlı bir hədis nəql etmək istəsəydi, onun adını aşkar şəkildə çəkiməyə və "Əli belə dedi!" – deməyə cür`ət etmirdi. Əksinə deyirdi ki, Zeynəbin atasının belə buyurduğu nəql olunmuşdur. (O tədqiqatçı alim əlavə edərək yazır:) "Əgər Allahın lütf və mərhəməti olmasaydı, Əlinin fəzilət və əsərləri Bəni-Üməyyə xəlifərinin dözülməz işkəncə və həbsləri nəticəsində camaatın dilindən tamamilə düşəcək və yadlardan elə silinəcəkdi ki, sanki Allah-taala belə bir kəsi əsla yaratmamışdır.[5]

---

[1] "Səhihi-Müslüm", 1-ci cild, səh. 86; "Əl-müstədrəkü ələs-səhiheyn", 3-cü cild, səh. 126.

[2] "Sünəni-Tirmizi", 13-cü cild, səh. 167; "Kənzül-ümmal", 11-ci cild, səh. 599; "Xəsaisi Əmiril mö`minin (ə)", səh. 19; "Səhihi Buxari", 5-ci cild, səh. 141; "Sünəni İbn Macə", 1-ci cild, səh. 44, hədis: 119.

[3] "Tarixi mədineyi-Dəməşq", imam Əlinin (ə) tərcümeyi-halı, 2-ci cild, səh. 185, hədis: 664; "Mizanul-e`tidal", 1-ci cild, səh. 536, hədis: 2007; "Əl-bidayətu vən-nihayə", 7-ci cild, səh. 355; "Əl-müstədrəkü ələs-səhiheyn", 3-cü cild, səh. 130.

[4] "Məcməüz-zəvaid", 9-cu cild, səh. 135; "Tarixi Bağdad", 14-cü cild, səh. 321, hədis: 7643; "Əl-mənaqib", Xətib Xarəzmi, səh. 223; "Sünəni Tirmizi", 13-cü cild, Səh. 166, hədis: 3.

[5] "Şərhi Nəhcül-bəlağə", İbn Əbil-Hədid, 4-cü cild, səh. 73; "Bərrəsiyi ricali-səhiheyn", 1-ci cild, səh. 45-46.

## Qur`anin Peyğəmbəri-əkrəm (s)-in şərh və təfsirindən ayrilmasi

Peyğəmbəri-Əkrəm (s)-in dövründə o həzrət nazil olan hər bir ayənin təfsir və şərhini bəyan edir və bə`ziləri də onu yazmaqla məşğul olurdu. O həzrətin şəhr və bəyanatını yazmaq ayənin haşiyəsi, yaxud davamında qeyd edilirdi. Müsəlmanlar məscidə toplaşıb, hər on ayənin şərhini öyrəndikdən sonra Peyğəmbəri-Əkrəm (s) digər on ayənin şərhini bəyan edirdi.[1] Bu izah və şərhlər ayənin lüğətlərinin mə`nası, nazil olma səbəbi, hökm və təfsirlərə şamil olurdu. Bütün bunlar da Allah tərəfindən və Peyğəmbəri-Əkrəm (s)-in vasitəsilə bəyan olunur, dəri, taxta, qoyunun bel sümüyü və digər alətlərə yazılıb, "müshəf" adlanırdı.

O dövrdə ayələrin şərhsiz yazılması adət deyildi. Hamı da bilirdi ki, yazdıqlarının hansı hissəsi Qur`an və hansı hissəsi isə təfsir və şərhdən ibarətdir. Peyğəmbəri-Əkrəm (s)-dən sonra ayələrin bu şəkildə yazılışı qadağan edildi və Ömər ibn Xəttabın hökmranlığı dövründə bu qadağa şiddətləndi. Xəlifənin dəlili isə, Qur`ani-Kərimin şərh və təfsirlə qarışması və gələcəkdə onların bir-birindən ayırd edilməsinin çətinləşməsi idi.

Bu gün minlərlə lüğət və təfsir kitablarında – həm çap olunmuş, həm də dəstixətt nüsxələrdə Qur`an ayələri tərcümə, təfsir və şərh ilə birgə yazılmış və onun hətta bir hərfini belə tanımaq ayə ilə qeyri-ayə arasında səhv icad etmir. O dövrlərdə isə bu tanışlıq asanlıqla əldə edilmirdi. Amma e`tiraf etmək olar ki, onu əldə etmək də qeyri-mümkün olmamışdır.

Ümumiyyətlə, həmin izah və təfsirlər Peyğəmbəri-Əkrəm (s)-in buyuruqlarından ibarət idi ki, vəhy vasitəsilə onlara çatmışdı. Beləliklə, Qur`ani-Kərimin əslinin qorunub-saxlanılmasının vacibliyinin dəlili onun şərh və təfsirlərinin qorunub-saxlanılması da müsəlmanlara və onların rəhbərlərinə vacib idi. Bəlkə də bir baxışdan həmin şərh və təfsirlərin qorunub-saxlanılması yüksək əhəmiyyət daşıyırdı. Çünki düşmənlər təfsir və şərhsiz ayələri asanlıqla yanlış tə`vil və yozumlarla qarışdırıb, müsəlmanları özlərinə tabe edə bilərdilər. Bundan əlavə, Allah-taalanı Özü Qur`an ayələrinin qorunub-saxlanılmasını təzmin etmişdir. Lakin Peyğəmbəri-Əkrəm (s) tərəfindən bəyan olunan şərh və təfsirlərə qarşı bu təzmin yoxdur. Bu isə müsəlmanları vəzifəsidir ki, özlərinin Qur`an ayələrindən yaxşı istifadə edib bəhrələnməsi, eləcə də mə`nəvi təhriflərdən amanda qalması üçün Peyğəmbəri-Əkrəm (s)-in şərh və təfsirlərini qourub-saxlasınlar. Bu da yalnız onların yazılması və bəyan edilməsi ilə mümkün idi. Beləliklə, xəlifənin ayələrin şərh və təfsirlərlə qarışması ilə bağlı bəhanəsi qəbul deyil və o qadağanın səbəbini başqa bir şeydə axtarmaq lazımdır.

"Qur`an ümmətin hidayəti üçün kifayətdir!" (Həsbuna kitabəllah) – qəziyyəsi irəli sürüldüyü zaman Qur`ani-Kərimdən məqsəd Cəbrailin təfsir və şərhsiz xəbərlərindən ibarət idi. Kaş, Peyğəmbəri-Əkrəm (s)-in Əhli-beytinin müsəlmanların rəhbərliyindən kənar edilməsindən sonra heç olmazsa, təfsir və şərhlərdən ibarət "müshəf"lər od içərisində yandırılmayaydı və müsəlmanlar onu bəyan edib, yazmaqda cəzaya məhkum olunmayaydılar.

Həmin izahlarda hər ayənin nazil olma səbəbi qeyd olunurdu. O cümlədən, "İnnə şaniəkə huvəl-əbtər!" (Ya Peyğəmbər! Sənin düşməninin özü sonsuz və nəsli kəsilmişdir!) – ayəsinin şərhində yazılır ki, bu ayə və orada ifadə olunan "düşmən" sözü Əmr Asın atası haqda nazil olmuşdur. "İn caəkum fasiqun bi-nəbəin!"[2] – ayəsində işlənən fasiq sözü isə Vəlid ibn Əqəbəyə[3]

---

[1] "Müsnədi-Əhməd", 5-ci cild, səh. 410.

[2] "Hücurat" surəsi, ayə: 6.

[3] Osman ibn Əfvanın süd qardaşı və onun Kufədə valisi.

aiddir. Eləcə də "Vəş-şəcərətul-məl`unə fil-Qur`an" (Qur`anda lə`nət olunmuş ağac)[1] – ayəsində məqsəd əməvilər sülələsidir.

Qüreyş, münafiqlər və imanı zəif müsəlmanların məzəmməti ilə bağlı nazil olan digər ayələrdə var idi. Onlar xəlifələrin dövründə adətən, hakim dairədə yüksək nüfuz və məqama malik idilər. Həmin ayələrin varlığı ilə camaat onlara azacıq belə diqqət yetirməyəcək və bununla da hökumətdə yüksək məqama çata bilməyəcəkdilər. (Bu səbəbdən şərh və təfsirlərə qadağa qoyuldu.)

"Ey Peyğəmbər! Allah tərəfindən sənə nazil olanı xalqa çatdır..."[2], "Həqiqətən, sizin vəliniz Allah, Onun Peyğəmbəri və iman gətirib, rüku halında zəkat verənlərdir..."[3] və "Sadiqlərlə birgə olun!"[4] – ayələri, eləcə də "Dəhr" surəsi və sairənin izahında "müshəf"də bir sıra incəliklər qeyd olunmuşdu ki, açıq-aşkar Əli ibn Əbi Talib (ə) və Peyğəmbər (s)-in Əhli-beytinin fəzilətlərini açıqlayırdı. Bu ayələrin mə`na və nəticəsinə diqqət yetirdikdə, müsəlmanlara onlardan başqasına tabe olmaq rəva görülmürdü.

Müsəlmanların ikinci xəlifəsi xilafətini başlanğıcında göstəriş verdi ki, bundan sonra Qur`anlar şərhsiz yazılsın. Ondan sonra isə belə bir Qur`anı qızı Həfsəyə əmanət verdi ki, münasib fürsətdə onun nümunəsi bütün məntəqələrə göndərilsin və yalnız bu xüsiyyətli Qur`ana tabe olunsun. O, öz işçi və valilərinə də tapşırıq verdi ki, camaatı Qur`anla məşğul edib, hədisdən uzaqlaşdırsınlar.

Bu göstəriş tədriclə dövlət qərarına çevrilərək, ona tabe olmayan hər kəs cəzalandırılır, müsəlmanlar öz "müshəf"lərini hökumətin qorxusundan aradan aparır, yaxud onları gizlədir və məclislərdə ayələrin təfsir və şərhindən azacıq belə söz açılmırdı.

Sünnü təfsirçiləri belə yazmışlar: "Bəni-Təmim tayfasının ə`yan-əşraflarından və qəbilə başçısı olan Səbiğ ibn Əsəl Təmimi Qur`anı dərindən başa düşməyi çox istəyir və buna görə də həmişə şəhərlərə səfər edərək, səhabələri tapır və onlardan ayələrin mə`nalarını soruşurdu. Bir zaman Əmr ibn As, Ömər ibn Xəttaba yazıb bildirdi ki, burada bir nəfər Qur`anın təfsirini soruşur və bu işlə məşğuldur." Xəlifə yazdı ki, dərhal onu tutub Mədinəyə göndər.

O, Mədinəyə çatdıqda, ora çağırılmasının səbəbini bilmədiyi üçün xəlifədən "Vəz-zariyati zəra" – ayəsinin mə`nasını soruşduqda, xəlifə qəzəblənib, bir xurma salxımı[5] ilə ona yüz şallaq zərbəsi vurdu. Səbiğ ibn Əsəl Təmimi dedi: "Ey mö`minlərin əmiri! Bildiklərimi unutdum."

O, yerindən durub, zindana yollandıqda, köynəyindən qan damcılayırdı. Sağaldıqdan sonra onu yenidən xəlifənin yanına apardılar Xəlifə bu dəfə də ona yüz şallaq zərbəsi vurdu ki, belində onun yerləri qaldı. Yenə də zindana salındı. Üçüncü dəfə xəlifəyə yalvarıb-yaxardı ki, əgər məni öldürmək istəyirsənsə, öldür və məni belə işkəncədən xilas et! Xəlifə onu bu dəfə Bəsrəyə sürgün etdi və Bəsrənin valisi Əbu Musa Əş`əriyə belə yazdı: "Bəsrədə onu möhkəm izlə, nə bir kəs onun yanına get-gəl etsin, nə də bir söz danışsın."

---

[1] "İsra" surəsi, ayə: 60.

[2] "Maidə" surəsi, ayə: 67.

[3] "Maidə" surəsi, ayə: 55.

[4] "Tövbə" surəsi, ayə: 119.

[5] Xurmanı salxımdan ayırdıqda, onun salxımından süpürgə və bu kimi şeylər düzəldib istifadə edirlər.

O, bir müddət hara gedirdisə, heç kim onunla danışmırdı. Nəhayət, bu vəziyyətdən təngə gəlib, Əbu Musa Əş`əridən xahiş etdi ki, xəlifə onu bağışlasın. Əbu Musa da onun peşman olduğunu xəlifə çatdırdı. Bununla da o, tədrici ölümdən canını qurtardı.[1]

Beləliklə, müsəlmanlar ayələrin mə`na, təfsir və şərhini unutdular, onun oxunuşu və sözlərinin deyilişindən başqa bir şey bilmirdilər. Ayələrin bir çox hökm və nazil olma səbəbi, hətta hadisələrin təfərrüatı məchul qaldı və müsəlmanlar hər ayənin məqsəd və məramını bilmədən, yaxud soruşmadan Qur`anı oxumaqla məşğul olurdular. Müsəlmanlar yavaş-yavaş ayələrin mə`na və hökmləri ilə biganə olsalar da, heç kim e`tiraz səsini ucalda bilmir və nəticədə hakim dairələr heç bir çətinliklə üzləşmirdilər. Dəfələrlə baş verirdi ki, müsəlmanlar uzaq məntəqələrdən Mədinəyə gəlib, xəlifədən müəyyən bir ayənin mə`nasını soruşduqda, o, cavabında aciz qalır və nəhayət deyirdi: "Qur`andan bildiklərinizə əməl edin, halalını halal, haramını isə haram bilin!"[2] Bunun mə`nası budur ki, Qur`andan bilmədiklərinizə nə əməl edin, nə də onu soruşun.

## PEYĞƏMBƏRİ-ƏKRƏM (S)-İN YENİ QOHUMLARI

Peyğəmbəri-Əkrəm (s)-in hədislərini nəql etmək və yazmağın qarşısının alınması və ikinci xəlifənin dövründə ölkə ərazisinin genişlənmə siyasətinin ardınca xəlifə öz mərkəzi hökumətini digər fərziyyə ilə yayılmasında çarəsiz gördü ki, biz burada onun şərhinə başlayırıq:

İslam ordularının qonşu ölkələrə üz tutduğu vaxtda fəth olunmuş məntəqələrin əhalisi İslamı və onun tarixini öyrənməyə meylləri günü-gündən artırdı. Bu zaman İslamdan Qur`an oxumaq və hökuməti heç bir çətinliklə üzləşdirməyən Peyğəmbəri-Əkrəm (s)-in sünnəsinin bir hissəsindən başqa bir şey qalmamışdı. Əsl İslam və Peyğəmbər (s)-in çoxlu buyuruqları ilə tanış olman yeni müsəlmanlar da dini öyrənməyə elə də tə`kid etmir və eşitdikləri ilə xoşhal olur və bununla kifayətlənirdilər. Bu arada onu və İslam Peyğəmbərinin həyat tərzini dərindən öyrənmək istəyənlər isə, o həzrətin qalanları və yaxın adamları idi. Onlar İslamın tez bir zamanda tərəqqi amili və Həzrətin səmimi dostları və xəlifənin düşmənləri idilər.

Onlar Qur`anda oxyurdular ki, Peyğəmbəri-Əkrəm (s) yaxın adamlarınna məhəbbət bəsləməyi öz risalət mükafatını kimi bildirmişdir. Belə ki, Qur`ani-Kərimdə buyurulur: "(Ey Peyğəmbər)! Camaata söylə ki, (risalətimin müqabilində) sizdən yaxınlarımı sevməkdən başqa bir mükafat istəmirəm!"[3]

Həmçinin eşitmişdilər ki, "mübahilə" hadisəsində qağış mərasimi üçün o həzrətin yaxınlarından bir neçə nəfərin iştirakı ilə məsihilər öz qərarlarından əl götürdülər. Camaat üçün bu neçə nəfər yaxın adamı tanımaq yüksək əhəmiyyət daşıyırdı. Onlar Peyğəmbər (s)-in ilk köməkçilərini (Əbu Talib və Həmzəni), ona iman gətirən birinci qadın və kişini (Əli (ə) və Xədicəni) tanımaq və imkan daxilində onlarla görüşmək istəyirdilər. Eləcə də bilmək istəyirdilər ki, görəsən həzrət Peyğəmbəri-Əkrəm (s) özündən bir övlad, yaxud bir nəvə qoymuşdur ya yox?

Hakim dairələrin bu suallara cavabları yox idi. Çünki onların hökumətinin davamı, bəlkə də qanunauyğunluğu sual altına düşür və süquta səbəb ola bilərdi. Burada hər sualın cavabında elə

---

[1] "Təfsiri İbn Kəsir", 4-cü cild, səh. 232; "Əl-itqan", 2-ci cild, səh. 4; "Təfsiri-Qurtubi", 18-ci cild, səh. 29; "Nəqşi-əimmə dər ehyai-din", 6-cı cild, səh. 117-118.

[2] "Əddurrul-mənsur", 6-cı cild, səh. 317; "Əl-müstədrəkü ələs-səhihəyn", 2-ci cild, səh. 514; "Təfsiri-Təbəri", 3-cü cild, səh. 138; "Tarixi İbn Kəsir", 4-cü cild, səh. 473; "Əl-itqan", 1-ci cild, səh. 115.

[3] "Şura" surəsi, ayə: 23.

bir şəxsdən söz açılırdı ki, onun xilafət haqqının qəsb olunduğunu iddia edirdi və o, Peyğəmbəri-Əkrəm (s)-in kürəkəni və əmisi oğlu Əli ibn Əbi Talibdən başqa bir şəxs deyildi. Elə bu zamandan iki məsələ icra olunmağa başladı:

### 1. Abbas və onun xanədanının Peyğəmbəri-Əkrəm (s)-in ən yaxın qohumu kimi tanınması:

Əli (ə), Fatimeyi-Zəhra (ə.s) və onların övladlarından söz açmaq rəva görülmədiyi bir vaxtda, çarəsizlik üzündən Peyğəmbəri-Əkrəm (s)-in digər yaxın bir adamı tanıtdırılmalı idi. Burada ən yaxşı şəxs o həzrətin əmisi Abbas idi. O, hörmətli, mö`tədil və sakit bir şəxs idi. İkinci xəlifə əlaqəsini onunla genişləndirdi və onun əhli-əyalını haşimilər müqabilində gücləndirib, onların aylıq maaşlarını Bədr və Ühüd müharibələrində iştirak edənlərlə müqayisədə çoxaltdı və ona hər ay (yeddi, yaxud) on iki min misqal gümüş pul verirdi.[1] Halbuki Abbas nəinki Bədr, Ühüd, Xəndək və Təbuk müharibələrində iştirak etməmiş, həm də düşmən və şirk qoşunundan idi ki, müsəlmanlar tərəfindən əsir tutuldu.

On səkkizinci hicri qəməri ilində Mədinədə qəhətlik və quruluq baş verdikdə, ikinci xəlifə Abbası "yağış" namazı qılmağa göndərdi ki, Allahdan yağış göndərməsini diləsin.[2] Həmçinin xəlifə həmişə sə`y edirdi ki, Abbasın oğlu Abdullahı hər yerə özü ilə birgə aparsın.[3] Bir dəfə də Abdullaha Həmsin valiliyini təklif etdi; bu şərtlə ki, xəlifədən sonra Əlinin xilafəti üçün öz mövqeyindən istifadə etməsin.[4]

### 2. Başqalarının şəxsiyyətini daha da qabartmaq:

İmam Əli (ə), Fatimeyi-Zəhra (ə.s), Xədiceyi-Kubra (ə.s) və onların övladlarının adının çəkilməsinin çətin olduğu vaxtlarda mö`minlərin anası Ayişənin şəxsiyyəti daha da artır, Peyğəmbər (s)-in zövcələri, onun iki tanınmış qayınatası (Əbu Bəkr və Ömər) o həzrətin qalan yaxın adamları və ümmətin sünnə tanıyanı kimi tanıtdırılırdılar. Camaat Peyğəmbər (s)-in sünnəsini, yaxud o həzrətin xüsusiyyətlərini tanımaqda şəkk-şübhəyə düçar olduqda, onu imam Əli (ə)-dan soruşmaq əvəzinə Ayişə üz tutur və o, hər nə deyirdisə, istər düzgün, istərsə də yanlış, qəbul edirdilər.

## VALİLƏR VƏ SƏRKƏRDƏLƏR

Əbu Bəkrin hökmranlığının məziyyətlərindən biri budur ki, onun hakimiyyəti dövründə Bəni-Üməyyə tayfasından çox az adam vali, yaxud ordu sərkərdəliyinə seçilmişdir. Ömər ibn Xəttabın hakimiyyətində hökumət ən çox əməvilərin əlində dolanırdı. Osman ibn Əfvanın dövründə isə hər bir şeyə hakim kəsilən yalnız Bəni-Üməyyə tayfası idi. Lakin hər üç hökmranın

---

[1] "Şərhi Nəhcül-bəlağə", İbn Əbil-Hədid, 12-ci cild, səh. 214.

[2] "Səhihi-Buxari", 1-ci cild, səh. 124; "Əttəbəqatul-kubra", 3-cü cild, birinci bölüm, səh. 232, Avropa çapı.

[3] "Əttəbəqatul-kubra", 2-ci cild, 2-ci bölüm, səh. 120.

[4] Elə bu siyasətin nəticəsində axırda abbasilər sülaləsi əməvilər sülaləsinə qalib gələrək xilafəti ələ keçirdilər. Onların iddiası bu idi ki, biz Peyğəmbər (s)-in xanədanıyıq və hökumət o həzrətin nəvələrinə çatmalıdır. Onlar camaatın himayəsini cəlb etməklə əməviləri məğlub etdilər.

dövründə Ömərin imam Əlini (ə) üç dəfə Mədinədə öz yerində nümayəndə qoyduğundan başqa haşimilərdən heç kimi bir vəzifəyə tə`yin etmədi, özü isə səfərə getdi[1]:

1. "Beytül-Müqəddəs"ə getdiyi zaman.[2]

2. "Qadisiyyə" və "Cəsr" müharibələrində orduları hazırlayan zaman.[3]

3. Şama gedən zaman.[4]

Salman Farsi imam Əli (ə)-ın məsləhəti ilə az müəyyən bir müddət ərzində ikinci xəlifə tərəfindən Mədayinin[5], Əmmar isə Kufənin valiliyinə[6] seçildi. Bərra ibn Azib (imam Əli (ə)-ın yaxın səhabəsi) ordu sərkərdəsi tə`yin edildi və o, Qəzvin şəhərini fəth edərək, oranın əhalisi ilə sülh müqaviləsi bağladı.[7] Bir vaxtlar da Lsman ibn Hənif Kufənin vergilər üzrə məs`ul vəzifəsini öz öhdəsinə götürdü.[8]

Bunlardan başqa ikinci xəlifənin valiləri aşağıdakılardan ibarətdir:

Şam: Müaviyə, Misir: Əmr ibn As, Bəhreyn: Müğeyrət ibn Şö`bə və Əbu Hüreyrə Düveysi, Bəsr: Əbu Musa Əş`əri və Müğeyrət ibn Şö`bə, Kufə: Sə`d ibn Əbi Vəqqas və Müğeyrət ibn Şö`bə.

Onların hər birinin tərcümeyi-halı haqda mütaliə etmək xüsusi bir kitab tələb etdiyindən, biz burada onların içərisindən yalnız Müğeyrət ibn Şö`bənin həyatı ilə bağlı qısa anlayış vermək istəyirik. Hər şeydən öncə adıçəkilənlərin valiliyə seçilməsinə diqqət yetirilməlidir ki, xəlifənin e`tiqadına görə bu vəzifənin onlara həvalə edilməsində işlərin idarəsində onların dindarlığı və dini qayda-qanunlara iltizamlılıqları deyil, yalnız qüdrətli olmalarıdır. Buna əsasən, burada layiqli iş Müaviyənin Şama, Əmr ibn Asın isə Misrə vali seçilməsidir. Halbuki Müaviyə elə kəslərdən idi ki, Peyğəmbəri-Əkrəm (s)-in adını çəkməyi çərxi-fələyin səhifəsindən silmək üçün and içmişdi[9] və ölünə qədər də şərab içirdi.[10] Əmr ibn As isə İslamı qəbul etməzdən öncə yetmiş beyt şe`rlə Peyğəmbəri-Əkrəm (s)-ə nalayiq sözlər deyir və o həzrəti lə`nələtləyirdi. Əbu Hüreyrəyə gəldikdə də, o, səhabələr arasında yalan danışmaq və fırıldaqlıqla tanınırdı.[11]

---

[1] "Əl-imamətu vəs-siyasət", səh. 24.

[2] "Fütuhuş-Şam", Ömər Vaqidi, səh. 149.

[3] "Əl-kamilu fit-tarix", 2-ci cild, səh. 450.

[4] "Əl-fütuh", 1-ci cild, səh. 450. Əlbəttə, şiə mənbələri imam Əli (ə)-ın bu canişinliyini elə də təsdiq etməmişlər. Nəzərə belə çarpır ki, imam Əli (ə) Ömərin hökmranlığı dövründə yalnız qəza işlərini öhdəsinə alaraq, camaatın çətinliklərini həll edir, heç vaxt hökumət və siyasi vəzifəni öhdəsinə götürməmişdir. (Bu məsələ ilə əlaqədar bax: "Əl-xəsais", Seyid Rəzi, səh. 77.

[5] "Mürucuz-zəhəb", 2-ci cild, səh. 232 və "Şərhi Nəhcül-bəlağə", İbn Əbil-Hədid, 18-ci cild, səh. 39. Mədain, Sə`d ibn Əbi Vəqqasın əli ilə fəth olunduqdan sonra (16-cı h.q ilində) Salman ora yollandı. ("Əl-fütuh", 1-ci cild, səh. 286.)

[6] "Tarixi İbn Xəldun", 2-ci cild, səh. 139, 1-ci bölüm.

[7] Yenə orada, səh. 118.

[8] "Tarixul-ümən vəl-müluk", 4-cü cild, səh. 145.

[9] Onun dediyi cümlə belədir: "And olsun Aldlaha! Bu adı tamamilə dəfn etməyincə, sakit oturmayacağam." ("Mürucuz-zəhəb", 3-cü cild, səh. 454, 455, Əndəlus çapı, 4-cü cild, səh. 41, İstiqamət çapı; "Əl-əxbarul-muvəffəqiyyat", səh. 576-577; "Şərhi Nəhcül-bəlağə", İbn Əbil-Hədid, 5-ci cild, səh. 129-130; "Əl-qədir", 10-cu cild, səh. 283-284.

[10] "Müsnədi-Əhməd", 5-ci cild, səh. 347, "Meymənə" çapı, Misir, 1313 hicri qəməri ili.

[11] "Şərhi-Nəhcül-bəlağə", İbn Əbil-Hədid, 4-cü cild, səh. 67. Onun həyatı ilə əlaqədar bax: "Əhli-sünnəti vaqii", 2-ci cild, səh. 102-115.

## Müğeyrət ibn Şö`bə

O, Taifin "Səqif" qəbiləsindən idi. Cahiliyyət dövründə Taifdə dərziliklə məşğur olur, fars dilini də bilirdi.[1] Yazıçılıqda məharətli oduğundan, Peyğəmbəri-Əkrəm (s) onu katibliyə götürmüşdü. Tədbir, fərasət və uzaqgörənlikdə ərəb aləminin ən böyük siyasətçilərindən sayılsa da, əxlaq və dindarlıqda isə insanlığın ən aşağı dərəcələrində tanınırdı.

Əbdül-Həmid Mədayini onun haqda belə yazır: "O, ömrünün çox hissəsini cinsi əlaqələr və pis işlərlə keçirir və nəfsin istəklərə son həddə təslim idi."[2]

Həmçinin imam Həsən (ə) ona buyurmuşdu: "Ey Müğeyrə! Peyğəmbəri-Əkrəm (s) sənin zinakar olduğunu bilirdi!"[3]

Onun İslamı qəbul etmə hadisəsi belədir: o, hicrətin 5-ci ilində 13 nəfər yoldaşını Taiflə İskəndəriyyənin arasında hiylə ilə qətlə yetirib, mal-dövlətlərini götürərək Mədinəyə qaçdı və elə orada canını qorumaq üçün zahirdə müsəlman olduğunu e`lan etdi.[4]

O, Ömər ibn Xəttaba mö`minlərin əmiri deyən və bu ləqəblə ona salam verən birinci şəxs olmuşdur.[5] Ömər onu Bəhreynin valisi tə`yin etdi. Camaat onun əli ilə çoxlu əzab-əziyyətə mə`ruz qaldıqlarını gördükdə, xəlifə şikayət etdilər[6] və xəlifə onun yerinə Əbu Hüreyrəni vali göndərdi. (17-ci hicri qəməri ilində.)

O, Bəhreynin valiliyindən sonra Misirin valisi seçildi və orada rüsvay olub, çirkin bir işə qurşandığı üçün Mədinəyə çağırıldı.[7] Lakin xəlifə onu çirkin işlərinə görə cəzalandırmayıb, azad etdi.[8] Müaviyənin dövründə də yenidən Kufənin valiliyinə seçildi və 50-ci hicri ilinə qədər elə həmin vəzifədə olarkən vəfat etdi. Deyilənlərə görə, onun üç yüz, yaxud min arvadı olmuşdur.[9]

## İşçiləri sorğu-suala tutmaq və onlara təskinlik vermək

"Əl-iqdul-fərid" kitabının müəllifi yazır: "Ömər ibn Xəttab bə`zən sərvətli işçilərini Mədinəyə çağırıb, onlardan mal-dövlətləri ilə bağlı sorğu-suala tutaraq, onun yarısını tələb edir, yarsını isə onların özünə qaytarıb, öz məqam və vəzifələrində saxlayırdı.[10]

---

[1] "Əl-kamilu fit-tarix", 2-ci cild, səh. 232.

[2] "Şərhi Nəhcül-bəlağə", 20-ci cild, səh. 10.

[3] Yenə orada, 6-cı cild, səh. 294; "Bərrəsiyi ricali-səhihəyn", 1-ci cild, səh. 90-106. Tarixdə belə göstərilmişdir: "Onun Fərbiə adlı zövcəsi onun ölümündən sonra Həccac ibn Yusif Səqəfinin atası ilə evləndi və onlardan Həccac dünyaya gəldi.

[4] "Əssirətun-Nəbəviyyə", 2-ci cild, səh. 313-314, Misir, iki cildli çapda; "Əl-əğani", 14-cü cild, səh. 314; "Bərrəsiyi ricali-səhiheyn", səh. 108.

[5] "Əl-ənsabul-əşraf", 1-ci cild, səh. 538, Misirin Darul-məarif çapı.

[6] "Əl-isabə", 3-cü cild, səh. 453.

[7] "Əl-faiq", 1-ci cild, səh. 274, Hindistanın Heydərabad çapı. Osmanın xilafəti dövründə Kufəyə vali göndərildi. Lakin rüşvaxorluq etdiyindən camaat onun vəzifədən azad edilməsini tələb etdikdə, xəlifə onu 24-cü hicri ilində vəzifədən azad etdi. ("Əssirətul-Hələbiyyə", 1-ci cild, səh. 467.)

[8] Yetmişdən çox mənbədə onun çirkin işlərə qurşanması və xəlifənin vasitəsilə bağışlanması qeyd edilmişdir. Bu mənbələri "Bərrəsiyi ricali səhihəyn" kitabında, 1-ci cild, səh. 199-203-də görə bilərsiniz.

[9] "Əl-istiab", 3-cü cild, Səh. 368; "Usdul-ğabə", 4-cü cild, səh. 406.

[10] "Əl-iqdul-fərid", 1-ci cild, səh. 46.

Əli ibn Əbi Talib (ə) bu üslubu bəyənmədiyindən xəlifəyə belə buyururdu: “Əgər onları xilafkar və oğru bilirsənsə, onda, nə üçün xilafkarlıqla qazandıqları sərvətin yarısını özlərinə qaytarır, sonra isə öz vəzifə və məs`uliyyətlərində saxlayırsan?!

Bir gün sorğu-suala tutulanların biri xəlifəyə dedi: “Əgər bu əmlak Allahındırsa, nə üçün onların hamısını bizdən almırsan? Əgər mənim öz əmlakımdırsa, onda nə üçün onların yarısını bizdən alırsan?!”[1]

## ƏRAZİ GENİŞLİYİNİN BAŞLANĞICI

a) Birinci xəlifənin dövründəki fəth və uğurlar:

Hicrətin on ikinci ilinin axırlarında kafirlər və müxalif qüvvələrlə müharibə müəyyən qədər sakitləşdikdən sonra qonşu ölkələrin fəth olunması üçün zəmin yarandı. Əbu Bəkrin qoşun yürütdüyü ilk məntəqələr Şam və İraq idi. Onun qoşun yürütməsi Əbu Bəkrin hökumət dairəsini genişləndirməklə yanaşı, ərəbləri qənimət yığmaqla məşğul edirdi.

Hicri qəməri tarixi ilə 12-ci ildə ordular Şama, 13-ci ildə isə İraqa e`zam olundu. Orduları İrana e`zamı isə İraqın fəthindən sonra baş versə də, qələbə ikinci xəlifənin dövründə müsəlmanlara qismət oldu.

### Şamın fəth olunması

Əbu Bəkr orduları Şama e`zam etmək üçün əvvəlcə Xalid ibn Səd ibn Ası ordu sərkərdəsi seçdi. Lakin o, Əli ibn Əbi Talib (ə)-ın tərəfdarı olduğundan, Ömər ibn Xəttabın israrı ilə bu vəzifədən kənarlaşdırıldı və onun yerinə Əbu Übeydə Cərrah[2], Əbu Süfyanın oğlu Yezid isə onun müavini seçildi. Bu iki sərkərdə, eləcə də Əmr ibn As Həms, Şam və Fələstinə doğru hərəkət etdilər. Müsəlmanlarla romalılar arasındakı qızğın müharibə ilə Əmr ibn As Fələstinə yerli hücum çəkib, oranı fəth edərək, Əbu Übeydə və Yezidin ordusuna qoşuldu. 13-cü h.q ilinin astanasında müsəlmanlarla Herqelin (Şərqi Romanın imperatoru Heraklyusun) qoşunları arasında müharibə üç ay davam etdi və hər dəfə Herqelin qoşunu məğlub olsa da, müharibənin nəticəsi mə`lum olmurdu. Elə bu zaman Əbu Bəkr, Xalid ibn Vəlidi kömək məqsədilə İraqdan Şama göndərdi və onu bütün ordunun sərkərdəsi tə`yin etdi.

Xalidin qoşunları çatmaqla romalılar məğlubiyyətə uğradılar. Elə həmin günlərdə xəlifənin ölüm xəbəri Xalidin qoşunlarına çatdı. Ömər ibn Xəttab Əbu Bəkrin ölüm xəbərini çatdırmaqla, Xalidi sərkərdəlikdən kənarlaşdırıb, onun yerinə Əbu Übeydə Cərrahı müvvəqqəti olaraq seçdi.[3]

Deyilənlərə görə, Şamın fəth olunmasında imam Əlinin (ə) bir dəstə dostu və şiələri iştirak etmişdir. Onlardan Abdullah ibn Məs`udu, Miqdad ibn Əsvədi, Zübeyr ibn Avvamı, Haşim Mirqalı, Fəzl ibn Abbasın adını çəkmək olar.

Əbu Übeydə, Xalid ibn Vəlidin yerinə sərkədə tə`yin olunmasına baxmayaraq, Şamın valiliyi Əbu Süfyanın oğlu Yezidin əlində idi. Əbu Süfyanın oğlu Yezidə valilik vəzifəsinin verilmə

---

[1] Yenə orada.

[2] O, süfyanilərin ən yaxşısı idi və “Yezidül-Xeyir” adı ilə məşhur idi. Məkkənin fəth olunduğu gün İslam dinini qəbul və “Hüneyn” müharibəsində şirkət etdi. O, ana tərəfindən Əbu Süfyanın oğlu Müaviyə ilə ögey sayılır və hicrətin on doqquzuncu ilində “taun” xəstəliyi nəticəsində vəfat etdi. (“Əl-fütuh”, (tərcümə), səh. 941.)

[3] “Mö`cəmül-büldan”, 8-ci cild, səh. 504.

siyasəti Bəni-Üməyyə tayfası və onların rəisi Əbu Süfyana olduqca təskinlik verirdi. Yazılanlara görə, Yezidin (Müaviyənin qardaşı) valilik hökmü həqiqətdə Əbu Süfyana verilən sükut haqqı idi. Məhz bu səbəbdən də Əbu Süfyan bu hökmdən sonra Əbu Bəkrin hökumət və rəhbərliyi ilə müxalifətdən əl götürdü.[1]

## İraqın fəth olunması

Keçmiş İraq ərazisi indiki İraqla fərqlənirdi. O zaman böyük İran ərazisi indiki İraq ərazisinin bir hissəsinə də aid olurdu. Buna əsasən, o dövrdə İraq, İran imperatorluğunun qərb sərhədlərinə deyilirdi.

İraqa qoşunun göndərilməsi 13-cü hicri qəməri ilinin Məhərrəm ayında Xalid ibn Vəlidin sərkərdəliyi ilə baş verdi.[2] Xalid əvvəlcə Hiyrə şəhərinə[3] hücum çəkdi, şəhərin hakimi ona doxsan min dirhəm pul verib, onunla əlaqəsini möhkəmlədi və müsəlmanlar şəhəri ələ keçirtdilər. Ondan sonra Xalid Ənbar şəhərinə hücum çəkib, oranı fəth etdi.

Tarixdə göstərilir ki, Əbu Bəkrin İraqı ələ keçirməkdə məqsədi İrana ordu göndərmək idi. Çünki İraqda yaşayan Müsənna ibn Harisə Şeybani (Bəkr ibn Vail qəbiləsinin rəisi) xəlifə xəbər göndərdi ki, İranın bu nahiyəsi İrana hücum çəkmək üçün münasib şəraitə malikdir. Müsənna, Əbu Bəkrin əmrindən sonra dəfələrlə İranın qərb məntəqələrinə yürüş edərək, qarətlə məşğul olmuşdur. Mədinədən ona kömək etmək məqsədilə heç bir ordu göndərilmədiyi halda, o, təklikdə İrana hücum etməyə hazır idi.

Xalid ibn Vəlidin sərkərdəliyi və Müsənna ibn Harisənin müavinliyi ilə Əbu Bəkrin qoşunlarının İraqa hücumu təqribən, bir il çəkdi və nəhayət, Xalidin Mədinəyə qayıdıb, Şama doğru hərəkəti ilə İraq ordusunun sərkərdəliyi Müsənna ibn Harisəyə tapşırıldı və o, Hiyrədən Babülə tərəfə yollandı.

b) İkinci xəlifənin dövründəki fəth və uğurlar:

İkinci xəlifənin dövründə İslam ərazisi daha da genişləndi. Bütün Şam nahiyəsi, Fələstin, indiki Livan, Ermənistan, İranın böyük ərazisi, Beytül-Müqəddəs, İskəndəriyyə, Misir, Tərablus (Libiya), İordaniya və Azərbaycan Ömər ibn Xəttabın xilafəti dövründə fəth olunmuşdur.

Bir sözlə, bu məntəqələrin bə`zilərinin fəth olunması ilə bağlı bir neçə incəliklərə toxunacağıq.

## İranın fəth olunması

Əbu Bəkrin vəfatı ilə onun tərəfindən İraqda sasanilər dövlətinin ərazisinə (İrana) hücum çəkmək istəyən Müsənna ibn Harisə Şeybani ikinci xəlifə Ömərin rəhbərliyi ilə öz işini davam etdi.

İrana hücum Əbu Übeydə Səqəfinin (Muxtarın atası) sərkərdəli və Müsənnanın canişinliyi ilə 13-cü hicri qəməri ilində baş verdi. Həmin vaxtlarda İranın padşahı üçüncü Yəzdəgird adlı cavan bir oğlan idi. Əbu Übeydə və onun ordusu indiki Kufənin yaxınlığında Fərat körpüsündən keçərək, Bəhmən Caduyənin sərkərdəlik etdiyi İran ordusu ilə üzləşdi. Müsəlmanların sərkərdəsi və ordusu rəşadət və şücaətli olsa da, iranlıların ordusundakı çoxlu fillərin olması Əbu Übeydənin

---

[1] "Əl-bidayətu vəs-siyasət", 6-cı cild, səh. 94.

[2] "Əl-kamilu fit-tarix", 2-ci cild, səh. 261.

[3] Kufə ilə Nəcəf arasında yerləşən şəhər adıdır ki, hal-hazırda ondan heç bir əsər-əlamət qalmır. Bu iki şəhər hal-hazırda bir-birinə birləşmişdir.

qoşununun atlarını ram etdi və onun qoşunu məğlub oldu. Qoxu hissi keçirməyən fillərə hücum edən Əbu Übeydə fillərin əl-ayaqları altında qalıb öldü.

Bu arada müsəlmanların başqa bir problemi Fərata doğru qayıdış yolunun bağlı olması idi. Çünki müsəlmanlardan biri qoşunların müqavimət, dilavərlik və şücaət hissini təhrik etmək üçün körpünü Fəratın üzünə bağlamış və onu qırmışdı. Nəhayət, onlar Müsənnanın çalışması ilə başqa bir körpü düzəltdilər və qoşunun qalan hissəsi bu tərəfə qayıdaraq, ölüm və ordunun pərakəndəliyindən xilas oldular

"Cəsr" (körpü) müharibəsindəki məğlubiyyəti müsəlmanlara ağır gəlsə də, sonrakı ilin qələbəliyi o ağrını kəsdi. Əvvəlcə Müsənna ibn Harisə Buvəybdə[1], ondan sonra isə Sə`d ibn Əbi Vəqqas Qadisiyyədə[2] qalib gəldilər. Bu mühiribədə iranlıların sərkərdəsi Rüstəm Fərruxzadə idi və ordusunun sayı müsəlmanların ordusu və müharibə təchizatından beş dəfə çox idi. O, müsəlmanlarla müharibə etməkdən qorxu hissi keçirsə də, Yəzdəgirdin təzyiqi nəticəsində məcburiyyət üzündən Tisfundan[3] Qadisiyyə qədər qoşun yürütdü.

İki qoşun arasında dörd gün qızğın döyüş davam etdi. Rüstəm Fərruxzadə öldürüldü, onun qoşunu məğlub oldu və Dərviş Kaviyan müsəlmanların əlinə düşdü. Bu qələbə müsəlmanların əhval-ruhiyyəsinə elə tə`sir bağışladı ki, onlar dərhal sasanilər dövlətinin paytaxtına tərəfə hərəkət edərək, Mədayini mühasirəyə aldılar. Bu mühasirə təqribən, iki il çəkdi, lakin sübh çağı azan səsi ucaldıqda, mə`lum oldu ki, zülm və haqsızlığa mə`ruz qalmış İran xalqı artıq şahlıq dövlətinin zülmünə dözmək istəmirdi.

Yenidən bu günkü Xanqeynin yaxınlığında müsəlmanlarla sasanilər qoşunları arasında müharibə başladı ki, bu müharibə "Cəlula" adı ilə məşhurdur. Bu müharibə də keçmişdəki kimi sasanilərin məğlubiyyəti ilə nəticələndi. Hökumətin tam süqutu ilə nəticələnən müharibənin son (və dördüncü) mərhələsi Nəhavəndə baş verdi. Bu müharibə üç gündən çox çəkməsə də, çoxlu tələfata səbəb oldu. Çünki Yəzdəgird özü öz ordusuna sərkərdəlik edirdi. O, Tisfun müharibəsindən qaçdığı üçün öz ordusunu İranın qərb dağlarına çəkmək qərarına gəlmişdi. Elə həmin müddət ərzində müsəlmanlar Xuzistanı fəth etdilər, digər tərəfdən də Yəzdəgird bütün sərkərdələrə xəbər göndərərək bir yerə topladı və yüz əlli mindən artıq bir ordu təşkil etdi. Amma bu dəfə də məğlubiyyətə uğradı.

"Fəthül-fütuh" (fəthlər fəthi) adı ilə məşhurlaşan bu qələbə (21-ci hicri qəməri ili) İran şəhərləri ardıcıl olaraq elə də müqavimət göstərilmədən İslam ərazisinə daxil oldu.

## Beytül-Müqəddəsin fəth olunması

Dəməşqin fəthindən sonra Əbu Übeydə ibn Cərrah Beytül-Müqəddəsə tərəf hərəkət etdi. O, dörd ay müddətində İlya şəhərini mühasirə etsə də, oranın əhalisi təslim olmadı. Axırda Əbu Übeydənin ordusu çətinliyə və soyuğa düşdülər. Digər tərəfdən də şəhər əhalisi də müsəlmanların xəlifəsinin özü onların şəhərinə qədəm qoyduğu təqdirdə, cizyə verməyi qəbul etməklə təsilm olacaqlarını e`lan etdilər.

---

[1] Kufənin yaxınlığında Fəratdan ayrılan bir qol.

[2] Kufənin on beş fərsəxliyində yerləşən məntəqənin adı.

[3] Bir-birinə yaxın olan yeddi şəhərə "Mədain" deyilirdi ki, həmin şəhərlərdən biri də Tisfun idi.

Əbu Übeydənin qasidi bu xəbəri xəlifəyə çatdırdı. Xəlifə ətrafındakılardan nəzər istədi. Bu arada yalnız imam Əli (ə) belə çıxış etdi: "Xəlifənin Beytül-Müqəddəsə getməsi müsəlmanların məsləhətinə və onların qələbə çalmasına səbəbdir." Bu səbəbdən xəlifə Beytül-Müqəddəsə getdi və imam Əli (ə)-ın uzaqgörənliyi həyatda gerçəkləşdi.[1]

## FƏTHLƏRİN HAŞİYƏSİNDƏ

Xəlifələrin dövründəki fəth və uğurların araşdırılmasında bir neçə məsələni bəyan etmək zəruridir. O cümlədən, ərazi genişliyində məqsəd nə idi? İştirak edənlərin məqsədi nə idi? Nə üçün Əli ibn Əbi Talib (ə) – Peyğəmbəri-Əkrəm (s)-in kürəkəni həmin müharibələrdə iştirak etmədi? Yeni məntəqələrin fəthindən sonra həmin məntəqələrdə hansı dəyişikliklər yarandı və hansı dini-mədəni fəaliyyətlər baş verdi? Görəsən, hücumdan qabaq, əvvəlcə İslam və onun tə`limləri həmin şəhərlərin sakinlərinə söylənilirdi, yoxsa İslama də`vət olunmadan elə bir dəfəlik hücum çəkilirdi?

Bu sualların cavabının aydınlaşması məqsədilə bir neçə incə-nöqtələri qeyd etmək yerinə düşərdi.

1. Şübhəsiz, Əli ibn Əbi Talib (ə) və onun övladları ərazi genişliklərin heç birində iştiraf etməmişdir. Camaat da bilirdi ki, o həzrətin keçmiş şücaət və qəhrəmanlğına diqqət yetirməklə bu siyasətdən məqsəd, nə o həzrətin bir guşəyə çəkilib, bu məsələyə e`tinasız yanaşması, nə də ölümdən qorxmasıdır. Bunun səbəbi yalnız bu idi ki, o həzrət özünü onun haqqını qəsb edənlərin ixtiyarın qoymaq və onlara xidmət etmək istəmirdi. Bu həmkarlıq o həzrətin məqamından uzaq və xəlifənin siyasətini təsdiqləmək sayılır, bu müharibələrdə xəlifə və qoşunların rəftarını e`tibar və qanunluq bağışlayırdı.

Bunlardan başqa o həzrətin həmin ərazi genişliyindəki məqsəddən mə`lumatı onun müharibələrdə iştirakına mane olurdu. İmam Əli (ə)-a layiq məsələ isə o həzrətin şiə və tərəfdarlarını həmin müharibələrdə iştirak etməkdən çəkindirməməsi idi. Onların müharibələrdə iştirakı əsgərlərin təskinliyindən əlavə, əsgərlərin bir çox qeyri-islami davranışlarının qarşısının alınması idi.

Tarixçilər ikinci xəlifənin hakimiyyəti dövründə imam Əli (ə)-ın icazəsi ilə Mədayinin valiliyinə öhdəsinə götürən Salman Farsidən başqa, aşağıda adı çəkilənlər müharibələrdə xəlifələrin döyüşçüləri sırasında qeyd etmişlər:

Əmmar Yasir: Misirin və Bəkr məntəqəsinin fəthində süvarilərin sərkərdəsi olmuş[2] və az bir müddət ərzində ikinci xəlifə tərəfindən Kufənin valiliyini öhdəsinə götürmüş, altı min nəfərlə birlikdə Əbu Musa Əş`ərinin köməyi ilə Şuştəri fəth etmək üçün ora getmiş və süvarilər dəstəsinə sərkərdəlik etmişdir.[3] Cəlula müharibəsində on iki mindən ibarət qoşunla Yəzdəgirdin ordusu ilə döyüşmüşdür.[4]

Miqdad ibn Əsvəd: Əmmar Yasirin həmkarlığı ilə Misir və Bəkr məntəqəsinin fəthində iştiraf etmişdir.[5]

---

[1] "Əl-bidayətu vən-nihayə", 7-ci cild, səh. 55.

[2] "Əl-fütuh", 2-ci cild, səh. 36-59.

[3] Yenə orada, səh. 10-11.

[4] "Fütuhul-büldan", səh. 246.

[5] "Əl-fütuh", (Ərəbi), 2-ci cild, səh. 59.

Hüzeyfə ibn Yəman: Ərdəbil, Nəhavənd və Şüştər şəhərlərinin fəthində iştirak etmişdir.[1]

Malik Əştər: Şam məntəqələrində romalılarla müharibədə iştirak etmişdir.[2]

Haşim ibn Ütbə (Mirqal): Beytül-Müqəddəs[3] və Azərbaycanın[4] fəthində beş min nəfərdən ibarət qoşunun sərkərdəsi olmuşdur.

Bərra ibn Azib: Qəzvin və Şuştər şəhərlərində iştirak etmişdir.

Hicr ibn Ədiyy: Qadisiyyə və Cəlula müharibələrində iştirak etmişdir.

2. Bizim bu günləri xəlifələrin fəthləri kimi tanıdıqlarımız sosioloji baxımdan – hər bir təəssübkeşlikdən uzaq – sərtlik və yürüş vasitəsilə siyasi-coğrafi dairənin genişliyindən başqa bir şey deyildir. Bu isə Peyğəmbəri-Əkrəm (s)-in baxış və üslubu ilə əsla uyuşmur və heç bir zərurət də o tələskən rəftarı yozmur.

Qur`ani-Kərim peyğəmbərlərin gəlişindəki məqsəd və amalı ədalətin yayılması və insan tərbiyəsi bilir. Xəlifələrin dövründə baş verənlər isə imperatorluq tə`sis etmək, qənimət və qullar yığmaqdan başqa bir şey deyildir. Qonşu ölkələrin daravazalarını açmağa o zaman üz tutuldu ki, müsəlmanlar hələ İslamın əlifbasını bilmirdilər. Nadanlıq dəyərləri onların həyat tərzindən silinməmiş, e`tiqadi dəyərlər isə varlıqlarının dərinliyinə nüfuz etməmişdi. Keçmiş döyüşçü qrupları şücaət, qorxmazlıq və qəhrəmanlıqlara malik olsalar da, dini bilik və tərbiyədən uzaq idilər. Onlar o zaman müharibələr girdabına düçar oldular ki, bə`ziləri hələ Qur`andan bir neçə ayədən başqa, dindən bir şey öyrənməmişdilər. Bu dərin zəiflik geniş maddi qələbəliklə qarışıb, qənimət və ləzzəti onlara dadızdırdığı bir vaxtda qazandıqları az mə`nəviyyatı itirərək, xoşgüzəranlığa adət etdilər, Peyğəmbəri-Əkrəm (s)-in məqsəd və amalı uğrunda əzab-əziyyətlərə mə`ruz qaldığı yolunu davam etməyi unutdular, müsəlmanlar elə ünsürlər düzəldildi ki, dünyalarını qorumaqla hər bir xəlifəyə tabe olurdular.

3. Doğrusu, İslamı təzə qəbul edən və qonşu ölkələri fəth etməyə can atan döyüşçülər həmin ölkələrin əhalisi üçün nə kimi tədbirlər fikirləşirdilər? Görəsən, müsəlmanlardan yaxşı yaşayan həmin əhaliyə maddi imkanlar bağışlamaq istəyirdilərmi?

Heç bir tarixçi İslam darvazalarının camaatın üzünə açıldıqdan sonra İslam mədəniyyəti və Qur`an qanunlarının onlara tə`lim olunmasını qeyd etməmişdir. Kaş, elə bununla kifayətlənəydilər. Bu ölkələrin fəthindən sonra İslam Peyğəmbərinin hədislərini camaatın Qur`anla məşğul olması bəhanəsi ilə yazıb-bəyan etmək qadağan olundu. Bu tədbirdən isə Qur`andan himayə məqsədini açıqladılar. Lakin daxildə Peyğəmbər (s)-in sünnəsini zirəkliklə kənara qoymaqdan başqa bir şey güdülmürdü. Bu bəyannamənin e`lanından sonra heç bir səhabə Peyğəmbər (s)-dən hədis, hətta Qur`an ayələrinin birini təfsir və izah edən hədisləri belə nəql etməyə haqqı yox idi. Bu iş yalnız adi camaata deyil, həm də Qur`ani-kərimin həqiqi təfsirçisi olan o həzrətin Əhli-beytinə də qadağan olundu.

Bu tədbirlə sünnətlə bid`ət bir-birinə qarışdı, onların bir-birindən ayırd edilməsi çətinləşdi. Şübhələr, xurafatlar və uydurmalar hədisdən çox rövnəqləşdi. İctimanı sonradan həqiqi İslama qaytarmaq məqsədilə yerinə yetiriləcək mədəni fəaliyyətlər çətinləşərək, qeyri-mümkün həddinə çatdı. Belə bir vaxtda xəlifələr və onların canişinləri üçün camaatı hökumət məqsədlərini qəbul

[1] Yenə orada, səh. 10-11, "Əl-ibr", 1-ci cild, səh. 25.
[2] "Tarixi Yə`qubi", 2-ci cild, səh. 130.
[3] "Əl-məğazi", səh. 144.
[4] "Əl-bəda vət-tarix", 5-ci cild, səh. 182.

etdirmək üçün xam etmək asanlaşdı. Haqq və batil, düzgün və yanlış me`yarlar bir-birinə qarışdığı üçün heç kim müxalifət səsini ucalda bilmirdi. Bu arada səsini ucaltmaq istəyənin əleyhinə ümumi yürüş edilərək, onu aradan götürürdülər.

4. İslam dininin yaxın və uzaq ölkələrə heybətli nüfuzu ilə zərdüşt, xaçpərəst, yəhudi və s. dinlər geri çəkilib, özlərini onun müqabilində aciz gördülər. Lakin bu heybət xəlifələr tərəfindən elmi-mədəni sahələrdə himayə olunmadığından, onun ağır kölgəsi tez aradan getdi və artıq digər dinlərin tərəfdarları yeni can aldılar. Ondan sonra isə xəlifələr tərəfindən uzun illər dini tanıtdırmaq üçün mədəni təbliğat və fəaliyyətlər əsla baş vermədi.

5. Öncə qeyd edilənlərə əsasən, e`tiraf etmək lazımdır ki, müsəlmanların sonsuz uğurları hərbi-nizami qüvvələrin və İslamın düzgün təbliğatının nəticəsi deyildi. Onları irəli aparan və uğur qazandıran Peyğəmbəri-Əkrəm (s)-in tə`limlərinə əsaslanan iman, qələbə və ya şücaətə e`tiqad idi. Təəssüflər olsun ki, elə bu iki amil xəlifələr tərəfindən sui-istifadə vasitəsinə çevrildi.

Bundan əlavə, müsəlmanların qələbə, müvəffəqiyyət və uğurları ilə bağlı bir neçə amil də qeyd etmək olar:

a) Camaatdan qənimət yığmaq, qadın-kişilərə sahib olmaq məqsədini icad etmək.

b) Müsəlman əsgərlərin müqabil qüvvələrin əzəməti ilə müqayisədə sadəlikləri.

v) O məntəqələrin əhalisinin hökumətdən narazlıqları.

q) Bu fəthlər çoxlu mal-dövlət və sərvəti İslam dünyasına bəxş etdi... və ümumxalqın ixtiyarına verilmək və ədalətlə bölünmək əvəzində adətən, fərd və şəxsiyyətlər arasında bölündü və az bir qismin ixtiyanı verildi. Xüsusilə Osmanın xilafəti dövründə bu hərəkət həddini aşdı.[1]

6. Xəlifələrin məqsədi və fəthlərin genişlənməsi ilə əlaqədar iki mühüm incə nöqtəyə işarə etməklə kifayətlənirik:

a) Allah yolunda cihad adı ilə döyüş cəbhələrini yaratmaq daxili ixtilaflar və əsaslı müxalifətlərin qarşısını almaq üçün ən yaxşı vasitə idi. Bu zaman əgər bir kəs şərafətli və hörmətli şəxs olsa belə, özünün tapdalanmış haqqını almaq istəsəydi, o, dünya və vəzifə düşkünü kimi tanınırdı. Buna əsasən, o dövr hökumət dairələri üçün siyasi məqsədlərə nail olmaq və mövcud mövqeyi qoruyub saxlamaq üçün ən yaxşı zaman hesab edilirdi.

b) Yeni ölkələrin fəthindən sonra dini mədəniyyətin və Peyğəmbər (s)-in hədislərinin yayılması üçün azacıq belə sə`y və zəhmət çəkilmədiyinə diqqət yetirməklə, şübhəsiz, ərazi genişinliyində məqsəd o həzrətin dinini təbliğ etmək deyildi. Hökumətin həmin hücum və yürüşlərdən ən yaxşı bəhrəsi mərkəzi dövlətin qüdrətini və əhatəsini genişləndirmək, eləcə də onun siyasi-dini təfəkkürü idi. Məhz bu səbəbdən də imam Riza (ə)-ın dövrünə qədər İranın hər bir yerində xəlifələr tərəfindən, yalnız onların bəyəndikləri ayindən başqa bir şey təbliğ olunmadı.

[1] "Seyri dər Nəhcül-bəlağə", səh. 258-260.

## Xilafətin aqibəti.

Ömər ibn Xəttab Hicri-Qəmərinin iyirmi üçüncü ili Həccə getdi.Qayıddıqdan sonra ətraf şəhərlərdən bir dəstə əmir onunla görüş və məşvərət üçün Mədinəyə gəldilər.Müğəyrə ibn Şöbə( Kufənin əmiri) və onun xidmətcisi Piruz Əbu Lölö onların arasında idi.Buna baxmayaraq ki, xəlifə Əcəmlərin Mədinədə yaşamasına icazə vermirdi amma Muğəyrə xəifədən Firuzun Mədinədə qalmasının icazəsini istədi.Çünki o bir sənətkar insan kimi Mədinə camaatına xeyri dəyirdi.[1]Bir gün Firuz Mədinədə özünü xəlifəyə catdirib,ona öz ərbabından şikayət etdi ki, o hər gün məndən on dirhəm vergi alır və mənim bu qədər pulu verməyə imkanım yoxdur.Xəlifə soruşdu:Sənin peşən nədir?O cavabında dedi: Dülgərlik, dəmirçilik, rəngsazlıq.O dedi: Bu qədər peşə ele bu qədər məbləğ çox deyil.Eşitmişəm sən ele dəyirman düzəldirsən ki,günəşlə işləyir!O dedi: Əgər sağ qalsam sənin üçün elə dəyirman düzəldəcəyəm ki, Məğribə və Məşriqə səs salsın. O iki nəfər bir-birindən ayrıldıqdan sonra xəlifə dedi: Bu qul məni təhdid etdi. Bu hadisədən üç gün kecməmişdi ki,Firuz öz təhdidini əməli etdi.[2]

Sübh vaxtı xəlifə məsciddə namaz qılmaq istərkən Firuz ona hücüm cəkib qarnından xəncəl ilə necə zərbə vurdu.Göbəyinin altından dəyən zərbə xəlifənin ölümünə səbəb oldu.Deyirlər Firuz Ömərin arxasında dayanan Kəlib bin Bəkir Leysi və necə nəfəri öldürüb qacdı.Amma İraqdan olan bir nəfər onun üstünü palaz atıb tutdu.[3]Xəlifə bu hadisədən sonra üç gündən artıq yaşamadı.O Hicri –Qəməri ilinin 23 çü ili Zihiccə ayının axırı öldü.O öləndə 62 dən çox yaşı var idi.

## Canişini təyin etmə planı.

Xəlifə Əbu Lölöün vurduğu zərbədən sağalmayacağına əmin olduqda özünə canişin təyin etmək üçün vəsiyyət etmək fikrinə düşdü.O yataqda olarkən hər an təzə söz danışırdı.O ya əfsuz edirdi ki, Əbu Ubeydə,Müaz bin Cəbər və Salim Mövla əbi Hüzeyfə sağ deyillər ki, onlardan birini özümə canişin secim.Çünki onların hər birisinin barəsində Peyğəmbərdən(s) eşitmişdi ki,bu da onların rəhbərliyinə ləyaqətli olmalarını gösdərir.O deyirdi: Rəsulullah(s) Əbu Übeydə haqqında buyurmuşdur:O, bu ümmətin əmin adamıdır.Salim barəsində də buyurmuşdur: O Allahı çox sevir və Müaz da öz dinində möhkəmdir.[4] Bəzi vaxtlar isə ətrafında ki, insanları yaxşı tanimaq üçün xilafət məsələri haqqında onların rəyini öyrənirdi.Bundan məqsəd gələcək planların ən yaxşı tərzdə ölcülməsi və müəyyənləşdirilməsi idi.Birinci günlər belə güman edilirdi ki, öz canişinini haqqında iki yol ayrıcında idi.[5]Deyirdi:Əgər hər

---

[1] Məsudi yazır Muğeyrə bu xaişi məktub vasitəsi ilə etdi.("Mürucuz- Zəhəb,1 ci cild,səh 677)

[2] "Tarixü –əl- Üməmü- vəl Müluk",3 cü cild,səh 263.

[3] "Nəhayətül-Ərb",4 ci cild,səh 315,Tarixi –İslam,Məhəmməd Fəyyaz,səh 254.Əbu Lölöün Məshəbi və onun ölümü haqqında şiə və sunni tətqiqatcilarının arasında fikir ayrılığı vardır.Həqiqətə uyğun olan budur ki,o çox dərrakəli müsəlman olduğuna görə hökümət məmurlarının elindən qaca bildi.

[4] Mərhum Əllamə Əmini yazır: Necə olur ki, o üç nəfərin fəziləti və rəhbərliyi üçün bir hədis kifayət edir ancaq Həzrət Əlinin(ə) fəzilətinin barəsində olan minlərlə hədis kifayət etmir.("Əl- Qədir",5 ci cild,səh361.)

[5] "Tarixi-Fəxri",səh 131.

hansı bir şəxsi öz canişinim edərəmsə məndən yaxşısı(Əbu Bəkr) belə etmişdir.Amma əgər heç bir canişin təyin etməsəm yenədə məndən yaxşısı( Allahın Rəsulu) canişin təyin etməmişdir.Mən Allahın istədiyinə müştaqam.Çox istiyərdim xilafətdən xilas olum ki, nə ondan bəhrələnim və nə də ziyan görüm.[1]Bu zamana qədər xəlifənin danışıqları rəmzli və təəccübli idi.O bir cümləsində Həzrət Əli ibn Əbi Talibə işarə edərək deyir: Əgər bu kişini rəhbər secsəniz sizi düz yola hidayət edəcək. Amma Əbu Ubeydənin,Müazın və Salimin adını gətirməklə onların ölüsünü Həzrət Əlinin diriliyinə üstün tuturdu.Onun dedikləri ən azından rəhbərin secilməsində olan ölcüləri bir- birinə vurdu(diqqət et) bundan sonra bir- birinə zidd nəzər verməklə doğru yolu secmək xalq üçün çətin idi.Nəticədə o bildirmədi ki, xəlifənin secməsində düz üsul hansıdır! Xilafət məsələsi əgər Peyğəmbərin(s) nəzərinə əsaslanırsa bəz nə üçün o həzrət bu haqda öz nəzərini bəyan etməmişdi və ümməti xəlifəsiz qoymuşdu?! Amma əgər bu məsələdə müsəlmanların ümumi rəyi ölcü olarsa,Ömərin Əbu Bəkr tərəfindən secilməsi necə mənalandırılır?!Peyğəmbər(s) in sunnə və əqidəsi xəlifə təyin etməmək idisə hansı səbəbdən Ömər və eləcəd birinci xəlifə canişin təyin etdilər?!Əgər Əli(ə) insanları düz yola hidayət edirsə və xəlifə onu xilafətə secmə hüququna malik idisə, hansı səbədən onun rəhbərliyini qəbul etmədi?! O nəhayət elə bir plan irəli sürdiki hər kəs olsa başa düşərdi ki,Əli ibn Əbi Talib rəhbər olmayacaq və əgər təyin olunmuş rəhbərlə müxalifət etmək istəsə öldürülsün.Xəlifə Əbu Təlhə Ənsarini yanına cağırıb dedi:Ənsardan əlli nəfərini sec və bu altı nəfəri ( Həzrət Əli(ə),Osman,Təlhə,Zübeyr,Əbdülrəhman ibn Ouf) bir yere topla və siz sirilmiş qılınclarla o yerde dayanın.Onlara üç gün möhlət ver ki, öz aralarında məşvərət aparıb bir nəfəri secsinlər.Əgər beş nəfər bir fikirdə olsalar o biri bir nəfər müxalifətcilik etsə onun boynunu vur.Əgər dörd nəfər bir fikirdə olsalar,iki nəfər müxalifətcilik etsə o iki nəfərin boynunu vur.Əgər üç nəfərlik iki dəstəyə bölünsələr,əsil secilmiş təyin olana qədər oğlum Abdullah secdiyi qrupa haqq verilsin.Abdullahın öz rəyi yoxdu ancaq bu işə nəzarət edə bilər ki, qruplar bərabər olan surətdə qrupdan birinin yanında olsun.Əgər Abdullanın qəzavətinə razı olmasalar Əbdulrəhman olan qrupun dediklərinə əməl olunsun və o üç nəfər əgər müxalifətcilik etsələr öldürün.Amma əgər üç gün kecsə bir nəfəri secməsələr hər üç nüfəri öldür və müsəlmanları öz ixtiyarına burax ki özləri kimi istəyirlər xəlifə etsinlər.[2] Xəlifədən soruşanda ki, niyə görə öz oğlunu canişinliyə təyin etmir, deyir:İstəmirəm öz ailəmdən bir kəs xilafətdən bəhrələnsin.Bundan əlavə mənim oğlum hətta öz arvadını boşamaqdan belə acizdir, o ki qalsın müsəlmanların rəhbərliyi.[3]

---

[1] "Əl- imamətu və Siyasət",1 ci cild,səh 22; "Şərhi Nəhcül Bəlağə",İbn Əbil Hədid,2 çi cild,səh 580;"Əl - İğdül- Fərid",4 çi cild,səh 278;"Siyahtərin – Həfteyi Tarix",səh 440

[2] Tarixu- əl- Üməmu vəl Müluk,3 ci cild,səh 192.

[3] Yenə orada,Nəhayətül-Ərb 4 ci cild,səh 319.

## Xilafət şurası məsələsinin müxtəlif cəhətləri.

Xəlifənin həyatı siyasi baxışlar və görüşlərlə zəngindin və əgər Əbu Bəkrin Səqifəyə və Fədək məsələsində ki,çıxışlarını və bacarığını gösdərirsə ikinci xəlifənin altı nəfərlik şuranı yaratmağında onun yüksək siayası baxışlara malik olmasını bildirir.Hər zaman o planın müxtəlif cəhətləri araşdırılsa o zaman aydın olacaq ki,Ömər ibn Xəttab nə qədər carə axtaran,ölcüb bicən və siyasətə tanışlığı var idi.Onun ətrafında dərrakəli adamlarda bilirdilə ki,neyə görə xəlifə belə bir plan təşəqqüsü irəli sürmüşdü.Bundan əlavə yalnız zaman onun işlərini açıqladı.Gələcək gödərdi ki, xəlifə hansı cəhətləri nəzərdə tutmuşdur və onun vəsiyyəti hansı işlərdə öz təsirini qoydu.O altı nəfərin hər biri öz qəbiləsinin rəisi və nümayəndəsi olmaqla yanaşı xüsusi mövqeyə malik idilər:

1.Əli bin Əbi Talib(ə) Bəni Haşim tayfasından

2.Osman bin Əffan( Bəni Ümüyyə)

3.Əbdülrəhman bin Ouf*(Bəni Zöhrə)

4.Səd ibn Əbi Vəqqas ( atası tərəfdən Bəni Zöhrə tayfası ilə,anası tərəfdən Bəni Ümeyye tayfası ilə qohum idi).

5.Təlhə bin Übeydullah** ( Bəni Təym)

6.Zübeyr bin Əvvan***(Rəsulullahın(s) bibisi Səfiyyənin oğlu və Əbu Bəkrin qızı Əsmanın Əri).

Əvvəl bilmək lazımdır ki,bunların bir-biri ilə qahumluq və əqidə əlaqələri necədir!Səd bin Əbi Vaqqas Əbdülrəhmanın əmisi oğludur və ikisi Bəni Zöhrə tayfasındandırlar.Sədin qəlbində illər boyu Əli(ə) kinəsi var idi.Çünki Əbdüşəms qəbiləsindən olan dayıları onun əli ilə öldürülmüşdür.[1]Bu kinə əlli ildən çox davam etdi və onun oğlu (Əmr bin Səd) İmam Hüseyn(ə) əleyhinə ordu hazırlayıb və dedilər:Ey Hüseyn(ə) özün haqqında söylədiyin bütün fəzilətlərdən melumatımız var.Ancaq atan Əli(ə)- dən qəlbimizdə olan kinəyə görə seninlə müharibə edəcəyik... və sizin cənazələrinizin üstündə at capacayıq. Xilafət şurasının başqa bir üzvü olan

---

* Əbdülrəhman bin Ouf Qürəşi Zühəri anası Şəfa Ouf bin Əbdü bin Hərəs bin Zöhrənin qızıdı.Amulfil on il qabaq dünyaya gəldi.Əvvəl Həbəşəyə sonta isə Mədiynəyə müraciət etdi.Hicri- Qəməri ilinin 31 ya 32 ci ili Mədinədə öldü və Bəqi qəbristanlığında dəfn olundu.("Əl- İstiab",2 ci cild,səh 385-390; "Üstül qabə",3 çi cild,səh 313-317;"Əl – İsabə" 2 ci cild,səh 408-410;Abdullah bin Səba,səh 345)Ömər bin Xəttab öləndə Əbdüllrəhmanın təqribən 65 yaşı var idi.

* * Əbu Məhəmməd Təlhə bin Ubüydullah Təyimi anası Fəzrıminin qızı Söbə Yəmən əhlindəndir.Ühüd müharibəsində iştirak etmişdir.Elə həmin müharibədə barmaqları yaralanıb iflic oldu.Rəsulullah(s) onu Zübeyr ilə qardaş etmişdir.("Ət- Təbaqatü Əl Kübra",3 ci cild,1 ci fəsl,səh 156 və 159;"Əl- İsabə",3 ci cild , 1 ci fəsl,səh 293; "Mürucüz –Zəhəb",2 ci cild,səh 11;"Təfsiru- Dəməşqi- Tarix" 7 ci cild,səh 84; Əl Bidayəti –Vən – Nəhayə",7 ci cild,səh 247;Ənsabül Əşraf,5 ci cild,səh 44-90) Təlhə 60 ya 65 yaşında cəməl müharibəsində Mərvan bin Həkəmin Zəhərli oxu ilə öldürüldü.(Afərineş və Tarix,5 ci cild,səh 88)

*** Zubeyr bin Əvvan Qurəşi Əsədi səkkiz ya on iki yaşında müsəlman oldu.Ühüd müharibəsində Peyğəmbərdən (s) çox himayə edirdi və Əli(ə)-ın xilafətinə qədər Əhli- beyti sevirdi.Ancaq axırda İmamın əleyhinə qoşun yürütdü.İmamın vəsiyyəti ilə Cəməl müharibəsindən qacdı.Ancaq Əmr bin Cərmuz Təmimi onun ardınca düşdü və müharibədən kənar yerdə onu öldürdü.(Hicri Qəmərinin 36 ci ili)Zübeyr bin Əvvannın o zaman 67 yaşı var idi.("Ət – Təbəqatül Kübra",3 ci cild,1 ci fəsl,səh 77; "Əl İqdül Fərid",3 cü cild,səh 92-109;mürucuz- zəhəb ,2 ci cild.səh 5- 11).Atası Ümmül Möminin Xədicənin(ə) qardaşı Əvvan ibn Xuvəylid bin Əsəd Fütcar müharibəsində öldürüldü (Afireneş və tarix,5 ci cild,səh 88.)

[1] "Şərhü Nəhcül Bəlağə", Mühəmməd Əbdüh,1 ci cild,səh 34.

Təlhə Əli(ə)-mın qədim düşməni, Osmanın zahiri dostu və Əbu Bəkrin əmisi oğlu idi.Bədr müharibəsində atası Əli(ə)-ın əli ilə öldürüldü.Əbu bəkrin xilafətindən sonra onun qəbiləsi ilə (Bəni Təym) və Bəni Haşimin əlaqələri pozulmağa başladı[1].İmam Əli(ə) bu şuranın üzvlərinin siyasi və qəbilə daxili görünüşləri barədə buyurur: Şuranın üzvlərindən olan bir nəfər mənə qarşı olan kinəsinə görə məndən üz döndərdi.[2]Əbdülrəhman bin Ouf ( Osmanın bacısı əri) Bəni Zöhrə tayfasındandır və Bəni Haşim tayfasının qatı düşməni idilər.Xilafət şurasının planı bir sıra tədbirlərlə yanaşıdır.

1.Gizli tədbirlər elə xeyirxahlıqla təqdim olundu ki,yalnız agah insanlar onun dərinliklərindən xəbərdar idilər.

2.Xəlifə öz planının müxtəlif məqamlarını digərlərindən daha yaxşı tərzdə bilsədə bu layihə ilə kimin xəlifə olacağını əvvəlcədən müəyyənləşdirsə də,xəlifənin adını elam etməkdən və bir sıra məsuliyyətləri ona tapşırmaqdan imtina etdi.Xəlifənin bu işdən bir sıra məqsədləri var idi:

a) Xəlifənin canişini olacaq şəxsin qaranlıq olduğundan xəlifə onu səhfləri qarşısında hec bir məsuliyyət daşımırdı.Bu səhflərin məshuliyyəti müsəlmanların və şura üzvlərinin üzərinə düşürdü.O plana əsasən Osmanın xilafətə catması müsəlmanların baxışı ilə bir növ ümumi seçki düşünülürdü.Belə ki, xəlifə elm sahiblərini seçib və onlarda xalqın nümayəndəliyi ilə öz üstün adamını secsinlər.Elə ona görə Osman secildikdən sonra hec kim onunla müxalifətcilik etmədi.

b)Xəlifə ilə onun əlbir olma ehtimalı aradan qalxır.Xəlifə öz xilafətinin hökmünü Əbu Bəkr tərəfindən Osmanın səyi ilə və onun əli ilə almışdır.Bəziləri dəfələrlə Xəlifəyə və Osmana tənə vururdular ki, nəhayət xəlifə rəhbərliyi Osmanın kecmiş səylərini mükafatı olaraq ona verecek.Buna əsasən hiləgərlik tələb edirdi ki, Osmanın adını aparmasın.

v)Xəlifənin canişini onun acıq aşkar hökmü olmadan seçildiyinə görə xəlifə Həzrət Əli(ə)ın haqqının tapdalanmasına görə ittiham olnurdu.

Dəlillər və sübutlar göstərir ki, ikinci xəlifə ancaq Osmanın rəhbərliyinə üstünlük verirdi.

a)Ömərin Osmanla rəftarı on illil xilafətində elə bir səviyyədə idi ki, bütün xalq onu islam məmləkətinin ikinci şəxsi kimi tanıyırdılar[3].

b)"Əl-Riyazun- Nəzərə" kitabının müəllifi yazır: Ömərin oğlu Abdulla deyir: Atam yaralanan zaman ona dedim: Ey Əmirül möminin! Nə olardı ki, bir şəxsi bu xalqın rəhbərliyi üçün öz yerinə secəydin!Atam dedi:Məni tanıyın...sonra dedi: والذی
نفس عمر بیده لاردنها الی الذی دفعها الی اول مرة

Allha and olsun ki,Ömərin canı onun əlindədir.Rəhbərliyi o adama verəcəyəm ki,əvvəl onun məshuliyyətini mənə tapşırdı[4].

v)Həcc miqatlarının* birin də xlifədən(Ömər) soruşdulara ki, səndən sonraki xəlifə kimdir?O dedi:Osman[2]

---

[1] Yenə orada
[2] "Şərhu Nəhcül Bəlağə",İbn Əbil hədid,1 ci cild,səh 187
[3] "İmam Şenasi",8 ci cild, səh 227; "Əl -Üməmü vəl Müluk",3 ci cild səh 2.
[4] "Əl- Riyazun-Nəzərə",2 ci dild,səh 74 (2 ci cap,səh 182)

q)Abbas(Peyğəmbərin əmisi)xilafət şurasının planını eşidən kimi dərhal İmam Əli(ə) yə dedi:Onlar bu planı elə cızıblar ki,Osman xilafətə catsın.[1]

ğ)Ət-Təbaqətül Kübra kitabının müəllifi yazır:Səd bin As Əməvi deyir: Bir gün ikinci xəlifədən evimi genişləndirmək ücün evimin yanında yer istədim... Sübh namazından sonra xəlifənin göstərişi ilə onun yanına getdim və onunla istədiyim yerə getdik.O ayağı ilə yerin üstünə bir xətt cekərək dedi:Buna sənin olsun! Ona dedim:Ey Əmirəl Möminin mənim külfətin çoxdur bir az artıq verin.O dedi:İndi bu bir parca yer senin üchün kifayət edər,ancaq sənə bir sirr acacağam ki,hec kimə deməyəsən!Məndən sonra elə bir adam xilafətə gələcək ki, qohumluq əlaqələrini nəzərə alaraq sənə hörmət edəcək və sənin bütün ehtiyaclarını ödəyəcək.Mən Ömər bin Xəttabın xilafəti zamanından Osman xilafətə catana qədər gözlədim və o Ömərin dediyi kimi mənimlə davrandı[1].

3.Əli bin Əbi Talibi xilafətdən uzaqlaşdırmaq: Yəqubi yazır:

Xəlifə ömrünün axır illərində xilafət canişinliyi haqqında bəzi admlardan nəzər alarkən İbn Abbasdan soruşdu:O neçə nəfərdən başqa Əli(ə)ni xilafətə layiq bilirsənmi?O, dedi:O keçmişi ilə,fəziləti,Peyğəmbərlə(s) qohumluğu və zəngin elmi ilə niye layiq olmasın!Ömər dedi:Allaha and olsun o,sən dediyin kimidir.O əgər xalqa hakimiyyət etsə onları düz yola hidayət edər və düz yolu gedər.Amma onun bəzi xasiyyətləri var!(onun xilafətdən uzaqlaşdırır).Xalq arasında zarafat edir və öz rəyinə söykənib xalqa etinasızlıq edir,bir halda ki,o cavandır.Ona dedim:Niyə görə Xəndəq müharibəsində onu az yaşlı saymırdınız,Əmr bin Əbdəvüd önə cixanda dilavərləri qaorxutdu və yaşlılar onunla üzbəüz olmaqdan cəkindilər!Bədr müharibəsində də düşmənlərin başını bədənindən ayıran zaman... və nəyə görə islamı qəbul edən zaman ondan qabağa düşmədiniz!Ömər dedi: Allaha and olsun əmin oğlu Əli(ə) xilafətə bütün xalqdan daha layiqdir.Amma Qüreyş onu fərmanına qulaq asmayacaqlar.O,xalqa hökimət etsə belə gərək onları düz yolu getməkdə elə məcbur etsin ki, qacan yerləri olmasın .Əlbəttə belə olan təqdirdə onun beyəti sındırılacaq və o vaxt onunla vuruşacaqlar[1].

Ömərin Həzrət Əli(ə) da eyib axtarmağında diqqət etsək bu danışıqlardan yaxşı aydın olur ki, Ömər öz planının çızılışında Əli(ə)ı rəhbər etmək istəmirdi.İmam Əli(ə) bu məsələni tam aydınlıqla acıqlamışdır.Bəziləri deyirlər:Ömərin Həzrət Əli(ə)ı secməməkdə məqsədi bu idiki, çünki o bilirdi xalq Əli(ə)-ın rəhbərliyini qəbul etməyəcəklər və xəlifə olan təqdirdə onunla vuruşacalar.Necəki Siffəyn,Cəməl və Nəhravan müharibələri baş verdi.Buna cavab olaraq qeyd etmək lazımdır ki,əgər Rəsulullahın(s) vəfatından sonra xalq Həzrət Əli(ə)-a itaət edib qulaq assaydılar Cəməl kimi xoşagəlməz hadisələr baş verməzdi.Peyğəmbərin(s) vəfatından sonrakı

---

[*] Həcc əməllərini yerinə yetirmək üçün ehram baqlanılan yer(müt).

[2] Yenə orada,3 ci cild,səh 12, 2 ci cap,səh 66; "Kənzül-Ümmal",3 ci cild səh 158;"Əl –İmamə vəs Siyasə",səh 9;Misir capı Qəmərinin 1328.

[1] "Əl-Bidayətu vən- Nəhayə",7 ci cild,səh 146;"Şərhü Nəhcul Bəlağə,İbn Əbil Hədid,1 ci cild,səh 199;"Əl- İqdül-Fərid",2 ci cild səh 279.İbn Abbas da atasına deyir:Çox yaxşı aydındır ki,xəlifə istəyir Osman rəhbərliyi Əlinə alsın("Şərhu Nəhcül-Bəlağə", İbn Əbil Hədid,13 ci cild səh 93).

[1] "Ət-Təbəqat",5 ci cild, səh 20-22,

[1] "Tarixi- Yəqubi", 2 ci cild,səh 48-49

əvvəl günlərdə hətta necə illər sonra xalq elədə Peyğəmbərin(s) sünnəsindən uzaqlaşmamışdılar. Amma Osmandan sonra və xəlifələrin siyasi üslublarının Peyğəmbərin(s) sünnəsi ilə bərabərlişdikdən sonra,xalq elə bir üsluba adət etdilər ki,Əli(ə)-ın üslubu ilə düz gəlmirdi.Bu müvafiq olmayan amillləridə Peyğəmbərdən sonrakı rəhbərlər vücuda gətirdilər.İmam Əli(ə)-ın əmisi Abbasla danışıqda buyurur:Bilirəm ki,onlar elə bir üsul seciblər ki,rəhbərliyi bizden başqa yana yönəltdinlər.Abbas deyir:Siz necə onların planlarından agah oldunuz? İmam buyurur:Ömər məni Osmanla bərabər tutaraq dedi:Çoxluq təşkil edən qrup ilə olun.Əgər iki nəfər bir nəfəri secsə və iki nəfər başqa birni o iki nəfərki Əbdülrəhman onların yanındadır onlarla olun.Səd əmisi oğlu Əbdulrəhmanın istədiyi şeyi istəyir.Əbdülrəhman da Osmanın yeznəsidir[1].Nəticədə bu üç nəfər birlikdə olacaqlar.Belə olan təqdirdə iş iki haldan xaric deyil.Ya Əbdülrəhman Osmana rəy verəcək ya da Osman Əbdülrəhmana meyilli olacaq.Başqa iki nəfər mənimlə olsalar belə yenə xeyri yoxdur ki, o ki,qalmışdı mən onların birinə (Zübeyr)ümüd bəsləyəm[2].Abbas Həzrət Əli(ə)-a deyir onlarla getmə:Həzrət Əli(ə)buyurur:Müxalifətcilikdən xoşum gəlmir... O cənab başqa bir yerdə buyurur:Mən bilirəm ki,xilafəti Osmana verəcəklər və bilirəm ki,ondan sonra bidətlər və necə hadisələr baş verəcək əgər sağ qalsam sizədeyecəyəm.O (Osman) əgər ölsə ya öldürülsə xilafəti Bəni Üməyyə arasında əldən ələ ötürəcəklər[3].İşin nətcəsində məlumatın olaola şuraya qatılıram.Çünki Ömər bu fərmanla məni xilafətə layiq görmüşdür.O bundan qabaq deyirdi:Rəsulullah(s) demişdir: Nüdüvvət və xilafət bir ailədə cəm olmaz.Buna görədə mən o şurada iştirak edəcəyəm ki,xalqa aydınlaşdırım ki,Ömərin etdiyi iş o söylədiyi rəvayətlər bir-birinə ziddir.[1]

4.O altı nəfəri namizəd etmək və ancaq bir nəfərin secilməsi bir tərəfdən onların razılığını əldə etdi və onların ictimai fəaliyətini və siyasi səhnədə qalmaq imkanını genişləndirdi və elə o qədərdə onların acıq siyasi fəza olmamaq bəhanəsini aradan aparır və başqa tərəfdən onlardan müxalifətcilik və üsyan etməməyi tələb edirdilər.Onlardan hər biri şurada iştirak etsəydilər nəticə etibari ilə rəy gətirə bilməyəcəkdilər və gərək təzə hökiməti və secilmiş xəlifəni müxalifətcilik etmədən rəsmiyyətlə tanısınla.Belə olan surətdə onlar secki namizədlərinə bənziyirlər,beləki bir qalib gəlir,o biri məğlub olur və etiraz etmədən gərək kənara getsin.

---

[1] Əbdülrəhmanın arvadı Ümmü-Külsüm, Osmanın anadan bir olan bacısıdır.("Ət-Təbəqatül –Kübra",8 ci cild,səh 229.)

2 "Təcaribül-Üməm",1 ci cild,səh 382;"Ənsabül-Əşraf",5 ci cild,səh 19;"Əl-İqdül Fərid",4 ci cild,səh 276

[3] ("Nəhayətul-Ərb",4ci cild,səh 320)Başqa bir rəvayətə görə İmam buyurdu:Xoşum gəlmir ixtilaf qabağa gəlsin ("Şərhu Nəhcül-Bəlağə",İbn Əbil Hədid,1 ci cild,səh 191;"Tarixi Əl Üməmu vəl Müluk",2 ci cild.səh 581).

[1] "Min Hacül Bəraə","Qütbuddin ravəndi",1 ci cild səh 194,"Əl Bidayətu vən – Nəhayə" 1 ci cild,səh 145.Bu rəvayətlərdən belə başa düşülir ki, xəlifə bu sözü Rəsullulahdan olduğunu iddia edir.Halbuki Ömərin kitablarda yazılmış məhşur cümləsi belədir:O Peyğəmbərə istinad etmədən deyir.Xalq nübüvvətlə xilafətin bir ailədə cəm olmasını sevmirlər("Şərhi Nəhcül Bəlağə",1 ci cild,səh 189

## Bir- biri ilə zidd olan məsələlər.

Altı nəfərlik şuranın planı bir – biri ilə zidd olan məsələlərlə dolu idi və burada onların ən muhümünə işarə edirik.

1.Ömərin xilafətlik dövründə müsəlmanların bir dəsdəsi Ömərin seçim üsuluna və həmçinin ondan qabaq ki, xəlifəyə eyib tutdular.Ömər öz ümumi çıxışında dedi: Bu nə sözdür ki, bəzilərindən eşidirəm ki, deyirlər:Əgər xəlifə ölsə biz filankəsdən beyət edəcəyik! Bilin hər kəs bir müsəlmanın məşvərəti olmadan bir kəslə beyət etsə həm özü və həm də beyət olunan şəxs öldürüləcəkdir[1].Görəsən xəlifə şuranı təşkil edən gün öz sözünü yadından çixarmışdımı? Ya özünü o qanundan kənar sayırdımı? Necə olur ki, birinci xəlifə bir müsəlmanın məşvərəti olmadan xilafəti Ömərə tapşırır[2] amma hec birinin ölüm hökmü sadir olmur? Şuranın təşkilinə vəsiyyət etmək müsəlmanların secim haqqını kobudcasına pozmaq deyilmi? O öz vəsiyyətində secim haqqını müsəlmanlara tapşırır ki, o altı nəfərin arasında hec vaxt bir nəfər secilməsin və özi bilirdi ki,şuranın məsələsi o yerə catmayacaq.Çünki müxtəlif tədbirlələ planı elə cəkmişdi ki, hec vaxt xəlifəni secmək məsələdi müsəlmanlara capşırılmasın.

2.Bizə aydındır ki, hec bir tarixci yazmamışdır ki, bir kəs o vəsiyyətdən sonra xəlifəyə eyib tutsun.Sübutlar onu gösdərir ki, xəlifənin heybəti və qəzəbli rəftarı,xüsusilə ömrünə üç gün qalmış o yerə catmışdır ki, hec kəs cürət etmirdi ki,ona etiraz etsin.Belə olmadıqda yeri var ondan soruşalar ki,nəyə görə o üç nəfərlik dəsdənin nəzəriniki,Əbdülrəhman onların arasındadır,başqa üç nəfətlik dəstəyə üstün verir? Nəyə görə işin ixtiyarını əvvəldən Əbdülrəhmana vermədi?Xəlifə o altı nəfərin hansını xilafətə layiqli görürdü.Əbu Bəkr kimi adam deyəndə ki,Allaha deyəcəyəm bu ümmətin ən yaxşı adamını onlar üçün xəlifə etdim, nəyə görə Ömər şuranın ən yaxşısını müəyyən etmədi?Nə əsasla onun haqqı var idi ki, Əbdülrəhman bin Ouf Peyğəmbərin kürəkininə və əmisi oğlundan üstün tutsun?Əgər Həzrət Əli(ə)-ın Əbu Bəkrə üstünlüyündə müsəlmanların ixtilafı var idisə,amma hec vaxt onun Əbdülrəhman bin Oufdan üstünlüyünə şübhə etmirdilər. Yüz illərlə tarixin yazılışı xəlifələrin əlində olduğuna baxmayaraq,bu zamana qədər hec bir tarix kitablarında bir dənədə olsun bir tədqiqatçının adını görməzsən ki,Əbdülrəhman bin Ouf ücün Həzrət Əli(ə)-dan ya hətta Zübeyr bin Əvvamdan artıq fəzilətlər yazsınlar.Halbuki şuranın planı elə qurulmuşdur ki,həqiqətdə Əbdülrəhman bin Oufun iki rəyi olsun.Çünki o hər hansı dəstəyə meyl göstərsəydi o tərəf üstünlük təşkil verirdi və o üc nəfərin rəyi ki,Əbdülrəhman bin Ouf onların arasında idi nəticə olaraq tanınırdı.O yaxşı bilirdi ki,o dəsdənin qalibi Osman idi.Elə buna görə Əbdülrəhmanı səhnənin aparıcı qüvvəsi kimi təyin etdi ki, cızılmış planın sirri gizli qalsın[3]və hec kəs xəlifəni iddiham etməsin ki, o elə əvvəldən Osmanın xəlifəliyinə rəy vermişdi.Öncədən də oxuduq ki, Əbu Bəkr ölüm ayaqında olanda da ancaq

[1] "Səhihi-Buxari",8 ci cild,səh 208.

[2] O nəinki müsəlmanlarla məşvərət etmədi, Öməri xilafətə təyin edəndə müsəlmanların etirazına etinad etmədi ("Tarixü Əl Üməmu vəl Muluk",3 ci cild,səh 428)

[3] Əbdülrəhmanla şura üzvlərinin danışıqlarını mütaliə etsək planın gizli sirrini bilərik.

Əbdülrəhman və Osman Əbu Bəkr ilə məşvirət edirdilər.Ömərdə ölüm ayağında olanda bu iki nəfərlə danışıqlar aprırdı.Çox təəccüblüdür ki,xəlifə müsəlmanların rəhbərinin secimini elə adama tapşırır ki,özü onu məzəmmət edəndə deyirdi: Sən çox zəif iradəli adamsan, sən hətta ailəni idarə etməkdən acirsən[1].

3.Xəlifə şuranın üzvlərini yanına cağıraraq əvvəl dedi:Sizləri ona görə secdim ki,Allahın Rəsulu vəfat edəndə sizlərdən razı idi.Sonra onların hər birini bəzi eyiblərinə görə məzəmmət etdi.Həqiqətdə o eyiblər ki,bu beş nəfər üçün sadaladı xüsusi ilədə o eyibləri ki,Osmana dedi islam ümmətinə ən böyük təhqir idi ki, belə bir şəxs ümmətə rəhbərlik edirdi.Xəlifə o altı nəfərin eyiblərini acıq surətdə deyirdi[2].O Təlhəyə dedi:Sən o adamsan ki,hicab[3] ayəsi nazil olanda sən dedin:Nə eybi var bu gün Peyğəmbərin(s) arvadları pərdə arxasındadırlar hər zaman Peyğəmbər(s) dünyadan getsə biz onun arvadları ilə evlənərik.Elə sənin bu sözlərivə görə Peyğəmbər(s) narahat oldu və bu ayə nazil oldu. و ما كان لكم ان توذوا رسول الله و لا ان تنكحوا ازواجه من بعده ابدا

"Sizin hec birinizin haqqı yoxdur Peyğəmbəri incidəsiz və peyğəmbər vəfat edəndən sonra hec vaxt onun arvadları ilə evlənə bilməzsiniz":Peyğəmbər vəfat edəndə elə o sözlərinə görə səndən incimişdir[4].

Amma sən ey Zübeyr:And olsun Allaha sənin qəlbin bir gecə gündüz qədər mehriban deyil.Bir gün qəlbin qəzəbli,başqa gün momin və başqa gün kafir olursan.Bir kəsdən razi olsan ona inamın olacaq,əgər narazı olsan ona qarşı kafir olacaqsan.Bir gün insansan,bir gün şeytansan.

Amma sən ey Səd:Sən çox təkəbbürlü, təəssüblü və təxribatçısan.Sən ancaq müharibə və qırğına yarıyırsan.Əgər bir kəndin rəisi olsan onu idarə etməkdə acizsən.

Amma ey Əli! Sənin əgər zarafatcil təbiətin olmasaydı məmləkətin idarəciliyində qəzəbli olsaydında xilafətə layiqli idin.Allaha and olsun sənin imanını bütün yer üzünün iman əhli ilə müqayisə etsələr sənin imanın hamıdan çoxdur.

Sən ey Əbdülrəhman:Sən zəif iradəli və bacarıqsız bir adamsan.Sən öz ailəni idarə etməkdə acizsən[5].Sonra Osmana üzünü tutdu və dedi:Əgər xilafətə catsan Əbi Muitin övladlarını xalqa müsəllət edəcəksən.Belə olan halda səni öldürəcəklər.O vaxt

---

[1] "Ənsabul-Əl Əşraf",5 ci cild,səh16.

[2] "Tarixi-Əl Üməmü vəl Muluk" 5 ci cild,səh 25;"Əl Kamilu fit Tarix"3 ci cild,səh 125;Əl İmamə vəs Siyasə,səh 23-24(Misir capı 1328)"Təcaribül Üməm",1 ci cild, səh 263 ; "Tarixi Yəqubi", 2 ci cild,səh 158-160.Ömərin o altı nəfərə dediyi sözlər şiə və sünni tarixlərində fərqli şəkildə nəql olunmuşdur.Xüsusi ilədə Osmana dediyi cümlə çox ayıq və təhqir edicidir və sünni mənbələrinin çoxunda yazılmamışdır.Amma İbn Əbil Hədid onu belə nəql etmişdir.و اما انت يا عثمان فوالله لروثة (سرجين الفرس) خير منك

(Atın peyini səndən yaxşıdır)"Şərhü Nəhcül Bəlağə",12 ci cild,səh 259.

[3] "Əhzab"surəsi,ayə53.Bu ayədə müsəlmanlara gösdəriş verilmişdir ki, Rəsulullahın(s) arvadlarından bir şey istəsələr,onu pərdə arxasında ondan istəsinlər.

[4] "Şərhü Nəhcül Bəlağə",1 ci cild,səh 185-186.İbn Əsir öz təfsirində yazır:Təlhə deyirdi:Əgər Rəsulullah(s) dünyadan getsə mən Aişə ilə evlənəcəyəm çünki o mənim əmim qızıdır.Hicab ayəsi nazil olduqda o dedi:Nəyə görə Peyğəmbər(s) bizim əmi qızlarımızı bizdən gizlədir və biz qala-qala bizim qız qohumlarımızla evlənir! Əgər onun üçün hadisə qabaqa gəlsə onun xanımları ilə evlənəcəyik ("Ət-Təfsir",3 ci cild,səh 513;"Təfsiri Qirtəbi",14 ci cild,səh 228;"Təfsiri Alusi",22 ci cild,səh 74).Sünni təfsircilərinin çoxu bu ayənin nazil olmasında o sözləri Təlhənin demiş olduğunu bildirirlər.

[5] "Ənsabül-Əşraf",5 ci cild,səh 16.

ümmətin arasında hec bir eybi olmayan insan tapmaq olmazdımı. Salman,Əbuzər,Miqdad və Abbas xəlifənin Osmana verdiyi nisbətdən yaxşı deyildilərmi?!Peyğəmbər(s) onlaqrdan razı deyildimi?Xəlifə Əbu Bəkrdən xilafəti aldıqda hər bir günah və xətadan pak idimi?Bir kəs ondan soruşmadımı ki, nə üçün digərlərini şuranım üzvliyinə qəbul etmədi.Ömər bin Xəttabı islam və ümmət üçün canı yanan şəxs kimi qəbul edən şəxslər bu sualla qarşılaşmalıdırlar ki, hansı səbəbdən Ömər Zübeyr kimi şeytanı və Təlhə kimi müharibə sevən düşməni müsəlmanların rəhbəri etmək fikrində idi?İslam ümmətinin gələcəyini elə bir insana tapşırmaq istəyirdi ki, bir kəndi idarə etməyə və su tuluğunun ağzını saxlamağa qədir deyil?!O sonda ən əsas işi öz ailəsini idarə etməyə qadir olmayan şəxsə tapşırır.Əli bin Əbi Talib və şuranın digər uzvlərinə vacibdirmi ki,su tuluğunun ağzını saxlaya bilməyən şəxsə tabe olsunlar?!Müxalifət etdikdə isə ölümə məhkum olunmalıdırlarmı?!

4.Buna baxmayaraq ki, xəlifə şuranın müşavərəsinin nəticəsindən məlumatlı idi və bilirdi ki,Osman öz qohumlarının iş başına gətirəcək,onlarda islam ümmətinin taleyini öz əllərinə alacaqlar hətta iş o yerə catacaq ki,ümumi üsyan nəticəsində xəlifəni öldürəcəklər.Niyə görə şuranın planını elə cızdı ki,Osman xəlifə secilsin?!O eybə görə ki, xəlifə Əli(ə) ona görə məzəmmət etdi(belə olan təqdirdə)başqalarının eybi ilə müqayisədə elə bir böyük eyib idimi ki,xəlifə öz rəyini Osmanın qələbəsinə cızsın?

5.Çox təəccüblüdir ki,xəlifə sözlərinin əvvəlində deyir:Sizləri ona görə secdim və bura ona görə dəvət etdim ki,Peyğəmbər sizlərin hamınızdan razı idi.Sonra onlardan elə eyiblər tutdu ki,o sözlərlə hec üst- üstə düşmür.

6.Xəlifə axırda Əbu Təlhə Ənsariyə deyir:Əgər bu altı nəfər üç gündən sonra bir nəfəri öz aralarından secməsələr hamsını öldür bir haldaki Peyğəmbər(s) bunların hamsından razı idi xəlifə onlardan birinin ölüm əmrini verir.Öz aralarından bir nəfəri secməmək elə bir günahdırmı ki,onun cəzası ölüm olsun?Qanının tökülməsi caiz olan şəxslər necə müsəlmanların xilafətinə namizəd etmək olar?!Bundan əlavə Əbu Təlhə Ənsarinin özü həmin on dörd nəfərlik Əshabu Əqəbənin arasında idi ki, istiyirdilər Peyğəmbəri(s) teror etsinlər[1].

7.Həzrət Əli(ə) şuranın başqa üzvləri ilə bir araya gətirilməsi xəlifənin düşünülmüş siyasəti idi.Əvvəlcə xəlifə Həzrət Əli(ə)dan tərif və təmcin etdi,beləki hamı elə bilirdi ki,o xilafəti ona tapşıracaq.Amma onu cızdığı plan Həzrət Əli(ə)-ın parlaq kecmişini hecə endirdi və onu elə adamlara tay tutdu ki,kecmişləri yaxşı deyildi[2].İmam Əli(ə) şiqşiqiyyə xütbəsində buyurur:O,(Ömər) ölən zaman bir dəstəni xilafə namizəd etdi.Məni də onların arasına qatdı!İlahi bu neçə şura idi məni birincisindən(Əbu Bəkr) nəyim əksik idi.Öncə məni onunla yan yana qoydular indide bu cəmiyyətin icinə atdılar[3].

---

[1] Bu on dörd nəfərin adı şiə və sünni kitablarında gəlmişdir.

[2] Zubeyrden başqa o birilərinin yaxşı kecmişi yox idi.

[3] "Nəhcül-Bəlağə",3 cu xütbə.

8.Abdullah bin Ömər bu məsələdə nəzarətci rolunu daşıyırdı.Beləki iki dəstənin bərabərliyi təqdirdə,birini dəstəkləməli və secilmiş şəxsin üstünlüyünə hökm etməli idi.Hansı səbəbə görə belə bir məsul iş onun öhdəsinə qayulmuşdur? Halbuki o hətta öz həyat yoldaşına təlaq verməyə qadir deyildi[1].

9.Buna baxmayaraq ki, nəhayət müsəlmanların bir çoxu tezliklə başa düşürlər ki,xəlifə o plana əsasən Osmana üstünlük verirdi.Niyə görə Osmanı məzəmmət edərkəm o cümlələri ona dedi:Hec şübhə yoxdur ki, məsələ onun özü üçün aydın idi.Ona görə Osmanın məzəmmət edərkən ən təhqir edici sözləri ona dedi!Amma nəzərə carpan odur ki,Ömər onu ona görə bu qədər sındırdı ki, hec kim ehtimal verməsin ki,xəlifənin planı Osmanı secməkdir.Çünki müsəlmalar öz-özlüyündə fikirləşirdilər, xəlifə o planla belə bir şəxsi müsəlmanlara rəhbər etməz.Sonralar müsəlmanlar Osmanın hökümətindən narazı oldular.Öməri müqəssir bilmək əvəzinə Əbdülrəhmanı müqəssir bildilər.

## ŞURA ÜZVLƏRININ DANIŞIQLARI.

Ömərin vəfatından sonra Əbdülrəhman bin Ouf üç gün müddətində şuranın üzvləri ilə həm xüsusi həmdə ümumi söhbətlər apardı.Sonra müsəlmanları məscidə tapladı ki,həm mühacirlərin həm də Ənsarın qarşısında danışıqların nətcəsi olaraq onlara öz rəyini desin[2].Əvvəl şuranın üzvlərnə dedi:üsəlmanlar arasında ixtilafın olmaması üçün biz altı nəfərin hər birirnin razılığı ilə bir nəfər aranızdan xəlifə secək.Hər kəs öz rəyini başqasına versə ixtilafın zəmini bir o qədər az olar.Təlhə öz haqqını Osmana verdi.Zübeyrdə öz rəyini Həzrət Əli(ə)-a verdi və Səddə öz rəyini Əbdülrəhmana verdi və bu minimalla altı nəfərlik şura üç nəfərlik oldu və bunlarında hər biri iki rəy sahisi oldular.Əbdülrəhman dedi:ən öz namizədliyimi geri götürürəm.Bu iş onu dörd rəyə sahib cıxmağına səbəb oldu.Çünki iki nəfərlik iki dəstə onun müqabilində idi və o hər kəsə qoşulsaydı onlar dörd nəfər olurdular.Elə bu zaman Əbdülrəhman kinayə ilə şuranı iclasın nəticəsi ilə müxalifət etməməyə cağırdı və zahirdə özünü belə gösdərdi ki,öz xəlifəliyi uğrunda hec bir səy etmir.Osman Həzrət Əli(ə)-a dedi: Yaxşısı budur ki, biz Əbdülrəhmana öz tərəfimizdən vəkil edək və hər nə məsləhət olsa etsin.Əbdülrəhman bu təşəbbüsü çox düzgün saydı və and icdi ki, mənim xilafətdə gözün yoxdur və xilafəti Həzrət Əli(ə) və Osmandan başqasına tapşırmasın.İmam Əli(ə) buyurdu:Müsəlmanların qarşısında söz verki haqqı secəcəksən və öz nəfsinə itaət etməyəcəksən,hec kəsi qohumluğa görə üstün tutmayacaqsan,müsəlmanların məsləhətini nəzərə alasan və ümmətə xeyirxahlığını əsirgəməyəsən [3] . Sonra üzünü Osmana tutdu və buyurdu:Mənim ücün aydındır ki, Əbdülrəhman sənin tərfini tutacaq haqqın və

---

[1] Sünnülərin möhtəbər tarixlərində yazılmışdır: Abdullah bin Ömər Yezidə beyət etməsi üçün Muaviyədən 100 min dirhəm hədiyyə almışdır("Sünənu- Beyhəqi",8 ci cild,səh 159 ;"Əl Bidayətu vən Nihayə",9 ci cild.səh 5;"Hilyətul- Ovliya",1 ci cild,səh 296).O, həmcinin Əbdülməlik Mərvana beyət etdi("Fəthul- Bari",5 ci cild səh 19) və Məkkədə Həccac bin Yusifin namaz camaatında ona iqtida etdi.("Əl- Mühəlla",4 ci cild,səh 213;"Ət-Təbəqatül Kübra",4 cu cild,1ci fəsil,səh 11.)

[2] Əbdülrəhman o üç gün ərzində məsciddə dəfələrlə müsəlmanlarla danışıqlar apardı.

[3]" Nəhayətül-İrb",4 ci cild,səh 322

məsləhətin ziddinə danışacaq ancaq carə yoxdur.Məndə bu şərtlə ki,əgər səninlə qohumluğu nəzərə almaya Allahın razılığını və müsəlmanların məsləhətini nəzərdə tutsa onu hikəmiyyətə*qəbul edirəm.Əbdülrəhman and icdiki Həzrət Əli(ə) neceki dedi əməl edəcək.Sonra Həzət Əli(ə)-a dedi:Mən məsləhət görürəm ki,bütün müsəlmanlar sənə beyət etsinlər amma bu şərtlə ki,səndə Allahın dediyi kimi və Rəsurulullahın(s) sünnəsinə uyğun və Əbu Bəkrin və Ömərin üslubu ilə rəhbər edəsən və mən özümdə səninlə bu şərtlə beyət edirəm ki,Bəni Haşim tayfasından heç kəsi müsəlmanlara hakim etməyəsən.Həzrət Əli(ə) eşitdikdə buyurdu:Bir halda ki, xilafəti mənə tapşırısan haqqın yoxdur bundan artıq dəxalət edəsən.Mən gərək ümmət ücün səy edəm.Hər yerdə və hər kəsi ki,istər Bəni Haşim olsun ya da başqaları istedadlı, əmanətdar və düzgün görsən ondan islamın xeyrinə kömək istiyəcəyəm.Əbdülrəhman dedi:Allaha and olsun bu şərti qəbul etməsən sənin beyət etməyəcəyəm.Həzrət Əli(ə) buyurdu:Allaha and olsun bu şərti qəbul etməyəcəm[1].Mən sizin aranızda ancaq Allahın kitabı və Peyğəmbərin yolu ilə gedə bilərəm.Sonra Əbdülrəhman həmin şərtləri Osman ilə ortaya qoydu və o da hamsını qəbul etdi.Bu şərtlər üç dəfə tkrar oldu.Hər dəfə təkrar olanda Həzrət Əli(ə) bu şərtləri qəbul etmədi.Ancaq Osman qəbul etdi.Bu şərtlər axırıncı dəfə təkrar olanda Həzrət Əli (ə) Əbdülrəhmana buyurdu:Bir haldaki Allahın kitabı və Peyğəmbərin sünnəsi var,hec kimin yolu ilə getməyə ehtiyac yoxdur.Sən bu şərtlərlə istəyirsən xilafəti məndən uzaqlaşdırasan[2].Nəhayət Əbdülrəhman osmanın yanına getdi və onun əlini beyət olaraq sıxdı[3].Həzrət Əli(ə)-dan başqa o kəslər ki,Əbdülrəhman ilə birlikdə idilər hamısı Osman ilə beyət etdilər.Əbdülrəhman dedi:Özünü xətərə salma[4].Əgər beyət etməsən səni Ömərin vəsiyyətinə əsasən öldürəcəyəm.Orada Əbdülrəhmandan başqa hec kimdə qılınc yox idi.Peyğəmbərin kürəkəni qəzəblə bayıra cıxdı və Zübeyrdən başqa bütün şuranın üzvləri onun ardınca getdilər ə dedilər:Əgər beyət etməsən səninlə vuruşacayıq.Həzrət Əli(ə) məsələni belə gördikdə əlacsız qalıb beyət etdi[5].Hec kəs ücün müxalifətcilik etməyin zəmini yox idi.üsəlmanların bir dəsdəsi qabaqa cixdilar və Osmana beyət etdilər və bir dəsdəsidə Əbdülrəhmanı danladılar və Həzrət Əli(ə)–ın fəzilətlərindən danışdılar.Sonra Həzrət Əli(ə) özü danışdı.Şuranın üzvlərini vəoradaki müsəlmanları Allaha and verdi və buyurdu.Sizin aranızda məndən başqa bir adam varmı ki,Peyğəmər onun haqqında buyursun:"Mən hər kəsin ağasıyam,Əli onun ağasıdır"? Orda olan müsəlmanlar dedilər:Yox.Sonra Həzrət Əli(ə) buyurdu: "Sizin aranızda məndən başqa bir adam var ki Peyğəmbər(s) onunla qardaşlıq əqdi oxusun"? Hamsı dedilər:Yox.Bu minvalla onlar Həzrət Əli(ə)-ın qırx fəzilətinə etiraf

---

* Hikəm: İki tərəf arasında olan mübahisəni həll etmək üçün secilmiş adam(müt)

1 "Əl-İmamə vəs- Siyasə",səh 26.

2 "Tarixi Yəqubi",2 ci cild,səh 53.

3 Yenə orada;"Ənsabül-Əşraf",5 ci cild,səh 19-21;"Əl-İqdül Fərid",3 cild ,səh 74-76,"Tarixi Əl-Üməmi vəl Müluk"(tərcümə) 5 ci cild,səh 2794;Nəalimül-Mədrəsətəyni,1 ci cild,səh135,2 ci cap

4 "Tarixi-Əl Ümamu vəl Müluk",2 ci cild,səh 583

5 Ənsabül-Əşraf,5 ci cild,səh 22.

etdilər[1].Buna baxmayaraq ki,bu fəzilətlərin hamsına etiraf edirdilər ancaq Həzrət Əli(ə) beyət etməyə qətiyyət gösdərmirdilər və isdər istəməz Osmanın xəlifəliyini qəbul edirdilər.Həzrət Əli(ə) işi belə gördikdə onlara buyurdu:Siz hamınız bilirsiniz ki, mən xilafət ücün layiqliyəm.Allaha and olsun o vaxta qədər ki,müsəlmanların işi qaydasındadır və xilafətə görə məndən başqa bir kəsə zülm olmaya xilafəti tərk edəcəyəm[2].Hec kəs haqqın dəvətində,qohumlarla əlaqədə  və əli acıqlıqda mənim kimi tanınmamışdır.Bu sözlərimi eşidib və yadınızda saxlayın.Bu yıqıncaqdan sonra tezliklə görəcəksiniz ki,xilafətə görə qılınclar cəkilir və əhdlər sınır,iş o yerə catacaq ki,sizlərdən bəzileriniz yolundan azmız insanların rəhbəri və bəziləriniz nadanlara itaət edəcəksiniz[3].Bizim haqqımız var ki əgər onu versələr alaq,əgər verməsələr dəvələrin üstündə oturaq. Bu gecə uzun sürsə belə.Əgər Peyğəmbər(s) öz haqqını tələb etməkdə bizimlə əhd baqlasaydı onun əhdini yerinə yetirərdik və axır nəfəsə qədər onun uğrunda mübarizə apardıq[4].

## Ədalətsiz qərar.

Əbdülrəhmanın cıxardığı hökmdən bu vaxta qədər yüzlərlə il kecib,ancaq bu barədə hələdə bir necə sual cavabsız qalıb.O sualların bəziləri bunlardır:

1.Əhli Sünnənin əqidəsinə görə o səhabələr ki,Peyğəmbərdən (s) sonra Rəsulullahın caişibnbi olublar,həm hökümət məsələlərində və həm dini məsələlərdə rəy və ictihad sahibi olublar.Onların əməlləri Peyğəmbərin(s) sünnəsi ilə bir nöc ölcü olubdur və onların əməlləri ilə Peyğəmbərin(s) sünnəsi hec  bir fərq olmayıb.Elə ona görədə xəlifəni  bir işi əncam və ya tərk etməsinə görə (bu şərtlə ki, Quranın ziddinə olmayan və müsəlmanlar o işi bəyənsinlər) cəzalandırmırdılar.Beləliklə hər zaman xəlifə özü ücün canişin təyin edəndə əmin idi ki,təyin etdiyi şəxs elə adamdır ki, ictihad sahibidir.Buna görədə Ömər bin Xəttab bilirdi ki, o altı nəfər ya ictihad sahibidirlər və ya xilafətə catandan sonra belə bir məqamın sahibi olacaqlar.Belə olan surətdə görəsən niyə görə Əbdülrəhman bin Ouf Həzrət Əli(ə)-ı öz ictihadına əməl etməkdən cəkindirirdi.Xəlifə Əli(ə)-ı müctehid bilmirdimi? Belə olan surətdə niyə görə Həzrət Əli(ə)-ı xilafət şurasının üzvi etdi?Əgər müctehid idi niyə görə Əbdülrəhman onu öz ictihadına əməl etməkdən cəkindirdi ancaq Osmanı cəkindirmədi?

2.Bütün şiə və süni mənbələrində yazılmışdır ki, ikinci xəlifə iddia ilə deyirdi ki,iki şey Peyğəmbərin(s) zamanında sünnə idi.Mən o iki şeyi qadağa edirəm və hər kəs o iki şeyə əməl etsə cəzalandıracağam[5].Beləliklə gərək qəbul edək ki, ikinci xəlifənin zamnında bu iki sünnə bidətə cevrildi.Sual ortaya cıxır ki,necə olur ki,Həzrət Əli(ə)-ın haqqı yoxdur öz ictihadına uyğun və o iki xəlifənin əksinə əməl

---

[1] "Şərhi Nəhcül Bəlağə",İnb Həbil Hədid,5 ci cild,səh 167.

[2] "Şərhi Nəhcül- Bəlağə",Sübhi Saleh,səh 246.

[3] Yenə orada,səh 196.

[4] Yenə orada.

[5] 2Sünəni-Beyhəqi2,7 ci cild,səh 206,2Şərhi-Məani Əl Asar",səh 374-375,"Əl İsabə",3 ci cild,səh 114.

etsin ancaq qabaq ki, xəlifələr aşkar surətdə Peyğəmbərin(s) sünnəsi ilə müxalifət edirdilər.

3.Nə üçün Həzrət Əli(ə) Allahın kitabına və Peyğəmbərin(s) sünnəsinə əməl etməyi qəbul etdi ancaq o iki xəlifənin üsuluna uyğun əməl etməyi qəbul etmədi?O iki xəlifənin əməli Allah kitabına müxalif idimi?

## Hədəfə yetişməyən hakim.

Əbdülrəhman öz andına və əhdinə qarşı cıxıb işi Osmanın xeyrinə qutarandan sonra Həzrət Əli(ə) o iki nəfəri belə lənətlədi:Ümid edirəm Allah sizin aranıza ixtilaf salsın.O ilki burunda qan acılma xəstəliyi yayılmışdı,Osmanda bu xəsdəliyə tutulmuşdu və az qalmışdı ki,ölsün.O ölümünə yaxın yazılmış bir kağız ilə müsəlmanların iştirakı olmadan Əbdülrəhman bin Oufu özünə canışın secdi.Əbdülrəhman vəsiyyətin elə üsul ilə yazılmasını namərdlik sayır və dedi:Necə olur ki, mən onu müsəlmanların qarşısında xəlifə etdim,o isə məni gizli surətdə canişin secir.Elə bundan sonra o ömrünün axırına qədər ondan uzaq gəzdi və əhd bağladı ki, ömrünün axırına qədər onunla danışmasın[1].Bir gün o xəsdə yatarkən Osman onun ziyarətinə gəldi Əbdülrəhman ondan üz cevirib və onunla danışmadı [2] .Əbdülrəhman vəsiyyət etdi ki,onun namazını xəlifə qılmasın. Müsəlmanlarada sifariş etdi ki, Osmanın hökimətinin davamlı olmamağı üçün onu öldürsünlər[3].

## Vəsiyyətin aqibəti.

Ömər bin Xəttabın siyası vəsiyyəti nəticə verdikdən sonra Osman on iki il islam vilayətlərini hökümdarı oldu.Necə ki, Həzrət Əli(ə) öncədən buyurmuşdu bütün islami məmləkətlər də dini və ictimai qarışılıqlar soz zirvəyə catmışdı.Həzərt Əli(ə) Osmanın xilafəti zamanında müsəlmanlara rəhbərlikdən uzaq qalmışdı.Bundan əlavə vəsiyyətin başqa nəticələridə oldu və biz onlara işarə edirik.

1.Həzrət Əli(ə)-ın rəqiblərinin hakimiyyətə təhrik olunmaları.

O altı nəfər məşvərət edən vaxtlarda hec kimi Həzrət Əli (ə) və Osman qədər siyasi və ictimai nüfuzu yox idi.Elə ona görədə Osman secilәndə hec kim özünü müxalifətcilik etmək qüdrətində görmürdü.Elə buna görədə Osmanın hökümәti hec bir qarışıqlıq olmadan bir qədər uzun cəkdi.Əgər qaraşıqlıq olsaydı belə onun rəqibləri tərəfindən olmurdu, bəlkə öz yürüddüyü səhf siyasətin nəticəsi idi.Osmandan sonra hər kəs xəlifə olsaydı və əgər Osman kimi fikirləşib rəfdar etsəydi(belə ki,hədsiz bəxşiş və hədiyyələrlə öz rəqiblərini sakitləşdirirdi).Əvəzində də bu rəqiblər müxalifətcilikdən daşınırdılar.Amma Həzrət Əli(ə) kimi şəxsiyyət hakimiyyətə gələndə Osmanın və onun əqidə yoldaşlarının əksinə əməl edəndə onunla amansız düşmən olurdular.Çünki onlar hərcənd Osmanın xilafətinin əvvəllərində ictimai nüfüzları yox idi.Amma Osmanın uzun sürən xilafəti

---

[1] "Şərhi Nəhcül Bəlağə",İbn Əbil Hədid,1 ci cild,səh 196

[2] Yenə orada,"Əl-İqdül Fərid",4 ci cild,səh 286.

[3] "Əl-Qədir",9cu cild,səh 86.

zamanında elə qüdrət və şöhrət sahibi oldular ki,hətta Həzrət Əli(ə) ilə müxalifətcilik edirdilər.Beləki bu özünü Həzrət Əli(ə)-ın xilafətinin əvvəllərində biruzə verirdi.Altı nəfərlik şuranın üzvlərindən olan Əbdülrəhman bin Ouf Həzrət Əli(ə)-ın hakiymiyyətindən qabaq vəfat etdi.Bu şuranın digər üzvləri olan Təlhə və Zübeyr İmam Əli(ə) hakimiyyəti dövrində o Həzrətin əleyhinə üsyan etdilər. Təlhə və Zübeyrin üsyan etməsi Ömərin vəsiyyətinin dərin təsirinin gösdəricisi idi və onların qiyam etməsinin həmin vəsiyyətinin zerərli nəticələrindən hesab etməliyik.Şuranın başqa bir üzvü Səd bin Əbi Vaqqas o həzrət ilə beyətdən imtina etdi lakim o həzrətin əleyhinə üsyan edə bilmədiyindən carəsiz qalıb sükut etdi.Nəhayət oğlu Əmir bin Səd atasının(Səd)rəqibi olan həzrət Əlinin oğlunu şəhid etdi.Həqiqətdə o vəsiyyət elə surətdə cızılmışdı ki, illər boyu müsəlmanlar İmam Əli(ə)-ı rəhbərliyindən məhrum qalsınlar.Əgər Osmandan sonra həzrət Əli(ə) rəhbər olsa belə rəhbərliyə iddialı şəxslər onun rəqibi olsunlar və onu cətinliyə salsınlar.İkinci xəlifə bilirdi ki,o adamlar xilafətə catmaqdan ötrü bir – birləri ilə müxalifətcilik edəcəklər və bu müxalifətcilik Osmanın zamanında baş verməsə də bundan sonraki xəlifə ondan yaxa qurtara bilməyəcək.Hec buna şübhə yoxdur ki,xilafətə catan Həzrət Əli(ə) və Osmandan başqa o dörd nəfər əgər şuranın üzvi olmasaydılar xilafətə göz dikməzdilər.Onların şurada üzv olmaları və onları Həzrət Əli(ə) ilə bir araya gətirilməsi onlarda bu təsəvvürü yaratdı ki,onlar daha layiqli və başqa müsəlmanlardan daha üstündürlər[1].Bu məsələ Muaviyyənin nəzərindəndə qacmamışdır.O İbn Hüseynə deyir:Sənin nəzərincə müsəlmanların bir- biri ilə ixtilafının səbəbi nədə idi?O dedi:Səbəb Osmanın öldürülməsi idi.Muaviyyə dedi:Təzə söz danışmadın.O cavab verdi:Əli(ə)-ın səninlə ya Təlhə ilə ya da Zubeyr və Aişə ilə mübarizəsi. Muaviyyə onun nəzərlərini qəbul etməyib və dedi:Ömər bin Xəttabın şurası müsəlmanlar arasında qarışıqlığ və ixtilafın yaranmasına səbəb oldu.Çünki o şura altı nəfərin ixtiyarında idi.Hər kəs istəyirdi onu öz tərəfinə cəksin və əvəzində də onun xilafətə catmasını istəyirdilər.Xilafət məqamını ələ gətirmək ücün dəridən qabiqdan cıxırdılar.Əgır Ömərdə Əbu Bəkr kimi bir nəfəri öz yerinə secsəydi bu ixtilafdan qabaqa gəlməzdi[2].Bu mətləbidə əlavə etmək lazımdır ki, Peyğəmbərin(s) vəfatından sonra müxacirlərin arasından nə Əməvilər və nə Haşimilər hakimiyyətə catdılar. Qureyşin orta cinahından olan Tin və Üdəy (Əbu Bəkr və Ömər onların nümayəndəsi idi) hakimiyyətə catdı.İkinci xəlifənin cızılmış planı ilə Bəni Ümeyyənin nümayəndəsi olan Osmanda hakimiyyətə gəldi.

2.Bəni Ümeyyə nəslinin nizama düşməsi.

Necə ki, ikinci xəlifə öncədən demişdi Osmanın rəhbərliyi Əməvilərin hakimiyyətə gəlməsinə böyük zəmin yaratdı.Belə ki, ən mühüm olan siyasi və ictimai mərkəzlər Bəni Ümeyyənin əlinə kecdi.Əməvilər və Mərvanilərin qüdrəti Osmanın rəhbərliyi sayəsində inkişaf etdi.Elə o zaman Həzrət Əli(ə) rəhbərliyə secildi.Özünün bütün dini və fikri qüvvəsini əhd pozanların və yolundan azmış

---

[1] İbn Əbil Hədid bu mətləbi təsdiqləyərək yazır:Bu iş onların başlarını elə qatdı ki, Həzrət Əli(ə)-ın zamanında iş başqa ixtilaflara gəlib cıxdı ("Şərhü Nəhcül-Bəlağə",9 ci cild,səh 28-29)

[2] "Əl İqdül Fərid",4 ci cild,səh 281;"Müxtəsərü Tarixi Dəməşq",9 ci cild,səh 85

insanlarla mübarizəyə sərf etdi.Bunlar o insanlar idilər ki,qabaqki xəlifələr onların qüdrətə catmasına zəmin yaratmışdılar.Bəzi kitablarda yazılır:Ömər şuranın üzvlərinə dedi:Əgır siz bir-biriniz ilə həmkarlıq və xeyirxahlıq etsəniz xilafətin səmərəsini siz və öxladlarınız dadacaqlar.Amma bir- birinizə paxıllıq və ya bir-biriniz ilə rəqabət və düşməncilik etsəniz Muaviyə bin Əbi Süfyan hakimiyyətə sizdən qabaq gələcək.Muaviyə həmişə deyirdi:Allaha and olsun mən ikinci xəlifənin yanında olan məqamımın sayəsinə görə müsəlmanlara vali oldum.Bu həmin yerdir ki,məni bura o oturdub.O zamandan ki,məni bura təyin edib,hələdə burdan kənarlaşdırmayıb.Halbuki elə bali yoxdur ki onu təyin edəndən sonra kənarlaşdırmasın və başqasını onun qoymasın.O bütün Şamat* vilayətini mənə tapşırdı.Ondan sonrada Osman məni qüvvələndirdi və təsdiq etdi.[1]

---

* O zaman Suriya, Livan və Fələstin torpaqları Şamat adlanırdı.(müt)

[1] "Müxtəsərü-Tarixi Dəməşq",9 ci cild,səh161;"Tarixi əl Üməmu vəl Müluk",5 ci cild,səh 88;Əl-Qədir".9 ci cild,səh 35

## DOQQUZUNCU FƏSİL

### ÜÇÜNCÜ XƏLIFƏ OSMAN IBN ƏFFAN

Osman ibn Əffan ibn Əbil-As ibn Uməyyə ibn Əbdüşşəms ibn Əbdü Mənaf [1] amul-fil ilinin 6-cı ilində dünyaya gəlmişdir. Anasi Ərva, Kəriz ibn Rəbiə ibn Həbib ibn Əbdüşşəms ibn Əbdü Mənafın qızıdır. Peyğəmbər (s) vəfat edəndə Osmanın 57 yaşı var idi. Peyğəmbərdən (s) sonra 25 il ömr sürdü. Elə buna görə də öləndə 83 yaşı vardı. O, enlikürək və üzüdolu tüklü bir adam idi. Uzun zaman Məkkədə parça satmaqla məşğul olub. Əhli sünnə ona "Zunnureyn"[*] ləqəbini vermişdilər. Çünki Peyğəmbərin Rüqəyyə və Ümmükülsüm adlarında olan iki qızı onun arvadları olub, amma onların heç biri Osmanla çox yaşamamışdır.[2] Rəsullulah Osmanı Rüqəyyənin dəfn mərasimində dəfndə iştirak etməkdən məhrum etdi.[3] Peyğəmbərin bu əməli Osmanın rəftarından narazılıq əlaməti idi.[4] Osman ibni Əffanın səkkiz arvadı var idi. Rüqəyyə, Ummü Külsüm, Faxitə, Ümmü Əmr, Fatimə, Ümmül-Bənin, Rəmlə və Nailə. Rüqəyyənin ondan Abdullah adlı oğlu var idi ki, elə uşaq ikən ölmüşdür. Bu uşağın altı yaşı olanda xoruz onun gözünü dimdiklədiyinə görə dünyadan getmişdir.[5] Ondan sonra Əmr adında oğlu dünyaya gəldi, elə ona görə də Osmana "Əbu Əmr" künyəsi verdilər.

Faxitə (Qəzvanın qızı); oğlunun adı Əsğərdir.

Ümmü Əmr (Cundəb Dusinin qızı), övladları Əmr, Xalid, Əban, Əmr və Məryəm.

---

[1] "Əl-иqdul-fərid", 5-ci cild, səh. 36.

[*] İki nur sahibi. (müt).

[2] "Usдul-ğabə", 3-cü cild, səh. 376-377, "E`lamul vəra" səh. 331və346, "Tənqihul-məqal" 3-cü cild, səh. 73-78.

[3] "Səhihи-Бuxari", 1-ci cild, səh. 331və346, "Musnədи-Əhməd" 3-cü cild, səh. 126 və 228-229, "Əl-mustədrəkü ələs-səhiheyn", 4-cü cild, səh. 47.

[4] Bu mətləb bəzi mənbələrdə qeyd olunmuşdur.

[5] "Əl-kamilu fit-tarix", 3-cü cild, səh. 185.

Fatimə (Vəlid ibn Muğəyrə Məx`uminin qızı), övladları Vəlid, Səid və Ümmü Səid.

Ümmül-Bənin (Əynətubni Həsin Fəzarinin qızı) Əbdulməlik adlı bir övladı var idi ki, uşaq ikən öldü.

Rəmlə (Şeybət ibn Rəbiənin qızı): övladları Ümmü Əmr, Ayişə və Ümmü Əbandır.

Nailə (Fərafəsə Kəlbinin qızı): övladları Məryəm, Ənbə, Ümmül-Bənin ya Ümmül-möminin, (Abdullah ibni Yəzid ibni Əbu Süfyanın arvadı).[1]

## BIR SIRA HADISƏLƏR

Üçüncü xəlifə Osmanın zamanında bir çox hadisələr baş verdi. O hadisələrin hamısı bu kitaba sığmadığına görə onlardan ən mühümlərini yazmaqla kifayətlənirik:

24-cü qəməri ili: Bu ildə burundan qan açılma xəstəliyi bir çoxlarını öldürdü. Xəlifə özü də o xəstəliyə düçar oldu və sonradan sağaldı. Elə bu ildə, xəlifə Müğəyrət ibni Şöbəni Kufənin valiliyindən kənarlaşdırdı və Səd ibn Əbi Vəqqası onun yerinə təyin etdi. Səd bir ildən çox Kufənin valisi oldu.

25-ci ildə Səd ibn Əbi Vəqqası Kufənin valiliyindən kənarlaşdırdı və onun yerinə Vəlid ibn Uqbə (Osmanin ana tərəfdən olan qardaşı) vali təyin olundu.[2] Xəlifə bu ildə həccə getdi.

26-cı qəməri ili. Bu ildə xəlifə Məscidül-Həramın ətrafında olan evləri məscidin genişləndirilməsi məqsədi ilə uçurtdu. O elə həmin ildə Əmr ibn Ası Misirin valiliyindən kənarlaşdırdı və onun yerinə Abdullah ibn Əbi Sərhi vali təyin etdi.

27-ci qəməri ili: bu ildə musəlmanlar Abdullah ibn Nafein başçılığı ilə Avropanı ələ keçirdilər.

28-ci qəməri ili: Osmanın xaçpərəst Fərafəsənin qızı Nailə ilə evlənməsi. Yazırlar ki, o, zifaf gecəsindən öncə musəlman olmuşdur.

29-cu qəmərinin ili: Əbu Musa Əşərinin Bəsrənin, Osman ibn Ası Əmman və Bəhreynin valiliyndən kənarlaşdırılması. Abdullah ibn Amiri (xəlifənin dayısı oğlu) Bəsrə, Əmman və Bəhreynə hakim təyin etməsi. Xəlifə Ümeyr ibn Osmanı Xorasana hakim təyin etdi. O öz hakimiyyəti dövründə bir çox məntəqələri öz tabeçiliyinə keçirdi. Abdullah ibn Umeyr Leysi də Sistana vali təyin olundu. O da öz hakimiyyəti dövründə Kabilə qədər bütün məntəqələri öz tabeçiliyinə keçirtdi.[3] Bu ildə xəlifə Peyğəmbər məscidini genişləndirdi. Məscidin altı qapısı öncəki xəlifənin zamanında olduğu kimi qaldı. Amma məscidin təmir və memarlıq işlərində naxışlı daşlardan istifadə edildi.[4]

---

[1] "Nəhayətül-иpəb", 5-ci cild, səh. 92-94.

[2] "Əl-kamilu fit-tarix", 3-cü cild, səh. 79-82.

[3] "Nəhayətul-иpəb", 5-ci cild, səh38.

[4] "Tarixul-üməmü vəl-myluk", 4-cü cild, səh. 251və267.

## OSMANIN XILAFƏTI ZAMANINDA OLAN FƏTHLƏR

Osmanın xilafəti zamanında müsəlmanların İranı, Ermənistanı, Asiyanı və Afrikanı fəth etməsi mühüm hadisələrdən sayılırdı. Müsəlmanlar hicrətin 27-ci ilində Avropaya daxil olmaqdan əlavə, Müaviyə ibn Əbi Süfyan 28-ci hicri ilində dəniz yolu ilə Kipr adasına qoşun yeritdi. Abdullah ibn Səd ibn Əbi Sərh Afrikanın şimalına hücum etdi və 32-ci ildə Konstantinopol boğazına qədər irəliləyib yunanlılarla müharibə etdi. 25-ci qəməri ilində Abdullah ibn Səd ibn Əbi Sərh Afrikanın şimalına, Əmr ibn As Makedoniyaya və Həbib ibn Müslimə Ermənistana hücum etdi. 30-cu qəməri ilində Səd ibn As Qorqan və Mazandarana müharibəyə getdi və Abdullah ibn Amir Mərvə qaçan İran şahını təqib edirdi. O Kerman və Xorasanı fəth edib Kabilə qədər irəlilədi.

Təbəri yazır: Afrikanın fəthi o zaman başlandı ki, xəlifənin müxalifləri artmişdı. Xəlifə bu barədə Mərvan ibn Həkəm və Müaviyə ibn Əbi Süfyan ilə məşvərət etdi. O iki nəfər təklif etdilər ki, müsəlmanların başını müharibəyə qatmaq üçün Afrikaya qoşun yollasın və daha heç kimin öz atlarının bit-birəsini öldürməkdən savayı başqa işlərlə məşğul olmağa vaxtı çatmasın.[1]

## QUR`ANIN YENIDƏN YAZILIŞI

Osmanın xilafəti dövründə baş verən hadisələrdən biri də Qur`anlarin cəm olunub məhv edilməsi və yenidən yazılışı idi. Sünnü və bəzi şiə mənbələrinə görə Qur`an Osmanın zamanında yazılmışdır. Amma şiə tərəfindən və bəzi sünnülər tərəfindən qəbul olunan budur ki, Quranın yeni yazlışı Osmanın zamanında olub. Biz bu barədə əvvəl əhli-sünnənin qəbul etdiyi nəzəriyyəni nəzərdən keçirib sonra şiənin nəzərini deyəcəyik. Əhli sünnənin mənbələrinə əsasən, Quran Osmanın xilafətinə qədər yazılmayıb. Osmanın zamanında bir neçə hadisə səbəb oldu ki, Quran yazılsın. O zamanlardakı fəthlər qonşu ölkələrdən istər ərəb, istərsə də əcəm, dəstə-dəstə İslamı qəbul edirdilər və yeni müsəlmanların Qur`anı öyrənməyə ehtiycları var idi. Ərəblər qonşu ölkələrə gedib onların adət-ən`ənələri və əcəm xalqının dilləri ilə tanış olurdular. Nəticədə onlarin ləhcələri dəyişirdi. Digər tərəfdən Quran ayələrinin tələffüz edilməsi qeyri-ərəb müsəlmanlar üçün çox çətin idi. Ərəb və əcəmlərin müxtəlif ləhcələrlə bir-birləri ilə ünsiyyət yaramaları səbəb oldu ki, Quranı müxtəlif ləhcələrlə oxusunlar. Xüsusi ilə də o zaman Quranı nöqtəsiz yazırdılar. Ləhcələrin ixtilafı səbəb oldu ki, Quran müxtəlif ixtilaflarla qiraət olunsun. Bu da səhabələr arasında ixtilaf və narazılığa səbəb oldu. Bu xəbəri Osmana çatanda, o, çox fikirləşdi ki, buna bir çarə tapsın. Sonra bir heyət təşkil etdi ki, Peyğəmbərin (s) vaxtında yazılmış Qur`anları, həm də Əbubəkrin zamanında toplanmış nüsxələri (bunlar Ömərin qızı Həfsədə idi) başqa müshəflərlə tutuşdursunlar və onların arasından bir nüsxə yazıb başqa şəhərlərə göndərsinlər ki, müsəlmanlar yalnız o nüsxədən oxusunlar. Sonra əmr verdi ki, sümük, dəri, nazik

[1] "Əl-kamilu fit-tarix", 3-cü cild, səh. 149.

daşlar üzərində yazılmış Qur`anları yandırsınlar, ya da cırıb atsınlar və ya yusunlar.[1] Bu işlə əlaqədar Osmanı "Hərraqul-məsahif yaxud "Xərraqul-məsahif" (Quranı yandıran ya cıran) adlandırdı.[2]

## ARAŞDIRMA VƏ HÖKM VERMƏ

Quranın cəm olunması haqqında qeyri-şiənin kitablarsnda gələn hədislər bir-birilə ziddir. Bu hədis və rəvayətlərin bəziləri buna dəlalət edir ki, elə o vaxt yazılmağı nəzərdə tutulmuş Qur`anlardan biri Həfsənin əlində olan Quran idi. Başqa tərətdən deyilir ki, Əbubəkrin xilafətinin əvvəllərində həzrət Əli (ə) Qur`anı cəm etməsi haqqında hökumətə xəbər verəndə Ömər ona dedi ki: "O Qur`an ki, bizim əlimizdədir, sənin əlində olan Qur`ana ehtiyacımız yoxdur!" Elə bu rəvayətə görə Əbubəkr Qur`anı cəm və tərtib etməmişdən əvvəl, həzrət Əli (ə) onu cəm və tərtib etmişdi. Həmçinin Ömər etiraf etmişdir ki, hal-hazırda onun əlində Qur`an vardır və başqa Qur`ana ehtiyac yoxdur. Əhli-sünnənin tanınmış mühəqqiqi Haris yazır: Xalq arasında məşhurdur ki, Qur`anı Osman cəm edib, amma amma belə deyildir. Həqiqət budur ki, xəlifə İraq və Şam əhlinin Qur`an oxunuşunda olan ixtilafına görə qorxuya düşdü və müsəlmanları məcbur etdi ki, onun özünün oxuduğu qiraətlə oxusunlar.[3]

Müasir dövrün ən məşhur fəqihlərindən biri deyir[4]: Osmanın bu işini müsəlmanlar ona görə tənqid etmədilər ki, o, müsəlmanları Qur`anı vahid bir üsul əsasında qiraət etməyə çağırmışdı, bu da Rəsulullahın (s) qiraətinə uyğun idi. Bu gedişlə Osman müsəlmanları zəif qiraətlərdən uzaqlaşdıra bildi, amma Qur`anın Osmanın vaxtında cəm və tərtib edilməsi bir neçə dəlilə görə həqiqətlə uyğun deyil:

1. Qur`anın Osmanın vaxtında tərtib edilməsinə dəlalət edən rəvayətlər hədis elmi nöqteyi-nəzərindən vahid xəbər[*] və həm də ziddiyyətlidir. Başqa müvəssəq[**] hədislər onun əksini isbat edir. O da budur ki, Qur`an Rəsulullahın (s) vaxtında yazılıb tərtib edilmişdir.

2. Həmin rəvayətlərdə deyilir: Osmanın təyin etdiyi heyət bir ayədə şəkk-şübhə edəndə iki nəfər şahid və ya şəhadəti iki nəfərin şəhadəti kimi qəbul olunan bir nəfər şahid tələb edir və şəhadətdən sonra o ayəni Qur`an ayəsi kimi qəbul edirdilər. Bu

---

[1] "Səhihi-Buxari", fəzailul-Qur`an babı, "Müsnədi-Əhməd", 3-cü cild, səh. 12, "Camiul-bəyan fi təfsiril-Qur`an" 1-ci cild, səh. 20-21, "Əl-itqan", 1-ci cild, səh. 209, "Fəthul-bari fi şərhi səhihi-Buxari " 9-cu cild, səh. 18,

[2] "Tarixi-Qur`an" səh. 408-431.

[3] "Əlitqan" 21-ci cild, səh. 103, "Tərcymeyi Əл-bəyan", Seyyid Əbul Qasim Əl-xoyi səh. 248.

[4] Seyyid Əbul Qasim Xoyinin "Əlbəyan" kitabından yazılır.

[*] Ravilərinin çox və ya az olması nəzərə alınmadan, yalnız bir ravi silsiləsi tərəfindən nəql edilən hədis qisminə vahid xəbər deyilir. Bu hədislər "mütəvatir" hədis həddinə yetişmir və etimad edilib əməl olunması üçün əlavə şahidə və dəlilə ehtiyacı vardır. "Məcməül-mustələhatül-rical vəд-dirayə" Məhəmməd Rza Cəlili Nejad. (müt. )

[**] Hədis elminə aid olan termindir. Müvəssəq xəbər o xəbərə deyilir ki, onu nəql edən şəxslər on iki imamlı şiə olmasalar da, o hədisi söyləyənlər (siqə) inanılmış şəxslər olsun. "Fərhəngi məarifi-islami" Seyyid Cəfər Sübhani, səh. 1959 (müt. )

cur iddia bir növ Qur`anın təhrif olunma təsəvvürünü yaradır. Çünki belə olan surətdə gərək qəbul edək ki, Qur`anın bəzi ayələri bir və ya iki nəfərin iddiasına əsasən sübut olunmuşdur. Halbuki, bir sozün Qur`an ayəsi ünvanı ilə sübut olunması üçün təvatürdən* başqa yol yoxdur. Bundan əlavə, Qur`anın bəlağəti və xüsusi səbki Qur`an ayələrini bəşərin danışığından elə ayırıb ki, onun hər bir ayəsi Qur`an ayəsi olub-olmadığına görə bir və ya iki nəfərin şəhadətinə ehtiyac yoxdur.

3. Heç bir aqil insan qəbul etməz ki, müsəlmanlar, xüsusilə də Peyğəmbər Qur`anı cəm və tərtib edilməsini özündən sonraya qədər təxirə salsın. Çünki Peyğəmbərdən sonra elə bir vaxt oldu ki, Qur`anı müxtəlif yollarla oxunmasına görə və ya Qur`anı əzbər bilənlərin öldürülməsi nəticəsində Qur`an tamamilə məhv ola bilərdi.

4. Bir çox ayələr buna dəlalət edir ki, Qur`an nazil olandan e`tibarən, Qur`anın surələri bir-birinin ardınca və bir-birindən ayrı olub və müsəlmanlar arasında öz adı və nişanı ilə tanınmışdır. Bəzi ayələrdə Peyğəmbər (s) müşriklərdən tələb edir ki, Qur`anın müqabilində on və ya bir surə gətirsinlər.

5. Çoxlu ayələrdə və mötəbər "Səqəleyn"** hədisində Qur`ani məcid kitab adlandırılmışdır. Bu cür adlandırmadan belə nəticəyə gəlirik ki, Qur`an Peyğəmbərin rehlətindən öncə cəm edilmişdir. Çünki sinələrdə və ya taxta parçalarında qorunan Qur`anı kitab adlandırılmaq olmaz.

## AYƏLƏRIN TƏFSIRINI MƏHV ETMƏK

Əgər üçüncü xəlifənin tədbiri qiraət nöqteyi-nəzəri ilə Qur`anları bir etmək olsaydı, ona irad tutmaq olmazdı. Kitablarda xəlifənin bəzi şübhəli tədbirləri barədə - ki, nəticədə ona irad tutublar – çox az danışılıb. Sual oluna bilər: Necə olur ki, Qur`anın fərqli qiraətləri gətirib ixtilafa səbəb olur və səhabələrin hər biri digərini bir ayəni oxuduğuna görə onu təkfir (kafir hesab) etsin? Əgər Qur`anların bir edilməsinə səbəb ayələrin qiraətini bir səbklə oxunması idisə, onda nə səbəbə görə Qur`anın mütədavil qiraətlə yazılışından sonra Qur`anın kəlmələrini hərəkəsiz yazıb şəhərlərə göndərdilər?! O necə ixtilaflı qiraət idi ki, hətta Huzeyfə xəlifəyə dedi: "Əgər Qur`anları bir etməsən, bundan sonra Qur`anlardan heç bir əsər-əlamət qalmayacaq və müsəlmanlar arasında davaya səbəb olacaq." Əgər müsəlmanların müşkülü Qur`anın düzgün oxunuşunun müəyyən edilməsi idisə, nəyə görə təzə Qur`anı yazdıqdan sonra öncəki Qur`anı yandırır və ya su və sirkə ilə qaynadırlar?! İxtilaflı oxunuşları öz nüsxələrində düzəldə bilməzdilərmi?! Hansı amillər səbəb oldu ki, Qur`anların vahid hala salınmasında Əli ibn Əbi Talib (ə) və Abdullah ibn Məsudun (Peyğəmbərin (s) zamanında ayələrin yazıçısı) nüsxəsini qəbul etmədilər, hətta İbn

---

* Üç və ya daha artıq ravi təriqi (qrupu) vasitəsilə nəql olunub yəqin hasil edən hədis qisminə "мütəvatir" hədis deyilir. Bu növ hədislər silsilə və təbəqəsinin müxtəlifliyi, ravilərin çoxluğu və bir-biri ilə əlaqələrinin olmaması səbəbinə hədis alimləri tərəfindən tam surətdə qəbul olunurlar. "Məcməul-mustələhatüp-rical vəд-dirayə", Məhəmməd Rza Cəliliнejad. (müt. )

** و انا تارك فيكم ثقلين اولهما كتاب الله فيه الهدى و النور فخذوا بكتاب الله و استمسكوا به و اهل بيتى اذكركم الله فى اهل بيتى

" Səhihi müslim" 2408-ci hədis. (müt. )

Məsudun nüsxəsini təhqir edərək ondan alıb yandırdılar?! Tədqiqatçılar yazırlar: İbn Məsudun döyülməsinin və təhqir olunmasının səbəbi öz nüsxəsini onlara təhvil verməməsi idi. Nəticədə nüsxəni güclə ondan alıb yandırdılar.[1] Xəlifəni göstərişi o idi ki, Qur`an gərək Zeyd ibn Harisin qiraəti ilə yazılıb oxunsun.[2] İbn Məsud bu göstərişi eşidən kimi məsciddə moizəyə başladı və dedi: “Osman mənə göstəriş verir ki, Qur`anı Zeyd ibn Harisin qiraəti ilə oxuyum! Allaha and olsun, mən Peyğəmbərin (s) mübarək ağzından yetmiş surəni öyrənəndə başı kəkilli Zeyd uşaqlarla oynayırdı”.[3] İbn Məsud və onun həməqidələrinin əlində olan Qur`anın başqa Qur`anlarla heç bir fərqi olmamasında şübhə yox idi. Heç vaxt görünməyib ki, onlar bir surənin ayələrini tanısınlar, başqaları tanımasın.

Bəzi amillər səbəbi ilə onların səylərinin nəticəsi qəbul olunmadı. Nəzərə çarpan odur ki, onların xəlifə ilə ixtilafı Qur`anın hərəkə və səhih oxunuşu məsələsindən tamamilə başqa bir şey idi. Bəzi suallar xəlifənin əməlinə şubhə ilə yanaşıb və etiraz etməyə səbəb oldu. O suallardan bəziləri bunlardır:

1. Nəyə görə o heyətin məsul şəxsi Zeyd ibn Haris təyin edildi? Halbuki onun yaşı az və Peyğəmbər xanədanına müxalifdir.

2. Əli ibn Əbu Talibin (ə) əli ilə toplanan Qur`anın nə nöqsanı var idi ki, xəlifənin təyin etdiyi heyətin nəzərinə uyğun gəlmirdi?

## YƏQINDƏN ÜSTÜN GÜMAN

Belə nəzərə çarpır ki, Qur`anların bir edilməsi məsələsi Peyğəmbərin hədislərinin yazılıb bəyan edilməsinin qabağını almaq məsələsində əlaqəsi vardı. Birinci və ikinci xəlfənin xilafəti zamanında təkid olunurdu ki, hədis Qur`anla qarışmasın, Qur`an səhifələrinin ətrafında heç bir hədis və təfsir yazılmasın. Bu siyasətə qarşı çıxıan möhkəm cəzalandırılırdılar. Bu planın icrasının nəticəsində bəziləri hədislərin yazılışına, əzbərlənməsinə, hətta saxlanılmasına belə, çox da əhəmiyyət vermir, hətta hədislərin gizli surətdə də yazıb və bəyan etməsindən çəkinirdilər. Amma bəziləri isə öz fəaliyyətini dayandırmadılar. Şiə və sünnü mənbələrinə əsasən, bu siyasət Ömər ibn Xəttabın xilafətində diktaturaya çevrilmişdi. Amma onun ölümündən sonra və Osman xilafətə gələndən sonra hədis söyləmək bir qədər azad oldu hətta hədisin yazılması da artıq cinayət sayılmırdı. Çox çəkmədi ki, müsəlmanlar on üç ildən sonra, yenə hədis yazıb və bəyan etdilər. Bu nisbi azadlıq hədis yazanları və hədis deyənləri yazıb bəyan etməyə təşviq etdi. Bu, elə bir zamanda baş verirdi ki, başqa ölkələrin yeni müsəlman olmuş müsəlmanları Peyğəmbərin (s) kəlamlarını eşitmək arzusunda idilər. 24-25-ci hicri illərində ikinci xəlifə tərəfindən olan bütün mənsəb sahibləri Osman tərəfindən kənarlaşdırıldı. Müsəlmanlar İslam ölkələrində hökmranlıq edən Bəni Üməyyə

---

[1] “Həqqül-yəqin”səh. 266-267.

[2] Zeyd ibn Haris Həzrət Əli (ə) müxaliflərindən və Əli (ə) beyət etməyən şəxslərdən idi. “ Nəhayətul ərb” 5-ci cild, səh. 106.

[3] “Həqqul yəqin” səh. 269.

nəslindən olan bütün insanları bədnamlıqla tanıyırdılar. Bəzi Qur`an ayələrində, eləcə də Peyğəmbərdən (s) olan hədislərdə bu şəxslərin Peyğəmbərə (s) qarşı kin və düşmənçilikləri barədə elə sözlər deyilib ki, o zamankı hökumətin xoşuna gəlmirdi. Çünki bu mətləblər onların baş aşağılığına səbəb idi. Bəni Üməyyə müsəlmanların dini ictimai müqəddəratını ələ alandan sonra onları məzəmmət edən hədislərə etirazlar başladı. Hər bir kəs Peyğəmbərin (s) onlar haqqında məzəmmət edən hədislərini eşidəndə dərhal Qur`an ayələri ilə tutuşdurub başqalarına ötürür, onlar da bu hədisi həmin ayənin kənarında qeyd edirdilər. Bu qeydlərin səbəbi o idi ki, ayələrin və hədislərin çoxluğu müsəlmanların hədisin öz məxsus ayəsinə tətbiqində səhvə yol verirdilər. Çünki hədisi eşidən kimi onu kamil və ya müxtəsər surətdə həmin ayənin yanında yazırdılar. Bu da zaman keçdikcə, ayə və hədis arasında olan əlaqənin unudulmasına səbəb olurdu. Nəticədə bilmirdilər ki, həmin ayə hansı mövzuda və kimin haqqında nazil olub. Bu cür maarifcilik işləri az zamanda çox böyük səmərə verdi. Çox çəkmədi ki, hər bir müsəlman bir ayənin ətrafında aşağısı hədis bilirdi. Ayələri tilavət edərkən onların təfsirlərini də öyrətdilər. Bu növ üslub heç vaxt eyni əqidəli kütlə üçün nə müşkül yaradırdı, nə də ixtilafa səbəb olurdu. Amma heç vaxt eyni əqidəli kütlənin olmadığına görə və ya bəzilərinin xalqın məlumatsızlığından öz xeyirlərinə istifadə edirdilər. Zaman keçdikcə, xalq arasında Qur`an ayələri haqqında və onların hədislə tətbiqində ixtilaf əmələ gəldi. Hətta bəziləri bilərəkdən, yaxud bilməyərəkdən öz siyasi məqsədlərinə çatmaq üçün Qur`anın düz oxunuşu barədə mübahisəni daha da artırdılar. (Misal olaraq (و هذا صراط على مستقيم)[1] ayəsini göstərmək olar. Bu ayədə əla (علي) kəlməsini عليَّ və başqa cür tələffüz etmək olar. Bu yolla təxribat və ixtilafa yol verdilər.) Bu gedişlə Qur`anın hədisdən ayırma planının ən münasib zəmini yarandı. Amma siyasi və ictimai vəziyyətə görə keçmiş diktaturaya bənzəməmək üçün yeni planın cızılmasına ehtiyac var idi. Ən yaxşı yol Qur`anların cəm edilməsi idi. Bu çızılmış plana görə xalqın əlində olan bütün hədislər yenə yığılıb məhv ediləcək, zaman keçdikcə, gələcək nəslin ondan məlumatsız olduğuna görə Qur`anı təfsir edə bilməyəcəkdilər. Bununla, başa düşmək olar ki, həzrət Əli (ə)və Abdullah ibn Məsudun Qur`anını qəbul etməməkdə məqsəd nə idi. Əgər doğrudan da Qur`anların yığılması və onların bir edilməsi onların qiraətinin fərqi idisə, onda Qur`anın bir edilib və qalanların məhv edilməsi lazımsız idi. Bundan əlavə, Qur`anın yandırılması və vərəqələrinin cırdırılması xəlifənin çox yaramaz işlərindən idi.

## OSMANA QARŞI ÜSYANIN AMILLƏRI

Osman ibn Əffanın süst fikirləri onun qocalıq dövranında qurbana çevirdi. Osmanın Ayişə, Təlhə və Zübeyr kimi təcrübəli düşmənləri, Mərvan kimi hiyləgər müşavirləri və özünün ləyaqətsiz mənsəb sahiblərini himayə etməsi, yaramaz fərdi və ictimai narəva davranışı onun öldürülməsinə gətirib çıxartdı. Öz möhkəmlənmiş hakimiyyətinə göstərdiyi etimadına görə heç kimin tənqidini qəbul etməyib öz səhv

[1] “Hicr”surəsi, ayə: 41.

davranışlarını davam edirdi. Belə ki, bir neçə amil xalqın Osmandan üz döndərib, onun əleyhinə üsyan etməsinə səbəb oldu.

## 1. XƏLIFƏNIN FƏRDI ICTIMAI ÜSLUBU

Osmanın həyat tərzi keçmiş iki xəlifədən hər bir cəhətdən fərqlənirdi. Belə ki, o, çox bahalı paltarlar geyinirdi, belə ki, onların bə`zisinin qiyməti 800 misqal qızıl pul dəyərində idi.[1] Rəngarəng yeməklər yeyir, yaşadığı evi saraya bənzəyirdi və onun qəbuluna düşmək çox çətin idi. Mədinədə özü üçün divarları sarucdan (sement tipli tikinti materialı) olan və qapıları palıd agacından bir ev tikdi.[2] O, dünyadan gedən zaman 30,500,000, (otuz milyon beş yüz min) misqal gümüş pulu, 150 min misqal qızıl pulu[3] və min köləsi var idi.[4]

Osman qızlarından birini Mərvan ibn Həkəmə ərə verdikdə, Afrikadan göndərilmiş qənimətin beşdə birini (təqribən, beş yüz min dinar-qızıl pul) qızına bağışladı.[5] Afrikadan göndərilmiş qənimətin miqdarı 2,520,000 qızıl puldan ibarət idi.[6]. Həmçinin 100 misqal əlavə pul da bağışladı.[7] Afrika qənimətlərinin qalan beşdə dördünü isə Mərvanın yaxın adamlarına (Həkəm ibn Əbil-Asın övladlarına) hədiyyə etdi.[8] 100 min qızıl pul,[9] eləcə də Qəzaə qəbiləsinin bütün sədəqələrini öz əmisi Həkəm ibn Əbil Asa bağışladı.[10]

Osmanın başqa kürəkəninin adı Haris ibn Həkəm idi. Xəlifə qızını ona verdikdə, beytül maldan[*] 100 min gümüş pulu,[11] eləcə də Mədinəyə göndərilən və zəkat qismindən sayılan bütün dəvələri ona hədiyyə etdi.[12] Peyğəmbəri Əkrəm (s)-in müsəlmanlara vəqf etdiyi Mədinə bazarının bir hissəsini onun şəxsi əmlakına keçirtdi.[13]

---

[1] "Əl istiyab", Osmanın tərcümeyi-halı; "Ənsabul əşraf", 3-cü cild, səh. 4.

[2] " Murucuzzəhəb" 1-ci cild səh. 433-434. "Seyri dər əlqədir" səh. 131.

[3] Ət-təbəqatul-kubra", 3-cü cild, 1-ci bölüm, səh. 53.

[4] "Duvəlul-Islam", 1-ci cild, səh. 12.

[5] "Tarixi Əbil-Fida", səh. 169; "Tarixul-üməm vəl-müluk", 5-ci cild, səh. 50; "Tarixi Yə`qubi", 2-ci cild, səh. 143; "Əl-bidayətu vən-nihayə", 7-ci cild, səh. 152.

[6] "Tarixi-Yə`qubi", 2-ci cild, səh. 166; "Ənsabul əşraf", 5-ci cild, səh. 27-28 və 38; "Ət təbəqatul kubra", 3-cü cild, səh. 62; "Əs-səvaiqul muhriqə", səh. 113; "Tarixul üməm vəl müluk", 4-cü cild, səh. 256; "Tarixul xüləfa", Süyuti, səh. 185.

[7] "Şərhi Nəhcül-bəlağə", Ibn Əbil-Hədid, 1-ci cild, səh. 199.

[8] "Əl bidayətu vən nihayə", 7-ci cild, səh. 152; "Tarixul üməm vəl müluk", 4-cü cild, səh. 256.

[9] "Əl-məarif", səh. 194; "Miratul cinan", 1-ci cild, səh. 85; "Əl-iqdul-fərid", 2-ci cild, səh. 265; "Əl ibr", 1-ci cild, səh. 23.

[10] "Ənsabul-əşraf", 5-ci cild, səh. 28; "Tarixi Yə`qubi", 2-ci cild, səh. 145.

[*] Müsəlmanların ümumi əmlakı (müt).

[11] "Şərhi Nəhcül bəlağə", Ibn Əbil Hədid, 1-ci cild, səh. 198; "Ənsabul əşraf", 5-ci cild, səh 52.

[12] "Ənsabul əşraf", 5-ci cild, səh. 28; "Əl iqdul fərid", 4-cü cild, səh. 267; "Şərhi Nəhcül bəlağə", Ibn Əbil Hədid, 1-ci cild, səh. 199; "Əl-qədir", 8-ci cild, səh. 268.

[13] "Əl-məarif", səh. 195, "Şərhi Nəhcül bəlağə", Ibn Əbil Hədid, 1-ci cild, səh. 198, "Mühazirat", Rağib, 2-ci cild, səh. 212, "Əl iqdul-fərid", 2-ci cild, səh. 265.

O, bir dəfə ögey anasının qardaşı Vəlid ibn Əqəbəyə Kufənin ümumi əmlakından[1] 100 min və xilafət mərkəzindən isə 200 min dinar (qızıl pul) bağışladı.[2] Afrikanın[3] qərb ölkələrindən yığılan qənimətlərin hamısını, eləcə də Afrikada baş verən birinci mühribədən ələ gələn qənimətlərin iyirmi beşdə birini (yə`ni 100 min qızıl pulu) Abdullah ibn Əbi Sərəhə verdi.[4]

Xəlifə Osmanın başqa bir kürəkəninin adı isə (Üməyyənin nəvələrindən olan) Abdullah ibn Xaliddir ki, Osman ona 300 min (başqa bir nəzərə görə 400 min), qohumlarına isə 10 min dinar – qızıl pul verdi[5]. Osman qızını onunla evləndirdikdə, ona Bəsrənin ümumi əmlakından 600 min dinar – qızıl pul verilməsini göstəriş verdi.[6]

Zübeyr ibn Əvamın əmlakı: Buxari yazır: "Zübeyrin Mədinədə on bir, Bəsrədə iki, Kufə və Misirin hər birində isə bir evi var idi. Onun dünyadan gedərkən pulunun miqdarı 52 milyon (başqa bir nəzərə görə 59 milyon) gümüş pulu,[7] min atı, min qulu və min kənizi olmuşdur.[8]

Təlhə ibn Übeydullahın əmlakı: Onun əmlakı 30 milyon qızıl pul məbləğində olmuşdur. Dünyadan gedən zaman ondan 200 min qızıl pul, 2,200,000 gümüş pul, eləcə də 300 baş qızıl (bahalı) dəvə (başqa bir nəzərə görə isə 300 ədəd inək dərisi ilə dolu qızıl) qalmışdı.[9]

**Əbdür-Rəhman ibn Ovfun əmlakı**

Tarixçilərin yazdıqlarına görə, onun sərvəti içərisində böyük bir qızıl parçası, dünyadan gedərkən isə yüz at, min dəvə, on min qoyun və 2,560,000 dirhəm – gümüş pulu var idi.

Onun dörd arvadından hər birinə çatan irsin miqdarı 80 min qızıl pul idi (yə`ni Əbdür-Rəhman ibn Ovfun əmlakının otuz ikidə biri qədər). Beləliklə, onun pulunun miqdarı 3,200,000 məbləğində qızıl pul olmuşdur.[10]

Beytül-maldan olan qızıl-gümüş və ləl-cəvahiratı öz qohum-əqrəbası arasında bölüşdürən xəlifə Osman camaatın e`tirazı ilə üzləşdikdə, onlara belə dedi: "Bunlar Allahın malıdır; mən onları istədiyim şəxsə verər, istədiyim şəxsə isə verməreəm."[11]

---

[1] "Ənsabul-əşraf", 5-ci cild, səh. 30; "Əl iqdul fərid", 2-ci cild, səh. 276.

[2] "Şərhi Nəhcül bəlağə", Ibn Əbil Hədid, 1-ci cild, səh. 199.

[3] Yenə orada.

[4] "Usdul ğabə", 3-cü cild, səh. 173; "Əl-bidayətu vənnihayə", 7-ci cild, səh. 151-152.

[5] "Əl məarif", səh. 195, "Şərhi Nəhcül-bəlağə", Ibn Əbil-Hədid, 1-ci cild, səh. 198, "Ənsabul əşraf", 5-ci cild, səh. 58.

[6] "Tarixi Yə`qubi", 2-ci cild, səh. 145.

[7] "Səhihi Buxari", "cihad" kitabı, 5-ci cild, səh. 21.

[8] "Mürucuz-zəhəb", 1-ci cild, səh. 434.

[9] "Ət təbəqatul kubra", 3-cü cild, 1-ci bölüm, səh. 158, "Duvəlul Islam", 1-ci cild, səh. 17, "Xülasətut təhzib", səh. 152, "Mürucuz-zəhəb", 1-ci cild, səh. 434, "Əl iqdul fərid", 2-ci cild, səh. 283.

[10] "Ət təbəqatul kubra", 3-cü cild, 1-ci bölüm, səh. 96, "Tarixi Yə`qubi", 2-ci cild, səh. 146, Nəcəf çapı, 1347-ci h. q ili, "Duvəlul Islam", 1-ci cild, səh. 17, "Xülasətut təhzib", səh. 152; "Mürucuz zəhəb", 1-ci cild, səh. 434, "Əl iqdul fərid", 2-ci cild, səh. 283.

[11] "Ənsabul əşraf", 5-ci cild, səh. 88, Misirin "Darul məarif" çapı, 1959-cu il.

Osmanın qohum-əqrəba və tərəfdarlarının əmlakı günü-gündən çoxalsa da, digər tərəfdən isə imam Əlinin (ə) beytül-maldan olan payı o həzrətin özü buyurduğu kimi, dəvəni sağdıqdan sonra balasına veriləcək süd qədər idi.[1]

## 2. QANUNSUZLUQLARIN GENIŞLƏNMƏSI

Osmanın xilafətinin ikinci mərhələsində qanunsuzluğun baş alıb getməsidir. O, əvvəldən də islam qanunlarına elə də əhəmiyyət vermirdi. Onun nalayiq işlərindən biri də Ömərin oğlu Ubeydullahı amanda saxlamağı idi. Ömər ibn Xəttab yaralanandan sonra oğlu Ubeydullah atasının qətlində iştirakına görə Hurmuzan, Cüfeynə və Əbu Lo`lonu qətlə yetirdi.[2] sonra Mədinənin bütün qullarını öldürmək istəyirdi. Ancaq müsəlmanlar onu bu işdən çəkindirdilər.[3] O deyirdi: "Atam öldürülməmişdən qabaq bu üç nəfəri evdə görüb". Halbuki Ömər öz vəsiyyətində demişdi: "Əgər Ubeydullah Hurmuzanın mənim qətlimdə iştirakına görə iki şahid gətirə bilməsə ondan Hurmuzanı öldürdüyünə görə qisas alsınlar."[4] Xalq əmin idi ki, Osman Ubeydullahdan qisas alacaqdır. Bundan əlavə səhabələrin çoxu Osmanla məşvərətdə onun qisasına müsbət nəzər verdilər.[5] Xalq da xəlifədən Ömərin Ubeydullah haqda olan vəsiyyətinə əməl etməsini istədilər.[6] Amma Osman Əmr ibn Asın rəyinə əsasən dedi: "Heç insaf deyil ki, atası öldürülmüş bir insanın özündən də qisas alaq və bir ailədən iki nəfər ölsün. Bundan əlavə bu cinayət onun xilafətində baş verməyib, odur ki, mən onu cəzalandıra bilmərəm."[7] Çox təəccublüdür ki, Ömər öldürüldükdən sonra ilk üç gündə Əbdur-Rəhman müsəlmanları altı nəfər şuranın üzvləri ilə əlaqədər məscidə toplayıb nəzər alanda Osman həmişə Ubeydullahı o üç nəfəri öldürdüyünə görə danlayırdı. Amma elə ki, şurada xilafətə seçildi, ondan qisas almadı, üstəlik, heç vəziyyətin sakit olmasından ötrü onu Kufəyə göndərdi. Orada ona ev və geniş torpaq sahəsi verdi. Həmin yerə xalq Kuveyfə (yəni Kufə şəhərciyi) deyirdilər.[8]

İmam Əli (ə) xəlifəni Ubeydullahdan qisas almağa israrla tələsdirirdi. İmam Əli (ə) onun özünə (Ubeydullaha) dedi: " Əgər bir gun sənə üstün gəlsəm, qisas alacağam."[9] Həzrət Əli (ə) buna görə and icdi.[1]

---

[1] "Nəhcül-bəlağə", 76-ci xütbə.

[2] Hyrmyzan İran hakimi idi müharibədə əsir olub, Mədinədə islamı qəbul etdi Өmər onun üçun beytul maldan pul ayırdı. "Əlisabə"3-cü cikl, səh. 619. Cufeynədə Hyrmyzanın dostlarından olan xaçpərəst və əhli zimmə idi. "Ət-təbəqatul kubra" 5-ci cild, səh. 15-16. Əbu Lolo da Muğeyrət ibn Şöbənin qulu idi. Bəziləri yazır ki, onun qızını da öldürdü. Amma bəzi tarixçilər yazirlar Əbu Lolo İrana qaçdı.

[3] "Əlkamilu fittarix" 5-ci cild, səh. 225.

[4] "Tarixi-Yəqubi"," 2-ci cild, səh. 161.

[5] "Əltəbəqatul kübra" 5-ci cild, səh. 16.

[6] "Şərh nəhcül bəlağə" ibn Əbil Hədid. 3-cü cild, səh. 60. "Əlqədir" 8-ci cild, səh. 133.

[7] "Əltəbəqatul kübra" 5-ci cild, səh. 16, "Əlisabə"3-cü cild , səh. 619.

[8] "Şərhi nəhcül bəlagə"3-cü cild, səh. 61, "Tarixi-Yəqubi","2-ci cild, səh. 164.

[9] "Əttəbəqatül kübra" 5-ci cild, səh. 17. Ubeydullah həmişə həzrət Əli (ə)qaçırdı. Həzrət Əliдəн (ə) xilafətə çatanda o özünü Müaviyəyə çatdırdı. "Əl-futuh", 3-cü cild, səh. 212. O, Ciфfeyn müharibəsində Müaviyənin qoşununda həlak oldu. "Əл-futuh", səh. 18. İmam müharibə zamanı

## 3. BİD`ƏTLƏR

Öncə deyildiyi kimi, Səqifədən sonra hər xəlifənin üslubu Peyğəmbərin (s) sünnəsi kimi qiymətləndirilirdi. Bu bizim hazırkı əqidəmizə uyğun deyil. Çünki biz yalnız Rəsulullahı (s) sünnənin təməlini qoyan şəxs kimi tanıyırıq. Öncəkilər belə əqidənin sahibi deyildilər. Hərdənd, açıq surətdə deyirdilər ki, filan iş Peyğəmbərin (s) zamanında belə idi, indi də gərək belə olsun. Elə buna görə də onlar heç vaxt fikirləşmirdilər ki öz əmlləri ilə bidətə yol verirlər. Belə ki, Osman səfərdə qılınan qəsr namazlarını tamam qılırdı; dəlili də bu idi ki, namazı səfərdə tamam surətdə qılmağın özü müəyyən edib.[2] Onun Kufəyə təyin etdiyi vali şərab içirdi və məst halında pişnamazlıq edəndə məscidin mehrabına qusdu.[3] Heç kəs ona şallaq vurmadı. Xəlifə elə adam deyildi ki, Qurandan xəbəri olmasın və bilməsin ki, Quran[4] Bəni-Üməyyəni necə lənətləyir.[5] Belə olan halda o, bütün islam ölkələrində Üməyyə və Əbu Sufyanın törəmələrini müsəlmanların canına, malına və namusuna hakim etdi. Beytül-malı da onların tam ixtiyarına verdi. Xalqın etirazlarına belə cavab verirdi: "Əgər cənnətin açarları mənim əlimdə olsaydı, onu o vaxta qədər Bəni-Üməyəyə verərdim ki, onların axırıncı nəfərinə qədər cənnətə daxil ola."[6]

## 4. SEÇILMIŞ SƏHABƏLƏRLƏ PIS RƏFTARI

Xəlifənin Əbuzər, Əmmar Yasir, Abdullah ibn Məsud və Malik Əştər kimi seçilmiş səhabələrlə insafsız, qəddar rəftarı o həddə çatmışdı ki, sünnü tarixçilərinin çoxu onu müəyyən qədər öz tarixlərində gətiriblər. Tarixçilər yazırlar: Osmanın Əbuzər kimi bəzi fəzilətli səhabələrə qarşı elə rəftar etdi ki, qələm onları yazmaqdan həya edir! Misal üçün, Osman Əbuzəri ailəsi ilə birgə quraqlıq yer olan Rəbəzəyə sürgün etdi və onun həyat yoldaşı elə orada vəfat etdi.[7]Xəlifənin göstərişi ilə heç kimin Əbuzəri yola salmağa haqqı yox idi. Amma imam Əli (ə) və onun övladları Həsən (ə) və Hüseyn (ə) onu Mədinənin darvazasına qədər yola saldılar. Mərvan həzrət Əli (ə)-ı bu işdən çəkindirmək istəyəndə onların arasında mübahisə düşdü. Belə ki, Mərvanın atına qamçı vuruldu. Osman həzrət Əliyə (ə) xəbərdarlıq etdi ki,

---

ondan Müaviyənin roşununda olmağının səbəbini soruşdu. Ubeydullah dedi ki, gəlmişəm Osmanın интигамıнı səndən алам. İmam buyurdu: Allah da sənə Hyrmyzanın интигамыны tələb edir. "Murucuz-zəhəb", 2-ci cild, səh. 399.

[1] "Ənsabul-əşraf", 5-ci cild, səh. 24.

[2] "Səhihи-Бuxari", 1-ci cild, səh. 281. "Səhiи-Muslim", 2-ci cild, səh. 145, "Musnədи-Əhməd", 2-ci cild, səh. 148. "Sünənи-Бeyhəqi", 3-cü cild səh. 126.

[3] " Tarixи-Jəqubi", 2-ci cild, səh. 142. "Üsдul-rabə", 5-ci cild, səh. 91-92, "Əl-əğani" 3-cü cild, səh. 126.

[4] "İsra" surəsi, ayə: 60

[5] "Tarixyl-yməmи vəl-myluk", 11-ci cild, səh. 355-356, "Təfsiri Гyrtəbi", 10-cu cild, səh. 286, "Təfsirи-Hişapuri", 15-ci cild, səh. 51-55, "Durru- mənsur", 4-cü cild, səh. 191.

[6] "Müsnədi-Əhməd", 1-ci cild, səh. 62.

[7] "Səhihи-Бuxari", 7-ci cild, səh. 94-95, "Ənsabul- əşraf", 5-ci cilд, səh. 52-54, "Fəthul-bari" 3-cü cild, səh. 213, "Əт-təbəqatul-kübra", 4-cü cild, səh. 166-167, "Murucuз-zəhəb", 1-ci cild, səh 438-440, "Tarixi-Jəqubi", 2-ci cild, səh. 148, "Əlqədir" 8-ci cild, 292-333, "Əl-kamilu fit-tarix", 3-cü cild, səh. 43, "Şərh nəhcül bəlağə" ibn Əbil Hədid, 3-cü cild, səh. 52-59.

gərək səndən qisas alınsın. Onların arasında mübahisə ciddiləşəndə, Osman həzrət Əliyə (ə) dedi: "Allaha and olsun sən mənim yanımda Mərvandan üstün deyilsən." Həzrət Əli (ə) ona cavabında butyurdu: "Mənim kimi şəxsə belə bir sözü deyirsən?! Məni Mərvanla bir tutursan?! Allaha and olsun, mən səndən daha üstünəm, atam sənin atandan və anam sənin anandan daha üstündür." Osman bu sözlərə cavab tapmayıb oranı tərk etdi.[1]

Əbuzər Rəbəzədə vəfat etdi və elə orada da dəfn olundu. Səhabələrdən bir dəstəsi onun cənazəsinə namaz qıldılar və Abdullah ibn Məsud onu dəfn etdi. Amma Osmanın göstərişi ilə ibn Məsuda xəlifənin sürgün etdiyi şəxsi dəfn etdiyinə görə qırx şallaq zərbəsi vurdular.[2]

Vəlid ibn Uqbə Kufədə vali olan zamanlarda Osman tərəfindən ona 100 min misqal gümüş hədiyyə verildi. Abdullah ibn Məsud xəlifəyə və onun nümayəndəsi Vəlidə etiraz etdi. Vəlid İbn Məsudun etirazını Osmana çatdırdı. Xəlifə dərhal əmr etdi ki, onu Mədinəyə göndərsin. İbn Məsud Mədinəyə çatanda gördü ki, Osman mənbərdə xütbə oxuyur. Osman ibn Məsudu görən kimi onu təhqirlə söyməyə başladı və göstəriş verdi ki, onu vursunlar. Osmanın təyin etdiyi adamlar Abdullah ibn Məsudu elə vurdular ki, onun dişləri sındı.[3] Osmanın xidmətçisi Abdullah ibn Məsudu qaldırıb yerə elə çırpdı ki, Abdullah iki il evdə xəstə yatdıqdan sonra vəfat etdi. Bu müddətdə xəlifə onun beytül-maldan olan payını kəsdi.[4] Osman bir müddətdən sonra Səid ibn Ası Kufənin valisi təyin etdi. O məktubda xəlifəyə yazdı: "Mən Malik Əştərin və onun axlaq dostlarının varlığı ilə (həmin dostlar "Qurraul-Quran"* adı ilə məşhur idilər) Kufəyə hökmranlıq edə bilmirəm". Osman Səid ibn Asa məktub yazdı: "Malik və onun dostlarını Şama sürgün et!" Səid ibn As da Malik və onun doqquz nəfər dostlarını (onların arasında Kumeyl ibn Ziyad da var idi) şama sürgün etdi.[5] Başqa səhafələrdən olan Əmmar Yasəridə xəlifəyə olan etirazlarına görə işkəncə etdilər. O Osmana etiraz edib deyirdi: "Nəyə görə beytül-malın cəvahirlərini öz ailənin arasında bölüşdürürsən"? Bu etitazların ardınca Osmanın göstərişi ilə Əmmarı o qədər vurdular ki, özundən getdi və ömrünün axırına qədər fətq (qrija) xəstəliyindən əziyyət çəkirdi.[6] Bu xoşagəlməz rəftarları elə

---

[1] " Murucuz-zəhəb" 1-ci cild, səh. 689.

[2] "Şərhi Həhcül-bəlağə" Ибn Əbil-Hədid 3-cü cild, səh. 44, "Seyri dər Əl-qədir" səh. 136.

[3] " Ənsabul əşraf" 5-ci cild, səh. 36, "Şərhi Həhcül-bəlağə" Иnb Əbil Hədid, 3-cü cild, səh. 44, "Seyri dər əl-qədir" səh. 137.

[4] " Ənsabul-əşraf" 5-ci cild, səh. 36, "Tarixi-Jəqubi" 2-ci cild, səh. 147, "Əl-mustədrək ələc-səhiheyn", 3-cu cild, səh. 13, "Kənzul-ummal" 7-ci cild, səh. 54.

* Qurraul-Гuran, yəni Qur`an oxuyan (müt) .

[5] Ənsabul-əşraf" 5-ci cild, səh. 39-40, "Tarixül-üməmi vəl-müluk","," 5-ci cild, səh. 88-90, "Trixi əbil fida" 1-ci cild, səh. 168, "Şərhi nəhcul bəlağə"ibn Əbil Hədid, 2-ci cild, səh. 129-130.

[6] "Ənsabul-əşraf" 5-ci cild, səh. 48-49, "Əl-imaməтy vəs-siyasəт" 1-cild, səh. 23, "Əttəbəqatul kübra"3-cü cild, səh. 185, "Şərhi nəhcül bəlağə" ibn Əbil Hədid, 3-cü cild, səh. 47-52. "İstiab"2-ci cild, səh. 422, "Seyri dər əlqədir"səh. 139.

bir şəxsə qarşı etmişdilər ki, onun tə`rifində Qur`an ayəsi nazil olmuş [1] və müsəlmanlar da bu məsələdən tam agah idilər.[2]

## OSMANIN TƏRƏFINDƏN TƏYIN OLUNMUŞ MƏNSƏB SAHIBLƏRI

Düzdür ki, ikinci xəlifə, Osmandan iltizam almışdı ki, xilafətə gələndən sonra öz qohumlarından heç birini mənsəblərə təyin etməsin. Buna baxmayaraq, xilafətindən bir il keçəndən sonra ikinci xəlifənin təyin etdiyi bütün mənsəb sahiblərini öz vəzifələrindən kənarlaşdırıb və Bəni Üməyyə qəbiləsinin nümayəndələrini həmin mənsəblərə təyin etdi. Halbuki, Islam Peyğəmbərinin (s) lətafətli və sülhsevər ruhiyyəsinə rəhmən və eyni zamanda hərbi qüdrətə ehtiyac duyulan zamanda belə, heç vaxt siyasi və ictimai mənsəbləri Bəni Üməyyə qəbiləsinə tapşırmadı. Peyğəmbər (s) onları həmişə məzəmmət edir və müsəlmanları onlardan uzaq olmağa çağırırdı. Osmanın islam ölkələrinin ən mühüm və həssas məntəqələrində təyin etdiyi mənsəb sahibi bunlardır:

Kufə: Vəlid ibn Uqbə ibn Əbi Muit* (ikinci xəlifənin təyin etdiyi Səd ibn Əbi Vəqqasın yerinə) və Səid ibn As ibn Uməyyə.**

Misir: Abdullah ibn Səd ibn Əbi Sərh (ikinci təyin etdiyi Əmr ibn Asın yerinə).

Bəsrə və Fars: Abdullah ibn Amir ibn Kəriz (Əbubəkr və Ömər tərəfindən təyin edilmiş Əbu Musa Əşərinin yerinə).***

Şam: Müaviyə ibn Əbi Süfyan. Bunlardan başqa Mərvan ibn Həkəm Mədinədə xəlifənin müşaviri kimi tanınırdı.[3]

### Vəlid ibn Üqbə

O, Peyğəmbərin (s) zamanında öz ləyaqətsizliyini əməldə sübut edən Vəlid, Rəsulullahın (s) tərəfindən Bəni Mustələq tayfasından zəkat yığmağa göndərilmişdi. Bəni Mustələq tayfası onu qarşılamağa çıxanda o elə təsəvvür etdi ki, onu öldürmək istəyirlər. O, vəziyyəti belə görüb Mədinəyə qayıtdı və fəryad etdi ki, Bəni Mustələq tayfası mürtəd olub və müsəlmanların əleyhinə qiyam ediblər. Həmin anda "Nəbə" ayəsi nazil oldu:[4] [1] اِن جائكم فاسق بنبـأ فتبيّنو Bir gün Vəlid Əli (ə)-a dedi: "Mən səndən daha

---

[1] "Nəhl" surəsi, ayə: 106.

[2] " Əl-qədir" 9-cu cild, səh. 20-28.

* Osmanın anadan бир olan qardaşı.

** Atası Бədr müharibəsində гәтлә јетирилән müşriklərdən idi. "Əttəbəqatul kübra" 2-ci cild, səh. 11, "Усдul-ғabə", 2-ci cild, səh. 310.

*** Abdullah ibn Amir ibn Kəriz ibn Rəbiə ibn Həbib ibn Əbduşşəms Osmanın xalası oğludur.

[3] "Əlistiab" 2-ci cild, səh. 353. Mərvan Məkkədə dünyaya gəlмиш, atası Taifə sürgün olyнduğuna görə, orada boya-başa çatmışdır. O Mədinədə yaşayırdı və Peyğəmbəri (s) görməyənlərdən idi. Ikinci Müaviyənin (Yəzidin oğlu) иstefasından sonra Mərvan hicrinin 64-cü ilində Dəməşqdə xilafətə gəlir və mərvanilər syлaləsinin bünövrəsini qoyur. Mərvan xilafətə gəldikdən on ay sonra öldü. Bəzilri yazır: Ümmi Xalid adьında olan arvadı onu yuxuda olarkən boğmuşdur. Mərvanilər sülaləsi hicrinin 64-cü ilindən 132-ci ilinə qədər davam etdi.

[4] "Əlisabə"3-cü cild, səh. 637, "Ustulqabə" 5-ci cild, səh. 90.

natiqəm." Həzrət Əli (ə) onun cavabında buyurdu: "Sən ancaq fasiqsən!" Ola bilsin bu cavab həmin ayəyə istinadən deyilirdi. Sonra bu ayə nazil oldu:

أفمن كان مومناً كمن كان قاسقا[2]

Vəlid şərab içməyə və çirkin işlərlə məşğul olmağa adət etmişdi.[3] Onun xristian bir dostu var idi. Onunla gecələr şərab içir və başqa çirkin işlərlə məşğul olurdu. O bir gün məst halında sübh namazına pişnamazlıq edib, dörd rükət qıldı.[4] Bu şeri: علق القلب الربابا_ بعد ان شابت و شابا Həmd və surənin yerinə oxudu. Rüku və səcdə halətində nərə çəkib deyirdi: اِشْرِبْ وَ اسقنی (şərabı iç və bizə içirt).[5] namazdan sonra müsəlmanlara məsxərə ilə dedi: "Əgər istəyirsinizsə, sizin üçün iki rükət də əlavə qılım.[6]

Sonra məscidin mehrabına qusdu.[7] Müsəlmanlar fürsətdən istifadə edib onun barmağından dövlət möhürü olan üzüyünü çıxartdılar və hamılıqla Mədinəyə gedib əhvalatı Osmana danışdılar. Osman qəzəblə onları təhdid etdi, qamçılayıb özündən uzaqlaşdırdı. Onlar hadisəni həzrət Əli (ə)-a (və bəzilərinin dediyinə görə) Ayişəyə danışdılar. Müsəlmanlar arasında səs küy qalxdı. Həzrət Əli (ə) Osmana xəbərdarlıq etdi ki, Vəlidi şallaqlasın. Xəlifə naçar qalıb Vəlidə şallaq vurmaq qərarına gəldi. Vəlidə qalın yun libasla geyindirib sonra təhdid ilə dedi: "Hər kəsin cürəti var qabağa gəlsin və ona şallaq vursun." Müsəlmanlarda süstlük əmələ gəldi. Elə bu vaxt həzrət Əli (ə) ona şallaq vurmsğı öz öhdəsinə götürdü.[8]

**Abdullah ibn Səd ibn Əbi Sərəh**

O, Osmanın süd qardaşı idi.[9] Peyğəmbərin (s) Məkkənin fəthi zamanı onu və onun atasını "Allah və Onun Rəsulu (s) ilə vuruşan şəxslərdən saydı və onların

---

[1] "Hücyrat" surəsi, ayə: 6. (Əgər fasiq şəxs sizin üçün бир xəbər gətirsə, onun barəsində təhqiq edin. ).

[2] "Səcdə" surəsi, ayə: 18. "Camиul-bəyan fi təfsiril-Qur`an", 21-ci cild, səh. 62, "Əsbabun-nuzul", səh. 263, "Zəxairul uqba" səh. 88, "Əlmənaqib" Xətib Xarəzmi, səh. 197 "Kifayətuttalib" səh. 54-55, "Durrul mənsur" 5-ci cild, səh. 178, "Şərhi nəhcül bəlağə" ibn Əbil Hədid, 6-cı cild, səh. 292-293.

[3] "Ələqani" 4-cü cild, səh. 178, "Ustulqabə" 5-ci cild, səh91, "Murucuzzəhəb" 1-ci cild, səh. 435.

[4] "Müsnədü Əhməd" 1-ci cild, səh. 144, "Sünənu beyhəqi" 8-ci cild, səh. 318, "Tarixi-Yəqubi"," 2-ci cild, səh. 142, "Əlkamilu fittarix" 3-cü cild, səh. 40, "Seyri dər əlqədir" səh. 136.

[5] "Murucuzzəhəb" 1-ci cild, səh. 435.

[6] "Əlimamə vəssiyasə" 1-ci cild, səh. 32, "Ustulqabə" 5-ci cild, səh91-92, "Tarixi-Yəqubi"," 2-ci cild, səh. 142, "İqdul fərid" 2-ci cild, səh. 277.

[7] "Usдul-ғabə" 5-ci cild, səh91, "Tarixi-Yəqubi"," 2-ci cild, səh. 142, "Ələqani"4-cü cild, səh. 176, Səid ibn As Kufəyə vali təyin olunandan sonra göstəriş verdi ki, məscidin mehrab və mənbərini yusunlar. "Ənsabul əşraf" 5-ci cild, səh. 35, "Murucuzzəhəb" 1-ci cild, səh. 436.

[8] "Ənsabul-əşraf" 5-ci cild, səh. 33, " Murucuzzəhəb" 2-ci cild, səh. 336, "Ələqani" 4-cü cild, səh. 178. Xejruddin Zərkoli "Əl-ə`lam" kitabında yazır: Vəlid ikinci xəlifənin dövründə Бəni-Təғlиb tayfasından zəkat və sədəqə toplayırdı. Osman öldүrүləndən sonra Шşama qaçıb oranın sakini oldu. Orada qaldığı zaman həzrət Əli (ə)-la Müaviyə arasında olan ixtilafı şiddətləndirirdi.

[9] "Ənsabul-əşraf", 5-ci cild, səh. 28.

qanını hədər bildi.[1] Abdullah Peyğəmbərin (s) zamanında mürtəd olan ilk adam idi.[2] O, Məkkənin fəthindən qabaq mürtəd oldu və Mədinədən Məkkəyə qaçdı. Orada yalandan şaiyə yayırdı ki: "Mən Mədinədə Mühəmmədə (s) hər nə desəydim, o da qəbul edib və Qur`anda yazırdı". Rəsuli-Əkrəm (s) buyurdu: "Əgər Abdullah özünü Kəbənin pərdəsindən belə assa, onu öldürün!" Məkkənin fəthi zamanı Osman onu öz evində gizlətdi. Sonra Rəsulullahdan (s) aman istədi və həzrətdən istədi ki, onun keçmişdə etdiyi pis işlərə göz yumsun. Peyğəmbər (s) onun əfv olunmağı ilə müvafiq deyildi, bir qədər sükut etdi. Sanki gözləyirdi ki, ətrafında olanlardan biri Abdullahı öldürsün. Heç kimin bu işi görmədiyini görəndə Osmanın onun haqqında istəyini qəbul etdi. Osman bayıra çıxandan sonra Peyğəmbər (s) buyurdu: "Sükut etdim ki, bəlkə sizlərdən biriniz onu öldürəsiniz, amma belə etmədiniz!" [3] (Mən deməmişdimmi ki, əgər o özünü Kəbənin pərdəsindən assa belə onu öldürün?!). Məqdisi yazır: Abdullah ibn Əbi Sərəh Misirdə zülm və fisqi-fücurdan başqa heç bir işlə məşğul olmurdu. Yazırlar ki, o, bir nəfərin intiqamına görə 700 nəfəri öldürdü.[4] Misirlilər onun zülmündən və fasiqliyindən şikayət edəndə Osman onların bəzilərini vurdu və bəzilərini öldürdü. Müsəlmanların qiyamı son nöqtəyə çatdı və Misirdən yetmiş nəfər Mədinəyə Osmanın yanına gəlib ondan Abdullahın valilikdən kənarlaşdırılmasını istədilər. Xəlifə onlardan soruşu: Misirin valiliyi üçün kimi ləyaqətli görürsünüz? Onlar Məhəmməd ibn Əbubəkri seçdilər. Osman Misirin valilik hökmünü onun üçün yaxdı. Amma cızılmış plan ilə istəyirdi ki, Mühəmmədi və Misirin bütün şikayətçilərini öldürsün. Məhəmməd ibn Əbubəkr və onunla birlikdə olanlar Misirin yolunda olarkən Osmanın qulunu xəlifənin imzası və möhürlü olan məktubunu gördülər. Onla qəzəbli halda yenidən Mədinəyə qayıtdlar və məktubu xəlifəyə göstərdilər. Amma o iddia edirdi ki, o məktubdan xəbəri yoxdur. Həzrət Əli (ə) buyurdu: " Bu sənin möhür və imza və sənin qulun deyilmi?" Osman and içirdi ki, bu məktubun məzmunundan xəbəri yoxdur. Misirlilər dedilər: " Əgər bu məktubu sən yazsan və ya Mərvan yazsa, necə ki, sənin möhürün onun əlindədir sən rəhbərliyə ləyaqətsizsən və gərək Mərvanı da cəzalandırasan." Osman onlara çox etina etmədi. Abdullah eləcə Misirdə qaldı. Çox çəkmədi ki, Osman öz qohumlarından himayə etdiyinə görə öldürüldü. Zərkoli "Əl-ə`lam" kitabında yazır: Abdullah ibn Əbi Sərəh Afrikanı fəth edən sərkərdə kimi tanınırdı. Abdullah Osman öldürüldükdən iki il sonra (qəmərinin 37-ci ili ) Əsqəlanda öldü.

---

[1] "Tarixi Əbil-Фida", 1-ci cild, səh. 206, "Əl-isabə" 2-ci cild, səh. 309. İbni Həcər yazır: Rəsulullah (s) Məkkəni fəth edən zaman dörd nəfərdən başqa (onların əlindən acığlı idi) bütün müşrikləri əфв etdi. O dörd nəfərdən biri Abdullah ibn Sərhin atası idi.

[2] "Əl-bədu vət-tarix" 5-ci cild, səh. 200.

[3] "Ənsabul əşraf" 5-ci cild, səh. 49, "Əlisabə" 2-ci cild, səh. 317, "Əlcamiu liəhkamil Qur`an" 7-ci cild, səh. 40, "Əsirətul nəbəviyyə" 4-cü cild, səh. 51, "Əlmustədrəkü ələlsəhiheyn" 3-cü cild, səh. 107.

[4] "Əlbədu vəttarix" 5-ci cild, səh. 201. Sünnü təfcirlərində yazırlar: Ənam surəsinin 91-ci ayəsi (zalimləri məzzəmmət edir) Abdullah ibn Sərhin və onun həm əqidələrinin barəsində nazil olubdur. "Təfsiri Beyzavi, Qirtybi, Kəşşaf və Razi".

**Həkəm ibn Əbil-As**

O, Mərvanın atası və Osmanın əmisi idi. Məkkənin fəthi zamanı müsəlman olmuşdu və tuləqadan (azad olunmuş) sayılırdı. Tarix mənbələri onu münafiq olaraq qeyd edirlər. Belə ki, həmişə göz, qaş, əl və dil ilə Peyğəmbəri (s) istehza edib və o həzrətin yol getməsini təqlid edirdi. Bir gün Peyğəmbər (s) yol gedərkən öz arxasına baxdı və Həkəmin onu məsxərə edərkən gördü. Peyğəmbər (s) onu qarğış etdi ki, elə o halda qalsın. O dərhal bədən əsməsinə düçar oldu və ömrünün axırına qədər məsxərəli sifəti var idi.[1] O namaz qılarkən Peyğəmbərə (s) cəsarətini əsirgəmirdi və nəhayət Peyğəmbər (s) onu və övladlarını Taifə sürgün etdi. Peyğəmbər (s) onu haqqında deyirdi: "Allaha pənah aparıram bu kişinin sülaləsindən[2]. Allahın lənəti olsun ona və onun nəslinə ki, məlun kərtənkələdirlər!"[3] Ayişə Mərvana deyirdi: "Rəsulullah (s) atanı bir halda ki, sən onun nəslindənsən lənətlədi və sən də Allahın və onun rəsulunun (s) lənətlədiyi bir çirkin adamsan"[4] Həkəm ibn Əbil-As birinci və ikinci xəlifənin dövründə sürgündə idi. Osman həmişə çalışırdı ki, onu geri qaytarsın. Ikinci xəlifə öləndən sonra Osman onu Mədinəyə çağırdı və yüz min gümüş sikkə ona hədiyyə edib Quzaə qəbiləsinin zəkatını yığmağı ona həvalə etdi. zəkatlar yığılandan sonra ondan ona üç yüz min gümüş sikkə bağışladı.[5]

## QIYAMIN BAŞLANMASI

Əllamə Əmini (r.ə) Bilazəridən nəql edərək yazır: "Hicrinin 34-cü ilində müsəlmanlardan Osmanın dini və siyasi üslubu ilə müxalif olan bir dəstəsi üç böyük şəhərlərdən (Kufə, Bəsrə və Misir) gəlib Məsucidül-Həramda Osmanın əməlləri ilə əlaqədar danışıqlar apardılar. Onlar bu qərara gəldilər ki, öz məntəqələrinə qayıdandan sonra xalqı xəlifəni pis rəftarından agah etsinlər və camaatı özləri ilə birləşdirib sonrakı ildə Mədinədə görüşsünlər, xilafət haqda bir qərara gəlsinlər. Əgər xəlifə öz keçmiş işlərindən peşman olub işləri yoluna qoysa ona toxunmasınlar, əks halda isə, onu vəzifədən kənarlaşdırsınlar."[6] Sonrakı ildə Əbdur-Rəhman ibn Udeysin başçılığı ilə altı yüz nəfər Misirdən, iki yüz nəfər Həkim ibn Cəbələ Əbdinin başçılığı ilə Bəsrədən və iki yüz nəfər Malik Əştərin başçılığı ilə Kufədən Mədinəyə yollandılar. Yol əsnasında başqa bir dəstə də onlara qoşuldu.[7] Mədinədə onların sayı iki qat oldu. Ayişənin, Zübeyrin və Təlhənin tərəfdarları da onlarla birləşdilər.[8] Bu e`tiazçı dəstələrin müxtəlif hədəfləri var idi. Bunlardan Təlhə kimi bəziləri siyasi

---

[1] "Əl-isabə", 1-ci cild, səh. 345-346, "Şərh nəhcül bəlağə" ibn Əbil Hədid, 6-cı cild, səh. 149, "Ənsabul əşraf" 5-ci cild, səh. 27.

[2] "Kənzulı ummal" 6-cı cild, səh. 40.

[3] "Əlmustədrəku ələlsəhiheyn" 4-cü cild, səh. 526.

[4] "Şərhi nəhcül bəlağə" ibn Əbil Hədid, 6-cı cild, səh. 150, "Əlcamiu liəhkamil Qur`an" 16-cı cild, səh. 197, "Ələmustədrəku ələssəhihəyn" 4-cü cild, səh. 528, "Əlkamilu fittarix" 2-ci cild, səh. 510, "Ələqani" 17-ci cild, səh. 357.

[5] "Ənsabul əşraf" 3-cü cild, səh. 28.

[6] "Əlqədir" 9-cu cild, səh. 168.

[7] "Murucuzzəhəb" 2-ci cild, səh. 347, "Əlbədu vəttarix" 5-ci cild, səh. 203.

[8] "Əliqdul fərid" 5-ci cild, səh. 58.

dəstə idi. Bir çoxları da – Malik Əştər kimi dini məqsəd güdürdülər. Birinci dəstədən olan bəziləri Osmanın hökumətinin sayəsində çoxlu sərvətə iqtisadi qüdrətə və ictimai nüfuza malik idilər. Amma hökumət səviyyəsində olan bütün işlər Bəni Üməyyənin əlində olduğuna görə çox narahat idilər və fürsət axtarırdılar ki, öz hökumətlərini qoruyub saxlasınlar. Bu dəstə digər bəzi müsəlmanlar kimi qoyulan bidətləri sünnə kimi qəbul edir və Xəlifənin ictihadlarına etiraz etmirdilər. Yalnız dövlət vəzifələrindən məhrum olduqlarına görə narahat idilər. Müxalif qüvvələr xilafətin mərkəzini mühasirəyə alib xəlifə ilə danışıq aparmaq istədilər. Osman əvvəlcə Mügeyrət ibni Şöbəni göndərdi ki, onları sakit edib geri qaytarsın. Müxaliflər onu görən kimi fəryad etdilər. "Ey bir gözlü pis adam!". Ondan sonra Əmr ibn As xəlifə tərəfindən müxaliflərin arasına çıxıb demək istəyirdi: "Xəlifə deyir: Allahın kitabı nə göstəriş versə ona əməl edəcəyəm. Sizinlə pis rəftarıma görə üzr istəyirəm və səy edəcəyəm ki, işin öhdəsindən gəlim." Əmr hələ öz sözünə başlamamışdı ki, camaat onu söyməyə başladılar və dedilər ki, "Sən Məkkənin bədnam (fahişə) qadınının oğlusan. Sənə inanmaq olmaz." Osmanın ətrafında olan bəziləri dedi: "Bu iş yalnız həzrət Əli ibn Əbu Talibin (ə) əli ilə həll ola bilər." Osman o həzrəti yanına çağırıb dedi: "Bu camaatı Allahın kitabına və Peyğəmbərin sünnəsinə əməl etməyə dəvət et!" Həzrət Əli (ə) buyurdu: " Bu işi bir şərt ilə qəbul edirəm ki, əhd-peyman bağla ki, bu vaxta qədər sənin tərəfindən onların xeyrinə aldığım zəmanətə (Allahın kitabı və Onun Rəsulunun (s) sünnəsinə) vəfa edəsən." Osman şərti qəbul etdi. Həzrət Əli (ə) müxaliflərin yanına getdi, amma onlar xəlifənin əhd-peymanına inanmadılar. Həzrət Əli (ə) ona zamin olmayana qədər qəbul etmədilər. Nəhayət onlar Həzrət Əli (ə) zəmanəti ilə Osmanın yanına getdilər və onlar arsında olan danışıqlar son nöqtəyə çatdı. Axırda rəsmi qərara gəldilər ki, xəlifə rəsmi yazılmış surətdə əhd-peyman bağlasın ki, müsəlmanların istədiklərini yerinə yetirsin. Əhdnamənin mətni belədir: "Bu yazı Allahın bəndəsi və Əmiril-möminin o kəslərdir ki, onu tənqid ediblər. Xəlifə əhd-peyman bağlayır ki, Allahın kitabına və Peyğəmbərin (s) sünnəsinə əməl etsin. Məhrumlara hər nə istəsələr, versin, qorxu içində olanların əmniyyətinə təminat versin. Sürgün olunanlar öz vətənlərinə qayıtsın. Həzrət Əli (ə) möminlərin və müsəlmanların müdafiəçisidir. Osman gərək bu əhd-peyamana əməl etsin." Bu məktub hicrinin 35-ci ili Ziqədə ayında yazıldı. Dəstələrin hamısı o bəndlər üzrə yazını[1] alıb öz şəhərlərinə qayıtdılar. Misirlilərin məktubunba Abdullah ibn Əbi Sərəhə belə yazılmışdır: Bu məktub çatan kimi şəhərin valisi xalqın istəyi ilə Məhəmməd ibn Əbibəkrin öhdəsinə verilsin." Amma yolda olarkən Osmanın xidmətçisini gördülər ki, tələm-tələsik surətdə Misirə tərəf gedir. Misirlilər ondan şübhələr güman etdilər ki, Osmanın tərəfindən Misirin valisi Abdullah ibn Əbi Sərəhə məktub aparır. Təftiş etdikdən sonra su tuluğunun içindən uzun surətdə bükülmüş məktub tapdılar. Məktubda bu sözlər yazılmışdı: "Ey Abdullah! Əmr ibn Budeyl Misirə çatan kimi onu boynunu vur. Kənanənin, Urvənin və ibn Udeysin əllərini kəs və qoy qanına qəltan olsun, sonra onları dar ağacından as." Bu məktubu görən misirlilər özlərindən çıxdılar və hamılıqla Mədinəyə qayıtdı.

[1] "Ənsabul əşraf"5-ci cild, səh. 62.

Onlar Həzrət Əli (ə)-la görüşüb məktubu ona verdilər. Həzrət Əli (ə) məktubu osmanın yanına apardı. Osman bildirdi ki, məktub onun katibinin xətti ilə yaxılıb və möhür də onun möhürüdür, amma and içdi ki, bu işdən xəbərsizdir. İşin zahiri görünüşü onun sözünü təsdiq edirdi. Çünki o günlərdə xəlifənin möhürü Həmran ibn Əbanın əlində idi. O Bəsrəyə gedəndən sonra möhürü Mərvana vermişdi.[1] Misirli heyətin nümayəndəsi Osmana dedi: "Əgər bu məktubdan sənin xəbərin olsa sən xəyanətkarsan və əhd-peymanı sındırmısan və əgər xəbərin olmayıbsa sənin xilafətə ləyaqətin yoxdur. Elə buna görə gərək xilafətdən gedəsən və Mərvan da cəzalandırılsın." Osman onların sözlərinə əhəmiyyət vetməyib Mərvanı və başqalarını müdafiə edirdi. O, öz mövqeyini belə bildirdi. "O libası ki, Allah mənə geyindirib, heç vaxt çıxartmayacağam. Əgər mən sizin istəyinizə əməl etsəm, belə çıxır ki, siz hökumət başındasız, mən yox!"[2] Siz mənə irad tutduğunuz və ona görə məni söyduyunuz həmin bəzi işləri Ömər ibn Xəttabdan qəbul etmisiniz. O sizin başınızdan vurub elə sakit edirdi ki, heç kim gözünün ucu ilə ona baxa bilmirdi. Amma bilin! Mənim köməkçilərim ondan çoxdur."[3] Bundan sonra müxaliflər ikinci dəfə olaraq Osmanın evini elə möhkəm mühasirəyə aldılar ki, hətta içəriyə su belə, aparmağa qoymadılar. Osman müxaliflərinin bu etirazlarının ciddi olduğunu görüb divarın üstünə qalxdı və fəryad etdi: "Bir kəs yoxdur ki, Həzrət Əliyəxəbər versin, bizə su çatdırsın?!" Bu xəbər Həzrət Əli (ə)-a çatan kimi Həsən (ə) və Hüseyn (ə)-ın və bəni haşimdən olan neçə nəfərin köməyi ilə üç tuluq suyu xəlifənin evinə göndərdi. Mühasirəçilər suyun evə aparılmasına mane oldular. Çəkişmələrdə Bəni Haşimdən bir neçə nəfər yaralandı, nəhayət, suyu evin içinə apardılar. Bu müddətdə Mərvan həmişə Osmanı vəsvəsə edirdi ki, bu işlər o zaman düzələr ki, Əli öldürülsün. Amma həqiqət bunun əksinə idi. Əgər Osman Mərvanı müxaliflərə təhvil versəydi və bəzi islahatlar həyata keçirsəydi o zaman vəziyyət sakitləşərdi. Sadaladığımız bu amillərdən başqa müsəlmanların qiyamının ən mühüm və onun öldürülməsinə səbəb olan amili Osmanın Mərvanı müdafiə etməsi və müsəlmanların tənqidlərinə əhəmiyyət verməməsi idi. Belə ki, Əmr ibn As da Müaviyəyə məktubunba Osmanın axmaqlığına işarə etmişdi. Müaviyə Əmr ibn Ası Misirə vali təyin edəndən sonra Əmr ibn As Misirdən Şama maliyyə göndərməkdən imtina etmişdi. Müaviyə məktubla danlayıb təhdid etdi. Əmr məktub ilə ona "Culculiyyə" qəsidəsi adı ilə məşhur olan cavab yazdı. O yazır: "Ey Müaviyə! Keçmiş hadisələri unutma... O mən idim ki, müsəlmanlara deyirdim onların namazları sənsiz qəbul deyil... O şəxs mən idim ki, müsəlmanları məcbur etdim o axmağın (Osman) intiqamına görə Əli (ə) ilə vuruşsunlar."[4]

[1] "Murucuzzəhəb" 2-ci cild, səh. 344.
[2] "Tarixi üməmu vəl muluk"3-cü cild, səh. 402-409, "Tarixi-Yəqubi","2-ci cild, səh. 150-151.
[3] "Tarixi xuləfa" ibn Quteybə, 1-ci cild, səh. 31.
[4] "Seyri dər əlqədir" səh. 44-45.

# OSMAN IBN ƏFFANIN ÖLDÜRÜLMƏSI

İmam Əli ibn Əbu Talib (ə) "Nəhcül-bəlağə"də buyurduğuna əsasən Osmanın hökumətini adil hökumət hesab etmir və onu Peyğəmbərin (s) sünnəsinin icraçısı bilmirdi. Osman, Ömər ibn Xəttabın göstərişinə əsasən xilafətə çatdıqdan sonra, İmam (ə) belə buyurdu: "Xilafət (əvvəllərdə) bizim haqqımız olub, indi də bizim haqqımızdır." Bu kəlam Osmanın hökumətinin qəsbkar olduğunu tanıtdırırdı. İmam Əli (ə) Osmana beyət etmədi. Qədir hədisini və özünün digər fəzilətlərini onların yadına salıb buyururdu: "İnsanlar kimə tabe olmaqlarını bilməyənə qədər onları məcbur etməyəcəyəm." Müsəlmanların işləri onların istədikləri kimi olarsa, mən də hamı kimi hökumətə tabe olacağam."

Bununla belə, müsəlmanlar Osmanın əleyhinə qalxdıqda, bu hökumətə qarşı çıxmayıb, inqilabçıları sakitliyə dəvət edən yalnız Əli ibn Əbu Talib (ə) idi. İmam buyurur: "Osmanı o qədər müdafiə etdim ki, qorxdum bundan artıq müdafiə etsəm, günahkar hesab ediləröm" [1] İmamın bu hökuməti müdafiə etməsi müxtəlif cəhətlərdən araşdırılarsa , bu haqda fikir söyləmək məqsədə uyğun olmaz. Imam nəyi qoruyurdu, inqilabçıları nədən uzaqlaşdırırdı və bu hərəkatın arasında nə görürdü? Bu haqda aşağıda qeyd olunan məsələlər araşdırılmalıdır:

1. İmam (ə)-ın siyasi baxışı;
2. İmam (ə)-ın rəftarına təsir edən amillər;
3. İmam (ə)-ın öz rəftarı haqqında fikiri;
4. Digərlərinin bu haqda olan fikirləri.

**1. İmam (ə)-ın siyasi baxışı.**

Bu mövzu haqda aşağıdakı məsələlərə diqqət yetirmək zəruridir.

1) İmamın (ə)-ın fərdi və daxili əqidəsini, yəqin ki, onun siyasi baxışından ayırmalıyıq. O həzrətin bu haqda olan kəlamları,bu əməlin siyasi sahəyə aid olduğunu bildirir. Belə ki, İmam Əli (ə) öz hökuməti zamanında da Osman haqqında olan fərdi və daxili əqidəsini aşkar şəkildə bəyan edə bilirdi. Necə ki, iki xəlifə haqqında da ehtiyatla danışırdı.

2) İmam (ə)-ın bu hadisəyə dəxalət etməsi öz daxili istəyinə görə deyil, əksinə Osman və inqilabçıların istəyinə əsasən idi.

3) Mərvan Əli (ə)-dan xəlifəyə müxtəlif sözlər çatdıraraq və xəlifəni İmamdan (ə) qorxudurdu. Bu səbəbdən Osman dəfələrlə İmamdan (ə) Mədinədən çıxmağını istəmiş və o həzrət heç bir etiraz etmədən qəbul etmişdi. Tarixə istinadən, müsəlmanlar Osmanın hökumətinə qarşı qalxmazdan öncə Əli ibn Əbu Talib (ə) bu hökumətə qarşı heç bir hərəkət etməmişdir. O, xəlifəni müsəlmanların qəzəbinə səbəb olan işlərdən çəkindirirdi. Camaat xəlifəyə qarşı çıxan günlərdə belə ona deyirdi: "Səni and verirəm, elə bir iş görmə ki, ümmətin əli ilə öləsən!" Çünki Peyğəmbər (ə) buyurdu: "Bu ümmətdə bir hakim öldürüləcək. Onu öldürmək qan tökməyi qiyamətə qədər müsəlmanlar arasında adiləşdirəcək və onları zülmətə

[1] "Nəhcül bəlağə", 24-cı xütbə.

qovuşduracaqdır. Belə ki, haqqı batildən ayıra bilməyəcəklər." Bu səbəbdən hökuməti Mərvana tapşırma ki, səni istədiyi kimi hər tərəfə çəksin.[1]

Digər bir tərəfdən Əli (ə) Osmanın müxaliflərinin mühasirəsində idi. Əli (ə)-dan onları himayə etməyi tələb edirdilər. Onların Osmandan gözlədikləri və Əli (ə)-dan, umacaqları haqq idi. Onların tələbləri qarşısında sükut, zülmə razı olmaq hesab edilirdi. Amma qeyd etmək lazımdır ki, inqilabçıların hədəfi islama və Peyğəmbərin sünnəsinə əməl etmək deyildi. Beləliklə, onları himayə hədəfi məlum olmayan dəstəyə kömək etmək hesab olunurdu.

Xəlifənin nümayəndələri camaatın qarşısına çıxdıqda onları qovurdular. Osman Əli ibn Əbu Talib (ə)-ı çağırdı.Bu zamandan sonra Osman ilə İmam (ə) arasında dəfələrlə söhbət oldu. Məhz bu günlərdə Osmanın göstərişi ilə İmam (ə) Mədinədən çıxarılır və onun onun istəyi ilə yenidən şəhərə qayıdırdı. Osman bəlkə də belə güman edirdi ki, Əli ibn Əbu Talib (ə)-in şəhərdə olması, inqilabçıları xəlifəyə qarşı qalxmaqda qüvvətləndirir. Amma tüğyan yüksəldikdə və təhlükə çoxaldıqda yalnız Əli (ə)-ı şəhərə dəvət etməklə onları sakit edə bilirdi. Osmanın Əli (ə)-dan şəhərdən çıxıb, qayıtma tələbləri elə bir həddə çatmışdı ki, İmam (ə) axırda buyurdu: "Osman məni su aparan dəvə kimi (get-gələ salmışdır). Dəfələrlə şəhərdən çıxarıb bir daha xahiş etməklə şəhərə qayıtmağımı istəmişdir."

Qeyd etmək lazımdır ki, əvvəldə inqilabların hədəfi xəlifəni öldürmək deyildi. Onların hədəfi müsəlmanlar və İmam (ə)-ın adi vəziyyətə qayıtması idi. Bu səbəbdən ləyaqətsiz hakimlərin hökumətdən kənarlaşdırılması və zülmün aradan getməsi haqda düşünürdülər. Amma xəlifənin rəftarı onları bu tələblərinə çatmaqda naümid etdikdə xəlifənin kənarlaşdırılmasına dair ciddi addımlar atdılar. Şübhəsiz, camaatın tələbinə cavab verib, hökumətdən kənarlaşsaydı, heç kimin onunla işi olmaz və nəticədə heç kim ziyan görməzdi. Vəziyyəti çətinləşdirən səbəb, xəlifənin və hakim dairəsinin keçmiş vəzifələrində sabit qalmaları idi. Əli (ə)-ın nümayəndəliyi ilə camaat və xəlifə arasında söhbətlər günlərlə davam etdi. Osmanın xidmətçisi onun dəvəsi ilə Misir hakiminə məktub apardıqda, misirlilər onu yoxladı. Hadisələr bundan sonra daha da gərginləşdi. Misirlilər Mədinədən kənarda oturaq etmişdilər. Bu zaman Osman camaatın şikayətlərinə baxmaq üçün üç gün möhlət istədi. İmam(ə)-ın razılığı ilə və yazılı şəkildə camaat dağıldı.[2] Amma bu üç gündə xəbərdar oldular ki, xəlifə silah yığıb müxaliflərə qarşı müharibəyə hazırlaşır. Üç gündən sonra vəziyyətin əsla dəyişmədiyini görən Mədinə, Kufə, Bəsrə və Yəmən əhalisi Əmr ibn Həminin nümayəndəliyi ilə, misirlilərə tərəf hərəkət etdilər. Misirlilərlə "Zaxəşəb"də Mədinəyə tərəf gəldikdə görüşdülər. Mədinəyə çatıb Osmanın evini bir daha mühasirəyə aldılar. Azuqəni və suyu evə kəsdilər.[3] Əli (ə) məktubun mövzusundan agah olduqdan sonra camaatın tələbi ilə onu xəlifənin yanına apardı. Osman məktubu yazdığını inkar etdi. Əli (ə) buyurdu: "Necə ola bilər ki, xidmətçin

---

[1] "Yenə orda , 164-cü xütbə, "Ənsabül əşraf 5-ci cild, səh. 60, " Tarixi umami vəl muluk" 4-cü cild, səh. 337, "Əlkamilu fittarix" 2-ci cild, səh. 276, "Əlbidayətu vənnihayə" 7-ci cild, səh. 168, "Əl-iqül-fərid", 4-cü cild, səh. 288, " Əli və zəmamdaran" səh. 232.

[2] "Tarixi uməmi vəl müluk" 4-cü cild, səh. 369-370, "Əlkamilu fattarix" 2-ci cild, səh. 289.

[3] "Şərhi nəcül bəlağə" 2-ci cild, səh. 152, "Tarixül-ümami vəl-müluk","," 4-cü cild, səh. 370-372.

sənin dəvən ilə sənin möhrün olan məktubu Mədinədən çıxarıb amma sən ondan xəbərsizsən?!" [1] İmam Əli (ə) bilirdi ki, bu iş Mərvanın hiyləsi və xəlifənin səhlənkarlığı üzündən olmuşdur. Bu səbəbdən xəlifəni Mərvanla məşvərət etməkdən uzaqlaşdırırdı. Amma Osman həmişəki kimi Mərvanı zirək və xeyirxah müşavir hesab edirdi.Əli (ə) buyurur: " And olsun Allaha, səni mən hamıdan çox müdafiə etdim və camaatın qabağını aldım. Amma bir söz deyəndə güman edirəm ki, qəbul etmisən. Mərvan digər bir söz deyəndə mənim sözümü inkar edib, onu qəbul edirsən."[2] Osman İmam (ə)-ın sözlərini qəbul etmədikdə, o həzrət qəzəbləndi və çıxdıqda buyurdu: "Bu fərman sənin fərmanındır"[3] Bununla belə iki övladı Həsən (ə) və Hüseyn (ə)-ın vastəsi ilə xəlifə və ailəsini su çətinliyindən qorumaq niyyətində idi. Əlbəttə, xəlifə camaatın qəzəbindən və ölümdən xilas ola bilmədi.

## HÜCUMÇULARIN QƏZƏBI

Hücumçular mühasirənin son günlərinə qədər xəlifəni öldürmək niyyətində deyildilər. Suyu və azuqəni xəlifənin üzünə bağlamaqla onu hökumət dairəsini camaatın sözlərinə əməl etməyə məcbur etmək istəyirdilər. Amma onlardan birinin xəlifə gözətçiləri tərəfindən ölümü onları qəzəbləndirdi. Hücumçular evin kənarından evə yol tapdılar. Hücumun güclü olması sarayın gözətçilərini qaçmağa məcbur etdi. Hücüçulardan bir qismi xəlifənin otağına daxil olub, onu yaraladılar. Xəlifənin həyat yoldaşı Nailə özünü ərinin yarımcan bədəninin üzərinə atdı. Amma hücumçuların zərbələri xəlifəni öldürüb, Nailənin iki barmağını kəsdi.

## QUSL VƏ DƏFN

Şiə və sünnü mənbələrinə əsasən, xəlifə Osmanın cəsədi üç gün dəfn olunmadı. Müsəlmanlardan və Bəni Üməyyədən heç kim cəsədin dəfni üçün çalışmadı: Bəni Üməyyə müsəlmanların qorxusundan, müsəlmanlar da müəyyən səbəblərə görə. Onlar yaxşı bilirdilər ki, hər bir müsəlmanın qusul və dəfni bütün müsəlmanlara vacibdir. Bununla belə, heç kim (hətta Əli ibn Əbu Talib) bu işə səy göstərmirdi. Ümmülmöminin Ayişə Osmanı müsəlmanlığı yaddan çıxaran yəhudi qoca (Nəsəl) adlandırırdı. [4] Bəlkə də bu səbəbdən onun quslunu gecikdirib, cəsədini müsəlmanların qəbiristanlığında deyil, yəhudi qəbiristanlığında dəfn etdilər. Üç gündən sonra Həkim ibn Hizamın xahişi ilə (həzrət Xədicənin qardaşı oğlu) Əli ibn Əbu Talib (ə) camaatdan xəlifənin bədənini dəfn etmək üçün ailəsinə icazə verməyi istədi. Mərvan və onun həmkarları gecə ikən xəlifəni aparıb kəfənə bükdülər. Xəlifəni dəfn etmək üçün "Bəqiyə" aparanda müsəlmanlar xəbər tutdular. Bir dəstə adam onun cəsədini daşladıqda Əli (ə) bir daha onları bu işdən uzaqlaşdırdı. Amma müsəlmanlar onun "Bəqi"də dəfn olunmasına mane oldular. Beləliklə xəlifənin cəsədi Mədinədən kənarda "Həşşi kövkəb" adlı yerdə - yəhudi qəbiristanlığında

[1] "Əlimamətu vəssiyasə" 1-ci cild, səh. 40, "Ənsabul əşraf"5-ci cild, səh. 68.
[2] "Nihayətul-ирəb", 5-ci cild, səh. 74, "Əlkamilu fittarix"4-cü cild, səh. 1708.
[3] "Ənsabul-əşraf" 5-ci cild, səh. 66.
[4] "Əl-futuh" 1-ci cild, səh. 155.

basdırdılar.[1] Sonralar Müaviyə "Bəqi" ilə o qəbiristanlıq arasında olan divarı uçurtmaqla o yeri Bəqiyə qatdı.

**2. İmam (ə)-ın rəftarına təsir edən amillər:**

Əli (ə)-ın kəlamlarından belə nəticə almaq olar ki, o həzrətin Osmanın ölümünə mane olması, onun siyasi və dini şəxsiyyətini qəbul etmək mə`nasına deyildi. Belə ki, Əli (ə)-ın müasirləri də bu həqiqətə agah idilər. Şübhəsiz, əgər xəlifənin dini və siyasi şəxsiyyəti Əli (ə) tərəfindən qəbul olunsaydı, o həzrətin tərəfdarları Osmanla müxalif cəbhədə dayanmazdılar. Yəqin ki, Əli (ə) da Osmanın ölümünə əhəmiyyətsiz yanaşmazdı. Bu səbəbdən Əli (ə)-ın Osmanın ölümünə mane olması digər amillərdən mənşələnir. Aşağıda onlardan bəzilərinə işarə edirik:

1) Böhranların şiddətlənməsi.

Heç bir insaflı alim inkar edə bilməz ki, İslam hökumətinin ilk çağlarında Əli ibn Əbu Talibin (ə) şəxsiyyəti bir neçə tədbirlə islamın həyatını xətərlə üzləşdirə bilərdi. Əbubəkrin xilafəti zamanı, Osmanın hökumətinin əvvəlləri və eləcə də Osmanın xilafətinin sonu çox böhranlı bir zaman idi. Mədinə şəhəri Osmanın əleyhinə olan inqilab nəticəsində dərin böhranla üzləşmişdi. Şübhəsiz, Əli ibn Əbu Talib (ə)-in sadə bir hərəkəti cilovlanmayan siyasi hərc-mərcliyə səbəb ola bilərdi. Qeyd etmək lazımdır ki, Mədinədə inqilabçı müsəlmanların çoxluğuna baxmayaraq, xəlifənin tərəfdarları da az deyildi. Şam şəhərinin ordusu zahirdə xəlifənin tərəfdarları kimi Mədinədən kənarda Müaviyyənin fərmanını gözləyirdilər. Bəlkə də Şam qoşununun şəhərə daxil olmaqda gecikmələrinə səbəb Əli (ə)-ın bu inqilabda rolu olmaması və xilafət üçün çalışmaması xəbəri idi. Bu vəziyyətdə İmam Əli (ə)-ın əsas fikri inqilabçıları sakitləşdirib, cilovlanmayan böhranın qabağını almaq idi. Bundan əlavəmüxaliflərdən hər bir qrupu məxsus şəhərə və ya dəstəyə aid idilər. Bu səbəbdən onları bir hədəf uğrunda birləşdirib, və ya ayırmaq mümkün deyildi.

2) Nəfsə qulluq edənlərə köməkdən yayınmaq.

Osmanın müxaliflərinin arasında mövcud olan Təlhə kimilərin məqsədi yalnız hakimiyyətə çatmaq idi. Ayişə və onun tərəfdarlarının hədəfi isə Osmanı hakimiyyətdən uzaqlaşdırmaq və ya onu öldürüb Təlhəni xilafətə gətirmək idi. Təlhə o qədər əmin idi ki, digərlərinin hökumətə gəlməyini təsəvvürünə belə gətirmirdi. Osmanın hökumətinin dağılması üçün Əli (ə)-dan kömək istəməsi Əlinin (ə) hökumətə gəlməsi üçün deyildi. O, bu yolla hakimiyyətə nail olmaq üçün Əli (ə)-ın şəxsiyyətindən bəhrələnirdi. Amma bu hədəfinə nail ola bilmədi. Osmanın evinin mühasirəyə alındığı günləndə xəlifə İbn Abbası həcc ziyarəti üçün karvan başı seçdı. Bu zaman Ayişə İbn Abbasın görüşünə gəlib dedi: "Allah Təala sənə gözəl və keçərli dil vermişdir. Camaat Təlhənin ətrafına toplanıb və tezliklə xəlifə olacaqdır. Əgər o xəlifə olarsa əmisi oğlu Əbubəkrin yolu ilə gedəcəkdir. Camaatı Osmana hücum etməkdən uzaqlaşdırma. Osmanın qətli və Təlhənin xəlifə olmağı ilə razılaş." İbn Abbas İmam Əli (ə)-ı müdafiə edərək Ayşənin ümidini qırdı. Əgər Təlhə Osmanın

---

[1] "Ət-təbəqatul-kübra", 3-cü cild, səh. 78-79, "Əl-iqül-fərid", 4-cü cild, səh. 270, "Təfsiri İbn Kəsir", 2-ci cild, səh. 68, "Təfsirul-xazin", 1-ci cild, səh. 503, "Əd-durrul-mənsur", 2-ci cild, səh. 291.

ölümündən sonra Əli ibn Əbu Talibin hökumətə gələcəyini bilsəydi, mövcud hökumətin aradan getməsi üçün əsla səy göstərməzdi. Çünki o yaxşı bilirdi ki, Osmanın bəxşişləri sayəsində böyük sərvətə nail olmuş və ictimai şəxsiyyət qazanmışdır. Əli (ə)-ın hökuməti isə ona heç bir bəxşiş etməyəcəkdir. Osmanın əlli gün mühasirəsi zamanı baş verən hadisələr gələcək xəlifənin kim olcağını təyin edə bilmirdi. Bəlkə də Misir və Yəmən əhalisi olmasaydı Təlhə xəlifə ola biləcəkdi. Amma Osmanın ölümündən sonra camaat dərhal Əli ibn Əbu Talibə (ə) üz gətirdilər. Camaatın siyasi hərəkatı elə bir səmtə yönəlmişdi ki, inqilabı istiqamətləndirənlər ondan xəbərsiz idilər. Beləliklə, Əli (ə), hökumətə nail olmaq üçün xəlifəni su içmədən öldürən insanlarla müştərək rə`yə gələ və şübhəsiz, o həzrət ictimai şəxsiyyətini onların hədəfinə qurban verə bilməzdi.

3) Siyasi bəhrələnmələr;

Əli (ə)-ın Osmana qarşı olan inqilabda iştirak etməməsinin əsas səbəblərindən biri, xəlifənin qətli ittihamından uzaq qalmaq idi. Əli (ə) səhnədən uzaq olsada Osmanın qətlindən sonra Müaviyə tərəfindən "müsəlmanların xəlifəsini öldürmək"də təqsirləndirilirdi. Müaviyə Əli (ə)-a son zərbəni vurmaq üçün Təlhə, Zübeyr və Ayişəni ayağa qaldırıb o həzrətin hökumətini sarsıtmaq üçün Cəməl müharibəsinin təməlini qoydu. Əli (ə) Osmanın əleyhinə olan inqilabda Müaviyənin Təlhə və tərəfdarlarının hiyləsini görürdü.[1] O həzrət əmin idi ki, dəxalət edərsə, sonradan ağır hücumlara məruz qalacaqdır. Əli (ə) özünü bu hadisədən uzaq saxlasa da, düşmənləri tərəfindən öz əli ilə Osmanı boğmağa təqsirləndirildi. O günlərdə Üsamə ibn Zeyd kimi şəxslər vəziyyətin ağır olduğunu görüb Əli (ə)-ın şəhərdə olmamasını istədilər. Üsamə o həzrətə deyir: "Mənin üçün aydındır ki, bu qovm Osmanı öldürəcək. Sizi istədiyimə görə Mədinədən çıxmağınızı xahiş edirəm ki, Osmanın ölümü sizin şəhərdə olduğunuz zaman baş verməsin. Çünki sən Mədinədə olduğun halda Osman öldürülsə, bəziləri bu işdə səni ittiham edəcəklər."[2] Cəməl müharibəsini nəzərdən keçirdikdə, bu müharibənin Əli (ə)-ın hökumətinin zəifləməsində böyük təsirini müşahidə edirik. Siyasi nəzərdən (İmamın gizli həqiqətlərə olan İlahi elmini nəzərə almasaq) ittiham ehtimalına əsasən, Əli (ə) Osmana qarşı yaranan inqilabda dəxalət etməməli idi və əlbəttə, dəxalət də etmədi. Çüki imamı Osmanın qətlində təqsirləndirib ona qarşı müharibə hazırlığından xəbərdar idi. Bu müharibə islam tarixində müsəlmanları ilk dəfə olaraq qarşı-qarşıya qoyurdu. Imam Əli (ə) Osmana qarşı olan inqilabdan uzaqlaşsa belə, bu ittihamdan uzaqlaşa bilmədi. Nəticədə müharibə baş tutdu. Amma tarix şəhadət verir ki, imam Osmana qarşı olan inqilabda münasib mövqe seçmişdi. Çünki imam (ə) Cəməl müharibəsinin baş verəcəyindən yaxşı agah idi. Cəməl müharibəsi müsəlmanların, bir peyğəmbərə iman gətirənlərin bir qibləyə namaz qılanların və yüzlərlə xüsusiyyətdə bir səfdə dayananların qarşı-qarşıya dayanması idi. Bir tərəfdə İslam Reyğəmbərinin (s) kürəkəni, əmisi oğlu və müsəlmanların xəlifəsi, digər tərəfdə isə Peyğəmbərin (s) xanımı, Təlhə və Zübeyr kimi tanınmış səhabələr dayanırdı. Bu

[1] "İslam Tarixi", Şəhid Mütəhhəri, 1-ci cild, səh. 239.

[2] "Əl-futuh", 2-ci cild, səh. 227.

müharibədə hər iki qoşundan birlikdi on dörd min nəfər həlak oldu.[1] Bu ədəd Peyğəmbərin (s) on illik müharibələrində həlak olanlardan on qat artıq idi.[2] Cəməl müharibəsi minlərlə insanın ölümündən əlavə, minlərlə insanı da şübhəyə saldı, müsəlmanların qanının hədər olmasını, eləcə də müxalif dəstə ilə (hansı bir etiqada malik olursa-olsun) müharibəni asanlaşdirib Peyğəmbər (s) və müsəlmanların xəlifəsinin göstərişindən yayınmağı adiləşdirirdi. Elə buna görə də İmam (ə) Osmanın öldürülməsi ilə razı deyildi. Osmanın hökuməti hədsiz inhiraflar və səhvlər ucbatından şəri etibarını itirsə də, siyasi qanunluğunu əldən verməmişdi. Bu səbəbdən kufəlilər və bəsrəlilər kimi onu aradan aparmaq islam hökumətinin və hakiminin əzəmətini sındırır və sonrakı qarşılıqlara zəmin yaradırdı.

4)Düşmənin sui-istifadəsi.

Osmanın qətli Bəni-Üməyyənin Əli (ə) hökumətinə qarşı mövqedə olmasının əsas səbəbi idi. Onlar bu bəhanə ilə mərkəzi hökuməti zəiflədib ardan apardıqdan sonra, İslam xilafətini ələ keçirmək niyyətində idilər. Bu səbəbdən Əli (ə)-ın Mədinənin qəzəbli inqilabçıları ilə həmkarlığı Bəni Üməyyənin bəhanəsini qəbul edilmiş hesab edirdi.

5) Bəyənilməyən mübarizə üslubu;

Bəzi vaxtlar Əli (ə) inqilabçılarla həmkarlıq etmir, əksinə, Osmanı himayə edirdi. Çünki onlardan bir qisminin rəftarı düzgün siyasi mübarizədən kənar idi. Bu səbəbdən mühasirənin son günləri Osmanın evinə su və yemək aparanların qabağını kəsirdilər. Belə ki, xəlifə dama çıxıb susuzluqdan müsəlmanlara şikayət elədi və Əli (ə)-dan kömək istədi. Əli (ə) Həsən (ə) və Hüseyn (ə)-ı Osmana su çatdırmaq üçün göndərdi. Onlar bu işə çətinliklə müvəffəq oldular. Amma camaatın qəzəbi xəlifənin ölümü ilə nəticələndi. İmam Əli (ə) Osmanın mühasirəsinə səbəb olan işləri pisləyir və buyurur: "O (Osman) nalayiq üsulla istismarçılığa əl atdı və özünü qohumlarına qurban verdi. Insanlar da səbirsizlik edib bəyənilməz yolla onun əleyhinə qalxdılar."[3]

### 3. İmam (ə)-ın öz rəftarına haqqında fikri:

Imam Əli (ə) öz xilafəti zamanı dəfələrlə Osmanın ölümü haqqında fikrini söyləmişdir. Əli (ə) buyurur: "Mən Osmanın ölümünü elə açıqlayacağam ki, ondan agah olasız. İnsanlar (nalayiq işlərlə) ona etirazını bildirirdilər, mən isə onu tövbə etməyə dəvət etdim ki, səhvləri az gözə çarpsın. Təlhə və Zübeyr bu çaxnaşmada qabaqcıl idilər. Ayişə də qəzəbli insaların sırasında idi.[4] Mən onu o qədər müdafiə etdim ki, axırda günahkar hesab olacağımdan qorxdum.[5] (həddindən artıq mudafiə etdikdə). And olsun Allaha! Mən Osmanı öldürməmişəm və onu öldürənlərə də

---

[1] "Əl-cəməl", səh. 223.

[2] Tarixçilərin nəzərinə əsasən Peyğəmbərин (s) zamanında müsəlmanların müharibələrində ölənlərin sayы min dörd yüzə çatırdı. "Tarixüл-үməmи vəl-müluk" "Əs-sirətun-Nəbəviyyə", "Tarixi-Yəqubi"," "Ət-təbəqatul-kübra". Hicrinin ikinci ilindən doqquzuncu ilinə qədər baş verən hadisələr.

[3] "Şərhi Nəhcül-bəlağə", Subhi Saleh, səh. 73.

[4] Yenə orada, Mühəmməd Əbdüh, 2-ci cild, səh. 261.

[5] Yenə orada, 240-cı xütbə.

kömək etməmişəm.[1] Mən Osmanın ölümünü istəmirdim, ondan və onun ölümündən narahat da olmadım. Onun ölümünə göstəriş vermədim, ondan çəkindirmədim də."[2] İmamın kəlamının açıqlamasında bir neçə məsələni qeyd etmək olar.

1) İmam (ə) Osmanın ölümü zamanı Mədinədən kənarda idi.[3] Tarix boyu tarixçilərdən heç biri Əli (ə)-ın Osmana qarşı olan qarşıdurmada iştirakını iddia etməmişlər.

2) Əli (ə)-ın kəlamında Osmanın ölümü barədə qeyd olunanlar, o həzrətin daxili hislərindən bir hissəsidir. Çünki İmam (ə) elə vəziyyətdə deyildi ki, daxili hislərini camaata açıqlasın. Unutmamalıyıq ki, Əli (ə)-ın xilafəti zamanı o həzrətin qoşunundan sayılan insanların bir çoxu Osmanı Peyğəmbər (s)-in xəlifəsi və müsəlmanların rəhbəri hesab edirdilər. Əlbəttə, sonralar Osmanı bir çox nalayiq işlərinə görə xilafətə layiq bilmədilər. Beləliklə, Əli (ə) müsəlmanların arasında Osmanı pisləyə və daxili hissini aşkar edə bilmirdi. Bu Əli (ə)-ın məzlumiyyətinə sübutdur. Hər kəs öz əqidəsini qorxmadan bəyan edən bir zamanda, amma Əli (ə) bu işdən məhrum və ya gərgin ehtiyatda idi.

3) Əli (ə) buyurur: "Mən Osmanı tövbəyə dəvət etdim və çalışdım ki, səhvləri az gözə çarpsın." Əgər Əli (ə) Osmanın ölümündən qabaq tövbəyə məcbur edə bilsəydi, bir çox hadisələr açılar və bu günə qədər heç kim onun səhv işlərində şübhə etməzdi. Osmanın tövbəsi ilk öncədən keçmiş səhvlərə etiraf etmək idi ki, nəticədə Osmanın Ömər vasitəsi ilə xilafət şurası tərəfindən seçilməsi, müsəlman cəmiyyətinə Peyğəmbərin (s) sünnəsinə və islam siyasətinə böyük mənfi təsiri açıqlanacaqdır. Xəlifənin səhvlərini kiçik göstərmək müsəlmanların qəzəbini yatırtmaq üçün münasib yol idi. Osman öz fikirlərindən daşınmırdı. Çünki müsəlmanların tələbləri ilə özünün yaramaz əməlləri arasında böyük fasilə görürdü. Camaat onun nalayiq əməllərindən agah olmuşdu. Bu məsələdən xəbərdar olan xəlifə (Osman) camaatın tələblərinə əməl etmək istəməyib son nəfəsə qədər öz əməllərindən əl çəkmədi. Camaatın tələblərinə əhəmiyyət verməyən bir hakimə bidətlərin və səhv siyasətin etirafı üçün fürsət yaratmaq ağla uyğun bir məhkəmə sayılırdı. Əlinin (ə) bu siyasəti bəzi vaxtlar Osmanı camaatın qarşısında tövbə etməyə sövq edirdi. Amma Mərvanın hiyləsi və xəlifənin sadəliyi üzündən bu məsələ baş tuta bilmirdi.

4) Əli (ə) camaatın Osmana etirazını qəbul edir və xəlifənin siyasətini pisləyirdi. Bununla belə buyurur: "Mən Osmanın ölümünü istəmirdim." İmamın narazılığı bu səbəbdən deyildi ki, Osman müsəlmanların rəhbərliyində ləyaqətlidir; İmam bu siyasəti ilə gələcəkdə töküləcək qanın qabağını alırdı. O həzrət islam hökumətinin zəifləməsində əsas rol oynayan Bəni Üməyyənin hiyləsindən xəbərdar idi. Bəlkə elə bu səbəbdən sonralar buyururdu: "Osmanın ölümü zamanı mənin də mövqeim

---

[1] "Ənsabul-əşraf" 5-ci cild, səh. 98, "Şərhi Nəhcül-bəlağə", İbn Əbil-Hədid, 3-cü cild, səh. 65, "Ət-təbəqatul-kübra", 3-cü cild səh. 694.

[2] "Ənsabul-əşraf" 5-ci cild, səh. 101, "Şərhi Nəhcül-bəlağə", Иbn Əbil-Hədid, 3-cü cild, səh65, Bəziləri belə rəvayət edir: "Xəlifənin ölümündən nə sevindim və nə də narahat oldum." "Ənsabul əşraf" 5-ci cild, səh. 98, "Şərhi Nəhcül-bəlağə", İbn Əbil-Hədid, 2-cü cild, səh. 126.

[3] "Məcməuz-zəvaid", 7-ci cild, səh. 230.

zəiflədi."[1] Əli (ə) gələcəkdə baş verən xoşagəlməz hadisələrə səbəb olan vəziyyətlə razılaşa bilərdimi?!

5) İmam (ə) buyurur: "Mən Osmanın ölümünə nə göstəriş verdim, nə də ondan çəkindirdim." Bu cümlə bu mənaya ola bilər ki, heç kim bu işdə o həzrətlə məşvərət etmədi. Camaat Osmandan şikayət edib İmamı (ə) həmkarlığa dəvət etsələr belə, O həzrətlə məsləhət etmədilər. Buna baxmayaraq, Əli (ə) suyun və yeməyin Osmanın evinə aparılmaması ilə razı deyildi və hamını bu işə mane olamaqdan uzaqlaşdırırdı.[2] Xəlifənin ömrünün son aylarında Səd ibn Əbi Vəqqas İmamdan (ə) istədi ki, camaatı xəlifənin ətrafından uzaqlaşdırsın. İmam Əli (ə) buyurur: "Osmanı o qədər müdafiə etmişəm ki, artıq camaatdan utanıram."[3] Cəməl müharibəsində Əlidən (ə) eşidilmişdir ki, Osmanın qətillərini lənətləmişdir. İbn Əbdu Rəbbih yazır: "Mühəmməd ibn Hənəfiyyə dedi: Mən Cəməl müharibəsində Əlinin (ə) sol tərəfində və İbn Əbbas sağ tərəfində idi. Eşitdik ki, Ayişə dedi: "Allah Osmanı oldürənlərə lənət etsin." Onun ardınca Əli (ə) da buyurdu: "Allah Osmanı öldürənləri dağda, suda və quruda lənət etsin!"[4] Şübhəsiz, belə bir qarğış Osmanla qarşıdurmada əsas rolu oynayan Ayişə və Təlhəyə cavab idi. Əks halda, bu qarğış Mədinə inqilabçıları arasında olan Malik Əştərə, Əmmar Yasirə və Məhəmməd ibn Əbubəkrə yönəlirdi. Amma Əli (ə) bu qarğışla Ayişəni ayıltmaq, Əlinin (ə) Osmanı öldürənlərdən olmadığını demək istəyirdi. Bu barədə nifrin olunan şəxs varsa oda Ayişə və Təlhədir.

**4. Digərlərin bu haqda olan fikirləri:**

Əlinin (ə) düşmənləri yersiz ittihamlarla vəziyyəti Əli (ə) əleyhinə dəyişdirsələr belə, öz sözlərində Əlinin (ə) bu ittihamlardan uzaq hesab etmişdilər. İbn Əsir və Təbərinin fikirinə əsasən, Müaviyə qəbul edirdi ki, Əli (ə) Osmanı öldürməmişdir. Amma deyirdi: O, (Əli (ə)) Osmanı öldürənlərin sığınacağıdır.[5] Nəsr ibn Müzahim yazır: Ömərin oğlu Übeydullah qisasdan qorxub Şama qaçdıqda, Müaviyə ondan istəyir ki, mənbərə çıxıb desin ki, Əli (ə) Osmanın qatillərindəndir. O dedi: "Yalandan şəhadət vermək istəmirəm. Çünki həqiqətən Əli (ə) Osmanı öldürməmişdir!"[6] Bunlardan başqa, Əmr ibn As və Mərvanın oğlu Əbdül-Məlik də Əli (ə)-ı Osmanın qatillərindən hesab etmirdilər.[7] Bilazəri, Məsudi və İbn Əbdu Rəbbih belə yazırlar: Əli (ə) məscidə çatıb Osmanın ölümündən xəbərdar olduqda qəzəbləndi. Belə ki, oğlanlarını, xəlifənin canını qorumaqda müvəffəq olmadığına

---

[1] "Təзkirətul-xəvas" səh. 130.

[2] Qeyd etmişdik ki, ilk öncə camaat Osmanı öldürmək fikrində deyildilər, bu səbəbdən Имамın onları bu işdən uzaqlaşdırmacы mənasızdır. Misirlilər Osmanın Misir valisinə göndərdiyi məktubdan xəbərdar olduqdan sonra onu öldürmək fikirinə düşdülər. Onlar Mədinəyə qayıtdıqda, İmam Əli (ə) onları bu işdən çəkindirdi. Sonda da müsəlmanları su və yeməyi kəsməklə xəlifəni öldürmək fikirindən daşındırdı.

[3] "Tarixüл-үməmи vəl-mүluk", 4-cü cild, səh. 378.

[4] "Əl-иqdül-fərid", 5-ci cild, səh. 53.

[5] "Tarixüл-үməmи vəl-mүluk", 5-cü cild, səh. 6, "Əl-kamilu fit-tarix", 2-ci cild, səh. 368.

[6] "Vəqətus-siffeyn", səh. 83.

[7] "Əl-iqül-fərid", 4-cü cild, səh. 283, "Təzkirətül-xəvas", səh. 86.

görə danladı.[1] İbn Əbil Hədid yazır: "Osmanın ölümündə ən günahsız insan Əmirəl-möminin Əli (ə)-dır."[2]

## TƏLHƏ VƏ ZÜBEYRIN ROLU

Tarixə istinadən, Təlhə və Zübeyr suyu Osmanın üzünə bağlayan ilk şəxslərdir. Onlar xəlifənin evini mühasirə etməkdə camaata rəhbərlik edirdilər.[3] Təlhə beytül-malın açarlarını ələ keçirdi və camaat özlərinə məxsus olan hissəni almaq üçün Təlhənin ətrafına toplaşdılar. Bu zaman Əli (ə) Mədinədən kənarda olan bağlarda əkinçiliklə məşğul idi. O həzrətə xəbər verdilər ki, Osman sudan məhrumdur və səndən kömək istəyir. Əli (ə) şəhərə qayıdıb Təlhəni danladı. Beytul malın qapısını sındırıb malları camaatın arasında böldü. Təlhə çox çalışırdı ki, hakimiyyətə çatmaq üçün camaatın narazılığından sui istifadə etsin.[4] Tarixçilər onu Osmanın ən qatı müxalifi hesab edirlər.[5] O, Osmanın evinin mühasirəsi zamanı Mədinə məscidində camaat namazı qılırdı.[6] İmam Əli (ə) Təlhənin Osmanın ölümündə olan rolu və məqsədi haqqında buyurur: "Camaatın arasında Osmana qarşı olan müxaliflərdən ondan (Təlhədən) üstünü yox idi. Camaatı, aşkar şəkildə dəxalət etdiyi işdə səhvə salmaq istəyirdi.[7] And olsun Allaha! Təlhə qorxurdu ki, Osmanın intiqamını ondan tələb etsinlər. Buna görə o Osmanın qanını tələb etmək üçün meydana (Cəməl müharibəsinə) daxil oldu. Çünkü o camaat arasında Osmanın ölümünə digərlərindən çox həris idi.[8] Bilazəri yazır: "Peyğəmbərin (s) səhabələrindən heç biri Osmana qarşı olan müxalifətdə Təlhə və Zübeyrə çatmazdı."[9] İbn Əbil Hədid deyir: "Osman mühasirə zamanı belə deyirdi: "Həzrəminin oğlundan (Təlhə) Allaha pənah aparıram! Ona nə qədər qızıl parçaları verdim, amma o mənim qanımı tökmək istəyir və camaatı da məni öldürməyə sövq edir. Ikinci xəlifə Təlhəni xilafətə namizəd etdikdən sonra hakimiyyət onun fikrini bütünlükdə özünə cəlb etmişdi. Osman seçildikdən sonra, rəqabət və kinə ona əzab verirdi. Osman öldükdən sonra Təlhənin xilafətə çatması onun həyatında ən gözəl an idi. Amma camaatın Əliyə (ə) tərəf olduğunu gördükdə, səbri tükəndi və Əli (ə)-la müharibə fikirinə düşdü. Imam Əli (ə) buyurur: "Əgər Təlhə Osmanın qanını mübah və halal bilirdisə, düzgün deyildi ki, qanı halal olan şəxs üçün mənimlə əhd sındırıb, müharibə etsin. Amma əgər onun qanının tökülməyini haram bilirdisə vacib idi ki, camaatı Osmanın ətrafından kənarlaşdırsın. Əlbəttə, belə bir iş görmədi. Əgər bu məsələdə şübhə

---

[1] "Ənsabul-əşraf", 5-ci cild, səh. 62, "Murucuz-zəhəb", 2-ci cild, səh. 332, "Əl-iqül-fərid", 4-cü cild, səh. 290.

[2] "Şərhi Nəhcül-bəlağə", 1-ci cild, səh. 200.

[3] "Tarixi-Jəqubi", 2-ci cild, səh. 175.

[4] "Tarixül-üməmi vəl-müluk",", 4-cü cild, səh. 431.

[5] "Əl-iqül-fərid", 4-cü cild, səh. 280, "Əl-kamilu fit-tarix", 2-ci cild, səh. 291, "Tarixi-Yəqubi"," 2-ci cild, səh. 175.

[6] "Tarixül-üməmi vəl-müluk","," 4-cü cild, səh. 371-379.

[7] "Nəhcül-bəlağə", 174-cü xütbə.

[8] Yenə orda.

[9] "Ənsabul-əşraf", 5-ci cild, səh. 81və90.

edirsə lazım idi ki, kənara çəkilib, uzaqlaşsın."[1] İbn Əbil Hədid yazır: "Demək olmaz ki, Təlhə əvvəldən Osmanın qanını halal bilirdi və sonradan bu fikirindən dönüb, onu öldürənlərdən qisas almaq fikirinə düşdü. Çünki (bu nöqteyi-nəzərdən onun özündən qisas alınmalı idi) Təlhənin dilindən nəql olunmamışdır ki, Osmana qarşı etdiyindən peşman olsun.[2]"

## AYİŞƏ VƏ MÜAVİYƏNİİN ROLU

Osmanın xilafəti əsnasında Ayişənin xəlifə ilə arası dəydi. Səbəbi də bu idi ki, Osman əməvi qohumlarını öz yerində möhkəmlətmək fikrində idi. Bu həqiqət qeyri-əməviləri ictimai şəxsiyyətini öldürməkdən əlavə, Əməvi olmayan Tələnin xilafətə çatmasının da qabağını alırdı. Təlhə Əbubəkrin əmisi oğlu idi və illər boyu xilafətə çatmaq üçün pusquda durmuşdu. Ayişə onun ən böyük hamisi idi. Ayişə Peyğəmbərin (s) cavan həyat yoldaşı, birinci xəlifənin qızı və zirək bir qadın idi. O, həmişə Osmanı Nəsələ (yəhudi qocaya) oxşadır və deyirdi: "Bu nəsəli Öldürün! Çünki kafir olub!"[3] Camaat bu cümləyə əsasən Osmanı dindən xaric olmuş hesab edir və onu qoca yaşlarında düşünülməmiş işlər görən kimi tanıyırdılar. İbn Əbil Hədid yazır: Müəllimim Əbu Yəqub belə deyirdi: "Osmanın öldürülməsinə ən çox can atan şəxs Ayişədir. Camaatı onu öldürməyə çağırırdı.[4]" Şübhəsiz, Əbubəkrin ölümü və tərəfdarları vasitəsi ilə zəhərlənmə ehtimalı və Ömərin canişini olması üçün Osmanın zəhməti, Təlhə və Ayişəni intiqam hissi ilə yaşadırdı. Osmanın Ömər ibn Xəttab ilə həmkarlığı səbəb oldu ki, Ömərin on illik hökumətindən sonra, xilafət on iki il Təym tyfasından olan Əbubəkr xanədanından uzaqlaşdı və beləliklə bu tayfadan olan Təlhənin intizarı çox uzandı.

Osmanın ölümündə Ayişə Məkkədə idi. Həcc mərasimini tamamladıqdan sonra Mədinəyə qayıdanda, Osmanın ölümündən və tərəfdarların Əli (ə)-la beyətindən xəbərdar olduqda çox narahat oldu və özünə ölüm arzuladı. Oradan (Sərf aadlı məntəqədən) Məkkəyə qayıtdı və belə deyirdi: "Osman məzlum öldürüldü! And olsun Allaha, onun qanını yerdə qoymayacağam!" Osmanın ölüm xəbərini gətirən şəxs dedi : "Dünənə qədər camaatı xəlifəni öldürməyə təşviq və onu kafir hesab edirdin. Bu gün onu məzlum hesab edirsən?!" Ayişə dedi: "İnqilabçılar ilk öncə onu tövbəyə dəvət edib, sonra öldürdülər!" [5] Osmanın ölümündə Müaviyənin rolu İbn Abbasın məktubunda özünü göstərir: "And olsun Allaha! Sən Osmanın ölümünü gözləyir və onun yoxluğunu istəyirdin. Camaatı ona kömək etməkdən yayındırırdın. Onun məktubu və səsi sənə çatdı, amma əhəmiyyət vermədin. Bilirdin ki, camaat onu öldürməyincə əl çəkməyəcəklər. Osman məzlum öldürülübsə, ən böyük zalım sənsən!"[6]

---

[1] "Şərhi Nəhcül-bəlağə", Sübhi Saleh, 9-cu xütbə.

[2] "Şərhi Nəhcül-bəlağə", 10-cu cild, səh9.

[3] "Əlfutuh" 1-ci cild, səh. 155, "Əl-kamilu fit-tarix", 3-cü cild, səh. 87, "Şərhi Nəhcül-bəlağə", İbn Əbil-Hədid, 2-ci cild, səh. 77.

[4] "Şərhi Nəhcül-bəlağə", 2-ci cild, səh. 77.

[5] "Tarixül-üməmи vəl-müluk"," 5-ci cild, səh. 173, Bulaq çapı.

[6] "Şərhi Həhcül-bəlağə", Иbn Əbil-Hədid, 4-cü cild, səh. 58.

Əmirəl-möminin Əli (ə)-ın Müaviyəyə olan məktubunda belə yazılmışdir: “ Sənin köməyin Osmana lazım olan zaman ona kömək etmədin. Onun adı sənin işlərinin qabağa getməsi üçün lazım olduqda isə, “vay Osman” deyə səsini ucaltdın”[1]

Müaviyə, Osmanın diriliyindənsə ölümündən yaxşı bəhrələndiyini və Osmanın damarlarında axan qandansa, yerə tökülən qanından güc aldığını bildikdə , onun ölümünə zəmin hazırladı. Ona kömək etməyə qadir olduğu və onun ölümünün qabağını ala bildiyi bir halda, onu hadisələrin caynağında tək qoydu.[2] Osman həyatına davam edib Bəni Üməyyənin yaşamasına hər nə qədər səy göstərsəydi belə, Bəni-Üməyyənin çünkü siyasi həyatı çox çətin ki, davam edə biləydi. Amma əgər olduğu vəziyyətdə öldürülsəydi ümmətin ikitirəliliyi və siyasi bəhrələnmək üçün yxşı zəmin yaranardı.

[1] “Nəhcül-bəlağə”, 33-ci xütbə.

[2] “Tarixi-Иslam”, Şəhid Mütəhərrinin əsərlərindən, 2-ci cild, səh. 221.